*Vətəndaşlar! Üç rəngli istiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən, orada hər türlü qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpan azadlıq ayrısı sizlərə çoxdan salamlar göndərir.*

***M.Ə.Rəsulzadə***

# Azərbaycan Mərkəzli Türkçü Düşüncə

**Eldar Qaradağlı**

# Azerbaycan Merkezli Türkçü Düşünce

**Eldar QARADAĞLI**

**Elmi Redaktör: Ali URMAN ve Araz ATA**

**Düzen ve Dizayner: Ali URMAN**

**Yardımcı Dizayner: Araz ATA**

**Güney Azerbaycan Qurtuluş Partiyası (GAQP)**

**Araştırma ve Yayım Bölümü- Sayı: 2**

**Maliyeleşdirenler (Spansörler):**

- **ARBETARNAS BILDNINGSFÖRBUND**
- **AZERBAYCAN FEDERASİYASI-İSVEÇ**

# İÇERİK

Redaktordan ... 8
ÖNSÖZ ... 9
Bir neçə söz: ... 16
Artı bir neçə söz: ... 23
Giriş: ... 24
Sosial düzənək(sistem) ... 29
1.Bölüm ... 31
Azərbaycan Türklüyünün soykökü ... 31
Tarixsəl bəlgələrə görə Türk- fars ilişgilərinin başlanqıc nöqtəsi ... 31
İki ayrı yaşam sürəcindən formalaşan iki ayrı kültür biçimi! ... 39
İki aparıcı milli kimlik sentezinden doğan barışmaz qalib-məğlub ilişgilər! ... 42
2. Bölüm ... 51
Azərbaycan Türklüyünün ulusal kimlik biçimi ... 51
Azərbaycan Türklüyündə tarix anlayışı ... 51
Azərbaycanın tarixsəl yeri və yönü. ... 52
Azərbaycanda Türk millətinin gəlişməsi! ... 58
Dil amilinin Azərbaycan Türklüyü üzərində fəlsəfi etgisi ... 60
Azərbaycanda Türk millətinin gəlişməsində Türk dilinin rolu ... 62
Azərbaycanda Türk milletinin mərkəzləşməsində dövlətçiliyin önəmi! ... 64
Azərbaycan varlığının biçimlənməsində, ulusal Türk kültür kimliyinin rolu .. 67
Azərbaycan varlığının biçimlənməsində ulusal dilin rolu ... 74
Azərbaycan varlığının biçimlənməsində ulusal tarixin rolu ... 77

Azərbaycan varlığının biçimlənməsində ulusal kültürün rolu .......................... 83
Azərbaycan varlığının biçimlənməsində ulusal dövlət.................................... 91
Azərbaycan varlığının biçimlənməsində ulusal ordunun rolu. ......................... 96
3. BÖLÜM.......................................................................................... 103
Azərbaycan Türklüyünün sosial-siyasal axışında liderlik faktoru! .................... 103
Liderlik və lider ............................................................................... 103
Ulusal liderlik ................................................................................. 109
Liderlik Çeşidləri:............................................................................. 111
Yarım Avtokratik liderlik ..................................................................... 113
Güney Azərbaycan Milli Hərəkatı və Liderlik ............................................. 116
Oyanış olmadan liderlik olarmı? ............................................................ 120
Direniş, Dirçəliş, Liderlik ................................................................... 121
4. BÖLÜM.......................................................................................... 125
DÜŞÜNCƏDƏ BÜTÖVLƏŞMƏ, ULUS-DÖVLƏTÇİLİYİN TƏMƏLİDİR!. 125
Düşüncədə, millətdə, vətəndə, dövlətdə bütövləşmə!, .................................. 125
Millətdə bütövləşmə. .......................................................................... 139
Dövlətdə Bütövləşmə. ....................................................................... 1444
Dövlət və İnsan ................................................................................ 151
5. BÖLÜM.......................................................................................... 157
AZƏRBAYCAN ULUS-DÖVLƏTİNİN İLKƏLƏRİNİ YÖNLƏNDİRƏN TƏMƏLLƏR ! ........................................................................... 157
1- Azərbaycan ilk toplum yüksəlişinin beşiyidir. ........................................ 157
2- Azərbaycan Ural-Altay, Xəzər və Urmu kültür özəlliğini daşıyan, Türk varlığının qopulmazıdır. ......................................................................... 159
3- Azərbaycan Türk millətidir. ................................................................ 160
4- "Böyük Azərbaycan Yaylası" bitişik, bütöv Azərbaycan ölkəsidir…………… 163
5- Gülüstan-Türkmənçay anlaşmaları, Rusiya-Azərbaycan savaşlarının sonucudur və 1925-də qurulan farsçı İran dövlətinə heç dəxli yoxdur! ........ 165
6- Azərbaycan işğal olunmuş ölkədir. ........................................................ 170

7- Azərbaycan Türk Milləti, bütöv və bölünməzdır. ..................................... 171

8- Azərbaycan Respoblikası termini milli-siyasi baxımdan böyük yanlışlıqdır. Özgür dövlətimizə ən doğru ad seçənəyi "Quzey Azərbaycan (Türk) Respobliki"dir. ........................................................................................... 174

6. BÖLÜM.......................................................................................................... 177

Azərbaycan davasında Türk ülküsünün vaz keçirilməz rolu!............................ 177

Ülkü düşüncə axarımız nədir? ........................................................................ 181

Ülküçü kimdir?................................................................................................ 184

Güneydə ən ilk millətçi, qurtuluşçu, ülküçü örgütlər ................................. 1877

Müstəqillik................................................................................................. 1899

Millətçilik(Türkçülük)............................................................................ 19090

Dövlətçilik ............................................................................................... 19090

7. BÖLÜM.......................................................................................................... 191

Çağdaş Azərbaycanda, Elçibəyçi düşüncə sistemindən örnəklər....................... 191

Ulus ürəyinə iz salan Elçibəy. ......................................................................... 193

Türk gəncliyinə müraciət.............................................................................. 203

Azərbaycan gəncliyinə müraciət .................................................................. 204

8. BÖLÜM.......................................................................................................... 205

Rus dövlətçiliyinin dirçəlişi, Türk dövlətlərinin çöküşü!.................................. 205

ilişgilər, bağlantılar, erməni faktoru və sonuc: ............................................... 205

1768-1829 illər arası, Rus dövlətçiliyinin ayaqlanması ............................ 205

1918 –ci il Osmanlı dövlətinin çöküşü, Türkiyənin işğalı......................... 214

Serv Anlaşmasından sonra: ...................................................................... 214

1920-ci il, Azərbaycan Demokratik dövlətinin çöküşü və ölkənin işğalı... 218

9. BÖLÜM.......................................................................................................... 223

İran mərkəzli farsçı düşüncə sisteminin dirçəlməsində Gülüstan və Türkməncay anlaşmalarının rolu ............................................................................................ 223

10. BÖLÜM........................................................................................................ 229

Güney Azərbaycanda dövlətçilik mücadiləsi və Azərbaycan Demokrat Firqəsi 229

Azərbaycan Demokrat Firqəsinin(ADF) sarsılmasında ............................. 229
Milli ideyal boşluğunun rolu ................................................................... 229
ADF-də düşüncə qarmaşalığının nədənləri *(qıssa baxış)* ............................. 235
ADF-nin qıssa ömründə dəyişik stratejilərin meydana gəlməsi ................ 243
11. BÖLÜM ................................................................................................. 255
Əxlaq və hüquq baxımdan Azərbaycan ........................................................... 255
Azərbaycan, Əxlaq anlayışında ................................................................ 255
Azərbaycan, hüquq anlayışında ................................................................ 262
Azərbaycan Davasında Əxlaqsal və Hüquqsal dirənişin irəli sürdüyü özgür inanc! ............................................................................................. 264
Azərbaycan Türklüyündə canlı əxlaq qaynaqları. ...................................... 268
Azərbaycanda əxlaq təməllərini etgiləndirən üç aydınlıq hərəkatı ................ 271
Boyunduruq altında əzilən ulusal əxlağın qurtuluş yolu: ............................. 282
Bu bölümlə bağlı ardı bir neçə söz: ........................................................... 285
Milli-siyasi hərəkatda əxlaq ........................................................................ 291
12. BÖLÜM ................................................................................................. 293
Azərbaycan Milli Hərəkatı qarşısında millətüstü və millətaltı əngəllər. ............ 293
Millətüstü və Millətaltı anlamları nə deməkdir? ........................................... 293
Federalçı sistem və qaçırılmaz ulusal savaş. ................................................. 300
13. BÖLÜM ................................................................................................ 3055
Azərbaycan Milli Dövlətçiliyi qarşısında ........................................................ 305
İran Federal Dövlətçiliyi .............................................................................. 305
Federal şüari verənlər ................................................................................. 308
A. İran Mərkəzli farsçı oluşumun alt yapıtları: ........................................ 308
B. İran Mərkəzli Azərbaycanlı qrupun alt yapıtları ................................... 309
A.2: Səltənətçi kəsim “panfarsist opozisiyonu, Paniranist partiya, Kavian qurupu,...” ........................................................................................... 313
A.3: Klasik İran tipli liberal kəsim “İran Milli Cəbhəsi, Azadlıq Nehzəti, Millət partısı, İran partısı,...” ............................................................... 315

A.4: Oportonis solçu kəsim “Tudə partiyası, Fədayi Əksəriyyət qurupu, Rahe Kargər (İşçi yolu)...” ..................................................................... 317

A.5: Özlərini İran-İslam tipli Sosial-demokrat kəsim kimi sunmağa çalışan “Xalq Mücahidləri, Respoblikaçılar,...” .................................................. 321

A.6: Rakidal solçu kəsim “Fədayi Əqəliyyət qurupu, Kommunistlər,...” .. 323

İran Mərkəzli Azərbaycanlı qrupun alt yapıtları .......................................... 323

B.2: Milli Müarifçi Türkçü kəsim “Dilmanc dərgisi,...” ........................... 325

B.3: İki Standardlı Az.milli kəsim “ Şəms Təbriz qurupu, Günəş Partiyası...”326

B.4: Federalçı Sol kəsim “ ADF-çilər, Azərbaycan Federal Demokrat Hərəkatı, Federal İran Konqresi, Azərbaycan Sosialist və Kommunistləri,...”328

Etnik Federalizm və İranlılıq........................................................................ 330

14. BÖLÜM. Sonuc......................................................................................... 335

Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sisteminin baxış açısı, ........................ 335

öznəl və nəsnəl faktlar .................................................................................. 335

Sultan Məsud zamanında parlayan Azərbaycan və Mosul Atabəylikləri....... 374

YAZIN VƏ İLGİLİ QAYNAQLAR …………………………….……….. 389

## Redaktordan

*Əlinizdəki kitabda, yazıçı, vətənimizin bu günkü durumu və qurtuluşu uğrunda, öz ürək döyüntülərini oxucularla paylaşarkən, ulus dövlətləşmə yolunda Azərbaycan mərkəzli Türkçu düşüncə sisteminin önəmini açıxlayır. Azərbaycanın ülküçü gənclərinin yolunu aydınlaşdıran bu kitabda, önəmli və çeşidli tarixi olaylardan söz açarkən, yazıçı, bu düçüncə sisteminin tək doğru yol olduğunu vurğulayır.Eyni halda, kitab Azərbaycanın çox eski zamanlardan bəri Türklərin yaşadığı bir bölgə olduğunu tarixi sənədlərə dayanaraq isbatlamaya çalışır və şovinistlərin bizə yazdıqları yalançı iddiaları rədd edir.*

*Bu qonularda qaynaq kitabların çox az olduğuna görə, kitabı bütün Azərbaycan gəncliyinə bir əlkitabı kimi faydalı görür və oxunmasını tövsiyə edirəm.Yazarın düşündüyünə görə, Azerbaycan bugünkü ədəbi dili, bütöv Azərbaycan, özəlliklə Güney üçün yetərli və uyğun dəyildir. Bu üzdən kitab ortaq Türkcə şəkilində hazırlanıbdır. Doğrudan da, "tədbir", "təşkil etmək", "nəzarət-təftiş" və bu kimi sözlərin ərəb dilində başqa mə`nası var və Güneyli soydaşların qulağına yatmaz.*

*Nə yazıq ki, Güneydə milli hökümətin yoxluğu, Quzey də isə, bu qonuya dəyər verilməməsi üçün, 50 milyonluq bir Türk millətə yaraşan ədəbi dilimiz yoxdur. Yazıçının bu eyləmə başlanqıç olaraq əl vurmasını doğru və faydalı görürəm. Olsun ki, dilçi alimlərimiz bu yolda çalışıb ve dilimizin xalqımıza yaraşan ədəbi formasının yenidən qurmasına qeyrət edərlər.*

*Ə. Urman*

# ÖNSÖZ

M.Ərğəvan

Sözsüz ki, Azərbaycanın parçalanmış yazğısı[1], hər bir Türkün və Türk dünyasının sağalmaz yarasıdır. Ancaq çox ümid vericidir ki, yeni quşaq[2] bu dərdin çözüm yollarını bulmaqdadır. Türk gəncliyi basqı altında qalmış zamanlarda belə, öz kimliyi, mənliyi və gələcəyi uğrunda savaş aparmış, özünə dönüşü və çağdaşlaşmanı ön görmüş və görməkdədir. Türk gəncliyi bunu bilmişdir ki, amacsız bir insanın və ya bir ulusun sonu geriçilik, durğunluq və manqurdluq biçimində ölümə sarı yuvarlanmaqdır. Başqa deyimlə, ulusal dirəniş arxasında ulusal varlıq, ulusal bilim, ulusal ayınsallıq və ulusal gələnəkçilik dayanmasa, demək ki, ulusal savaş başlamamışdır. Yeni quşağın ortaya qoyduğu dirəniş fəlsəfəsinə görə bu ulusal[3] savaşın başlanışı yaşamın bütün alanlarında görünməkdədir. Təbi ki, belə sürəcin kökündə ulusal yazın[4] ilə çağdaş fəlsəfənin və yeni teknolojinin danılmaz rolu vardır. Bu baxımdan gəncliyimizin Fars faşizminə qarşı düzənli, sarsılmaz və özəl[5] ulusal savaşında "Azərbaycan Mərkəzli Türkçü Düşüncə"nin danılmaz önəmi vardır. Yeri gəlmişkən, bir çox Türk tarixçi və siyasətçinin ulusal duyarsızlığı üzündən, Türk insanına

---

[1] talei
[2] nəsil
[3] milli
[4] ədəbiyyat
[5] xüsusi

vurulan ölümcül darbələrə işarə etmədən keçmək olmaz. Çünki, həmin darbələr[6] sonucunda keçmiş və keçməkdə olan nəsilimiz, hələ də zamanla birgə qoşmaqda və yeni dünya düzəninə girməkdə çətinlik çəkməkdədir! Buna görə, yeni Türk quşağının çıxış yoluyla əski kuşağın arasında bəlli fərqliklər görünməkdədir. Bir anlamlı olaraq geri quşaq, çeşidli ideolojilər içində ulusallaşmaq yolunu itirmişdir. Bildiyiz kimi Türklər bir çox imprator və ölkələr qursa da ulusal siyasi ideoloji önə sürməmişlər. Bu sürəcin isə, doğal sonucu olaraq quşaq-quşaq günümüzə dayanan siyasi gələnəyimizdə Türkçülük boşlığı yaranmışdır. Elə buna görə də, ən azından tanıq olduğumuz 20-ci yüzildə, bir çox yabancı yemi olmuş, düşünür və aydınlarımızın yazılarında özgəlik ideolojisini çılpaqcasına görürük. Daha da acısı, hələ də, belə özgəliklərin bütöv Azərbaycanda və Türk dünyasında qabarıqca yürüməsidir. Danılmaz gərçək bu ki, yüz illər boyunca özgə ideolojisilə zəhərlənmiş Türk insanı, özünü unudaraq başqa xalqların qurtuluşu uğrunda yaşamını itirmişdir. Türk insanı öz ölkəsinə və çağdaş bilimsəl[7] görüşlərə ögeyləşmişdir. Belə bir ideoloji sürəcində yurd, kimlik, yenilik, keçmiş, indilik və gələcəyini yalnız allahına tapşırmışdır. Elə ona görə də, indiki acınacaqlı durumda dərin bir boşluq yaranmışdır. Nədir bu boşluq? Belə bir boşluğu necə aradan qaldırmaq olar? Əyər belə bir boşluğu doldurmasaq gələcək quşağı hansı zorluqlar gözləyir?

Bu sorğuları yanıtlamaq üçün "Azərbaycan Mərkəzli Türkcü Düşüncə Sistemi" biliminə yaraqlanmalıyıq[8]. "Azərbaycan Mərkəzli Türkcü Düşüncə Sistemi"nə söykənmək gələciyin aydınlıq

---

[6] zərbə
[7] elmi
[8] silahlanmalıyıq

bəlgəsidir. Bildiyimiz kimi 1200-yüz ildən artıq İran adlanan ölkədə Türk hakimiyyəti olmuşdur. Ancaq, bilərəkdən vəya bilmiyərəkdən Fars-ərəb görüşündə siyasət yürüdülmüşdür. Sonunda isə, Pəhləvi sülaləsinin hakimiyətə gətirilməsilə Türklərin kökdən silinib-süpürülməsi Farsçı dövlətin təməl çabası olmuşdur. Sözsüz ki, İslam devrimindən[9] başlayaraq milli əritmə siyasəti daha da yeni boyutlar almışdır. Qoşa qol[10] olaraq otuz il içində Güney Azərbaycanın və iran adlanan yerdə səpələnmiş Türklərin bütün varlıqlarına əl uzanmışdır. Fars faşizmi bütün gücü ilə Türk ulusunu yox etməyə qalxmışgır. Təbiki, Fars façizminə güc verən başlıca amil isə, içimizdə olan ulusal düşüncə boşluğu idi. Farsçı rejim, göz önündə olan saysız-sınırsız[11] ulusal varlığımıza təcavüz edərkən, haradan və nədən belə əlsiz-ayaqsız qaldığımızın fərqinə varmamışdıq. Çünki, ideoloji köləsi olmuşduq! Çünki, Azərbaycan mərkəzli Türkçü düşüncəsilə beyinimizi gəlişdirməmişdik. Sevetlər birliyinin dağılmasıyla Türk Dünyasına yeni bir havanın gəlməsinə tanıq oluruq. Dünyada və bölgədə əsən yeni küləkin bir anda Azərbaycana da yansıması, sankı vətənimiz üçün yeni doğuş olmuşdur. Gənc quşaq, xızla rus-Fars düşüncə çənbərndən uzaqlaşaraq bağımsızlaşmağa sarı yönəlmişdir. Quzeydən başlayan Elçibəyçi düşüncə axımının Güneydə daha geniş boyutlara varmasıyla[12] iran mərkəzcilik ruhunun Azərbaycanda get-gedə yoxa çıxması görünürdü. Azərbaycanın ana-balalığında bəslənmiş Türklük varlığı gənclik içində güvəncə qaynağına çevrilirdi. Düşüncə mərkəzinin Türklük yöntəm almasıyla Fars rasizminə qarşı olan dirəniş güçü də, sistemləşirdi. Dr. Zehtabi kimi ulusçu siyasətçinin bilimsəl devriminin bu yeni düşüncə

[9] inqilabından
[10] yanaşı
[11] vüsətli, geniş
[12] qatlara çatmasıyla

axımında olan özül etgisini[13] deməyən keçmək olmaz. Güneydə böyük alanda düşüncə sıçrayışına nədən olan bu ulu şəhidimizin rolu o qədər böyükdür ki, hər hansı düşüncə sistemindən danışarkən Zehtabi adını unutmaq mümkün deyildir.

Bu gün, sevinərək bir çox bilim adamlarımızın öz kimlikləri üzərində dayanmasına tanıq oluruq. Bu soydaşlar, bütün gücləri ilə yeni quşağa doğru, özgür və bağımsız yöntəm axtarmağa çalışarkən, qarşılıqlı olaraq gənclik ruhuna varmaq yönündə böyük addımlar atırlar. Bu sevimli qələmdaş milli-siyasi və biliginlərin ortada olan düşüncə boşluğa son qoyma çabaları yalnız indiki deyil, gələcək quşaqlarımız üçün ölməz qaynaqlar olacaqdır. Yəqin ki, onlardan birisi də sayın Eldar Qaradağlı,dır ki, oxuyacağız kitab üçün illərini qoymuşdur. Onun uzun sürəli çalışmaları sonucunda, "İran Mərkəzli Farsçı Düşüncə Sistimi"nə qarşı, "Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sistemi" özünə özəl yöntəmi[14] və yeniliyilə ortaya qoyulmuşdur. Gerçək anlamda desəm, yazar bu əsərilə devrim quşağıla yeni gənclik arasında olan boşluğu üsyan edərək "Bir Vətən, bir qurtuluş yolu və bir səngər" anlayışını sərgiməyə çalışıbdır. Sözsüz ki, bu deyim, başqa bilim, siyasət və düşüncə adamlarının iş görməməsinin anlamına gəlməz. Ulusumuzu düşüncə mikanizminə çevirməkdən ötrü yüzlərcə və minlərcə aydınların görəcək işləri vardır. Çünki, qarşımızda duran düşüncə yetərsizliyi dev bir əngəl[15] kimi ulusal dirçəlişin önünü kəsmişdir.

[13] xüsusi təsiri
[14] tərz, şivə
[15] mane

**Bu yetərsizlik nədir!?**

O, budur ki, biz Türklər hər hansı bir ideolojidən uzaqlaşaraq öz varlığımıza sarılmalıyıq. Bu zaman hər bir ideolojiyə inansaq belə, ona qul deyil, onu qulluğa almağı bacaracayıq. Toplum içindəki boşluğun dolması burdan başlanır. Məhz belə başlanışla, özgə ulusların ortaya atdığı düşüncələrin köləliyindən yaxa qurtarıb, öz kimliyimizə dayanaraq gəlişmiş ulusal düşüncə ölçülərilə paylaşabilərik.

Sözsüz ki, Ə. Elçibəyin çağdaş və demokratik Türkçülük uğrunda savaşının gəncliyimiz oyanıq olmasında danılmaz rolu vardır. Onun, Bütöv Azərbaycanda və Türk Dünyasında buraxdığı düşüncə izlərinin hər gün geçdikcə daha da parlamasına tanıqlıq edirik. Elçibəy oxulunun öyrəncisi, sayın Eldar Qaradağlı yeni yazdığı kitabıyla eyitimçi [16] bir kadro olduğunu qanıtlamışdır. Yaxından tanıq olduğum ağır qoşullarda[17] yazılan, /"Ulus dövlətləşmə yolunda "Azərbaycan Mərkəzlı Türkçü Düşüncə Sistemi" adlı kitab, quşqusuz [18] , zamanın gərəkliliyindən yoğrulmuşdur. Başqa anlamla desək, bu kitab, yuxarıda sadaladığım boşluqları doldurmaq uğrunda çox dəyərli əsərdir. Bu əsər geniş anlamlı və bilmsəl baxımdan özünə özəl qonuları ortaya qoyur. PanFarsizmə qarşı necə düşüncə qalasına çevrilmənin yollarına çıraq tutur. Kitab, Azərbaycan Türklüyünün soy kökü qonusuyla [19] başlayır, Türk-Fars ilişgilərinin [20] başlanqıc durasından (nöqtə) söz açır və iki ayrı yaşam sürəcindən yoğrulan iki ayrı yaşamsal biçimin qaib-məğlub

[16] tərbiyəçi
[17] şərtlərdə
[18] sözsüz,şübhəsiz
[19] mövzüsüyla
[20] münasibətlərinin

qaçırılmazlığına aydınlıq gətirir. Maraqlı burasındadır ki, açıqlamalarda kimsəni yamsılamayır. Öz düşündüyünü ürək ilə oxucuların ulusal inancına yaraqlandırır . Bu, o deməkdir ki, kitab, sıcaq masalar arxasında yazılmamışdır. Bəlkə savaş səngərində qələmə alınaraq bir çox yazıçılara da örnək olmuşdur. Kitabın başqa yeniliyi burasındadır ki, "bu alim belə dedi, o alim öylə dedi kimi" imgə sərgisi çox az gözə dəyir. Yazar, öz üslubu ilə Azərbaycan Türklüyünün yenilgisilə zəfərini bir araya toplamış və gərəkən sonuc almağa çalışmışdır. "Ulus dövlətləşmə yolunda Azərbaycan Mərkəzlı Türkçü Düşüncə Sistiminin önəmi" kitabın yeniş-yoxuşlu seyrində Azərbaycan Türklüyünə yön verən bütün özül təməllərə rastlaşmaq mümkündür. Kitab, vətən tarixinin dərinliklərinə dayanaraq "Azərbaycan Türk Milləti"nin gündəmində olan ulusal qurtuluş savaşının yollarına işıqlıq gətirməyə çalışır. Yazar, bu yol, özgürlük [21] yoludur deyə, Bütöv Azərbaycan ideyasının gərəkliliyini vurğulayır. Hərəkatımız, Pan Farsizm ilə üz-üzə durubdur. Çəkinmədən kimlik yarağına sarınmalıyıq. Ölüm ilə qalım səngərlərindən geriyə dönüş yasaqdır deyə, ulusumuzu yürüş alanına çağırır Yazarımız!

Son olaraq deməliyəm ki, Ortada belə bir qurur, belə bir dirəniş varsa, demək zamandan doğulmuş öz-bə-öz bir qurtuluş platformu doğmaqdadır. Çünki kökü olmayan bir doğuş etgisizdir. Bu günə kimi pan irançı səngərdə kölə olmuş bir çox bilginlərimiz üçün örnək olacaq bu kitabın geniş alanda oxunmasını ümid edirəm. Elə hesab edirəm ki, "Ulus dövlətləşmə yolunda Azərbaycan Mərkəzli Türkçü Düşümcə Sistemi" kitabı, özünə özəl milli-siyasi üslobu və yığcamlığı ilə bir milli ideolojik qaynaq kimi Türkçü, ulusçu, hərəkətçi və bozqurd qurtuluşçu

---

[21] azadlıq

gəncliyimizin masaüstü kitabına çevriləcək və bir çox əleştiri[22] və alqış[23] qonusu olacaqdır.

**M . Ərğəvan**

**Almanıya Berlin**

**05-12-2010**

[22] nəqd, tənqid
[23] təşviq, təbrik

## Bir neçə söz

*"Gərçəyi bilə-bilə inkar etməyin ən doğal sonucu,*
*əxlaq çöküşüdür!"*
(Paskal/Pascal/ ,1623-1662)

*"MƏN"* qavramı,[24] atalarımızdan aldığımız ən böyük əxlaq payı olmuşdur desəm, doğal olaraq geniş etiraz alanına tuş gəlmiyəcəyimə inanıram. Bir çoxları, mənim atalar haqqına saygılı olduğumu gələnəksəl[25] bir sayağı kimi alğılayacaq[26], dərin sürtüşmədən yanından geçərək "köhnə hamam, köhnə tas" hikayəsini təkrar edəcəklər. Belə bir halda hər hansı təhlükəyə tuş gəlmədən sıralanmış yaşamıma dəvam edəcəyəm. Burayadək hər şey yerindədir. Nə demişlər!? *"Mən razı, sən razı, nə gərəkir qazi!"* diyərək göyə-yerə sığmayacağam. Doğrusu hamı belə düşünməyəcəkdir. Başqa kəsim də olacaq və diyəcək ki, "Bu sözlərdən qan qoxusu gəlir. Nəyimə gərəkir bu gəvəzəlik. "*Qoyun bəradərvari zindegi eliyax*!"(təbriz deyimi) diyərək yazarı da, Qacarı da, yeddi qohum-quşağını da bir-birinə qataraq yaman günə salacaqdır! Sözsüz ki, bu halda yazarın da səssizlik içində boğulma olayı gərçəklik qazanmağa başlayacaqdır. Çünki, cəhalətə uğramış qələmin ağlayacaq cövhəri yazarın ömründən daha ərkən qurumağa məhküm olacaqdır.

Ancaq, bu iki tipdən başqa, hələlik azlıqda olan bir etgin kəsim də vardır. Bu kəsim, yazarın düşüncəsini aramağa başlarkən, hər şeydən öncə -*"Bu yazar hansı MƏN-dən söz açır!?"* sorğusuyla ilgilənəcəkdir. Bu durumda yazarın qarşısında *"Sən razı olsan da, mən razı deyiləm"* kimi böyük ələşdiri meydanı açılacaqdır. Daha bundan öncə ələştiri yerinə sürəkli yalan alğışlara alışmış olan yazarın başı şişməyə başlayacaqdır. Elə

---

[24] kiməm anlayışı
[25] adət və ənənə
[26] qəbul edəcək, mənilləndirəcək

bu isə, dəyişik bir inadın, inancın və alışqanlığın yeni moral və əxlaq çeşidinin ilkin izləri olaraq görünəcəkdir. Bu isə, kəsinliklə yazarın yox olması deyil, tərsinə gərçək var olmasına yol açacaqdır. Çünki, yazar: *"Mən düşünürəm, bu üzdən insanam. İnsanamsa, kəsinliklə somut*[27] *düşüncənin necəliyini düşünməliyəm!"* söyləmilə yeni ruh və can varlığına yiyələnəcəkdir. Və: *"Mən ələşdiri alıram, deməmk mən varam və sayılıram!" Mən, somut Mən,imin vaz keçirilməz bir ünsürüyəm! Ancaq, bunu bilməliyəm ki, mənim yerim bu somutun harasındadır?*

Dəyərli oxucu! Qarşınızda olan bu çalışmanın təməl amacı az da olsa bu sorğuya yanıt bulmaqdır. Belə düşünürəm ki, anlımda yazılan iki çizginin unudulması böyük qəbahətdir. Birincisi *Əxlaq*, ikincisi isə, *Əxlaqsızlıq*! Birincisi ərəbcə yazılmış kəlamullah, ikincisi əcnəbicə yazılmış ilki və sonu oxunmaz sınırsız bir suçdur. Üçüncü bir tanış kölgə də varsa, çox gözə gəlmədiyi üçün sıraya girə bilməyir. Belə anlarda anlımda yazılan Əxlaq ayəsi, məni saldırqanlıqdan, qonşumun, tacizə uğramış anamın varlığıyla bəzənmiş güllü-çiçəkli bağına, çılpaq sonalı gölünə boylanmaqdan uzaqlaşdırır. Nə də olsa, bunun adı əxlaq! Sadəcə səcdə qılıb tanrımın qarşısında qulluq diləmək, alışdığım əxalq qoxusuna bağlı qalmaq mənim üçün yetərlidir. Gözüm dərviş, özüm dərviş olunca, sözsüz ki, kimlik tanrım da dərviş olacaq və "*Tanrım*" məni sevəcəkdir. Belə olarsa, torpaq yastığım, göy isə, yorğanımdır. Sınırsız yasdığım da, yorğanım da mənə yetər! İkincisi isə, çəpərimi[28] sökməyə, çılğın-çılğın oynaşmağa, qonşumun bəzəyinə qısqanc olmağa, onun yaşamına həsəd qılmağa sövq edəcək *Məni*. Bilirəm ki, belə olarsam, *Tanrımın*, Ağamın cabbar baxışlarıyla qarşı-qarşıya qalacağam. Çünki, birincisi nəqədər kibar və sevimlidirsə, ikincisi kibarsızlıq və çılğınlıqdır. Birincisi səvab, ikincisi isə suçdur. Bilirəm ki, ağaların istəyinə görə, sevimli əxlaq sahibi olmalıyam. Tanrılarım, məni, başı aşağı, utanqac və yaxşı qul görmək istəyirlər. Amma nədənsə, içdən uzanan bir çılğınlığın üsyanı məni tanrılarıma qarşı bir əxlaqsızlıq *Mənliyə* itəlir. Qoxusuna alışmadığım bu devrimçilik məni heç rahat buraxmayır. O, kimdirsə, nədirsə, məni mışıl-mışıl yatmış məndən qopararaq xoş alovlu cəhənnəmə, çılğın sonalı

[27] konkret
[28] çətirnin

dünyalara, çilçirağlı boyalara aparır. Mən cəhənnəmin günahına cumarkən, cənnətin əxlağından aralanıram, Tanrım isə bütün verdiyi səvabları geri çevirir. Mən şu anda, suçla, səvab arasında əl-ayaq çalıram. Gözüm ikidən başqa heç nəyi görməyir. Suç və səvab, Tanrıma qarşı əxlaq, yoxsa, əxlağıma qarşı Tanrım!

Yavaş-yavaş belə düşüncəyə gəlirəm ki, olmaya ataların bizə qoyduğu əxlaq payı,"bizdən yerlər" tərəfindən oğurlanmışdır! Çünki, ruhumuzu oxşamır bu irsiyyə! Çünki, dilimizin Türküsünü, ürəyimizin səsini, anamızın laylasını, dərəmizin şəlaləsini, dağımızın gurultusunu, gölümüzün sonasını, danımızın sökülüşünü, duyurmur bu əxlaq irsiyyəmiz! İkincisinə gəlincə - əxlaqsızlığa(!)– bunu da tam anlaya bilmirəm. Buna da alışqan deyiləm. Bu da məndən uzaq dursun deyirəm! Çünki, məni əxlaq adına bağlayan ata irsimdəki qaranlıq dünyada, dəlilik hökmünə izin verilmir. Qorxunun sınırını geçmədən dəlilik anlamı qamətimə yerləşmir. Bu isə, mənim yeni qorxumdur. Nədənsə, bu qorxunu özümdən atabilmirəm hələlik! Ancaq, bu dalandan çıxmağın gərəkli olduğunu artıq başa düşmüşəm. Elə buna görə, öncə iradəmə tabe olmalı, ardınca əxlaqla-əxlaqsızlıq antinomisindən [29] sirilərək bu davanı qazanmalıyam. Mən, öncə bütün qaranlıq dalanların öznəl[30] və nəsnəl[31] dünyasını dağıtmalıyam. Mən, *Mən* olarsam, bütün olumsuzlar var oluşa çevriləbilər düşüncəsinə yetişməliyəm. Biri ərəbcə, başqası isə əcəmcə qarşımı kəsən toz-dumanların yox olmasıyla, əlbətdə ki, gözümün pərdəsini kor edən ünsürlərin aradan qalxması mümkün olacaq. O, özləşərək içimdəki *Məni* içinə çəkəcəkdir. Bu görüntünün oxşarlığı, güllü-çiçəkli doğası, inci biləkli qurşağı, *Qaracıq Çobanın*[32] tutəyində canlanan Türküsü məni elə öz içinə alacaqdır ki, tanrımı da, özümü də özü ilə birləşdirəcəkdir. Mənə elə gəlir ki, ataların itmiş, çalınmış payı bu işığın içində gizlidir. Bu payı əldə etmək gərəyindəyik. O, bizim paydır, bizim ruhdur, bizim varlıqdır, mənim və Bizim. Əxlaq *Mən*,imizin üzərində, keçmişlə gələcəyin körpüsü salınmalıdır. Körpü, mənliklə, ulusun birləşməsi deməkdir. Varıqsa sa, belə olmalı, yoxuqsa, indimizi də

[29] „Kant" düşüncəsinin dörd özülü / İrəli səhifələrdə açıqlanıbdır.
[30] sübje
[31] obje
[32] Dədəqorqod dəstanlarında bir qəhrəman.

uduzaraq, yoxla, var arasında asılı qalacayıq. Başqa yol yoxdur! Bizi ayaqda saxlayan, Bizi aşağılıq boyunduruğundan[33] qurtaran, Bizə, dünya pəncərəsini açan yalnız və yalnız içimizdəki gizli *Mən,dir. Mən* gəncdir. Tabanı yeni quşaqdır. Bu üzdən yolbayı da gəncdır. Kimdir, necədir. Bunun yalnız bir cəvabı var. Gəncdir bu *Mənliyi* yaşadan.

Mən deyirəm yaşasın Gəncliyimiz! Mən yaşasın gəncmiz deməklə, gənc olmayan kimsəni atəşə tutmuram. Amma sadəcə, Biz, *"Sizə minnətdarıq qocalar, ay qocalar"* sözünü də demirəm. Gəlin, əyri oturub, düz danışaq! Nadir yazarları çıxarsaq yerdə qalan gənc olmayanlar, özlük adlanan Öz -lərinə nə vere bilmişdirlər!? Açıqcası, söz qonusu sözünü bilmək iddiasında olan bilməzlərdir. Yoxsa, gənəl yoxsunluq içində qalan, özlüyünü bilməzlərdən öyrənənin nə suçu var ki! Əsənliklər o gəncliyimizə ki, yaşamağın dadını qazanmaqdadır. Burada, son qazanc deyil, ön qazancdan söz gedir. Yəni, anlam və yaşam mə`nasını yaxalamaq! Başqa sözlə, ən ilkin qazanc qazanmaq yolunu tapmaqdırsa, ulusumuzun gənci bu yolda ayaqlanmış durumdadır. Artıq, bütün dadsızlıqlar içində dadlı yaşamı haq etmiş bir gəncliyimiz var. Zindanlarda, sürgünlərdə, basqılarda şovinizmin ölümünə andlı olan gəncliyimiz var artıq! Gənclik, öz anlam və inacıyla yola çıxmaqdadır. Onun tarix baxışı *ÖZ-dür.* Bu üzdən yolun bütün qarşıdlarını öz düşüncə və davranışıyla həll etməyə çalışır. Gəncmiz haqlıdır.

*"Gəncmiz deyir ki: İndi, meydan bizimdir. Əlimiz bom-boş olsa da, qafamızda ÖZ düşüncəmiz var. Kimsələr bu düşüncəni bulamağa qalxmasın! Bu düşüncənin sadəcə bir amacı vardır. O da, öz insanımızın özgürlüyüdür. Ulusumuz, öncə özünün yöntəmini bəlli etmək gücünə yiyələnməlidir! Bu bizə yetər. Milli özgürlük yolunun hər hansı əngəllə kəsilməsinin kəsin sonucu xəyanətdir. Ey internasionalçı yaşlılar, ey ümmətçilik çənbərində ayaqdan düşmüş böyüklər və ey framason ünlülər, Sizinləyik. Siz, göstərin ulusunuza verdiyiniz bir anızı! Və siz göstərin ÖZ,ə görə, yaşadığınız bir anınızı"!*

Demək, günümüzün gənci belə sorğuyla meydana çıxıbsa, yarınımızın aydın olacağına heç şübhə qalmamışdır. Artıq gəncliyimiz

---

[33] qulluğundan

buna inanır ki: ***“Hər gərçəyin ölçüsü, onun güc artımından asılıdır”.(F.Niçe)*** Ona görə, bu gəncliyimizi yalnız və yalnız öz qazandığı çəkilə ölçümək gərəkir. Başqa sözlə, BAŞINDA ULUS ÜLKÜSÜ [34] YAŞADAN GƏNCİ, YALNIZ YAŞATDIĞI DOĞMA KİMLİYİLƏ ÖLÇMƏK MÜMKÜNDÜR!.

Açıqcası, bugünün yolbayı gənclikdir. Şübhəsiz ki, gəncliyin doğru-düzgün dirçəlişi yolunda cəsarətli böyüklərin danılmaz rolu vardır. Ancaq, dediyimiz *cəsarət* olmasa, yol kəsinliklə yalnışlığa gedəcəkdir. *“Yalnış yol gedən qovalanmaz!”* demiş atalar. Amma nədənsə yalnış qafa tutan bəzi böyüklər, hələ də öz düşüncə və tutumlarıyla hesablaşmaq istəmirlər! Onların gənc millətçilərə öz sayaqları ilə öyüd verməsi doğru deyildir. Ona görə doğru deyil ki, ən azı 100-ildən bəri bənzər öyüdlərin ölkəmizə və ulusumuza olumsuzluqdan başqa heç bir yararı toxunmayıbdır. Onlar, özləri də bilmədən əsir düşüncələrinin qorxusunu yaşayırlar. Onlar, böyük çıxarlarının nə qədər ucuz tükəndiyini bilməyirlər. Onların millətimizə dönüşünün bircə yolu vardır. Dönüb geridə buraxdıqların millətimizə mal olmadığını görmək, İran Farslığının dirçəlişində verdikləri taysız, bənzərsiz özverinin nə olduğunu qəbul etmək!

Bu bir acı gərçəkdir ki, yalnız barmaq sayı böyüklərimiz gəncdən öyrənmək düşüncəsi ilə barışırlar. Qalan, qalır öz vayına, öz arına və öz keçmişinə! Bir acı gərçəyi örnək tutalım. Rəhmətli Əli Təbrizli nədən öz yaşıt yazar, düşünür vətəndaşları və hətta yaxınları tərəfindən qamçılanarkən, gənclər sarından sevildi, qorundu? Çünki, özü demişkən: *“ingilisin köhnə framasunları, rusların təzə framasunları, milli masqa altında məzlumlar sırasında, bügün varlıq adı altında darlıq törətməkdədirlər. Və indi bu hilələri və bu ibn-ül-vaxt*[35] *qəhrəmanları göz evinə alaraq baxalım ki, bugünkü nəsil, dünənki nəsilin saymazlığından və duymazlığından nə cürə təcrübələr almalıdır.”* [36]

---

[34] Millət ideyası
[35] fürsətçi
[36] ( Ə.Təbrizli, Dil və ədəbiyyəat, Atropat yayını Tehran, s102.)

Ustad Əli Təbrizlinin şillə kimi bu sözləri, iddialı dostlarının düşüncə ölçüsündən daha geniş idi. Milli iradə aydınlıq iradəsi deməkdir. Aydınlıq iradəsi isə, iç çirkabını, köləlik qorxusunu, özgəlik əxlağını öldürməklə şərtlənir. Ə. Təbrizli və M.T. Zehtabi kimi düşünürlərimiz bunu bacardılar. Onlar, düşmən duzağının ipucunu yiyəsiz qafalarda buldular. Onlar, *"Nə mütlü , Türkəm diyənə!"(*AtaTürk), fəlsəfəsinin öz malları olduğunu bildilər. Bu isə, Fars qardaşlığına, İran xalqları dostluğuna qarşı yaramazlıq hesab olundu! Çünki, belə dostluğun ən ön gərəkimi rus ayısına, Fars dayısına ufanmaqdır. Başqa deyimlə, bu dostluğun başlıca şərti, beyin çalarlarının irançılıq bataqlığında cummasıdır. Zehtabilər, Təbrizlilər Fars faşizminin gözlərinə baxa-baxa *"göy yerə gəlsə də, mən mənəm, sən də sənsən!"* sözünü deyib, millətin ürəyində yaşamağı bacardılar. Onlar, milləti sadə bir toplum kimi deyil, bir sevgi kimi, bir varlığın anlamı kimi, bir sönməz ruh kimi sevdilər. Onlar, bizim yerlərdə olan qutsallığı torpağa və ulusa aşırmağı bacardılar. Milləti özlərinə deyil, özlərini millətə həsr edən bu əbədilərimizin ruhu ulusumuzun beynində yerləşdi. Ulusu sevmək dəlilik istər! Ulusa bağlanmaq qorxmazlıq, cəsarət və yenidən doğma istər! Baxalım bu yenidən doğmanı, milli şəhid M.C. Pişəvəri necə təsvir edir:

*"Mən istəyirdim eşidim, görüm, anlayım və əlac yolu tapım. Mənim məqsədim dəlil, sənəd və illət axtarmaq idi. Həmişə öz papağımı qarşıya qoyub fikirləşir və öz vicdanımla gördüyüm işlər haqqında düşünürdüm. Həqiqətlər acı və xoşa gəlməz idi. Lakin, mən onları görməkdən, tanımaqdan və başa düşməkdən qorxmurdum. Çalışırdım ki, boş fikir, xəyal və təsəvvürləri bir kənara qoyub özümü olduğum kimi tanıyam. Özlüyümü təşxis verəm. Nəticə mənim üçün əsəfləndirici və xoşa gəlməz idi. Mən istər-istəməz etiraf etməliyəm ki, cəmiyyətə yol göstərmək və rəhbərlik etmək iddiasında olan bizlər onu yaxşı tanımamış, onun ehtiyaclarına, istək və arzularına yaxşı bələd olmamışıq."*[37]

Bugün çox düzgün olaraq Gəncmiz ən gərəkənini yapmaqla həm özünü və həm millətini sol, sağ və dinçi ideolojilərdən azad etməyə çalışır. O, uca səslə deyir ki:

---

[37] Pişəvəri. Azərbaycan Qəzeti. 2.ci sayı. "Böyük bəlalardan biri" yazısından.

*“Mən də bir Türk olaraq qorxmaz, tükənməz və ÖZ olmağa çalışıram. Bu üzdən köhnə düşüncələr bataqlığından çıxıb, öncüllük yoluna girmək üçün bütün millət və torpağa zidd olan əngəllərdən uzaq olmalı və özümü necəki varam tanımalı və tanıtmalıyam. Sözsüz ki, bu önəmli başlanğıc hər addımdan öncə məndən milli cəsarət istəyir. Fikirdə və düşüncədə cəsarət yalnız bilim və bilgi axarından əldə edilə bilərsə, milli cəsarətə bunlardan əlavə millət və torpaq sevgisi də gərəkməkdədir. Aydındır ki, ideoloji dayağı olmayan insanların milli cəsarəti də gərəkən ölçüdə ola bilməz. Çünki ideya insanın dayaq təməlinin beyini və yol aracıdır. Bu üzdən ideyasız insanların özünü idarə etmə gücləri də olabilmir. Belə insanlar istər özəl, istərsə toplum olayları qarşısında nə edəcəklərini bilmədiyi üçün bütün köməkçi vasitələrə əl uzadır, çarə yolunun yönünü başqalarında axtarmağa üstünlük verir. Mən Bir MƏN olaraq öncə özümü ideyasızlıqdan qurtarmalı və dünya varlığına bağımsız yanaşmanı öyrənməliyəm. Başqa qurtuluş yolu olmadığına görə, bu mənim üçün tək seçənəkdir. Elə buna görə, başqa yol düşünmədən ÖZ olmaq cəsarətini əldə etməli, gərək düşmən, gərəkirsə öz cəhalətimlə savaşa qalxmağın mütləqliyinə inanmalıyam. İnanmalıyam ki, öncə özümdən başlamalı, özlüyümə kölgə salan bütün özgəliklərdən arınmalıyam. Milləti necə sevmək olar? yolunu öyrənməli və bu yolda sayılı-sayılmaz millətüstü və millətaltı əngəllər çəmbərindən qurtulmağı bacarmalıyam”*

# ARTI BİR NEÇE SÖZ

Vətənimizin tale ilə maraqlanan az sayda olan yaşlı və ortayaşlı uzman tarixçi, araşdırıcı, sosialoq, folkolorçu, dilçi v.b. vətəndaşlarımız içindən barmaq sayını çıxandan sonra, yerdə qalanlar irançılıq düşüncəsi içində elə optimallaşıblar ki, Türk və Azərbaycana qarşı olan panfaşist Fars pərst yazarlar belə, onlara dayanaraq millətimizin haqlı səsini boğmağa qalxırlar. Bu yazar və düşünürlərin biran bu boyunduruqdan qurtulmaları gərəkir. Yoxsa, yaşadıqları sürəcdə millət və torpaq sorunu qarşısında borclu qalacaq, yaşamdan sonra isə, yaxın quşağın belə, xatirəsindən silinəcəklər. Çünki, ölkəmizin gələcəyini öz güclü əllərilə qarantiyə alacaq gənc quşaq hər şeyin hesabını soracaqdır. Fikir və yaşam hafizəsi baxımından M.C. Pişəvəriyə yaxın olan bu düşünürlərdən soruşmaq gərəkir ki: yalnız bir kərə olsa da, Pişəvəri kimi papağınızı qarşınıza alıb düşündünüzmü?

Nə yazıq ki, gənəl alanda bu sorğuya olumlu yanıt yoxdur! Çünki, durum olumlu olsaydı, bu gün gəncliyimizin güvənir ölçüsü daha da yüksəklərə dayanardı. Amma bunlara baxmayaraq, milyonlara bədəl olan Zehtabilər də vardır. Zehtabilər millət yolunda şəhidlik qiymətinə olsa belə, tariximizi önə çıxarıb, gəncliyimizə örnək olur, milli bilincmizin gəlişməsində tarixsəl rol oynayır və millətimizin milli vicdanında əbədi heykələ dönüşür. Qoy, Zehtabilər pan Farsist tarıxçilər tərəfindən azğın panTürkist adlansınlar! Qoy, bilər-bilməz ömür boyu Azərbaycan tarixini Farsçılıq və irançılıq çəmbərində həbs edən bəzi uzman tarixçilərimiz İranın şəhir tarixçisi və ünlü şəhrvəndi (vətəndaşı) adlansınlar. Gələcəyimizin azad və özgür milləti hər şeyin dəyərini özü verəcəkdir.

# GİRİŞ

2004-cü ilin yaz çağında yaşadığım Yötebori[38] şəhərində nadir günəşli bir gündə su qırağı çəmən üstündə oturub, oxul bilgisayarından aldığım yazıları oxuyarkən araşdırıcı yazar sayın Arif Kəskinin bir yazısı dərin marağıma nədən oldu. Bu dəyərli yazıda o günədək görmədiyim yeniliklər üçün çox sevindim. Sayın Arif Kəskinin yazıları dəvam edirdi. Mən isə, bu yazıları diqqətlə incəlir, olumlu-olumsuz yerlərini qeydə alırdım. Bu yazılara dəstək olaraq bir neçə yazı da dəyərli ağsaqqalımız milli xadim Böyük Rəsuloğludan yayılmağa başladı. Yazılarda ruh axsaqlığı gözə çarpırdı. Hər iki yazarın yazılarında olan siyasi vurğu olduqca gözə çarpır və yazıların gündəlik yükümlü[39] olduğunu önə çəkirdi. Məncə, yazılardaki ruhsuzluq bu dəyərli söyləmin[40] kəsir yöntəmi idi. Bu üzdən mən də bu söyləmə qatılaraq silsiləvi yazılar yazdım. Sonralar bu yazılarla bağlı münasibət bildirənlər də oldu. Yazar, araşdırıcı Güntay Gəncalp və İşıq Sönməz cənabları bir-birindən dəyərli baxışlar ortaya qoydular. Bu dəyərli milli mücahidlərin və bir çox ilgilənən[41] dostların etgisində bu kitabın işıq üzü görməsi mümkün oldu. Bu kitaba verdiyi dəyərdən asılı olmayaraq birbaşa vəya dolayı yolla məni irəliyə itəliyən hərkəsə təşəkkür edirəm.

Arif Kəskin bəyin ilk məqaləsində "İran Mərkəzli Düşüncə Sistemi və Azərbaycan Mərkəzli Düşüncə Sistemi" terminləri ilk olaraq ortaya çıxmışdır. Həmin terminlər eynilə Böyük Rəsuloğlu bəyin də yazılarında əsas motiv olaraq görünürdü. Motivin[42] daha çox siyasal təməllər üzərində qoyuluşu mənə qanıq vermirdi. Məncə, startejik görüşlərimizin yalnızca siyasal təməllər üzərində qoyulması böyük yalnışdır. Və bu yalnışlıq acı

---

[38] Gothenburg/Göteborg
[39] ağırlıqlı
[40] dialoq/gofteman
[41] maraqlanan
[42] Motiv: itələyici öznəl vəya nəsnəl/ bir amaca doğru ruhsəl güc.

tariximizin yenidən canlanmasına yardımçı olacaqdır. 100-illik dərin təcrübəmizə dayanaraq bir daha ideolojik düşmənimizin üzərinə yalnızca siyasal yürüməmizin nə qədər təhlükəli olduğunu görməmiz gərəkir. Sözsüz ki, hər motivin öz işlək yeri və anlamı vardır. İşlənilən hər hansı terminin üzərindəki etginliyi min kərə ölçmək gərəkir. Özəlliklə bu terminlər Azərbaycan Milli Hərəkatıyla bağlı olanda daha da incəlik istəyir. Milli hərəkatın içində olub, onun ana fəlsəfəsini və ideolojik özülüyünü aydınca önə çəkməmək məncə böyük xətadır. Azərbaycanın indiki sürəcinin ən gərəkən ön izləmli kimlik dinamikasını Türklük oluşdurmaqdadır. Yalnız, Türkçülük təməli üzərində Azərbaycanın milli kimlik biçimi bəlli olar. Hər hansı bahana üzündən Türk anlayışını araşdırmalardan, milli kimlik savaşından uzaqlaşdırmaqla ağır ziyan verəcəyimizdən əmin ola bilərik. Güney deyil, hətta Quzey dövlətinin belə, Türklüyə dayanmadan rus, Fars və batı kültürünün qarşısında dayanma şansı yoxdur. Türkçülüklə, Azərbaycançılıq hər ikisi də ideolojik kimlik daşıyan qavramlardır. Ancaq, bu iki ideolojik qavramların fəlsəfi mahiyyətinə baxarkən Azərbaycançılığın mütləqa Türkçülük (yəni ana ideoloji) içində olması qaçırılmazdır. Hal buki, onun tərsi mümkün deyildir. Çünki, Türklük yalnız Azərbaycan da deyil, bəlkə bütün Türk ölkələrinə aiddir. Azərbaycanın Türk dışında duyulması və Türklükdən özgür bir varlıq kimi tanıdılması yalnız coğrafik bir anlayış ortaya qoyacaqdır. Bu anlayış ən kiçik ulusal ideolojilər qarşısında (məsələn erməni milli kimliyi) gücsüz, təməlsiz və sarsılar bir ideolojidir. Bu qonuyla bağlı kitabın başqa bölümlərində daha ətraflı yazılıbdır.

Keçmiş yazılarda da, Türk anlayışının üzərində dayanaraq ortaya qoyulan bir çox düşlərin ulusal-siyasal deyil yalnız siyasal motiv olduğunu vurğulamıdım. Bir ölkənin yüzdə 95-i gendaşdırsa, onun idarəsi də heç şübhəsiz dominant millət-dövlət sistem olmalıdır. Azərbaycan, Türk milləti olaraq yuxarıdakı şərtlərə ən uyğun bir ölkədir. Bu haq, millətin doğasından gələn bir təməldir. Bir millətin öz kimliyi ilə çıxış etməsi kimi doğal heç nə yoxdur. Güneyin 2006-cı il May ayaqlanması bu gərçəyi qanıtladı. "Haray-haray, Mən Türkəm" Türklük fəlsəfəsilə Türkçülük ideolojisinin də yeri bəlli oldu. Azərbaycan Türklüyü öz vətənini bir nəsnəl varlıq kimi dünyaya tanıtdı. Belə olan yerdə, Nədən sadəcə, "Azərbaycan Mərkəzli Düşüncə Sistemi"? Azərbaycan Mərkəzli hansı

düçüncə sistemi!? Sistemin altyapısı, üstyapısı olmalıdır. Mən Azərbaycan mərkəzli düşüncə sistemini bir termin kimi düşünəndə, qafamda Milli Hakimiyyətin "Ana dili" termini canlanır. Bu ana dili nədir? Bu tərifin özü hardadır? Nədən ana dilimizin adını çəkməkdən qaçınırıq. Və ya, "Azərbaycan Mərkəzli düçüncə sistemi"nin sistem kimliyinin gizlənmə səbəbi nədir? Türk, hər iki termində gizlənmiş ana kök və təməl özüldür. Bugün, hər bir ulusal və ya idman bahanasıyla bir araya gələn gənc dinamiğin ağızından pöhrənən Türk sözünün ən kəsərli və birləşdirici yaraq olduğunu anımsamağa ehtiyac yoxdur. Güney, Türk olduğunu, Türk yöntəmli yaşam biçiminə dönmək inancını ap-aydın ortaya qoymaqdadır. Bu isə, sistemləşmənin ilkin ayağıdır. Türk varlığı üzərində sistemləşmə! Yəni Türkçülük tabanı üzərindən sirilməmək. Dövləti olmayan və ya böyük bölümü özgə dövlət altında bütün insan haqlarından yoxsul olan toplumlaşmış bir millətin sistemli orqanizə olmasının yolu çox çətindir. Heç quşqusuz, bu yolun ən kəsərli gücü isə, düşüncə birliyidir. Varsayılan sistemin var olmasının dəyişməz özülü Türklükdür. Evrənsəl anlama görə, Azərbaycan (Vətən) bir nəsnəl varlıqdır. Bu nəsnəl varlığın üzərində yaşayan milyonlarca insan vardır. Bu insanların böyük bölümü bəlli ünsürlərə dayanaraq eynilışir və birgə kültür sərgiləyir. Dil, gələnək, tarix, din, keçmiş dövlət oluşumu bu topluluğun kök ünsürləri hesab olunur. Geniş torpaqları öz gücü ilə yönətən bu topluluq Türk ulusudur. Türk ulusunun tarix boyu hakim olduğu çeşidli vətənlərdən biri də, Azərbaycandır. Türk Qacar dövlətinin çöküşü ilə, Azərbaycan Türklüyünün də yaşam fəlsəfəsi böyük alanda Farsçı rejimin yürüşləri altında əzildi. Bügün, Azərbaycan evladının öz kimliyinə yiyələnməsini hər yerdə duymaq mümkündür. Bu duyğu keçmişlərə bənzəmir. Özünə özəl söyləmi və davranışı var. Kimliyini ortaya qoyacaq mərkəzi var. Bu mərkəzi tanıtacaq öznəlliyi vardır. Qısası, milli ideolojik təməli vardır. Bu üzdən sistemləşməyə uyğun, nəsnəl və öznəl özəlliyə malikdir.

Sayın Böyük Rəsuloğlu və Arif Kəskin kimi Türkçü aydınların bu qonulara daha uyumlu yanaşması çox önəmlidir. Bu dəyərli fikir sahiblərinin ortaya qoyduğu hər əsərin gənclikdə bəlli etgisi vardır. Buna görə, bu öncüllərin daha uyumlu və diqqətli olmasını dilərəm.

Açıqcası, “Azərbaycan Mərkəzli Düşüncə Sistemi” diyə terminin əslində sistem kimi alqılanması doğru deyildir. Hərgah, sistem sözünü termindən alarsaq ortada qalan “Azərbaycan Mərkəzli Düşüncə” sözü yerdə qalacaqdır. “Azərbaycan Mərkəzli Düşüncə” deyiminə diqqətlə yanaşarsaq ortaya çıxacaq ilk sorğu belə olacaqdır: Hansı düşüncə? kimə (kimlərə) aid olan düşüncə? Nə tipli düşüncə (siyasal, ekonomik, ekolojik, ideolojik ...)? Sözsüz ki, bu sorğuların hər birini çeşidli səfsətələrlə yanıtlamaq olar. Ancaq nə olursa, sonucda bir olumsuz tablonun ortaya çıxması qaçırılmaz. Yenə də, “Azərbaycançılıq ideolojisi”! Eynilən Üzbəkistan, Tataristan, Qırqızıstan, Qazaqıstan, Türkmənistan, Türkmanıya, Türkiyə və Q.Qıbrıs İdeolojiləri kimi Türkçülükdən qaçış, üzdə bağımsız, əslində isə, Türklükdən başqa çeşidli özgəliklərə bağımlı! Bu ideolojik terminlərin başlıca bir vətəndaşlıq anlamı daşıdığı bəllidir. Bu düşüncə sistemlərin amacı isə ana ideolojidən aralanmaqdır.

Bu haqda daha  fəal olan yazarlarımızdan biri də dəyərli qələm sahibi sayın İşıq Sönməz,dir. İşıq bəyə görə, sistem, var olması gərəkən oluşumlar birliyidir. Bu anlamdan belə gəlir ki, var olmayan, yalnız varsayılan motivlər üzərində sistem qurulamaz! İşıq bəy, ilk başdan məsələ ilə bağlı terminolojik davranmağa üstünlük verirdi. Ancaq, gərəkən ələşdirilərilə də gözəl ip ucuları göstərir. Özəlliklə onun və sayın Güntay bəyin sistem termini üzərində dayanmalarından mən də öz payımı aldım. Elə bundan sonra daha çox öyrənməyə çəkilib, Türkiyədə yaşayan sevimli arxadaşım Umud Evrən bəyin yardımıyla sistemlərlə bağlı qaynaq kitablar əldə etdim. Bu ki, sistem yalnız quruluşlu birikimlər üzərində ola bilər sözüylə bağlı dövlət sistemləri başda olmaqla bir çox orqanik sistemləri öyrənməyə çalışdım. Aradıqca, çeşidli orqanik sistemlərin arxasında özəl düşüncə və ideallarıın olduğuna əmin oldum. Əmin oldum ki, var olan bütün siyasal sistemlərin doğmadan öncəki durumları idealist və ideolojik təməlli olmuşdur. Hətta, ən marksist sistemlərin doğuşunda belə, idealizmin ana rolu olmuşdur. Verilərə görə, hər quruluşun sistemləşməsinin arxasında o quruluşun ideyası yatmışdır. Düşünülmədən bir-birindən bağımsız və cansız birimləri zəncirləyib canlı orqana dönüşdürmək mümkün deyildir. Bu düşüncə sürəci var oluşun özündən daha ərkən sistemləşmə sürəcinə girir. Sözsüz ki, var oluşuma yalnız

somutca baxmaq düzgün deyildir. Hər nəsnəni geniş dördgen[43] içində sıxışdırmağın bilimsəl anlamı yoxdur. “Mən varam, çünki varam” anlamıyla “Mən varam, bu üzdən olmalıyam” kimi deyim, iki ayrı-ayrı yol xəritəsidir. Birinci büs-bütün bir somutdur. İnamsız, inadsız, var olan bir bütünün atom bölməsi! ikincisi bizi arxasıca çəkən bir soyutdur. İnamlı, inadlı, var olan bir bütövün sınırsız bölümlərinin bir varoluşu! Biz, ikincisinin axtarışında ikən birinciyə sancaqlanmalıyıq. Yoxsa, keçmiş acıların unudulması mümkün olası deyil!

Son 20-illik ulusal bəlgələrə dayanaraq “Azərbaycan Türk Milləti” anlayışının Güneydən pöhrənməsini görməkdəyik. Bu, Güneydəki sürəcin normal görüntüsüdür. Güney Azərbaycan milli hərəkatının dinamikası, fəlsəfəcə Türklük və ideolojikcə Türkçülükdür. Bu qonuda dartışacaq çox bir sorun olmamalıdır. Xordad (May) ayaqlanmasındakı ulusal kimlik bilincinə dayanan sloqanlar bunu elə dərin isbatladı ki, artıq ufaq şübhəyə belə, yer qoymadı. Deməki, “Haray-haray, Mən Türkəm”, “Təbriz-Bakı-Ankara, Türklər hara, Fars hara”, Bozqurd simgəsi və başqa izləmlər bu hərəkatın Azərbaycan Mərkəzli Türkçü düzəni yolunda olduğunu göstərdi. Belə olan halda, nədən bu hərəkatın öznəl və sürəc içində nəsnəl sisteminin oluşması gərəkməsin? Bir çox solçu, bə`zən də milli hərəkatçı tərəfindən sistemləşmə sorunu qorxunc bir devə bənzətilir. Sanki, Güney hərəkatı düşüncə sisteminə girincə PanTürkizm ayaqlanıb bütün dünyanı udacaqdır! Sol qulluğunda olanların halını düşünmək çətin deyil, amma ulusal dərinliyə varmış olan bə`zi millətçilərin ürək bulanması nədəndir? Qısaca Sistem[44] nədir? Sadə anlamla sistem vəya düzənək bir nəsnənin vəya orqanın uluşmasına gərəkən soyut[45] bağımsızları bağımlı halə gətirmək və birgələşdirməkdir. Sistemi yalnız var olan, var olma şansı bulan oluşumlara bağlı etmək doğru deyildir. Sistemin var olmasında onunla bağlı olan bütün mücərrəd amillər ortaqdırlar. Bu ortaqların yalnız başına bir anlam ifadə etməsi imkansızsa, birlikdəki bütünü bir var oluşun nədənini oluşdurur. Bu birliklərin ən üstün amacı bir düşüncənin nəsnələ çevirməsidir. Ornək üçün, insan orqanizmasını gözə alalım. Beyin, ürək,

[43] çərçüvə
[44] Düzənək
[45] mücərrəd, birəy

göz, əl, qulaq, burun, dil v.b. tək başına dirilik ifadəsi vermir. Lakin, birləşim qoşulları bir araya gəlincə, tək canlı orqan oluşur. Bir dövlət sistemi vəya hər hansı orqanik düzənəyin də qaydaları az-çox eynidir. Ancaq burada vurğuyla deyilən bir təməli unutmamaq gərəkir. Hər düzənəyin doğru anlam tapmasının ən böyük şərti uyum, təcrübə, özəllik, bir bütöv olma və birgə amaca arac olmaqdır. Bunların birisi axsarsa sistem də axsar. Sistemin somut və ya soyut olma kimi şərti yoxdur. Yuxarıdakı gərəklər olursa bütün yaşamın fiziksəl və fikirsəl alanlarında düzənəklər oluşar və öz oluşumu içində sınırsız tab`e sistemlər yaradar. Fiziksəl sistemin yaranmasında fizik qaydaları beyin rolu oynar. Matematik sistemdə ədədlərin sınırsızlığı hakimdir. Sosial sistemdə insan, ailə və toplum fəlsəfəsinin ana rolu ortaya çıxar. Bu ilişgiləri sağlayan düzənəyin bir də iç bölüşümü vardır. Somutdan soyutlaşmaya, soyutdan somutlaşmaya![46]

## Sosial düzənək (sistem)

İnsanlıq tarixi, əzəldən günümüzədək çeşidli toplum düzənləri oluşdurmuşdur. İlkin kommün sistemindən quldarlığa, feodalizimdən liberalizimə vb. keçit sürəcdən yüzlərcə il geçir. Yaşadığımız çağın tanınmış 4 çeşid sosial sistemilə azdan-çoxdan hər kəs tanışdır. Var olan dörd ana toplum sistemin – Kapitalizm (liberal demokratiya), Kommünizm, Siyasi İslamçı və Millətçi düzənəklər ilə yanı-sıra tanınmış Sosial-Demokrat, Yaşıllar, Kristian Demokrat, Vahabiyyət v.b.. siyasal sistemlər də vardır. Bu sosial-siyasal sistemlərin dövlət qatına yüksəlmədən öncə təməlini ideoloji oluşdurur. İdeolojik düşüncəni– istər demokratik, istərsə devrimçi formasında- oluşduran çeşidli fikir bölümlərinin bir dördgen içinə toplanmasıyla ideolojik sistem yaranar. İdeolojik sistemin ilk amacı, bəlli hədəfin düşüncə alanını oluşdurmaqdır. Örnəyin dövlət sistemini nəzərdə alalım. Dövlət bəlli bir sistem olaraq parlament, nazirlər kabineti, ordu, cəza, diplomasiya, ideolojiya v.b. budaqların birgələşməsindən oluşur. Bu budaqların necə və hansı şərtlər altında sürəcə girməsini, dinamikləşməsini təyin edən amil ideolojidir.

[46] konkretdən mücərrədləşməyə, mücərrəddən konkretləşməyə

Demək, dövlət orqanları mikaniksəl olaraq eynidir. Onları bir-birindən fərqləndirən amil ideolojidır. Düşüncə bütün quruluşların anasıdır. İdeoloji bir düşüncə ürünü olduğu üçün yaranma yaşı yoxdur. Lakin bəşərin ilk yaranan bəlli toplumlarının yaşı bir o qədər də uzağa getməyir. Demək, ideoloji (bəlli düşüncə) bir amaclanmış sistemdir. Bu sistemin amaca varmaq üçün bəlli dördgeni, özəl xarakteri, tanıtım anlamı və kimliyi vardır. Örnəyin Fars varlığı və Farsçı düşüncə düzənidir. Fars aydınlarının Farsçı rejimin iş başına gəlməsində danılmaz rolu olmuşdur. Onlar, qoşaqdan-qoşağa yazaraq, siyasal alanlarda işləyərək Farsçı düşüncə sisteminin yaranmasında etgili olmuşdurlar. Bu düşüncə sürəcinin dövlət sisteminə yüksəlişi uzun zaman gəlişmənin sonucu idi. Bügün Azərbaycan Türklərinin durumu dünənki Farsların durumuna bənzəyir. Azərbaycan Türklərinin dirənişi, özəl bir Türk ülküsünün siqnallarını verməkdədir. Bu alanın get-gedə bir milli-siyasi sistem oluşuma gəlməsi aydıncasına özünü göstərir. Bu dərin, qutsal və tarixsel görəvin ağırlığı yenə də, özveri, ulus namusu və ulusal şərəflə yola çıxan ulusçu gəncmizin omuzlarındadır. Yığcam, qissa, sadə və düşüncə xəritəsi kimi yazılan bu bitiyin ulusal yönümüzə yararlı olmasını umar, bu yöndə mənə dəstək verən bütün əməyi geçən arxadaşlarıma özəlliklə Umud Evrən, Rza Sələhşur, Artum Dinc və Əli Ardı (Urman) bəylərə sağol deyirəm. Ən sonunda düşüncə yaşamıma anlam verən 4 böyük insana vəfa borcumu dilə gətirirəm:

a) Ən anlamlı illərimin baş memarı olan Ə. Elçibəyin, M.T.Zehtabinin uca ruhları qarşısında baş əyirəm.

b) Millətimizin dayanışma simgəsi olan böyügüm H. Dəmirçi (Hərgülü) bəyə cansağlığı və millət yolunda verdiyi mücadilədə ayaqda durma gücü diləyirəm.

c) Yeniş-yoxuşlu illərimi illərinə qatan sevgili eşim Azər Fərruxi Adl xanıma sonsuz bağlılığımı bir daha dilə gətirirəm.

Bu kitabı, al qanlarını vətən yolunda ulusuna bayraq edən milli şəhidlərimizin ölməz ruhuna və onların qutsal yolunu dəvam edən "Haray-Haray Mən Türkəm" bağıran bozqurdlarımıza sunuram.

# 1.BÖLÜM

## Azərbaycan Türklüyünün Soy kökü

### Tarixsəl bəlgələrə görə Türk- Fars ilişgilərinin başlanqıc nöqtəsi

“Çağdaş tarixçilik hər tərəfli araşdırmalardan sonra belə bir sonuca gəlimişdir ki, ən qədim mədəni insan məskəni Çeyhun və Seyhun[47] çaylarının hövzəsi, Aral gölünün ətrafı və Turan ovalığı olmuşdur. Dünyada mədəniyyət ilk dəfə burada mərkəzləşmişdir. Daha doğrusu, doğu Türkistandan Xəzər dənizinin sahillərinədək olan ərazi dünyanın ən qədim mədəniyyət mərkəzi olmuşdur. Buna görə də, bir vaxtlar “Tarix Şumerdən başlayır” dediyimiz halda, indi “Tarix Orta Asiyadan”, ya da “turandan başlayır” deməyi tarix elmi bizdən tələb edir. Heç də təsadüfi deyil ki, dünyanın böyük rəmzlərindən olan səkkiz bucaqlı, ya da səkkiz çıxıntılı ulduz, dünyanın bütövlüyünü göstərən baş-ayaq butalar, xaç, svastika və başqalarının ən qədim nümunələri son illərdə aparılan qazıntılar zamanı məhz bu ərazidən tapılmışdır. Bu ilk mədəniyyət mərkəzinin yaranma və varolma tarixi eradan qabaq 6-10 minilliklərə aid edilir.

Dünyanın ikinci qədim mədəniyyətinin toplandığı mərkəz Xəzərin qədim sahillərindən başlayaraq qərbə doğru Kür-Araz ovalıqları,

[47] (Amu-dərya və Sır-dərya)

Qızılüzən boyu və Urmiyə gölü ətrafını əhatə edir. Bu mədəniyyətin yaranma və varolma tarixi eradan qabaq 2-7 minilliklərə dayanır.

Tarix baxımından şumer üçüncüdür. Dəclə və Fəratın hövzəsi, yuxarı, Patağ dağlarının qərb ətəklərindən Ərəbistan səhralarının şimal-şərqinədək olan ərazini əhatə edir və eradan öncə 2-4 minilliklərə bağlanır.

Bu baxımdan, Aralıq dənizinin (Ağ dəniz) doğusu və Nil hövzəsi (Misir) dördüncü ( eradan qabaq 1-4 minilliklər). Quanxe (Xuanxe) Yançju (Çində) çaylarının arası beşinci (eradan qabaq 1-3 minilliklər), Hind-Qanq çaylarının ərazisi altıncı (eradan qabaq 1-2 minilliklər) mərkəz sayılır".[48]

Yuxarıda sadalanmış bilimsəl qaynaqlara görə, miladdan qabaq 2-7 ci minilliklərə dayanan Kür-Araz mədəniyyətinə bağlı bugünki Azərbaycan Türk Milləti və millad öncəsinin son 2-1-ci minilliklərinə dayanan Hind-Qanq mədəniyyətinin ardı olan Hind-Avropalı dilli ellərin qollarından olan Parsiya toplumu qonşu millətlər halına gəlmiş, uzun zaman ilişgidə olan toplumlar olmuşdurlar. Bu iki tam fərqli toplumlar etnik və soykökü baxımdan bir-birindən ayrı olsalar da uzun zaman qonşu olduqlarına görə, heç də qarşılıqlı etgi dışında qalamamışdırlar. Buna baxmayaraq, bu iki etnik ən azı ilk mədəniyyət dövrünün son zamanlarından etibarən bu günədək zaman-zaman sistemləşmiş özəl yaşam quruluşlarını yaratmış, həmin özəlliklər ilə də tarix səhnəsində tanınmışlar. Prof.Dr. Zehtabi özünün ölməz əsəri "İran Türklərinin Əski Tarixi" kitabında bu qonuya belə açıqlıq gətirir: "Bu məsələnin ətrafında dərin düşünüb, o dövrün hadisələrini yaxşı götür-qoy etdikdə görürük ki, Parslar miladdan öncə üç kəndli oturaq və yeddi köçəri el şəklində gəlib Fars əyalətində yerləşdikləri gündən Elam dövlətinə tabe olmuş və ona bac vermişlər. Çünki, o yerlər Elamların idi. Hətta Parsların Fars əyalətində olduğu ilk dövrlərdə Elam dövlətinin orada yarımmüstəqil əmiri olmuş və o əmirlər Elam dilində lövhələrdə Fars əyalətində bugünə qədər durmaqdadır. Elamlara tabe olduqları zamanlar parsların əmirləri,

[48] " Ə.Elçibəy. Bütöv Azərbaycan Yolunda Kitabı s 16.

Kuruşun atası Kambuciyyə[49] və onun ata babası həyatları və tarixlərində ilk dəfə olaraq yazı ilə taniş olmuş, Elam əlifbasını özləri üçün əlifba seçmiş və əvvəlcə Elam dilində, sonralar isə öz dillərində həmin mixi əlifbada lövhələr qazdırmışdırlar. Bu dövrlərdə parsların idarə dili Elam dili olmuşdur. İdarı yazıları da Elam dili və mixi əlifbasında idi. Buna görə də, bu dövrdə Fars əyalətində olmuş Elam əmirləri, Elamilər kimi parsların da hakim dairələrə idari adamları, həm də şübhəsiz, iqtisadi, siyasi əlaqə zərurəti və Elamların mədəniyyətcə yüksək olmasının tələbi əsasında geniş sadə pars kütlələrinin böyük hissəsi də ana dilləri ilə yanaşı, Elamca da öyrənə bilmişlər. Bu hayatın tələbi idi. Parslar Elamlardan əlavə quzey tərəfdən Kassılar, Quttilər və Lüllibilərlə də qonşu idilər. Şübhəsiz, onlarla da iqtisadi, siyasi əlaqədə olmuş, Elam dilinə yaxın olmuş dilləri ilə müəyyən dərəcədə tanışlanmış və bu dillərin eyni kökü, eləcə də olduqca yaxın olduqlarını əməldə və hayatda görmuşlər. Pars ellərinin bu hayatı, Madların əvvəlinə qədər davam etmişdir. Mad şahları pars əyalətini fəth edərək parsları özlərinə tabe etdilər. Şuş əvəzinə Ekbatana tabe olaraq madlara vergi və bac verməyə başladılar. Lakin onların idarə dilləri əvvəllər olduğu kimi qaldı. Ona görə ki, Elam dili ilə Mad dövləti dili arasında önəmli fərq yox idi və şayəd də eyniydi.[50]

Və yenə professor Zehtabidən yardım alırıq:

“ Eramızdan təqribən 4000 il qabaq Orta Asiyadan Dərbənd yolu ilə Yaxın Şərqə gəlmiş el birləşməsi Şimali və Cənubi Azərbaycanın çox yerləri, dağları, o sıradan Savalanı, Mişovu, Zaqros dağlarını gəzib yerli iltisaqi (dilli) əhalini və yerlərin coğrafi şəraiti ilə tanış olub müəyyən el və obaları öz istəkləri və ya başçılarının əmri ilə xoşladıqları yerlərdə yurd salıb qalmışlar. Sumer elinin əsas hissəsi nəhayət “İki çayarası” Dəclə və Fərat çayları arasındakı gözəl ab-havayla bölgənin cənub qismətlərində yurd salaraq qalıb yaşayırlar. Azərbaycandan keçərkən Sumerlərin müəyyən elləri Mişov sıra dağlarının Zaqros və Torus dağları ilə birləşdiyi məntəqədə bugünkü Xoy, Salmas, Urmu, Nəqədə torpaqlarında Zagrosun

[49] Ata kambuciyyə/ kuruş öz oğlunun da, adını kambuciyyə qoymuşdu. Həmin Kambuciyyə Kuruşdan sonra Əhəmənlərin(Həxamənişlərin) ikinci şahı olmuşdur.(E.Q)
[50] Prof.Dr M.T.Zehtabi- “İran Türklərinin Əski tarix”i.1-ci cild, səh-214-215.

sıra dağlarının şərqi və qərbi yamaclarında yurd salıb qalmışlar. Sumerlərdən ayrılan bu ellər sonra ellərinin əsas qisməti ilə əlaqədə olub və tədriclə bir xalq olaraq böyük mədəniyyət yaratmış yerli və xəlqi Ərəttə-Aratta adlanmışdır. Sumerlər həyat şəraitini və əkinçilik üçün münasib olan iki çay arasında böyük mədəniyyət qurmuş Babil, Uruk, Ur, Laqaş və sair böyük şəhərlər və mədəniyyət ocaqları yaratmışlar. Bu mədəniyyət ocaqları onların sarayları, qəsrləri, ibadətgahları, binaları və sairəsini qurmaq, tikmək, bəzəyib zinətləndirmək üçün beyn-ül-nəhreyndə xam material: ağac, dirək, taxta, daş və mərmər, əlvan daşlar, muxtəlif metallar və.b. yox idi. Bütün bu materiallar Ərəttə-Aratta dağlarında Zaqros dağlarında istənilən qədər var idi. Və Sumer rəhbərləri/bunu/ bilirdilər. Sumerlərin Babil və o biri şəhərlərdə bu materiallara ehtiyacı olduqda Ərəttəyə adam göndərib oranın Sidir ağaclarını kəsdirir, daş və mərmərlərini, lazım olan metallar və zinət vəsaitini oradan axmağa başlayan Dəclənin bir qolu böyük Zab çayı vasitəsilə gəmilər, qayıqlar və çeşitli daşıt vasitələrilə rahat və ucuz (yol ilə) Babilə gətirtdirirdilər. Deməк Sumerlərin Babildə mədəniyyət qurduqları ilk günlərdən həm Ərəttənin və həm də Azərbaycan dağları və torpaqlarını, Xəzər dənizini Türklərin ana dənizi kimi yaxşı tanıyıb, bilmiş və Ərəttə ilə həmişə əlaqədə olmuşlar”.[51]

Göründüyü kimi, Milad öncəsindən Zaqrosadək çəkilmiş kəsintisiz ve bitişik torpaqlar məhz Türklərin yaşadığı yerlər olmuş və orada yaşayan ellərlə İki çayarası yerlərində yaşayan ellərin arasında olumsuz çətinlik olmadan qonşuluq və qardaşlıq ilişgiləri olmuşdur. Farsın saxtakar və qondarma tarixinə kölgə düşməsin deyə, bölgəmizdə gedən barmaq sayı qədər yer qazıntılarının da ört-basdır edilməsinin uydurma tarixin qorunmasında başqa mahiyyət daşıması gün kimi aydındır. Həmin qazıntılardan çox azının Avropa, Amerika elm mərkəzlərinə sızması və araşdırılması ilə pan Fars istlərin sınırsız saxtakarlıqları aşkara çıxmışdır. Son zamanlarda etnikcə Fars olan Naser Purpirar kimi tarix araşdırıcılarının sayı çoxalmaqdadır. Bu Fars kökənli tarix araşdırıcı və ələşdiricilərin baxışına görə, Fars tarixinin yalanlar üzərində qurulması 120-140 il bundan əvvələ qayıdır, amac isə Farsların millətləşməsi üçün

[51] ”.(Prof. M. Zehtabi, “İslama qədər İran türklərinin dili və ədəbiyyatı”.səh.89-90 )

dayaq nüqtəsi yaratmaq və saxta mifolojik öznəldən Fars tarixinə üstün boyutlar qazandırmaqdır. Halbuki nə Əhəmənilər, nə Sasanilər, nə də onlardan sonrakı Fars kökənli kiçik hakimiyyətlərin bəşəriyyətə verdiyi xidmət izlərinə rast gəlmək mümkün olmayır. Yeri gəldikcə Fars tarixçilərin düşüncə və faktları ilə tanış olacayıq. Bunlara baxmayaraq gerçək bu ki, Türk və Fars toplumları ən azı 3000-il boyunca qonşuluqda yaşayıb və bu gün də yaşamaqdadırlar. Bu iki millət zaman-zaman tam millətləşmiş, imperiya dövlətləri qurmuş, bəzən də məğlub olmuş, əsir toplum durumuna düşmüşlər. Bir çox tarixsəl olaylarda iç-içə girmiş bu əski toplumlar olaylar axımında ortaq tal`e və rüzgar əsdirsələr də, heç zaman yoğrulmamış[52], vahid millət kimi bir-birində həll olmamışdırlar. Baxmayaraq ki, tarixin göstərdiyinə görə, bir çox toplumların ikili və ya neçəli ilişgiləri qalib-məğlub sonuca varmış və məğlubun qalib içində yoğrulub, əriməsi ilə sonuclanmışdır. Ancaq bu örnək bir çox zaman köksüz toplumlara aid olmuş və köklü millətlərin silinib aradan getməsində bircə səbəb olmamışdır. Niyə ki, köklü millətlər məğlub duruma düşən zaman belə, öz milli varlığını qoruyub saxlaya bilmiş, hətta məğlub duşən durumda da qalib tərəfin kültüründə vaz keçilməz izlər buraxa bilmiş, zaman sürəcində milli-qurtuluş mücadiləsi apara bilmişdir.

Türk və Fars ilişgisinə gəlincə, bu iki varlığın zaman boyu çeşidli alanlarda təzadlı iç-içə girməklərini, imperiya yarışmalarını, bəzən sakin, bəzən isə düşməncə davranışlarını görürük. 2900-3000 illik qonşuluq və yaxın ilişgidə olan bu iki varlıq (3000 il bundan öncə Farsın toplu varlığını isbat edən heç bir sənd əldə yoxdur) hətta kiçik bir sahədə belə qarşılıqlı normal yaşam sürəməmişlər. Miladdan öncə 600 illik Türk dövlətlərinin (Manna-Mad/Media/-Part /Ərəşk/Əşkan/) qədim Fars köklü ellərə hakim olduqları, habelə Farsların həmin dövrün ardından 230 illik "Əhəmənilər" (Həxamənişlər) əli ilə Türklərə hakim kəsilməkləri ancaq savaş sonucunda gərçəkləşmişdir. Yenə miladdan sonra islama qədərki dövrdə bu iki toplum həmişə qalib-məğlub millətlər kimi qarşılıqlı ilişgi içində yaşamışdırlar. İsgəndərin Əhəmənilər üzərindəki qələbəsi və sonra Sülukilərin qısa müddətli hakimiyyətinə son qoyan Sumer və Elam torunları olan Arşakların 477 illik hakim olduğu zamanlarda da məğlub-

[52] həll olmamış

qalib ilişgilər dışında normal olan bir şey görünməməkdədir. Tarix qaynaqlarına görə, Arşaklar (Ərəşklər) da öz Türk ataları sayağı heç zaman tab`e Farsları milli-əritmə [53] siyasəti ilə aradan qaldırmağa çalışmamışlar. Hətta əksinə olaraq dağılıb aradan getmə təhlükəsi ilə üz-üzə qalan məğlub millətləri öz himayəsinə alaraq yaşadıb, qaldırmışdır. Türklər bir çox zaman milli gələnəklərə dayanaraq Fars kökənli xalqları tam məhv olub aradan getmək təhlükəsindən uzaqlaşdırıb, onları öz qol-qanadında saxlamaqla özgə rəqiblər yürüşündən qorumuşdurlar. Ancaq həmin sınırsız və aşırı savunmalar faciəvi şəkildə sui-istifadələrə yol açmışdır. Bunun ən aydın örnəyini Arşakların gücü altında böyümüş, güclənmiş Fars kökənli Sasaniləri göstərmək olar. Sasanilər Part şahlarının xoşgörüsündən yararlanaraq Türk Zərdüştçü Muğları aldadıb, onların ulusal etgisini öz xeyrinə çevirərək Arşaklara arxadan xəncər vurmuşdurlar. Həmin Sasanilər Həmədan Türkü olan "Manı" və Təbriz Türkü olan "Məzdək" qalxışmalarına qarşı qan gölü yola salmış, Türkləri soyqırım etmişdir.

Əhəmənilərin güclənməsilə bölgədə baş qaldırmaqda olan etnik çarpışmalar yeni aşamaya girmişdir. Belə ki, bəşəriyətin daş dövründən dəmir dövrə girməsində mərkəz rolu olan İki çayarası (Beynülnehreyn) mədəniyyəti darmadağın olmağa başlamış, Əhəmən vəhşiliği insan gəlişməsinin qarşısını almaqla yanaşı, bütün bölgə yaşamını məhvə sarı sürükləmişdir. Fars kökənli tarixçi və ələşdirici N.Purpirar bu haqda belə yazır:

"Bəşəri mədəniyyətin kökü və qaynağı olan çox parlaq Beynəlnəhreyn Asur [54], Babil və Sumer [55] mədəniyyətini Əhəmənilər [56] məhv elədilər. Bu böyük millətlərin yenidən dirçəlmə çabaları isə Bistun kətibələrində Dariyuş dilindən yazıldığı faktlara görə onların (Əhəmənilərin) əlilə qan dənizində boğulubdur...Tarixin heç zamanında İranda Pars adlı yer olmamışdır. Habelə tarix boyu parslar adlı qəbilə və yaxud qovmdə olmamışdır. Bu Yəhudilərin və özümüzdən olan

---

[53] assimilya
[54] Aşur
[55] Şumer/Çümer
[56] Həxamənişlər

araşdırıcıların uydurmasıdır... İran ən azından 15 çeşid böyük və qabiliyyətli millətin yaşadığı yer olmuşdur. O millətlər ən azından 2000 il Əhəmənilərdən qabaq öz ad və hüviyyətləri ilə yaşamışdırlar." */N.Purpirar.* [57]

Həmin yazar Əhəmənilərin haradan və necə gəlmələri qonusunda belə yazır:

"Onların (Əhəmənilərin) necə tapılıb və yüksəlişinə dair aydın görüntü yoxdur. Çox əski güclər toplusundan oluşan bir bölgədə onların birdən gəlib böyük imperiya qurmaqları nədənləri hələlik aydın deyildir. Ancaq son araşdırmaları əsas götürən zaman bu qənaətə gəlmək olur ki, Həxamənişlər Kuruşun qalxışından 1000 il qabaq Aşur, Babil, Mad, Elam kimi 4 gücün dövlət tərəfindən müzdlü qəməçi[58] olaraq indiki Rusiyanın orta istiblərində [59] alınmış və savaşlarda onlardan yararlanmış, barış zamanı isə Elamların iznilə bəlirlənməmiş bir bölgədə - çox ehtimal İranın güneyində yerləştirilmişlər "[60]

Sözsüz ki, N.Purpirar kimi Fars yazarlarının arxa planlarında yeni tipli İrançılıq səylərini görməzdən yana çıxarsaq yanılacayıq. Ancaq o kimi yazarların gizli niyyətlərə rəğmən tarixə aydınlıq gətirməsini də qulaq ardı etmək doğru ola bilməz. Purpirarın araşdırmalarına görə, Fars kökənli olaraq tanınmış Əhəmənlər yəhudiyyətin bir qolu olan Slovyanlardan olmuş, İranı zəbt edəndən sonra Fars adı almışdırlar. Bu və bu tipli faktlardan aydın olur ki, " Farsçılıq sistemi" kimi tarix köksünə kölgə salmış Əhəmənilik damqasının doğuşu qanla oluşmuş bir anti bəşəri bər-bərlik örnəyidir. Sasanilərin Ərəblər qarşısında diz çökməsindən 400 il sonra Türklərin yenidən dirçəlişi mədəniyyətcə ərəbləşmiş Farslara yenidən yaşam nəfəsi bağışlamışdır. Fars mədəniyyəti, incəsənəti və sosial həyatı məhz Türk hakimlərinin yardımı və köməyilə ayağa dura bilmişdir.

---

[57] */N.Purpirar. "12 yüzil səssizlik".1-ci kitab: "Əhəmənlərin qalxışı". Tehran-2000. səh-254,255/*

[58] savaşçı

[59] seyrək çöl

[60] */ N.Purpirar. "12 yüzil səssizlik". 1.ci kitab: "Əhəmənilərin qalxışı". Tehran-2000. səh-83/*

Çox ilginc[61] bu ki, Türk başçıları Fars varlığı və kültürünə həsr etdiyi enerjinin kiçik bir bölümünü öz Türk varlığına xərc etməmişdirlər. Türk başçılarının belə anlamsız humanistliyinin sonucu Türk dilli şair və ədiblərin də öz dillərindən uzaqlaşmasına nədən olmuşdur. Onlar Fars dilini öyrənməyə, əsərlərini o dildə yaratmağa təşviq olmuşdurlar. Bu sürəcin doğal sonucu isə savad dilinin də Fars dilinə çevrilməsi idi. Türk kültürünün "Manas", "Qılqamış", "Dədə Qorqud", "Divan-Ül-Lüğat-üt Türk" kimi ölməz əsərlərinin ardı ola biləcək "Leyli və Məcnun" əsəri Türk hakimi əmrilə Fars dilində yaranır. Başdan-ayağa Türklərə qarşı yazılan "Şahnamə" isə, yenə Türk hakiminin bir başa himayəsilə ortaya çıxır

"Türk dili sarsılmaz və gücü tükənməzdir, onu qorumağa ehtiyac yoxdur kimi batil və dayaz düşüncələr sonucunda öz əlimizlə dilimizdən qidalanan yaşam fəlsəfəmizi zora soxan babalarımızın suçlarını bağışlamaq olarmı?"

1000-il sürən belə anormal sürəc bir neçə istisna dışında "Qacar"lara dək çəkilir və son olaraq Farsçı rejimin qələbəsilə sona çatır. Hal buki bu uzun zaman içində bir Fars dilli ədibin və şairin bir paraqraf belə Türkcə yazmasına rast gəlmək olmur. Bu, o deməkdir ki, Azərbaycan Türkləri heç zaman milli dövlətçiliyə bağlı olmamış, sülaləçiliklə başlamış imperatoluq ehtirasilə sona çatmışdırlar. Bu isə, Türk sülalə hakimlərinin mərkəzçı dövlət yaratmasına imkan verməmişdir. Bu üzdən Türk başçısı yığcam və milləti toplayacaq dövlət sistemi deyil, imperatorluq həvəsilə öz ana torpaqlarını buraxıb uzaq odaqlara göz dikmişdir. (Şirvanşahlar, biraz da Şah İsmayil dışında). Həmin dəb və gərnəşmə tərzi sonucunda milli eyitim və öyrətim yiyəsiz qalmış, ağır boşluqlara nədən olmuşdur. Çox maraqlıdır ki, Farslar hakimiyyətə gəldikləri an Türkləri soyqırım etmiş, Türk anıt və izlərini aradan qaldırmış, qalanlarını isə etnik kimliyindən uzaqlaşdırmağa çalışmışlar. Baxmayaraq ki, bu işi bütünlüklə bacara bilməmiş və çox zamanlar öz əllərilə yaratdıqları tuzaqlara düşmüşlər.

---

[61] ilgi çəkən/ maraqlı

Sözsüz ki, Milad öncəsindən başlayan bu qarşılıqlı ilişgilərin araşdırılması yalnız bir neçə tarixçi alimə deyil, böyük araşdırma mərkəzlərinin üzərinə düşməkdədir. Türklərə qarşı Əhəmənilərin sürəcli saldırısı, bu saldırılara qarşı Azərbaycan başçısı Tömris Ananın əmrilə saldırqan Kuruşun başının kəsilməsi, habelə Sasanıların Ərəşklər və sonralar Türk Maniçilərinə, Məzdəkçilərinə qarşı soyqırım yola salmaları, Babəkin milli dirənişinə qarşı Xorasanda İslam-Ərəb Xilafətinə bağlı olan yerli İslam- Fars hakimlərinin bəlli düşmənçiliyi, "Çaldıran savaşı"[62] ilə başlanmış faciəvi tariximizin sürəcində hizmət örtüsü altında gizlənən Fars kökənli siyasətçilərin rolu bu ilginc ilişginin bir neçə örnəyidir. Göründüyü kimi, yuxarıda sadalanmış ilişgi tərzinin sonucu olaraq 1925-ci ildən bəri panFarsizm öz əlimizlə özümüzə hakim kəsilir. Fars -Türk ilişgiləri şovinist siyasətinə çevrilir. Tarix boyu Fars kimliyini qoruyub saxlayan Türk gücü həmin Farslıq əlilə məhvə sarı yuvarlanır. Və avtoritar-şovinist Pəhləvi Fars şahlığıyla başlanan anti-Türk, anti-Azərbaycan siyasəti totalitar-şovinist islam Fars rejimilə davam etməkdədir.

## İki ayrı yaşam sürəcindən formalaşan iki ayrı kültür biçimi!

Türk və Fars kültürlərinin formalaşmasında, onun bugünkü duruma gəlməsində tarixsəl faktların dəyişməz rolu olmuşdur. İstər Türk tarixçiləri, istərsə də Fars tarixçilərinin göstərdiklərinə görə, bu iki toplum hər zaman öz dəb, gələnək və görənəklərinə dayanaraq yaşantı sürmüş, toplumsal və sosial qurallar yaratmış, həmin qurallara dayanaraq kültür biçimləmiş, dövlətlər yaratmış və bu dövlətləri gücləndirərək milli əxlaqlarına uyğun imperaturluq sistemləri qurmuşlar. Elatlıq və oturaqlıq birləşməsindən biçimlənmiş Türk yaşam fəlsəfəsi Türk mədəniyyətinin zənginliyi və tükənməzliyinin özülü[63] olmuşdur. Gənəl Türk gələnəyinə böyük qatqılar verən, Azərbaycan Türklüyü əslində öz kökünün təməl daşını Türk kimliyindən almışdır. Azərbaycan Türk mədəniyyəti, hətta gücsüz dövrlərdə belə, öz verimli etgisini eldən verməmişdir. Çünki, geniş

[62] Sultan Səlim və Şah İsmayil arasında olan savaş yeri. Açıklamak gerekirse bu savaş Türk tarixinde en talehsiz savaşdır.
[63] təməli

alanda kök salan Türk yaşam fəlsəfəsi, bir alanda məğlub olarkən başqa alanda fatih yaşamı sürə bilmişdir. Bu üzdən heç zaman tam olaraq məğlub duruma düşməmiş, sürəkli olaraq yaşamış, yaratmış və geniş izlər buraxmışdır. Bir çox tarixsəl faktlara dayanaraq milad öncəsindən bəri Fars (pars) mədəniyyətinin örnəkləri kimi göstərilən Əhəmənilər, Sasanılar, Səfəvilər, Avşarlar, Qacarlara xas olan saray və anıt izləmləri bütünlüklə Türk memarlığından alınmış, Türk ustadları əli ilə qurulmuşdur. İslamdan sonraki dövrlərdə Türk sərkərdələrinin İran adlanan yerdə hegomonluğu, Türk mədəniyyətinin də bölgədə üstün mövqe qazanmasına zəmin yaratmışdır. Ancaq Mediya (Mad), Manna, Orarto, Qutti-Lullubi, Elam və başqa Türk və yapışımlı dilli ellərə aid olan naxışların Sasanılara və Həxamənişlərə (Əhəmənilər) aid olan kitabələrdə görünməsi olduqca düşündürücüdür. Həmin kitabələrdə görünən Türk və başqa ellərin əlində olan qızıl parçaları, bugünədək gözəlliyini saxlamaqda olan zivər-alətlər Türklərinin taysız və yüksək kültürünün göstərgəsidir. Bu haqda Fars tarixçisi N. Purpirar, Türk kələməsini dilinə gətirmədən belə örnək verir:

...Əgər daş kitabələrdə adı geçən məğlub millətlərin milli, qovmi (tayfa) və fənni kültürəl nailiyyətlərini qalib imperatura təqdim etmə məcburiyyətini qəbul edərsək, o zaman Daryuş dönəmində bu qovmlarin hər birinin keçirdikləri mərhələləri onların paltarlarından, silahlarından, yanlarındaki vəhşi heyvanlarından, əl işlərindən və digər vergi sovqatlarından müəyyən edə bilərik. Məsələn təsvirlər söyləyir ki, Sekrtilər toxumaçılıqda və at tərbiyə etməkdə ustadmışlar və onların imperator hüzuruna gələn elçilərin gətirdikləri hədiyələr göz qamaşdırıcıdır.

... Ancaq üç, Part, Bəlx və Ari[64] heyyətlərinin paltar və hədiyələri onları köçəri, tarımla hələ tanış olmamış və primitiv əl işlərinə sahib olan qovmlar kimi göstərməktədir. Bu üç heyət və ümumiyyətlə bütün heyətlər arasında Arilər ən aşağı ictimai rütbədə yer almışlar. Onların paltarları Zabul qumsallığının əlbisəsidir. Ancaq dəvə və aslan dərisini hədiyə olaraq gətirmişlər və hədiyələrinin içində görünən iki naxışsız kasa başqa

[64] Ariya

heyətlərin kasaları ilə müqayisədə sənət zövqündən məhrum olan saxsılardan ibarətdir. [65]

Yuxarıda adı çəkilən Sekrtilər, çox gümanki çeşitli adlarla səslənilən bügünkü Azərbaycan Türklərinin ata-babaları kimi sayılan haman İskitlər, Sakalar, Masajetlər, Dahılar, Samartlar olmalıdır. Belə olan halda Fars yazarın gətirdigi faktlara görə, İskitlərlə Arilərin mədəni ölçüsü ölçülməz dərəcə fərqli və tam olaraq bir-birindən ayrı və bağımsız idi. Fars tarixçisinin gətirdigi faktlara görə, İskitlər olduqca mədəni, kifayət qədər Elat və Otraq mədəniyyəti sentez halına gətirmiş bir əxlaqsəl və qanunsəl millət olmuşlar. Onlar çox mahir atçılar, usta toxucular, daha modern geyim tikiciləri, naxışlı məfrəq qablar sənətçiləri, zamana görə yüksək dərəcə savadlı, millət və torpaqlarına qarşı düşmənlərinə acınacaqlı döyüşçülər və barış zamanı qonşularına görə semimi dost olmuşlar. N.Purpirarın gətirdiyi dəlillərə görə, Arilər bütün ellərin içində ən geri qalmış, yoxsul, bədəvi və toplumsal mədəniyyətdən uzaq qovm halında yaşamışlar. Ancaq buna baxmayaraq onlar güclü olan zamanlar unitar və mərkəzçi dövlətçiliyə söykənərək tarixin ən qəddar mərkəzçi hakimiyyətlərini yaratmış və onun necə qəddar imperya olduğunu dünyaya car çəkmişdir. Bu haqda Farsların ilk tarixsəl kitabələrindən olan Bisütun daş qazmalarında Daryuşa aid yazıda belə gəlir:

“Bu ölkədə mənə vəfadar olanları təqdir və təlfiq etdim və hər kəs mənə təslim olmadı isə onu dəhşətli cəzalandırdım” ... “Mən onun həm burnunu, həm qulağını, həm də dilini (Midiya istiqlalçı sərkərdəsi Fərurəti nəzərdə tutur) kəsdim və gözlərini oydum. Sonra da onu sarayımın qapısına bağladım ki, hər kəs üçün örnək olsun, ən sonunda isə onu Həmədanda dara çəkdim və bütün seçgin yandaşlarını qalanın içində boğazından asdım”.[66]

---

[65] *(N.Purpirar. türkçəyə tərcümə Güntay Cavanşir “on iki əsr sükut!” kitabından səh.113-114).*

[66] *(N.Purpirar. türkçəyə tərcümə Güntay Cavanşir “on iki əsr sükut!” kitabından səh.48 - 49 - 50).*

Göründüyü kimi ən əski zamanlardan bəri Türk və Fars kökləri bir-birindən ayrı olmuş, dil, inanc,[67] kültür və bütün yaşam alanında özlərinə aid olan varlıqlara dayanaraq günümüzə qədər uzanmışdırlar. Bu alanda daha dərin və bilimsəl araşdırmaların işiq üzü görməsinə dərindən inanır, əminəm ki, gənc millətçi yazarlarımızın verimli və etgili çalışmaları millətimizin gizlədilmiş tarixini üzə çıxarıb, dünyanı gərçəkliyimizlə tanış edəcəkdir.

## İki aparıcı milli kimlik sentezinden doğan barışmaz qalib-məğlub ilişgilər!

Bir çox halda iç-içə girmiş iki ya neçə aparıcı və dominant ulusal varlığın vahid dövlət çətiri altında yaşaması mümkun olası deyildir. Bu tablo doğuda və özəlliklə orta doğuda olunca qaçırılmazdır və kəsinlik qazanır. Ona görəki, zaman içində hər hansı səbəb üzündən qalib varlığın dövlət səviyəsinə yüksəlməsi ilə başqa varlıqların duruqlama dövranı başlayır. Milli kimliyi tapdaq altında qalan məğlub olmuş rəqib millət keçmiş gücünü ələ gətirməyə çalışarkən, dövləti əldə edən qalib millət isə bütün imkanlardan yararlanaraq ulus-dövlətçilik uğrunda qarşısına çıxanı aradan qaldırmağa çalışacaqdır. İqtidarı ələ keçirən millət, gərəkli və gərəkməz şərtlər altında maddi, mənəvi sümürgə siyasətinə üz tutar. Bu nədənlə belə ilişgilərin ancaq qalib-məğlub olması olduqca doğal və sosialoji qurallara görə tam təbiidir. Bir çox zaman, belə sorğular da ortaya gəlir ki,

a) Bəs neçə millətli imperiya yönlü mərkəz dövlət quruluşları necə uzun sürə belə, davam gətirə bilirlər?

b) Və ya bu millətləri bir-birinə bağlayan nə kimi gizli güc mərkəzi vardır?

c) Bu ilişgilərin təməlində dayanan nə kimi birləşdirici mərkəz dayana bilər?

---

[67] əqidə

d) Nə üçün kökdə, gövdədə, dildə, kültürdə, tarixsəl iddialarda, təməl inanclarda və torpaqda bir-birindən tam bağımsız olan iki və ya neçə aparıcı toplum bir-birinə qarşı oaln gizli nifrət və kindən vaz geçmirlər?

Tarix girişiminə fərqli girən, zaman - zaman qazandığı fərqli milli armanlar və iddialara yiyələnən, tarixdə başqa - başqa imperaturluq və dövlətlər quran iki iddialı və dominant millət yalnız yenmiş - yenilmiş[68] millətlər kimi bir dövlət hegomonluğunda sığışdırıla bilir. Doğal olaraq bu dövlətin demokratik, çağdaş, modern və dünyəvi olması da söz qonusu ola bilməz! Tərsinə olaraq belə dövlətlərin anti insani və anti demokratik olması başlıca şərtlərdən birisidir. Və hətta ən önəmli gərəyi sayıla bilər belə! Paradokslu kültürlər üzərində qurulan hər hansı dövlətçilik sistemində ulusal dəyərlər yalnız qalib kültürə və hakim millətə aiddir. Bu tip dövlətlərdə məğlub kültürlər üçün ulusalliq şansı tanına bilməz, hətta yasaq qanunları tətbiq ola bilir. Bu sistemlər çərçivəsində ulusal ilişgilərin reform yoluyla insancıl demokratizə olması da söz qonusu deyil. Çünki, hakim şovinist hər hansı açılışı özünə qarşı görüb ən ağır təpgilərlə milli reformları basdırmağa çalışacaq.

Fars tarixinin önə çıxması ilə başlanan Türk-Fars ilişgiləri heç zaman normal gedişata yiyələnə bilməmişdir. Çünki, imperia xislətli olan bu iki millətin dövlətçilik sistemi güclü olduğu zaman, bölgəyə təmami ilə hakim olmaq istəmış, bu yolda isə, istər-istəməz, bir-birinin özgürlüyünü pozmağa məcbur olmuşlar. İmperia dövlətçiliyinin mahiyyətində olan milli əritmə siyasəti istər Türk İmperyaları kimi  geniş qapsamı, istərsə də Fars  yarım İmperiyası kimi dar qapsamlı sistemlərdə aşağı-yuxarı eyni sonuca varmışdır. Niyə ki, hər iki sistem öz mütləqliyini saxlamaq üçün başqasının özəl etnikliyini pozmağa çalışacaq və yeri gələrsə bütünlüklə inkar edəcəkdir. Dünyanın tanınmış filosoflarının ortaq düşüncələrinə görə, dövlətçilik bir güc uyqulama sistemidir. Hərgah bu sistem öz doğma etnik alanından genişlənmə siyasətinə üz qoyarsa və ya torpaq genişləndirmə stratejisini hədəf kimi götürərsə, o zaman istər-istəməz imperiya sistemli dövlətə çevrilib, bağlı millətlərin varlığına, dolayı

[68] qalib - məğlub

yollarla hücum etmək gərəyində olacaqdır. Onlara görə, modern dövlətçiliyin ən təməl ikiliyi Huquqsallıq və Siyasallıqdır. Və bu iki təməl yapının birləşməsindən ortaya qoyulan "toplumsal anlaşmanın„[69] görəvi isə mədəni vətəndaşlıq yaratmaqdır. Göründüyü kimi, sorunun üç bucaqlı bir yanıtı ortaya qoyulur. Belə ki, sorunu Fəlsəfiləşdirmədən, onun İdeoloji yöntəmini bəlli etmədən, Siyasi görüntüsünə yetişmək mümkun olası deyil. Olmayınca da, sözsüz ki, dövlətçilikdə təməl rolu olan hüquqsal - siyasal qurallılıq yerinə cabbar dövlətçiliyi [70] yaranar. Dünyanın bir çox özgür və bağımsız siyasi düşünürlərinə[71] görə, hərgah toplumsal bağlılıq örnək bir toplumun qalib etnikinin dil, din, kültür, gələnək və bir sözlə ulusal bağlantıların ruhsallığına qulluq edə bilməsə, onda bu nəticə ortaya çıxır ki, bu toplumun fəlsəfi, ideoloji və siyasi yapısında doğal bağlantı yoxdur. Bu üzdən orada sözün düz anlamında modern dövlətçilik normasını da görmək mümkun olmur. Ancaq nə olarsa olsun, toplumsal bağlılıq olmadan da, dövlət qurmaq olur. Təbii ki, bu sayaq dövlətçilik Cabbar Dövlətçilik adlanır. Cabbar Dövlət sistemi nə qədər də böyük və geniş olsa belə, fəlsəfi baxımdan açılışmaya qadir deyil. Çünki, onun vahid millət təməli yoxdur. O dövlət bir törədici qarışqadansa, tökədici dev bir həyulaya bənzər. O yalnız tökədicidir. Onun alt yapısında ruhsallaşmış toplum bağlantılar deyil, kəsintisiz, sürəcli yenik-yenmiş çəkişmələr və barışmaz anti-nomilər yerləşməkdədir. Bu üzdən Cabbar Dövlətçilik öz varlıq fəlsəfəsini yürütmək yolunda mütləqçiligə meyl göstərməli, qarşısında təhlükəyə çevriləcək hər hansı məğlub toplumun varlığını milli əritmə siyasətinə uğradacaqdır.

Nikolo Makiavelli[72]-nin fikrincə: "İnsanların alt yapısı kötülüklə-yaxşılıqdan yoğrulmuşdur. Buna görə, uğur qazanmaq istəyən hakim gərək ki yarı aslan, yarı tülkü olsun*!*".[73]

---

[69] ictimai müqavilə
[70] monarşi(monarchy) dövləti
[71] mütəfəkkir
[72] Nikolo Makiavelli,1469-1527 illəri arasında yaşamışdır. O, Floransın(İtaliyanın) Fransadan qurtuluşu üçün adlım Şəhriyar əsərini yazan filosof və siyasətçidir.
[73] *(Devid Epter,Aydınlıq ənənəsi, Ettelaate siyasi-iqtisadi, il 1996, N 105-106, S 74).*

Sözsüz ki, N.Makiavelli kimi əsir vətənli olan ortaçağların adlım filosofunun intiqamcıl ruhundan sıçrayan bu sobjektlər İtaliya millətinə hükümdarlıq edən Fransa imperiyasına qarşı xoş niyyətli tezist kimi düşünülməlidir. O İtaliyanın bir daha əsir düşməməsi üçün cabbar dövlətlər kimi cabbar olmasını istəyirdi. O, İtaliya millətini qoruyacaq güclü şəhriyar axtarışında idi. Bir sözlə İtaliya bağımsız olmalıdır. İtaliya bir daha böyük dövlətlərə yem olmasın diyə, özü böyüməlidir. İtaliya millətinin yaşaması üçün qutsal əxlaqlıqdan sa, heç də yaxşı olmayan cabbar şəhryar gərəkir. Ola bilsin ki, qutsal əxlaqçılıq, yolunu azıb İtaliyanı bir daha düşmənlərə qapdırsın, amma cabbar şəhriyar özündən öteri olsa belə İtaliyanı nə düşmənlərə və nə kilisaya qapdırmayacaqdır. Bəlkə də Makiaveliyə görə, İtaliyan etniki təməli üzərində qurulacaq İtaliya şəhryar dövlətçiliyi, azad İtaliya toplumunun millətəşməsi yolunda tanrı göstərişdir. Niyə ki, uzun zaman qalib imperiyalara məğlub olan bir toplum, azad olandan sonra belə, aşağılanmış psikolojidən normal duruma keçmək üçün doğma və ötkəm şəhryara möhtac görünəcəkdir. Deməк, İtaliya skolarizmini söküb, milləti imperiyalara təslim edən kilisanın məğlubiyyətindən qurtarmaq üçün, doğma şəhriyarın olması İlahi əmir kimi sayılmalıdır.

Bir çox sosioloq düşünürlərin axtarışında, insan əsas objekt sayılır. İnsanın üzərində çarpıcı və paradokslu çəkişmələr yapılır. Biri insandan öteri düzəni gərəkli sanır. Biri düzəndən ötəri insanın huquqa söykənməsini ortaya qoyur. Başqası isə millət sarından qorunan güclü dövləti öz sorqusunun yanıtı hesab edir. Ancaq hər hansı şərtlər içində olursa-olsun dövlət ilə millət arasında uyqulanan Huquqsal - Siyasal qurallılığın dord – Huquq, Qoruma, Güc, Düzən amilinin vəhdəti yalnız və yalnız Millət-Dövlət Dövlətçilik sistemi düzeyində harmonilәşir. Belə ki, millət yalnız öz milli kimliyi yapısı üzərində dayanan halda, milli dövlətini mənimsəyib, onu qoruyur. Millət yalnız öz doğma dövləti tərəfindən qurulmuş güc alıcı və düzən verici orqanlara xoşgörü ilə yanaşır. O ulus[74] yalnız , öz doğma dövləti tərəfindən önərilmiş huquq normallarına dayanaraq milli qorunma sistemində canla-başla ortaqlıq edər. Bunun tərsi olaraq, məğlub millətlər üzərində qurulmuş koloni

---

[74] millət

dövlət, heç zaman adı sadalanmış dörd millət-dövlət ilişgi yapılarını icra sürəcinə gətirə bilməz. Qalib imperiya dövləti millət-dövlət əməkdaşlığının üzərində oluşan doğal çalarların həllində etgisiz qalandan sonra məğlub toplumları tab`e halına gətirmək yolunda, onlara qarşı yalnız əlində olan güc tətbiqini ortaya qoyar. Beləliklə, istər-istəməz yalnız bir seçənək yoluna düşər. Cabbar Dövlətçilik yoluna!

Məğlub millətlərin hər hansı milli dirənişməsinə qarşı önləmlər düşünən cabbar dövlət, yaranacaq milli çalarlardan uzaq olmaq üçün hər əməldən öncə öz doğma etniki üzərində psikoloji kompania yaratmağa başlayar. Çalışar ki, döğma etnikinə sürəcli imkan açmaqla onun psik gücünü aşırı hala gətirsin, özünü üstün tutma xəstəliyinə uğratsın. Bu durumda hər şeyin mərkəzləşməsinə meydan açaraq ölkəni bir mərkəzli mütləqiyyətə yönəldər. Cabbar Dövlətlə əsir toplumlar arasına açılan aranın gündən-günə artması ilə ortaya sərgilənəcək milli düşmənçiliyin izləri görünməyə başlayar. Məğlub millətlərin cabbar ve qasib dövlətə qarşı dirənmə gücünün artması ilə ölkə bütün siyasal, ekonomi, qorunma, sosiyal, kültürəl, qurumsal v.b. alanlarda gizli və yavaşcasına savaş pozosionu alar. Bu aşamadan sonra kimsə savaşa dur diye bilməz. Hakimlik gücü ilə əsir topluluqlara divan tutan etnik dövlətin savaş maşınları bütün kültürəl, siyasal, sosial, psikolojik, hərbi v.b. alanlarda yola düşər. Öz doğma etnikilə psik birləşməsinə girən dövlətin məğlub topluluqlar qarşısında uzun sürəli hakimiyyət etməsində doğma etnikin danılmaz rolu olar. Çünki, İmperaturçu dövlətin stratejisinin böyük payı doğma etnik üzərinə qurulur. Başqa anlamla desək, koloni dövlətçilik sisteminin ən son stratejisi öz doğma etnikini başqa etniklər qarşısında əsgər yapmaqdır. Bu üzdən qalib etnik dövlətin uzantısının sonucunda qalın etniklə məğlub etniklərin qarşı savaşa girməsi də qaçırılmaz olar.

Buna bənzər tablonun üzərində dayanan, Orta çağın ünlü filosofu İngiltərəli Tomas Hobbs belə yazır: “Bu durum hər şeydən artıq bir savaş zamanına bənzəyir. O zamana bənzəyir ki, insan özünün kişisəl (şəxsi) gücü və özəl çıxarından başqa heç bir maraq tanımır. Belə durumda, əlbətdə ki, yer üzündə sənət və kültürdən danışmaq olmaz. ... yer və zaman dəyərləndirməsi yapılanmayacaq, toplum, incəsənət, ədəbiyyat heç

biri olmayacaq. Onun yerini qorxunc və ölümcül dəhşət alaraq insanları tükənməz qorxu və ölüm təhlükəsinə sürükləndirəcəkdir. İnsan kimsəsiz, yoxsul, əsəbi və vəhşi olunca, ürəyi dərdə düşüb, yaşamı isə qisa sürəcək”.[75] Ancaq T. Hobbsa görə, bu görüntü bir az, tədbir, bir az da, qanunla gücün birləşməsi ilə yumşaldılmalı və yaşadılmalıdır. Çünki, qanunlar uyqulanmalı, başqa anlamda, tətbiq edilməli və düşüncə çeşidliliyini özündən asılı etməlidir. Qanunlar hakimlərin güc ölçüsünü bəlirləndirməli və görəvin nə olduğunu tanımlamalıdır. T. Hobbs, bunların hamısını hakim əlinə verməklə, tam N. Makiavellinin seçdiyini təsdiqləyir. Ona görə ki, bunların hər ikisi bir toplumun içində çox çeşidliliyin çökdürücü olduğunu vurğularkən, toplumun dövlət və millət eyniliyinin düzən, güc, qanun, güvən və qoruma açısından gərəkli olduğunu önə çəkirlər. İlkin modern dövlətçiliyin çeşidli olğularına baxmayaraq, çağdaş və modern dövlətçiliyin bəlirlənmiş dominant (aparıçı) bir millət üzərində qurulması ən doğal və gərəkən təməl kimi qəbul olunmaqdadır. Niyə ki, çağdaş və demokratik dövlətçilik sistemində problem, problemini aradan qaldırmaq üçün, problemi problemlikdən azad etmək gərəkir. Bu, o deməkdir ki, doğal olan hər şey, özlüyündə problem olmasa da, özlüyündən uzaqlaşan zaman, mütləq problemə çevriləcəkdir. Demokratik və çağdaş dövlətçilikdə, böhrandan qaçma elə bir aşamaya çatmışdır ki, artıq onun üzərində dialoq belə aparılmayır. Başqa anlamla deyilsə, modern dövlətçilikdə problemə çevriləcək hər hansı olumsuz nüqtə, problem olmadan aradan qaldırılmalı, onun böyümə enerjisi cansizlaşmalıdır. Bu üzdən demokratikləşmə sürəcinə girən hər hansı dövlətin ilk planını kör problemlərin aradan qaldırlması təşkil edir.

Sözsüz ki, kor problemlərin ən zirvəsi “neçə toplumlu dövlətçilik”dir. Tarixsəl faktlara görə, bir çox iqtidarlı dövlətin əsasını sarsıdan güc, həmin dövlətin hakimiyyətinə boyun əymək zorunda qalan etnik toplumlar olmuşdur. Sumer imperatorluğundan uzanan Osmanlı imperatorluğunadək 7000 illik təsbit olunmuş dövlətçilik sistemlərinin bir çoxunun təməl pozulma nüqtəsində etnik probleminin olduğu görünməkdədir. Çağdaş sosioloqların ortaq düşüncəsinə görə, hər hansı

[75] (*Devid Epter. Aydınlıq ənənəsi. Ettelaate siyasi - iqtisadi. Tehran.1996. Say 105 -106. səh. 75).*

dominat və ya aparıcı etnikin, bir başqa etnik içində əritilməsi, nova bombası kimi gizli və viran edici təhlükədir. Bu üzdən çağdaş və demokratik dövlətçiliyin güvənc içində yaşamasının ön şərti, onun etnik problemlərdən azad olmasına bağlıdır. Net və netləşməkdə olan faktlara görə, yalnız çağdaş və demokratik ulus-dövlət sisteminin uyqulanması ilə azad qonşu dövlət ilişgisinə ümid bağlamaq olar. Yalnız qonşu dövlətlərin etniksəl problemdən azad olunmasıyla bitişik torpaqlarda yaşayan millətlərin qarşılıqlı barışı sağlana bilər. Etnik problemdən azad olan dövlətlərin bölgə və dünya barışında da, payı olduqca böyükdür. Sadəcə etnik problemdən azad olan dövlətlər, öz insanları içində xoşgörülü - toloranslı vətəndaşlıq qurallarıı qura bilər. Etnik sorunların həll olmasıyla doğma kültürlər qatışıqlıqdan və eybəcərlikdən qurtarar, yenidən düzən tapar. Gənəllikdə tarix girişiminə fərqli girib, özəl millət kimi biçimlənən bölgədaş ölkələrin siyasi qarşıdırmasının ən böyük sorun, milli sınır və etnik çarpışmasıdır. Tarixin bəlli bir anında iç-içə girmiş milli sınırlar, uzun zaman buyunca milli etniklər arasında ulusal anti-nomilərin ortaya gəlməsinə nədən olmaqdadır. Belə ki, hətta zaman keçidində barış əldə olandan sonra belə, yaranmış düşmənçiliklər təmamilə aradan getmir. Bəlkə onun psikoloji etgisi keçmişin qara bulutlarını aradan qaldırılması yolunda təməl əngəllər kimi özünü göstərir. Beləki,

a) Zədələnmiş bir milli kimlik.

b) Təslimçiliyə uğramış bir milli iradə.

c) Yasaqlıq yaşamış ulusal bir dil.

d) Tarixsəl yaddaşı silinmiş özəl bir varlıq.

e) Unutqanlığa sürüklənmiş bir milli kültür.

f) Uzun illərin məhsulu olan bir toplumsal inanca qarışı yox edici çalışmalar.

g) Bir millətin varlığından yaranmış yazılı-yazısız yazınına[76] qarşı cinayət işləmi[77].

---

[76] ədəbiyyat
[77] əməliyyatı

h) Torpağı yabancı dövlətlərin gücünə təslim olmuş, dövlətçiliyi basılmış aparıcı və başat[78] bir millətin aşağılanması v.b.

Azad olması ilə əsarət izləri sürətlə silinmir. Bəlkə, yalnız azad olma sürəcində yaşam haqqı qazanar. Bu, o deməkdir ki, özündən üzülmə sürəci dayanır və yenidən doğuş aşaması başlayır. Bir sözlə desək, milli bir varlığın hafizəsi yenidən canlanar. Millət bütün hirsilə var-yoxuna yiyələnməyə başlayar. Azad olmuş millət, tarixsəl yaddaşına qarşı qalxan millət və dövlətləri nifrət psikolojisi ilə qarşılamağa qalxar. Keçmiş ulusal düşmənləri qarşısında üstünlük yaratmaq amacı ilə siyasal, sosiyal və psikoloji kompanılar yola salmağa çalışar. Torpaq və millət sevgisinin azad olunması ilə, insan təbiətində ən saf və ləkə götürməz fədakarlıq duyğuları pöhrələnməyə başlayar. Bir daha özgə buyuruğuna baş əyməsin diyə, azad olmuş millət, öz dövlətçiliyinin qorunması yolunda hər an ölməyə hazır olduğunu sağlayar. Bu çox düşünülməli və qaçırılmaz bir keçid sürəcidir. Bu keçit sürəcinin sağlam keçirilməsində başlıca görəvi, yeni yaranmış milli dövlət üzərinə götürməlidir. Çünki, aşağılıq kompleksindən qurtulan toplum, hər bir olay üzündən etgilənməyə hazırdır. O, Hətta yenidən intiqam savaşına girmək qədər duyğusal davranmaya əlverişli durumdadır. O – azad olmuş millət – keçmişi savunan hər hansı milli-siyası davranışa qarşı olduqca həssas və tədirgindir. Onun yaşamına hakim olan, uzun sürəcli toplumsal qaramsallığın yerini özgürlük və ulusal bağımsızlıq alarkən doğal anarxizmin ortaya çıxması da gözlənilməlidir. Bilimsəl davranışlarıyla toplum içində gərəkən xoşgörü və aydın görüşlüyü sərgiləmək yeni yaranmiş milli dövlətin ən vaz keçirilməz görəvidir. Yeni yaranmış milli dövlət toplumçu və paylaşımcı bir siyasətlə özveriliyi kütlə içində yaradar, aşırı özsevərlik yerinə yurdsevərlik duyğularını gücləndirər. Dövlət toplum içində dağınıq duruma düşmüş imkanların olumlu olmasına çalışar. Dağınıq imkanların bir araya toparlamasıyla onları topluma qazandırar. Belə olarsa, toplum içindəki doğal anarxizm də önlənər, yeni dövlət uğrunda irəliləmə dönəmi başlarkən ilk ulus-dövlət izləri özünü göstərər. Sürətlə ulusal mənfəətlərə meyl göstərən toplum, millətləşmə

[78] aparıçı-dominant

ünsürlərinə yiyələnməklə, olağan üstü imkanlar əldə edər. Dünya bir millətin yenidən doğuşuna tanıq olar. Bu qonuda orta çağın ən görkəmli filosoflarından birisi olan “Jan Jak Roso” deyir:

“Sözsüz ki, bilgi və fəzilətin yaranmasında ən aparıcı rolu yurd sevərlik oynayır. Bilgi və fəzilət gözəlliyi ilə bəzənmiş, incə və canlı yurd sevərlik, elə güclüdür ki, qarşısında olan bütün əngəlləri aşaraq, ən duyğulu qəhrəmanlıqlar ortaya qoyar.”

# 2. Bölüm

## Azərbaycan Türklüyünün ulusal kimlik biçimi

### Azərbaycan Türklüyündə tarix anlayışı

Sözsüz ki, tarix bilgisinə yiyələnməyən hər hansı toplum, istər - istəməz, azadlıq və özgürlük anlamını mənimsəməkdə ağırlıq çəkər. Bir millətin, nə ölçüdə millət olmasının təməlində tarixsəl bilgi yatır. Ulusal kimlik [79] biçimlənməsində [80] tarix amili ən təməl omurqadır [81]. Tarix bilgisi, milli kimlik bilincinə anlam verir. Hərəkət yönünü bəlli edir. Bir toplumun millət halına gəlməsində onun Milli Beynini genişləndirir və ona özəl baxış açısı verir. Tarix bilgisi özgür toplumların sürəkli ulusallaşmasına yardımçı olarkən, özgürlük savaşında olan əsir toplumlar üçün də vaz geçirilməz dayanışma, dirənmə və milli ideya bağlantısıdır. Hər millətin milli tarix anlayışı, o millətin bütövlüyünün qarantısı olur. Tarix anlayışı bir milləti mənəvi bölünmələrdən, millətaltı, millətüstü əngəllərdən, uzun müddətli coğrafik və fiziksəl qopuqluqlardan qoruyur.

Söz yox ki, torpaqlar tarix boyu parçalanarkən dövlət sistemindən uzaqlaşa bilir, hətta qalib dövlətlər tərəfindən onun əsil sahibləri sürgünə belə göndərilə bilir. Ancaq öz kökü üstündə bitən toplumlar bütün fəlakətlərə qatlanaraq yenidən dirçəlməyi başlır, bir daha doğuş yapır, boy

---

[79] şüurunun
[80] oluşmasında
[81] bel dayağı/ sütun-e fəqərat

atır və dövlətlər sırasına girməyi bacarır. Azərbaycan Türklüyü bir tarixsəl varlıq olaraq bu haqda bir canlı örnəkdir. 16-ci yüz illiklərdən başlayaraq Farsın ən böyük baş bəlasına çevrilən Rus Çarizmi, Steplərdən başlayan 300 illik qalib yürüşünü Azərbaycanı bölməklə başa çatdırdı. Qacar Türklərinin Fars sülaləsi ilə dəyişməsi, ölkəmizin bütünlüklə işqal olunmasına yol açdı. Quzeydə rus, Güneydə isə Fars asimilasiyon siyasəti yürüyərkən millətimizin yox olunmasına hököm sürüldü. Başda Türk dili və tarixi basqıya uğradı. Çünki, onlar bu millətin dil və tarix varlığının nə gücə malik olmasını bilirdilər. Düşmənlər, Azərbaycanda bütün varlıqların kökündə Türklüyün dayanmasını görür, bu millətin asimila olmasının başlanqıcını doğru başa düşmüşdürlər. Bu üzdən öncə budağı kökdən ayırmaq gərəkirdir. Elə buna görə, kor zehniyyət yaratmaq, milləti öz adından, tarixindən uzaqlaşdırmaq projəsi şiddətlə davam edirdi. İstər öz, istərsə özgə alanlarda çeşidli adlar, terminlər və anlayışların kəsilmədən ortaya qoyulması da bu acı yürüşə qulluq amili olmuşdur. "İran Türkləri", " İran Azərbaycanı", " Rusiya Azərbaycanı", " Şurəvi / Sovet sosialist Azərbaycanı", "Azəri milləti", "Azəri xalqı" "Aran milləti", "Qafqaz Azərbaycanı", v.b. terminlərin işlədilməsi sistemli bir qoparma stratejisinin ayrılmaz bölməsi kimi hər gün millətin qafasını qarışdırmaqda idi.

Plan, Azərbaycanın Türk dünyasından qopması idi. Bu qopuqluq ən başda beyin dəyişməsi ilə başlar, Türk tarixini parçalamaq və onun ortaq düşüncə mərkəzini aradan qaldırmaqla davam etmişdir. Elə bu yürüşün sonucudur ki, Azərbaycan Türklüyünün bugünkü siyasal, geopolitik, ekonomik və sosial yaşam tərzində fəlsəfə uyuşmamazlığı[82] aydıncasına görünməkdədir.

## Azərbaycanın tarixsəl yeri və yönü.

Özünün özəlligi, bitişik doğası, etnoqrafik durumu və tarixsəl axışıyla başqa etniklərdən fərqlənən Türk dünyası və yaxud Türküstan, Asiyanın batısında, önündə, ortasında və doğusunda yerləşən alt - üst 7 - 8

[82] bir-birnə uyğun olmaması


RUSSIA
MONGOLIA
CHINA
ŞİRVANŞAHLAR DÖVLƏTİ
SACİLƏR DÖVLƏTİ
SALARİLƏR DÖVLƏTİ
Xəzər
dənizi

milyon kvatrat metrlik böyük bölgə sayılmaqdadır. Bu böyük bölgənin güney sınırları İran adlanan yerin quzeyində yerləşən Gürgan Çayını, Xorasan Dağlarını, Kopet, Baba, Mezduran, Tapcak və Ağ Dağlarını içinə alaraq güney doğudan Hindkuş, Mustaq-Kuenker Sıradağlarına, güney batıdan isə Xəzər həndvərindən daha güneyə sarı Azərbaycanın Ələmut, Əlvənd dağlarını içərərək Həmədan (Əsədabad) bozqırlarından Zaqros sıradağlarına, oradan da Kürdüstan, Süleymaniyə dağları, Musul, Kərkük ucalıqlarını, Anadoludan Ağdənizə çəkilir. Bu sınırlar başqa yandan isə, Doğu Türkistanı seyr edib Qazaqistanın quzeyindəki İrtiş bölgəsini, Aral-İrtişi dövr edərək Quzey yamaçlarına dayanır. Həmin bölgə batı sərhədlərində Quzey Ural Dağından çəkilərək Yayıq və İtil[83] çaylarının Xəzərə dayanan yerlərini ihatə idir.

Başqa sözlə, Azərbaycan, Batı Türkistanın ən güney sınırıdır. Üstəki xəritədə də göründüyü kimi qırmızı cizgilə bəlirlənən Azərbaycan, Türkistanın və yaxud  Fars bitişik sınırlarının ən güney bölməsidir. Bu bitişik sınırların genişliyində yayğınlaşan Türk ulusu gənəlliklə Batı, Doğu və Quzey Türkləri adıyla tanınmaqdadır.

a) Batı Türklərinin yayıldığı bölgələr: Türkiyə, Azərbaycan (Ərakdan Dərbəndədək), Quzey Qıbrıs, Qaşqayistan, İsfahan (Fridən..), Tehran (böyük bölümü) və İran adlanan yerin başqa-başqa bölgələrində yerləşən Azərbaycan Türkləri, Rusiya, Suriyədə yerləşən Cövlanda, İraqın quzeyinin bütünlüyündə (Ərbil, Kərkük, Musul, Təll Ətər, Məndəli, Duzxurmat), Gürcüstan(Qara yazı, Borçalı, Abxaz Türkləri, Axısqa Türkləri /bütünlüklə Azərbaycan Türkcəsi danışırlar/), Ermənistan, Yunanistan, Bulğaristan, Bosniya, makedoniya, Qaradağ (Montneqro), Muldaviya.

b) Doğu Türklərinin yayıldığı bölgələr: Batı Türküstanda yerləşən Türkmənistan (Quzey-Güney), Üzbəkistan, Qırqızıstan, Qazağıstan, Xurasan, Qaraqalpaq Türkləri və Çinin işqalında olan Doğu Türküstanda (Sincan bölgəsi, Qaşğay, Urumçu v.b. şəhərlər) yerləşən Qazaq və Uyğur Türkləri.

[83] İtil/indiki Volka çayı

c) Quzey Türklərinin yayıldığı bölgələr: Sibir Yaqut Türkləri, Tüvalar-Xaqaslar (Abaqan Türkləri), Altay Türkləri, Volqa və İtil Türkləri, Oral yaylaqlarında yaşayan Sibir Tatarları, Qazanlar, Başqurdlar, Çuvaşlar, Krim Tatarları (Krime - Ukrayına), Qafqaz və Dağlıda yaşayan Qaraçay, Malqar, Noğay, Komuk, Macar, Fin, Litva və Qarayı Türkləri.

Göründüyü kimin geniş alanda yayılan Türk Ulusunun tarixsəl evi, Çindən çəkilərək Adriatik dənizinə dək uzanır. Bu uzantı çox böyük yayla[84] və düzləri içərən[85] bölgədir. Belə ki, Türklər, bugünkü Türkiye, Azərbaycan (Zaqrosdan-Kiçik Qafqazadək), İran, İraq, Suriya, Misir, Qibris, Yunanistan, Bulğaristan, Makedoniya, Bosniya-Herzek, Kozova, Krovatiya, Qaradağ (Montneqro), Məcaristan, Finlandiya, Rusiya Federasiyonu, Moldaviya, Ukrayına, Romaniya, Gürcüstan, Ermənistan, Əfğanistan, Pakistan, Çin, Türkmənistan, Qırqızıstan, Tacikistan, Qazağıstan, Üzbəkistan v.b. kimi ölkələrin ya bütünlüyündə ya da bölgələrində yurd salmış və tarix yaratmışdır. Bu yurd salmanın tarixi o qədər uzaqlara qayıdır ki, cəsarətlə bu torpaqlar Türklərin ana torpağıdır desək yanılmamışıq belə. Hətta tarixsəl faktlara dayanaraq bu torpaqların bir çoxunun ilkin sərkərdələri və dövlət sistemleri Türk olmuşdur. Sözsüz ki, yaşadığımız çağın izləri tarixsəl olaylar və deyişimlərlə bağlıdır. Hər ulus və toplumun harada yaşaması və yurd salması kəsinliklə onun keçmişinin göstərcəsidir.

Dünyanın ən eski 40-a yaxın ölkəsində yurd salan bir ulusun nə qədər böyük və tarixsəl varlıq olduğu danılmazdır. Şərq aləmində tapılan gündəlik abidə və tapıntıların sonucunda Türk izlərinin bulunması o qədər addı və normal halə gəlmişdir ki, tanınmış anti Türk batılı bilgin və alimlər də artıq onu danmağa qalxışmırlar. Türklər tarix boyu qonşuluğunda yaşayan Çinlilər, Monğullar, Parslarla və 15-16-cı çağlarda isə Ruslar, Afğanlılar, Hindlilər və yenə Çinlilər və Farslarla iç-içə olmuş, olaylı tarixlər yaşamışdır. Bu yaşamın ürəyindən doğan böyük insan kültürü və uyğarlığın günümüzədək çəkilməsi, böyük bir varlığın varoluşunun danılmazlığını sərgiməkdədir. Sözsüz ki, bu varlıqların varoluşunda zaman-zaman oluşmaqda olan çeşidli inancların özəl rolu

[84] fəlat
[85] içinə alan

olmuşdur. Ancaq, illər boyu insanları öz etgisi altına alan inancların etgili duruma gəlməsi 2 və ya 3 yüz ilin ürünü yox, bəlkə ən azı minlər ilin və hətta 10-min illərin yenişli-yoxuşlu sürəcinin sonucudur. Azərbaycan isə, bu sürəc içində sistemləşmiş və bu uyğarlığın vaz keçirilməz tərkib hissəsinə aiddir. Sayılı tarix araşdırma mərkəz və inistitotlarına görə, M.Q. 4-cü minilliklərdə Orta asiya və Ön asiya bölgələri Türk etnik sistemi altında olduğunda çeşidli Türk gələnəklərinin də gəlişmə alanına çevrilmişdir.

Son zamanlar "Tarix Sumerlərdən başlanır" düşüncəsinin yayqınlaşmasıyla Azərbaycan və Anadolu tarixinin də bulanıqlığına son qoyulmaqdadır. Çünki, Azərbaycan, Anadolu və Quzey İraq, Seyhun-Ceyhunla Dəclə-Firatı birləşdirən orta zolaq, başqa anlamda isə iki geniş alanın orta yaylalarıdır. Sumerlərin dünyanın ilk mədəni toplum adlanılması, Azərbaycanın da bu mədəniyyətlə yaxın ilişgidə olmasını və ya ən azından bu mərkəzin bitişikliyində yerləşməsini göstərməkdədir. Belə ki, M.Q. ən azı 5 min illiklərdən başlayan Orta asiya axınları Qaradəniz, Ağdəniz, Xəzər və Kəngər körfəzi[86] arasında yurd salmış, bu böyük sulardan etgilənən İkiçay arası[87], Araz-Kur və Urmu, Van, Azaq, Göycə kimi suluq bölgələrdə yayılmışdırlar. Sumerlər İkiçay arası və daha güneyə – Kəngərə qədər çəkilsələr də, eyni kökdən və haman axından olan Quttilər və Lullubilər də, Xəzər Dənizi və Urmu-Van-Göycə-Azaq gölləri arasında böyük güc mərkəzi yaratmış, İkiçay arası sınırlarında Sumerlərlə və az sonra Elamlarla birləşmişlər. Başqa yandan Quttilərə daha yaxın məsafədə olan böyük Elam dövləti və yenə quttilərə bitişik olan Anadolu Orartoları görünməkdədir. Bunlar və bunlara bənzər bir çox örnəklər bugünki Azərbaycanın Etnoqrafikini və özül daşını uluşdurmuşdur.

Qissaca, tarixsəl faktlara görə, M.Ö-sindən günümüzədək uzanan bir kəsintisiz tarix axışı aydıncasına görünməkdədir. Belə ki, Kəngər Körfəzi alanında Sumerlər, biraz quzeyə sarı Zagrosu da içinə alan Elamlardan Ön asiya, Kiçik asiya, Orta asiya və daha ötədə Sibir, İtil və Avrupaya çəkilən torpaqlarda qurulmuş İmperaturluqlar və böyük

---

[86] Kənkər:Smerlərin özlərini səslədiyi ad/Sumerlərin yaşadığı bölgənin adı. Körfəz:xəlic
[87] Dəclə-Fərat çayların arası.

dövlətlər ProTürk, ProtoTürk, EskiTürk, OrtaTürk və ÇağdaşTürklərinin el və el birləşmələri olmuşdurlar. Onlar, bir kök, bir özül və bir ulus olsalar da, geniş torpaqlarda yayğın olduqlarına görə, çeşidli etnik və xalqlarla qonşuluq etmiş, dil, gələnək və yaşam alış-verişi sonucunda özəl kimlikə və çeşidli adlara yiyələnmişlər. Bugün tam əminliklə demək olar ki, dünyanın heç bir etniksəl qurumu və varlığı, Türk ulusu kimi çeşidli adlarla səslənilməmişdir. Hər hansı bilimsəl nədənlərdən asılı olsa belə, Milad Öncəsindən günümüzə uzanan tarix ardıcıllığı göstərir ki, Sumerlər, Elamlar, Quttilər, Lullubilər, Subarlar, Mannalar, Hurrilər[88], Kassilər, Orartolar[89], Hittilər, Midiyalar[90], Turukilər, "Gilzan, Zamua, Qızılbunda, Allabria, Karalla, Buşta, Məssi, Surikas, Alateyə, Uişdiş, Zikertu, Andia, Subi, Sanqibutu, Puluadi, Saklar[91], Qamərlər,[92] Massagetlər, Kassilər, Kaspilər, Arşakla,[93] Atropatenlər, Hunlar, Tabgaçlar, GökTürklər,[94] Uyğurlar, Xəzərlər, Sabırlar, Avarlar, Qənqəllər, Türkeşlər, Qarluqlar, Peçənəklər, Uzlar, Bulğarlar, Finlər, Qıpçaqlar,[95]Qaraxanlılar, Albanlar, Aranlar, Azərbaycan Saciləri, Azərbaycanlılaşmış Ərəb Rəvvadilər, Araz-Kür Şəddadiləri, Şirvanşahlar, Xələclər, Oğuzlar, Səlcuqlar, Atabəylilər, Qırqızlar, Qazaqlar, Türkmənlər, Üzbəklər, Türkmanlar[96], Eldənizlilər, Monqol-Türk birliyi, Qəznəvilər, Xarəzmilər(şahlılar), Osmanlılar, Qaraqoyunlular, Ağqorunlular, Səfəvilər, Azərbaycan Xanlıqları, Avşarlar, Qacarlar v.b. kimi el və el birləşmələri bir etnikdən, bir dildən, bir özül daşdan yə`ni Türk Etnolojisindən törənmiş və çeşidli Türk soy və Türk boylarını yaratmışdır. Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan bu böyük Etnoqrafik və Etnolinquistik dayrənin batı körpüsüdür. Eramızdan qabaq 2-ci min illiyin axırı, 1-ci min illiyin əvəllərində Zaqros dağları bölgəsində bə`zi kiçik bəyliklər yarandı. Gilzan, Zamua, Qızılbunda, Allabria, Karalla, Buşta, Məssi, Surikas, Alateyə, Uişdiş,

---

[88] (Xurrilər)
[89] (Urartu)
[90] (Madlar)
[91] (İskiflər,İşquz)
[92](Kimmerlər)
[93] (Ərəşkilər,Partlar,Əşkanlar)
[94] (Göytürklər),
[95] Kumanlar),
[96] (Türkman Eli, Türkmaniyə, İraq və Suriya Türkləri)

Zikertu, Andia, Subi, Sanqibutu, Puluadi və digərləri vardı. Ancaq onların ən qüdrətlisi Zamau idi...[97]

## Azərbaycanda Türk millətinin gəlişməsi!

Dünyanın ən adlım bilim inistutlarının son araşdırmalarına görə, Türklərin ata yurdu yalnız Orta asiya yox, daha geniş alanı içinə almışdır.“Türklərin əsil ilkin vətənləri olmuş Orta asiya yalnız Xəzər dənizi və Aral gölü arasındakı ərazilə məhdudlaşmamış, bəlkə o, Oral və Altay dağları arasındakı ərazidən geniş, yə`ni böyük, onun şərq kanununda Balxaş gölü, qərb kanununda Xəzər dənizi və mərkəzində Aral gölü yerləşir. Demək bütün Azərbaycan, Xəzərin ətrafı, Zəngan, Qəzvin, Həmədan və hətta çağdaş Türkiyənin şərqi və mərkəzi də Türklərin əsil və ilkin vətənlərinin bir qisməti olmuşdur.”[98]

Bu torpaqların zəngin doğası, heyvandarlıq və əkinçiliyə uyğun olduğu, geniş kütlə axınına nədən olmuşdur. Beləki, M.Q. 5 və 6-ci yüzilliklərdən başlayaraq Sumer axınları ilə yanaşı çeşidli axınlar kəsilmək bilməmişdir. Bu axınların gənəlliklə barış içində olması və qan tökülmədən, basqı yapılmadan gərçəklənməsi gəlmələrlə yerlilər arasında olan ünsiyyət və yaxınlığın göstərgəsidir. Əlbətdə bəzi zamanlar toqquşmaların da istisna olmaması görünməkdədir. Ancaq köçmənlərlə yerlilər arasında olan basqılı ilişgilərin bir çoxu da gözə çarpmaması və olan qaynaqlardan ələ gəlir. Bir çox tarixçi bilginlərə görə, yeni köçlər bugünkü Azərbaycan və həndəvəri üçün güc birliyi, insan çoxluğu, yaşayış bölgələri, qarşılıqlı ilgi alış-verişləri və yavaş-yavaş şəhərləşmə mədəniyyət sistemini ərməğan gətirmişdir. Hər köç özüylə çeşidli yaşam təcrübəsini gətirərkən, başqa köçlərdə də təcrübə qazanmağı bacarmışdır. Bu köçlərin uzun sürməsi və qalibən bir və ya iki, üç yaxın zolaqlardan olması da el birləşmələri və tale birləşmələrini oluşdurmuşdu. Beləki, yol uzaqlığı, fəsillərin dəyişkənliyi, bölgə və daglıqların sərtliyi, vəhşi heyvan

[97] Arazoğlu, Müxtəsər Azərbaycan Tarixi, BAB kitabxanası yayını, Bakı 2000. s21 ).
[98] (*Prof. Zehtabi, İslama qədərki İran türklərinin dili və ədəbiyyatı, Əxtər nəşriyyati, Təbriz, 2001, s9).

yürüşləri, yol üstü olan yerlilərin qarşı durmaları v.b. çeşidli köçmənləri birləşməyə və tal`e birliyinə çəkir və hətta onların əbədi birləşməsinə əl verişli imkanlar yaraldırdı.

Nə isə, yeni gələnlərin yavaş-yavaş yerlilərlə qatılması, yeni inkişaf sürəcinə girən kütlə dilini də zənginləşdirmiş, onun birləşdirici özülünün yaranmasına nədən olmuşdur. Yerli və gəlmə kütlələrin qovuşması və bu birlikdən ortaya çıxan yeni gələnəklər, ProTürk* (Miladdan qabaqki Türk dilinə ProTürk də deyilir. Başqa sözlə İlkin Türk.) sürəcinin də güclənməsinə və mərkəzləşməsinə yol açmışdır. Göründüyü kimi, böyük gümana görə, dünyanın ilkin inteqrasiya oluşumu da buradan başlamışdır. Sümerlərin Güney və İkiçay arasında İlkin Hirogilif (Mixi) əlifbanı yaratması, hər yerdən daha ərkən Azərbaycanda öyrənilməyə və yayılmağa başlamışdır. Çünki, Sumerlərin yaratdığı dil qaydaları və yazı sistemi Azərbaycanda yerləşən el birlikləri üçün böyük alanda daha da doğma idi. Bu açıdan Sumerlərin yaratdığı mixi əlifba o günkü Azərbaycanda çətinlik yaratmadan öyrənilir və yayılırdı. Necəki, az sonra bugünkü Azərbaycanı da içərən Elam imperatorluğu Sumerlərdən alınan mixi əlifbanı daha da geniş və uyğun duruma gətirmiş, sonralar hirogilif sisteminin aşurlara ve Farslara keçməsinin ana mərkəzi olmuşdur. Demək dil, Azərbaycanda oluşan millət və ya toplum yüksəlişinin özül daşı kimi ən önəmli yer almaqdadır. Dilin Azərbaycanda mərkəzləşməsi ilə var olan kiçik qəbilə və qovm deyimləri də çox tez bir zamanda otomatik olaraq assimilə olmağa başlamış, yazının ortaya gəlməsi ilə bütünlüklə aradan getmişdir. Türk dilinin gəlişməsi və var olan yaşama qatqı qatması, Türk yaşam fəlsəfəsinin təməl dayaqlarını yaratmağa başlamışdır. Dilin çevrədən alıçı xasiyyəti və çevrəyə sobyektiv varlıq qazandırması, öz-özlüyündə yiyələnmə və malik olma zehniyyətini yaratmağa başlamışdır. Doğanın insana verdiyi hər obyekt, insan tərəfindən qarşılıqsız buraxılmamışdır. Bu qarşılıqlı alış-veriş Azərbaycan insanıyla Türk dili arasında elə ilişgi yaratmışdır ki, torpaq amili ilə insan amilini eyniləşdirmiş və birləşdirmişdir. Dilin yazılı sistemə girməsi ilə sosiyal savadlaşma başlamış, yazılı qurallar[99] yaranmışdır. İnsan acı-dadlı

[99] qanunlar

duyğularını yığmağa başlayınca öncə sözlü, sonar isə yazılı ədəbiyyat yaratmışdır.

Duyğuların dilə gəlməsi ilə musiqili nəğmə yaranmış, yavaş-yavaş kütlə duyğusunu oxşayan müzik alətlərinin də yaranması ortaya çıxmışdır. Yaşam alanını qulluğa almaq çabasında yeniş-yoxuşlu əngəllərlə uğraşan toplum, özünə, gücünə, çevrəsinə uyğun olan ən əlverişli imkanlara əl uzaldaraq yeni kimliklər qazanmışdır. Azərbaycanda, bu kimlik qazanmanın sürəci öz özəl keyfiyyətləri ilə bugünkü İran adlanan bozqırlarla tam-tamına fərqili olmuşdur. Elə bu üzdən 7000-illik Azərbaycan Türk tarixinin 2500 illik Fars tarixilə qonşuluq etməsi və geniş ilişgi qurmasına baxmayaraq bu iki millətdə dil, tarix, gələnək, din[100], görünüş, ruhsal davranış, sosial-siyasal görüş bir-birindən tam fərqili və dəyişikdir.

Jacob M . Landao öz adlım "PanTürkizm" kitabının 10-cu səhifəsində Məcar yəhudisi olan gəziçi və araşdırıcı yazar "Arminius (Herman) Vambery" dilindən ilginc bir bənzətməni irəli sürür: "Tüm Türki qurupların fiziksel özellikleri ve geleneklerine göre alt bölümlere ayrılmış bulunan tek bir ırka ait oldukları (bəllidir)."[101]

## Dil amilinin Azərbaycan Türklüyü üzərində fəlsəfi etgisi

Çox geniş anlamıyla dil, hər hansı bir toplumun düşüncə, duyğu və dünya görüşünü, davranış gücünü və yaşam sürücülüyünü sərgiləyən canlı varlıqdır. Türk dili geniş alanlarda yayılan, ancaq bitişik yaylaq və alanda dağıntılı durumda yaşayan insanları bir araya gətirməkdə, onlara birgə

[100] (Din qonusu dəyişkən olduğu üçün tarix boyu qalib-məğlub ilişgilərin qarşısında dəyişik durumlara düşmüşdur. İslam Ərəblərin sültəsilə hər iki türk və fars millətləri arasında yayılmışdır. Hal bu ki, İslamdan öncə türklərlə, farslar arasında din birliyinin bircə belə örnəyinə raslaşmaq olmaz! Tarixin kəsin örnəklərinə görə Azərbaycan da daxil olmaqla türk düyasının qalib inancı milladdan çox eskilərə dayanan təktanrıçılıq olmuşdur, Halbuki, farslar islama qədər hep odcu (Atəşpərəst) olmuşdurlar. Göründüyü kimi bugünkü türk- fars arasında təkcə ortaqlıq yaradan din amili də doğuşda ayrı-ayrı olmuşdur.)

[101] *(Pantürkizm, Jacop M. Landau, Türkcesi: Mesut Akın, İstanbul, Aralık 1999, s10)

işarət, birgə görüş, birgə duyğu ifadəsi, cansız nəsnələri [102] səslə canlandırma, yaxın canlıları adla səsləndirmə, çevrəni işarətlə deyil, ağızdan çıxan iç duyğuyla anlatmağı öyrədən bir sistem olqusu olmuşdur. İlk insan nəsnəyə ad verirkən, o adları mənimsəmiş və özü də həmən adlara bağlanaraq sosial təməl qurmağa başlamışdır. İlkin insan, doğaya necə baxmışdırsa, elə də ona bağlanmışdır. Bir ad öz ardıca bir yaşam tərzini ortaya qoymuşdur. Bu ortaya qoyulan yaşam tərzi, bəlli bir toplum üçün qudsallıq və ya qarşılığlı alanlar yaratmışdır. Belə gəlişmə sürəcindəndir ki, toplum içində ortaq çərçivələr, inanclar və bircə anlayışlar ortaya çıxmış və mənimsənməyə başlamışdır. Hər ortaya çıxan bir sözcük, toplum malına çevrilmiş, onun üzərində dayanışma və dirəniş məntiqləri yaranmışdır. Dil yarandıqca toplum qarşılıqlı ilgilənməyə meyl göstərərək, işarət və səs alışverişinə qalxmışdır. Bir öyrənilən səs və ya söz təkrar olaraq qalargi halə gəlmişdir. Hər səs, öz çevrəsinə ilişərək yeni boyutlar almış və doğuşa başlamışdır. Dil, hər toplumda olduğu kimi, Türk topluluqlarında da, vəhdət və toparlayıcı güc olaraq ana kimlik simgəsi olmuşdur. Hər əski millətin gəlişməsində rol oynayan çeşidli amilləri gözə alaraq, Türk millətinin millət olmasında ən önəmli rolu dil oynamışdır. Sözsüz ki, Türk dilinin yaranmasının kəsin tarixi yalnız təxminlər üzərində deyilə bilər. Ancaq bu dilin dünyanın ən əski dili olması və ya ən azında ən əski dünya dili olmasında artıq şübhə qalmamışdır. Örnək olaraq Qobustan köhüllərindəki mağaralar üzərində çəkilən pictografik (şəkilli) yazılar, çox geçmədən haman ərazidə tapılan çeşidli daşqazmalarda (örnək: Azıx) ideografik (Fikir bildirən) yazılara, biraz sonra tapılan anıtlarda işarə xətlərinə çevrilir. Sözsüz ki, ilkin insan, hər hansı çizgidən daha öncə danışmağa başlamışdır. Belə olan halda Qübustan izlərinin 12-min il yaşını təsdiq edən bilim insanları Türk dilinin sistemləşməsinin ilk varyantlarının ən azından 10-min il olmasının da yəqinliyi üzə çıxır. Tarix açısından Sumerlərə yaxınlaşdıqca Türk dilinin varlığı yavaş-yavaş ortaya çıxmışdır. Sumerlərdən qalan yazı izləri və bu izlərdən ələ alınan sosial çizgiləri[103], Türklərin də həmin çizgilərə bağlı olmasını aydınladır. Sumerlərin ardını tutan Elamların dil alanında daha da irəliləməsi, sözcüklərə daha da sistem verməsi və ilkin qayda yaratmasını

[102] şey
[103] xətləri

dilçilik bilimi təsdiqləməkdədir. Son 50-60 ildə Avrupa, Amerika və Rusiya bilim mərkəzlərin Türk torpaqlarına aid olan qazıntı işlərinin sonucu tarix bilimində dərin dəyişikliyə nədən olmuşdur. Sözsüz ki, bu arxolojik çalışmaların sürməsilə daha da dəyişik faktların ortaya çıxması qaçırılmazdır.

Bu çalışmalardan əldə olunan arxolojik sonuclara görə, M.Ö.-sindən çox qabaq zaman, orta asiya insanı dilini gəlişdirmişdir. 8-ci yüzilliyə aid olan Orhun abidələri, GökTürk imperaturluğunun daha formalaşmış Türk dilini işlətməsini göstərir. Bu abidələrində yazılan dil, GökTürklərin və Uyğurların geniş dil qrafikinin cümlə və söz quruluşunu ortaya qoyur. Bu kitabətlərdə dövlət quralları və işləmləri yazılır. Türk dili artıq bir imperatuluq dili olaraq göstərilir. Bu durum eynilə Azərbaycan torpaqlarında da gözə çarpır. Baxmayaraq ki, bu bölgədə gedən qazıntı işləri son zamanlara dayanır və bu qazıntılar bir çox zaman panFarsist və paniranistlər tərəfindən əngəllənir. Ancaq əldə olan sonuclardan bəllidir ki, ortasiya, önasiya və ortadoğunun yaşam tarixi gənəllikl ə və Türk tarixi özəlliklə böyük alanda eyni anlamı ifadə edir. Azərbaycan və onun daha güneyindən tapılan daşyazılarının batı bilginləri tərəfindən oxunması əski Türklərin çağdaş Türklərə nə qədər yaxın olmaqlarını isbatlayır. Sumer, Elam, Qutti, lullubi, Mana, Mediyadan qalan adların oxunması və bu adların çağdaş Azərbaycanda danışılan dil ilə üst-üstə gəlməsi, Türk dilinin Azərbaycan Türklüyünün millət halına gəlməsində vaz keçirilməz rolunu göstərməkdədir.

## Azərbaycanda Türk millətinin gəlişməsində Türk dilinin rolu

Dilçi alimlərin ortaq düşüncəsinə görə, Türk termeninin geniş işlədilməsinin zamanı Hun İmperaturluğunun çağına dayanır. Hun imperaturluğunun xidmətində olan GökTürklərin bu imperaturluqdan sonra dövlətlər quruluşu məhz Türk adıyla olur. Miladın 4 və 5-ci yüzilliklərində yavaş-yavaş böyüməyə başlayan və geniş qəbilə ve el birləşmələrini oluşduran döyüşkən, qorxmaz və ölümə qoşan Turan ellilər, çox geçmədən Türk Hun imperatorluğunda böyük öncüllüklə geniş yerlər

almağa başladılar. Hunların gücdən düşməsi Muğul Çuvan-Çuvanların bölgəyə kölgə salmasına nədən olmuşdur. Bu üzdən soy və kök yaxınlıqları olan Aşna eli Muğullarla bir ittifağa girməyə üstünlük verdilər. Çuvan-Çuvanların gücdən düşməsi ilə, 552-ci ildə Aşna eli Çuvan-Çuvanları yenərək İlk dəfə tarixdə Türk adlı bir dövlət təməlini qoymağa başladı. Özlərini GökTürk* (*Türk: Qorxmaz, İgid, Gök:Göy, İlahi, Qudsal. GökTürk: Qudsal Qorxmaz.) adlandıran el birləşmələri az bir zamanda bütün step və həndəvərdə olan soydaş el birləşmələrini öz himayəsi altına aldı. 745–ci ilədək uzanan GöyTürk İmperaturluğunun qoyduğu ən qalarğı irsiyyə özündən öncəki atalar tarixinin ad mahiyyəti və milli kimlik adı oldu. GökTürklərin ən böyük başçılarından biri imperatuluğun başbaxanı Tunyuquq, Bilgə Xaqan olmuşdur. O, ilk kəz olaraq Türk adı daşıyan bir dövlət sistemi yaratmışdır.

Gənəlliklə GöyTürklər Dövlət sistemini milli ideolojiyaya bağlarkən, üç özül daşı GöyTürk dövlətçiliyinin başında yerləşdirmişlər:

a) Çin,i basqı altında tutmaqla, Türk dövləti rahat olub, yeməkdən təmin olsun.

b) Çin,də dağınıq olaraq səpələnmiş Türklər ana yurdu Ötükənə qayıtmalıdırlar.

c) Asiyada nəqədər Türk varsa Türk xaqanının bayrağı altına toplanmalıdır.[104]

Bəlli olduğu kimi, dövlətçiliyin təməlində milli ideoloji təməlinə dayanan zaman dövlət yönədiçiləri nə istədiklərini, necə istədiklərinini, nə zaman istədiklərini və kimdən istəməklərini bir yapıd olaraq ortaya qoymağı bacarmışdırlar. 734-cü ildə Bilgə Xaqan öldü. Yenisey Daşqazmalarında Bilgə Xaqan dililə tapılan kətibədə yazılır:

---

[104] (** Türklərin tarix və kültürlərinə bir baxış, Dr. C. Heyət, Kaviyan yayınları Tehran 1986, s21*)

“EY TÜRK MİLLƏTİ, ÜSTƏ GÖK YIXILMAZ, ALTDA YER DƏLİNMƏZSƏ, DÖVLƏTİ, TÖRƏNİ KİM YIXA BİLƏR!”

Aydındır ki, GökTürklərin Dövlətçilik sistemində olan Türk özülünün yaranış çağı qıssa vədəli bir tapıntı deyildir. Tarixin göstərdiyinə görə, Sumerlərdən başlayan dövlətçilik gələnəyi Türk ellərinin içində yayılaraq el gələnəyinə çevrilmişdir. Ancaq GöyTürklərə dək dövlətçilik sistemi el və qəbilə kimliyi üzərində qurulmuşdur. Belə ki, el birləşmələrinin başında dayanan böyük xan, elin ən aparıcı başçısı kimi, həm də dövlət başçısı olmuş və el birləşmələrinin dövlət başçısı tanınırdı. Demək GökTürklərdən daha 5000-il qabaq bölgədə və özəlliklə Azərbaycanda hakim olan el birləşmələri hər hansı ad daşımasından asılı olmayaraq Türk dilli və zaman-zaman gəlişməkdə olan Türk törəli gələnəksəl toplumlar olmuşdur. Sözsüz ki, bütün bu gəlişmələrin mərkəzində Türk dili və bu dildən ortaya gələn yaşam fəlsəfəsi dayanmaqdadır. Biraz geniş alanda Türk dili də, bütün başqa dillər kimi tarixsəl görəvi üzərində yayıldığı yerlərdə insanların düşüncə və duyğu sistemini oluşdurmuş, onların ortaq təməlini, bildirisini, anlatım və birləşdirici bağını biçimləndirmişdir. Bir sözlə, Türk dili el birliklərinin birləşməsində ən böyük rol oynamışdır.

## Azərbaycanda Türk milletinin mərkəzləşməsində dövlətçiliyin önəmi!

Sözsüz ki, Azərabaycanda Türk dövlətçiliyinin gələnəksəlləşməsi, bütün Türk tarixində olduğu kimi el, el birləşmələri, tayfa və qəbilələr üzərində olmuşdur. Bu danılmaz gərçəkdir ki, Türk insanı Türk olduğunu deyil, qəbilə, el, xaqan və bu kimi millət altı amilləri mənimsəmiş, onu tanımış və üzərində dayanmışdır. Bu dövlətçilik sistemi öz zamanına görə nə qədər də doğal olmuşsa, Türk insanının çağdaş dövlətçilik baxışında olduqca uyumsuzluqlara yol açmışdır. Sözsüz ki, bir millətin tarix bilinci, ən çox o millətin tarixsəl dövlətçilik gələnəyindən bəslənərək düşüncə olqusunun biçimləndirir. Bir toplum, hafizəsilə millətə çevrilər. Hafizənin

nə dərəcə güclü olduğu və ya olmaması o topluluğun millətə çevrilməsində danılmaz rol oynayır. Hafizə bir millət tərəfindən sürəcli yaranarsa, dövlət tərəfindən arxivlənər, nəsillər arası ortaq ulusal kimlik oluşumuna çevrilir. Hərgah, tarix hafizəsi yaşanan olqular arasında harmonik sistem kimi görünərsə, o millətin özünə tabeçiliyi kəsilməz halə gəlmış olar. Bu, o deməkdir ki, milli hafizə yaranandan bəri kəsintisiz olaraq bir anlamı sərgiləməyə xidmət edər və millətin gənəl anlayışının ölçü və çəkisini bəlirləndirər.

Örnəyin, Çin, Misir və ya Almaniya kimi toplumlardır. Bu millət-dövlətlər də əzəldən oturaq dövlətlər olmamışlar. Onlar da Türklər kimi öncə qəbilələr, el birləşmələri, kiçik topluluqlar olaraq dövlət sistemi qazanmışdırlar. Ancaq Türklərdən daha ərkən millət-dövlət anlamını qapsamış, dövlət və millət ilişgilərini sağlama almışlar. Çin, Misir (ərəb) millətlərindən danışarkən başqa adresləri axtarmağa gərək qalmır. Çinin dövlət və milləti[105] eyniləşir, eyni ifadə daşıyır və tam ayrılmaz bir ulusal tarix hafizəsinə dayanır. Bu üzdən Çın tarixində çeşidli soy, boy, tayfa hakimiyyəti olsa belə, hamısı Çin Tarix Hafizəsində yerləşir. Misir və almaniya da az-çox çin kimliyinə bənzər uyuma sahibdirlər. Azərbaycan tarixinə gəlincə, sorunun çəkisi bir yana qalsın, təməl olaraq bir bəlirsizlik ortada dolaşır. Bu bəlirsizlik yalnız Azərbaycan deyil, həm də Anadoluda, Qafqazlarda, hətta tarixi Türküstanın başa-başında görünür. Tarixi Türküstanda GökTürklərin 552-ci ildə ilk dəfə olaraq sülalə və qəbilə yox, soy dövlətçilik yaratması, Türk ulusal bəlləğini[106] yaratmağa başlasa da, onlardan sonra Uyğur, Oğuz kimi dövlətlərin yenidən tayfa, qəbilə dövlət yaratmaqları, GöyTürklərin yaratdıqları millət-dövlət ənənəsini yarı yolda qoyur. Həmin yalnış gələnəyin sonucu olaraq bugün Türk tarixindən söz açılanda ucsuz-bucaqsız bir sıra çeşidli adlar meydana gəlir. Hətta iş ora çatır ki, bəzi ünlü Türk tarixçiləri belə ifadələr işlədirlər: “AtaTürkün əlilə Osmanlı imperoturluğu yıxılandan sonra Türk dövləti quruldu!!!” və ya, “Osmanlı Padişahı, Sultan Səlim, İran Şahı(?), İsmayili Çaldıranda yendi!!!”

[105] Burada Çin dövlətinin türklərə, monğullara və başqa azınlıqlara qarşı şovinisti baxışını göz ardı etmək olmaz. Yalnız, Çın etnikinin sayını düşünərsək oranın hər hansı rejim içində olmasından asılı olmayaraq bir millət-dövlət sistem olması kəsindir.

[106] hafizə,yaddaş

Göründüyü kimi Osmanlı dövləti Türk dövləti deyildir kimi göstərilir və AtaTürkün Osmanlı-İslam sentez dövlətini yıxandan sonra Türk dövlətçilik gələnəyini qurmağa başlayır. Şah İsmayil isə, İran şahı adlanılır. Və onun Osmanlı Sultan Səlim tərəfindən yenilməsi böyük sevinclə qarşılaşır. Hal buki, O zaman İran adlı bir dövlət ortada yoxdur. Ən azından Türk soylu bir Səfəvi Dövləti var. Göründüyü kimi, bulanıq tarix zehniyyəti, yalnız kütlə deyil, hətta aydın Türklərin də tarix bilincində dərin çatlaq yaratmışdır. Sözsüz ki, Azərbaycan Türklüyünün bulanıq zehniyyəti də elə bu yalnış tarix baxışından qaynaqlanır. Keçmiş sətirlərdə qeyd olduğu kimi, Sumerlərdən az sonra yaranan Elam, Qutti, Lullubi, Hurri, İskit, Kamer Aratta, Urarto, Hitt, Manna, Mada kimi dövlətlər məhz Azərbaycanda, Anadoluda yarandıqları üçün Azərbaycan və Türkiyənin əski dövlət sistemləridir. Azərbaycan və Anadoluda Türk dövlətçiliyinin 11 və 12 yüzillikdə Qəznəvilərin, Səlcuqların, Çingizxanlıların (Monğul-Türk birləşmələri) gəlməsi ilə başlanması dastanlarının nə qədər boş və milli kimlik şüurundan yoxsun olması gündən-günə aydınlaşmaqdadır. Bu arada bəzi dar görüşlü və mühafizəçi tarixçilərimiz o qədər irəli gedirlər ki, Amerika və Avrupa inistitutetlərinin Türk tarixi haqqında yaydıqları dərin bilgiləri belə şantaj və provkasiyon meydanına çevirirlər.

Azərbaycanda 1918-ci ildən öncə dövlətçilik sistemi olubdurmu? Bu sorunu ortaya qoyanlar iki qurupdurlar. Birincisi ayıq-sayıq düşmənlərimiz, İkincisi isə tariximizi yarımcıq öyrənib, yarımcıq öyrətməkdə israrlı olan özümüzden olanlardır. Kimsə çıxıb da diyə bilər ki, ən azı Hurilərdən başlayan və Qacarlarda sona çatan sülalə dövlətləri Türklərdən başqa kimlər olmuşdurmı? Kimsə çıxıb iddia edə bilər ki, bugünkü Azərbaycan yaylası adlanan güney Qafqazlardan doğu Zagrosadək çəkilən bu dağ-daşlarda Türklərdən başqa ayrı yerli dövlətlər də olmuşdurmu? Bugünün Azərbaycanı, kəsinliklə Quttilərin, Elamların, Saqaların, Kamerlərin (Qamər), Xəzərlərın, Mannaların, Mediyaların, Albanların, Şırvanşahların, Səfəvilərin, Avşarların, Qacarların v.b.. Kimi sülalə dövlətlərin evladlarıdırlar. Bu sülalə dövlətlər, bir gündə ortaya qonan dövlət sistemleri deyillər ki, kimsə durub onları bir-birindən ayrı

araşdırmağa qalxsın! Onlar ardı-ardından gələn soy bir, dil bir, el bir çeşidli batı Türkləri olmuşdurlar.

Alman dövlətçilik tarixini araşdıranda, Germən termenilə, Germəniya termeni elə birləşir ki, kimsənin ona toxunacaq gücü qalmır. Halbuki, Pros dövlətinin tarixində ən azından 38 bağımsız dövlət birliyi varidi. Bu 38 dövlət hamısı German olduqlarını düşünür, hətta ən təmiz German olduğunu isbat etmək üçün kəsintisiz olaraq bir-birilə savaşırmışlar. Pros, Bavariya, Baden, Saksoni, Hes, Vürtomberg, Darmoçtaq, Karlesrohe v.b.. Kimi müstəqil şahlıqlar olan Prosa bac verənlərinin tarixini yalnız Almaniya tarixində araşdırmaq mümkundur. Demək Almaniyada olanlar, nə üçün və hansı nədənlərə görə Azərbaycanda olmaz halə gəlir!? Aydındır ki, ortada dövlət və millət iradəsini olqulandıran bir sistem görüntüsü olmalıdır. Doğrudur ki, tayfa, sülalə, ümmət, xanlıq, atabəylik kimi dövlət sistemləri keçəri olduğundan Milli Etnik Dövlət sisteminin yaranmasına əngəl olur, ancaq özü-özlüyündə millət sistemindən qıraqda qalmayır və öz qaynağı olan ulusundan qaynaqlanır. Millət bir soy olaraq qalar, yeniş-yoxuşlarıyla ufanır və dirçələr. Çünki millət, insan deməkdir, insanların toplusu isə ruhsallanmiş bir biolojik varlıqdır. Azərbaycan Türk milləti bir ruhsəl biolojik varlıq olaraq bu qonu içində anlam tapır və tərif olnur.

## Azərbaycan varlığının biçimlənməsində, ulusal Türk kültür kimliyinin rolu

Bir toplumun anlaşılan kimliyi, ortaya qoyabiləcək doğal tanıtım tərzi, sadəcə *“mən kiməm, kimlərdənəm, haradan gəlmişəm, olduğum, bulunduğum yer haradır!„yanıtına bağlıdır.* Ayrıca bir toplumun, özünü nə sayaq dərk etməsi, necə tanıtması, duyğu və düşüncəsini hansı özəlliklərlə sərgiləməsi dəyəşməz şərtdir. Bir çox düşünürə görə, Ulusal kültür kimlik bir toplumun düşüncə sisteminin gözgüsü və o toplumun dünya görüşünün göstərgəsidir. Ulusal kültür kimlik həm qorucu və həm axıcıdir. Buna görə qurucudur ki, ulusu bir arada tutmağın ən təməl daşıdır. Onun olmadığı yerdə daş daş üstündə durmaz, toplum param parça olar. Dövlətlə ulus arasında özgəlik hükm sürər və cəmiyyət dağılaraq

özgələrin tabeliyinə girər. Və ondan ötür axıcıdır ki, istər ordu gücüylə, istər ekonomi, tarix və dil kanalları ilə başqa millətlərin kültür alanına girməyi bacarar, öz insanlarının gələnək, görənəklərini başqa millətlərin də malına çevirər. Ulusal kültür kimlik bilinci olmayan bir toplumun ulus kimi yaşaması mahaldır. Dövlətini, ordusunu və hətta dil kimi təməl ünsurunu itirən bir toplumun ulusa dönüşü mümkün olası deyilsə, birlikdə ulusal kültür kimlik bilincini əldən vermiş bir toplumun yenidən dirilməsi olumsuz mövcüzəyə bənzər. İran adlanan yerdə milyonlarla dilini itirmiş Türk kökənli insan yaşamaqdadır. Onlar Farsların assimilə siyasətinə tuş gələrək dillərini əldən vermişdirlər. Lakin köklü-kültürlü bir Türk varlığının gündən-günə güclənməsi ilə assimilə olunub, itmiş kimi görünən milyonlar Türk öz ulusal kimliyini yenidən qazanaraq, tarixsal səciyələrini əldə edəcəklər. Azərbaycanda milli kimlik bilincinin artmasıyla öz dilini unudan Türklər hər şeydən öncə Türk dilinə sarılacaq və zaman sürəcində hətta ən kəsgin Türk kimliyi davasına qalxacaqlar.

Ulusçuluq düşüncəsinin biçimlənməsində ulusal kültür kimlik bilinci beyin sayılarsa, kəsinliklə, dil, tarix, ədəbiyyat və ordu, ulusal kültür kimlik bilincinin şah damarları sayılmalıdırlar. Adları sadalanmış bu dörd təməl ünsur, bütün yeniş-yoxuşları, fərqlı zamanlara aid etginliyi və çeşidli axarlarıyla geniş insan kütləsinin varlığıdır. Bu varlıq ünsurlərilə geniş insan kütləlserver, mən kiməm sorusunu yanıtlayır, mən hardan və kimlərdən gəlmişəm sorusuna aydınlıq gətirir. Sözsüz ki, Azərbaycan kimliyi təkbaşına belə bir sorğunun altından çıxa bilməz. Çünki, Azərbaycan tarixini gənəl Türk tarixi dışında görmək mümkun deyildir. Vil Durant "Mix xəttinin yaranıb, təkmilləşməsi, Sumerlərin bəşəriyyət inkişafına verdikləri ən böyük hədiyədir." [107] diyəndə, əslində Türk varlığının izində və oluşma nöqtəsində yerləşən əski Türk insanların yaşadığı torpaqlardan danışmaqdadır. Bu torpaqlar, Orta Asiya, Orta Doğu, Avrasiya bölgələrini içinə alan böyük bir alandır. Sözsüz ki, Azərbaycan Sumer axarından ən çox pay almış bu məkanlardan biri olmuşdur. Azərbaycan varlığı, istər M.Q 5-ci minillikdə Sumerlər, istər M.S 11-ci yüzillikdə Səlcuqlar, istərsə də bu günkü durumunda bir an

[107] *(Təməddün Tarixi, farsca, Vil Durant, 1-ci c, s 158),/ William James Durant (1885 – 1981)*

olsun belə, Türk varlığının dışında olmamışdır. Deməkk, Vil Dorant Sumerlərdən danışarkən, əski Azərbaycan Türk topluluqlarını da göstərməkdədir.

Ulusal kültür bilincin öz tarixilə uyum sağlaması, danılmaz bir ön şərtdir. Heç kültür öz tarixinə, dilinə və gələnəklərinə bağlı olmadan ulusal kültür ola bilməz. Ulusal kültür kimliyi bir inistitot və bilimsəl tapınaq deyildir, bəlkə bir ulusun doğuşundan yaranan zamansız, yaşsız bir doğallıqdır. Tarix axarında bəlirsiz kütlə tərəfindən yaranmış kültür kimliyi, qoşaqdan qoşağa yeni boyotlar qazanaraq, min illər boyunca qol-budaq atmış, ulusuyla pekişmiş və birləşmişdir. Bu üzdən, insanlarına güvənc qaynağı olmuş, onların idareçilik gücünü hamarlamış və millət dövlət olaşımına ən böyük yardımçı ünsur olmuşdur. Ulusal kültür kimlik bilinci, millətin düşüncə və yaşama ölçüsünü yuxarı zərfiyyətlərə daşıyar. Ulusal şüuru yüksək və oyanıq olan bir millətin idarəçilik və özqabiliyyətçiliyi zorakılıqla deyil, doğal yaşam olaraq özünü göstərər. Onun qazandığı hər şey, millət malı olar. Yabancıların nüfuz dayrəsi daralar. Milli şüur, hər şeydən öncə bütün insanlarla eşit ilişgi qurmağın ön şərtidir. Milli şüurdan yoxsun olan toplum, yalnız neçə dərəcəli tabe vətəndaş sayıla bilər. Ən ufaq şərtlər içində başqa millətdən olan birisi ilə evlənmək milli şüurun yoxsunluğunun aydın örnəyidir. Tarix milli şüurun beyinidir. Bəzi millətçilərə görə, yalnız tarixin qəhrəmanlıq səhifələrini işıqlandırmaq gərəkir. Onlara görə, milləti yalnız qəhrəmanlıq tarixi ayaqda saxlaya bilər. Halbu ki, tarix bütün boyutları ilə bir millətin malıdır. Bir ulus tarixinin olumlu-olumsuz olayları ilə yaşamışdır. Millət bütövdürsə, tarixi də bütövdür. Yalnız bütöv dildən, tarixdən, ədəbiyyatdan ulusal kültür kimlik bilinci yarana bilər. Dili və tarixi bölünmüş bir millətin özü də bölünür. Nə qədər ki, bir ulusun olumlu tarixini şişirtmək xətadır, ondan daha faciəlisi, olumsuz [108] tarix sərgiləməkdir. Bir millətin tarixinin yalnız ulumsuz tərəflərini böyüdüb gənclərə aşılarmaq o millətin haqqında üz verən ən böyük cinayətdir. Tarixin qorunub düzgüncə nəsillərə ötürülməsi, onun qəhrəman və ərdəmli yönlərini daha da böyüdərək qivanc halə gətirilməsi, zamanda yaşayan hər bir tarixçi bilginin başlıca görəvidir. Bu baxımdan hər millətin tarix və dil

[108] mənfi

qurumlarının başında yalnız və yalnız öz kökünə bağlı olan uzmanların dayanması gərəkir.

Gənəllikdə Türk tarixinin yabancılar və düşmənlər etgisində yazılması əsil faciədir. Türk yaradır, yaşadır, insanlara öndər olur, bəşəriyyətin ilk ocağını qurur. Ancaq qələmə deyil qılınca sarınınca, öz əlaltıları və rəqibləri vərindən ya tarixdən silinir və ya silinməz olunca öz tərsinə dönüşür. Turan elinin dünyaya hakim olduğu bir dönəmdə, heç yenilgisi olmayan Saka (İskit) impratorluğunun "Alp Ər Tunqa"sı da belə bir tale ilə tuşlanır. Türk Qəznəli İmpratoru Sultan Mahmudun sarayında 30-il boyunca əzizlənərək, Türklərə qarşı çabalayan Fars kökənli şair, Ə.Q. Firdövsi də onlardan birisidir. Firdövsi Milad öncəsi 7, 8-ci yüzillərə uzanaraq, Fars elini ərəb basqısından qurtarmaq uğrunda qələm mücadiləsinə əl vurur. O, bütün boyutları ilə bir Fars sevdalısıydı. O, nə sayaq ulusu, ölkəni sevmək yollarını özündən sonraki Fars nəsillərinə göstərdi və buna görə, ulusu üçün bu gün də yaşamaqdadır. Firdövsi, ulusunu ərəbləşməkdən qurtarmaq yolunda heç bir əngəl tanımadan, öz vəlinemət olan Türklərin tarixinə əl uzatmaqla ən qəhrəmanlıq dastanlarını yazmağa – Bir tərəfdə Turan gərçək qəhrəmanlarını, başqa yanda isə, mifolojik uydurması olan İran qəhrəmanlarını qoymaq şərtilə - başladı. O, bu uydurma mifolojik çalışmasıyla yalnız ulusuna necə yardım edəbiləcək yolların axtarışındaydı. Gələcəkdə onun uydurmalarının bir başqa millətə nə kimi ziyan verəcəyi, onu maraqlandırmırdı. Fars şairi, ərəb kültürünün qarşısında ərimək də olan Fars toplumunun qurtuluşu yolunda, zamanların ən yenilməz obrazını yaradmalıydı! Bu üzdən, yaşamında yenilgi görməyən bir Türk başçısı – Alp Ər Tunqa- devləşmiş bir Fars qəhrəmanı – Rüstəmin sürəkli yenilgisinə uğrayacaq və ən sonunda dağlar-dərələr veylanı[109] olaraq başını əldən verəcəkdir. Çağdaş tariximizdə Azərbaycan qəhrəmanı Səttarxan, modern Farsların dostu kimi göstərilir. O, Azərbaycan Türkündən daha çox İran igiti kimi tanıdılır. Budur ki, bir millətin tarixi özünə qənim kəsilir. Çünki, tarix yabancı əllərdədir. Tarix şüurunun gərcəkdən şüur qaynağı olması üçün, tarix öz dilində yazılmalıdır. Tarix yazan, öz ana dilində deyil başqa dildə tarix yazarsa, istər-istəməz haman dilin, qaynaqlarına bağlanacaqdır. Dil

[109] sərgərdanı

canlı bir varlıqdır. Dil qullanış verməz, qullandırar. Bunun tərsini düşünənlər, nəinki, dil fəlsəfəsilə tanış deyillər, həm də, ulusal kültür kimliyi bilincinin fərqində deyillər.

Tarix öz dilində yazılarkən, dil fəlsəfəsindən də qıdalanır, ruh tapır və ruhaniləşir. Bu üzdən öz oxucusuyla doğmalaşır və ona doğma dünya bağışlayır. Bu doğmalıq içində tarixin bir roman oxşarlığından uzaqlaşmasını və gərçəklik qazanmasını görmək olur. Millət və vətən şəhidi Dr. Zehtabi uzman bir tarixçı olmadığı halda millətimizin böyük bir bölümündə tarix şüuru oyandırdı. Dr. Zehtabi yalnız millətini düşündüyü üçün millətinin dilində yazdı. Onu, başqa millətlərin nə düşündüyü ilgiləndirmədi. O, çəkinmədən öz ana dilində yazdı. Çünki, yazılan bu tarix, ulusunun malı olmalıdır. Ancaq bəzi tarixçilərimiz öz tariximizi Fars dilində yazarkən, o millətin içində olan yaxın qələm dostlarını, sol düşüncəli qələmçiləri və ömrü boyu Türk millətini təhqir edən Fars və başqa düşmən fıqorları da, göz önünə alirlar. Farslar sevdasına alışan bu yazarlar, doğma ulusunun olumlu yönünü qələmə alarkən, həm də, uzaq dostları incitməsin diyə, illər boyu millətimizin tarixini yalan göstərən uydurma faktlara da meydan verirlər. Onlar, məsələn tərəfsiz olmaq istəyirlər! Tərəfsizlərdən usanmış millət isə, uzman tarixçini deyil, millətdən ötəri tarix yazan zehtabilərin düşüncəsini mənimsəyir. Ulusal kültür kimlik bilinci, bütün boyutları ilə insanların yaşamında özünü göstərir. Japon insanı dünya yolçuluğuna çıxarkən yalnız və ya ailə kimi çıxmaz! Japonlular istər yaxın, istər uzaq yerə gedərkən topluca gedər, yolçuluq sürəcində bir-birlərini tək buraxmazlar. Hara getmələrindən asılı olmayaraq orada öz kültür və yaşantı sistemlərinin elçiliyini edərlər. Yəhudilər dünyanın ən güçlü labisinə malikdirlər. Onlar say miqyasında dünyanın on mindən birisidirlər. Ancaq, bu kiçik miqyaslı ulusun Amerika bankalarındaki payı inanılmaz dərəcədədir. Bütün dünya siyasətinə rəğmən, kiçik ermənilərin etgili sayılan var oluşu onların milli kimlik şüurunun biçimlənməsi ilə bağlıdır. Az qalsın 20 ilə yaxındır ki, Qarabağın bütünlüyü və bir neçə başqa bölgəmiz Ermənistan və Rusiyanın növbəti işğalında inləməkdədir. Torpaqlarımızın işğalında olmasına baxmayaraq, erməni qüvvətlərinin hər gün atəşkəs sındırmalarına tanıq oluruq. Azərbaycan yalnız cavab atəşi açmağa qalxır və onu da çox böyük qurur hissi ilə dünyaya car çəkir. Bu cür davranış Azərbaycan

hakimiyyətinin savaşa meylsizliyini göstərir. Necə ola bilər ki, müstəqil olmuş bir dövlətin %25 torpaqları işğal altında olsun da, o dövlət savaş adı gələndə titrətməyə düşsün. Deməк, o hakimiyyətin milli şüur təməli yoxdur. Olursa, bir an düşünmədən yalnız torpaqlarının azadlığı uğrunda adlımlayar. Milli şüuru olmayan həqiqi və ya hüquqi şəxslər üçün yalan söyləmək, yalan davranmaq, para və mala xidmət etmək ən normal hayat sayılır. Milli şüurdan yoxsun bir tolum içində, ilşgilər yalnız rüşvət mahiyyəti daşıyar. Öyrətmən[110] öyrəncini dərs oxutmadan məzun edər. Bilim rüşvət qurbanısı olar. Əllərdə saysız-hesabsız bitiklərə və sənədlərə baxmayaraq toplum sürətlə savadsızlığa və cəhalətə uğrar.

Toplumda ərkək-qadın, ərbab-rəiyyət, pullu-pulsuz v.b. ziddiyyətlərin helli deyil, bu ziddiyyətlərin normal halə gəlməsi hər kəs tərəfindən qəbul olunar. Bu tablo bir boşluğun yəni ulusal kültür kimlik bilinci- nin olmamasının eyniyyətidir, doğal göstərgəsidir.

Milli şüurun olduğu yerdə, vətən tablosunun başında iri cizgi ile MƏNİM DİLİ, MƏNİM ANLAMIM! Sözləri yazılar. Dil milli kimliyin hər şeyidir. Dilsiz milli kimlik şüuru yoxdur. Dilini əziz tutmayan, onu bütün var-yoxunun anlamı saymayan, evində öz uşağıyla yabancı dildə danışan və danışarkən qulaqlarının arxasından şərm və utanc təri tökməyənlərdə ulusal kültür kimlik bilincdən iz-toz ola bilməz. "Mənim dilim ucadır, qutsaldır[111] və mən onu uca saxlamaqda borcluyam" diyənlər əlbət ki, qısqanc olmaqda haqlıdırlar. Belə olan insanlar, yalnız ulusal kimlik bilincilə deyil, həm də insanlıq səciyəsi ilə ölçülür və dəyərlənirlər.

*"Mənim dilim Göygöl, Xəzər,

Mənim dilim Şahdağımdır,

Qoy dilçilər öcəşsinlər,

Yoxdur bəhsə meylim mənim.

---

[110] müəllim
[111] müqqəddəsdir

Heç bir dildən əskik deyil,

Bəşərin dil ağacının

Şah budağı dilim mənim![112]

X.R.UluTürk[113] yuxarıdaki şerini diyəndə, ulusal kimlik bilincinin dillə nə ölçüdə bağlı olduğunu söyləyir. Y`əni, dil bir millətin torpağıdır, dağı və suyudur. Dünyaya açılan pəncərəsidir. Tarixə və mədəniyyətdən səslənəcək sözüdür. Dili, tarixi, dəbləri, ulus özəlliklərinin hamısını bir arada sistemləşdirən ulusal kültür kimlik bilinci, yaşam fəlsəfəsini dinamikləşdirən güc mərkəzidir. Həyata dönük dinamizmində ki, duyğu, ağıl, inam və inanc təməlidir. Ulusal kültür kimlik bilinci, bir millətin ülküsəl, ekonomik, siyasal və ordu yüksəlişinin dinamikasıdır. Bu üzdən bir ulusun varlığının ulusal kültür kimlik bilincinə bağlı olması, danılmaz gərçəkdir. "Milli şüur, bir millətin yaşama ifadəsi, hayat qaynağı və ən quvvətli silahıdır. XX. yüzildə milli şüuru olmayan millətlər yıxılmaya məhkumdurlar.

Unutulmuş milli dili, milli şüur sayəsində yenidən dirildən Yəhudilər və İrləndalılarla, diriltməyə çalışan Norveçlilər, XX. Yüzilin üç milli mucizəsini göstərmişlərdir".[114]

Milli bilincin həm məntiq və həm də duyğu yönləri vardır. Necə ki, məntiqsiz duyğu yoxdur, eləcə də duyğusuz insan yoxdur. Duyğu milli şüurun qəlbidirsə, məntiq və bilim onun beyini hesab olur. "Mənim Babəkim var. Mənim Nəsimim var" kimi deyimlərin məntiq yönü Babək və Nəsimi gərçəyidirsə, "Mənim" vurğusu onun duyğusu və qıvancdır. Əgər Türk anası Nəsimi və Babək doğubsa, nədən onlar mənim olmasın ki! Məgər məni də bir Türk anası doğmayıbdır. Əgər şərq irfançılığının böyük bilginləri arasında saysız Türk evladı varsa, nədən irfan mənim olmasın ki!? Əgər Tümris Ana kimi anam varsa, nədən modern və

[112] *X.R. Ulutürk // Laylam mənim, nərəm mənim// şerindən bir parça*

[113] Azərbaycanın Milli Şairi, doğum:21 oktyabr 1932-ci il. Ölüm:22 iyun 1994-cü il

[114] *H.N. Atsız, Kızılelma, 10. Sayı, 2 Ocak 1948*

demokratik fiminizmidə mənim payım olmamalıdır ki!? Bu dünyada neçə Tümrıs Ana tapılar!? Bəzi batı vurğunu aydınlarımıza görə, belə düşünənlər faşist Türklərdirlər. Olsun qoy özümüzə yiyələnmək üçün bizə faşist desinlər. Budur milli bilinc sevgisi. Budur bir millətin ayaqda qalma şansı.

## Azərbaycan varlığının biçimlənməsində ulusal dilin rolu

Ulusal dil, bir toplumun tarixsəl bilincini, sürəkli duyğu və düşüncəsini, gələnək və dəblərini, yaşam axışının anlamını qullanışa gətirən bir fəlsəfi biçimdir. Türkiyədə, Azərbaycanda, Uzbəkistanda və 100-ə yaxın aparıcı və ya azınlıqda olan Türk topluluqlarının milli dili Türk Dilidir. Ulusal dil və ya başqa anlamla Ana dil, dövlət dili olub-olmamasından asılı olmayaraq dəyişməz və təkdir. Hər hansı səbəbdən dilin dəyişimə məruz qalması, o dilin ölməsi və ya ölməyə tuşlanması anlamına gələr. Milli dil ifadəsi çox az qullanan bir termin olsa da, öz anlamını daşıyan aydın bir anlayışdır. Dil ədəbiyyat, musiqi, teatr, sinema, ilətişim v.b. alanları yaradarkən, özü də zənginləşir. Milli dil, həm də yabancı dil qarşısında etnososial və etnocoğrafik anlayışı daşıyan ulusal qavramdır. 17-ci yüzillikdən rus dilinin yürüşünə uğrayan böyük Türküstan, gənəl alanda darbədən-darbəyə məruz qalmışdı. Burada tək amac  Türk ulusunu yer üzündən silinməsi idi. Ruslar bu bacarıya əl tapmaq yolunda ən başda Türküstanın dil birliyini hədəfə aldılar. Ruslar orada çeşitli dil faktorları ortaya qoymaqla ana Türk dilinin çeşitli qollarını bütünlüklə bir-birindən ayırmağa başladı. Sonra tək başına qalmış dilləri rus ədəbiyyatı və dil alanları ilə şiddətli hüçüma uğratdi. Dil bilimində isbat olunmuş bir əslə görə, hər dilin aradan getməsi, o dilin kökündən və gücündən asılı olaraq ən azı 100-illər uzun sürər. Ruslar, Türk dilinin çox böyük keçmişə dayanmasını hər kəsdən daha da aydın bilirdilər. Bu üzdən, bu dilin geniş alanda qarşısını almağın rahat olmayacağını da yaxşı başa düşmüşdürlər. Hər imperator dövlət kimi, ruslar da, öz hegomonluğunun əbədi olmasına inanaraq, Türk dilinin imhası üçün çox metodik assmila siyasəti irəli sürürdü. Hadisələrin, dəyişməsi, rus imperatorluğunun zədələnməsi, əski Türküstanın ürəyindən özgür Türk dövlətlərinin ortaya çıxması, ulusumuzun aydınlıq

mücadiləsinin genişlənməsi, rusların və rus dilinin məğlubiyyətə uğramasında böyük rol oynadı. Azərbaycanda durum daha da fərqlı olmuş, daha da mürəkkəb vəziyyətə düşmüşdür. Türkmənçay yenilməsindən sonra ikiyə bölünmüş ulus və torpağımız iki özgə dil basqısı altında qalaraq, hətta öz içində belə, parçalanmağa və özgələşməyə sövq edildi. Bu üzdən Quzeydə Rus dili hakim olduğu halda Güneydə Fars dili ən basqın şəkildə Türk dilinin üzərinə yürütüldu.Türk dilinin Fars dili qarşısında ağır darbələrə qatlanmasına baxmayaraq ayaqda durmağı bacarmışdır. Çox qəribədir ki, bəziləri Türk dilinin bu illərdə ayaqda durmasını inanılmaz möcüzə kimi alqılandırmışlar. Halbuki, belə yanaşma bilimsəl baxımdan heç də doğru deyildir. Tərsinə, belə bir böyük ulusun, dililə birlikdə bütün varlığının özündən qat-qat aşağıda olan bir millətin hegomonluğunda qalması məntiqə sığmazdır. Nədən məntiqə sığmaz? sorusuna Güney açısından baxarsaq bütünlüklə yanılıb, milli dilimizi (Türk dilini) öz əlimizlə aşağılayacayıq. Bu üzdən, olaya biraz dərindən baxmağımız lazimdir. Çünki, orta yüz illərdən bəri (Şah İsmayildən sonra) Türk hakimlərin öz millət dilinə vurduğu ağır darbaları görməmək olmaz! İnanılmaz haldır ki, Türk hakimlərinin Fars dili sevgisi, öz ana dilimizin imhası qədər irəliləmişdir.

Nəticə e`tibari ilə hər baxımdan Türk dilinin altında qalan Fars dili Türk dərbarlarında rəsmi dil həddinə çatmış və ulusumuzun bir başa asimila olmasında əsas yardımçı amil olmuşdur. Bu üzdən, öz hakim atalarımızın zamanında, Azərbaycanda qullanılan Türk dili Fars dililə dəyişmiş, yazı gücünü itirərək rəsmi dil səviyəsindən yenilməyə itələnmişdir. Ancaq, Güneydən dışarı gəlincə Quzeydə zədələnmiş (ruslaşmış, krilləşmiş) dilimiz özünü saxlaya bilmişdir. Ortasiyada durum çoxda parlaq olmasa, yenə Güneydən qat-qat üstün olmuşdur. Türkiyə uzun zaman milli dil mücadiləsi verən, hətta qurtuluş savaşını dilin üzərində quran təkcə ölkəmiz olmuşdur. Elə buna görə, Türkiyənin Güney üzərində dil etgisi çox önəmli sonuc vermişdir. Hazırda, Quzeydə, dilin genişlənməsi və arınması yolunda bir para işlər görünməkdir. Ancaq, hələ də, rus dilinin etgisi, dilimizin tam bağımsızlığına və bütövlüyünə imkan verməyir. Bu durumdan qurtuluş yolu, öncə dövlət sistemində yer alan elit kəsimdən asılıdır. Belə ki, dövlət sisteminə bağlı olanların bir çoxunun

ailə dili hələ də, rus dilidir. Belə durumda, 20-illik özgür bir respublikanın ana dilindəki axsaqlığından və bu durumdan yaranan ulusal yaşam bicimindən dartışmağa belə, güc qalmayır. Azərbaycanda, Türk dilinin rus dili etgisindən qurtarılmasının və tam bağımsız dövlət, bilim, ilətişim, sənət, teknik, sağlıq dili halinə gəlməsinin təkcə yolu bir çox dövlət adamının ailə dilinin ana dilinə çevrilməsinə bağlıdır.

Güneyə gəlincə, dilimizin indilikdə, ilətişim, basın, ədəbiyyat, teatr, musiqi, elit dili qatına yüksəlməsinə imkan verilməsə də, gündəlik kütlə dili olaraq mücadilə verməkdədir. Sözsüz ki, Güneydə Türk dili, yalnız dil sorunu deyil, geniş qapsamda bir milli-qurtuluş mücadiləsinin açarıdır. Güneydə, Türk dilinin sempatikləşməsi, öz dilim, öz yaşamım anlamına gəlməsi, toplumun uluslaşması uğrunda atılan ən ilkin və ötkəm addımıdır. Türk dilinin sempatikləşməsi ilə, milli dirçəlişin alanı genişlənirkən milli tarix, milli musiqi, milli ədəbiyyat, milli dəb-gələnək və səciyəvi xarekter daşıyan bütün gizli varlıqlar canlanır. Bu üzdən, dilin milliləşməsi ilə yanaşı, insanlarımızın da milli bilinci yüksəlməyə başlayır. Ölkənin, bütün yaşam alanı özəlləşmə aşımasına girməyə başlayır. Dil bilinci, milli-qurtuluş və dövlətçilik savaşının sürəcində ən geridə qalmış sosial kəsimi mübarizəyə çəkir. Dil bilinci, təkcə silahdır ki, parçalanmış millətin yenidən bütövləşməsini kəsinləşdirir. Buna görədir ki, Bütöv Azərbaycan məfkürəsi dil birliyi üzərində qurulmuş bir amacdır. Sözsüz ki, bu amaca olaşandan sonra, onun vahid bir dövlət halinə gəlməsində də dil mərkəz rol oynayacaqdır. Başqa anlamla, dil sadəcə birəysəl [115] bir varlıq olmadığına görə, güc dəyərlərini ulus və dövlət birləşməsindən alır. Kəsinliklə dilin yaşayıb, yaşatması yalnız onun toplum malı olması ilə bağlıdır. “Haray-haray, mən Türkəm” uyunu[116], birəysəl bir ifadə tərzi olmadığına görə, burada “mən”, bir ulus bilincini göstərməkdədir. Haray-yaray isə, o məmin – ulusun- səslənişidir. Bəlkə, milyonlar il bundan öncə, dil bilməz insanların ilkin dil işarəti elə eyni qorxudan yaranmışdır. Dil bir insan evidir və ya Almanın dünyaya verdiyi ən dahi felosoflarından biri Viktor Haygerin[117] fəlsəfəyə baxış açısı olmuş “Dil Varlığın Evidir”

---

[115] fərdi

[116] şüar,sloğan

[117] V.Heidegger Almaniyanın ən görkəmli filosoflarından (1889-1976)

ifadəsi ilə desək, dilin yalnız insanlar arasında bir arac olmasına deyil, yaşamın özü və fəlsəfəsi olmasına daha çox inanacayıq. Sözsüz ki, dil bir yaşamdır, onun fəlsəfəsidir! deyimi, bügünümüzün anlayışı yox, Türk və Azərbaycan tarixində bəlkə də, batıdan öncə yayılmış geniş dünya və yaşam axarı olmuşdur:

…

Ərşilə fərş, kaf və nun MƏNDƏ bulundu cümlə çün,

Kəs sözünü və əbsəm ol, şərh və bəyanə sığmazam![118]

BU qissa beyti diqqətə alanda, Nəsimi sadəcə sözlərin birləşməsini deyil, onların içində birləşməsini və dildə ki qavramların özünə hakim olduğunu sərgiləməkdədir. Nəsimi, göyün, yerin, dünyanın MƏNDƏ birləşməsini və o MƏNİ dildə - yalnız dildə və başqa varlığda yox – sığmasını göstərincə, əslində dilin sığmazlığını və hər şeyin dildə sığmasını ifadə etməkdədir. Göründüyü kimi, günümüzədək çəkilən Hürufilik fəlsəfəsinin də düşüncə mərkəzində dil bilinci dayanmaqdadır. Hər şey tanrıdır, hər şey sözdür (dil). Hər şey dörd ünsur– su, od, hava, torpaq- təməlindən yaranmış yaranışdır. Dünya varlığı 28 sözdürsə, bütün kayinatı bu sözlər içində sığıştıran yalnızca dildir, dil bilincidir. Bir daha Dil Varlığın Evidir! deyimilə bu bölümə nöqtə qoyuruq.

## Azərbaycan varlığının biçimlənməsində ulusal tarixin rolu

Azərbaycan tarixi anlayışı deyilən zaman, insanın gözü önünə anasının ürəyindən qopan bir söz gəlir: *“Bala biz Türkəsayar adamıq.*[119] *Bizdə şilə-pilə olmaz!”*. Sözsüz ki, bu sadə sözün anlayışına varmaq üçün, tarix hafizəsinin ən dərin qatlarına getmək gərəkir. İnsan tarixinin yüzminlərə və hətta milyonlar ilə uzanması, istər-istəməz, Türk və Azərbaycan adını da ortaya gətirir. İlkin insan yaşayış yerlərinin birisi

[118] E.Nəsimi(1369-1417)

[119] /Təbriz deyimi: türk sayaq/

olan Azərbaycan torpaqlarıda ümum Türk torpaqları kimi bəşəriyyət beşigi olması ap-aydın görünməkdədir. "Azərbaycan insanın yaşadığı ən qədim məkanlardandır. Füzuli şəhərinin yaxınlığında yerləşən Azıx mağarasının tapıntısı Pali-olit (Daşçağı) dövründən bəri Azərbaycanın toplu insan yaşayış yer olmasını isbatlamaqdadır. Azıxantrop od yandırıb, onu yanıq saxlamağı və hətta özünə ev dikməyi belə bacarmışdır."[120]

İlk öncə yuxarıdaki ifadələr çox sadə və normal görünə bilər. Ancaq bir az düşünülürsə, hardan gəldik, necə gəldik, kimlərdən gəldik kimi bir tablo gözümüzün önündə dayanacaqdır. Geçmişlərdən çağımıza yaxınlaşdıqca, daha aydın tarix qaynaqları tapılır. Bu qaynaqlarda axtarış sonucu əldə edilən bəlgələr hansı bölgələrdə kimlərin yaşamasını, nə kimi kimlik daşıdığını bələ edir. Mədəni tarix sumerlərdən başlanır nəzəriyyəsi son dövrin tarixçilərinin bir çoxunun ortaq düşüncəsi olmuşdur. İkiçayarası [121] nəzəriyyəsinin get-gedə bilimsəlləşməsi, Azərbaycan və Anadolunu da ortaya gətirməkdədir. Avrupa və Amerika arxoloqlarının oxuduqları daşyazmalar yeni sonucları ortaya qoyur. M.Ö. ən azı 5-ci minilliklərdən Ön asiya və Orta asiyadan güneyə axınan sumerlər kəsinliklə iltisaqi dilli xalqlardan olmuşlar. Çox keçmədən Sumer dililə Türk dili arasında 300-dən artıq bənzər və ya eyni sözlərin oxunuşu baş vermişdir. Ortaya belə bir sorğu atılır. Doğrudan bu Sumerlər kimlərdirlər? "Müasir Şumerologiyada Şumer dilinin Türk dilləri ilə qohum olması fikrini söyləyən mütəxəssislər də var. Məşhur Türk dilçisi prof. Osman Nədim Tuna iyirmi ildən artıq şumer-Türk dillərinin əlaqələri üzərində araşdırmalar apardıqdan sonra bu dildə 168-dən çox Türk mənşəli sözün olduğunu sübut etmişdir. Bu barədə o, yazır: *(Şümer və Türk dilləri ən qədim dövrlərdən bir-biri ilə qohum ola da bilərdi, olmaya da. Bu mövzu burada bizi maraqlandırmır. Ancaq şumerlərlə Türklər arasında dil baxımından tarixi bir bağlılığın olması, bu 168 söz əhəmiyyətli açıqlamalarla sübut edilmişdir.)* Prof. O. N. Tunanın müəyyən etdiyi şümer dilində olan Türk sözlərinin böyük əksəriyyəti bu gün də

---

[120] *(Azərbaycan Tarixi, Azərbaycan MEA, Tarix inistitotu, 1-ci cild, s8) ( fars ca, tərcumə Dr.N.İ. Bayat. Təbriz Ərk yayını, 1981).*

[121] Beyn-əl-nəhreyn

Azərbaycan dilində eyni mənada işlənilir: ilgük // ilgək, elik // əlik, yilik// ilik, kabkagak// gabgacaq, dubur// yumuru// Azərbaycanın qərb dialektində - dumuru, dingir// tanri və s. Buradan belə bir qənaətə gəlmək olar ki, hətta əgər şümer dilinin protoTürk dili olması məsələsi mübahisəli olsa belə bu dilin formalaşmasında Türk dilinin rolunu inkar etmək olmaz.” [122] Göründüyü kimi Türklərin Anadoluya və Azərbaycana gəlişlərinin M.S 11-ci əsrə dayanması bütünlüklə Fars və bəzən qərb və ərəb tarixçiləri tərəfindən uydurma və ağ yalandır. Hətta uzaq bir fərziyyəyə görə, əgər sumer və Türk eyniliyi olmasa belə, sümerlərin Türklərdən etgilənməsi aydıncasına ortaya çıxır. Demək ki, Türklərin ikiçayarası və Urmu gölü yaxasında, habelə Ön və Orta Asiya, Van və Azaq yaxalarında mədəniyyət qurmaları M.Q.5-ci minillikdən də uzaqlara dayanır. Ulusal tarix kimliyi buradan başlayır və bir millətin ulus kimliyini bilincləşdirir. Aydın və öncül insan toplusu başqalarını yönəltməkdən öncə kəndini ifadə etməyi bacarmalıdır. MƏN kiməm, kimlərdənəm, soyköküm hara dayanır. Atalarım-analarım kimlər olmuş. Haralardan gəlmiş, necə yaşamış və ümum bəşəri yaşama nə kimi qatqı vermişdirlər?

## **“Türk Adı” və Anlamları**

(Nurer Uğurludan)

”Tarixdə ilk TÜRK adi Orhon yazıtlarında Türk olaraq geçir. Dövlətinə bağlı xalq, təbəə, güclü, qüvvətli ulus anlamında. Kaşqaylı Mahmud,a (və ya Türk əfsanəsinə) görə, tanrının qoyduğu Türk adı, gənclik, sağlıq, olğunluq anlamına gəlmiş. Ziya Gökalp, Türkün törəli, yasalı anlamında, törə və ya türədən gəldiyini düşünür. Çin qaynaqlarında, „Miğfer“ anlamına gələbilən Tu-kue/ Törük olaraq geçirmiş. Herodot Tarixində, İskit ölkəsində yaşayan Tyrkae,nin Türk olduğu sanılır. Hind qaynaqlarında, Türklər Turukha olunur. Perslərin Şahnaməsində, (İran ilə qafiyəli) Turan əsilli savaşçı Türklərdən söz edilir. Bu yorumlarda çoxunu

[122] .”*(Prof. Cəlil Nağiyev, Qədim Şərq Ədəbiyyatı tarixi.Bakı, Asiya yayını, s55)*

doğrulayan Türkoloq Vambery,nin Türk sözcügünü, türəyən anlamında, törəməkdən törətdiyini əkliyir. *(Kz TKAE 1992-I:106-7.)*[123]

”Beləliklə, bu nəticəyə gəlmək olar ki, Türk xalqları min illər boyu dünyanın hər yerində və tarixin bütün dövrlərində dərin izlər qoymuş, tarixlər yaratmışlar. Lakin bu tarixi izləri özündə əks etdirən elmi və tarixi nümunələrdən xəbər tutmaq uzun müddət bizə, o cümlədən digər Türkdilli xalqların bir çoxuna çətin olmuşdur.”[124]

Sözsüz ki, Azərbaycanda milli bilincin altyapısı Türklükdən qaynaqlanır. Bəzilərinin Türklük dışında Azərbaycançılıq axtarışları süzgeçdə su daşımağa bənzəyir. Rusların Azərbaycana başlayan basqısı zamanından son illərədək istərsə Çar, istərsə Sevet rejimləri tərəfindən çox ağır bir anti Türk siyasəti yürüdülmüşdür. Belə ki, quzeydə Türk sözünə yasaq qoyulmuş, Türkçü yazar, şair və siyasətçilər qurup-qurup öldürülmüş, sürgün düşmüş, dustaq olmuş və ya hər hansı yolla olsa belə, ölkədən qaçaraq didərgin düşmüşdürlər. Ancaq qalanlarsa ya boyun əyərək rusların siyasətinin bir parçası olmuş və ya susaraq ömür sürmüşdürlər. Latin əlifbası dəyişərək kiril cizgisi ulusa hakim olmuşdur. İş burda bitməmiş Azərbaycan Türkcəsində olan bir çox köklü sözcüklər dildən alınaraq yerinə ərəb, rus və hətta Fars sözlüklər qoyulmuşdur. Amac Azərbaycanı özəlləşdirmək idi. Necə ki, haman siyasət Özbək, Türkmən, Tatar, Qırqız, Qazaq v.b.Türk toplumlar haqqında da tətbiq edilirdi. Bu özəlləşdirmə siyasətinin amacı Türk tolumlarının Türklüyünü əllərindən almaq, onların soykök birliyini unutdurmaq, Türk anlayışını qaldırmaqla yanaşı yeni toplum kimliyi vermək idi. Ruslar bu siyasətlərini özəlliklə 1930-dan sonra çox radikalcasına davam etdirdilər. Azərbaycanda və başqa Türk topluluqlarda Türk adı yerini Sevet dəyişdirdi. Türk insanı, Sevet insanı oldu və Türklük anlayışı, Sevet anlayışı ilə dəyışıldı. Güneydə daha da pis durum hakim olmuşdu. Türk kimliyi hakim olan Fars şovinist tərəfindən inkar olunmağa başlamışdı. Ancaq bunlar hamısı geridə qaldı. Quzeydə müstəqil dövlətin qurulması

---

[123] (*Bozkurt Güvenç, Türk kimliği, Kültür Tarihinin kaynakları,Tisamat Basım Sanayii, 1993, Ankara, s22*)

[124] *(Aydın Abbasov, Milli Dövlətçilik Məfkurəsi və Layiqlik, Bakı.2002.s8)*

və gündən-günə böyüməsi, Türkiyeylə bütün alanlarda paylaşması, başqa Türk cümhuriyyətlərlə yaxınlaşması, Güneydə isə milyonlar insanımızın "Haray-haray mən Türkəm" "Bakı,Təbriz, Ankara- Fars lar hara bizlər hara" "Ölüm olsun faşizmə"... kimi stratejik mövqe ortaya qoyması, ulusumuzun Ulusal Tarix Bilincinin gündəmə yansıtmasının aydın görüntüsü oldu.

Çağdaş insanımızın MƏN özləmi, tarixdən gələn bir varlıq olaraq ulusal kimlik bilincinə hakim olmaqdadır. Əgər bir millət tarixin alt qatlarında gömüş Babəklərini üzə çıxarır və onu çağdaşlaşdırırsa, deməк o ulus milli kimlik bilincini əldə edibdir. Və əslində ulusal bilincinin yüksəlişinin yeni dalğalarına çatmağa başlayıbdır. Başqa anlamla deyilərsə, bir millət öz ulusal davasını etnik kimliyi və soykökü üzərində düzənləyə bilərsə, demək olar ki, artıq o milli, özəl davasının özəl düşüncəsini əldə edəbilib, əldə edilən düşüncə sistemi ilə, minlər il boyunca qazandığı yaşam kültürünü, kütlə təməllərini, tarixindən gününədək çəkilən doğallığını siyası həyatıyla uydura bilibdir. Azərbaycan Türk tarixinin doğal axışı, öz dərinliyi ilə insanının alacağı hər cürə sorumluluğu yönətməyə qadırdır. "Başqa millətlər bu günkü mədəniyyətə girmək üçün keçmişlərdən uzaqlaşmağa məcburdurlar, halbuki Türklərin bu günkü mədəniyyətə girmələri üçün yalnız əski keçmişlərinə dönüb baxmaları yetər."[125] İnsanımız təki MƏN, dünyanın ən yenilməzi, ən bilgini, ən əskisi və ən gənciyəm inancına qalxarsa əgər!

Çağdaş Azərbaycan milli-siyasi davasının mərkəzi və beyini kimi sayılan tarix və dil bilinci ulus və torpaq bölünməzliyini bir mütləq olaraq ortaya qoymaqdadır. Azərbaycan, Türk mədəniyyətinin ayrılmaz hissəsi olduğu kimi, öz varlığının ruhunda da ayrılmaz və bütündür. Bu bütövlüyün parçalanma faciəsini başlıca Azərbaycan yaşasa da, sorunun təkcə Azərbaycana bağlı olduğunu da düşünməməliyik. Bu bir Türk sorunudur. Türk dünyasının bu soruna yiyə çıxması gərəkir. Demək, geniş bilgiləndirmə çabası gündəm bulmalı, bununla bağlı səfərbər olmaq gərəkir. Dünya ildırım xızıyla dəyişməkdədir, artıq ilişim vəilətişim formaları 20-ci yüzilliyin hətta sonlarıyla belə, qiyaslana bilməz halə

[125] *(Ziya Kökalp. Türkçüyüyün əsasları. İstanbul. 1923. S21)*

gəlmişdir. Uluslar gündən günə postmodernizm yaşam sistemilə alışılır, İnsan yaşamı, artıq alt qatlarda deyil, üst qatlarda dəyişməyə başlayır. Dünya sürətlə kürəsəlləşir[126], kiçilir və güncəlləşir. Belə olan durumda, kimlikləri gizlənmiş millətlər ilişim sisteminə alışmaq yolunda inanılmaz modern əritmə sistemilə daha artıq kimlik itirmə təhlükəsinə tüşlanırlar. Bu, bizim üçün də keçərli sayılır. Bir tərəfdən dünyayla ayaqlaşmaq zorundayıq. Digər yandan isə, Türk insanının bu ayaqlaşma yolunda özgür və bağımsız seçim iradəsinin yetərsizliyi ortadadır. Türk kültür kimliyi keçmiş zamanına uyan sistemilə də aralanmış durumdaykən, belə modern yarışa girmək gücü hardadır sorusuna əlbətdə ki, Türk insanı yanıt axtarmalıdır. Öncə birlik və birlik ruhuna yiyələnmək gərəkir. Türk insanı, çox az zamanda bu birliyi yaxalaya bilmesə, artıq çox gec olacağını gözümüzlə görəcəyik. 19-cu əsrdə Azərbaycan dramator alim və düşünürü, Mirza Fətəli Axundovun Türklər üçün Ortaq Latin alfabeti ortaya qoyub və diyar-diyar bu ən gərəkən tezistini qəbul etdirmək üçün səfərə çıxması, habelə Krim Tatar Türklərinin yetişdirdiyi ən böyük dahilərdən biri İsmayil bəy Kaspıralının Türklər üçün "Dildə, Fikirdə, İşdə birlik" çağrısı hələ də, qulaqlarımızda səslənməkdədir.

Tariximizin bizə verdiyi olumlu və olumsuz dəyərləri nədən araşdıra bilməyirik sorunu, bir başqa dərdimizdir. Analarımız deyimini bir də anarkən ki, "bala biz Türkəsayar millətik, bizdə şilə-pilə[127] olaz!" belə sonuca varmaq olar ki, sadəliyimizlə yaşadıq, qurduq, mədəniyyət yaratdıq, şilə-pilə,siz insanlara dövlət, imperatorluq, hakimiyyət qurduq, içimizə sızan şilə-pilə,li düşmənlər vərində isə sırtımızdan vurulduq! Buna əngəl olamadıq, hey yıxılıb durduq. Zaman bizə acımadı. Zaman uçarkən, biz yürüdük. Uçma bilənlər zamana çatdılar, biz isə çatanlara heyran qaldıq! Ancaq, biz də xızlanmalı və zamana çatmalıyıq, bizim buna qadir olacağımız bəllidir. "Bu gün parçalanmışıq, kiçilmişik, zəyifləyib geri qalıb və əsarətə düşmüşük. Ancaq dünən bütöv idik, böyüküdük, güclü, öncül və müstəqilidik, Milli şüurun tələbinə görə, mütləq dünənki əzəmətimizin qururunu daşımalı və həm də ürəkdən inanmalıyıq ki, su gələn arxa bir də gələr! Keçmiş bütünlüyümüzü, böyüklüyümüzün, güclü

[126] qloballaşır
[127] yalan.hilə

və öncül olmamızın səbəblərini öyrənməli, yapdığımız yalnışlıqları araşdırıb bilməli və sabah`da bütöv, böyük, güclü, öncül olacağımıza bütün varlığımızla inanmalı, ona indidən hazırlaşmalıyıq"[128]

Çox sevindirici haldır ki, artıq ulsal dəyərlərimizi yalnız həsrət, nisgil yazında, duyğulu şeirlərdə, musiqidə deyil, həm də, yazarlarin qələmlərində, milli-siyasi oranda da yayğın olaraq görməkdəyik.

"Bax, bu böyük mədəni irsi öyrənəcəksən, onda səndə belə böyük kompleks yaranacaq və deyəcəksən ki, mən bu ulu mədəniyyətin daşıyıcısıyam, mən bu böyük tarixin daşıyıcısıyam. Dünyaya tərəqqi və rifah, ədalət və mədəniyyət gətirmişəm. Bundan sonra sən özünü sübut edəcəksən. Dünya dahilərini ortaya qoyacaqsan. Mən çox təəssüf edirəm ki, biz hələ də bu işdə çox geriyik. Aristoteli, Platonu, Qaliyevi, koperniki...az qala əzbər bilirik, ancaq İbn Sina, Farabi, Biruni, Nesrəddin Tusi, Ulug bəy...kimi nəhənglərimizin nə yazdığından, demək olar ki, xəbərimiz yoxdur. Halbuki dünya elm və mədəniyyəti onlardan nə qədər qidalanıb və qidalanmaqdadır."[129]

## Azərbaycan varlığının biçimlənməsində ulusal kültürün rolu

Quşqusuz, tarixlə kültürün bağlarını bir-birindən qoparmaq mümkun olası bir iş deyildir. Hətta bəzi bilim insanlarına görə tarix elmi kültürün detallarından oluşan bir insan varlığıdır. Ancaq bir çox bilginlərə görə, bu nisbət tərsinədir. Yəni, kültür tarixin hissəsi və onun ən incə və doğrudan- doğruya keçidi və ardıçıl zamanların körpüsüdür. Kültür, toplumların damla-damla toparladığı insan incisidir. Tarixdə yaşayan hər insan toplusu kəsinliklə özünə özəl[130] olan ulusal kültürə bağlıdır. Bu bağlantı, o toplumun yaşam tərzi, sərgilədiyi dəb və adətinin göstərgəsidir. Hər insan toplusu, öz dünya görüşünü, yaşam sisteminin qurulmasını

---

[128] *(Bütöv Azərbaycan Birliyinin Məramnaməsi. Bakı. 2004. s101)*

[129] *"(Ə.Elçibəy, Çağdaş Azərbaycan dərgisi, say1, 2001, İsveç, s13) (Bakıda çıxan Tanıtım qəzetindən alınmışdır)"*

[130] məxsus

zaman-zaman əldə etdiyi kültür biçimindən alaraq, onu ulusallaşdırır. Onu, mənimsəyir, onun qorunması üçün var-yoxundan geçməyə belə, hazır olur. Sözsüz ki, kültür də zaman-zaman başqa kültürlərin etgisi altında qalır. Millətlərin özgürlüyü, barış və hüzur içində yaşaması halində, insanların milli kültürləri də çiçəklənir, insanlar arası kültürəl alış-verişi gərçək anlam tapır. Ulusal kültürlər ayrı-ayrı toplumlar tərəfindən könüllü olaraq qəbullanır və dünya malına çevrilir. Kültür əsil anlamda dünyanın qarşılıqlı anlaşması üçün ən barışcil yoldur. Bu işin gözəl üzüdür, bir də işin pis üzü vardır. Belə ki, zaman sürəcində savaşlar üz verərkən, qalib-məğlub kültürlərin də savaş alanı açılmağa başlayır. Hər hansı nədən üzündən qalib olan dövlət, hər addımdan öncə məğlub millətin asimila olmasına, onun kültürünün aradan qaldırmasına və öz kültürünü aşırmağa çalışır. Ordu, ekonomik və politik üçlüyünün birləşməsi üzündən çağın güclüsü olan sömürgəçi[131] bir neçə dövlətin basqıçı siyasətləri nəticəsində yenilgiyə ugramış ulusal kültürlərin təhlükə altında olması daha da çoxdur. Çünkü, mədəniyyət və kültürdən boşalan bir millətin yenidən toparlanıb tarixsəl maddi və mənəvi dəyərlərinə dayanaraq düşüncə sistemi qurması olduqca çətindir. Düşüncə sistemini əldən verən bir toplumun önə baxış stratejisi`də olmaz duruma duşür. Sözsüz ki, kültürün və toplumun yaşam fəlsəfəsinin təməlindəki tabandan çox şey asılıdır. Toplum var ki, qalib dövlətlərin ilk kültür hücümüna uğrarkən təslim olub yenmiş kültürün içində sürtülüb aradan gedər. Məğlub ölkə də var ki, illər boyu qalib ölkə mədəniyyətinə baş əymədən öz kültürünü yaşadar və hətta qalib kültürü öz köklü gücünün etgisi altına alaraq əlverişli bir zamanda öz kültür bağından qopmayan ulu iradəsi ilə bağımsızlığını da qazana bilər. Bir ulusun ulusallaşmış[132] maddi dəyərləri onun gündəlik çalışma tərzində, ekonomu dayaqlarında (Sənaye, əkin, mal-davar, karprativ v.b.), mətbəq kültüründə, geyim və davranış tiplərində, tikinti və memarlıq görüntülərində, şəhər və kənd yaşamında özünə anlam verən halda, mənəvi dəyərlərini`də: ədəbiyyatda (öykü[133], şeir, roman, mifoloji, xatirələr v.b.) müzik sənətində (Türklərdə ozan, muğam), əl işlərində, folklor, teatr, sinemada, rəssamlıq və heykəltraşlıq

[131] istismarçı
[132] milliləşmiş, millətləşmiş
[133] hikayə

çeşidləri (Azərbaycanda miniatür), danışıq, davranış, gələnək, dəb və adətlərində, dinsəl görənək və ayinlərində, ulusal idman tiplərindən (pakistan və əfğanlarda çoğan, ispanişlərdə matadorluq, Türklərdə gürəş v.b.) insan adlarında, fəlsəfə və dünya görüşlərində, sosialoji, psikoloji və siyasi davranışlarında və başqa özəlliklərdə tanıtdırar.

Tarix hafizəsini özəl sistemlər halində günümüzə və sınırsız gələcəyə daşıyan və insanların yaşam moralının düzeyini oluşduran Kültür Kimlik Bilinci, hər köklü və əsil millətdə olduğu kimi Türk ulusu üçün də həyati rola malikdir. Elə ki, Türk tarixini onun kültüründən ayırmaq mümkun deyildir. Azərbaycan Türk milləti, Türk ulusunun ayrılmaz bir bölümü olaraq öz zəngin və tükənməz kültür xəzinəsini bəşəriyyətin toplumsal tarixinin ən dərin qatlarından almışdır. Dünyanın ən qədim insan toplusu ocaqlarından birisi kimi təsbit olunan Azıx bölgəsində ilk dörd ayaqlı meymun tipli antropogenez insan yaşamışdır. Bu insan, doğanın səslərini duymuş, 100-min illər boyunca ahəngdar səs ritmini öyrənmişdir. Özündən daha yırtıcı heyvanlarla baş etmək üçün birlikdə olmağı bacarmış və bu birlikdə olmaq yoluyla zəka və alt bilincə əl tapmışdır. Ac qalmamaq üçün, daşlardan soxucu və kəsici alətlər düzəltmiş, heyvanları ovlamışdır. Diri qalmaq üçün, yerlə, göylə, vəhşi doğayla və hətta özü ilə belə, mübarizə etməyi öyrənmişdir. Habelə, arxolojik təsbitlərə görə, Xazər, Aral, Van, Urmu gölləri, Amodərya və Sirdərya[134], Qızıluzən, Dəclə-Frat[135] çayları və Kəngər körfəzi[136] ilə bəlli yayla kimi görünən hövzədə, ilk insan mədəniyyətləri quruluşudur. Azərbaycan, bu bölgənin ortasınada yerləşdiyinə görə, həm də qurup axınlarının terminalı olmuşdur. Bu üzdən ən ilk başdan ilkin insanların dil və davranış qavramlarını toparlama rolunu da üzərinə çəkmək zorunda qalmışdır.

Doğal olaraq bu ilətişim Azərbaycanın sonrakı kültür zənginliyinin önəmli nədənlərindən birisi olmuşdur. Bu bölgədə, M.Q 10,000-ci illərə dayanan Qobustan Mağarasının üzə çıxması, oradaki daş qazıntıları və

[134] Ceyhun-Seyhun
[135] İkiçayarası
[136] Bəsrə xəlici, Ərəb xəlici

çəkilən rəsimlər, insan toplusunun mədəniləşməsi ilə bağlı ilkin tapıntıları ələ vermişdir. Bir az sonra Urmu bölgəsində yerləşən Həsənli təpəsində və ayrı-ayrı arxolojik təsbitlərdən əldə olunan bilgilərə görə, Azərbaycan Türklərinin ilk mədəni toplumlardan olması kəsinləşmişdir. M.Q 3 və 4-cu minilliklərə dayanan Urmu Gölu yaxasındaki Aratta kültür bölgəsi, Təbriz, Akbatan[137], Muğan-Savalan və Zaqros dağları arasında yayılan Qutti-Lullubi dövlətləri, Xəzər, Azaq, Van, Göycə göllərinin yaxasında ilk dövlətlər quran İskitlər, Orartolar, Hittitlər kimi mədəni toplumlar və zaman sürəcində Türk dilli xalqların mərkəz dövləti olan Manna hakimiyyəti öz yüksək mədəniyyəti və kifayət qədər dövlətçilik sistemilə məhz bugünkü Azərbaycan Türk mədəniyyətinin anası olmuşdurlar. Mannalar, doğanı əziz sanmışlar. Günəşi, ayı qutsal bilib, doğa olaylarına tanrı əlaməti kimi yanaşmışlar, saraylar dikmiş, tikintiləri üçün incə əl işlərindən istifadə etmiş və Elamlar tərəfindən qurulan mix cizgilərini işlətmiş, genişlətmişdir. Elə Mannalar zamanından oda qutsal gözüylə baxmaq ənənəsinin Mada zamanında Zərdüştliyin geniş yayılmasına və Mad dövlətinin rəsmi dini olmasına nədən olmuşdur.[138]

Mannalar, qonşu dövlətlərə elçi göndərmiş, onlarla mal və heyvan alışverişini genişləndirmiş və bölgədə barışla yaşamaq yolunda dostluq körpüləri qurmuşdurlar. Mannalar öz yaxın qohumları olan Elamların zəyifləmiş durumuna sahib çıxaraq, hücümçü qonşuların da qarşısında savunma gücünü saxlamışdırlar. Əski dövlətçilik və uyqarlığa malik olan Azərbaycan Türkləri Makedoniyalı İskəndərin M.Q 4-cü yüzilliyin sonlarında Fars kökənli Əhəmənlər (Həxamənişlər) dövlətçiliyinə son qoyan zaman, Madların bu savaşa qatılmaması və özəlliklə Güney bölgələrini idarə edən Atropatena, Quzeyin, Dağistanın hakimi olan Albaniya dövlətlərinin vahid bir stratejik əsasında İskəndərlə anlaşması gözə çarpan önəmli olay olmuşdur. İskəndərin ən zirvə çağında və bölgənin ən gərgin durumunda istər Quzeydə, istərsə Güneydə, Azərbaycanı özgür və savaşdan uzaq saxlamaq başda Atropaten özü olmaqla, Türklərin böyük siyasətçi olmasının və mədəni davranışlarının

[137] Həmədan, Aybatan
[138] *Od mədəniyyətinin Azərbaycanda yayılmasında ən qədim çağlardan petrol və qaz yataqlarının olmasının böyük rolu olmuşdur.*

nəticəsiydi. Yenə həmin dövrüdə irəliləmiş və tam olaraq toplum düzənləmə və ruhani sistem kimi yayılan Zərtüşt dininin rəsmi din olmasına rastlanılır. Əski dövrlərdə Azərbaycanın bu həddə böyüməsi və orada yaşayan insanların vahid dil və din ətrafında birləşməsi, formalaşmış bir ulusal kültürün kəsin örnəyidir. Sözsüz ki, müstəqil Atropaten və Albaniya dövlətlərinin Azərbaycanın sosial-siyasal formalaşmasında böyük rolları olmuşdur. Bu iki qardaş dövlət gərəkən zaman düşmənlər qarşısına birlikdə çıxar, dinc zamanında isə birgə yaşam alanı oluşdururdular. Elə bu üzdən Azərbaycan ən əski zamanlardan bəri kültür qazanmış, birlikdə yaşam biçimi qurmuş və bu birliyi günümüzədək daşımışdır.

M.S 8-ci yüzillikdə Azərbaycanın Ərəblər tərəfindən basqıya alınmasıyla yanaşı ərəb-İslam kültürünün Türk kültürü ilə toqquşması baş vermişdir. Bu toqquşma əsasında qalib tərəf olan ərəblərin kültür ağırlığı da duyulmuş, islam idelojisi Azərbaycanda yayğınlaşmışdır. Ərəb kültürünün islam dinilə bağlı olduğundan dolayı, Azərbaycan Türklüyünün kültür bicimi də islamiləşmiş, dil, yazın və tarixi şıddıtli basqılarla qarşı-qarşıya gəlmişdir. Bu üzdən, bir çox Türk alim, yazar və şairi öz əsərlərini ərəb dilində yazmağa üstünlük vermişdir. Ərəb istilasından sonra, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Afşar və Qacar dövlətlərinin iş başına gəlməsi tayfa və sülalə hakimiyyətləri olduqlarına görə, Azərbaycanda dövlətçilik kültürünə böyük qatqılar verməmişlər. Yalnız Şah İsmayil zamanında Azərbaycan mərkəzli dövlətçilik sistemilə tanış olmaq olar. Ancaq Şah İsmayilin Sultan Səlimlə qardaş savaşına girməsi və yenilməsi bəlkə də Azərbaycanın mərkəziyyətdən düşməsinin başlıca nədəni olmuşdur. 1813 və 1828-ci illərdəki anlaşmalar, Azərbaycanın yaşam biçimini, bağımsız dünya görüşünü, bir millət kimi yeni çağ aşamasına keçid şansını darma-dağın etmişdir. 1925-dən isə, Azərbaycanın milli kimlik və Türk varlığı iki yırtıcı düşmən basqısı altında yalnızca ölüm-qalım mücadilsi verməyə məcbur qalmışdır.

## Azərbaycan Türk kültür kimlik biçimlənməsində elat və oturaq yaşam faktları.

Azərbaycan Türk kültür kimlik bilincinin biçimlənməsində iki elat və oturaq yaşam düzeyinin danılmaz rolunu unutmamaq gərəkir. Bəlli ki, ən əntiq zamanlardan bütün Türk qəbilələrində olduğu kimi Azərbaycanda da elat və oturaq yaşam sistemləri yan-yana sürmüşdür. Azərbaycan böyük bir yayla olaraq özünə özəl doğasıyla insanların necə yaşamasını, gəlişməsini və qarşılıqlı ilşgidə olmasını da bəlirləmişdir. Bu yayla, quzeydən başlayaraq, Güney Qafqazdan çəkilib Şahdağı, Kiçik Qafqazda yerləşən Zəngəzur, Qapıcıq, Qarabağ dağlarını orta batıda yerləşən Doğu Ağrı, Sərdəşt, Şidan dağlarını, güney batıda Səhənd dağlarını, güney doğuda Qaradağ, Keçiqıran(Bozquş), Savalan, Talış dağlarını, mərkəzdə Qaflan dağını, güney güneydə isə Əlvənd və Gərin dağlarını da içərən Zagros sıradağları kimi saysız ucalıqlar arasında yerləşir. 400,000 qara metrədən də geniş alan oluşduran Azərbaycan yaylası, özül iqlimi, dörd fəsil hava çeşidi, geniş dərə və düzləri və ucalıqlarıyla, habelə böyük axar çayları və göllərilə ən əski zamanlardan elat (qışlaq-yaylaq) və oturaq (Kənd, şəhər və təxtəqapı) yaşam sisteminə alışmışdır.

Bütün adlım və tanınmış tarixçilərə görə, Azərbaycan Türkləri başqa Türk elləri kimi oturaq yaşamla birlikdə həm də, sürəcli yaylaq-qışlaq edən böyük insan toplumu olmuşdur. Elatlar, geniş heyvan sürülərini və habelə özlərini qış soyuğundan uzaq tutmaq üçün aran və düzlərə (Gəncə,kür,Araz düzləri, Mil-Muğan, Laçın v.b.) və yay istisindən qorunmaq üçün geniş dağ ətəklərinə, göy-çəmənlə dolu obalıqlara (Savalan, Səhənd, Qoşqay,Şahdağı v.b.) yerləşirdilər. Bəziləri bu yaşam sistemini köçəbəylik və ya köçərilik adlandırlar. Halbuki, elat mədəniyyəti yalnız öz doğma torpaqları içində olan fəsil hərəkətlənməsidir. Elatların yaşadığı qışlaqlar geniş alanda tikili və oturaq formaya yaxındır. Lakin, yaylaqları çadır və obalardan oluşmuş geniş dağ yamaclarıdır.

Azərbaycanda olan elatlıqla köçərilik sistemi bir-birindən fərqlənən yaşam tərzləridir. Köçərilik, hər hansı səbəbdən dolayı öz

doğma diyarını buraxıb əlverişli imkanlar axtarışında sınırsız göçdür. Olabilsin ki, bu göç çabası yeni şərtlərdən asılı olaraq bir neçə kərə təkrar olsun. Bu əməl bir düşünüşlü tərcih olmadığına görə, bəlirsiz amaclara`da nədən ola bilər. Köçərilik, bir yaşam sistemindən daha çox, hər hansı doğal və ya yaranmış nədənin törəməsidir. Bir neçə örnəklə yuxarı sətirlərə aydın gətirək:

A) 1946-ci ildə Güney Azərbaycan Milli Hakimiyyətinin çöküşündən sonra 100 minlərlə suçsuz Azərbaycan Türkünün İran adlanan ərazinin ən itmiş-batmış yerlərinə sürgün edilməsinin bir milli-siyasi deportasiya olmasında ən kiçik belə şübhə yoxdur. Bu düşmən tərəfindən olan bir köçürmə eyləmidir.

B) Yenə haman olaylarda, 100-minlərlə hərəkat fəalı və Firqə üzvü düşmən basqısından əmanda qalmaq üçün Quzey yolunu tutdular. Sevet dövlətinə sığınanların böyük bölümü sibir steplərinə sürgün düşərək bir daha vətənə dönmək imkanı əldə edə bilmədilər. Onlar oradan evləndilər, ailə qurdular. Bu istəmədən bir savaş köçüdür. Çünki, onlardan sonraki nəsilləri özlərini daha çox yerli insanlar biləcəklər. Onların yeni vətəni istər-istəməz sibir olacaqdır.

C) 1784-cü ildə Osman Hakimiyyətinin Ruslar qarşısında ardıcıl yenilməsi sonucunda təslimnaməyə boyun əyən Osmanlı dövləti 100,000-lər Kirim Tatar Türklərinin Osman torpaqlarına deportasiya olmasını qəbul etdi. Kirim Tatarları istəmədən Anadoluya axın etdi. Bugün bir neçə nəsil keçəndən sonra Kirim Tatarları bütünlüklə Türkiyələşiblər.

D) 15.ci üyzilliyin ortalarında Balkanların Osmanlı ordusu tərəfindən tutulması ardından minlər Türkün Balkanlara axın etməsi və orada dayimi yerləşməsi bir sosial-siyasal köç kimi alqılanır. Bu köçün ən baş memarı Osmanlı dövləti özü olsa da, köçmənlərin də sosial-ekonomik istəklərini unutmaq olmaz!

E) 1940.lardan başlayan Filistinin torpaq satışının sonucunda İsrail ölkəsi yarandı. Öz ana torpaqlarını para qarşısında yəhudlara satan

filistinlilər Lobenan, Ordoniya, Misir, Suriya kimi qonşu ölkələrə köçdülər. Onlar bir daha geri qayıtmaq imkanlarını itirdilər. Çünki, artıq satılan torpaqları geri almaq mümkun deyildir. Bu bir, istənilən deportasiyadır.

Türkmançay anlaşmasından sonra rusların böyük planı Qafqazı əldə saxlamaq və Türklərin bitişik torpaqları arasında boşluq bölgə yaratmaq idi. 100,000-lər ərməninin Anadoludan və Güney Azərbaycandan, İsfəhandan və başqa Farsistan bölgələrindən İrəvana və Qarabağa köçdürülməsinin sonucunda, yerli Azərbaycanlılar öz torpaqlarında köçməyə məruz qalaraq böyük torpaq itirimi üz verdi. Ayrı-ayrı yerlərdən köçdürülən ərməni yığınaqları millət kimi formalaşarkən zorla evlərindən dışlanan Türklərin torpaqlarında ərməni dövləti quruldu. Rus Çarlığının bir başa öndərliyi altında baş verən bu tarixsəl olayın bir zorakılıq köç olduğu bəllidir. Göründüyü kimi, köçərilikdə zamanlama, düzənləmə bəlirtisi, ön stratejik planlaması, odaxlanma və qarşılama iradəsi yoxdur. Bəzi qərəzli və manqortlaşmış düşünürlərə görə, güya Azərbaycan Türkləri keçmişdə köçəri olmuş və onun etgisi və adəti əsasında elat mədəniyyətinə yetişmişdir. Bu iddia təmamilə uydurma və saxtadır. Çünki, Azərbaycan Türkləri Ortadoğu, Ön Asiya və Orta Asiya bölgələrinin ən ilkin otraqları olmuş, bəşər mədəniyyətinin bir çox varlığına imzasını atmışdır. Bu ulus köçəri olmuşdursa, yerin yuvarlaqlığına, ilin, ayın, günün və saatın tapılmasına, insanlar üçün ilk sosiyal qurallrın düzənlənməsinə, alifbanın yaranmasına, heyvanların əhliləşməsinə, sarayların dikilməsinə, yerli hakimiyyətlərin qurulmasına v.b. necə öz imzasını qoymuşdur? Və ya, M.Ö-dən üzü bəri 100-lərlə imperatorluq, dövlət, xanlıq, atabəyliklərin sistemləşməsi kimlər tərəfindən oluşmuşdur? Sözsüz ki, köçəbəyliyin özgün iradəsi olmadığı üçün, prespektivli sistem qurma iradəsi də çox aşağıdır. Elatlıq köçəbəyliyin tərsinə öz bölgəsində yaylaq-qışlaq sistemidir. Elatlıq, özünə özəl, yerləşmiş, düzənləşmiş, qurallaşmış, taktikalaşmış, ölkə qanunlarına uyğunlaşmış bir yaşam kültürüdür.

Stanford J Şav yazır "...GöyTürk İmperatorluğu (552-744) Türklərin adını daşıyan birinci siyasi hakimiyyətdir. Onların İmperatoluq

alanı Qaradənizdən başlayaraq Muğulustan və Çinin quzeyindən hardasa Sakit Okeanadək çəkilirdi. GöyTürk hakimiyyəti birləşik çadır otraqlı tayfaların liderliyində idarə olunurdu...Keçmişlərdən fərqli olaraq bunlar el birləşmələrinin başçılarından qurulan bir mərkəzçi gücdə təbəəçilik edirdilər... GöyTürk başçıları bir yerdə təxtəqapı olmayırdılar. Onlar dam-davarlarıyla birlikdə yaylaq-qışlaqlarda yaşayırdılar...”.[139]

Sözsüz ki, modern və çağdaş şəhərçiliyin etgisi altında, elat yaşam biçimi də dəyişmiş və çox özəlliyini əldən vermişdir. Eytim, şəhər yaşantısı, kəndlərin modernləşməsi, elat yaşam alanında ürətilən əl işləri ürünlərin böyük fabrikalar ürünləri qarşısında zəyif qalması, heyvandarlığın sənayeləşməsi, kəndlilərlə elatlar arasındaki sürəcli problemlərlə yanı-sıra, dövlətin də elatları himayəsiz buraxması v.b. böyük elat tayfalarının kiçilməsinə nədən olmaqdadır. Otraq yaşam sistemi ilə yanaşı, elat mədəniyyətinin Azərbaycan kültürünə verdiyi pay hesaba gəlməz qədər böyükdür. Vətən azadlığı uğrunda can qoyan saysız iğid, ölkə ədəbiyyatına saya gəlməz bayatı çeşidləri verən, on minlərcə atalar sözünü qosaqdan-qoşağa daşıyan şifahi xalq ədəbiyyatını, habelə ozan və aşıq kültürünün ortaya gəlməsində doğadan qıdalanan bu sadə və təmiz Türklərin olduqca payı tükənməzdir. Elat yaşam düzeyinin, ulusal mənəviyyətimizə verdiyi payı saysız kitablarda yerləşdirmək olar.

## Azərbaycan varlığının biçimlənməsində ulusal dövlət.

Dövlət oransal [140] bir varlıqdır. Dövlət kimliyi oransal bir anlayışdır. Zaman var ki, böyüyüb, imperatorluq kimliyi qazanar. Zaman var ki, formadan düşüb, aradan qaldırılar. Ulus nə qədər qalıcı və mütləq bir varlıqdırsa, dövlət sürəcə bağlı, imha ehtimalına yaxın bir varlıqdır. Bir dövlətin uzun, sürəkli yaşaması, ulusunun köklü, güclü, çağa uyumluluqla dünyada olan durumu və ilişgilərinə bağlıdır. Rus-Azərbaycan[141]isti və soyuq savaşlarının sonucu, Azərbaycanda olan dolayı Türk hakimiyyətinin

---

[139] *(Stanford.J.Şav. Yeni Türkiyə və Osmanli İmperatorluğunun Tarixi. 1-ci cild fars ca.1991.Quds yayini.məşhəd),*
[140] nisbi
[141] Rus-Qacar da deyilə bilər, (1801-1828)

sonu oldu. Bu hakimiyyət formal olaraq 1925-dək İran adlanan yerdə sıxılıb qalsa da, əslində Türkəmənçay fəlakətindən sonra, Rus və İngiltərə başda olmaqla sümürgəçi dövlətlərin seçimi olan Fars siyasətçilərinin quşatmasında[142] olmuş, formal halda öz hakimiyyətini saxlaya bilmişdir. Türk Qacar dövləti, Türklük kimliyi bilincindən boşalmaqla, yavaş-yavaş Fars dövlətçilik sisteminə girmiş, öz əlilə azınlıqda olan Farsçı panların dövlət olmasına imkan yaratdı. Bu üzdən, Türkmənçay anlaşmasından[143] sonraki dövrü, Türk dövlətçiliyindən Fars dövlətinə keçid dövrü kimi dəyərləndirmək heçdə yalnış deyildir. Türkmənçaydan sonraki zamanlarda, Türk Qacar dövlətinin Türk dövlət olduğu ilə bağlı hər hansı simgəsi, aydın nişanı, rəsmi dil yazısı, sosiyal çıxışı və bir sözlə Türk kimlik izləri olmamışdır. Əslinə baxarsaq, yer üzündə tayfa, sülalə, din, sinif və təbəqəyə dayanan, imperatorluq və xanlıq təməlləri üzərində qurulan dövlətlərə ulusal dövlət adı vermək doğru ola bilməz. 1828-ci ildən bəri Azərbaycanın ikiyə bölünməsilə yanaşı ulusumuzunda fiziksəl ikiyə bölünməsi üz verdi. Bu bölünmənin həman ardından ilk dəfə olaraq ulus qarşısında bir ölüm-dirim davası dayandı. Ya yenidən birləşmək və var olmaq, ya başqaları boyunduruğu altında əzilib, aradan getmək!

Ulusun qarşısında duran bu böyük sorğu işarəti, milləti hərəkətə saldı. Düşmənin daha güclü olması və Azərbaycan Türkünün daha darmadağın duruma düşməsi, əlbətdə ki, gizli və dözümlü mücadiləni məsləhət görməkde idi. Buna görə, mübarizə meydanlarda deyil, yazarların qələmlərində, ulusal aydınların yaratdığı gizli örgütlərdə,[144] şairlərin duyğularında, Qoçaqların saldırısında, ayrı düşmüş ana-babaların göz yaşlarında davam etdi. Ancaq, bu sürəc uzantısına baxmayaraq, Bütöv Azərbaycan ideyası yalnız Ə. Elçibəyin 1976-cı il tutuqlaması ilə siyasi düzeyə (müstəvi) girdi. Bütöv Azərbaycan İdeyası, Türk ulusçuluğunun ortaq düşüncə sistemini oluşdurdu. Bu ulusal ideyanın mərkəzində ikiyə bölünmüş ulusumuzun birləşməsi və birləşik dövlətin çatısı altında özünü qurumsalaşdırma təməlinə dayandı. 1990-cı ildə neçə yüz il öncədən Türk düşmənliyi üzərində dövlət qurmuş Rus imperatorluğu çöküncə, ölkəmizin

[142] mühasirəsində
[143] müqaviləsindən
[144] təşkilatlanma

Quzeyi, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan və əlavə 10 yeni cümhuriyyət özlərinin ulus-dövlətlərini qurdular. Təbiki, yeni qurulmuş dövlətlərin özlərinə aid sorunları varkən, dışarıdan olan müdaxilələrin də can sıxıcı olması qaçırılmaz idi. Bu arada Azərbaycan üçün daha böyük sorunlar yolda idi. Başqa cümhuriyyətlərdən fərqlı olaraq ölkənin bölünmüş durumu, Qarabağın erməni-rus birlikləri tərəfindən işğal olunması öz damğasını ölkə gündəminə vurmuşdur.

Sözsüz ki, yeni yaranmış bir dövlətin diplomatik ilişgilərində mühafizəkar davranışın hakim olması çox önəmlidir. Lakin, demokratik bir toplumda Sivil Toplum Quruluşlarının[145] rolu heç də dövlətdən az deyildir. Söz bir ulusun varlığından gedən halda millət-dövlət bir sistemin ulusa verdiyi gənəl alanı və o alandan ən üst düzeydə himayə etməyini öz dəyişməz stratejisi kimi görməlidir. Azərbaycanda gərçək ulus dövlətinin yaranması yalnız Bütöv Azərbaycan Dövlətçiliyi simasında olasıdır. Bu üzdən, bütün qutsallığına rəğmən, bugünkü yarım hegemon dövlətimizi ulusal dövlət adlandırmaq olmaz! Milli dövlət dedikdə ali hakimiyyətin hər hansı bir şəxsə, xanədana, klana, partiyaya, zümrəyə və ya sinifə yox, qeydsiz-şərtsiz yalnız millətə məxsus olduğu və yalnız millətin iradəsinin üstün tutulduğu bir dövlət anlayırıq.

Sekolar /laik/ dövlət dedikdə dinin dövlətdən ayrılmasını, dinin və şəriətin dövlət işlərinə qarışmamasını başa düşərək, heç bir toplum dinsiz ola bilməz. Ancaq din toplumun dövlət işlərinə qarışmamalı, heç bir siyasətə alət olmamalı və toplum düzəyində öz varlığını sürdürməlidir. Sosial dövlət dedikdə sosial ədalətin gözlənilməsi, bütün vətəndaşlar üçün fürsət bərabərliyi, milli gəlirin ədalətli bölünməsi, hər kəs üçün iş, təhsil, səhiyyə və s. sosial, iqtisadi, mədəni imkanların yaranması və hamının insan kimi yaşaib rifaha qovuşa bilməsi məqsədilə demokratik sistemi zədələmədən dövlətin sosial və iqtisadi həyatda müəyyən nizamlayıcı rol oynamasının gərəkliliyini nəzərdə tuturuq. Hüquq dövlətini yalnız hüququn hakim olduğu dövlət kimi başa düşür. Anayasada təsbit olunmuş və Azərbaycanın qəbul etdiyi uluslararası sənədlərə uyğun insan haqları, vətəndaş hüquqları və azadlıqlarının qanunla qorunması, hakimiyyət

[145] Qeyri Dövlət Təşkilatların

bölgüsünün gərçəkləşməsini və məhkəmə hakimiyyətinin əsas götürürük.[146]

Azərbaycanda, Türk ulusunun milli bilincinin təməlində bütövlük ideyası dayanmaqdadır. Azərbaycan özəlliyinə görə, bütövçülüklə ulusçuluq anlayışları iç-içə girmiş termindir. Bu ikisini ayrı-ayrı tanıtmaq mümkün deyildir. Daha radikal anlamla desək, Azərbaycanda bütövçü olmayan millətçi, millətçi olmayan isə bütövçü olamaz! Hər millətin yaşam sistemində kəsinliklə bir birləşdirici ülkü vardır. Çünki, ülküsü olmayan bir millətin hara gedəcəyi, necə gedəcəyi, hardan gedəcəyi bəlli olmaz. Elə bu əslə dayanaraq Azərbaycan Türk milləti də bu aşamadan geçməli və ulus-dövlət ideyasına çatmalıdır. Sözsüz ki, Quzeyin istiqlalından sonra Güneyin də müstəqilliyi millətimizin gündəliyinə gəlməli və bütövləşmə yolunun şahdamarına dönüşməlidir. Güneyin dövləti olmadan, Azərbaycanın ulus-dövlətindən danışmaq mümkun deyildir. Bir başqa açıdan baxarsaq, Azərbaycanda ulusal dövlətçiliyin milli kimliyi kəsinliklə Türklük və Türkçülük təməli üzərində olmalıdır. Çünki, Azərbaycan kimliyi üzərində yaşayan Türklərlə bağlıdır. Göründüyü kimi, ulusal kimlik ulusa bağlıdır. Buna görə də, ən azından Azərbaycan şərtlərində torpaq deyil, millət üzrə ideolojik kimlik yarana bilər.

Bu arada Azərbaycan dövlətçiliyinə məhz Azərbaycançılıq ideolojisi verənlər də vardılar. Sözsüz ki, hər hansı ideolojik tərifi kimi Azərbaycançılıq ideolojisi də bir dövlət ideolojisi olaraq özünü tərif etmək gücünə malikdir. Əgər dövlətçilik ideolojisini dövlət sisteminin teorik beyini, dünya görüşünün düzənləyicisi, güc alanlarının birləşdiricisi, dövlətin topluma ötürəcəyi fikir bağlantısı v.b.. kimi bəlli bir düşüncə sistemi olaraq dəyərləndirsək. O zaman Azərbaycan dövlətçiliyinin də, öz amacları yönündə bir ideolojik sahibi olması olduqca doğaldır. Bu qonuda heç şübhə yoxdur. Yalnız var olan ideolojik olqusunun hansı payalar üzərində qurulması dartışılacaq bir sorundur. Hər dövlətin bəlli təməllərdən oluşan idarəçilik sistemi vardır. Bu idarəçilik sistemi istər-istəməz bir ideolojik təmələ dayanmaqdadır. Bu ideolojik dayağın ölkədən

---

[146] *.(Bütöv Azərbaycan Birliyinin Məramnaməsi kitabi, Bakı, 2004, s 60-61).*

ölkəyə dəyişik formada olması da böyük alanda o ölkənin tarixsəl təcrübələrilə bağlıdır. Gənəl olaraq çağdaş dövlətçilikdə ideolojinin kölgədə qalması görünür. Demokratik dövlətlərə görə, zaman sürəcində dövlət anayasasının üzərinə dəyişiklik verərək onu güncəlləşdirmək çox önəmlidir. Parlement çoxunluğunu əldə edən iqtidarların anayasa üzərində manovra verməsi, səs çoxunluğundan yararlanaraq iqtidar xeyrinə eyləmə girməsi çox görünməkdədir.

Toplumla dövlət arasında çağdaş, demokratik, laik və toplum anlaşması olursa, bu yeniləşmə daha da yasal çözümlənər.[147] Ancaq, yüksək demokratik aşamaya ayaq basmamış ölkələrdə işlərin tərsinə dönməsi çox əndişə vericidir. Çağdaşlığın bütün boyudlarını əldə edəməyən toplumların əslində ən böyük sorunu özlərini tanımamalarıdır. Bir toplumun çağdaş olmasının anlamı mütləq Avrupalı və ya Amerikalı sistemlərə yiyələnməsi demək deyildir. Hər hansı millət öz ulusal çıxarlarını sərbəst və özgürcəsinə gündəmə alıb, dinin dövlətə dəxalət etməsinin qarşısına çıxıb, toplumun təməlini formalaşdıran birəy haqları yaşada bilərsə, çağdaş dövlət sahibidir. Demək, belə olan halda bir toplumun idarəçilik sistemi zorlanmadan hüquq və qanun özgürlüyünü əldə etmişdir. İdeolojik dayağından asılı olmayaraq bu toplum çağdaşlığa varmışdır. Azərbaycan, çoxunluğu Türk etniki olan çeşidli xalqların vətənidir. Türk etniki Azərbaycanın yüzdə 95-ini oluşdurmaqdadır. Bir neçə nadir ölkəni çıxmaqla, Azərbaycan dünyanın ən aparıcı etnik tərkiblərindən birini öz içində barındırır. Tarixdən gələn bir özəlliyə görə, Azərbaycanda torpaqla millət adı üst-üstə düşməyir. Bu isə, Azərbaycanın bir başqa özəlliyidir. Ancaq bu özəllik milli kimlik haqqında və dövlətlə ulus ilişgilərində ikili standarda yol açmayır. Türk və Azərbaycan bizim ölkəmizin etnik və torpaq adlarıdır. Bu iki termin heç zəman bir-birindən ayrı olmamış və ola da bilməz idi. Etnoloji elminin əsaslarına görə, milli kimlik dil və etnikə görə bəlirlənər. Dil və etnik kimliyi insana bağlı oldğu üçün necəlik bəlirtisidir. Coğrafiya qalib şəkildə bu bəlirtinin objektiv alanını oluşdurur. Bu üzdən, Azərbaycan kimliyinin özü Türklüklə bəlirlənir. Onun dövlətçilik ideoloji isə, Türkçülük üzərində dayanmalıdır. Azərbaycan dünyanın ilk mədəniyyət ocaqlarından biri və torpaqları ilk

[147] həll olunur

uyqarlıqdan bəri Türklərin yaşadığı yer olmuşdur. Bu torpaqda Türklərlə yanaşı başqa etniklər yaşasa da, heç zaman aparıcı güc kimi çıxış edəbilməmiş, yalnız kiçik etnik qurup ölçüsündə Türklərin qorumasında yaşamış, yaratmışdırlar. Azərbaycanın milli kimliyi Türklükdür. Bu üzdən dövlət kimliyi də Türklük və Türkçülük təməli üzərində qurulmalıdır. Türkçülük, ulusçuluqdur. Ulusçuluq isə bir ulusun irəliləməsi və gələcəyi uğrunda[148] ülkü gücüdür. Ülkü kəsinliklə insan üzərində anlam tapar, insanın içində formalaşar və insanın formalşmsına imkan verər.

Bu qonuyla bağlı iki dövlət-millət sistemini örnək gətirək. Erməni dövlətilə, erməni milləti və Alman dövlətilə alman milləti eynilə bir ad altında tanımlanırlar. Onlar üçün etnik və ölkə ad dəyişimi anlamsızdır. Ortada nə varsa eynidir. Dövlət tarixilə millət tarixi bircə anlaşılır, bircə tanımlanır. Hər hansı tarixsəl nədənlər üzündən Azərbaycan öz özəlliyini yaşayır. Yəni, Azərbaycanda Türk milləti var və Azərbaycan dövləti var. Burada dövlət idarəçilərinin üzərinə iki dəfə vəzifə düşür. Bu vəzifəyə görə, iki varlıq bir yerdə yaşamalı, çiçəklənməli və uyğun bir durumda bir ada çevrilməlidir. Bu ad kəsinliklə Türk təməli üzərində qurulmalıdır.

## Azərbaycan varlığının biçimlənməsində ulusal ordunun rolu

Ordu sözü əski zamanlardan Türklər arasında hakimiyyət anlamı daşımışdır. Türk el və ya el birləşmələrinin mərkəz yığıncağına ordu deyilirmiş. Xaqanı və ya el başçısını qorumaq elin görəvinə düşürmüş. Bu üzdən əski Türklərdə orduyla millətin eyni varlıq olması gürünməkdədir. Ölkənin savaşa girmsilə uşaqlar, qocalar dışında bütün əli silah tutan toplum üyəsi hakimiyyətin bəqası üçün savaşa qalxırdılar. Qədim Türklər üçün başçının qorunub saxlanılması torpağın saxlanılmasından daha önəmli sayılırdı. Türklərə görə, igid bir ərin başçılığıyla böyük torpaqlara çatmaq olar, lakin böyük torpaqları igid başçı olmadan saxlamaq olmaz! Məhz buna görə də, Türkləri ordu ulus adlandırırmışlar. Türk hakimiyyət alanının böyüməsi ilə yavaş-yavaş ordu görəvliləri də seçilmiş və düzənli olaraq qoşun adı almışdır.

---

[148] yolunda

İnsanların ən sıx yaşaydığı yerləndən birisi olan Ortadoğu, Ortasiya, Uzaq Asiya və Avrupa həndəvəri, tarıx boyu dünyanın ən çəkişməli bölgələri olmuşdur. Bölgənin bir neçə böyük gücün böyümə ehtirasının qarşısında ən əziləni isə, kiçik ellər olmuşdur. Kiçik qəbilə və ellər sürəkli olaraq böyük dövlətlərin boyunduruğu altına düşmüşlər. İstər bu durum M.Q olsun, istərsə də miladdan sonrakı zamanlarda öz sürəcini dəvam etdirmişdir. Sözsüz ki, Türklər dəvamlı olaraq ya bu savaşların mərkəzində olmuş və ya da onunla yaxın ilgidə olmuşdurlar. Belə ki, toplumsal kültürün tanınmasından üzü bəri Türk kimliyi ilə bölgədə var olan başqa kimliklərin kültürəl hafizəsi iç-içə girmiş bəlli bir bütünün yaranmasına nədən olmuşdur. Türklər, bu bölgədə yaşayan ən geniş və güclü hemogen birliyi olmuş, bir çox xalqları öz bayrağı altında tutmayı bacarmışdır. Sözsüz ki, zaman-zaman başqa xalqların da baş qaldırdığı çağlar olmuş və etkənlik çağları bölünmüşdür. Türk dilli Sumerlərə qarşı Sami dilli əkkədlərin qələbəli savaşı (M.Q 2800), yenə Türk soylu Elamlara qarşı sami dilli Asurilərin yürüşü(M.Q.655), Türk Midiyaya qarşı Fars kökənli Əhəmənlərin[149] zəfəri (M.Q 550) və tarix ərsəsində ilk kəz bir Fars kökənli hakimiyyətin yaranması, Makadoniyalı İskəndərin Türklərlə anlaşması (Atropatenlə) və Əhəmənilərə Qələbəsi (M.Q 330) v.b.

Habelə miladdan sonra da bu savaşlar durmaq bilməmişdir. Sürəkli hərəkətdə olan Türk ellərinin ən bariz özəlliyi hərbi hazırlıqda olmaqları idi. Türklər yaz, qış bilmədən öz qoruma sistemini bütün şərtlərlə tətbiq verir, yaşam boyunca savaş taktıkalarını öyrənirmişlər. At, Türk yaşamının vaz geçirilməz idi. Türk ordusu atı yaxşı qullandığı üçün bir çox zaman az qüvvəylə çox saylı düşmənlərə rahatcasına qalib gəlirdi. Türklər üçün iki savaş taktikası təməl sayılmaqdaydı.

A) Araşdırma sürəci[150]. B) Aşındırma savaşları[151].

[149] Həxamənişlərin
[150] təhtiq zamanı
[151] yıpradıcı savaşları, fərsayişi

Bu iki sürəcə görə, Türk ordusunun casuslarının tacirlər və usanmışlar şəkilində düşmən içinə sızması və gərəkən bilgilə olaşması gərəkirdi. Casusların bilgisi gəlmədən ordu savaşa girməz idi. Onlar, savaşdan öncə düşmənin nə qədər savaşa hazır olmasını bilərmişlər. Elə bu bilgilərə dayanaraq necə savaş taktikini də seçərmişlər. *"Türk ordusunu qurdlara bənzədərdilər. Türklərin atlı qoşunlar sistemi miladdan 318- il qabaq çin ilə bağladıqları anlaşma sonrası çində də tətbiq edildi. Və haman atlı qoşunlarla çinlilər (M.Q 117) Turan taktikilə Türkləri yendilər. Türk atlıları yel-şalvar və çəkmə geyib, başlarına börk qoyardılar. Bozqır islahatı şəkili formasında ilk dəfə olaraq Kuruş İran ordusunda və ondan sonra İskəndər turanlılarla savaşdan sonra Makedoniyalı ordusunda islahat elədi. Rom ordusu da bu islahatı Türk əskərlərini ücrətli olaraq ordularına almaqla elədilər. Ilk dəfə Sezar Turan taktikini işlədib atlı ordu yığdı. Rom da unlu onlu tərtib və kot-şalvar daxı yayılmışdır. Hətta özəngi daxı Avarlar vasitəsilə yayılmışdır. Bizanslarda, Turan sistemli ordu islahatı 5-6-ci əsrdə başlamış və az müddətdə yayılmışdır. Bizans tarixçiləri Prokopios və Aqathias yazdıqlarına görə, bu islahat Bizansların Qutlara qələbələrinə səbəb oldu. İmperator Justi Nianos zamanından İstanbulda Hun, Bulğar və Avarlar kimi geyinmək və saç, üz qırxmaq mod olmuşdur. İmperatorun özü də taktika adında yaddaşlarında bu islahatdan bəhs və tərif etmişdir. Məsələn Heraklitos miladda sonra 622-624,də bu taktiki işlətməklə Sasanlılara qalib olmuşdur."* [152]

Məlum olduğu kimi, Türk ordusu, zaman-zaman geniş taktikalar yaratmış və bu əldə etdigi bacarıları çeşidli formlarda öz qonşu və rəqibləri ilə də paylaşmışdır. Hətta tarixsəl bilgilərə görə. Bu paylaşım sınırlı qalmamış batının ən ucqar bölgələrinə belə çəkilmişdir. Bu uzantı istər Türklərlə savaşda, istərsə də üçüncü ölkələr meydanında işə salınmış və böyük qələbələrlə sonuclanmışdır. "Franklar da ordularında Türk əskəri sistemini işlədərək 7-ci əsrdə Avarları məğlub etdilər. Franklar 9-cu əsrdə bütün ordularını atlılardan mütəşəkkil etmişdilər. Bu şəkildə Almanlar və ğərblilər 11-ci əsrin ərəfəsində Bozqır əskəri sistemini tətbiq etmişlər. Ruslar daxı 9-cu əsrdən başlayaraq Xəzərlər, Peçənəklər, Qıpçaqlardan

---

[152] *(Dr. C. Heyət. Türklərin tarix və fərhənginə bir baxış. Tehran Kaviyan yayınları.1987.s61)*

Turan taktiki və nizami sistemini öyrəndilər və bu islahat sayəsində Xəzərləri məğlub etdilər. Çəngizxan xanlığını elam etmiş qəbiləyə dayanan ordu nizamını dəyişdirib, Türk nizami onlu tərtibi qurdu və vahidin başına öz qəbiləsindən birini qoydu"[153]

Sözsüz ki, yer üzündə Türklər qədər savaşan və özlərini savunan ikinci bir ulus olmayıbdır. Bu savaşlar çox zamanlarda yabancılarla olsa da, Türklərin Türklərə qarşı savaşları da az olmamışdır. Türklərin özlərinə qarşı savaşları Türk savaş sisteminin gəlişməsinə təkan versə də, Türk ulusunun sürəkli kiçilməsinə, irəliləyişdən uzaq düşməsinə, fürsətləri qaçırmasına, yaşam alanlarında dünyadan qopmasına və ən sonunda başqaları qarşısında yenilməsinə yol açmış və bugünkü geri durumuna gətirib çıxarmışdır. Bunlara baxmayaraq, bugün də özgün örnək olaraq göstərilən, Türk qorxmazlığı, Türk, inamı və döyüşkənliyilə öz tarixsəl varlığına imza atmışdır. Əskidən ordu ulus adlanan Türklərin yaşam fəlsəfəsində insanın yaşadığı yer qudsal olmuşdur. Yerlə insan arasında olan ruhsəl bağlantının Vətən anlayışına çevrilməsi də elə məhz bu yandan oluşmuşdur.

Balkan Savaşları yenilgisindən[154] sonra ardı-ardına imperatorluq alanının daralması ilə fəlakətə uğramış olan Osmanlı dövləti, tam bir ölüm-dirim sorunuyla qarşı-qarşıya dayanmışdır. Qafqazlardan, Afriqadan, Asiyadan, Balkanlardan geri çəkilərək Anadoluya sığışmaq[155] zorunda qalan bir qoca imperatorluq hər yandan quşatılmışdır. Türk torpaqları və ölkəsi bütünlüklə yox olma təhlükəsilə üzləşmişdir. Batılı saldırqanların iradəsini əks etdirən Serv anlaşması, Türklər üçün yalnız Orta Anadolunu pay vermişdir. Əzginlik və təhqir bütün milləti bürümüşdür. Osmanlı ordusu bütün alanlarda darma-dağın olmuşdur. Millətin Türkçü iradəsini bir daha topalamaq üçün güc qalmamışdır. Türk düşmənləri, ən sonunda Türklərin ordu ulus ünvanına qələbə çalacaqlarına inanarkən, ulus içindən bir səs qoparaq yeni ruh ortaya qoydu. Müstəfa Kamal Paşa, biz varıq, ölməmişik şüarilə Türk millətini diri qalmaq

---

[153] *(Dr. C. Heyət. Türkləri tarix və fərhənginə bir baxış. Tehran Kaviyan yayınları.1987.s62*

[154] məğlubiyyətindən

[155] söylənmək, pənah aparmaq

yolunda ölümə çağırdı. O, at belində, ulusuna səslənərək “Mən sizə geri dönməyi deyil, ölməyi əmr edirəm!” dedi. Böyük AtaTürk, Türk ordu qamandanı kimi dünyaya adını yazdırdı. O, eyn zamanda böyük bir Türk lideri kimi, dünyanın öndə gələn dövlət adamlarının ön sırasında yerləşdi. Onun, millətinə verdiyi, ulus mənlik bilinci, böyük qalmaq üçün öz güvənlik, qul olmamaq üçün laiklik, çağdaş və modern olmaq yolunda ulusallıq düşüncəsi verdi. Onun fəlsəfəsinə görə, məğlub duruma duşən bir millətin təkcə qurtuluş yolu, ölümün gözünə dik baxması, düşmənə kiçilməmək[156]üçün hər qarış torpaqdan çörək çıxarması və bir anlamda vətən adlı qutsal torpağı qanla təmizləməkdir. Elə buna görə də, bütün vətəndaşların ordu olması gərəkməkdədir. “Əziz və mübarək vətənimizi qurtarmaq üçün ziyalıların, hərkəsin hazır bulunması gərəkir”...“Milli mücadilənin önündə olan, doğrudan doğruya millətin kəndisidir, millətin evladlarıdır. Millət birəyləri, anaları ilə, babaları ilə, ablaları ilə birlikdə mücadiləyi kəndilərinə ideal bilirdi.” AtaTürkün bu deyimilə ulus-dövlət yolunda, həm də ulus-ordu olmaq gərəkir. Ona görə ki, millət iradəsi olmadan hər hansı milli ordudan danışmaq boş sözdür. Hər varlığın ilki də, sonu da insandır. İnsanı isə insan yapan aşağıdaki iki anlamın idrakıdır:

*a) İnsan toplumunun Ulus olması!*
*b) Torpağın Vətən olması!*

“Tam bu uğurlar yalnız mənim əsərim deyildir və olamaz…Tam millətin qərarı birlikdə imanla çalışmanın sonucudur. Qahraman millətimizin və ünlü ordumuzun qazandığı uğurlar və zəfərlərdir”[157] Bütün tarix boyu ulusuyla ordusunun iç-içə girdiyi bir ulu etnikin bundan sonra da belə yaşaması və belə dirənməsi gərəkir. Çünki, “Nə mutlu Türkəm diyənə!”-in fəlsəfəsilə batının və dişi yumuşaq ət istəyən imperiyalizmin yaşam fəlsəfəsinin barış içində yan-yana yaşaması yalnız ekonomik, siyasal, sosial və ordu gücünün birliyilədir. Ən əski çağlarda olduğu kimi,

[156] əzilmək,kiçilmək
[157] Atatürk’ün söylev ve demeçleri, II, toplayan: Nimet Unan, Türk inkılap tarihi enstitüsü yayınları, I, 2.Basım 1959.

bugün də, hər bir dövlətin ən kəsgin qorunma[158] sistemi ulusal ordudur. Doğal olaraq, hər dövlət öz sistemi üzərində ordu qurur. Azərbaycanın güneyində, 1945-46-ci ildə Azərbaycan Demokrat Firqəsilə yanaşı yaranmış Azərbaycan Milli Ordusu, Milli Hükuməti qorumaq üçün bir tələskənlik eyləm idi. Belə ki, Firqənin özü kimi ordusu da, tam olaraq nə istəyini, necə istəyini, kimdən istəyini ortaya qoya bilməyirdi. Bu üzdən Firqənin ən başda gələn dərdlərindən biri də, orduda ulusal kimlik ruhunun olmaması idi. Doğru ki, neçə aylıq bir ordudan çox şeylər gözləmək doğru deyil. Burada söz qonusu zaman deyil, daha doğrusu ideolojik xətanın oluşmasıdır. Sözsüz ki, Milli Kimlik Bilincinin öz təməli üzərində qurulmaması, başlı-başına bir dövlət sisteminin yerə vurulması üçün yetərlidir. Ordu, bir dövlətin savunma gücü və geniş kütlə alanı olduğuna görə, milli kimlik bilincindən boş olunca, ən tez yıxılan qala ola bilər. Hazırda Azərbaycan cümhuriyyətinin ordusu gündən-günə modern və çağdaş forma almaqda və boyut açısından böyüməkdədir. Azərbaycan dövlətçiliyini qorumaq üçün bu ordunun üzərinə düşən borc çox böyükdür. Rusların açıqca, Farsların isə gizli olaraq hər tərəfli yardımları ilə Azərbaycan dövlətinin torpaq bütünlüyü erməni faşizmi sarından zəbt olunmaqdadır. Bu üzdən Azərbaycan ordusunun ən başda gələn görəvi vətənin azad edilməsidir.

[158] ən güclü müdafiə..

# 3. BÖLÜM

## Azərbaycan Türklüyünün sosial-siyasal axışında liderlik faktoru!

"Biz ki, mülkü Turan, əmiri Türküstanıq,

Biz ki, Türk oğlu Türkük,

Biz ki, millətlərin ən qədimi və ən ulusu, Türkün başçısıyıq!... "

**(Əmir Teymur)**

### Liderlik və lider

Ən başda gələn ifadə budur: Bir kəsim canlı varlığı birgələşmiş bəlli amaca, seçgin və aydın stratejiyə, bəlirgin bir yöntəmə çəkmək başarısına liderlik deyilir. Yuxarıda sadalanan ifadənin ruhunda bir liderlik tərzi dayanmaqdadır. O yerdə ki, Əmir Teymur vahid bir mülkdən – Turandan, vahid bir soydan – Türkdən və özləşmiş gücdən – Türkün başçılığından danışırsa, liderlikdə gərəkən üçlü təməlin oluşdurulmasına çalışır. Ölkə, Ulus və Lider ! Göründüyü kimi bu gələnək yeni bir metod deyildir, bəlkə insan toplumunda güc oluşumun ortaya gəlməsindən

başlayan bir zəka gələnəyidir. Liderlik çeşidli açılardan tanımlanan çox sadə və qolay anlayışdır. Ancaq tanımlamağa çalışan hər düşünür, bir neçə təməl qavramı [159] işlətmədən təriflémə işini düzgün yerinə qoya bilməyəcəkdir. Bu təməl qavramlar bunlardan ibarətdir: Organizatur, psikolog, coşdurucu, strategi və taktik uzmanı[160], irəli sürülən amac və ideyanın öncüsü, teorini hərəkətə gətirə bilən, ön görünüşlü, çəkici, etgiləndirici,[161] seçici, yol göstərici, insiyativli, toplumçu, adil, insaflı, tərəfsiz, qazi, toplayıcı[162], iş birligi yaradan, aparıçı, yönü bəlli, xoş sözlü, xoş davranışlı, güncəl eytimli v.b.. olmalıdır. İstər bu liderlik birer, istərsə qurup halında olsun, bu özəlliklərə yiyələnməkdə zorlanan həqiqi və ya hüquqı şəxslər liderlik ölçüsünə sığa bilməzlər. Bunlara bir çox önəmli faktoru da artırmaq gərəkir. Çünki, onsuz bu özəlliklərin bir arada tutulması mümkün olası deyildir. Böyümə, böyümə və yenə böyümə ehtirası!! Liderliyin ən böyük ön şərtidir. Bu şərtı milyonlar insan istərsə də, yalnız bir neçə insanın kapasitəsi[163] və iç çəkisi buna yol verər. Bu üzdəndir ki, lider hər hansı toplumun ən nadir və az tapılan məhsuludur.

Kəsinliklə dünyada üz verən bütün böyük toplumsal ayaqlanmaların başında, haman hərəkətdən doğan lider və ya liderlərə rast gəlməmək mümkünsüzdür. Asiyadan Amerikaya, Afriqadan Avrupayadək sosial-siyasal qalxışların yüzlərcə çeşidli lider adlarını sıralamaq heç də çətin iş deyildir. Amma bu liderlərin hamısı heç də bəşəriyyət və hətta öz millət üçün müsbət yönlü olmamışdır. Dünyada çox az liderin adı öz ulusu və torpağıla yanaşı gəlməkdədir. Bu çox az sayda olan liderlər öz yaşamlarından sonra yaşamağa başlar və öz millət və dövlət simgəsinə dönüşər. Çoxunluqda olan liderlər isə öz zamanından sonra yalnız neçə nəsil yadlarda qalar və zamanla unudular.

19-cu yüzilin girişilə modern dövlətçilik də ortaya qonuldu. Modern dövlətçilik sisteminin ilk dəyişimi isə liderlik anlamında oluşmağa başladı. Bu dəyişiklik Avrupa və yeni dövlətçilik yolunda olan

---

[159] anlayış
[160] usta, təxəssüslü,
[161] təsir edici
[162] yığıcı, bir ayara gətirici
[163] ölçüsü, çıxarı

Amerikada tək liderliyin gücünü azaltsa da, Asiya və Afriqa kimi qitələrinnin bir çox ölkəsində doğal dirənişlərlə qarşı-qarşıya dayanmışdır. Doğrudur ki, bu yeni sistemə qarşılıqlıq verən klasik liderlik (birer[164] və köyçü liderlik) kütlə-kütlə sivil insanın ölümünə nədən oldu, amma həman gəlişməmiş ölkələrin durumuna dayanaraq heç zaman bölgə və ölkə sınırını aşıb, dünya faciəsinə nədən olamamışdır. Halbuki, Avrupa və Amerikanın qrup və parti sistemindən çıxan liderliyin yaratdığı dünya faciəsi sınır bilmədən milyonlar sivil insanın yaşamına son qoymuş, bəşəriyyətin min illər boyunca əldə etdiklərini aradan qaldırmışdır. Avrupa və Amerika dövlətləri dünya üçün yeni liderlik sistemi, demokratiya, sekolarizm, çağdaşlıq, insan haqları, düşüncə özgürlüyü, öncül teknoloji və bu kimi modelləri uyğulamağa çalışırlar. Ancaq, əslində bunların bir üstü qapalı sömürgəçi sistem olması kimsəyə gizli deyil. Gəlişmiş dövlətlər, geri qalmış ölkələri əldə saxlamaq üçün, eyitim almış yerli siyasətçiləri öz etgiləri altına çəkməklə istədiyi stratejik yöntəmləri bu ölkələrdə uyğulayacaq və geniş təbliğat aracları ilə istənilən sonuclara varacaq durumlar yaradırlar. Sözsüz ki, yeni çağın sömürgəçilik metodlarının ən birinci addımları məhz lider yaratma prossesidir. Ancaq, bu o demək deyil ki, bundan sonra bağımsız və yalnız millətinə bağlı olan liderlərin bulunması mümkünsüzdür.

20-ci yüzilliyin başlanması ilə dünya, yeniləşmiş dövlətçilik metodları ilə tanış olur. Gənc teknogratların siyasal alanlarda sıçrayışı Avrupanı bürürür. Yeni sosial gəlişmənin ilk aşaması sonucundan irəli gələn siyasal qrup, topluluq və ideolojik liderliklərin doğuşuna nədən olmuşdur. Ancaq buna baxmayaraq yenə də tək liderlik rolu geniş alanda özünü saxlamış və geri qalmış ölkələrdə ölçüsüz dispotizm[165] dəvam etmişdir. Dispot cümhurçu lider, tək yönlü demokratiya lideri, klasik monarxi[166] lider, Avrupa tipli simvolik monarxi lider, tək parti lideri, tək yönlü milli-azadlıq lideri, dinsəl lider, qəbilə, ailə, cinsəl və bu kimi liderliklərin tipik olaraq diktə lider olmaması mümkun deyildir. Belə Liderlikləri məşğul edən sorun isə doğal olaraq ölkənin durumu deyil,

---

164 fərd, bir şəxs
165 diktator,
166 kral, şah

yalnız öz durumları olmuş və hələ də olmaqdadır. Bu tipli liderlər, ölkənin bütün madi və mənəvi çıxarlarını mənimsər və yeri gəlmişkən öz millətinin ziddinə dünyanın sömürgəçi kapital və mafiya şəbəkələri ilə işbirlikçilik yapar. Tək liderlik sisteminin doğru vəya yalnış olması qonusunda bəlli ölkənin durumunun nə olduğu böyük önəm daşıyır. Bir sorunun iki yanıtı bəlli olmadan liderlik ölçülərini ələ almaq olmaz. Belə ki, bəlli bir ölkənin lider seçmə sisteminin birey, yoxsa gələnək üzərində qurulması bəlli olmalıdır. Avrupa 16-dan 18-ci yüzilliklərdə aydınlıq hərəkatının qələbəsilə bireysəllikdən yana olduğunu dedi. Asiya isə, hələ də gələnəksəl yoxsa bireysəl olmanın arasında qalmaqdadır. Elə bu üzdən Asiyada tək liderlik, Avrupada isə toplu liderlik anlayışları sosial-siyasal alanın açarı olaraq görünməkdədir. Göründüyü kimi Rom və Yunan dışında Asiyadan çox gec başlayan Avrupa mifolojisi, çox ərkən də kütlə ədəbiyyatı səhnəsindən silinməyə başlayır. Çünki, mifik ədəbiyyat yeni Batı siyasal-sosiloji sistemi içində yerləşmə imkanın sahib olamayır. Başqa anlamla desək, artıq Batıda tək qəhrəmanlıq dövranı həqiqi gündəmdən düşərək məcazi dünyanın zehinsəl assimilə və sınırsız ticarət gəlir alanında gəncliyə malik olmuşdur. Örnək olaraq hər gün saysız məcazi qəhrəmanların bilgisayar və çeşidli oyun məlzəmələri aracılığı ilə yayılmasını görməkdəyik. Artıq, yeni mifolojik anlamını yalnızca həyəcan verici internet və bəzən sinema pərdəsində görmək olur. Hal bu ki, hələ də, Asiya, Afriqa və hətta Latin Amerikada olan bir çox toplumda mifik qəhrəmanlara ehtiyac duyulmaqdadır. Bu mifik qəhrəmanlar, zülümkar hakimlərə qarşı millət içində direniş və davranış örnəyi olur. O, əzgin kütlənin ayaqlanmasında böyük rol oynayır. Özgürlük və bağımsızlıq simvoluna çevrilir. Həmin toplumlarda bu məcazi liderlər, nə inki unudulmur, hətta gündən-günə yüksəlib inanc qaynağı olarkən ilahiləşir və qudsal bir varlığa çevrilir. Elə tanıq olduğumuz 17-18-ci yüzilliklərdə, həmin mifik qəhrəmanlar əsir millətlərin toparlanmasında böyük rol oynarkən var olan liderlərin yaranmasına təkan verir.

Avrupa imperatorluq sistemlərinin aradan getməsilə toplumların liderçilik sistemi insanlara azad kimlik və özlük bağışladı. İnsan və toplumun klasik yaşam sürəci dəyişməyə başladı. Kilisa dışında düşüncə və eyləm özgürlüyü laik və skolar insanın doğuşuna alan yaratdı.

İmperatorlar əsarətində olan toplumlar yeni dövlət-millət formasına yiyələnərək birey və toplum arasında olan özgür yaşam sisteminin yaranmasında ortaq oldular. Kilisa və dinsəl hakimlik öz içinə sıxışdıqca demokratıya doğuldu. Ancaq bu işin sonu olmadı. Kilisa dispotizmini əvəz edən siyasal və ordu dispotizmi yoldaydı. Buna baxmayaraq dəyişən toplum gələnəyi günü-gündən dəyişirkən yeni və çeşidli birey göstərilər ortaya çıxdı. Toplumların gəlişməsilə toplu liderlik də gəlişdi, toplu öndərlik tək liderliğə üstün tutuldu. Çeşidli partilərin, sosial və sivil quruluşların yaranmasıyla insanlarda özgürlük iradəsi gücləndi. Bu gücün toparlanması nəticəsində klasik və gələnəksəl hakimiyyətlərə qarşı kütlə dirənişi yeni liberalizmə yol açdı. Artıq ulus-dövlət aşaması yolda idi. Bu aşamanın ən bariz sonucu isə gənc liderlər toplusunun ortaya çıxması idi. Sözsüz ki, haman qurumların içində də kəsgin və üstün lider və ya liderlərin önə çıxması və haman lider və ya liderlərin əlilə dispotizmin yaranmasını da aydıncasına görmək mümkundur. Aydınlıq çağının Avrupada irəlilədiyi bir zamanda barmaq sayda istisna dışında Asiya və Afriqa da tam qaranlıq hakim idi.

Avrupada liderlərin yüksək eyitim mərkəzlərindən çıxmasıla bir zamanda Asiya və Afriqanın toplum qaravulları meydanlarda, köylərdə zahir olur. Onsuz da bundan başqa yol yox idi. Çünki, eyitim mərkəzi olmayan bir bölgənin qəhrəmanı da eyitimsiz olacaqdır. Şübhə yoxdur ki, təpədən–dırnağa savadsız olan bir toplumdan hər hansı sistemləşmə iradəsini gözləmək olamaz. Belə toplumlarda liderlik faktoru yalnız şəxslərin üzərinə düşən bir qəhrəmanlıqdır. Bu üzdən belə toplumlarda lider yalnız qarşısında duran düşmənə deyil, həm də öz ulusuna qarşın cabbar hakim olmalıdır. Çünki, eyitimsiz bir toplumda liderin bir igid ər olması gərəkir. O öz qorxmazlığı və qəhrəmanlığıyla kütlədən fərqlənir. O qutsal, tanrı kölgəsi, peyğəmbər və imam ola bilər. Ona toxunmaq suçdur və bu bağışlanmaz suçun qarşılığı ölümdür. Bu üzdən hər canlı və cansız nəsnə onundur. Ölkə, torpaq, dövlət və ulus hamısı fərqlənmiş və qutsallaşmış başçıya aiddir. Bəlli olduğu kimi toplum liderliyi haman toplumun ölçü miqyasılə ölçülməlidir. Patris Lomombo Konqonun milli-istiqlal lideri olaraq ölkəsinin azadlığını Afriqanın azadlığında görürdü. O, stratejik planının Afriqadan çox üstün ölçülərdə olmasını yaxşı başa düşür

və qıssa bir zaman içində cadı-cənbər tərəftarları əlilə öləcəğini bilirdi. Patrisin liderlik yeteneyi[167] o zamanki Afriqaya çatabilmədi, çünki, onun yanında olan az saylı Avrupa eğitimli liderin Afriqa kimi qaranlıqda qalan bir böyük həndəvərə yetməz idi. Patris Avrupada eytim aldığına görə, yaşadığı topluma avrupa açısından baxırdı. O bir siyasi Afriqa lideri olmaqdan daha çox bir romantik devrimçi demokrat şair kimi davranırdı. Bu üzdən demokratiyadan boş olan milləti tərəfindən sevilsə də, bilimsəl olaraq mənimsənmədi. Buna görə ki, millətin gələnəksəl baxışının tam dışında idi. O Avrupa eyitimi alsa da, Avrupalı düşmənləri tərəfindən öldürüldü.

Azərbaycanda Azadistan Hökümətini quran Şeyx M. Xiyabanı bir siyasi lider olmaqdan daha çox, bir romantik demokrat idi. O, sanki Avrupada yaşır kimi, açıq mitinqlər yola salır, siyasi ədəbiyat yaradır, milləti demokrat olmağa, barış və hüzur içində yaşamağa çağırırdı. Böyük Mücahid, mürtəcelər qarşısında böyük kütlə birliyi yaratmaq, milli və ya təcəddüd ordusu qurmaq, soydaş ittifaqlara açıq baxmaq yerinə, dabansız siyasi hakimiyyət yaratmağa üstünlük verərək bu dəfə Patris Lomombo talei Azərbaycanda yaşarkən, Xiyabani da, inandığı yalançı demokratlar – Əslində irqçı Farslar- tərəfindən namərdcəsinə şəhid edildi. Burada yazar üçün ən önəmli olan məsələ təcrübədir. Əslində belə durumların Azərbaycan Milli Hərəkatında bir daha təkrar olmaması üçün dərin araşdırmalara böyük ehtiyac vardır.

Əlda olan verilərə görə, Xiyabani Hərəkəti də özündən qabaq və sonrakı hərəkətlər kimi böyük ölçüdə Türkçülük düşüncəsindən yoxsul olmuş və yön bəlirgəsini sona dək əldə edə bilməmişdir. Xiyabaninin Təbrizdə qapanıb-qalması da başqa önəmli olumsuzluqlardan biri idi. Hakimiyyətin Azərbaycanın başqa bölgələrinə duyarsız davranışı da ağır bədəllərə nədən olmuşdur. Belə ki, Tehran hakimləri bu fürsətdən yararlanaraq yerli xanları Təbrizə qarşı üsyanlara qaldıraraq Xiyabanini təklənməsinə nədən olmuşdur.  Elə bu üzdən, düşmən çox sadəliklə Azərbaycanla deyil, sadəcə Təbrizlə hesablaşmalı olmuşdur. Bunları görməkdə olan Xiyabani, Tehranın siyasi şantajlarının qarşısında özünü

[167] istedadi

itirərək ardı-ardına yalnış addımlar atmışdır. Belə ki, öncə Azərbaycan adını Azadistana çevirərək quzeydən fərqli jest ortaya qoymuş, sonra Anadolu Türkləri sarından uzanan bütün dostluq əllərini geri qaytarmaqla iran mərkəzli göstərilərə əl vurmuşdur. Bu isə, Tehran mürtəcelərinin ən böyük arzusu idi. Başqa deyimlə, Tehran, Azərbaycanın ən böyük xanlarını – örnək olaraq Qaradağ xanı, Əmir Ərşəd- Xiyabaninin üzərinə qaldırarkən, o, Quzeydə və Türkiyədə olan gərəkən yardım imkanlarını heçə saymış, Ə. Əmin Rəsulzadələrin,“İttihad-Tərəqi„ və“Gənc Türklər„in maraqlarını geri çevirmişdir. Beləliklə, Azərbaycan Türklüyü üçün yaranan bir başqa şans da əldən gedərək, ulusumuzun yetişdirdiyi böyük oğullardan bir də irançılıq ideolojinin bataqlığında boğulmuşdur.

## Ulusal liderlik

Milli liderlik rolu ən əski çağlardan Türk ellərinin tale və alınyazısını cizmiş, bu ellərin özgür və ya kölə yaşamasını damğalamışdır. Türk kimliyi heç zaman liderlik faktorundan boşalmamış, bütün zamanlarda liderlik sistemi içində yaşamışdır. Türk ellərinin ən güclü çağlarında öncül şəxsiyyət Xaqan olmuş, çeşidli zamanlarda isə Xanlar, Bəylər, Paşalar, Ağalar v.b. tipli liderliklər Türk topluluqlarını idarə etmişdirlər. Düşmənlərə qarşı dirəniş, torpaq və milli varlığa qarşı təcavuz edən qonşularla kəsintisiz savaşa girmək, ölkə içi düzəni yaratmaq, böyümə ehtiras ilə yola çıxmaq, hökümət sınırlarını genişləndirmək və bu kimi çabalar qədim Türk liderliyinin dəyər ölçüsü olmuşdur.

Tarixsəl izlərə görə, 7-min illik Türk mədəniyyətinin geniş sınırları, onun dövlət sınırlarından daha geniş olmuş, başqa soylu millətlərin dövlət olmasında da əvəzsiz etgi buraxmışdır. Həmin etginin nəticəsi olaraq bir çox zamanlar çevrə dövlətlər könüllü olaraq Türk soylu dövlətlərin gücünə sığmış, özlərini qonşu toplumların yürüşündən uzaq saxlamğa çalışmışlar. Bu da özlüyündə bölgədə tabeçilik faktorunu ortaya gətirib, Türk idarəçiliyinin genişliyinə və böyük liderlərin yetişməsinə nədən olmuşdur. Belə ki, tabeyini qoruyan Türk dövləti, tabe toplumun ordusunu, hakimiyyətini və milli tabanını gücləndirmək üçün o toplumlara

eyitimçilər, savaşçılar və idarəçilər göndərərək yeni liderlərin də yaranmasında güclü rol oynayırdı.

Çeşidli ölkələrdə idarəçilik eyitimini gücləndirən şəxslərin yetişməsi bir çox zaman ölkə içi düşmənçiliyə yol açır, iç savaşlara, ana toplumdan qopmalara, köçlərə, yeni toplumların yaranmasına və yeni-yeni Türk topluluqların ortaya gəlməsinə nədən olurdu.

Dayanmadan siyasi tutumunu gücləndirmək yolunda çaba göstərən gənc liderlər çox zamanlar böyük liderlərin qarşısında dayanaraq güc savaşına qalxıb beləliklə ölkənin yönünü dəyişdirirdilər. Gənc liderlərin yetişməsilə güc alanı da dəyişir, toplum içində radikal davranışlar yaranırdı.

Bugün, Türk toplumları, uzun zaman milli e`tibarını itirmək nədənilə geniş modern liderlik sistemindən uzaq qalmışdır. İslam hegemonluğundan dərin darba görmüş Türk liderlik sistemi, öz əski ahəngini itirmiş, ulusal dəngələr üzərində liderlik qurma bilimini böyük alanda əldən vermişdir. Bu üzdən Türk topluluqları şəxlərə üz tutaraq liderlik boşluğunu doldurmağa çalışmışlar. Bu çalışmalar bəzi zamanlar böyük tək liderlik örnəklərini ( AtaTürk ) dünyaya sunmuş olsa da, çox zamanlar lider deyil, körüklənmiş başçıları millətə hakim etmişdir. Birinci tip milli lider örnəyi millətimizin əxlaq, hüquq və bilimsəl gəlişməsində böyük rolu olsa da, ikinci tip isi millətimizin deyil, öz dar maraqlarını üstün tutaraq, milli dəyərlərimizin və ulus çıxarlarının irəliləməsi yolunda çaba göstərməmişdir. Birinci örnək, millətimizin içində geniş demokratikləşmə, çağdaşlıq, laiklik və mədəni düşüncə meydanı açsa da, ikincisi toplumu sıxışdırmaqla, milləti öz haqlarından uzaq saxlamaqla, cəmiyyətin hərəkətdən düşməsinə nədən olmuşdur. Azərbaycan Türklüyü, uzun zaman belə talesizliyi yaşamışdır. Əsarət çəmbərində qalan millətimiz istər Quzeydə, istərsə Güneydə dövlət sistemindən uzaqda qaldığına görə, təkcə siyasi lider deyil, bütün alanlarda yetgin insanlarını əldən vermiş, zaman-zaman işğalçı düşmənlərin ucsuz-bucaqsız represiyalarına[168] uğramışdır. Düşmənlər millətimizin içində uyğunsuzluq

[168] məhv siyasətinə

yaratmaq üçün öz əllərində eyitim görmuş yönətimləri millətimizə hakim kəsmiş, aydınları, siyasətçiləri, iş adamlarını və bütün rəhbərlik alanlarını öz güc mərkəzində saxlatmış, dirənişçiləri isə yaşamdan uzaqlaşdırmışdır. Bu üzdən millət və toplum içində yaranmış durğunluqdan dolayı, hər hansı ərdəmli, dəyərli lider yaradacaq ölçü, olumsuz vəya ən azından çətin duruma düşmüşdür. 20-ci yüzilligin tanınmış düşünürü Əhməd Ağaoğlu demişkən: *“Milli şəxsiyyəti yalnız hərəkətsizlik öldürür. İstər fərdlərdə və istər millətlərdə həyat nə qədər qatı və qüvvətlidirsə, şəxsiyyət də o nisbətdə ziyadədir. Qəlbinin həyəcanlarını yeni ahənglərlə söyləməyən zəka və ağlının məhsullarıyla insanlığı verimli, qüdrətli olmayan, fəaliyyətinin meyvələrini ümumi bazara çıxara bilməyən cəmiyyətlər hansı şəxsiyyətdən, hansı özlükdən söz edə bilirlər”.*[169]

## Liderlik Çeşidləri:

Bəlli olan, dünyada üç gənəl liderlik çeşidi tanınmaqdadır:

**1) Avtokratik[170] liderlik.**
**2) Yarım avtokratik liderlik.**
**3) Demokratik liderlik**.

### 1. Avtokratik liderlik.

Hakim olduğu topluma seçmə haqqı tanımaz.

Hakim olduğu toplumda kişisəl çıxarlara qarşı gələr.

Hər hansı toplum irəliləyişindən qorxuya düşər.

Ən ufaq azadlıqlara qarşı gələr.

---

[169] *Əhməd Ağaoğlu, Üç mədəniyyət.Bakı: Mütərcim, 2006, s 35*
**(Ə. Ağaoğlu: Doğum ili 1869 Şuşa. Ölüm ili 1939 İstanbul.)*
[170] otokratik,autokratik, diktator, dispot

Sürəkli olaraq toplum qorxusu yaşar.

Toplumun bütün davranışlarını kontroluna alar.

Toplumu susdurmaq üçün sürəkli qondarma təhlükə siqnalı yaradar.

Toplumun kütlə hədəfini, öz hədəfi yönünə çəkər.

Öz amacını və hədəflərini əldə etdiyi güç kanallar vasitəsilə kütlə içində qəbul etdirməyə çalışar.

Toplumda ulusal hədəf deyil, lider hədəfi hakim olar.

Topluma inanmamadığı üçün, arxayınlıq və təhlükəsizlik mərkəzlərini yalnız öz əlində tutar.

Toplumu sürəkli sarsıntıya və pasivliyə çəkməklə toplum içində altirnativçilik ruhunu aradan qaldırar.

Toplum içində böyük tab`eçi kəsimin yaranmasına şərayit yaradar.

Toplumu əxlaqsəllikdən uzaqlaşdırar, siyasal və sosial rüşvətçiliyi yayğınlaşdırar.

Toplumun yaşam tərzi və geçiniş ölçüsü liderin güclü və ya gücsüzlük durumuna bağlanar.

Toplum içində aşırı elitçi qat yaradar və özünə bağlı elit təbəqəni millətə hakim edər.

Etnik quruplaşmalara çox böyük alan yaradar. Etniksəl problemlər ilə millətin birliyi və gücünü aradan qaldırar.

İdeologjik təxribatla millətin dispotizmə qarşı yönəlik gücünü parçalar və gərəkən zamanlarda dinsəl və təriqət savaşı yola salar.

V.b..

## 2. Yarım Avtokratik liderlik

Toplumda ölçülü azadlıqlara yol verər.

Toplumu yaratdığı dinamik qruplar əlilə kontrolda saxlar.

Toplumun gördüyü işlərə deyil, işlərdən alınacaq sonuclara əl qoyar.

Kontrolunda olan əks güc mərkəzləri yaradar.

Ekonomi kontrolu əldə saxlamaqla, toplumun siyasi iradəsini öz xeyrinə çevirməyə çalışar.

Üzdə özgür olan ordunu, qanun verici mərkəzləri, məhkəmə orqanlarını gizli kontrolda saxlamaqla, gərəkən zaman öz xeyrinə yararlanar.

Toplumda kontrollu dinamiklik yaradar. Öz hakimliyinə zərərsiz olan yerlərdə insanlara fəallıq imkanları verər.

Mediya və KİV-i[171] kontrollu fəallığa çəkir, onlarda sınırlı cəsarət yaradar.

Toplum hədəflərini kiçitməklə, orta və qıssa hədəflərə meydan açar.

[171] (Kütləvi İnformasiya Vasitələri)

Toplumun dərinə getməsinin qarşısını yarım demokratik üsullarla önləməyə üstünlük verər.

Kişisəl[172] və fərdi dispotizmə sosiyal dirçəlişdən daha çox könül verər.

İnsanların yerli və kiçik alanlıarda fəal olmalarına imkan verər.

Toplumun fəallığına ehtiyacı olan zaman, azadlıqları daha genişləndirər.

Gərəki olmayan zaman toplum azadlıqları da daralar.

Bu çeşid liderlik mühafizəçi siyasətlərilə tab`elərini də öz siyasəti arxasına çəkməyə çalışar.

V.b.

### 3. Demokratik Liderlik.

Toplumun sonuca varacaq işlərinə tərəfsiz nəzarət edər.

Toplumda qanunvericilik ruhunu yüksəldərək hüquq quralları qurar.

Qanunda tanınan fərdi haqlara yayqınlıq verməklə, toplumda demokratik kalektivlik ruhu yaradar.

Yerli orqanlardan tutmuş, hakimiyyət dayrələrinədək seçmə və seçilmə gələnəyi oluşdurar.

Toplumun iradəsini öz iradəsi yönündə deyil, qanun sınırlı yöndə yürüdər.

---

[172] şəxsi

Toplumda gizli gəlişmə deyil, aydın və açıq gəlişmə alanı sağlar.

Gənəl yaşam qurallarını fərdlərin iradəsinin ortaq çıxışına görə düzənləyər.

Toplumda ulusal iradəyə çevrilən yüksək ideya liderin deyil, toplumun sayılar.

Lider toplum iradəsini hədəfə daşımaq üçün geçici arac [173] durumunda olar.

Liderlə, toplum arasında geniş ara olmaz.

Yüksək məqsədə varmaq yolunda bütün toplum dinamik olar.

Toplum idarəçiliyində gəncliyin böyük rolu olar.

İnsanların vicdan və düşüncə özgürlükləri toxunulmaz sayılır.

Mediya və KİV fərddən deyil, qanundan asılı olaraq özgürlük sınırına bağlanar.

Toplum, kütlənin yüksəlişilə gələnəksəl demokrasiyə əl tapar.

Ölkə, fəal kütlə hesabına yüksələr. Bütün sosial və siyasal alanlarda örnək halına gələr.

Liderlik, çeşidli düşüncələri anayasa çərçivəsinə yerləşdirər və onların özgür yaşaması üçün diskosiyalara, göstərilərə və genişlənməsinə meydan açar. Ulusal qazanc üçün ortaq əməkdaşlıq ortamına üstünlük verər.

Dövlətin sekolar və laik yapısını bütün sosial-siyasal propakandalardan[174] uzaqda tutmağa çalışar.

---

[173] vəsilə

Toplum içində ekonomik paylaşımın hakim olması üçün sivil toplum quruluşlarına, iş sendikalarına, bağımsız vəkalət dayrələrinə hüquqi istatistik yaratmağa çalışar.

V.b.

## Güney Azərbaycan Milli Hərəkatı və Liderlik

İlk görünüşdə sadalanmış tipik liderliklərin (istər fərdi, istərsə toplu) özgür və bağımsız toplumlara aid olduğu normal görünsə də, şiddətə uğramış toplumlar üçün də doğal olmasının altını dönə-dönə çizmək[175] gərəkir. Belə olmayan durumda, haqlı olaraq bu sorğu ortaya gələbilər ki, Güney Azərbaycan kimi əsarətdə olan bir toplumun bu çeşidli liderlik tipləri ilə nə ilşgisi olabilər? Sözsüz ki, liderlik faktoru istər özgür, istərsə də özgürlüğü zədələnmiş toplumlar üçün özəl gərəkənliyə dayanaraq vaz keçirilməz bir siyasal təməldir. Zamanından, durumundan və stratejisindən asılı olmayaraq bütün toplum hərəkatının lider və ya liderlərə ehtiyacı vardır. Təki belə bir sorğu ortaya gələ bilər ki: Azərbaycanın Güneyinə görə, yuxarıda sadalanan hansı liderlik uyğun görünə bilər? Bu çox önəmli sorğuya yanıt vermədən öncə, Azərbaycanın yerləşdiyi gənəl geo coğrafik, geo poletik durumunu çeşidli açılardan araşdırmalı, bu bataqlıqdan çıxma yollarını öyrənmək gərəkir. Yalnız bu aşamadan geçərək yeniçağ Azərbaycan liderliyinin örnəkləri əldə oluna biləcəkdir. Güneydə lider ülgüsü hansı təməllər üzərində oluşmalıdır? Bu uyğulamanın yöntəmi doğru təməllər üzərində qurularsa, Azərnaycanın milli-siyasi alanında nə kimi yüksəlişlər olabilər?

Kəsinliklə liderliyin gəlişməsi bəlli toplumun diriliyi və aktivliyi ilə bağlıdır. Bir toplumun (istər əsir, istərsə özgür) aktivlik dərəcəsi, o toplumun lider doğuşunun ən doğal ölçüsüdür. Milli (qurtuluş) vəya siyasi (demokrasi) mücadilədə ardıcıl aktivlik sürən toplumlar içində liderlik yetişdirmə sürəci durmadan davam edərək demokratik sistem halına gələr.

---

[174] siyasal və təbliğat şantajlardan
[175] xətləmək, xət çəkmək

Tərsinə, ölü toplumların iç və dış çəkisindən asılı olmayaraq lider yaratma kapasitəsi aşağı ölçüyə yenəcəkdir. Avrupada yerləşən bir çox kiçik toplumların böyük dövlətlər kontrolunda olması yeni liderlik yaratma sistemlərini ortaya gətirmişdir. Belə toplumlar ən üstün durumda lidersazlıq proyekti yola salır, üniversetetlərdə politik liderlik kurslarına daha hız verir. Heç praktik təcrübə qazanmayan liderlər yönətilir. Hətta bəzi hallarda topluma biçimlənmiş liderin dili və yaşam tərzi ilə toplumun dili və düşüncə fəlsəfəsi tam bir-birilə qarşı hala gələ bilir. Belə liderliyin topluma verdiyi xidmətlərin, dünya standardlı olmasına baxmayaraq, toplumu bənzərsiz örnəklərə götürür. Çünki, başqa ölkənin metodları və özəlliyi ilə eyitim görmüş gənc liderlərin altyapı düşüncəsi öz millətinin altyapı düşüncəsi ilə üst-üstə gəlmiyə bilər. Belə olan halda gənc liderliklə klasik millət arasında uyğunsuzluq yaranır və ondan ortaya gələn böyük boşluq və polimiklərin yaranmasına nədən olar. Buna baxmayaraq gənəl Avrupa sisteminə uyum sağlayan kiçik dövlətlər, kopiyə götürməklə öz siyasi gedişini sağlamaqda zorluq çəkmirlər. Lükzamburk, Malta, Quzey Qibris kimi gücsüz dövlətlərin Almaniya, Fransa kimi süper dövlətlər qarşısında tutumu aydın örnəkdir. Bu bir Avrupa və batı klasikidir.

Sözsüz ki, Avrupa liderliyini sosial-siyasal boyudlarda deyil, daha çox ekonomi liberalizmində anlamaq gərəkir. Bu dəyərlər Avrupa üçün doğal sayılarsa da, Asiya, Afriqa və Latin Amerikanın böyük bölümü üçün hələ üstü açılmamış gizli sirdir. Demokrasi və demokratik liderlik sistemi uzun sürəlik teorik və praktik savaşının yetirməsidir. Bu mücadiləni verəmədən, belə sonuca varmaq yalnız kopiyə modelidir. Alman tekniki Mersedes Benzin anasıdır. Bu gün Mersedes Benz demokratik bir tərzin örünü olaraq bir çox ölkənin montaj sənətinə liderlik edir. Əcəba, Alman Mersedesini kopi edənlərin yeni Mersedes yaratma izinləri ola bilərmi? Yanıt hə olarsa, sözsüz ki, Alman demokrasisinin içində də başqa demokrasi doğula bilər!! Amerika, Fransa, ingiltərə və başqa böyük dövlətlər Afriqa, Asiya və Latin Amerikada milyonlar insanın qan bahasına olsa belə, özlərinə özəl kiçik modellər axtarışında, liderlər yaratmağa çalışırlar. Lakin, olunan bu çabalara rəğmən sömürülənlər sarından gərgin dirənişlər ilə üzləşir. Bəzən haqlı, bəzən isə haqsız olaraq gecəqondu demokrasi ilə onu kopi edəcək liderin qarşısında böyük kütlə

gücü dayanır. Üzərində umud bəslənilmiş gecəqondu demokrasi ilə qoraşdırılmış liderin bəzəkli sarayı bir anda sahibinin təpəsinə uçdurulur. Çünki, ortaya qoyulan bu yeniliyin kütlə qafası ilə yaxından–uzaqdan heç ilişgisi yoxdur. Toplum üçün istər olumlu, istərsə olumsuz olsun, liderin çıxarlarının kütlə çəkisilə yaxın olması gərəkir. Millətin məhsulu olmayan hər hansı düşüncənin toplum tərəfindən mənimsəməsi çox zordur.

Bəlli özüllərə görə, doğuçu duyğuları ilə aşıb-daşan Azərbaycan toplusuna görə, batı eyitimi ilə sistemləşən hər hansı liderlik biçimi Azərbaycan Türklüyü üçün uyğun sayıla bilməyəcəkdir. Bir deyimi unutmamalıyıq ki, Demokrasiya yalnız demokrasiyanı gələnəksəl qullanan toplumlar üçün demokrasiyadır. Kökdən gələn Türk özəlliği, islam-ərəb istilasından qalan cəhalət izləri, Rus dövlətinin uzun sürəkli basqıları, Türk dövlətlərinin qarşılıqlı düşmənlikləri və Qacar dövlətinin sonunda ölkənin böyük bölümünün panFars dövlətə təslim olması, Azərbaycanın demokratik sistemə girəməməsinin başlıca səbəbləri idi. Bu üzdən Azərbaycanda kütlə və toplum gəlişməsi gərəkən səviyəni bulamamış, siyasət alanı olduqca dar qalmış, düşüncə meydanı yuxarıda sadalanmış amillərə görə Avrupa standardlarına çatabilməmişdir. Elə həmin nədənə görə də, liderlik alanı olduqca dar qalmış, lider olacaq insanlarımızın dünya görüşü, siyasal və sosial savadları bir toplumu qaldıracaq qədər olmamışdır.

Günümüzə gəlincə, Güneyin milli-qurtuluş savaşında lider adaylarının psikolojik durumu keçmişlərdən bir o qədər də fərqli görünmür. Lider adaylarının bacarığına heş şübhə yoxdur. Ancaq, Güneyin milli-qurtuluş savaşının qarşısında olan sorunlar və ona qarşı çözüm yolları söz qonusu olunca, əlimizin bir o qədər də dolu olduğunu düşünmək olmur. “Azərbaycan Milli Hərəkatı„nın toplumçu kimliyinin duraq böqtəsinin orta qatmanlarda düşünərsək, dəyişkən olduğunu da düşünməliyik. Bu, o deməkdir ki, ortada tam standardlaşmış milli hərəkat yoxdur. Kimsə, Güneyin Milli Hərəkatını tam qapsamlı olaraq tanıta bilməz! Bütün tanıtımlar nisbidir, tanıtanın birəy düşüncəsilə ölçülüdür. Bu isə, çox normaldır. Hərəkatın gəncliği, genişliği, çeşitli qatmanlara mal olduğu, qopuqluğu/Güneylə diaspora qopuqluğu/ sözsüz ki, ana sorunlar

olaraq qarşıdadır. Həmin bu sorunların nəticəsi kimi adından və yerindən asılı olmayaraq çeşidli anlayışlar ortaya gəlir. Bu isə, ən doğma anlamıyla bir teorik-praktik manarxizmdir. İşdə lider və işdə ortadaki qarqaşalar[176]!

Dünyada var olan klasik batı dövlət liderlərinin tərsinə doğudan çıxacaq bir liderin meydan, hərəkət, devrim və istiqlal kimi terminlərlə yan-yana yaşamasını görməkdəyik. Bu üzdən, Azərbaycan kimi ölkədə gələcəyin lideri geniş polemiklər içində böyüyür, qol-qanad açır və liderliyin ağır yeniş-yoxuşlu yollarından keçməyi öyrənəndən sonra ulusun gözünə girməyi bacarır. Başqa bir anlamla, Güney Azərbaycan milli hərəkatının liderinin ən bariz özəlliyinin ölümün gözünə dirk baxmasıdır. Güney liderinin düşüncə, dirçəliş, dirəniş çəkisinin yanı-sıra ulusunun qurtuluşu üçün yaşamasının gərəkən olması hər şeyin üstündə dayanır. Kütlə anlamıyla deyilərsə Güney lideri bir özveri örnəyidir. Onun düşüncəsinin, dirçəlişinin və dirənişinin anlamı yalnız millətidir. Təbiki, bu anlayışın batıda düşünülməsi çox zordur. Batı siyasətçisinin ən başda gedən amacı kəndi üçün böyümək və milləti üçün yararlı olmaqdır. Batıda siyasət bir profesionallıqdır. Liderin birəysəl ehtiraslarını əngələyəcək heç bir hüquq və qanun man`eəsi yoxdur. Yetər ki, yalnız ölkəsinin anayasasına sadiq qalsın. Güneydə isə, Güney liderinin anayasaya sadiq qalması millətinə qarşı olan böyük xəyanətdir. Güneydə, liderin ən əxlaqsəl görəvi işğal olunmuş ölkəsinin anayasasına qarşı üsyan etməsidir. Göründüyü kimi, liberal dəyərlərinə dayanan bir batılı liderin varolan anayasaya xidmət etməsidir. Tərsinə olaraq insancıl dəyərlərə əl tapmaq uğrunda mücadiləyə qalxan bir Güneyli liderin isə varolan işğalçı anayasaya və onun çətiri altında hakim olanlara qarşı milli qurtuluş savaşını önəsürməkdir. Şübhəsiz ki, bir doğulu Güney Azərbaycan Türkü ilə liberal dəyərlərə sahib olan bir batılı liderin özdəşdirilməsi bir o qədər də düzgün deyildir. Burada yalnız qıssa bir dəyərləndirməni görür, Güneyli liderin və ya liderlərin çox özəl olmasının altını cizmək istədik.

[176] düzənsizlik,qarışıqlıq,panik

## Oyanış olmadan liderlik olarmı?

Bir çox modern tarixçiyə görə, Sumerlərin (Kəngərlilər) dilin cizgi halinə gətirməsi dünyanın ən ilkin qapsamlı oyanışıdır. Sumerlərin cizgi yaratması yalnız özləri üçün deyil tam bəşəriyyətin oyanışı sayılır. Sonralar Elam və onun ardınca M.Q. min.ci ili geridə buraxınca batı (Yunan) və doğu(Çin,Hind,Türk) mədəniyyətinin geniş alanlı gəlişməsinə rast gəlmək olur. Ərəb kültürünün bilimsəlləşməsinin 8.ci əsrə dayanmasının ən böyük nədəni İslam dininin gəlişilə olmasını görürük. Məhəmməd həzrətinin öz əsrinin bilginlərindən olması bir çox batılı bilgin tərəfindən təsdiq edilməkdədir. Bu dövrüdə islam dini Məhəmməd həzrətlərinin liderliyi altında ərəb aşirətçiliyini dövlət qatına yüksəldir. Ərəb dili ərəb mədəniyyətinin mərkəzində dayanır. Batının bir çox bilimsəl qaynaqları ərəb dilinə çevrilir. Ərəb millətinin yaranış sürəci dayanmadan irəliləyir. Ərəb kültürünün islama dayanması bir tərəfdən mərkəzləşmiş dil, din və dövlət yaranışına səbəb olur, diyər yandan isə islam ideolojisini dövlət ideolojisi edir. İslamın dövlət ideolojisinə çevrilməsilə ərəb millətinin millət kimi deyil ümmət kimi formalaşmasına yol açır. Bu üzdən ərəblərin inkişafı durdurulur. Ərəb istilasının Türklərə və doğuya yayılması ilə ərəb ədəbiyyatı da, çox geçmədən Türk və bölgə bilginlərini etgiləyir. Əbu Nəsr Farabi, İbn Sina, Tusi, İbn Bəsir, Zəkəria Razi, Əbu Reyhan Biruni, Molana Cəlaləddin, Şəms Təbrizi, Məhmud Qaşqaylı, Səfiəddin Urməvi. Şəmsəddin Söhrevərdi v.b. kimi Türk və doğulu bilginlərin dilini və onunla birlikdə düşüncə tərzlərini ərəbləşdirir vəya elə təsir altına salır ki adı sadalanmış alimlərin yazılı dilləri və ədəbiyyatları ərəbcə olur. Ərəblərin istilasından sonra Türklər arasında və doğu bölgələrdə yaranan elit dil boşluğu uzun zaman sürür. Bu istilanın yaratdığı boşluq o qədər böyük olur ki, hətta Əli Şirnəvayi, Məhmud Qaşqayli kimi Türk bilginlərinin də başlatmış olduğu milli oyanış sürəci də gərəkən yerini ala bilməyir. Avrupanın Fransa etginliyində olan oyanış aşamasının bütün Avrupa və islam etgisində olmayan bölgələrə yayılmasının islam ümməti içində etgin olmaması və ya az olması Türk dünyasında olan susqunluğu poza bilməmişdir. 200-illik gərgin

dayanışmadan sonra "Avrupa Ronesansı„nın 18-ci yüzillikdə Türk qapılarınadək yayılmasının səbəbinə Türk toplumlarının bu tarixsəl oyanışmayla tanış olmasına tanıq oluruq. Ancaq, bu dəfə də rus impratorluğunun gərnəşmə siyasətinə uğramış Türk ulusunun yalnız Azərbaycanın quzeyində və Orta Asiyanın bir neçə bölgəsində o cümlədən Tatar Türkləri içində kişisəl olaraq oyanış və dirəniş izlərinə rast gəlmək olur. Bu haqda gələcək fəsillərdə geniş yazılacağına görə qonunun açmasına ehtiyac duyulmayır. Belə bir ortamda lider və ya liderlərin yetişməsinə necə baxmaq olar? Dil milli oyanışın açarıdır. Dilin qısır qalması, işlənilməməsinin ən böyük təhlükəsi toplumun savadsızlığıdır. Dil işlənilmirsə, başqa ölkələrin kültür və ədəbiyyatı ilə tanış olmaq mümkünsüz vəya özgə dil aracılığı ilə olasıdır. İkincinin təhlükəsi birincidən heç də az deyildir. Çünki ifadə anlamıyla bir toplumun manqortlaşmasının başlanqıcı ana dilindən uzaq düşməsilədir. Belə olan durumda, o toplum içindən çıxacaq lider və ya liderlərin də psikolojik etgi içində olmasını düşünmək gərəkir. Açıqcası, Güneydən çıxacaq liderlik adaylarnın da, toplumu incidən psikolojik üsyanlardan tam azad qalmasını gözləmək doğru deyildir.

## Dirəniş,[177] Dirçəliş,[178] Liderlik

Dirəniş bir ulusun tanrıçılığa [179] çatmaq çabasıdırsa, liderlik dirənişlə dirçəlişin arasında olan peyğəmbərlikdir. Dirəniş bir toplumun diriliyi deməkdirsə, dirçəliş onun özgürlüyünün ülkü sınırıdır. Dirəniş sürəcində ortaya gələn lider adaylarının, dirçəliş aşamasında[180] öz içindən daha seçgin və elit liderlərin ortaya gəlməsi qaçınmazdır.

Azərbaycanın Güneyi bölgənin ən önəmli, stratejik və çəlişgili əsir toplumudur. Azərbaycan Türklüyü tarix boyu dünyanın ən diri toplumlarından birisi olmuşdur. Ancaq bu toplumda dirənişlə dirçəlişin

[177] müqavimət
[178] ayaqlanmaq
[179] burada kasin yüksəlik deməkdir.
[180] mərhələ

heç də üst-üstə düşməsinin tanıqı olmaq qolay olmamışdır. Örnəyim Gülüstan və Türkmənçay təslimnamələrindən sonraki dövrlərdə ortaya gələn durumdur. Azərbaycan toplumu, özəlliklə Güney bölgəsi, bir an olsun belə hərəkətdən dayanmamışdır. Deməк Azərbaycan dirənmişdir. Amma bu dirənişin sonuca varmasını görən olmamışdır. Başqa sözlə desək Azərbaycanda dirənişlə dirçəliş ruhu bir-birilə uyum sağlaya bilməmişdir. Bu üzdən, iğid, dəliqanlı, qəhrəmanlar yurdu olan Azərbaycanın lider yaratma çəkisi aşağılarda qalmışdır. Elə buna görə də, Azərbaycan toplumunun sürəkli dirənişi, zaman-zaman çeşidli siyasal kimlik dəyişdirmiş, özəl milli kimlik təməli ortaya qoyamamışdır. Azərbaycanın keçmiş yüz ili bu baxışın doğru olduğunu göstərməkdədir. Baxmayaraq ki, həmin illərdə verilən həzinələr olduqca ağır olmuşdur. Ancaq bu həzinələrin qarşılığında qazancın hardasa heçə bədəl olması da göz qabağındadır. Sözsüz ki, Azərbaycan kütləsi hər zaman düşmənlər qarşısında dim-dik dayanmışdır. Hətta yenilmiş durumda belə "iki əl, bir baş" olmamışdır. Ancaq, kütləni çəkən liderliyin çarəsizliyini aydıncasına görmək mümkündür. Azərbaycan liderliyi bir çox hallarda ülkü bağlarını toparlaya bilməmiş, öz ideya yöntəmini bəlirləməkdə[181] zorluq çəkmiş və toplum içində gərəkən diréniş fəlsəfəsi yarada bilməmişdir. Elə buna görə, bir çox zaman siyasət alanında yenilən toplumumuz, öz fədakar dirənişilə yalnız meydan qəhrəmanı olmaqla öyünmüşdür.

Ortada olan faktlara görə, Azərbaycan Türklüyündə, yaşanan meydan qəhrəmanlıqları sürəkli olaraq zülmə və dışarı basqılara qarşı olmuşdur. Bu meydanlarda igitcəsinə dirəniş simgəsi halına gələn bir çox qərəmanlardan ad aparılsa da, içərilərində bulunan barmaq sayda siyasi və dövlət liderinə rastlamaq imkansızdır. Bu üzdən Azərbaycanı qəhrəmanlar və igitlər vadisi adlandımaq olsa da, qəhraman ölkə adlandırmaq yalnız bir duyğusallıqdır. Azərbaycan ədəbiyyat, incəsənət, folklor qəhramanların adı ilə doludur. Ancaq bu qəhramanlara baxanda, bir-iki lider adından başqasına rastlaşmaq olmur. Güneyə gəlincə durum daha da acıdır. Milli-siyası baxımdan güneyin bu günədək milli ideya ortaya qoyacaq bir liderinin olmaması ap-açıq görünməkdədir. Tarixsəl faktlara görə, milli qəhramanlar bir çox zaman olayların mərkəzində dayanaraq ani qalib-

[181] aydınlaşdırmaqda

məğlub gəlişmələrə imza atmışdırlar. Onlar, yaşadığı zamanın mərkəzində dayansalar da, gələcəyin necə formalaşmasına dair manifest ortaya qoya bilməmişdirlər. Və bu da, o deməkdir ki, bir millətin gələcək quşağı özünün manifestinə[182] deyil, yabancılara[183] bağlı olan faktlar əsasında ölçüləcəkdir.

[182] platformuna
[183] özgələrə

# 4. BÖLÜM

## DÜŞÜNCƏDƏ BÜTÖVLƏŞMƏ, ULUS-DÖVLƏTÇİLİYİN TƏMƏLİDİR!

*"Dildə, fikirdə, işdə birlik".*
***İ Kaspıralı.***

***Bütövləşmə, Millətləşmə, Dövlətləşmə.***
***Ə. Elçibəy.***

### Düşüncədə, millətdə, vətəndə, dövlətdə bütövləşmə!,

**Düşüncədə bütövləşmə.**

Azərbaycanın bütövləşmə düşüncəsi, çağdaş Türkçülüyün təməl öznəli [184] olmalıdır. Bəlkə bu anlatım, klasik Türkçülük baxımından, anlamsız görünə bilsin. Və hətta klasik Türkçülük anlamıla belə tərs görünsün. Lakin əslində heç də belə olmamalıdır. Sadəcə, bir gərçəyi

[184] kimlik daşı

unutmamaq gərəkir ki, 100-il bundan öncəki tanıtımla [185] bügünkü gərçəklərin arasında çox şeylər deyişmişdir. Klasik Türkçü düşünürlərimizin çoxuna görə, nəzəri və teorik Türkçülüyün məkanı Çin, Təbbət, Ortaasiya, Qafqazın güneyi, Anadolu kimi yerlərdən İran(?) sınırlarına qədər çəkilir. Və Türkün əsas vətəni Ortaasiyadır. Təbi ki, bu geocoğrafik alanın Türk torpaqları olduğuna dair ortada heç bir quşqu yoxdur. Ancaq 19-cu yüzilliyin sonlarına dayalı klasiklərimiz tərəfindən yayılan yalnış bilgiləri də göz ardı etmək olmaz! Örnək olaraq, bu qaynaqların heç birində bütöv Azərbaycan varlığı və ya ən azından Güney Azərbaycan Türklərinin öznəl oluşu görünməyir. Vəya, Gülüstan-Türkmənçay faciələrindən sonra parçalanmış bir Türk varlığını duymaq olmur. Bu isə, həmin klasiklərin bilgisizliyini ortaya qoyan faktordur. Çünki, belə olmasaydı, ən azından özlərindən qoyduğu izlərdə bir kiçik izlənimə rast gəlmək olardı. Sözsüz ki, Ortaasiyadan, Trakiyadan, Balkanlardan İstanbula gəlib, oranın bilim mərkəzlərində eyitim alan yeni-yetmələri suçlu saymaq doğru deyildir. Yalnışlığı eyitim sistemində axtarmaq gərəkir. Bu eyitim sistemində, Azərbaycan Türklüyü qavramının olmaması və ya əgər varsayıla bilərsə, yalnız Qafqaz Türkləri anlamı altında olmasıyla Azərbaycanın Arazdan yuxarısı anlaşılmaqdadır. Elə buna görə də, 19-cu əsrin sonu və 20-yüzilliyin ilk çağlarından üzü bəri ortaya gələn Türkçülük qavramlarında böyük boşluğun yaşamasına raslaşırıq. Bu buşluğun Güneyə 1970-lərdən sonra yansıması, Türkiyədə eyitim almaqda olan soydaşlarımız tərəfindən olmuşdur. Bu soydaşlarımız sarından, bütün olumlu yöntəmlərlə birlikdə, Türkçülük düşüncəsindən uzaq terminlərdə, yayılmağa başladı. Bu yalnış terminlərin anası isə, İran Türkləri qavramı idi. Bu terminə görə, İran tarixsəl bir milli-siyasi anlayışdır.

Bu anlayışın təməlində dayanan coğrafi və siyasi sahibkarlıq isə, İran millətidir. Türklər isə, bu millətin içinə yerləşən bir soyut qövm və ya xalqdır. Bu düşünürlər, bir çox halda özləri də, bilmədən panfaşist Fars şovinizminin boyunduruğu altında inləyən Azərbaycan Türklərinin Türkçülük təməllərini milli-siyasi amacdan boşaldaraq onu yalnız kültürəl ölçüyə düşüdürlər. Çox umud verici haldır ki, son zamanlar Türkiyədə

[185] tərif etməklə

eyitim alan gənclərimizin ayıqlığı, kəskinliyi və habelə, Azərbaycanın bütövlüyündə dərinləşən milli kimlik bilinclənməsi sonucunda belə yalnış təfəkkürlər böyük ölçüdə öz etgisini əldən verməkdədir. Lakin, İran Türklüyü termini hələ də Türkiyənin bilim mərkəzlərində ya qullanır vəya, yerini bir başqa yalnış terminlə - Azəri Türkləri- termini ilə dəyişməkdədir. Milliyyətçilik başlı-başına bir milli-siyasi davanın göstərgəsidir. Türk milliyyətçiliyin qavramı isə, somut anlamda dili, soyu, tarixi, yaşam gələnəyi- törəsi, vicdan biçimi və bitişik torpaqları bir olan bəlli Türk toplumunun ruhda və bədəndə bütövləşməsidir. Ayrıca Türklərin ulus-dövlət olma sürəcində Türkçülük düşüncəsi ən dartışılmaz yolbay və qızıl almadır.

Azərbaycan, bölünmüş bir Türk toplumu olduğu üçün, milli-siyasi amacının başını çəkən düşüncə sistemi bütöv Azərbaycan ideyası olmalıdır. Türkçülük bütöv Azərbaycan ideyasının ən doğal və dəyişməz ulusal düşüncəsidir. Daha da aydın deyilərsə, bu düşüncə Azərbaycanın dünəni, bugünü və yarını üçün dəyişməz təkcə doğallıqdır. Azərbaycan yalnız Türklük əsaslarını gündəliyində saxlamaqla öz varlıqlarına yiyələnə bilər. germən Almana görə, frank Fransaya və rus Rusiya üçün nədirsə Türk də Azərbaycan üçün odur. Başqa deyimlə bu millətlərin bütünlüyünü, böyüklüyünü və dövlətçiliyini saxlayan öz nədirsə Azərbaycanın da bütövlük ruhunu saxlayan Türklüyüdür. Azərbaycan bütövlüyünün nəzəri yönü Türkçülükdən başqa bir şey ola bilməz. Azərbaycanı doğma yöndən sapdıracaq iki qoşa əngəli də unutmaq olmaz. Bu iki qoşa əngəl rus və Fars amilidir. Bu iki əngəlin Türk ulusu qarşısında kiçik görünməsinə baxmayaraq tarixsəl olaylar nədənilə üstün durumda olduqlarını danmaq olmaz. Keçmiş zamanlara baxdıqda Türk ulusu bu qoşa əngələ qarşı üstün olsa da, tarix sürəcində bu üstünlük itərək Türk ulusu geniş alanda ruslara, dar alanda isə Farslara baş əymişdir. Bu üzdən indiki aydınlaşma sürəcində[186], Azərbaycan Türklüyünün ən təməl mühərrikinin bu qoşa əngəlin fiziksəl və psiksəl etgisindən uzaqlaşması olması da unudulmamalıdır. Bu yandandır ki, Güney Azərbaycanın oyanış aşamısının ilkin addımı kimi, düşmən yönlü İran mərkəzli düşüncədən qurtulması üzərində dayanılır. Bu qurtuluş, Azərbaycan Türklüyünün

[186] intibah dövrü

millətləşmə sürəcinin təməlidir. Başqa yandan, Azərbaycanda millətləşmə sürəcinin təməlində bir də torpaq bütövlüyü və vətən anlayışı dayanmaqdadır. Bilindiyi kimi, Azərbaycan Türklüyü, bir millət olaraq torpaq itgisindən[187] dolayı vətən anlayışında da, zədələnməyə uğramışdır. Bu torpaq itirmə sürəci, istər öz dövlət, istərsə də, özgə dövlət sarından olsun, əslində eyni sonucu ələ vermişdir. Belə ki, vətən parçalanmış, millət yox olma yoluna düşmüş, ancaq milliyyət ruhu özünü qoruya bilmişdir. Demək ruh, milləti yaşatmış, ona gələcək umud yöntəmi vermişdir. Qıssası Türklüyümüz bizi idealist etmişdir də diyə bilərik. "İdealist düşüncədə millət böyük bir ruhdur, ruhun törədicisidir, deməli, o parçalana bilməz. Millətimiz yalnız ərazi baxımından parçalanıb."... "Başqa sözlə, insan daşıdığı ruhun içərisindədir və onunla yaşayır. Buna görə də biz, materialist deyilik və həyata idealistcəsinə baxırıq. Bizim vətənimiz orduyla, zorla bölünüb və bu bölünmənin millətin ruhunda heç bir təsiri yoxdur. Sadəcə, vətənimizin üzərindəki süni çəpərləri götürmək, orduları çıxarmaq və yeni xəritə çəkmək lazımdır. Bütövlük bu cür düşünülür."[188]

Səfəvi dövlətinin Azərbaycan mərkəzliyindən uzaqlaşması, milli birliyimizin başsız qalması və sürəc içində dağılmasında çox olumsuz rolu olmuşdur. Aydındır ki, siyasi ağırlığı olan hər hansı aparıcı mərkəzin gücdən düşməsilə, o mərkəz, bütün alanlarda düşüşə uğrayar. Şah İsmayildən sonra, Türk sülalə hakimiyyətlərin Azərbaycan mərkəzliyindən uzaqlaşması, bir ölçüdə Osmanlı imperatorluğuyla olan dinsəl düşmənçiliyə bağlı olsa da, böyük ölçüdə Türk gələni kimi alqılanan köçərilikdən də qaynaqlanmışdır. Çünki, köçəri əşirətçiliyə görə, vətən anlayışı son planlarda yerləşir və ya əsla yerləşmir. Torpağa bağlı olmayan dövlət sistemləri, yalnız söykəndiyi etnik kimlik bilincinə deyil, həm də, öz sülaləsinin soykök mənəviyatinə də özgə yanaşır. Necə ki, Səfəvilərin İsfəhana çəkilməsilə, onların yaşam tərzi də dəyişməyə başlayır. Gənəl alanda elatlıqdan oluşan Səfəvi Türk sistemi elə bu sayaq çökməyə başlayır. Başqa sözlə, Türk sistemi öz torpaq özəlliyini itirərkən çökür, ad Türk qalsa da, kimlik Farslaşır. Yeniləşmiş sistemin idarəsi isə Türklərə

---

[187] utuzduğundan
[188] *(Elçibəyin Bütöv Azərbaycan Düşüncələri, Ədalət Tahirzadə, Bakı-2003,s24,25).* "

deyil, Farslara verilir. Öncə dil dəyişimi və onunla bağlı düşüncə tərzi dəyişir. Türk dövləti sürətlə içdən pozularaq Farslaşır. Bu haqda Dr. C.Heyət belə deyir:"...Şah İsmayildən sonra oğlu Şah Təhmasb paytəxti Qəzvinə apardıqdan sonra Şah Əbbas zamanında İsfəhan paytəxt seçildi və işlər el beylərindən alınıb şəhərli Farslara verildi və o zamandan Farslaşdırma siyasəti başladı." [189]

Sözsüz ki, bu Farslaşdırma siyasəti təkcə dövlət içində deyil, az bir zamanda təməl ataraq bütün Məmalike Məhruseye Səfəvini tutaraq Türk ulusununda, milli kimlik bilincinin gündən-günə etgidən düşməsinə nədən olur. Yuxarıda da, işarə olduğu kimi, anlamsız və tam bir millətüstü məzhəbçilik əngəlinə tutulan hər iki Osmanlı-Səfəvi dövlətləri, Azərbaycanın mərkəzlikdən düşməsində suçludurlar. Bu iki Türk dövlətinin 200-illik acı ilişgilərinin doğrudan-doğruya araşdırması, ən azından islamdan sonrakı, Türk düşüncəsinin parçalanma nədənlərini ortaya qoyacaqdır. Burada, bir soru ortaya çıxır: Əcəba, Türk-İslam sentezini ortaya qoyanlar, Türkiyə açısından deyil, Türk açısından yaxlaşıq 500-illik Türkiyə-Azərbaycan ilişgilərinin əsil mahiyyətinin pərdə arxasında qalmasını da araşdırıblarmı? Araşdırıblarsa, bu araşdırmanın öznəl və nəsnəl [190] sonucuna vara biliblərmi? Görünən tabloya görə, bu 500-illik ilişginin ən az 400 ili, gənəllikdə Türk vəhdəti deyil, şiə, sünni düşmənliyi qarqaşası altında keçmişdir.

Son zamanlarda bu günkü İran adlanan yerdə, Türk sülalə dövlətlərini Azərbaycan dövlətçiliyi adlandıranlara da, rastlaşmaq olur. Aydın haldır ki, bu eyniləşdirmədə məntiqə uyğun yönlər də vardır. Ancaq, bu çalışma yönündə olumsuz etgi buraxacaq nöqtələri də görməzlikdən gəlmək olmaz! Bu sülalələrin Türk olmaqla yanaşı Azərbaycan dövlətçiliyi gələnəyini göstərəcək hər hansı simgəsəl izləri yoxdur. Sözsüz ki, bu düşüncə İran Türklüyü öznəlindən ələ alınır. Və ən xoşgörü halində bir öznəl çalışmadır. Burada belə bir sorğu ortaya gəlir: **Əcəba! bugünün Azərbaycanında da belə bir öznəl çalışmağa ehtiyac**

---

[189] *.(Türklərin tarix və fərhənginə bir baxış. Dr. Cavad Heyət. Kaviyan basını.Tehran,1987)* .

[190] (Subyektiv və obyektiv)

**varmı?** İran Türklüyü zehniyyətindən doğan bu düşüncəyə bir də, Türk bütünlüyü açısından baxmaq gərəkdir. İrançı zehniyyət istər-istəməz uzun zamandan bəri, öz bilincaltı təməlində bir Turan düşmənliyini yaşatmaqdadır. Mifoloji nədənlərə özgə yanaşmayan hərkəs bu şüuraltı təməllərin zaman açısından nə dərəcə etgin olmasını gözardı edə bilməz! Türkçülük özül bir yöntəm olduğuna görə, irançılıqla heç bir alanda odaqlana bilmir. Bu kişisəl və birəysəl tərcih deyildir, bir etniksəl və toplum kültüründən irəli gələn gərçəkdir. Nədən etniksəl deyiləndə, Türk-Fars ilişgilərini anımsamaq gərəkir.

Türklərin qalib olduğu zamanlarda bu olumsuz ilişginin gərçək üzü aydıncasına görünməsə də, uzun zaman hakim sülalə sistemləri altında gizlənən Farsçı siyasətçi və düşünürün dərin bir Azərbaycan Türklüyü düşmənçiliyi yavaş-yavaş üzə çıxaraq 1920-də patlaq verməyə başlamışdır. Heç uzaq getməyə gərək yoxdur. 1813-cu ildən öncəki və sonrakı Azərbaycan tarixi olduqca öyrədiçi zaman bölümüdür. İran Türklüyünün təməl atma düşüncəsi, Şah Əbbas zamanından xızlansa da, Rus-Azərbaycan (Qacar) savaşlarından sonra təsbitlənməyə başlamışdır. Çünki, Artıq Azərbaycan adlı bir varlıq, millət olaraq öz anlamını itirmiş və iki yabançı düşmən sistemi altına düşmüşdür. Sözsüz ki, bu ulusal faciənin ortaya gəlməsilə Azərbaycan Türklüyü düşüncəsi də geniş ölçüdə özüllüyünü itirərək İran Türklüyü [191] termininin yayılmasında etgin olmuşdur. Sonra isə, həmən İran Türklüyü xəstəliyi "Bütöv Azərbaycan" ideyasını unutduran bir tədavi yöntəmi kimi PanFarsizmin ideolojik taktiklərindən biri kimi istifadəyə buraxılmışdır.

---

[191] ( Kimilərə görə: "İran türklüyü termini türklərin imperatorluq özəlliyini təkan verən, iran ərazisinə yenidən hakim olma cəsarətini ortaya qoyan bir millətüstü fikirdir. Bu düşüncənin İran azərisi və bənzər millətaltı düşüncələrlə ilişgisi yoxdur. Bu üzdən terminlərin bir-birinə girməsinə izin vermək olmaz." Əslində Panfarsizmə görə, hər hansi terminin adı deyil, daşıdığı kimlik və stratejik yöntəmi önəmlidir. Azərbaycanın milli-azadlıq savaşı kəsgin bir ulus-dövlət olma sürəcidir. Bu sürəcin ən başda gedən əngəl tipləri isə, millətaltı və millətüstü öznəl və nəsnəllərdir. İran azərisi termini, bir millətaltı nəsnəl olaraq İran türkü terminilə eyni mahiyyəti daşımaqdadır. Əgər hədəf, hədəfi olduğu yerdən uzaqlaşdırmaqdırsa, İrançı panların arxına su dökmək deməkdir. Bu üzdən, termin və istəklərin çeşidliyinə baxmayaraq Azerbaycan türklüyü terminindən başqa hər hansı öznəl və nəsnəl ifadələr, yalnız İrançı panların xeyrinə ortaya atılan anti Azərbaycan dövlətçilik proyektidir.)*

Bu nə deməkdir sorusuna PanFarsizm gözüylə baxmaq lazimdir. PanFarsizmə görə, İran Türklüyü, Azərbaycan Türklüyü qarşısında ən son silah kimi qullanılmalıdır. Ancaq bir *tezin* və onun qarşısında bir *antitez*in yaranması gərəkirsə, bu ən yaxşı meydandır. Türkləri müstəqil düşüncə alanından uzaqlaşdırmaqla bu doğrultuda uğur qazanmaq olar. Buna görə aşağıdaki yöntəmlər Farsçi dövlətin təbliğ və təşviq alanında yerləşməlidir.

A.İran həmişə Türklərin əlilə idarə olunubdur.

B. İran ekonomisi həmişə Türklərin əlində olubdur.

C. Şiə məzhəbi Türklər tərəfindən irana verilən din kimliyidir. Bu din kimliyi Fars-Türk birləşməsilə qorunub və qorunmalıdır.

D. Min illərdir Türk-Fars kültürləri bir–birilə qatışıb və İran kültürünü yaradıbdır.

E. Türk-Fars birləşməsindən yaranan İran milləti, bu iki xalqın birləşməsindən yaranmışdır.

F. İran Türklüyü 11-ci yüzillikdən sonra, Qəznəvi, Səlcuq və Muğulların gəlməsilə yarandı, bu köçəri qövmün axınmasıyla Fars kökənli Azeri dilli xalq aradan getdi, qalanı isə assimilə olub, öz doğma dilini unutdu və Türk dilini qəbul etdi.

G. Əslində İran Türklüyü həmən İran azerisidir. Azerilər isə hind-avrupalı dilli qurupdan zorla uzaqlaşan Türkdilli azeri Farslardırlar.

H. Əsil Azərbaycanda (İran Azərbaycanında) yaşayan azərilərlə Farslar eyni kökdəndirlər. Türklər isə, Ortaasiyada, Türkiyədə, Qafqazda, Aran-Albaniyada və kiçik topluluqlar şəkilində İranın Xorasanında, mərkəzində və güneyində, Afğanistan v.b. yerlərdə yaşayırlar.

İ. Azərbaycan sözü Atropaten, Azərabadegan sözlərinin gəlişmişidir. Bu adla Aran-Albaniya adları arasında heç ilişgi yoxdur. 1918-də ilk dəfə olaraq Müsavat partiyasının öndəri M. Ə. Rəsulzadənin qurduğu dövlətin adı Qafqaz yerinə Azərbaycan adlandı.

J. Azərbaycan heç zaman bölünməyibdir. Yalnız bir Azərbaycan var, o da, İranda yerləşir. İrandan qopulan Qafqazla iranda qalan Azərbaycan heç zaman bir torpaq olmayıbdır .

K. Bölünmüş Azərbaycan termini, habelə Güney və Quzey Azərbaycan adları qondarma və tarix izi olmayan bir saxtakarlıqdır. Bu siyasət yalnız panTürkistlər tərəfindən ortaya qoyulmuşdur.

L. İran Aslan, Azərbaycan isə onun başıdır. Azərbaycan xalqı tarix boyu Türklərə qarşı savaşıb və öz doğma İranını düşmən Türklər qarşısında müdafiə edibdir. Və...

Pan arsizmin təbliğat maşını bir an durmadan 80-ildir "Azərbaycan Türk millətini" çeşidli təbliğat atəşinə tutmaqdadır. Fars teorisiyənləri durmadan iki ana stratejik amacı gündəmdə saxlamaqdadırlar. Birincisi, öz içlərində olan Fars araşdırması, ikincisi isə, Azərbaycan Türkləri içində milli-siyasi teorik bulanım yaratmaqdır. Bu iki hədəf bir gənəl sistemin baş titridir. Fars şovinizminin Türklərə qarşın bütün eyləmləri yalnız bu sistem içində araşdırılır və aktivləşir. Bu öznəl və nəsnəl sistemə görə, öncə Azərbaycan Türklükdən aralanmalı, sonra isə, təklənmiş Azərbaycana yeni kimlik vermək gərəkir. Farsların ən böyük milli teorisiyənlərindən biri, PanFarsizmteorisinin atalarından sayılan "Dr. İnayət-ü-llah Rza" yazır: "Oxuculara çatdırılmış mətləblərdən, 3 nöqtə rahatcasına görünməkdədir: birinci, Azərbaycan hər zaman İranın bir bölməsi olmuşdur. İkincisi, Azərbaycan Qafqaz Albaniyasından ayrı olmuşdur. Üçüncüsü isə, Azərbaycan xalqı iran soylu və iran köklü olmuşdur." [192] Göründüyü kimi, PanFarsizmin 80-illik milli əritmə

---

[192] *(Azərbaycan ən əski çağlardan bu günə, ( farsca), Dr.İnayətüllah Rza. Mərd Emruz yayınları, Tehran 1988. S157 ).*

siyasətinin mərkəzində İrançılıq və Farsçılıq hədəfləri yerləşmişdir. Bu hədəfləri aşağıdaki kimi özətləmək olar:

*a) Türkü Türkdən ayırmaq.*

*b) Azərbaycanı Türklükdən uzaqlaşdırmaq.*

*c) Azərbaycanı Aran-Azərbaycana bölmək.*

*d) Güneyi Farslaşdırıb İranilәşdirməklə Quzeydən qoparmaq.*

Fars şovinizmi gündəlik Azərbaycan və Türk propakantasını sadə və kütləsəl anlamlarla bütün ilətişim sistemlərindən yaymaqdadır. Bu çalışmalara görə, Azərbaycan Türklərinə qondarma iranlı kimliyi verməklə, İranda həmişə olduğu kimi bugün də, hakimiyyət Türklərin əlindədir şüarları yayılır. Farsların Türklərə qarşın ortaya atdıqları siyasətin arxasında bir üst düzey çalışma sistemi vardır. Bu sistemin stratejisinə görə, sosial-siyasal alanda ruhdan düşmüş xəstə, yorğun və təklənmiş Türkün Farsa sığınacaqdan başqa yeri yoxdur. Bu da Farslar üçün yetərlidir. Y`əni, yalnız Türkün manqortlaşması ilə Farsın hegomon və aparıcı güc alması kəsginlik qazanacaqdır.

Türk varlığı, 1925-ci ildən bəri panfarzizmin iş başına gəlməsilə İran adlanan coğrafidə çeşidli etnik və yer adları altında sürülmək zorunda qaldı. Xorasan Türkləri, Xələc Türkləri, Qaşqay Türkləri, Azərbaycan Türkləri( Bir çox Türk düşünürünə görə, Türk adına yaranan çeşidli etniklərin təməlində, Azərbaycandan olan sürəkli köçlər dayanmaqdadır.) kimi, adların səslənməsi Türk yaşam sisteminə görə normal sayılsa da, əslində bu adlandırmaların anormal tərəfini sürəkli assimilə siyasətində axtarmaq gərəkir. Bu siyasətə görə, hər hansı təviz verilirsə verilsin, ancaq Türklərin özül kimliklərinin gizli qalması sürməli və onların özlərini iranlı tanıması sağlanmalıdır. Çünkü, Türklərə bir yerdə iranlıq kimliyi verməklə çox da, uzun sürmədən onları Farslaşdırmaq qolaycasına mümkün olacaqdır. Farslara görə, Türklərin ana kimliyinin özəlliyini aradan qaldırmaq üçün onu çeşidli nisbətlərlə ayırmaq lazımdır. Beləliklə Türklərin tarix bilgisini, varlıq hafizəsini əlindən almaqla onu özlüyündən

uzaqlaşdırmaq bir o qədər də çətin olmayacaqdır. Belə olan halda, Türklərin öz keçmişindən silinməsi manesizləşir. İçdən Türk ulusuna bağlı olan bəzi tanınmış bilim və siyasi bilginlərimizin İran Türklüyü terminin üzərində dayanmaları və bu duyğusallıqda "Güney Azərbaycan Milli Hərəkatına" terorik baxımdan vurduqları darbanın fərqində olmamadıqları çox üzücüdür. Bu dostlar bilməlidirlər ki, Türk etnik qollarının İran Türkü adlandırılması, istər tarix, istər soykök və istərsə də, məntiq baxımından nəyinki doğru deyil, həm də, Türklərin Farslaşmasına yol açan ən etgin silahdır. İran Türklüyü adlı uydurma *tez* həmişə olduğu halda, bugün də Azərbaycanı mərkəzdən salan bəlli subyektiv[193] və obyetkiv[194] olayların baş düşüncəsidir. Bu düşüncə, bir öznəl olaraq, öz-özlüyündə Türkçü düşüncə sisteminin yaranması yolunda millətüstü (İmperatorluq, Ümmətçilik, İrançılıq) əngəl amildir. Təbi ki, bu düşüncə əngəlini aşmaq üçün, gərçək Türk yönlü Türkçülüyün yayğınlaşması hər düşünürün milli vicdan borcudur.

Yuxarıda da, deyildiyi kimi, Azərbaycan Türklüyünün uluslaşması yolununun baş şərti, düşüncə bütövlüyüdür. Kəsinliklə, Azərbaycanın gündəmindəki ən bütövləşdirici özüllərdən biri, Qarabağ sorunudur[195]. Belə ki, Qarabağın ermənilər tərəfindən işğal olunmasının milli-siyasi gündəmindən ən çox ruhsəl təsir alanlar Güneyli gənclərdir. Bu isə, ovtomatik olaraq Quzeylə, Güney arasında olan duyğuların daha dərinləşməsinə nədən olabilər. Qarabağ daha yaxın tarixin sorunu olaraq anavətən qudsallığını ən netləşdirən birləşdirici silahdır. Artıq, Qarabağ yalnız Quzeydə deyil, Azərbaycanın bütünlüyündə, hətta Türkiyədə və başqa Türk topluluqlarda belə, ulusal bir sorun kimi gündəmə gəlməlidir. Anavətəni birlikdə azad etməliyik düşüncəsi, Azərbaycan üçün Türkçülük anlamının eyniliyidir. Bu düşüncə, bütün qondarma sınırları yıxaraq, bütöv vətən – bütöv ulus anlayışını beyinlərdə canlandıracaq qədər güclü ideyadır. Qarabağ insanlarımızı fikirdə və işdə birləşdirə bilər. Qarabağın azadlığı uğrunda fikir birliyi millətləşmə sürəcini irəliyə itələyər. Düşüncədə torpaq bütövlüyü insanlarımızı millətləşməyə, torpağı isə,

---

[193] öznəl
[194] nəsnəl
[195] problemidir

vətənləşdirməyə yönəldər. Təbrizdə səslənən "Qarabağda qan axır, Təbriz ona gen baxır!" şüarı öz ardıca "Azərbaycan bir olsun, mərkəzi Təbriz olsun!" ideyasını ortaya qoyur. Çox keçmədən, dünyaya yayılan bir milli yüksəlişin səsi Güneyin küçələrində özünü göstərir: "Bakı-Təbriz-Ankara, Farslar hara biz hara!" Bu bağırtıların ortaya gəlməsilə, Azərbaycanda Türkçülük məfkürəsinin ən doğal axarının millətdə, vətəndə, dövlətdə bütövləşmə düşüncəsinin gərəkliyi bir daha özünü göstərir. Başqa sözlə, Azərbaycan Türk Millətinin millətçilik və dövlətçilik sürəcindəki aşaması yalnız və yalnız bütövçülük düşüncəsindədir. Bütövləşmə düşüncəsi uluslaşma yolunda ən kəsərli öznəldir. Azərbaycanda bütövlük diləyilə fərdiyyət ehtiraslarının azalması sağlana bilər. Bu isə, bügünmüzün ən önəmli gərəyidir. Bütövləşmə ruhu, İnsanımız üçün gələcəyini qurma gücü verir. Bu gücün yaranmasına dair qıssa vədəli görünüşlər ortaya qoyur. İnsanların böyümə istəkləri qarşısında olumlu hava yaradır. Birəysəl[196] haqların dirçəlişindən törənmiş könüllü toplumsəl birgəlik yaradır. O isə, birəylə, ulus ilişgisindən özəl ülkü meydanı açılır.

Qıssaca, milliyyətçilik qavramını sərgiliyən öncüllər, daşıdıqları yükün toplum sarından da daşınacaq çəkisinin nə olduğunu iyicə dəyərləndirməli və tənləşdirməlidirlər[197]. Çünki, doğuşu, kimliyi, çəkisi, mesajı bəlli olmayan yükü toplum sırtına vermək olmaz. Bu o deməkdir ki, düşünür öncüllə[198] toplum arasında bütövləşmə yaranmasa öncüllük də yarana bilməz. Bu şərtlərin əsasında isə, dildə, fikirdə, işdə birlik qavramının yaşanmasıdır. Sıra axışqanlığıyla dildə birlik görünməkdədir. Dildə birlik, yalnız bənzər ilişgi quran, bənzər sözlərlə özlərini anladan toplumlar birliyi deyil, bəlkə ən önəmlisi, dil bağları altında yatan bir ortaq kültürü və yaşam fəlsəfəsinin kütləsəl açılışıdır. Bir başqa deyimlə, dildə birlik, özündə daşıdığı sadə anlamlarla bir toplumun geniş və dərin yaşam tərzini ortaya qoyar və düşüncə birləşməsinə yol açır. Dildə, fikirdə bütövləşmə olmasa, işdə də bütövləşmə mümkün deyildir! Bu teorinin Azərbaycan forması isə, torpağın da birləşməsini gərəkən sayır və üçlük devizin dördlüyü çevirməsini gərəkli sanır. Belə ki, (*düşüncədə, millətdə,*

---

[196] şəxsi
[197] eşitləşdirməli,eyniləşdirməli
[198] ziyalı liderlə

*torpaqda və dövlətdə bütövləşmə*-nı birgə termin kimi irəli sürür, arxasıca aşağıdaki ön şərtləri ortaya qoyur:

a) Güneyin milli savaşına yön verən ülkü yükünün ağırlığını, yalnız bütövlük məfkürəsi daşıya bilər. Güneyin milli qurtuluşçu ruhunu solçuluq bölücülüyündən, sağçılıq irançılığından, dinçilik ümmətçiliyindən uzaqlaşdırmaq üçün, hər hansı millətaltı,[199] millətüstü[200] əngəli ancaq bütüvlük düşüncəsilə aradan qaldırmaq olar.

b) Bütövlük məfkürəsi, vətən və ölkə anlayışı ilə ulus anlayışını eyniləşdirir. Belə ki, Azərbaycan adı eşidiləndə, Dərbəndən tutmuş Ərakadək çəkilən hardasa 400,000 Km.metrəqaralıq bitişik Türk vətəni düşüncələrdə canlanır. Y`əni, hər Azərbaycan Türkü bitişik böyük Azərbaycan yaylası anlayışını qavramış olur. Bu isə, o deməkdir ki, millətimiz, qondarma İran yaylası düşüncəni öz vətən anlayışından dışlayır, doğrudan doğruya tarixsəl varlığı ilə fərqlənən doğma və gərçək böyük Azərbaycan yaylası anlayışını öz beyinində yerləşdirir.

c) Bütövlük düşüncəsi, dildə, düşüncədə, işdə birlik konseptinə (fikrinə) torpaq birligini də artırmaqla Azərbaycan davası milli-mədəni mücadilədən milli-siyası düzeyə yüksəlir. Bütövləşmə gərəyini millət ilə vətən birləşməsinə bağlayır. Güneydəki "Milli Hərəkatın" davasını ideya yükümlü düzeyə yüksəldir, ona fəlsəfi yön verir.

d) Azərbaycanın hər iki tayında olan dil, kültür, muarif, tarix, gündəlik siyasi çabaları vahid bir düşüncə mərkəzinə bağlanır. Bütövçü, Türkçü ışığı etginliyində olan hər hansı Güneyli, Quzeyli eyləm, millətimizin gündəlik çalışmalarını otuman olaraq birləşdirir.

e) Bütövlük düşüncəsi, yaşam yerindən asılı olmayaraq bütövlük davasına eynilən can qoyan Azərbaycan Türklərini düşüncədə milliyyətçi edir. Türkçülüyü ağır terminlərlə deyil, sadə və yaşam biçimində insanlarımızın beynində yerləşdirir.

---

[199] Millətaltı: millətin bütövlüyünü etgiləyən məzhəbçi, bölgəçi, əşirətçi və...amillər.
[200] Millətüsrü: millətin bütövlüyünü etgiləyən impratorçu, ümmətçi, irançı v...amillər.

Türkçülük sevdasının Türklərin milli ülkü və milli qurtuluş savaşında eynləşməsinin bir anlamıda bütövləşmədir. Bu inancın başlıca ülkü ideyası isə, öz torpaqlarında əsarət boyunduruğunda sürüklənən Türklərin öz dövlətlərinə əl tapmasıdır. Hər hansı milliyət kimliyinin özgür yaşamasının baş şərti onun millət olma iradəsinə bağlıdır. Bir toplum isə, bütün özəl ünsürlərində birləşəməsə millət olması mahaldır. Dildə, fikirdə və yaşamda, tarixdən qazanmiş irsiyədə, inanc və ehtirasda, yönəlik ülkülərdə və milli stratejikdə birliyin sağlanması, bütövlük ruhunun yaşaması deməkdir. Elə buna görə, öznəl bütövləşməyi,[201] millətləşmə və dövlətləşmənin onurğası adlandırmaq olar.

Sözsüz ki, parçalanmış millətlərin yenidən birləşməsi, uzun sürəli milli ideya davası tələb edir. Zamanında hər hansı siyasal və sömürgə nədəni ilə torpağının bir bölümünü və ya bütünlüyünü itirmiş bir millətin yavaş-yavaş tarixsəl hafizəsinin də əldən verməsinə, milli idrakının da itirməsinə tanıq oluruq. Belə olan hallarda bir ulusun yenidən dirçəlməsinin ilkin aşaması hər şeydən öncə beyin davasına bağlanır. Milliəritmə siyasətinə qarşı, məğlub intqrasiya halından aralanmaq, itirilmiş ulusal kimlik bilincinin axtarışına girmək, özgələndirən yabancı düşüncələrdən uzaqlaşmaq v.b., bunlar hamısı öznəl dava forması alır, milli-mədəni davanın sürəcsiz axarına çevrilir. Düşmənin ideoloji basqısından qoparaq ÖZÜL düşüncə alanını yaraldır. Sadə bir gərçəyi unutmamaq ki, toplum yalnız öz dövləti altında uluslaşır və özgür yaşam iradəsi taparaq bütövləşmə gücü toplayır. Bu, o deməkdir ki, bir toplumun ulusal kimlik bilinci,[202] kütləsəl güc axarı, kürəsəl[203] tanıtım meydanı yalnız öz dövlət varlığıyla daha da etgili ola bilir. Azərbaycan, bütünlüklə bu özülə sahib olamadığına görə, geniş alanda pekişdirici[204] dövlətdən yoxsundur. Bu bir faktdır ki, hər dövlətin varlığını etgiləndirən tipik anlayış, o dövlətin vətəndaşının milli əxlaqilə ölçülür. Bugünkü dünyada bir dövlətin evrənsəl və universal görüntüsü böyük alanda onun necə

---

[201] subjektiv birləşməyi, ruhda birləşməni
[202] milli kimlik şüruru
[203] qlobal
[204] birləşdirici, oluşdurucu

vətəndaş yetişdirməsi ilə bağlıdır. Sadə sözlə, dövlət varlığı vətəndaş kimliyi sayılırsa, vətəndaş isə öz dövlətinin dünyaya açılan gözgüsüdür.[205]

Çox üzücüdür ki, Azərbaycanda millətləşmə sürəci, arzu edilməz ölçüdə dövlət dəstəyindən yoxsundur. Dövlət tərəfindən gərəkən yardımın olmaması, millətimizin qarşısında olan əngəlləri daha da etgili halə gətirməkdədir. Ekonomik, sosiyal, siyasal, kültürəl alanlarda yatırımlarla yanaşı ulusal ideyallara da bəlli büdcə ayırmaq dövlətin millətə olan borcudur. Dövlətin idarəçisi olan hakimiyyət hər zaman öz varlığının millətə bağlı olduğunu bilməli, ulusal ideyallara özgə yanaşma siyasətində olumlu yöntəm almalıdır. Sözsüz ki, dövlət yardımından yetərincə qidalanmayan hər hansı ulusal amac darıcqallığa uğrarkən yalnız intellektuel səciyədə duraqlar. Bu səbəbdən, hazırki durumda, Azərbaycanın bütövləşmə sürəci kütləvilikdən daha çox aydın düşünür və oxumuş gənclərimizin içində genişlənmə sürəci keçirməkdədir. Nə yazıqki, Azərbaycan dövlətinin bu qonuda istabil və gərçək bir planı olmadığına görə, yüksək yetgililərin də anlıq olumlu çıxışları ciddiyə alınmayır. Bu anlıq çıxışlar istər milli düşmənlər tərəfindən, istərsə də, bütövçü millət tərəfindən ulusal stratejik anlamdan daha çox duyğusal və ya gündəmə dayanan taktiksal göstəri kimi alqılanır. Yəqin ki, belə gedişin nəticəsi yalnız millətlə dövlətin arasını açaraq ilginc tabloların ortaya çıxmasına da nədən olur. Yetgililərin eyləmdə deyil, sözdə çıxışlarının bahanası nə olursa olsun öz olumsuz sonucunu belə bir görüntülə üzə çıxarır: Azərbaycan indiki durumda ən xoş görünüşdə kiçik yarısı ilə özgür dövlətə yiyələnmiş, böyük yarısıyla isə, dövlətləşmə sürəcinin ön örgütlənmə dalğasındadır. Ancaq bu dalğalanmada böyük bir çatışmamazlığı da gözaltı etmək olmaz. Belə ki, Azərbaycan toplumunda, Güneysiz Quzey, Quzeysiz isə Güney olmaz havası yer almaqda ikən, dövlətdən gözlənilən malı və mənəvi dəstəyin gəlməməsi ulusal davanın ən olumsuz tərəfi olan ümidsizliyə yol açır. Bölğədəki, varsayım olayların Azərbaycan Türklüyünün üzərinə də calanmasına rəğmən, olaylar

---

[205] .(Əlbətdə bu, başqa tiplərin, ortada olmaması anlamına gəlməz. Onsuz da, hər toplum, öz tarixsəl gəlişməsindən ortaya gələn özəlliklərə dayanaraq mücadilə yolunu seçir. Yalnız, biz burada Azərbaycan qonusuyla uğraşdığımıza görə, başqa yönlərə girmirik.)

qarşısında millətini silahsız buraxır. Ulusun olumlu bir sonuca varması üçün yardımçı olmur. Var olan şərtlərin gələcəyimizin xeyrinə dəyişməsinə əlverişli imkanlar açılsa da gərəkən həssaslıqla yanaşmayır.

**<u>Millətdə bütövləşmə.</u>**

***"... güneşin ışığı bir merceğin odak noktasında odaklanmadan yakıcılık özelliğini göstermediği gibi; topluluk da, 'coşkulu bir birleşme olmadan', taşıdığı kutsallık sıfatını göstermez"***[206]

Millət öz-özlüyündə bütöv bir termindir. Dövlət ayrılığına baxmayaraq, dünya da bəlli olan bir İrlənda, Koreya milləti, Türkmən Türk milləti və Azərbaycan Türk milləti var. Avstriya xalqı özünü almanlardan daha xalis german milləti sanırlar. Dünyada İran milləti yoxdur, Vahid İspaniya milləti yoxdur. Hind milləti vardır amma vahid Hindüstan milləti yoxdur. Vahid Kanada milləti yoxdur, amma kanada vətəndaşı vardır. Bunları zorla millət adlandırmaq amacı altında kəsinliklə bir sömürgə hikayəti vardır. Rus milləti nə qədər ki doğaldır. Rusiya milləti, bir o qədər qondarmadır. Millətin bir doğuşü olmalıdır. Tarixsəl dayaqları olmayan bir topluma millət deyilməz, deyiləməz! Bütün tarix faktlarına görə, Farslar hin-avrupalı dilli xalqlar zümrəsindədir. Bu baxışa görə, Farsların tarix axışının özülü bəlli faktlara dayanmaqdadır. Bu faktlar o millətin özünə aiddir. O insan toplusunun bənzər olaylara qarşı ortaq mücadiləsinin simgə davranışıdır.

Tarix axışında yaxın və ortaq mücadilədən yaranan dil qohumluğundan doğan yaşam kökləri dəyişik insan çeşirdlərini ortaya qoyur. Bu üzdən müstəqil Fars milləti yaranmışdır. Bu millətin irəliləməsində Türk dövlətçiliyi və kültürünün danılmaz rolu olsada, Fars milliyyətinin yaranmasında sahibkarlıq iddiasında ola bilməz! Türklər heç

[206] *Ziya Gökalp/Məhəməd ziya/: doğum 23 mart 1875(Diyarbəkir), ölüm 35 ekim 1924(İstanbul), yazar, şair, siyasətçi, sosioloj*

zaman bu iddianı etmədiklərinə görə, kitablar yazmadılar, tarix saxtakarlığına əl vurmadılar. Buna da ehtiyac duymadılar. Tərsinə Farsların millət olması yolunda əllərindən gələn yardımı etdilər. Fars dilinin diriliyi üçün Türk dilini belə qurban verdilər. Farslar isə hakimiyyətə gələr-gəlməz vəlinemətlərini – Azərbaycan Türklərini- Farslaşdırmağa çalışdılar. Farslar bu davranışlariyla çağdaş bir millət olmadıqlarını göstərdilər. Farslar, böyük bir millət olmaqdansa, cılız karexterli[207] bir toplum örnəyi ortaya qoydular. Baxmayaraq ki, dövlət sahibi də oldular. Ancaq, idarəçilik bilmədiklərini və dura-dura hər bir normal işin içindən böhran yaratdıqlarını dünyaya bildirdilər. Bilinən bu ki, yalnız dövlətə yiylənməklə çağdaş bir millət əmələ gəlinmir. Çünki, millət olmaq üçün dövlətdən başqa ilkəsəl[208] millət özəlliyi də gərəkir. Millət gərək kökündən millət kimi budaqlansın. "Hər bir xalqın özünəməxsusluğu, bənzərsizliyi şəksizdir. Heç bir xalq heç bir xalqı əvəz edə bilməz. Hər xalqın dünyada öz yeri var, öz səsi var, öz rəngi var. Bu ideyasız humanizm çox yoxsul görünərdi. Hər bir millətin bəşər mədəniyyətinə, qabaqcıl tərəqqiyə başqası tərəfindən əvəz edilməsi mümkün olmayan orijinal hədiyyəsi var, o hədiyyəni inkar eləmək olmaz. Bu hədiyyə əsasında bəşərin müxtəlifliyi ideyası, mədəniyyətin müxtəlifliyi ideyası, əlvanlığın ideyası, sənətin, idrakın qəlibdən çıxması qüdrəti öz ifadəsini tapıb."[209]

Asif Ata[210]-nın özünə özəl millət anlayışında dolğun bir bütövlük ruhu vardır. Y`əni millət başqa millətlərə qatılmır. Özəlliyindən doğulur və doğduğu hər şeyi özünə aiddir, özlüyünə bənzəyir. Türklərin min illərdən bəri, həm qonşuluq və həm geopolitik səbəblərdən Farslar və ruslarla iç-içə yaşamasına baxmayaraq onlarla heç bir alanda ortaq bənzəyişi olmamışdır. Türklər özlərinə görə, ortaq bənzərləri var. 200 illik Azərbaycan bölünməsilə meydana gələn ikili milli əritmə siyasətinin bütün ağırlığı bu millətin kökünü baltalasa sa, yenə millətə hakim olan

---

[207] ufaq, xırda içərik
[208] prensipli
[209] *(Asif Ata. Uluyurdun aqibəti, bütöv Azərbaycan, Adiloğlu yayınları, Bakı-2007.s49).*
[210] *Asif Ata/Asif Qasımoğlu Əfəndi/ doğum:25 sentyabr 1935. Çaykən.ölüm: 6 iyun 1997. Bakı.Ruhani ata ocağının quruçusudur.Fəlsəfəçi, ədəbiyyatçı, siyasət bilgini və Mütləq İnsan fəlsəfəsini yaradan filosofdur.*

bütövlük ruhu onu yaşatmışdır. Ona görə ki, millət deyiləndə ilk öncə dil, kültür, inanc, tarix, görünüş, ruh bağlantısı, dəb-gələnək, baxış açısı, əxlaq yükü kimi özəlliklər düşünülür. Sözsüz ki, bu özəllikləri qapsayan gərçək Azərbaycan Türkü üçün, bir Fars vəya rus insanı ilə uzun sürəli norma ilişgi qurmaq çox çətin olur.[211]

Bunun tərsi olaraq, həmən Azərbaycan Türkü, yaşam boyu heç üzləşməyən, etgisində olmayan bir İğdırlı, Makadoniyalı Türkü özünə daha yaxın duyur, ona daha səmpatı göstərir. Çünki, kitablarda, hikayələrdə, tarixdə, dildə, kültürdə onu daha özünə yaxın duyur. Ona olan zülmləri özündə görür. Ona qarşı olan assimiliya siyasətini özündə də görür. Ona qarşı olan soy düşmənçiliyinin eynisini yaşayır. Onda olan qurtuluş yolunun bənzərini öz millətində görür. Özgür gələcədə geçmişin acılarını yaşamamaq üçün öz soydaşıyla yaxın ilişgidə olmağının gərəkliyini görür. Gələçəkdə yalqızlanmasın diyə onunla omuz-omuza olmaq zorunu duyur. Yaxında vəya uzaqda olmasından asılı olmayaraq öz dildaşının əldə etmiş gücünü, yaşam moralının yüksəlişini hiss etdikcə daha da öz kökünə bağlanır, daha da ulus olma iradəsini qapsayır. Budur milliyyətçilik duyğusundan törənən bütövlük ruhu, budur millət olma iradəsinin ilkə düşüncəsi. Mən bir Azərbaycanlıyam. Mənim köküm Türkdür, soyadım Türkdür. Yaxşım da, pisim də Türkdür. Bu mənim kəsinliyimdir, mənim mütləqliyimdir, Dəyişməzliyimdir. Mənim, dili bir, geçmişi bir, indisi bir. gələcəyi bir, gülüşü bir, kədəri bir Dərbənd,dən Ərak,a dək çəkilən torpağım bir, yalnız bir ulusum var. Bu ulusumun sayılı bir bölməsi millətimin dünyanın başa başında və İran adlanan yerdə dağılmış çeşidli adlarla səslənilən soydaş diasporudur. Mən ulu Türk millətin ailəsiyəm. Azərbaycan Türk millətiyəm. “Nə mutlu tükəm diyənə”! *(AtaTürk)* “Azərbaycan Türkləri 10-min illərdir “Azərbaycan”

---

[211] (olursa da, kəsinliklə qarşı etgilərdən ortaya gələn səbəbsəl ilişgidir. Atalar demişkən: “atı at yanına bağlarsan, bir boyalı olmasa da, bir xuylu olar!” ola bilsin bəziləri farslarla, türklərin bəzi bənzərliklərini aldadıçı hallarda nəsəbsəl (soy) amilə bağlasınlar. Bu heç də bilimsəl bir yaxınlaşma deyildir. Sadəcə bu iki ayrı millətin min illər boyunca bir bölgədə yaşayıb, yaxın iqlim, hava, su, qida birlikləri oluşdurmasıyla bağlıdır. Bundan daha önəmlisi farslar içində bir söz var: “gözəl yaşam, ilqar, sevgi və uşaqlara ana axtarırsan türk qızıyla evlən!” Tarix boyu türk gəlinlərinin farslar içində buraxdığı əxlaqsəl etgilərlə yanaşı qan qatışığının da danılmaz rolu olmuşdur. Bu ailə birləşmələrindən törənən qiyafə yaxınlığı, xuy bənzərliyi geniş alanda bir tərəfə olsa da, yenə bir gərçəkdir.)

adlı böyük bir məkanda formalaşıblar və onların ruhu bütövdür, mənəvi bütövlüyü var. Sadəcə, rus imperiyası onu zorla cismən parçaladı. Amma biz heç bir cəhətdən (etnoloji, mədəni ,mənəvi, dini, psixoloji və b. baxımdan) parçalanmış xalq deyilik – mən parçalanma fikrini qəbul etmirəm. Nə üçün? Çox adam cavabı materialist kimi düşünür, halbuki bu məsələyə idealistcəsinə yanaşmaq lazimdir.

Biz bu hərəkata materialist kimi yox, idealist kimi başladıq, çünki materializm nəinki köməyə gəlmir, əksinə, man`e olur. Ancaq idealizmə söykənəndə bir torpağın ortasından çəkilmiş dəmir pərdənin heç bir əhəmiyyəti yoxdur, onu parçalaya bilməz. Çünkü insanın ruhunun məhsulu onun ədəbiyyatıdır, tarixidir, fəlsəfəsidir.”[212] Millətin bütöv olmasının zati özlüyündədir. Ulus bir ruhdur. Ruhun parçalanması mümkün deyildir. Ruh cismin ölməsilə mübahisəli qonuya çevrilə bilər. Dövlətlə millət arasındaki fərq ruhla can arasındaki fərqə bənzər. Dövlət yaralanır, zaman keçəyində aradan gedir. Ancaq Millət böyük ruh olunca ölməyir, aradan getməyir. Bir zaman olur ki, öz dövlətini yenidən canlandırır. Sözsüz ki, bu yenidən canlanma ağır həzinələrə mal olur. Milyonlarla can itirilir. Lakin bir millət yenidən öz mənliyində özləşir və bütünləşir. O millət, dildə canlanır, yaşamda canlanır. Dünyada və tarixdə öz yerini yenidən qazanır. Bunlar bir qissa zamanda olmayır. Milli düşmənlər əldə etdiyi bütün iç və dış imkanlardan yararlanaraq milli qurtuluş yolunu tutmağa çalışır. Ancaq ayaqlanmış bir ulusun qarşısında sonucda yenik duruma düşür. Millət bütövlüyü fikirdən başlarkən işdə dirçəlişə yönəlir. Ulusun hərəkətə gəlməsi qarşıda olan bütün əngəlləri aşaraq qutsal amaca sarı hər gün bir atdım daha yaxınlaşır. Və sonunda bağımsızlıq, özgürlük, insanlıq və dövlətləşmə sürəci dayanmadan dəvam edir.

Özgürlük sevdalısı olan hər hansı insan toplusunun ər-gec yolu azadlıqdır. Demək insan iradəsinin birləşməsindən yaranan millət iradəsi olunca, qarşısında dünyanın ən yırtıcı əngəli belə dayana bilməz. Yalnız millət ruhuyla dövlətçilik iradəsi, varoluşuna dönə bilər. Milləti, qutsal iradəyə səfərbər edən yolbaylıq rolu danılmaz ölçüdə önəmlidir. Bir

---

[212] *(Ədalət Tahirzadə, Qurtuluş və Bütövlük yolu, /Elçibəylə 6 söhbət/,Elçibəy kitabxanası, Baki, 2003. S200)*

ulusun milli qurtuluş savaşını doğru yönə daşıyan imanlı, iradəli, ulus və torpağının qurtuluşunu hər ehtirasdan üstün tutan, kütləsilə, aydınıyla sevib-sevilən, onların azadlığı və gələcəyi yolunda ölməyi bacaran yolbayların olması özlüyündə bir qurtuluş deməkdir:

> ***"Özgürlük ve bağımsızlık benim karakterimdir. Ben milletimin en büyük ve ecdadımın en değerli mirası olan bağımsızlık aşkı ile dolu bir adamım. Çocukluğumdan bugüne kadar ailevî, hususî ve resmî hayatımın her safhasını yakından bilenlere bu aşkım malumdur. Bence bir millete şerefin, haysiyetin, namusun ve insanlığın vücut ve beka bulabilmesi mutlaka o milletin özgürlük ve bağımsızlığına sahip olmasıyla kaimdir. Ben şahsen bu saydığım vazıflara, çok ehemmiyet veririm. Ve bu vazıfların kendimde mevcut olduğunu iddia edebilmek için milletimin de aynı vazıfları taşımasını esas şart bilirim. Ben yaşayabilmek için mutlaka bağımsız bir milletin evladı kalmalıyım. Bu sebeple milli bağımsızlık bence bir hayat meselesidir. Millet ve memleketin menfaatleri icap ettirirse, insanlığı teşkil eden milletlerden her biriyle medeniyet icabı olan dostluk ve siyaset münasebetlerini büyük bir hassasiyetle takdir ederim. Ancak, benim milletimi esir etmek isteyen herhangi bir milletin, bu arzusundan vazgeçinceye kadar, amansız düşmanıyım."*** [213]

Ulusu AtaTürk sayağı sevmək, ulus özgürlüyü yolunda canını qoymaq yalnız böyük ruhdan irəli gələ bilər. Siyasi nədənlərdən deyil, daha dərin kökdən milləti sevmək ulusal kimlikdən irəli gələr. Mən millətimin sevdalısıyam, mənim uçun millətim böyük ruhdur. Bu ruh dövlətində yaşar, milləti üzərində uçuşar. Bu ruh sınır tanımaz. Onun sınırı sınırsızlığıdır. Bosnalı şair "Mənim Türkcem" şerində yuxarıdaki sətirləri daha da gözəl ifadeylə açır:

---

[213] *(MUSTAFA KEMAL ATATÜRK qayaq://www.1915turk.net/ataturke-ait-soz-soyleyin*

**”Menim Türkcem”**

Bir ben varım,
Benimle birlikte Türkçem,
Türkçemle birlikte bir ben varım.
Ne başında ne sonunda gelir uygar dillerin.
Azeri'den tut, Balkanlara çık,
O Türkçe benim, ben o Türkçenin.

Bir ulusum var,
Ulusumla birlikte Türkçem,
Türkçemle birlikte bir ulusum var.
Ne başında ne sonunda gelir uygar uluslarım.
Orta Asya'dan tut, Orta Anadolu'ya çık,
O ulus benim, ben o ulusun.

Bir ben varım,
Benimle birlikte Türkçem,
Türkçemle birlikte bir ulusum var.
Ne başında ne sonunda gelir uygar dil ve ulusların.
Türkçem başlar Azeri'den Balkanlara,
Ulusum Orta Asya'dan Anadolu'ya çıkar.”[214]

**<u>Dövlətdə Bütövləşmə.</u>**

***“ Yerli uca dağın yıxılmasın!***

***Kölgəli iri ağacın kəsilməsin!***

***Coşqun axan gözəl suyun qurumasın!***

---

[214] *(Nusret Dişo Ülkü /BOSNALI/ H.Şərqi/Soytürk/, Müsəlman türk dünyasi ədəbi örnəkləri. Tehran.2000.s34)*

*Qanadlarının ucu qırılmasın!„*

*(Kitabii Dədə Qorqud)*[215]

"Toplum yalnız dövlətilə millətləşər!" sözü nə qədər vurğulansa da, yenə vurğulanmağa yeri vardır. Toplumu toparlayan, ona ideyal bəxş edən ancaq dövlətçilik düşüncəsilə ortaya gələ bilər. Dövlətçilik düşüncəsi olmadan millət düşüncəsi də özülünü itirib, siyasi təfəkkürün altında inləməyə məhküm qalar. Dövlətin ən önəmli nəsnəl iradəsi siyasətdir. Siyasi istiqlalı, qanun quruculuğu, qanuna yönəlik hüquq iradəsi və bunlara icra imkanı yaradan ekonomik güc, bir millətin dövlətçiliyə yiyələnməsinin təməldaşıdır. Sözsüz ki, bunlar olmadan onu qoruyacaq hər hansı güc uyğulaması da imkansızdır. Sadə anlamla ən azından toplumlar qanunla, hakimiyyətlə, qəza hüququ ilə, tanınmış sınırıyla yaşar. Lakin, sınırlarına hakim olmayan topluma millət demək olmaz. Çünki, sınırlarına hakim olmayan toplum, hüququna, cəza qanunlarına, hakimiyyətinə də yiyə deyildir. Demək bu toplum kəndi idarəsini əldə tutacaq gücdə deyildir.

Dövlətçilik Azərbaycan üçün yalnız, bir stratejik hədəf deyil. O, eyn zamanda bölünmüş vətənin birləşdirici gücü və uluslaşmanın təməl dayağıdır. Yalnız dövlətçiliklə ulusun gərçək birliyi və vətən anlayışı ortaya çıxar. Bugün 50 milyonluq Azərbaycandan danışanda hər sözdən öncə, bəs hanı bu millətin dövləti sorğusu ortaya çıxmaqdadır. Dünyada normal görünən, bu sadə sorğu qarşısında, doğru, bilimsəl və ehatəli yanıt vermək öz-özlüyündə bir mücadilə sayılır.

Azərbaycan Türk milləti, tarix boyu bəşəriyyətin ən ilkin dövlətçilik gələnəyini ortaya qoymuşdur. Hələ M.Q. 3000-ci illərdən bəri Hürrilər, Quttilər, Lullubilər, İskitlər, Mannalar, Mediyalar, Ərşəklər, Albanlar və Atropatenlər kimi bir çox el birləşmələri məhz bu günkü Azərbaycanda, Türk dövlətçilik ənənəsi qurulmuşdurlar. Həmin dövlət

[215] "**Kitabi-Dədə Qorqud**" Oğuz boylarının 12 söyləmini günümüzə daşıyan kitabdır. Azərbaycan milli ədəbiyyatının ən yaşlı və əski bitiyidir. Yazılma illərinin 11,12-ci yüzilliyə aid olması deyilir. Bəzi qaynaqlada daha da əskilərə dayanması vurğulanır.

axışının ardından Qəznəvilər, Səlcuqlar, Elxanlar, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Afşarlar, Qacarlar, Azərbaycan Demokratik Cümhuriyyəti, Azadistan Dövləti, Azərbaycan Demokrat Hükuməti və Azərbaycan Cümruriyyəti kimi dövlət sistemləri günümüzədək çəkilən dövlətçilik gələnəyimizin şübhəsizliyini göstərməkdədir. Bəzi tarixçilərin fərzinə görə, hətta sümerlər də İkiçayarası[216]köçmədən çox öncə Urmu Gölü yaxasında yaşamış və ilkin dövlət mədəniyyətini qurmuşdurlar. Dəyərli yazar və tarixçi, Aydın Abbasov yazır: "...S.Lloyorun fikrincə şumerlərin Anadoludan cənubi İkiçayarasına gəldikləri fərz edilir. B.Brenteys isə bu Türk soyunun şimal-şərqdən, y`əni Urmiyə gölü hövzəsindən, y`əni Güney Azərbaycandan, yaxud Şərqdən gəldiyini ehtimal etmişdir. Fransız təbiətşünas filosofu Elize Reklyu Şumerlərin Ural-altay dil qrupuna daxil olduğunu yazmışdır. Alman alimi F.Hommel Reklyunun bu fikrini təsdiqləyərək qeyd edir ki, şumerlər cənubi İkiçayarasına Mərkəzi Asiyadan gəlmişlər və onlar Altay dil qrupuna daxildir...".[217]

Demək bu millətin tarixinin ən dərinlərində dövlətçilik sistemi olmuşdur. Ancaq, bu zəngin geçmişə baxmayaraq, son zamanlarda rus-Fars birləşməsi qarşısında ayaqdan düşən Türkün siyasal dövlətçilik sistemi də yox olmağa uğramışdır.

1991-ci ildə Azərbaycanin quzeyində özgür dövlətin yaranması qırılmış dövlətçilik ənənəsini millətimizə qazandırsa da, tam olaraq Azərbaycan dövlətçiliyin halən optimal həyatı yaşanmamaqdadır. Göründüyü kimi Azərbaycan Türk milləti, dövlətçiliyini tam qazanmaq üçün yeniş-yoxuşlu milli-qurtuluş savaşı aparmaqdadır. Bu savaş Quzeydə, dövlətdə demokratikləşmə, hüquqsəlləşmə xarekteri daşıyırsa, Güneydə tam alanlı anti faşist bir savaşa sürüklənməkdədir. Demək dava hər iki tayda milli davadır. Biri öz dövlətçiliyimiz çatı altında və demokratikləşmə formasında, ikincisi isə işğal olunmuş torpaqlarımızda işğalçı faşist Fars rejimilə. Sözsüz ki, Hər iki davanın ən aparıcı ülkü

---

[216] (Mesopotamiya/Dəclə-Fərat/)

[217] *(Aydın Abbasov. Milli Dövlətçilik Məfkurəsi və Layiqlik.., Bakı Univesiteti Nəşriyyatı, 2002.s19)*

silahı bütövçülük ideyası olmalıdır. B`əziləri bu ülkünün Quzeyə gərəkli olmadığını irəli sürürlər. Onlar böyük yalnışlıqdadırlar. Çünkü, hər hansı demokratikləşmə, çağdaşlaşma, hüquqsəlləşmə davanın ən başında ulus dayanır. Ulusa söykənmədən hər hansı yuxarıdan reform çabası, özü-özlüyündə avtoritarizmə, totalitarizmə yeni boyudlar qazandıran siyasi saxtakarlıq olar. Millət bütövdür, millətə söykənən hər hansı sosial-siyasal çaba isə, bütövlük ruhuna söykənməlidir. Belə olmasa Quzeydə demokratikləşmə sürəci uzun zaman öz başına fırlanacaqdır. Güneyin milli dövlətçilik davası isə, bir başa bütövlük ruhuyla yoğranmış ölüm-dirim savaşıdır. Güneydə bütövləşmə ülküsü büs-bütün millətləşmə və dövlətləşmə kimlik bilincinin özətindədir. Sözsüz ki, Bütövçülük ideyasının ən birinci sonuc aşaması *GÜNEY AZƏRBAYCAN DÖVLƏTÇİLİYİDİR.*

Güneyin milli dövlətçiliyi neyinki bütöv Azərbaycan birliyinin açarı, eyni zamanda Türk insanının və böyük Türk millətinin aydınlıq qapısı, habelə bölgə və dünya barışının ana yolu və şahdamarıdır. Güneyin dövlətçiliyi bölgədə gedən daha çox reklam xarekterli siyasi oyunlara son qoymanın başlanğıcıdır. Bölgədə yaşayan bütün xalqlar azad və özgür yaşamaq imkanı əldə edəcəklər. Daha zalim və qəddar sistemlərin siyasi, hərbi basqısında qalmayacaqlarından arxayın olacaqlar. Güneyin dövlətçiliyinin qurulmasıla konfederativ bir Türk varlığının *(Çağdaş Turan Evi)* da yaranmasına əlverişli şərayit yaranacaqdır. Fars dövlətçiliyi üzündən bölgə xalqları içində yaranan qarşılıqlı güvənsizliğin yerini dostluq və əməkdaşlıq alarkən yalnız azad olmuş xalqlara deyil, Farsistan dövlətçiliyinə də çağdaş, demokratik və layik yaşamaq üfüqi görünəcəkdir. Dövlətçilik hər millətin ən başda gələn amacı və varlığının ən yüksək orqanıdır. Dövlətçilik bir millətin dilinin, tarixinin, kültürünün, torpağının, dininin, siyasətinin, iqtisadiyyatının, qanunsəlliyinin, hüquqsəlliyinin v.b. dirilik təməli və eyniyyət rəmzidir. Bu üzdən dövlət təməlindən uzaqlaşmış hər hansı bir milli varlıq çox da geçmədən özül təmələrini sarsıdaraq, ruh boşluğuna və içdən boşalma təhlükəsinə tuşlanar. “Eline” olmuş millət ruhani boşluğunu doldurmaq üçün hər hansı qalib mahiyyəti mənimsəməyə can atarkən, nəsil-nəsil öz doğma özülündən uzaqlaşmağa sürüklənər.

Bu duruma biraz sərt yanaşılarsa, Azərbaycan Türkünün də belə bir havaya girməsi müşahidə olunmaqdadır. Ancaq bir gərçəyi də unutmamaq gərəkir ki, Azərbaycan Türkü min illər dövlətçilik gələnəyinin bir uzantısıdır. Dövlətçilik, Azərbaycan Türkü üçün bir ələ gəlməz xolya deyil. Sadəcə 80-il bundan öncəyədək İran adlanan yerdə gələnəksəl Türk dövlətləri olmuşdur. Doğrudur ki, bugünün durumunda bir gələnəksizlik yaşanmaqdadır. Və bu da, millətimizin şiddətlə geri qalmasına və dünya gəlişməsindən uzaq düşməsinə nədən olubdur, ancaq bunu da unutmamaq lazimdir ki, Azərbaycanın yalnız kiçik bir bölümündə milli iradəmiz hakimdir.

Güneydə hələlik milli dövlət olmasa da, ona çatmaq ideyası hər gün böyüməkdədir. Hər Türk özünü Farsdan artıq sanmasa da, əksik sanmayır. “Mən Türklüyümə qüvənirən. Mən Türkəm. Mənim Farsla qaynaşacağım yoxdur. Mən başqa, Fars başqa. Mən ulu millətəm. Fars isə məndən çox dalı və  Fars, rus, erməni Türkün eski düşməni kimi sözlər bugün güneydə və İran adlanan yerin başa-başında yaşam savaşı verən Azərbaycan Türklüyünün beyinindən və ürəyindən qopan sözlərdir.

Fars toplumu Türklərdən minlər il sonra tarix səhnəsinə girmiş, toplum formasını Türklərdən öyrənmişdir.

Fars toplusu tarix boyu Türk milləti qədər saylı və geniş toplumlu olmamışdır.

Fars toplusu tarixin böyük bölümündə Türk millətinin dövlətçilik sistemi altında yaşamışdır.

Fars milləti tarix boyu öz dil, kültür və varlığını saxlamaq üçün Türk dövlətlərinə söykənmiş və olumlu yanıtlara varmışdı.

Azərbaycan Türkləri bölgə şərtlərinə görə, hər zaman birincilər sırasında olmuş və İran adlı dövlətin yaranmasından öncəki zamanlaradək hər zaman birinci yerlərdə dayanmışdır.

Fars şovinizmi özünün üstün halə gəlməsi üçün heç tarixi müsbət izlər buraxa bilməmişdir. Tərsinə olaraq gün geçərkən özündə olan bütün zəif təməlləri məğlub topluluqlara calamış, onların da kültürəl köklərini sarsıtmağa çalışmışdır. Nəticə etibarilə öz mənliyinə yiyə çıxmaq istəyən çeşidli xalqlarla Farsların arasında dərin düşmənçilik ortamı yaranmışdır. İran mərkəzli siyasətçilərə görə, bu təhlükəli gedişin qarşısını almaq üçün, İran adlanan dövlətin federal sistemə girməsi gərəkir. Yoxsa bu gedişin sonu İran dövlətçiliyinin dağılmasıyla sonuclanacaqdır. Bu düşüncənin özünün təhlükəli olduğu bir cox milli- siyasi araşdırıcıların gözündən qaçmayır. Onlara görə, İran federalizmi öz-özlüyündə Fars mərkəzliyini qoruyub saxlamaq üçün bir duzaqdır. Bu milli-siyasi araşdırıcılar belə deyirlər ki, milli mahiyyətə varmadan siyasi oyun yoluna düşən hər hansı milli qurtuluş hərəkatı hədəfə varmadan çöküşə uğrar və keçmiş qalxışlar kimi yenə də millətin arzularına tərcüman olamaz. Bu qonuyla bağlı, ən başda gələn sorun, Azərbaycanla İran arasında olan Türk-Fars etnik sorunudur. Bu etnik sorunun həlli yolu federal və yaxud bənzər İran-Fars mərkəzli sistemlər deyil. Başqa sözlə İranla Azərbaycan arasında var olan sorunun kökü soykök problemidir. Bu problemin siyasi reformlarla aradan qaldırması mümkün deyildir. Bu sorun yalnız, Azərbaycanla Farsistanın ayrı-ayrı dövlətlərə sahib olmasıyla həll ola bilər. İran panFarsist, panislamist kimlikdir, net bir sözlə, Azərbaycanın dövlətçiliyinə qarşı bir millətüstü əngəldir. Azərbaycan, yaxın keçmişdə Türk soylu sülaləçilik sisteminin gizli zülmünə uğramışdırsa, indi öz soy düşmənləri tərəfindən qoşa millətüstü əngələ tuşlanmış durumdadır. Bu durumun toloranslı və siyasi reformlarla həll olacağına inananlar yalnış yoldadırlar. Bu düşüncəni yürüdənlər açıq-aydın Azərbaycanın millət-dövlət ülkü düşüncəsini, 1945-ci il kimi məhz bir siyasi problem səviyəsinə yendirmək istəyirlər.

Pəhvəli zamanı, irançılıqla, ümmətçılık, iki düşmən ideolojik kimi qarşı-qarşıya dayanmışsa da, bugün bu iki ideolojinin cifləşməsinin sentezindən panFarsislamist kimi anti millətlər məcun ideolojik ortaya gəlmişdir. Demək olar ki, Türk ulusunun çox az bölümünü çıxandan sonra qalanı bölümü özünü müsəlman sayır. Heç şübhəsiz, islam dininin Türklərin içində çox dərin yeri vardır. Türklüyün kültür kimliyində

danılmaz bir yeri olan islam dininin Türklükdən ayırma düşüncəsi olduqca uzaq xolya və yalnız yotopia (utopiya) xeyal olaraq alqılana bilər. İslam Türklərin vicdan və inancına yerləşmiş mənəvi dayaq və ruhsallıq özəllikdir. İstər klasik, istərsə yeni Türkloqların düşüncə zərfində Türkçülüklə islamın qopulmaz izlərini geniş qapsamda görməmək mümkün deyildir. Yusuf Akçuranın adlım Üç Tarz-i Siyaset kitabında deyilir: "Lakin şu da unutulmamalıdır ki, zamanımızda birleşmesi muhtemel Türklerin böyük bir kesimi müslümandır. Bu cihetle, islam dini, büyük Türk milletinin teşekkülünde mühum bir unsur ola bilir. Milliyeti terif etmek isteyen bazıları, dine bir faktur gibi bakmaktadırlar. İslam Türklüyün birleşmesinde şü hizmeti yerine getirebilmek için, son zamanlarda Hırıstıyanlıkta da olduğu gibi, içinde milletlerin doğmasını kabul edecek şekilde deyişmelidir. Bu deyişme ise, hemen hemen mecburidir. Zamanımızın tarihinde görülen umumi cereyan ırklardadır. Dinler, din olmak bakımından, gittikçe siyasi ehemmiyetini, kuvvetlerini kaybediyorlar.

İçtimai olmaktan ziyade şahsileşiyorlar. Cemiyetlerde vicdan serbestliği, din birliğinin yerini alıyor. Dinler, cemiyetlerin ek işleri olmaktan vazgeçerek, kalblerin hadi ve mürşitliğini öhdələnir, ancak halik ile mahluk arasındaki vicdani rabita haline geçiyor. Dolayısıyle dinler ancak ırklarla birleşerek. Irklara yardımcı ve hatta hizmet edici olarak, siyasi ve içtimai ehemmiyetlerini muhafaza edebiliyorlar."1. Rusyada Ortodoksluk, Almaniyada protestanlık, İngilterede Anglikanlik, muhtelif memleketlerde katoliklik." [218] Aydın Abbasov bu qonunu Azərbaycan açısından ələ alaraq yazır: "Türk mədəniyyətinin bütün əlamətlərini daşıyan millətimizin milli ruhu dini ruhla ahəngdar görünsə də, müşahidələrim əsasında deyə bilərəm ki, milli ruh daha çox özünü büruzə verir. Bu milli ruh, Azərbaycanın güneyində də, quzeyində də, eyni mə`nada özünü büruzə verir. Baxmayaraq ki, hər iki tərəfdə, milli, dini, siyasi əlaqələr müxtəlif şəkildə yönətilmişdir."[219] Miladi 8-ci yüzillidən iç-içə girmiş Türklük və islam dini, bugündə həmən ilişgini saxlamışdır. Ancaq İran islam rejiminin şi`ə məzhəb ideolojisilə hakimiyyətə gəlməsi

---

[218] *(Yusuf Akçura,Üç Tarz-i Siyaset, 2. Baskı, TTKB-Ankara. 1987.s34, 35)*
[219] *(Aydın Abbasov, Milli dövlət məfkürəsi və Layiqlik, Bakı.2002.s94.95).*

dinin ruhani dəyərini düşürdü. Bu rejim dinsəl dövlətçilik qurmaqla, İran adlanan dövlət sistemi altında yerləşən millətlərin ulusal kültürlərini dinsəlləşdirməyə başladı. Xalqlara aid olan bütün milli gələnəklər basqıya məruz qaldı. Ancaq rejim teorisiyənləri, bu gedişin böyük boşluqlar yaradacağını düşünərək yarıdan qayıdıb islamla irançılığ tez-antitezi bir qalıbda yerləşdirərək Pan Fars-islam fondamental sentez ortaya qoymağa əl vurdu. Molla rejimi Pəhləvi şovinistlərin bacarmadığını bacardı. Əgər pəhləvi PanFarsist şovinizmi vaxtıyla "Xoda-Şah-Miyhən"[220], "yek zəban, yek mellət"[221] kimi şüarlarla çeşitli məğlub millətləri siyasi və kültür istihaləsinə çəkməyə çalışırdı. PanFars-islam rejim, "Vəlayət-e mütləqeye vəliy-e fəqih",[222] şüarı altında Fars dilini bu toxunulmaz və ilahi!? ayənin mərkəzində yerləşdirdi. PanFars-islam rejim, bu prensip şüar altında devrim etmiş xalqların yolunu kəsərək, İran adlanan ölkəni gərçək insan sallaqxanasına çevirdi. PanFars-islam rejim, özünə məxsus diktaturluqla geçmiş rejimin nə dərəcə şovinist olmasını unutdurdu.

Lakin rejimin bütün alanlı çabalarına rəğmən, başda Azərbaycan olmaqla, İranda yaşayan çox böyük bir milli oyanış ayaq tutmaqdadır. Bu milli ayaqlanma gün geçdikcə dünya miqyasında da tanınmağa başlamış və özgür dövlətlərin yaranmasınadək ayaqda qalma iradəsini sərgiləyir.

## Dövlət və İnsan

İran adlanan coğrafik məkanda insanla dövlət arasında demokratik və qorxudan uzaq ilişgi ola bilərmi, sorununu necə düşünmək olar? Bir çox düşünürə görə, sorunun yolu daha radikal və kəsgin olmalıdır. Beləlerinə görə millət, insanların birligindən yaranan canlı və iradi varlıqdırsa, bu canlı varlığı oluşduran azad insan ruhudur. Demək azad insan bir millətin oluşması üçün təməl şərt sayılarsa, ona nisbət isə, yalnız azad insan toplusu millət sayıla bilər. Bu o deməkdir ki, insan əsir durumda ikən millət və dövlət idrakına yalnız bir subyektiv formda yanaşa bilər. Çünki, yalnız özgür insan iradəsi olan yerdə millət və dövlət

[220] (Tanrı-Şah-Vətən),
[221] (**B**ir dil, bir millət)
[222] (Din əmrinin mütləq ağalığı/hakimiyyəti)

varlığından söz gedə bilər. Kant[223] demişkən: “Azad olmayan insana, insan demək olmaz! Mənə görə, ən qorxunc olay, özlüyümü özgələr əlinə vermək, özümü başqalara təslim etmək və onların istək, həvəs, iradəsinə yem olmaqdır.”

Bu radikal düşüncəyə dayanaraq, insanın ən böyük düşməni, öz içindəki şiddəti və təzaddıdır. Gənəllikdə insan anlamı tək başına ziddiyyətlərin sentezi sayılır. Ancaq bu sentez deyilən nəsnəl nəyinki görüntüsü kimi deyil, həm də gürüntüsünün tərsinə belə çevrilə bilər. İnsan yalnızlıqda, ya tam topluma qapalı olan dərvişdir, yada toplumdan qopmuş olan bir anarşisdir! Bunların heç biri insanlıq ruhuna uyğun olmadığına görə, gənəl kültür ortaya gəlir. Kütlə qarşılıqlı ehtiyaclarına görə, bütün yaşam alanlarını ilişgi meydanına çevirir. Bu ilişgidən doğan kültür, insanlara elə bir mənəvi güç verir ki, artıq onu əldən verməmək üçün canını belə verməyə hazir olurlar. Dedik ki, insan təbi`ətcə yırtıcıdır. Bu təbi`ət, istər-istəməz başqalarını öz altına çəkməyə və təslim etməyə can atır. Ancaq kültür və kültür toplumu da rahat-rahat bu yırtıcılıq qarşısından geri çəkilməz. Çünki, kültür insanın yırtıçı doğuşunu yaradıcı doğuşa çevirmək üçündür. Bu üzdən, insan toplumu böyüdükcə, kültür də böyüyür, köklənir, budaqlanır və yayılır. Toplumun qorucusu olan insan, durmadan öz ehtiras və istəklərilə böyüyür. Birəysəl ölçüdən aşaraq böyük kütlənin ortaq istəyi olan istəklər, zaman sürəcində toplum malı olaraq hətta dünya ölçülərinə yüksəlir.

İnsan biolojik varlıq olaraq bir ömürdən sonra ölür. O, ölüncə bütün dilək və istəkləri də, onunla ölür. Lakin, bu istək və diləklər ölmüş insanın yaşamında nəsnəllik qazanırsa, yaxud ulus və toplum öznəlinə çevrilirsə artıq bir toplum malı kimi özünə kimlik qazanar və bəlirsiz zaman sürəcində yaşayar. Makadoniyalı İskəndər, B.Napolion, V.Lenin, A.Hitler, J.Stalin, kimilər dünyanın ən olay yaradan siyasi liderləri olmuşlar. Onların zamanında böyük insan kütləsi yox olmuş, insan yaradıcılığı məhv edilmişdir. Milyonlarca insanlıq amacı və istəyi

[223] Immanouel Kant: (1724-1804)/Prusiya(Prus)da anadan olmuşdur. Zəmanının ən adlım fəlsəfə, riyaziyyat, fizika bilim adamı olmuşdur. Məntiq və təfəkkür fəlsəfəsinin ilk banilərindəndir.

basılmışdır. Ancaq, adları sadalanmış kişilər də, bəlli istəklərlə meydana ayaq qoymuşdurlar. Onlar öz liderlik güçünü qullanaraq insan yırtıçılığını sərgiləmişdirlər. Onların ortaya qoyduqları ideya özlərindən sonra da yaşadı və yaşamaqdadır. Çünki, onlar diri ikən öz nəsnəllərini ortaya qoymuş və qoyduqları nəsnəlin ülküsünü millət və ya millətin bir bölümündə yaşam fəlsəfəsinə çevirə bilmişdirlər. Bugün onların adları varsa, istəklərilə birlikdə yaşayır. AtaTürk 20-ci yüzilin başlanqıcında, Elçibəy isə, əsrin sonlarında Türkiyə və Azərbaycan Türkləri üçün qurtuluş ideyası ortaya qoydular.

AtaTürk öz zamanında ideyasının gərçəkliyini yaşadı. O, öləndən sonra da Türk millətinin gündəmindən düşmədi. Elçibəy isə, Azərbaycan Türklüyünün yenidən millət olması üçün bütövlük ideyası tezini ortaya qoydu. Sadə bir öyrətmən kimi bu düşüncəni Nəxcivandan, Bakıya və oradan da, Sovet zindanlarına daşıdı. Millət uğruna yaşamını sevə-sevə sunan[224] Elçibəy, millətinin birləşməsini görmədən öldü, amma öz yaşadığı sürəcdə bu ideyanı ulus öznəlinə çevirməsini bacardı. Elçibəy, ölümüylə istək və diləyini özü ilə aparmadı. Onu bir qurtuluş ideyası olaraq millətinə qoydu. Tarix belə doğur və belə də davam edir. İnsan özüylə ulusu arasında ilqar bağlarkən cismən ölməsilə rühən ölməyir. Bu bir millətçilik ülküsüdür. Bu nə klasik idealizmidir, nə matiryalizm. Bu düşüncəyə görə, böyüklüyü bacaran insanlar ölümlərindən sonra da insanların içində yaşayır.

Özgür və bağımsız toplumda yaşayan insanlar, toplumla birlikdə böyüyür və gənəl anlamda yaradıçı insan olurlar. Çünki, basqı və sümürgə məhsulu olmayan insan, bütün yaşam anlarını seçib-seçilibkən yaşayır. Azad insan, bağlı olduğu toplumda sərbəst ortaq olaraq düşünür, düşünərkən yaradıcı rolu oynayır. Yaradıcılığı toplum malı olunca, özüylə toplum arasında bir qopulmaz əxlaq körpüsü salır. Toplum malına çevrilən insan özündən sonra ulus ruhunda yaşayır. Burada toplumlar içindən çıxan qəhrəmanların hallanması deyil, dövlətlə insan arasında olan ilişgi söz qonusu olur. Unutmamalıyıq ki, ulus yolunda savaş qəhrəmanları bir çox zaman əsir və geri qalmış millətlər içindən çıxar. Yoxsa, azad ölkə və bağımsız, çağdaş və ulus-dövlətə yiyələnmiş bir millətin savaş

[224] təqdim edən

qəhrəmanına nə ehtiyacı ola bilər ki!? Belə toplumlarda qəhrəman deyil, gəlişmiş insanlar yetişər. Bir azad japonıyalilə bir əsir Azərbaycanlını misal götürək. Normal halda, japonlu insan, bütün enerjisini ideal yaşamın sınırsızlığına həsr edər. Onun üçün, problem qarşısında olan sınırsız zirvələrə əl tapmaqdır. Japonluya görə, zirvəyə çatmaq yolunun təkcə əngəli gənəl bilgidir, onun üçün kişisəl bilgi ancaq gənəl eytim içində anlam tapar. Onun üçün, kişisəl bilgilənmə ikinci planlı yədək sayılır. Bir japonlu üçün gündəlik yaşamın anlamı, eyitim, öyrətim, yaradıçılıq, əyləncə, idman, çevrəçilik və ailə birliyidir. Bugünkü normalar çərçivəsində, bir Güneylinin bir japon insanına yetişməsi mümkün deyildir. Bəs gərkəç yol nədir? Bir güneyli üçün iki yol var: ya özünü ölməyə vuracaq milli yaşam adına heç düşünməyəcək. Özünü, ailəsini, yaxınlarını Farsçı dalğalara tapşıracaqdır. Qarşıdan gələn hər nəyi qəbul edərək, öncə *eline*, sonra *assimilə* və ən son *manqort* olacaq.

Və ya düşünərək yaşam mücadiləsi verəcək, yaşam uğurunda ölməyi başaracaqdır. Doğal olaraq, bu hər iki durumda, Güneylinin gündəmi joponlunun gündəmilə heç oxşarlığı olmayacaqdır. Birincinin sürəcinin hara getməsini nəzərə alaraq üzərində dayanmağa ehtiyac yoxdur. Ancaq, özünü qurtuluş uğuruna verən Güneylinin ən olumlu və ilqarlı gündəmini soy, dil, tarix, adət-ənənə, kültür və qıssacası əlindən alınan bütün özgürlüklərin geri alınması oluşduracaqdır. O isə, bütün iş alanı, yaşam sahəsi irqçı düşmənə qarşı mücadilə meydanına çevirəcəkdir. Çünkü, ya düşmən sisteminə qarşı doğru xidmət edərək vicdan təri tökəcək vəya, milli nifrətinə və insanlıq vicdanına söykənərək düşməninə xidmət vermək yolundan qaçınacaq və insanlıq zirvəsinə deyil, yalnız insan kimi qəbul olmağa görə mücadilə edəcək. Milli Güneyli üçün düşmən dilli zorunlu dövlət sistemli eyitim, ulusunun qafasını bulandıran gündəlik zəhərdir. Ondan qaçmaq milli savaşdır. Kişisəl eyitim bu zəhərin məlhəmi sayılır. Güneyliyə görə, insanla dövlət arasındaki ilişginin doğal ortamı yoxdur, bu ilişginin yalnız zehinsəl savaş olduğunu demək olar. Japonluya görə, bu ilişgi çox normal bir nəsnəllikdir. Japonlu böyük ideallar peşində, güneyli isə yaşam haqqı qazanma arzusundadır. O da insandır, bu da insan! sizcə Kant radikalizmini içərən nə kimi fəlsəfə

durmaqdadır? Sizcə, bu qıssa qiyaslamadan ortaya çıxan tablonun belə anlamı olarmı?

a) 21-ci əsrin Postmodern insanı.

b) Ortaçağ cəhalətinin əsir insanı.

İnsan öz-özlüyündə hədəf sayılırsa, onun insanlığı ali hədəf sayılmaqdadır. Bu ali və yüksək hədəfə varmaq üçün azadlıq və hür olmaq ön şərt sayılır. Yalnız azad insan yaşamın nə olduğunu duyub, hisslərinə qata bilir.

Yenə "Kant"ın bu cümləsini vurğulamaq istərdim ki, "Sərbət olmayan insan, insan sayılmaz!". Bu sözün toplum içinə daşınmasıyla, insan istər-istəməz belə bir qorxunc odaqla üz-üzə dayanır: "Baxımlı və öz dövləti olmayan əsir bir insan toplusuna, əsla millət deyilməz!" bu anlama görə, yalnız dövləti olan toplumlar millət sayılır. İndi bu millət istər öz bayrağıyla BMT-də söz yiyəsi olan ovuc boyda Malta olsun. İstər Amerika. Azərbaycana gəlincə iki tablo ortaya çıxır: Quzeyi ilə millət, Güney ilə toplum!

# 5. BÖLÜM

## AZƏRBAYCAN ULUS-DÖVLƏTİNİN İLKƏLƏRİNİ YÖNLƏNDİRƏN TƏMƏLLƏR !

### 1- Azərbaycan ilk toplum yüksəlişinin beşiyidir.

Bakıdan 50 km güneyə sarı yerləşən Qobustan mağaraları mədəniləşmiş insan toplusunun yaşam yeri kimi təsbit olunmuş ən əski bölgələrdən biridir. Avrupa, Amerika, Rusiya və ölkəmizin ən tanınmış bilim mərkəzləri tərəfindən incələnmiş bu mağaralar, 12000 ilik ilkin insan toplusunun izi olaraq qəbullanmışdır. Mağaralar üzərində qazılan rəsimlərdən aydıncasına bəli olur ki, bu insanlar ağaclardan gəmi düzətməyi, su üzündə hərəkət edib balıq tutmağı, birlikdə Halay rəqsi oynamağı, heyvandan iş çəkməyi bacarırmışlar. Sözsüz ki, buna bənzər örnəklərin bolluğu, Azərbaycan yaylasının dünyanın ən ilkin toplum mərkəzlərindən olmasını göstərməkdədir. Bu torpaqlarda milyon ildən daha əski təsbit olunan insan yaşamı sürmüş və bilgilərə bəlli olmayan bəşəriyyət izləri buraxmışdır. Qobustan mağaraları burada yaşayan yerli və sakin insanlardan örnəklər ələ verir. "Qobustan yaşayan neolit çağı(yeni daş) insanı silikatdan zərbə vuran alətdən, silis bıcaqlardan, ucu biz daş nizələrdən və qələmə bənzər dəlici əbzarlardan yararlanırmışlar. Həmin dövrüdə insanlar pişirilmiş səxsi qab-qacaqdan istifadə etməyi öyrənmiş və yemək bişirməyi asanlaşdırmışdır. Belə qab-qacaqlar

Təbrizin yaxınlığında olan Firuz Təpədə, Urmu gölünün güney batısında yerləşən Həsənlu kəndində, Xanlar kəndi və Qobustanda tapılmışdır"[225] "Azərbaycanda, insan toplusunun neolit çağından eneolit çağına (Dəmir dövrü) geçməsi öncəki dövrülərə nisbət uzun sürmədi. M.Q. 17-ci minillikdən 7-ci minilliyədək// daş çağında, daha da uyğun daşlar axtarışında olan insan misə əl tapdı. Bu günkü Gədəbəy, Daşkəsən, Qarabağ dağları...Nəxcivan, Mil-Muğan, Kür və Kiçik Qafqaz arası, Təbriz yaxınlığı, Quba, Xaçmaz, Qobustan, Urmu gölünün günbatanı mis və dəmirin qaynaqları idi".[226]

"Azərbaycanda yaranan ilk dövlətlər Manna, Midiya, daha sonralar isə Alban-Aran dövlətləri olmuşdur. Mənbə`lər Midiyada və Aranda 26 qəbilə olduğunu qeyd edirlər. Bu qəbilələr müxtəlif tayfa dillərində danışırmışlar. Ən qədim dövrülərdən başlayaraq Azərbaycan ərazısında Türk dilində danışan tayfa- qəbilələr aparıcı qüvvəyə çevrilmişdir. 3-5 əsrdə isə Türk tayfalarının Azərbaycan ərazisinə kütləvi axınları burada get-gedə Türk tayfalarının Azərbaycana gəlişi sonralar da davam etmiş, 10-11-ci əsrlərdə isə xüsüsi ilə güclənmişdir. Bunun nəticəsində yerli tayfa dilləri əhəmiyyətini itirmiş, Türk dili isə ümumi danışıq dili kimi ölkənin hər yerində geniş şəkildə işlənməyə başlamışdır. Azərbaycan Türklərinin dili indi də, o vaxtlarda Türk dilinin oğuz qurupuna daxil olan, qıpçaq və xəzər dillərinin hesabına zənginləşən bir dil kimi tanınmışdır."[227]

Bir çox dilçi və tarixçi bilginlərə görə, Azərbaycan Hurri mədəniyyətinin və Quti Türk devlətinin kəsintisiz uzantısıdır. Miladdan öncə 3-cü min illiklərə dayanaraq böyük Urmu gülü çevrəsində, genişliyi və öncüllügü ilə tanınan Hurri mədəniyyəti, bölgənin Babil, Ur kimi mədəniyyət mərkəzləri ilə yarışan əndər güclərdən olmuşdur. Göründüyü kimi Urmu bir Türk mərkəzi olaraq ən azından 6-min illik dövlət mərkəzi olmuşdur. Bu baxımdan ***Urmu*** əski Azərbaycan torpaqlarının dövlətçilik gələnəyini yaşadan və Türk kültürünü yüksəldən BAŞKƏND və

---

225 "*(Azərbaycan tarixi, farsca tərcümə,1-ci cild, AMEA.tarix bölməsi.s12*)

226 *(Azərbaycan tarixi, fars ca tərcümə, 1-ci cild, AMEA.tarix bölməsi.s13-14)*

227 *(Azərbaycan Ədəbiyyatı tarixi. Əlyar Səfərli-Xəlil Yüsufli, əski ilfbaya köçürmə.Rastan yayını,1997 Tehran.s87,88)*

ANABEŞİK olmuşdur. Elə bu gərçəyə dayanaraq Aratta,[228] Hurri kimi əski Azərbaycan Türk mədəniyyətinin beşigi olan böyük Urmunu Azərbaycanın tarixsəl başkəndi demək heç də yersiz deyil.

## 2- Azərbaycan Ural-Altay, Xəzər və Urmu kültr özəlliğini daşıyan, Türk varlığının qopulmazıdır.

Bütün tarixsəl qaynaqlara görə, M .Ö. 5 və 6-ci minillərdən başlayan Sumer, Elam, Aratta, Orarto kimi Ortasiyadan Önasiya və Ortadoğuya axınların Xəzər-Kəngər[229] arasında yerləşən bölgələrdə böyük Türk dilli toplumların yaranmasına, genişlənməsinə və yayılmasına nədən olmuşdur. Zaman-zaman dildə, yaşamda, törədə, davranışda, inancda və dində birləşən bu ellər bu günkü Azərbaycan Türklüyünü oluşdurmuşdur. Hunlardan [230] sonra GöyTürklərin [231] daha geniş və qapsamlı imperatorluğu – Batı və Doğu GöyTürk imperatorluqları – sistemi əsasında bütün Ortaasiyanı, Önasiyanı və Xəzər hövzəsini öz hakimiyyətləri altına alırlar. Batı imperatur İstəmixan 571-də Azərbaycanın quzey bölgələrini öz kontroluna keçirdi. Böyük el və tayfalardan yaranan bu güclü Türk imperatoluğunun mərkəzində 24 ellik Oğuz boyu dayanırdılar. Elə bu zamanlardan başlayaraq, çeşitli Türk ellərinin, özəlliklə Oğuzların bəzi el birləşmələri və oymaqlarının daha yayğın şəkildə Ortasiyadan Xəzər ardına, oradan isə güneyə və batıya köçmələri genişlənmişdir. Onlar, öz gəlişlərilə yerli Türklərin kültürüylə qaynaşarkən bugünkü Azərbaycan Türk kültürünün əsas təməlini atmış

[228] (Aratta mədəniyəti Urmudan başqa, Təbriz, Nəxcivan, Göycə, Van, Ağrı, Süleymaniyə, Kərkük və Musulu v.b. torpaqları da içinə alırdı.)

[229] (Qaynaqlara görə, Sumerlər özlərini Kəngər adlandırardılar. Çox gümanki, Sumer sözü ilk kəz, sami dilli xalqlar sarından işlənilmiş və bugünədək çəkilmişdir. Bilməyi yersiz olmaz ki, Sumerlər rus qaynaqlarında Şumer adlanmış, Türkçü ruhani Dr. Zakiri isə onları Çümer, yəni çamurdan ilk ev dikənlər adlandırmışdır. Bu gün, istər Quzeydə, istərsə də, Güneydə Kəngər sözü el adıyla yanaşı yer anı da daşıyır. Örnək olaraq, Savalanın güney yaxasında yerləşən Xiyavın (Mişginşəhər) həndəvər kəndlərindən biri Kəngərlu kəndidir. Başqa örnək isə, Qaradağın ən adlım və böyük elinə bağlanan 10 oymaqdan biri isə Kəngərlu oymağıdır.)

[230] M.Ö. 400- M.S. 557

[231] 557-744

oldular. GöyTürklərin dövlət dini sayılan Göytanrıçılıq geniş şəkildə Türk ellərinin mərkəz inancına çevrildi. Bu din ərəblərin hücümu ilə yerini İslama verdi. Sonralar göründüyü kimi, Oğuz Elinə bağlı olan Qacar və Avşarlar bugünkü İran adlanan yerdə Türk el (sülalə) dövlətləri qururlar. Gənəllilkə Oğuz ellərinin çeşidli və əlvan yaşam gələnəkləri. adət-ənənələli, yerli Türklərin varlıq fəlsəfəsilə bir araya gəlincə, geniş Xəzər, Urmu-Göycə-Van gölləri həndəvərində ki xalqlara bir özəllik vermiş oldu. Bu tarixsəl verim isə, Azərbaycan Türklərin oğuz kültürlü yaşam fəlsəfəsini ortaya qoydu.

## 3- Azərbaycan Türk millətidir.

Azərbaycan Türk Milləti, tarix boyu çeşidli adlarla öz varlığını göstərmişdir. Tarixin fərqli çağlarında Azərbaycan Türklərini, Türklər, Buntürlər, [232] Atropatenlər, Tatarlar, Oğuz Türkləri, Azərbaycanlılar, Azərbicanlılar, Azərbayqanlılar, Azərilər, Sevit Azərbaycanlıları, İran Azərbaycanlıları və Azərbaycan Türkləri yazmış və tanıtdırmışdırlar. Bəlkə də dünyada bu qədər çeşidli səslənən ikinci bir ölkə adı olmasın. Bu adlar hər hansı niyyətlə qullansalar belə, Azərbaycanın tarixsəl bir varlıq olduğunu isbatlamaqdadır. Azərbaycan Türk milləti deyimində bir bütövləşmiş deviz nəzərə çatmaqdadır. Millət vəya ulus bu tərkibin əsas ifadəsi olmaqla yanaşı həm də, çağdaşlıq termininin göstərgəsidir. Millətlə millətçilik eyni zamanda bir nəsnəllə öznəlin qarşılığlı ilişgisini ifadə etməkdədir. Milliyyət bir ortaq varlığın sınırlı və özəl incilərinin toplusudur. Açıq anlamla, milliyyət bir topluma və ya toplumdaki fərdə aid dəyişməz bir tarixsəl varlığın özülü və çövhərinin ruhudur. ***“Mən*** ***milliyətimi sevirəm! Çünkü onu sevmək üçün əlimdə olduqca səbəbim var! O, mənim gizli mənliyimə aydın kimlik verir.***

*“Milliyyətim, mənim mənliyimə, tək başıma qazana bilməyəcəyim kimliyimə mənlik qazandırır. Mənə dil, soykök, tarix, vətən, gələnək və birgə toplum izlərini oluşduran ulusal vicdan verir. Mənə ulus kimliyi verən, mənə ülvi çəki-düzən, ulu bir mənəviyyət verən, mənə keçmişlərdən*

[232] Göktürklər

*uzanan bugünü və yarını qucaqlamaq gücü bağışlayan, yalnız mənim milliyyətimdir. Mən, bunları qazanmaq üçün bunlara sevgi, özveri verməyi bacarmalıyam. Oysə, özül mənimi özümdən üstün tutmalıyam, sevgililərimin içində mum kimi əriməyi istəməliyəm. Mən milliyətimi sevmək üçün və ona torpaq olmaq üçün yarandım! Deməyi bacara bilsəm, onda insan olmaq haqlarımın uğrunda millət hükmünü qazanmışam demək! Belə olarsa, artıq yaşam uğrunda ölmək üçün çoxlu səbəbim var! Lakin, tarix boyu yiyələndiyim hər şeyi yaşatmaq üçün, ULUS olmağım gərəkir. Mən bir TÜRKƏM, torpağım isə AZƏRBAYCAN! Oysa 50 milyonluq "Azərbaycan Türk Milləti" olmaq üçün tarixin, bugünün və yarının bütün nədənləri əlimdə!"*

M. Ə. Rəsulzadə sözüylə desək: "Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik (müstəqər) bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan dinamik (fəal) bir şəklidir" Azərbaycanın bir etgin torpaq olması, dünyanın ən zəngin yeraltı və yerüstü yaşam qaynaqlarına malik olması kimsədə şübhə doğurmayacaq qədər aydındır. Azərbaycanın, olduqca zəngin torpaqları, suyu, havası, coğrafi baxımdan dünyanın ən stratejik və patlağa əlverişli bölgəsində yerləşməsi istər-istəməz bu ölkə və millət üçün ağır faciələri ərməğan gətirmişdir. Əlbətdə ki, bu durum yalnız Azərbaycana görə deyil, bütün ölkələrə aiddir. Sadə baxışla, Ortadoğuda və Avrasiyada ya gərək güclü olub etgiləndirəsən, ya dünya güclərinin bu yarış nöqtəsində etgidə qalaraq yem olmaq ən doğal alınyazısıdır. Bu üzdən yaşamaq üçün, Azərbaycanın güclü olması labuddur. Parçalnmış Azərbaycanın durumu parçalanmış filə bənzər. Var olan durumda, bu böyük, lakin dağılmış toplumun bütöv ruhlu, canlı və dinamik varlığa dönüşməsi gərəkir. Bu ölkədə Türk etnikindən başqa, bir çox etniklər də yaşamaqdadırlar. Təbi ki, sayda az olan etniklərlə sayda çox və güçdə aparıcı olan Türklərin heç ayrıntılığı olmamalıdır. Bu ölkədə yaşayan hər etnik qurup böyümək və öz mədəniyyəti ilə dinc yaşamağa haqlıdır. Bü üzdən, böyümək üçün, birlikdə yaşamaq və qarşılıqlı yaşatmaq uğrunda bir yumruq olmaqdan başqa yol yoxdur. Azərbaycanda, xalq anlayışı bu torpağın üzərində yaşayan, etnikindən, dinindən asılı olmayaraq bütün fərd və toplumların birgəliyidir. Sözsüz ki, Azərbaycan Türkləri bu müzayikliyin hardasa %90-dan çoxunu oluşdurduğu üçün daha

artıq özveri və canfişanlıq ortaya qoymalı, tarixdə olduğu kimi, daha çox mücadilə verməlidir. Millətin iradəsi, ayaqda qalması və canla-başla ulusal qurtuluş savaşa yuruməsi kəsinliklə ən üstün düzeydə ulusal kimlik doğasıla bağlıdır. Bu baxımdan 50 milyonluq Azərbaycanlı Türk üçün milliyyət termini bir qeyri iradi mütləqdirsə, millət olma o milliyətin ülkü iradəsinin təcəllisi olmalıdır. Yalnız belə olan halda, Azərbaycan xalqı yarana biləcəkdir. Yuxarı sıralarda da qeyd edildiyi kimi, Azərbaycanda mütəşəkkil toplumun oluşmasının təməlində Türklük dayanmaqdadır. Hər hansı ulus kimin, Azərbaycan da, öz soykökündən uzaqlaşan zaman hərəkətdən dayanmış, asanlıqla hər hansı olumsuz olay qarşısında yenilməyə sürüklənmişdir. Əksinə, öz kökünə dayanan zaman, heç bir militan güc qarşısında yalqız qalmamışdır. Örnəyim, M.Q. 4-cü yüzillikdə Makedonyalı İskəndərin Azərbaycanlılarla fərqılı və hətta saygılı davranışı idi. O, Azərbaycanın bütünlüyündə eyni iğidliyi və eyni dirənişi görüncə, bu millətinən daha sakin və yumuşaq üzləşmənyi məsləhət görərək, istər Arazdan aşağı Atropatenlə, istər Quzeydə Bun Türklərlə dost olmağa üstünlük vermişdir. Bu haqda, həm M.Kaşğarlının Lüğatül-Türk divanında və həm qaynaq tarix kitablarda geniş bilgilər vardır. Nizami Gəncəvi 12-ci əsrdə qələmə aldığı "İskəndərnamə" dastanında, onun Azərbaycanda olduğunu və orada uzun sürə qaldığını təsvirə çəkərək Azərbaycanın tam bir Türk otraq yeri olduğunu yazmışdır. Nizami uzun İskəndərnamə əsərinin bir güşəsində İskəndərin Çin zəfərindən Bərdə şəhərinə qayıdıb və oranın gözəl təbiyətində dincəlmək istədiyini yazır. Lakin, İskəndər Bərdəni işğal olmuş bulur. İskəndər, Azərbaycan Türklərilə dərin dostluğuna görə, Bərdə başçıları olan Qara xan və Qur xanla birlikdə Bərdənin qurtuluşuna qalxır. Nizami, Bərdə savaşçılarını belə təsvir edir:

...

*"Əlinə yay alsa nişançı Türklər,*
*Atdığı hər oxla bir ordu enər..."*
*"Göyləri sarsıdan təbil və boru,*
*Yerlərin qarnina sarırdı buru.*
*Zorlu Türk borusu etdikcə şiddət,*
*Türklərin qoluna gəlirdi qüvvət.*
*Nizədən qamışlıq olmuş yer üzü*

*Dağ çökür çuxura yedikcə gürzü.*
*Türklərin ocuyla nizə ucalır,*
*Düşmən öz qanıyla dəstamaz alır"*[233]

**4- "Böyük Azərbaycan Yaylası" bitişik, bütöv Azərbaycan ölkəsidir.**

Azərbaycanın şəhid oğlu, Dr. Zehtabı təsdiq edir ki: "Qutti-Lullubi xalqları 2500-3000 il miladdan qabaq bu günkü Azərbaycan və Həmədan torpaqlarında yaşamış, tədriclə Manna hükümətinin əsasını qurmuşlar və daha sonra Mad hükumətini yaratmışlar. Deməк, Mad hükuməti və mədəniyyətinin əsas özəyini təşkil etmiş Manna hükuməti və Lullubi-Qutti xalqlarının Ariyalarla heç bir əlaqə və ilgisi yoxdur. Ariyalılar, bu fəlata qədəm qoymadan təqribən 1500-2000 il əvvəl Qutti-Lullubi xalqları Urmu gölünün cənub və şərq tərəflərində, bu günkü Əsədabad, Həmədan, Qəzvin, Zəncan əraziləri və ondan qərbdə yaşamış və hətta Quttilər 91 il Babildə hökümət də etmişlər. Demək, Manna-Mideya xalqlarının Ariyalı və dillərinin Hind-avrupalı olması qeyri mümkündüur.*"* [234]

Wikipediya-Açıq Ensiklopediya, İnternet tarix kadeqoriyasında isə deyilir: "Lullubi- tarixi Azərbaycan ərazisində mövcud olmuş ilkin etno-siyasi birliklərdən biridir. Mezopotomiya çarlarının Lullubilər haqqında verdiyi məlumatlar 1500 illik böyük bir dövrü əhatə edir. Onlar haqqında ilk məlumatlar M.Ö. XXIII-əsrə aiddir. Lullubilər quttilərin yaşadıqları ərazidən cənub və cənub qərb səmtində, Urmiya gölü yaxınlığında yaşayırdılar. Qədim Babil sənədlərində bildirilir ki, Lullubilərdə çoxlu çarlar mövcuddur. Bu isə şübhəsiz ki, tayfa birliyində mövcud olan tayfa

---

[233] *Gəncəvi Nizami. İskəndərmanə.Türkcə. Bakı. s.271.*
*Cəmaləddin İlyas ibn Yusif Nizami Gencəvi, 1141-ci ildə Gencə şəhərində doğulmuş, elə öz doğma yurdunda da 1209-cu ildə dünyasını dəyişmişdir. Sırrlar Xəzinəsi,Yedi Güzel, Leyla və Məcnun , Xüsröv və Şirin, İskəndərnamə, Şərəfnamə, İqbalbanə. Ondan günümüzə qalan əsərlərdir.*

[234] *(M.T.Zehtabi. İran Türklərinin Əski Tarixi,Əxtər yayımı.Təbriz, 1999.s 702,703)*

başçılarına işarədir. Lullubi tayfaları ilə bağlı mənbələrdən məlum olur ki, onlar M.Ö. XXI-əsrdə Şumer və Akkaddan asılı halda olublar.[235]

Göründüyü kimi tarixdən gələn bir Azərbaycan varlığı göz qabağındadır. Bu tarixsəl varlıq Hind-avrupalı qəbilələr olmadan çox ərkən tarix üzərinə çıxmış, əski çağın ən etgin imperatorluqlarına imza atmış, zaman-zaman Əkkədlər və Sumerlər/Kəngərlər/ [236] kimi böyük dövlətlərlə belə savaşa girmişdir. Onlar –Quttilər-Lullibilər, öz torpaqlarından daha uzaq olan Babili [237] və Kəngərlilərin (Sumerlər) hükum sürdüyü həndəvəri öz təsiri altına alaraq güclərini göstərmişlər. Azərbaycan tarixsəl ərazisinin coğrafi alanı yalnız bununla deyil, böyük həndəvəri tutmaqdadır. Azərbaycanın doğal alanına gəlincə bütöv, ayrılmaz və bitişik doğal bir tablo kimi özünü göstərir.

Bu tablo tarix boyu dərələrində, yaylaqlarında, düzlərində və su yaxalarında Quttiləri, Lullubiləri, Arattaları, Sakaları, Qamərləri, [238] Xəzərləri, Albanları, Atropatenleri və saya gəlməz el və soy birləşmələrini yaşatmış, avuc içinə bənzər özəl təbiətli, sıradağlarla məhsur olmuş “Azərbaycan Yaylası”dır. Azərbaycan yaylası boyca, Qafqaz dağlarından Zagros dağlarına və Süngür həndəvərinə dək, ənlikcə, Xəzərin Ənzəlisindən Məndəli və Kərkükə dək çəkilən bir bütöv yayladır. Önasiya hündürlüyünün doğal ardı və özəlliyi ilə ölçülən bitişik bölgədir. Bu bölgədə var olan planetin uca dagları, geniş dərələrin yaranmasına nədən olmuşdur. Dörd fəsil mövsüm, bol yağmur və böyük çayların axarlığı bu yaylanı doğanın ən əndər məkanlarından biri yapmışdır. Elə məhz buna görə, ən əski çağlardan üzü bəri batıdan, doğudan, güneydən və quzeydən

---

[235] *(Wikipediya-Açıq Ensiklopediya, İnternet tarix kadeqorisi)*

[236] *(Bugün ərəblər tərəfindən Bəsrə körfəzi, farslar sarından isə, fars körfəzi adlanan körfəz, əslində bəşəriyyətin ilk yüksək toplum kültürünü quran Sumerlərin mərkəzidir. Sumerlərin özlərini Kəngərli adlandırdıqları fakta dayanaraq adı çəkilən körfəzin doğma adı Kəngər Körfəzi olmalıdır. Yuxarı bölmələrdə də qeyd olunduğu kimi, Kəngərlu tayfaları və hətta ərazi və abadanlıqları Azərbaycan, Anadolu və Ortasiyada belə, bol-bol gözə çarpmaqdadır. Qeyd etmək gərəkir ki, Sumer vəya Şümer qonşu xalqlar tərəfindən 5000 il milladdan öncə Orta asiyadan ikiçayarasına axınmış Kəngərlərə verilən addır.)*

[237] Mesepotomiya

[238] Kəmirləri

insan topluları buraya axın etmiş və bu laylanın zəngin mədəniyyətini qurmaqda ortaq olmuşdurlar. Bu yaylada, ilk insan varlıqlarından biri, ilk köhül evləri, ilk toplum əxlaqçılığı yaranmışdır. Tarix öncəsindən bu geniş yaylada yapışımlı[239] dilli toplumlar yaşamış, hirogilif cizgisini yaratmış, Elam, Kassi, lullubi, Qutti, Aratta, Manna, Xəzər, Qamər, İskit, Mediya kimi milad öncəsi mədəniyyətlərə yaşam vermişdir. Bu yayla çeşidli qəbilələrin bir araya gəlməsinə əl verişli şərayit yaratmışdır. Ayrı-ayrı qəbilələrin qaynaşıb, soykök birgəliyi oluşdurmağa nədən olmuş, insanların bir-birilə yaxın olmasına, anlaşılan ortaq dil yaratmasına və bənzər yaşam varlığının oluşumuna yol açmışdır. Bu sürəcin yaranmasında insanların sosial ehtiyacları ilkin rol oynamış, onların ruhsəl və qizli bilicinin[240] yaranmasına təkan vermişdir. Türk ellərinin zaman-zaman birləşməsi də məhz bu sürəcdən başlayaraq günümüzə dayanmışdır. Başqa sözlə desək, bu bölgə, bir bütöv olaraq Güney Qafqazdan Zagros dağlarınadək çəkilən insan topluluqlarının şüuraltı doğasının gəlişməsinin ana məkanı olmuş və bu gün də Azərbaycan yaylası adlanması olduqca normal və doğaldır. Sözsüz ki, bu coğra-grafik araşdırmanın dərininə varmaqla sözdə İran fəlatı adlandırılan iddianın yalan və qondarmalığı da, üzə şıxacaqdır. Təbiki, bu qonuda uzman soydaşların dərin araşdırmaları ümid edilir.

## 5- Gülüstan-Türkmənçay anlaşmaları, Rusiya Azərbaycan savaşlarının sonucudur və 1925-də qurulan Farsçı İran dövlətinə heç dəxli yoxdur!

Əgər 15-yüzillikdə ingiltərənin parlaması və az müddət içində dünya imperatorluğuna çevrilməsini evrənsəl miqyasda böyük bir dönüş nüqtəsi hesab edərsək. Romanov tayfasının da, 1613-cü ildə Rusiyanın başına gəlməsinin də Avrasiya, Orta asiya, Orta doğu və Doğu avrupada buraxdığı izləri unutmaq olmaz. Bu tarixdən bəri, ruslar Avrupanı sürəkli

[239] İltisaqi dilli
[240] şüuraltı

izlir, hər fürsətdən istifadə edərək özlərini o bölgəyə yaxınlaşdırmaq istəyirdilər.

Romanovlar hakimiyyəti, Rusiyada feodal sistemini geridə qoymaq uğrunda böyük addımlar atsa da, bənzər bati dövlətlərilə müqayisədə daha çox geridə qalmışdır. Ruslar qonşu dövlət və parçalanmağa sürüklənməkdə olan Türk topluluqlarına üstünlük qazanan halda, özüdə geniş ərazi problemi yaşayırdı. Ruslar üçün, geniş ərazidən daha önəmlisi dəniz qapıları idi. Onlar üçün dünyaya açılış yalnız dəniz yolu sayılırdı. İlin bütün mövsümündə sınmaz buzlarla qapalı qalan, rusları dünyaya çatdırmaq üçün əlverişli deyildir. Bu üzdən ruslar açıq sulara açılan qonşu torpaqları tutmaq üçün hər gün ordu gücünü genişləndirirdilər. Sözsüz ki, bölgənin ən gəlişmiş ordusuna yiylənən Romanovlar daha da geniş torpaqlara yiyələnməyi və sümürgə siyasəti yürütməyi çox ehtirasla güdürdülər. Rusiya çarlığının 17-ci əsrin sonlarından etibarən böyüməsinin və geniş ərazilərin tutmasının ardından Türküstanın bütünü işğal olundu. Bu yürümədən sonra, Qafqazlara enmək yeni impratorluğun stratejik yönü oldu. Rusiya Avrupaya yaxınlaşmaq yolunda Ukrayni Polşanın tərkibindən çıxararaq öz hakimiyyətinə tabe etdi. Rusların daha böyüməsinə təkan vermiş olan bu yeni qələbə, Pieterin iş başına gəlməsilə daha böyük amaca olaşmağı hədəfə aldı. Pieterin liderlik kapasitəsi rusların millətləşməsinə və vahid bir güc olmasına da nədən oldu. O, isti sulara əl tapma stratejisini həyata keçirmək üçün, Qaradəniz yoluyla boğaza, Kəngər körfəzi yoluyla Hind okeanına, Baltika dəhlizilə Quzey dənizə yol açmasını gərəkli hesab edirdi. Rus qoşunu, imperatorun hədəfləri doğruntusunda, öncə 1700- ilində Finlandı və Baltikanı ələ keçirmək və Quzey dənizə, oradan isə Atlantik okeanına uzanmağa nail oldu. Pieter bu qazancları əldə etmək üçün Quzey ağası olan İsveç dövləti ilə savaşa girdi. Baltik savaşları 21 il uzun sürdü. Rusiya 1721-ci ildə İsveçi Nistat adlı anlaşmayla məğlub etdi. İsveçin təsərrüfatı sayılan Baltika dənizi, Finland, Estoniya, Latviya və Litva rus dövlətinin əlinə geçdi. Baltika və Quzeyə açılış, rusları bölgənin ən böyük gücünə çevirdi. 16-cı əsrdən başlayaraq Osmanlı imperatorluğunun Səfəvilər dövləti ilə Sünni-Şiə çarpışması bitmək bilmirdi. 1514-cü ildəki Çaldıran savaşı iki Türk dövlətini bir-birinə qarşı qanlı düşmənə

çevirmişdi. (Məzhəb cəhaləti, Osmanlı və Səfəvi Türk dövlətlərini qarşılıqlı yardıma ehtiyacları olan bir zamanda, qatı düşmənlərə çevirmişdir. Osmanlı Sultan Səlim, Çaldıran qələbəsindən 10-il sonra yenə Səfəvilərin başkəndi olan Təbrizə tərəf yürüdü. Çaldıranla başlayan iki Türk dövlətin düşmənçiliyi 1801-dək, 20 kəz Təbrizin, Urmunun və gənəlliklə Azərbaycanın Osmanlı qoşunları tərəfindən işğal olunmasına, Azərbaycanın siyasi mərkəziyyətdən düşməsinə, Səfəvi Türk dövlət sisteminin içinə Fars təfəkkürün yerimәsinә, 400-illik Osmanlı-Səfəvi, Avşar, [241] Qacar düşmənçiliyinə, rusların bu fürsətdən ən geniş yararlanmalarına və nəhayət Azərbaycanın ruslar və Farslar tərəfindən bölünməsinə, habelə Osmanlı imperatorluğunun darmadağın olmasına gətirib çıxartdı.)

18-ci əsrin girişilə, ruslar daha da gərnəşmə siyasəti irəli sürdülər. Bu illərdə Azərbaycan bütünlüklə müdafiəsiz qalmışdır. 1722-ci il rus ordusu Qafqazlara girərək Dərbəndi, Dağistanı işğal edə-edə Bakını quşatdı. Bakı 1723-cü ildə rusların ordusuna təslim oldu. Digər tərəfdən isə, Osmanlılar həmin il Azərbaycanın mərkəz və güney bölgələrini tutdu. Təbriz, İrəvan, Nəxcivan, Xoy, Marağa, Akbatan,[242] Kirmanşah Osmanlı Yeniçeriləri əlinə geçdi. Bu zamanlarda Səfəvi şahı Təhmasb tərəfindən ruslar və osmanlılarla iki ayrı anlaşma imzalandı. Bu iki anlaşmaya görə, Təbriz, Nəxcivan, Bakı, Şirvan, Dərbənd, Xoy, Urmu və... ya rusların və ya osmanlıların əlindeydi. Nadir Avşarın səhnəyə gəlməsilə durum biraz da olsa dəyişməyə başladı. Nadir Qulunun misilsiz qamanderliyi biraz da olsun bölgəni rahatladı. O öncə dövlət sistemində öz zamanına uyğun bir skolarizm tipi sağladı. Şiəçilik dövlət sistemini ləğv edərkən Osmanlı dövlətin həssaslığına son qoydu. Azərbaycana və ortaq bölgələrə diqqətini artırmaqla Rus və Osmanlı ordusunu Azərbaycandan geri çəkdirdi. Bölgənin birazda olsun dincəlməsi sağlandı. Lakin, çəkişmələr nəticəsində Azərbaycan bütünlüklə aclıq, fəlakət, işsizlik, iztirab və darma-dağın olmuşdur. 1768-də ruslar çoxdan umduqları böyük qələbəni qazandılar, onlar Krim xanlığında Türk osmanlılarla üz-üzə dayandılar. Dünyada Krim savaşına adlımlaşan 6-illik savaşda Osmanlı qoşunu ağır yenilgiyə

[241] Afşar, Əfşar
[242] Aybatan, Həmədan

uğradı. “Küçük kanarçı” anlaşmasına boyun əyən osmanlı ordusu rus ordusu qarşısında birinci böyük yenilgini təcrübə etdi. Bu anlaşmaya görə, ruslar Qaradənizə əl tapdılar. Bu dənizin üzü rus hərbi gəmilərinə açılarkən Avrupa ruslardan qorxmağa başladı. 1796-ci ildə 40,000 nəfərlik rus qoşunu Dağistan ucaliqlarından geçərək yol üstündəki ayrı-ayrı Azərbaycan xanlıqlarını özünə tabe edərək Bakıya girmək istədi. Bakı xanı rus ordusu qarşısında son damla qanınadək savaşdı. Rus ordusu Bakını qana bulaşdırdı. Hüseynqulu Xanı öldürərək Bakı xanlığını işğal etdi. Oradan güneyə sarı hərəkət edən qoşun Muğanda qış ordusu qurdu. Rus çarı Katerinin ölməsilə ordu geri çəkildi. 1796-da Ağa Məhəmməd Xan Qacar, dağınıq və ruslara tabe olan xanları birləşdirib və ya aradan qaldırmaq üçün Arazı keçib Şuşanı İbrahim Xəlil Xandan boşaltdı. Böyük əzmilə rusların savaşına hazırlanan Ağa Məhəmməd Xan öz qorucuları tərəfindən öldürüldü.

Bu hadisədən sonra, artıq rusların qarşısını almaq heç də rahat olmadı. Ruslar Azərbaycanın bütünlüyünü istəyirdilər. Ruslar bölgənin mütləq gücünə çevrilmişdirlər. 1803-ci ildən başlayaraq Qacar ordusu Arazın gah aşağısında, gah da yuxarısında ordu quraraq xanlıqlarla çarpışmağa məhküm olmuşdu. Bölgə gənəlliklə qışlar dincəlməklə, yaylar isə savaşla baş edirdi. Çoxdan gözlənilən böyük savaş nəhayət 1813-cü ildə başladı. Qacar qoşunları ilə rus qoşunları, Aslanduz bölgəsində savaşa girdilər. Eyn zamanda Rus-Fransa savaşı da başqa bir cəbhədə şiddətlə sürürdü. Abbas Mizanın bütün qorxmazlığına və savaş bilgisinə baxmayaraq ruslar savaşı qazandılar. Gülüstan Anlaşması ilə Azərbaycanın quzey bölgələrinin, Gürcüstanın və Dağıstanın əldən getməsi, Azərbaycan və Qacar Türkləri üçün çox böyük yenilgi oldu. Azərbaycan rəsmi şəkildə birinci aşama bölünməsinə uğradı. 1825-ci il ikinci və sonuncu darbayla Azərbaycan bütünlükdə parçalandı. Türkmənçay Anlaşmasıyla Azərbaycan faciə yoluna duşdu. Arazdan yuxarı ruslara verildi, qalanı isə, rusların ağalığına boyun əymək gərəkçəsilə, tavandan düşmüş, gündən-günə iradəsini Farslığa təslim etməkdə olan Qacar hakimiyyətinə verildi.

**1828-02-10 da Türkmənçay anlaşmasıya bağlı bir neçə qeyd:**

a) Türk Qacar Məmalike Məhrusə Dövlətilə Rus İmperatorluğun arasında bağlanan anlaşmaya görə, yalnız Azərbaycanın torpaqları işğal olundu. Azərbaycanın yeraltı və yerüsdü sərvəti fatih rusların savaş qəniməti kimi qullanıldı. Qaradağın bütün mahalları və dağları rus mədənçilərinə tapşırıldı.

b) 1803-dən başlayan, 1828-də bitən savaşlarda Türk ordusu tərəfindən ölənlərin ən az %60-ı Azərbaycan Türkləri, %30-ı isə Xurasan, Əfşar, Xələc və Qaşqay soydaşlar olmuşdur. Yalnız qalan yüzdə-on, başqa kökənli xalqlardan oluşmuşdur.

c) Çaldıran savaşının uzun vədəli sonucu Gülüstan və Türkmənçay Anlaşmaları olduğu halda, Türkmənçay Anlaşması da, Quzeyin Quzeydə, Güneyin isə Güneydə param-parça olmasına yol açdı.

d) Bölgəmizə taun kimi düşən erməni dövlətçiliyi məhz 1828-dən sonra ruslar əlilə üz verdi. Həmin ildən başlayaraq rus işğalında olan Azərbaycan torpaqları üzərində Ermənistan dövləti yaranmağa başladı.

e) 1828-dən sonra Türk Qacar dövlətilə Azərbaycan Türklüyü arası açıldı. Heç zaman normal ulus-dövlət quruluşu yaranmayan Azərbaycanda, dövlətlə millətin arası daha da aralanmağa başladı. Bu gedişin doğal sonucu isə, 1900-dən sonra Güneylə Qacar dövləti arasında olan gərgin düşmənçilik oldu.

f) Güneylə-Quzey arasının kəsilməsi ilə, Quzey sürətlə ruslaşmağa, Güney isə, Farslaşmağa uğradı. Çeşidli asimila siyasətinə uğrayan Azərbaycan Türklərinin ulusal kimliyi, bütün özəlliklərinə rəğmən psik, ruh, taban və kimlik böhranına girdi.

g) Tarix boyu bir turlu millətləşmə sürəcinə girməkdə zorluq yaşayan Azərbaycan Türklüyünün durumu, yox olma siqnalları verməyə başladı.

h) 1925-ci ildə Rusya və İngiltərə əlilə Türk Qacar dövlətçiliyinin aradan qaldırılmasıyla faşist Fars şovinizminin iş başına gəlməsində Türkmənçay yenilgisinin böyük rolu olmuşdur. Çünkü, millətinin güvəncini əldən vermiş, xəzinəsi təmamilə boşalmış və dış ölkələrə saysız borc içində olan bir dövlətin yaşaması olumsuzdur. Türkmənçay anlaşması Qacarların bu yola düşməsinin başlanqıcı olmuşdur.

i) Bütün bu yenilgilərə rəğmən və bütün Qacar sülaləsinin öz doğma elindən və kökündən uzaq düşməsi, öz ana dil və kültürünə dal çevirməsinə, habelə Türk ulusun darma-dağın etməsinə baxmayaraq, Qacar varlığı tarixsəl, qanunsal və hüquqsəl bir Türk varlığıdır. Bu Türk varlığının 1925-ci ilədək sürən dövlətinin varisi isə Azərbaycan Türkləri olmalıdır. Tarixsəl gərçəklərə dayanaraq, Qacar-Rus arasında bağlanan bütün anlaşmaların məhz Azərbaycan-Rus savaşlarından doğan bəlgələr olması unudulmamalıdır. **Elə buna görə, Rus-Qacar savaşları və üzərimizə düşən bütün fəlakətlərin o zaman hələ yaranmayan İran adlı dövlətə heç dəxli yoxdur.** Bu anlaşmalar və buna bağlı hər hansı tarixsəl araşdırmalar[243] yaranacaq bütöv Azərbaycan dövlətçiliyi ilə rus dövləti arasında bir daha gündəmə gəlməli olacaqdır.

## 6- Azərbaycan işğal olunmuş ölkədir.

Azərbaycan Türk milləti, 1801-ci ildən 1828-ci ilədək rus istilası qarşısında müdafiə duruma düşmüş və parçalanmışdır. Rus-Azərbaycan (Qacarlar) savaşlarında uduzan Azərbaycan, yalnız torpaqları deyil, həm də millət olaraq param-parça edilmiş, dövlətçiliyini, millətliyini və

[243] incələmələr, təhqiqatlar

bütövlüyünü itirmiş, lakin milliyətçilik ruhunu saxlaya bilmişdir. Məhz bu savaşların sonluğu olaraq, ölkə ikiyə bölünmüş, ikiyə bölünən bölgələr isə neçə ölkə arasında paylaşılmışdır. Belə ki, hazırda 400,000 km.q.[244] ölkə ərazisinin yalnız 60,000 lm.q-sı Azərbaycan dövlətçiliyi hakimiyyətindədir. İllər uzunu sömürgəçi imperiya sistemi ilə millətlər zindanı olan Rus imperatorluğunun böyük ölçüdə darma-dağın olması ilə yanaşı, ölkəmizin Rusiya işqalında olan bölməsində Azərbaycan Respoblikası[245] öz varlığını dünyaya tanıtdırmışdır. Ancaq ruslar və ingilislər vasitəsi ilə devrilən Məmalike Məhrusə Türk Qacar dövlətçiliyinin acısı sürməkdədir. Azərbaycanın Güney bölümü rəsmi olaraq 1925-ci ildən PanFarsizmin qanlı basqısı altında inləyərək, qurtuluş savaşı aparmaqdadır. Bu üzdən Azərbaycan güney dövlətçiliyi, həm də Azərbaycanın bütünlügünün işqaldan azad olması deməkdir.

## 7- Azərbaycan Türk Milləti, bütöv və bölünməzdır.

Azərbaycan hərbi-siyasi basqıya alınandan bəri, rusların və Farsların ən böyük çabası, onun Türklük ruhunu aradan qaldırmaq və o milləti bölüb tarix səhnəsindən silmək olmuşdur. Şəqqə-şəqqə olan millətimiz elə günə düşmüşdür ki, ayrı-ayrı rus, Fars, gürcü və erməni kültürü içində əriməmək, ölməmək savaşını yaşamının ən qudsal inancına çevirmək zorunda qalmışdır. Elə, bu inad üzərində də bütün millətaltı və millətüstü əngəlləri geridə buraxa bilmiş, öz tarixsəl gələnəklərinə, adət-ənənələrinə və Türklüyünə söykənərək bu ölüm–olum savaşda nəyinki aradan getməmiş, böyük aranda antigonist düşmənlərə qalib gələ bilmişdir. Quzeydə 200 illik ruslaşma sistemi qarşısında dirənişmə içində olan millətimiz dolayısıyl 70 il də materializm ruhsuzluğuna uğradılmışsa da, onun qarşısında güclü ülkü sərgiləməyi bacarmışdır. Sözsüz ki, bir yandan ruslaşdırma amili, başqa yandan isə materialistləşdirmə çabaları[246] millətimiz qarşısında ölçülməz dərəcə millətüstü böyük əngəllər

[244] kilometreqara
[245] "Quzey Azərbaycan Cümhuriyyəti,, adlanmaması əvəz olunmaz bir tarixsəl yalnışlıq olmuşdur.
[246] ikisinə bir yerdə, sovetləşdirmə də deyilir.

yaratmışdır. Amma buna baxmayaraq millətimiz ayaqdan düşməmiş, fürsət tapınca öz kimligini ortaya qoya bilmişdir. Həmin mənzərə özəl şiddəti ilə ruslar sarından gücləndirilən faşist ermənilər və qonşu gürcülər tərəfindən də uyğulanmışdır. Lakin belə uyğulamalar, millətimizi sarsıdıb ayaqdan sala bilməmişdir. Güneyə gəlincə, millətimiz daha da geriçi və şovinist bir rejim qarşısında dirənişməyə qalxmalı olmuşdur. Fars hegemonluğu, Bir dil, Bir ölkə, Bir şah şüarı altında Farslardan başqa bütün millətləri təməldən danmağa başlamışdır. Kiçik şovinist, böyük güclərin hesabına özündən qat-qat güclü və köklü olan xalqları əzməyə başlamış, başda Azərbaycan Türk millətinin Güney bölməsi olmaqla, bütün qeyriFars xalqları öz faşist ruhuna təslim etməyə çalışmışdır. Bu anti insan yuruşun Pəhləvi avtoritarizmindən başlayaraq bugünkü islam fondamentalist rejiminə dək sürməkdədir. Ancaq bunlara baxmayaraq Azərbaycan Türk milləti parçalanmamış, tarix boyu bütöv olduğu halda, bölünməzligini yenə sərgiləmişdir. Ulusumuz sərt və dəmir pərdəli məftillər arasında hisarlansa da, yüz illər boyunca işğalçı düşmənlər əlində param-parça olaraq ayrı-ayrı asimilaçı dövlətlər çəmbərində milli əritim siyasətinə tuş gəlsə belə, yenə bütövlük ruhunu saxlaya bilmişdir. Millətimizi saxlayan amil nə olmuşdur? Sorusuna belə yanaşmaq olar:

Bu ulus, bütün zamanlarda ruhuyla yaşamışdır. Bizim millətimizin diri, iri və bütöv qalmasında sözsüz ki, idealizm böyük rol oynamışdır. Millətimiz öz idealizmi ilə düşmənin görəmədiyi, duyamadığı yerlərdə birləşməyi, eyniləşməyi yaşada bilmişdir. Deməк məftil hakim olan yerdə cism deyil, ruhdur ki, yaşayır. Ruhdur ki, məftilləri aşır, öz sevgisinə qovuşur. Şəhriyar milləti darda görəndə, onun ruhunu oxşayır, ulusunun ruhuna dönüşür, Fars və rusların anlamadığı mənəvi yoldan Bakıya gedir və Güneyin sözünü Quzeyə çatdırır. Çox keçmədən Quzey öz doğmasının duyğularını dağlarda, bağlarda, kəndlərdə, şəhərlərdə, küçələrdə, ürəklərdə və beyinlərdə duymağa başlayır. Demək, ruhani Şəhriyara dəmir məftillərin heybəti vız gəlir. O, Bakısına da, İstanbuluna da və istədiyi bütün Türk ellərinə də uçur, ulusun aydın gələcəyindən söz açır. Şəhriyar, millətinin bütöv olmasını, yalnız düşmənlər əlində keçici olaraq əsir duruma düşməsini belə anladır:

*"Sən kimi qardaş öz qarındaşını*
*Atmayıb, özgə kimsə tutmayacaq.*
*Qoca Təbriz də, yüz min il geçsə,*
*Bakı qardaşların unutmayacaq.*

*Gün, o gündür ki, haq yolun düzlər.*
*Onda biz də, düzü - düzə qoşarıq.*
*Ayıranmaz bizi, o gün, şəmşir,*
*əbədi vəsl üçün qucaqlaşarıq!*

*Rahimin, rüstəmin əlin sıxmaq,*
*Mənə, dünya boyunca izzəti var.*
*Qocalıqda bu izzəti tapmaq,*
*Bir cavanlıq qədərcə ləzzəti var.*

*Dilimiz, qanımız bir olduqda,*
*Qırmaq olmaz bu əhdi, peymanı.*
*Xalqıla əhdi möhkəm etməkdə*
*Boşlaya bilmərik bu imanı.*

*Gəlmişik doğma yurdumuz Bakıya,*
*Qoy bu tarix də, iftixar olsun.*
*Şəhriyardan da bu üfüqlərdə,*
*Bu sınıq nəğmə yadigar olsun."*[247]

və ya 1946-cı ildə Fars faşistləri tərəfindən Təbrizdə Türk kitablarını yandırma törənini eşidəndə ürəyi ağrıya gələn, əli isə doğmasına çatamayan Səməd Vurğun belə haraya gəlir:

*"Callad! Mənim dilimdir Bayatılar,Qoşmalar,*
*dey, onları heç duydumu sənin o daş ürəyin?*
*Hər Garaylı pərdəsində min ananın qəlbi var...*

---

[247] *(M.H.Şəhriyar, Türkü divanı külliyyatı, 1996 Tehran, s177,178)*

*Hər Şikəstəm evladıdır bir müqəddəs diləyin.*
*Dey, onları heç duydumu sənin o daş ürəyin?*

*Söylə sənmi xor baxırsan mənim şeir dilimə?*
*Qoca şərqin şöhrətidir Füzulinin qəzəli!*
*Sənmi (Türkəxər) deyirsən ulusuma, elimə?*
*Dahilərə süt vermişdir Azərbaycan gözəli...*
*Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!*
...
*Bir vərəqlə tarixləri, utan mənim qarşımda,*
*Anam Tümris kəsmədimi Keyxüsrovun başını?*
*Koroğlunun, Səttarxanın çələngi var başımda.*
*Nəsillərim qoymayacaq daş üstündə daşını,*
*Anam Tümris kəsmədimi Keyxüsrovun başını?"*[248]

### 8- Azərbaycan Respoblikası termini milli-siyasi baxımdan böyük yanlışlıqdır. Özgür dövlətimizə ən doğru ad seçənəyi "Quzey Azərbaycan (Türk) Respobliki"dir.

Yuxarıda da göründüyü kimi Azərbaycan bölünmədən qabaq vahid bir dövlət çatısı altında yönətilmişdir. Bu ölkənin gələcəkdə birləşməsinin ən doğal yolu Güneyin siyasi statusa yiyələnməsi keçir. Bugün "Azərbaycan Respoblikasi" adı altında, bir parçalanmış ölkə ifadəsi aydınca özünü göstərməməkdədir. Belə ki, Azərbaycan Respoblikası adı gələndə bütöv bir millət və unitar bir dövlət anlayışı ortaya gəlir. Bu isə, gərçək bir tarixin üzə çıxmasını əngəllərkən, sanki ortada bölünmüş bir xalq yoxdur kimi görünür. Sözsüz ki, 1991-ci ildə azadlığa qovuşan Azərbaycanlı liderlərin belə önəmli məsələyə diqqətsiz yanaşmasının acısı millətimiz üçün ağır olmuş və olacaqdır. Buna görə, indiki Azərbaycan hakimiyyətinin ən vacib milli borclarından biri keçmiş xətanı silmək üçün ad dəyişiminə girməsidir. Əlbətdə belə olarsa, İran və Rus rejimləri başda

---
[248] *(S.Vurğun, Azərbaycan, Azərbaycan kitabı! Bakı 1976, s103,104)*

olmaqla bir neçə dövlətin sərt etirazı gözlənilə bilər. Buna baxmayaraq Azərbaycan dövlətinin bu cəsur addımı dünyanın böyük kəsimi tərəfindən geniş alqışlara nədən olar. Çünki, bir dövlətin demokratik ilkələrə dayanaraq millətinin bütününə hakim olması kəsin bəyəni qazanan bir olaydır. Azərbaycan dövləti isə, belə qorxmaz addımıyla 50 milyonluq bütöv Azərbaycan Xalqı iradəsinə sözdə deyil, əməldə yiyələnmək isəyini göstərmiş olar. Başqa yandan isə, Azərbaycanın bölünmüş dövlət və millət statusu dünyada sərgilənmiş olar. Bu isə, Azərbaycan hakimiyyəti üçün əbədi milli ödül[249] olaraq tarixdə hək olunar. Ancaq doğrusu, bu sorunla bağlı daha da gərçəkçi olmaq gərəkir. Buna görə ki, 1992-də Azərbaycanda Elçibəy millətçiliyi olduğu bir dövlətdə qəflətə uğramış bir ulusal gərəyin bu gün çözülməsinə inanmaq bir o qədər də məntiğə uymayır. Amma belə bir mözüzə baş tutarsa, kəsinliklə qurulacaq "Güney Azərbaycan Türk Cümhuriyyəti"nin qurtuluş sürəci qat-qat qıssalacaq üzərinə veriləcək həzinə isə olduqca az olacaqdır. Bu haqda deyilməli çox sözə nöqtə qoymaqla ötüşürük.

[249] medaliyom, mükafat

# 6. BÖLÜM

## Azərbaycan davasında Türk ülküsünün vaz geçirilməz rolu!

Yer kürəsində minlərlə toplum yaşamaqdadır. Minlərlə kültür, gələnək, dil, tarix, insan kimliyi öz varlığını sürdürməkdədir. Bu varlıqlar, kiçik-böyüklüyndən asılı olmayaraq kəsinliklə bir inanca, bir tabuya bağlıdırlar. Onları bir arada tutan, bütün fərdi istəklərindən, madı arzularından üstün olan bir mənəvi bağdır. Bu mənəvi bağlantı çox zaman gözə gəlməz, maddı dəyər daşımaz, insanın içində hakim olan bir işıqdır. Elə bu işıqla, insan qaranlıqlara qarşı qələbə çalmaq yolunu çıxar. Bəlkə insanı təkbaşına buraxsan, öz işığından qorxuya düşüb yaşamını itirər belə. Ancaq bu işıq insanın toplum vicdanına çevrilən zaman, o ölməz olar, onun yaşamı yaşam gətirər. Toplum üzərində qurulmuş olan bütün qara duzaqları aşaraq işıqlı gələcəyə yol açar. Aydındır ki, toplum vicdanına çevrilmiş hər hansı inanc işığı öz görüş açısı və ortaya qoyacaq gənəl anlamda mərkəz baxışı vardır və olması da gərəkəndir. Belə olmasa, o işıq deyildir, inanc deyildır.

İşıq və inanc yol göstərəndir. Gələcəyin gözgüsüdür. İnsanın ayaqda tutulacağı üçün ən başda gələn güç, gözə görünməz, ancaq gözə

nur saçan inansal ruhdur. O üzdən, əzəldən günümüzədək çəkilən bu ucsuz-bucaqsız yaşam yolun arayan hər kəs istər-istəməz bir inanca sarınaraq yola çıxmalı olmuşdur.

Sözsüz ki, yaranan hər hansı yaşam sisteminin təməlində insan söyləmi dayanmaqdadır. İnsanın insan kimi yaşaması, bu yaşam yolunun xəritəsinin çəkilməsi, insan toplumunun aydın gələcək görüntüsünə yiyələnməsi, qurumsal birliklərin qopulmaz halə gəlməsi və kilidlənərək çətinlərə qolaylıq sağlamaq üçün daşıyıcı məfkürə yükü gərəkir. Bu yükün daşınılması çox önəmli təməllərə dayanmalıdır. Ən başda, bu yükün hara gedişi, hardan gedişi, niyə gedişi, necə gedişi, haracan gedişi, ən sağlam və anlaşılan gediş yolu, gediş yolunun ödənişi, önləm yolları və ən önəmlisi ruhsal simvolu tanınmalı, tanıtılmalı və yol gedəsi toplum içində kütlə anlayışına uyğun olaraq sərgilənməsi gərəkməkdədir. Bu, o deməkdir ki, artıq amacın ideolojik yönü bəlli, İşıq saçacaq tasarısının[250] aydın və mərkəz dinamikası ortadadır. Belə olan durumda hərəkət özəl stratejisini ortaya qoyacaq gücə əl tapmışdır diyə bilərik. Ancaq, bu hələ başlanğıcdır. Tasarını ışığa bağlamaqdır. Bu işığı sönüklükdən qorumaq yollarının aranması lazimdir. Önləm alınmazsa, sönmüş işığın bir daha alovlanması yaşamlara, nəsillərə bədəl ola bilər. Onun üzərində gərəkən ödəmələr, sistemlər, savunar düşüncələr yüklənməli, qarşıda olan qaranlıq dalanlar, ruhu düşürəcək iztirablı dalğalar, yolculuq içində olacaq əngəllər tanınmalı, yolun uğuru qarantılanmalıdır. Toplumları millətə çevirən, onu əbədiləşdirən bu ışıqlı ruh Milli Ülkü adlanır. AtaTürk milli ülkünü belə anladır:

“Bunlar vicdanımıza yazılmış gerçeklerdir; konuşulmaz, yaşanır ! Elbet bu milletin bir ülküsü olacaktır, amma bu ülküler devletler tarafından açıklanmaz, millet tarafından yaşanır! Nasıl, bakarken gözlerimizi görmüyor, onunla her şeyi görüyorsak, ülkü de onun gibi, farkında olmadan vicdanlarımızda yaşar ve her şeyi ona göre yaparız”[251]

---

[250] projəsinin

[251] *( Atatürk. Ziraet bankı.1933 yılı 29 Ekim gecesi)*

Azərbaycan Davasında, Türk Ülküsünün rolu üst sətirlərdə sadalanmış hükmün eynisidir. Azərbaycan milli kimlik şürurunun biçimlənməsində təməl rolu olan Türk dili, Türk coğrafisi, Türk tarixi, Türk gələnəyi, Türk inancı, Türk yaşam modeli, hər əski millət kimi bu millətə də, özəllik vermişdir. Keçmişdən gələn adı sadalanmış milli kimlik birliyini gələcəyə daşıyan başlıca təməl düşüncə Milli İdeyamız vəya Milli Ülkümüzdür.

Azərbaycan Türklüyünün ulusal varlığının qorunma sisteminin yaranması, onun dövlətçiliyi ile bağlıdır. Tarix boyu böyük xaqanlıqların, dövlətlərin, xanlıqların, atabəy və bəyliklərin varisi olan Azərbaycan Türklüyü, demək olar ki, zaman boyu Türk hakimləri hegemonluğunda özünə dayalı [252] formada yönəlmişdir. Azərbaycanın yerli hakimləri özlərini Türk hakimlərdən ayrı görmədiyi üçün, Türk sistemli mərkəz dövlətlərlə sıx ilişgidə olub, mərkəzi dövlətlə birgə kiçilib-böyümüşdür. Səlcuqlardan bu yana dəyişik Türk sülalə dövlətlərinin bir-biri qarşısında güc itirməsi, hər yerdən artıq Azərbaycan üzərində etgi buraxmışdır. Sözsüz ki, bu gedişin sonucu Azərbaycanı da gücsüzlüyə uğratmış və bugünkü duruma gətirmişdir. Göründüyü kimi, bugünün Azərbaycanı bütöv deyil, özgür deyil, özgələrin buyunduruğundadır və ən bariz deyimlə əsir topmumdur. Ya bu isarəti qəbul edib ölməklə vəya ölməyi öldürməklə dirilmək yolu vardır. Üçüncü yol yoxdur. Azərbaycan Türklüyünün milli ülküsü burda özünü tanımlamalıdır. Bugünümüz nə kimi ülkü şərtləri önə qoyur?. AtaTürk ulusun yox olmaması üçün Çanakkalada 400,000-nin yox olmasına əmr edir. " Mən sizə qalmaq deyil, ölməyə əmr edirəm!" diyən AtaTürk bir milli ülkünü düşünərək canından çox sevdiyi vətəndaşını ölməyə çağırır. Çün başqa yol yoxdur, ya torpaq öləcək vəya uğrunda ölən varsa vətən qalacaq!

Bu bir qurtuluş ülküsüdür, yaşamaq üçün ölmək fəlsəfəsidir. Bugünün Azərbaycanı böyük kəsimdə qurtuluş ülküsünü yaşamağa məhkümdür. Demək, ülkü donuq və doqmatik deyil. Zamana və duruma bağlı uyğunlaşar, toplumun özül şərtlərinə görə, işıqlı ruh roluna girər. *"Bütöv Azərbaycan, bir məfkürədir, ideyaldır"* diyən Elçibəy, əslində

[252] Self determination

Azərbaycanın gün ülkü hədəfini ortaya qoyur. Azərbaycanda bütövlük düşüncəsi bir ülkü göstərisidir. Peki,[253] buna yol tapmağın təməl özətləri nədir? Sözsüz ki, dura-dura Azərbaycan birləşməz. Azərbaycanı bölənlər hələ də, vardılar. Onlar, bütün amaclarına əl tapmadılar. Millətimizin dirənişi, zamanın şərtləri, sümürgəçilikdə yarışmalar v.b., amillər onların son hədəfi olan Türkün yer üzündən silinməsi diləklərini yarımçıq qoydu. İndı, Azərbaycan da var, düşmənlər də var. Deməк, həm ışıq var və həm ışıq düşmənləri. Türklük qarşısını antiTürklük tutursa, Türklərə dayanmaq yürümək, can vermək və vətən qurtarmaqdan başqa nə qalar ki! Yaşamaq, yaratmaq, insan kimi öz doğasına yiyələnmək, barış və yüksəlməkdə ortaq olmaq, bütün doğuşdan gələn kültürlərin amacı olduğu kimi Türklərin də əsil dilək və ana amacıdır. Ancaq, bunu istəmiyən Türk düşmənləri var. Bunların qabağında elə dayanmaq lazimdir ki, ölüm onun yanında utansın. Bunların qarşısında ruh kimi görünməz, ışıq kimi sönülməz, dağ kimi yenilməz olmaq gərəkir.

Bir milli ideyal, bir insan inancı, bir Dədə Qorqud kimi, bir Babək kimi olmaq gərəkir. Bunlar ölməzdir. Bunları min kəz öldürsən də, milyon kəz diriləcəklər! Azərbaycan Türkünün ülküsü bu gün belədirsə, yarın daha da, başqa görəv ala bilər. Ülkü bir ulusun ışıqlı gələcəyinin açarıdırsa, demək ki, Azərbaycanın güneyinin qurtuluşu bir ülkü aşamasıdır. Çünki, Güneyin azad olmasıla 200-ildir ermənilərin tamahına çevrilmiş millətimizin Qarabağı da qurtulacaqdır. Çünki, erməniləri ayaqda saxlayan Farsların sınır ilişgisinin ərmənilərlə kəsiləcəyi gün bu qasiblərin də fürsətinin sonu gələcəkdir. Vaxtilə Ə. Elçibəy ***"Qarabağın azadlığı Təbrizdən keçir!"*** deyimi bir milli ülkünün siyasi göstərgəsi idir. Bu bir bütöv Azərbaycan idrakının qızıl açarıdır, Qızıl almasıdır, Ərgənəqon inancıdır.

Biz bu gün ulusal və milli ülküylə yola çıxmalıyıq. Vətəni qurtarmasaq, insanlıq ruhumuz qurtulmaz. Sürəkli düşmən obrazı yaratmaq, sürəkli qurtuluş düşüncəsilə yaşanılmaz. Bu insan genini xəstələndirər. Belə olan durumda gələck insanlarımız da, əsir yaşar, həyat çıxmaz yumurlağa çevrilər. Buna görə, Azərbaycanın bugünkü ülkü

---

[253] elə olarsa, haxşı, deməli, tamam!

düşüncəsi vətən qurtuluşudur. Y`əni mütləqçi bir ülküdür. Dəyişməzdir, dönməzdir, sönməzdir və yumuşanmazdır.

### *Nədən "Azərbaycan Türk Milləti„nin Qurtuluş Ülküsü Mütləqdir?*

Çünki, bugündən sabaha salınan körpü, barış, insan, haqq, paylaşım, inanc, inam, idrak körpüsü olmalıdır. Bu körpü salınmalıdır ki, ardı hədəflər yaşasın. Körpü bir fürsət axtarışıdır, bir keçiddir, bir aracdır. Aracı, fürsəti bir millətin sonsuz şüarına çevirmək fəlakətdir, yalançılıqdır və aldadıçılıqdır. Bu amaclara çatmaq üçün qıssa zaman dizisini düşünmək gərəkir. Yoxsa, nəsili-nəsilə bağlamaq, qəhrəmanlıq obrazı yaratmaq eyni fəlakətdir, insanlıq faciysidir.

***AZƏRBAYCAN, DAHA NEÇƏ NƏSİL TARİXƏ MÜRACİƏT ETMƏLİDİR? DAHA NEÇƏ NƏSİL QƏHRƏMANLIQ OBRAZLARLA SÜRÜNMƏLİDİR? BU FƏLAKƏTƏ SON QOYMAQ LAZİMDİR. BİR KƏRƏLİK ƏSİL QƏHRƏMANLIQLA BÜTÜN KEÇMİŞ ÇİLƏLƏRƏ YOX DEMƏK MÜTLƏQLİYİNİ YAŞATMAQ GƏRƏKİR. ANADAN DOĞULMAYANLARA DOĞUM HAQQI QAZANDIRMAQ, ONLARIN AZAD VƏTƏN, AZAD İNSAN, AZAD MİLLƏT TOPLUMUNDA YAŞAMAQ HAQLARINI QARANTIYA ALMAQ, YAŞAMAQDA OLAN ÜLKÜÇÜ AZƏRBAYCAN TÜRKÜNÜN ULUSAL ÜLKÜSÜ OLMALIDIR. GÖRÜNDÜYÜ KİMİ, ÜLKÜÇÜ HƏM DƏ, DEVRİMÇİ QURTULUŞÇUDUR. BU GÜN VƏTƏN QURTULUŞU ÜLKÜMÜZDÜR. QOY, YARIN NƏ OLACAĞINI, AZAD İNSANIMIZ SÖYLƏSİN!***

## Ülkü düşüncə axarımız nədir?

### 1- Dünya evini ruhsuzlardan qurtarmaq. Türkün ruhu dünya ruhludur.

Dünyanı öz övücünda bəslətməkdir. Türk insan sevərdi. İnsanlığı insan qılığına girən allahlardan qurtarmaq və insanı Tək Tanrıya qovuşdurmaq Türkün içindən gələn ideyasıdır. İnsanın

isimlərdən, izimlərdən qurtuluşu Türkün yaşam tipidir, gələnəyidir, fəlsəfəsidir, doğasıdır. Buna görə də, Türk ucada yaşamağı sevər, köksündən bağırmağı sevər, doğayla, küləklə oynağa bayılar. Türk bütün dünya insanıyla yaşamağı bacarır. Çünki, buna ürəkdən inanır. Dünyanın hər yerində Türk memarlığına aid olan insanlıq simgələrinə rast gəlməmək mümkün deyil.

2- **Çağdaş Turan Evi yaratmaq.**

Türkün Türkləşməsinin anlamı Türkçülüyə qovuşmaqdır. Türkün Türkdən başqa dostu da vardır əlbətdə. Türk insanı, çox özəlliyinə görə sevilir, ancaq sevmiyənləri də az deyil. Türkü sevənlər zənginlər və sümürgəçilər sarından əzilənlərdir. Sevmiyənlər isə sümürənlər və onların əlində qula dönüşənlərdir. Bu üzdən sevilənləri sevgiyə qovuşdurmaq üçün öncə Türkün toparlanması gərəkir. Dildə bir, soyda bir, tarixdə bir, kültürdə bir, yazqıda (tal`e) bir olan çeşidli Türk elləri nədən Böyük Türk Evi Turanda toplaşa bilməsin ki? Yalnız güclü Turan, dalğalanan bayraqlarıyla, özgüryaşar dövlətlərilə, Oral-Qafqaz-Zaqroslarıyla, ucaruhlu insanlarıya Türkün dünyadakı "İnsanlara hürriyyət, Millətlərə istiqlal" və "Yurdda sülh, Cahanda Sülh" borcunu ödəyə biləcəkdir. Türk özünü sevə-sevə güclənə bilər. Gücləndikcə isə, dünyanı sevindirər. Çünkü, sevgi, güclü olan zaman, gücsüzlərə sevgi verəbilər. Türkün dünyadaki insanlıq amacının açarı böyüməkdir. Türk azad olduqca, sevincini, kədərini bir yerə topladıqca, dünyaya verdiyi mənəvi ruhu böyük olur. Bunu qanıtlamaq üçün yalnız insanlıq tarixinə baş vurmaq yetər.

3- **Bütöv Azərbaycan dövlətini yenidən qurmaq.**

Çaldıran, qardaş xəncəri oldu, ürəyimizi yaxdı. Gülüstan rus kini oldu, qollarımızı kəsdi. Türkmənçay isə Fars qurqusu ilə rus baltası oldu, belimizi qırdı. Lakin, düşmən Türkün ruhuna əl tapmaz oldu! Biz, ölmədik, qaldıq hicran çəkdik. Yaramızı ruhumuzla sardıq.

Düşməndən uzaq olduq, bir daha ürəyimiz dağlanmasın diyə, qardaşa da yaxın gəlməkdə çəkindik. Sumer ruhumuzla diri qalmağı bacardıq. 1920-də nisgilli Arazın hər iki tayında bir daha ölümə məhküm olduq. Ancaq, ölmədik, varıq harayını ucatdıq. 1990-da bizi yıxan, özü yıxıldı. Bu yıxıntının altından Türk kimliyi yenidən qalxmağa başladı. Və indi, bunların ən böyügü, ən ucası və ən unudulanı Azərbaycanın Güney varlığı yüksəlişə gəlməkdədir. Bir keçəri dövlət yoldadır. O dövlət, 200-illik bölünməyə son qoyacaqdır. Bütöv bir ruh, bütöv bir milliyyəti millət edəcəkdir. İki Azərbaycan dövlətinin birləşməsindən Bütöv Azərbaycan dövləti qurulacaqdır. 1918-05-28 günündə ilk kəz Gəncədə qaldırılan ay-ulduzlu bayraq bütöv Azərbaycan dövlətinin simgəsi kimi, BMT bayraqlarıla birlikdə daha böyük ulus-dövləti təmsil edəcəkdir. Bu 7-dən 70-ə hər Azərbaycan Türkünün ölməz diləyidir, Milli Ülküsüdür. Bu Turan Evinə, oradan da dünya evinə gedən yoldur.

### 4- **Güney Azerbaycan Türk Cümhuriyyətini qurmaq**.

Bir Avrupalı məndən sordu: "Nədən Avrupaya gəldiniz? Ona cavab verdim: Bir gün siz də, bizim ölkəmizə sığınarsız əlbət! onda cavabınızı alarsız!" Bu gün Amerikanın ekonomi böhranında, Çin kuklasının rolu kimsəni şaşırtmamışdır! Bu dünyada olmaz diyə bir nəsnəl yoxdur. Yarın sabah, İran diyə ölkənin dağılmasından da kimsə şaşırmamalıdır. Çünki, ayaqa qalxmış bir Güney vardır. Tarixin ən ağır yüklərini sırtında daşıyan bir Təbriz vardır, Urmu vardır, Ərdəbil vardır, Xoyu, Qaradağı, Zənganı, Marağası, Akbatanı, Qoşaçayı, bütün şəhər və kəndləri, bir anlamda ulusu vardır. Güneydə, bir ölməz ruh, tükənməz güc, bükülməz bel vardır. *"Tebriz yine de kendi ana göğsünden yurtun büyük evlatlarına ve asrin inkilap havasına süt veriyor. Tebriz yaşıyor ve yaratiyor. Tebriz mücadile ediyor. Tebriz birgün zafer kazanacağına inanıyır ve onun bu inancı dalga dalga Güney Azerbaycan,ın bütün şehir ve köylerine yayılıyor."*[254]

---

[254] *(S. Rüstəmxanli, Ömür Kitabi, Türkiyə Türkcəsi, Çağlayan mətbəəsi,1998. İzmir. S253,254)*

Güneydə qurtuluş, bütün ortadoğunun qurtuluşudur. Dünya xəritəsini dəyişdirən bir dünya olayıdır. Güneyin qurtuluşu eyn zamanda Türkiyədəki etnik sıxıntıların da sonudur. Çünki, Güneyin qurtuluşuyla fürsətçi etniklərin cizgi aşmaqlarına imkan qalmayacaqdır. Güneyin qurtuluşuyla hər kəs dev bir Fars yuxudan qalxmasını görəcəkdir. Məzlumlar güləcək, zalimlər isə yerlərində titrəyəcəkdir. Güney Azərbaycan Türk Cümhuriyəti Kərkük və Quzey iraqın da üzünü güldürəcəkdir. Bu Azərbaycan Türkünün ulusal ülküsünün qızıl almasıdır. Bu Bütöv Azərbaycana, oradan Turan Evinə, oradan da isə, Dünya evinə gedən yoldur.

*"Orda bir yol var uzaqda,*
*O yol bizim yolumuzdur.*
*Dönməsək də, varmasaq da,*
*O yol bizim yolumuzdur!"*

## Ülküçü kimdir?

A) Ülküçü, hədəfini yaşatmaq üçün yaşar. Hər hansı inana görə, fanatikləşər. Ölkə, ulus və insan yolunda ülkü uğraşı verən zaman zaman mənəvi yük alar. Əxlaq üstünlüyü qazanar. Insan sevər olar. Ancaq, din, sinif, güc amacı daşıyan ülküçü də vardır. Belə ülküçü insan varlığına təhlükəli olar. Fondamentallığa, madiliyə, sümürgəçiliyə qulluq edər. Belə ülküçülüklə ilgimiz olmadığına görə, öz qonumuzu dəvam edirik.

B) Ülküçü, tutduğu hədəfini qutsallaşdırar. Yorulmadan, usanmadan, şərəf və istəklə ona çatmaq üçün ulusunu səfərbər etməyə çalışar. Ulusu savadlaşdırmaq üçün önçə özünü eytimə kilidlər.

C) Ulusunun amacları yolunda verdiyi mücadiləni özünə görə təbliğat və bəyəni meydanına çevirməz, fədakarlığına görə millətinə

minnət qoymaz. Verdiyi mücadiləni olduqca öz adına deyil, çevrənin adına qurtarmağa çalışar.

D) Vətən və insan yolu, hər insanın vicdanından qopan bir ideal olduğunda, ülküçünün də seçdiyi yol, bir könül və vicdan yoludur. Bu üzdən gərçək ülküçü dayandığı mövqedən məğrur olmamalı, bir çoxlarını da inandığı doğru yol ilə tanış etmık üçün özverili olmalıdır.

E) Ülküçü kimsənin üzərində öndərlik tasarısı yapmamalıdır. Lider zaman-zaman çeşidli özüllərilə ortaya çıxar. Ülküçünün məhz lider olmaq üçün ülküçü olması, böyük azğınlıqlara yol aça bilər.

F) Millətini, vətənini və insanını sevmək, tam da hər kəs tərəfindən alqışlanmazdır. Ulusumuzdan biriləri sandığımız sapı özümüzdən olan baltalar, hər kəsdən daha bətər bir ülküçünü düşmən sayar. Belələri, siyasi dinə, sağından-solunadək aşırı [255] sinifçilərə, totalitarçılığa qulluq edən kəsimdir. Bunlar millətüstü düşüncələrin padovlarıdırlar. Bəziləri də var ki, əski usulları savunaraq ata-babalardan qalan aşırı törəçiliyi, tayfaçılığı, bölgəçiliyi və bunlar kimi millətaltı əngəl amilləri fanatikcə savunaraq ülküçülüyü qavraya bilməyirlər. Ülküçü belə yıxıcı eyləmçilərin qarşısında təviz vermədən dayanar.

G) Ülküçü çox zaman yoxsul və devrimçi ailələr içində böya-başa çatar. Bu üzdən ulusun çoxünlüğünün dərdini – özü də yaşadığı üçün- yaxşı bilər. Buna görə də, ülküçü toplum içindəki yoxsulların ən doğal və yaxın dostu və sırdaşı sayılar.

H) Uluslar arasında ən sevilən, güvənilən, mənəviyyətilə tanılanlar içində sözsüz ki, vətənindən, milliyyət dayaqlarından qopmayan şəxslərdir. Türklər içində belə aşiqlərə ülküçü deyilir. Ülküçü öz sonsuz sevgisilə, millətini sağ, sol, din ehtiraslarından qurtarmaq uçun örgütlənməni ön plana qoyar. Ulusal orgütlənmək yolunda ən dərin özveriyə canla-ruhla hazır olar.

[255] ölçü dışı, xız qapan

I) Ülküçü, toplumu çeşidli təhlükələrdən qorumaq üçün, dayanmadan öyrənər, sistemli olaraq eyitim alar, araşdırar, təbliğat alanında geri qalmamaq üçün, internet, radio-tv, yayım ilətişimlərindən ən son çabukluqla yararlanar. Toplumdan yardım alar, kəndlərdə, şəhərlərdə, iş yerlərində, bazarda, kültür mərkəzlərində, məscidlərdə, yaslarda, toy-düyünlərdə, alış-veriş yerlərində, özəl və dövlət idarələrində, yetimxanalarda, qocalar evində, toplumdan uzaq saxlanmış insanlar arasında, tudsağı olan ailərərdə v.b., hər hansı insan yaşayan yerdə olar və orada öz mətin və ulusal davranışıla örnək kimi göstərilər.

J) Ülküçü, eyn halda xalqçıdır. Azınlıqların haqqını savunar, onlara vətəndaş gözüylə baxar. Vətənin kədərini, sevincini öz kökündən olmaya vətəndaşlarıyla da paylaşmağa çalışar. Azınlıqlar arasında Türk ülküsünə qarşı sempatı yaratmağa çalışar. Ülküçü bu vətən –“birəysəl haqların vətənidir”, “burada yaşayan bütün insanlar, vətəndaş azadlığına, demokratik haqlara, çağdaş yaşam iradəsinə, vicdan özgürlüyünə yiyədirlər,”- fəlsəfəsinə inananır. Bu haqların ən içdən qorucusudur.

K) Ülküçü, həm də hüquq üstünlüyünə bağlı milliyyətçidir. Dövlətçilik sisteminə dayaq olan, öz davranışlarında dövlətin varlığını olumsuz etgilərdən uzaq tutan, qanun, hüquq, icra dayrəsi dışında suçlu davranışlara boyun qoymayan dövlətçi bir elusçudur.

L) Ülküçü soyçudur. Buna görə, ülküçü üçün yalnız yaşadığı vətən deyil, harda yaşamasından asılı olmayaraq onun üçün, öncə soydaş qavramı önəm daşımaqdadır. Bir ülküçü Azərbaycanda yaşayan halda Qibrisdə, Afriqada, Ortasiyada, Çində, Türkiyədə v.b. yerlərdə yaşayan bütün Türk soydaşlarını da, düşünər.

M) Azərbaycanlı Türk Ülküçüsü, vətənini, ulusunu, ən qıssa, arxayın, ulusal yollarla demokratik, çağdaş, insancıl, LAİK Bütöv Azərbaycan Dövləçiliyinə götürmək əzmini daşıyan, qudsal amac və milli ideya uğrunda ölçülməz özverilə çaba göstərən Türkçü-qurtuluşçu soydaşdır.

## Güneydə ən İlk Millətçi, Qurtuluşçu, Ülküçü Örgütləri

Qıssa gözatma!

1988-dən etibarən Azərbaycanın quzeyində milli dövlətçilik uğruna gedən savaşın Güneyə yol tapması çox az zaman aldı. Azərbaycan milli-azadlıq hərəkatının lideri Ə.Elçibey,in karizmatik [256] etgisinin Güneydə olan göstərisi kiçik quruplarda özünü göstərərək, get-gedə böyüməyə başladı. Quzey hərəkatının sarından Güneyə yamsıyan bütövlük şüarlarının on illərlə öndərsiz qalan güneylilərin ruh yüksəlişinə nədən olmağa başladı. Güneydə gənc aydınlar "Azərbaycana milli-azadlıq" şuarı altında təşkilatlanmağa başlamışdır.

"Vahid Demokratik Azərbaycan Təşkilatı"- VDAT, "Güney Azərbaycan Türk Dirçəliş Təşkilatı"- Dirçəliş, "Azərbaycan Milli Təşkilatı"- AMT, "Güney Azərbaycan Fədayi Təşkilatı"- GAFT", Güney Azərbaycan Xalq Cəbhəsi"-GAXC, "Azərbaycan Qurtuluş Təşkilatı"- AQT, Biraz sonra "Azərbaycan kültür Ocağı"- və 10-larla öyrənci və gənc hərəkatların yalnız və yalnız Azərbaycan güneyinin milli qurtuluşu maraqlandırırdı. Sözsüz ki, adı sadalanmış bu qurumları, Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sisteminin ilkin örgüdlənmə forması adlandırsaq yanılmamışıq. Bu qurumlarda toplaşan gənc millətçi kəsimin Türkçülük, bütövçülük ideyasının gəlişməsində Elçibəy sevgisi böyük rol oynayırdı. Keçmişlərdən tam fərqli olaraq Quzeydən Güneyə gələn soydaşlarımız özləri ilə millətçilik ərməğanı daşırdılar. Quzey olayları an-ba-an Güneydə izlənilirdi. Quzeydən gələn hər bir xoş xəbər Güneydə doğma reaksiya yaradırdı. Yeni yaranmış milli qurum-quruluşlar, Fars şovinisminə sinəgərərək millətin içində ulusal təbliğatla məşqul olurdular. Fars şovinizminə və ermənilərə qarşı yazılan divar şuarları hər gün çoxalmaqda davam edirdi. Az yaşlı uşaqlar üçün qaçaq ev baxçaların qurulması özünə məxsüs yer tutmuşdur. Məhz milli ilgilər üzərində ailəvi ilişgilərin artması da səngimədən davam edirdi. Hər gün müsiqi, teatr və bir cox milli bahanalar üstə qarşılıqlı əlaqələr coxalmaqdaydı. Bu ara

[256] xarakterli, çəkici

milli-siyasi qurumların da bu ilişgilər içində olmasının və gizlicə milli amacların ulusla paylaşması, ulusal örgütlənmənin[257] necə olacağına eynilik bağışlayırdı.

Bu arada "Azərbaycan Qurtuluş Təşkilatı" tam millətçi qurum kimi ilk dəfə olaraq "Azərbaycan Türk milləti", "Milli-siyasi", "Azərbaycan Türk ülküləri", "İran adlanan qondarma ölkə", "Bütöv Azərbaycan Birliyi", "Türkçülük", "Müstəqillik", "Güney Dövlətçiliyi"... kimi terminləri ortaya qoymaqla "Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sistemini" öz məramnaməsinin təməlində yerləşdirmişdir. 6-aylıq ağır çalışmaların məhsulu olan bu məramnamə 1992-ci ilin 2-ci yarısında 1000-lərcə sayda Azərbaycanın hər iki tayında yayılmışdır. Yuxarıda qeydə alınan terminlərin işlək nöqtəsindən bir neçə örnək gətirməklə bu qonu biraz geniş izahlanır.

1992-də ərəb əlifbasi ilə Təbriz,də, latin və kiril alfabetləri ilə Bakı,da yayılan AQT-nın məramnaməsindən alınan sətirlərdə yazılmışdır:

(S5)...”40-milyondan artıq bütöv, parçalanmaz Azərbaycan Türklərinin anahaqqı və tarixi ideyasının gərçəklənməsi, məntəqədə yaşayan başqa sümürülən xalqların da azadlıq mücadilələrinə təkan və dəstək verəcəkdir. AQT bu mütləqə inanaraq böyük və ulu millətimizi öz milli müstəqil dövlətçilik ideyasi uğrunda qurtuluş savaşına çağırır və bu çağırışı milli-müqəddəs cahad adlandırır! Azərbaycan Türkləri heç zaman özgə xalqıların torpaqlarına göz dikməmiş, lakin Dərbənd,dən tutmuş Ərak ilə Həmədana,dək olan torpaqlarının bir qarışından belə vaz keçməyəcəkdir.” *Azərbaycan Qurtuluş Təşkilatı (AQT) yuxarıda göstərilən faktorlara görə İran adlanan çoxmilliyyətli müstəmləkəçi coğrafiyal qurumu qondarma, istemarçı dövlət elan edir...*

(S6)..."Milli idealogiyanın təməl dayaqları":

... Azərbaycan Türk milləti 1913-cü ildən bəri Fars-rus arasında bağlanan Gülüstan müqaviləsinə əsasən parçalanmış duruma düşmüşdür. Həmin gündən Azərbaycanın güneyində Türk millətimiz Fars

[257] qurumlaşmanın, təşkilatlanmanın

müstəmləkəçiliyindən qurtarmaq, mütləqiyyətini və azad, müstəqil yaşamaq, demokratik dövlət qurmaq haqqını öz içində daşımışdır...”

(S6)..."Ülküçülük"(Milli idealogiya düşüncəsi):

“... 1. Hər millət üçün maddi gərçəklərdən ülvi mərtəbədə dayanan sınmaz, bütöv, bölünməz, ilahi, özəl, milli idealogiya və ya milli ülküdür.

2. AQT Azərbaycanın toplum bütünlüyünü dil və torpaq birliyini, milli- mənəvi kimliyini, tarixsəl varlığını, əldə edib savunma şərtini özgələşdirən idealogiyaların və kültürlərin çəmbərindən qurtulmasında görür.

Azərbaycan Türk millətinin birinci düşməni milli əxlaqsızlıq, antimilli yıxıcı-bölücü idealogiyaların uzun sürən hakimiyyəti olmuşdur. Türk təfəkkürü özgə fikirliyə, yabancıya qulluq edən bölücü idealogiyalarla barışmaz durumda dayanır.”

...“Babək igitliyini, İsmayil dövlətçiliyini, Səttarxan milliyətçiliyini, Məhəmmədəmin öndərliyini Azərbaycanın təməl düşüncəsi kimi dəyərləndirir.”

...

**Müstəqillik**

“Dildə, torpaqda, tarixdə, milli kimlikdə, kütləvi mədəniyyətdə özəlləşmiş bir toplum beynalxalq huquqlarına əsasən milli varlığına, mənəvi dəyərlərinə yiyələnməli və tam siyasi- iqtisadi, hərbi, mədəni-ictimai müstəqilliyinə malik olmalıdır...

Müstəqil millət özünün milli dövlətini tələb edir...”

**Millətçilik (Türkçülük)**

...2. "Azərbaycanın milli ilkələri və fəlsəfə kökü Türkçülüyündədir."

...5. "Sovet Azərbaycanı və İran Azərbaycanı kimi terminlər antiinsan-vəhşi və şovinist ittifaqının Azərbaycan Türkünə qarşı düşmənçilikdən yaranmışdır və qondarma olduğu üçün sürətlə məhv olunmaqdadır."

**Dövlətçilik**

"Azərbaycan Türk Cümhüriyyəti" Güney Azərbaycan`da yaranan demokratik, çağdaş, dünyəvi və hüquqi dövlətinin siyasi görüntüsü olmalıdır.

Hər azərbaycalının ən müqəddəs və gərəkli hədəfi Güneyin dövlətçilik prosesində canla, malla iştirakçı olmasıdır.

Bütöv Azərbaycan ideasının ön şərti Güney`də qurulan dövlətçilik prensipidir. Güney-Quzey probleminə bir dəfəlik son qoymaq üçün Güney Azərbaycan dövlətçiliyi tarixsəl zərurətdir..."[258]

---

[258] *(Azərbaycan Qurtuluş Təşkilatı. Məramnamə, Təbriz, 1992, AQT.Yayım Bölümü)*

# 7. BÖLÜM

## Çağdaş Azərbaycanda, Elçibəyçi düşüncə sistemindən örnəklər

Oxuduğum kitablarda bütün dünyada Türk millətinə qarşı olan böyük düşmənçiliklə qarşılaşdım. Baxdım, gördüm ki, Rusiya imperiyasının, Fars şovinizminin, onlara qoşulmuş erməni şovinizminin Yunan şovinizminin Türkçülüyə qarşı böyük düşmənçiliyi var...

...Mən Türk millətçisiyəm və bununla fəxr edirəm. Ancaq bizim Türk millətçiliyimiz şovinizmə, irqçılıya qarşı olan bir ideyadır. Bizim millətçiliyimiz milli özünümüdafiə, Türk milli ruhunun qorunması, onun dirçəldilməsi, dünyaya çatdırılması və Türk birliyinə nail olmaq uğrunda mübarizədir. Türk birliyininsə ilkin yolu Azərbaycanın birliyindən keçir. Türk birliyinə yetişmək üçün öncə Azərbaycanın birliyinə nail olmaq lazimdir. Qarşida duran məsələlərdən biri budur.

Stalinin tərifini Sovet məktəblərində hamıya əzbərlədirdilər. Məndə birinci kursda imtahanda o tərifi deyirdim. İkinci kursda bəzi kitabları oxuyandan sonra o təriflə razılaşmadım. Fikirləşdim ki, bəs millətin tərifi nə cur ola bilər?

Bilirsiniz, millətə vahid bir tərif vermək mümkun deyil. Dünyada elə şeylər var ki, onların vahid tərifi olmur. Məsələn, "elm"in vahid tərifi

yoxdur, "insan"ın vahid tərifi yoxdur. Insanın vahid tərifi yoxdursa millətin də tərifini vermək çətindir.

Stalin deyirdi ki, millətin millət olmasından ötrü onun ərazi birliyi olmalıdır. Amma Stalin o tərifi verəndə İsrail dövləti hələ yoxdu, ancaq yəhud milleti isə vardi. Yaxud heç kim deyə bilməz ki, qaraçı milləti mövcüd deyil, halbuki onun vətəni yoxdur.

Millət bir insan toplumudur. O toplum bir mədəniyəti daşyır, bir dildə danışır, bir əqidə və məfkürənin daşıyıcılarını birləşdirir. Bəziləri deyir ki, milləti eyni qana mənsub olanlar yaradır. Burada bir az həqiqət var, ancaq o, tam deyil. Axi insan yanlız bioloji yox, hem də ictimai varlıqdır. Ictimai varlıq olanda artıq burada materiya gücsüzdür. Ictimai varlıqda sa, mədəniyyət və məfkurə birliyi var.

Türk kimdir? ola bilər ki, o, qan baxımından Türk olsun, ancaq Türkə düşmən olsun və başqa millətə xidmət etsin, məfkurə və mədəniyətcə Türk olmasın. Deməli, o, Türk deyil. Ancaq ola bilər ki, başqa xalqın nümayəndəsi olsun, ancaq Türkcə danışsın, Türk mədəniyətini daşısın, Türk millətinə xidmət eləsin, ictimai varlıq olaraq Türk kimi fəaliyyət göstərsin. O daha çox Türkdür.

Belə söhbətlər çox gedib. Məsələn, Puşkin kimdir-rusdurmu, yoxsa ərəb? Qanını götürsəniz ərəb qanıdır, ancaq yaradıçılığına görə ona ərəb şairi demək olmaz. Deməli, ictimai varlıq kimi rus şairi olub. Yaxud Drayzerə heç zaman Alman yazıçısı demirlər; o, milliyətcə Alman olsa da, Amerika medəniyyətinin daşıyıcısıdır, ona görə də içtimai varliq kimi götürəndə amerikandır. Başqa sözlə milləti təyin edərkən mədəniyyət daşıyıcılığının üstünlüyü daha böyükdür.

Türkçülükdə də biz qanı əsas götürsək materialist olacayıq, yox, məfkürəni əsas götürsək, idealist. Mən nə materializmin əleyhinəyəm, nə də idealizmin. Bunlar mübahisəli məsələlərdir. İdealizmin də, materislizmin də bizə verdiyi müsbət və xoş nə varsa ondan istifadə etməliyik. Materializmin bu hissəsi var ki, hər şeyi Allahın umuduna

qoymur. Məsələn, yağış yağır, havaya bulud gəlir, külək əsir, bunlar Allahın işidir. Bu, təbiiətin işidir, niyə Allaha aid edirsən? Y`əni materializim deyir ki, təbii öryən; hər şeyi Allahın adına yazıb tənbəl-tənbəl oturma. Allah insanı yaradıb ki, hər şeyi öyrənsin, bilsin.

Mən daha çox materialist deyiləm, mən idealistəm. Ona görə də, "Türk" və "Millət" dedikdə öz millətimi nəzərdə tuturam. Mərakeşdən başlamış İraq,a dək, Şimali Afrikadan belə ərəb milləti, ərəb dövlətləri olduğu kimi, Ağ dənizdən başlamış Sakit okeana dək, uzaq şərqə dək hamısı Türk torpaqlarıdır, böyük Türk millətidir. Sayını 250 miliyon da dəyirlər, 270 milyon da. Məndə bu millətin evladiyam. Onların arasında biz birinci olaraq Azərbaycanı bu veziyyətdən çıxartmalıyıq, çünki Azərbaycan, yaşadığımız bu torpaq əsir durumdadır, erməni işğalı altındadır. Xalqımızın bir hissəsi Rusiyaya gedir, bir hissəsi Gürcüstana qaçıb. Böyük, əsas hissəsi də Fars rejiminin, Fars şovinizminin, Tehran rejiminin hakimiyyəti və işğalı altındadır. Axı nə üçün 40 milyonluq Azərbaycan Türkü param-parça olsun? Niyə birləşməsin? Niyə onun vahid dövləti olmasın? Ancaq mən Doğu Türküstan haqqında da, Qibris Türkləri haqqında da, Güzey İraqda ki soydaşlarımız haqqında da duşunurəm, Çində, Yaponiyada yaşayan Türklərlə də maraqlanıram. Ruslar Volqa boyundan, Moskva etrafından tutmuş ta uzaq Sibirə dək 200 il TÜRKLƏRI qıra-qıra o torpaqları işğal elədilər. Məsələ qaldırıb beynalxalq məhkəməyə vermək lazimdir ki, tarixdə belə bir vəhşilik olur, Bu vəhşiliyi tarix qınasın.[259]

## Ulus ürəyinə iz salan Elçibəy.

Gördüyüm, tanıdığım Əbülfəz Elçibəy.

Kələkidən Bakıya dönər-dönməz Azərbaycanın Güneyindən olan soydaşlarımız ilə görüşən Ə. Elçibəy, sankı böyük arzusuna çatmış kimi, özünün Güneyə olan sonsuz sevgisini gizliyə bilmirdi. Bey eyni zamanda

[259] Bu bölümdə ki bütün söylənənlər, Elçibəyə aiddir.

Güneyə olan ümidini, bu ümidin çox tez bir zamanda gərçək olacağına dərindən inanırdı. O, Güneydə milli dirçəliş və oyanış sürəcinin çox sürmiyəcəyini, bir neçə il içində milli qurtuluş savaşına girəcəyini dərin bilimsəlliklə isbat edirdi. Bir gün *Bütöv Azərbaycan Birliyi* (BAB) toplantısı keçirkən Bəyin köməkçilərindən biri içəri girib, BBC ajensinin tv ekibinin gözləməyini çatdırdı. Bəy bu haqda toplantıda olanlardan fikir istədi. Hamı toplantının dayandırılmasını və BBC qurupunun qəbul olunmasını məsləhət gördülər.Toplantı sona çatdı. Bəy, bir dilmancı, bir Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) müavinini, bir də məni öz otağında saxladı. Çox sorular olundu. Bəy soyuq qanlılıqla soruları yanıtladı. Soruların biri Güneyə göreydi. Bey məni göstərərək o sorunun cavabını mənə buraxdı. Bey o sualı ən dərin tərzdə cavablandıra bilərdi. Ancaq, Bəy ən kiçik imkanlardan yararlanıb, başqalarını yetişdirməyə çalışardı. Bəyin ən önəmli özəliklərindən biri də, açıq və aydın sözlu olması idi. Həmin oturumda BBC jornalisti Bəyə belə soru verdi:

”Siz bir daha Azərbaycan Prezidenti olabilsəniz, yenə də Bütöv Azərbaycan və Güney məsələsini qaldıracaqsınız?” Bəy cavab verdi: “Siz bu milləti başa düşürsünüz. Mən millətimin xadimiyəm, mənim millətim 8 milyon deyil, O, 40 milyondu və rus- Fars hakimləri əlilə parçalanıbdır. Siz bilin ki, mənim prezidentiliyim Güneyi unutmaq şərti ilə olsa, mən kəsinliklə prezidentiliyi buraxaram.”

Görəvimin icabına görə, Təbrizdən gələn böyük insanlarımızdan birini bəyin evinə aparmalıydım. Onlar birinci kəz bir-birini görürdülər. Zamanı gəlincə evə girdik. Ev çox səssiz və qəribə görünürdü. Başqa günlərin səs-köyü və qalabalığı yox idi. Evin belə səssizliyini soruşdum. Bəyin köməkçisi Təbrizdən gələn qonağa görə Bəyin belə istədiyini söylədi. Bəlli oldu ki, Bəy heç zaman görmədiyi qonağı üçün bütün bugünə kəsinləşmiş ev görüşlərini ləğv etmişdir. Biz evə girərkən bəy özü bizi qarşıladı. O, qonaqla qucaqlaşdı. Onlar bir-brindən uzaq düşmüş, 50 illik qardaş kimi göz yaşlarını tuta bilmirdilər. Beləki, neçə anlıq bu nisgil tablosu, hələ də gözümün önündə yaşamaqdadır. Saatlar sürən bu görüşdə, Bəy Təbrizin küçələrini, döngə-buruqlarını, millətin yaşamını və hətta fotbolunun durumunu soruşurdu. Mən, Bəyi tanıyan bir insan kimi belə

durumlarla çox qarşılaşırdım. O, bir vətən sevdalısı kimi, dünyanın ən uca zirvəsini belə, millət bahasına dəyişən deyildi. Mən bir sözü təkrar-təkrar Bəydən eşidirdim. O, deyirdi: "Bu millət o zaman köləlikdən qurtarar ki, bütövlüyünə qovuşsun. Bəziləri Quzeydə oturub müstəqilləm sözünü dayanmadan deyirlər. Mən deyirəm ki, Quzey yalnız vətənimizin kiçik bölməsidir. Ölkəmizin böyük qismi özündən qat-qat zəyif və az olan Fars rejimi əlindədir. Bunu heç zaman Fars şovinistləri tək başına edə bilməzdilər. Bu böyük düşmənlərimizin əlilə olmuşdur. Nə zamanadək bu vətən birləşməyib, tam müstəqillikdən danışmaq olmaz! Bu bizim taleimizdir." Bəy hep belə oldu, belə yaşadı və belə ideya yaratdı. Orda ki deyir: "Mənim həyatımın mənası Bütöv Azərbaycandır." Əslində millətindən danışır. O, Səddamın rəsmi dəvətini rəd edən zaman belə cavab verir:

"Mən millətimin qatili ilə bir yerdə olanmaram. Onda Kərkükda məni lənətləməzlər mi?" Əbülfə Elçibəy 1970-lərdə rus KQB-sinin ən ciddi probleminə çevrilmişdir. O, rusların qarşılıqlı məslək rüşvətlərini ən cəsarətli reakiyonlarla cavablandırmışdı. Elə məhz ona görə, 1975-ci ildə komonist rejimi tərəfindən tutuqlanaraq ən ağır ruh və can təziqlərə qatlanmışdır. Bəy, bu haqda belə deyirdi:

"O zaman KQB məhkəməsində mənə üç suç kəsilmişdı. Mən özüm də bu suçlardan qaça bilmiyəcəyimi başa duşurdum. Ona görə də, yalnız millətimin milli hüquqlarından müdafiəyə üstünlük verirdim."

***Bəyin 3 böyük cinayəti(!?) bunlar idi:***

***A) Xalqlar Dostluğuna qarşı çıxmaq.***

***B) PanTürkizm ideyasını təbliq etmək.***

***C) Komonist Partiyası və Sovet dövlətinə qarşı dirənmək.***

Demək Bəyin bu böyük cinayətlərinin(!) mərkəzində dərin və dəyişməz vətən sevərliyi dayanmışdır. Göründüyü kimi rus və Fars

şovinistləri eyni kağazdan, davatdan və boyadan yararlanırlar. Bəy, millət sarından sevildiyi halda, illər boyu millətin malını, mənəviyyətini və adını oğürlayanlar tərəfindən vəhşicəsinə qamçılanırdı. Onlar bəyin istər 1990-dan öncə, istərsə də sonra, ən qatı düşməni oldular. Bəy özü bu haqda deyir:

"Onlar iki dəstədən ibarətdilər. Özümüzdən olan bilgisizlərə dua edirəm, tez-gec özlərinə gələcəklərinə inanıram. İkincilər isə düşmənlərdilər. Düşmən Türkün qeyrət və kiyasətini yaxşı başa düşür. Bizdən bizi daha da yaxşı tanıyan düşmən, bizim ayıq düşməyimizdən qorxuya düşür. Bu üzdən bizim ayıq düşməməyimiz üçün milyonlar dolar xərcləməkdən belə çəkinməyir."

Üzdən göründüyü kimi, Bəy heç də məzlum yaşamadı. O, ideyallı yaşadı. İri düşüncəli, açıq gözlü, uca sözlü və bir sözlə milləti kimi deyil, millətə görə yaşadı. Buna görə, millətini qara günə oturdanlarla heç barışmadı. Onlara dayima lənət yağdırdı. Bəy, yalançı arxadaşlıqdan, ufanmaqdan, yaltaqlıq və şəxsiyyət rüşvətindən nifrət edirdi, belə arxadaşları çox tez tanıyırdı, amma dilə gətirmirdi. Yalnız Türkiyənin Gülxana xəstəxanasındadır ki, gözü əbədiyyətə yumulan anda namərd dostlardan gileyə qalxır. O, uca Türk millətin, Azərbaycan Türk millətinə, Türk gəncliyinə, Azərbaycan gəncliyinə müraciətdə bulunduğu halda, bir ömür ona yalan danışanlara yalnız bir qisa xatırlatma buraxır:

"Mən çox gec bildim ki, xərçəng xəstəliyinə tutulmuşam. Ancaq siz bunu əvvəlcədən bilib məndən gizlətmişdiniz ki,...".

Bircə sözlə, Demokrat millətçi dediyimizdə, sadəlik, saf ürəklilik, tək davranışlılıq, sola, sağa, ifrat dinçiliyə bürünməmək kimi insancıl özəlliklər olarsa, gördüyüm, tanıdığım Elçibəy, bunların hamısını bir yerdə yiyələnmiş birisi idi.

Bəy, bir gərçək millətçi idi. Onu tanımaq üçün kəsinliklə Tatarı, Qıpcağı, Kərkəzi, Özbəki, Qırqızı, Qazağı, Türkmanı, Türkməni, Türkiyəlini də, Azərbaycanlı qədər sevmək gərəkir. O, ***"Mən Türkoğlu***

***Türkəm”***sözünü diyəndə, bir həyat fəlsəfəsini ortaya qoyurdu. Türk sözünü çeynə-tüpür edənlərə qarşı sərt olurdu. Onlara qarşı heç də həlim və yumuşaq davranmırdı. O, tutduğu yolda inadlı, ideyada sərt, millət qarşısında tabsız, onun düşməni qarşısında isə əyilməz idi. Bəzilərinə görə, güya Bəy kimsənin ürəyini incitmək istəməzdi. Bu söz təkli-dibli yalandır. Bəyin millət qarşısında sevdalı olmasının ən böyük təməli millət düşmənlərinə qarşın sərt ürəkli və intiqamçı olması idi. O, istədiyi an Tehranı və Moskvanı özünə dost tuta bilərdi. Zatən onlar bu işdə çox da israrlı və istəkli idilər. Onlar, Bəyin Azərbaycanda olan mənəvi gücünü yaxşı başa düşürdülər. Özəlliklə Moskva və Tehran bəyin ideyallarının onlara qarşı olduğunu bilir və bu qonuda bəlkə bəy ilə bir sazişə girməklərini umurdular. Ancaq, bəyi maraqlandıran yalnız millət və ölkə mənfəətləri idi. Onun qarşısında iki yoldan başqa seçənək yox idi:

“Ya milli mənafei tutub bağımsız olmaq gərəkir, ya milləti və torpağı öz aralarında pay-bölüş ədən düşmənlərlə bazarlığa getmək yolunu seçməlisən”. Bəyim hər atdığı milli-siyasi addım özgürlük və bağımsızlıq iradəsinin simgəsidi. O, yalnız öz milləti üçün çabalırdı. Ancaq nədənsə bu çabalar Moskva və Tehrana qarşı sərt pozosiyon sayılırdı. Özəlliklə rus hegemonluğuna qarşı atılan addımlar dünya miqyasında çox normal görünsə də, bölgədə bir siyasal skandala çevrilirdi. 1992-ci il hazıranda (Avqost) Ə.Elçibəy Azərbaycanın ilk demokratik seçimlərində böyük çoxunluqla prezident oldu.

O, ilk addımlarından birini rus ordusunun təmamilə Azərbaycandan çıxarılmasına həsr etdi. Russiyanın hədə qorxusuna qarşın daha da qorxmaz siyasət irəli sürdü. Bəy sonralar bu hərəkətini belə açıqlayırdı:

“Mən belə hesab edirdim ki, Azərbaycanın Güney hərəkatı həmişə rus dövlətinin əlilə qana bələşir. Əgər rusların ordusu Güneydən uzaqlaşarsa, Tehran tək başına Güneyin hərəkatını basdıra bilməz. Buna görə biran rusların Güneydən uzaq tutması lazim idi.” Əbülfəz bəy prezidentkən Rəfzəncanıdan İrana getmək üçün rəsmi dəvət aldı. Bəy bu haqda deyirdi:

“Onlar məni böyük təmtəraqla qarşılayacaqlarını deyir və bu səfərin Tehran-Bakı arasında dostluq vasitəsi olacağını vurğulurdular. Tehran məndən cavab gözləyirdi. Bu üzdən İran səfiri mənimlə görüşmək istəmişdir. Görüşdə Tehran səfiri Rəfsəncanının kətbi məktubunu və dəvətin təkrarını mənə çatdırdı. Mən səfirə söylədim ki, mənim üçün önəmli olan Təbrizdi, məni Tehran maraqlandırmır. Tehrana da gələsi olsam, öncə Təbrizə gəlməli, vətənimin torpağını öpməliyəm.”

Bəy millətinin düşmənlərinə qarşı belənçi idi. Bəyin hər bir ulusal davranışı Azərbaycan düşmənlərinin ürəyinə zəhərli ox kimi taxılırdı. O, Tehranın bir hədə notasına qarşı belə cavab verirdi:

“Əgər bir Təbrizdən danışırıqsa, Tehran bunu bilməlidir ki, ora bizimkidir. Orada yaşayan Türklər bizim vətəndaşlarımızdır. Əslində Tehran, Azərbaycanın iç işlərinə qarışmaqda haqlı deyil.”

Bugün, Ə. Elçibəyin bu kimi sözlərinə irad tutan siyasətçi müddəilərimiz, ən azından onun sərgilədiyi belə qorxmaz və açıq siyasətdən öyrəndiklərini unutmamalıdırlar. Bəy gərçək bir lider idi. O, hər şeydən öncə millətin gözündən qorxunu çıxarmağı, külə təsəvvürlərdən azad etməyi planlaşdırırdı. Bu yolda millətin özünə güvənən Bəy, hər an milləti uca tutmağa, ruhunu yüksətməyə çalışırdı.

*“Mən hamını qurtuluşçu yoluna çağırıram. Quzeydə erməni işğalçılarını rədd etmək, Dərbəndi almaq, Güneydə Fars şovinizmini, İran rejimini rədd etmək, Azərbaycanın müstəqilliyinə nayil olmaq, və Azərbaycanı birləşdirmək, bu ideya qalib gələcək! Bu, gec də ola bilər, tez də... ”*

Elçibəy həmişə Azərbaycan üçün baş bələsı olan quru siyasəti qarqışlayır, Azərbaycan dövlətini milli olmağa, milli–siyasi hədəf tutmağa çağırır:

“Azərbaycan bir bütöv olaraq düşünülməlidir. Bu düşüncə öncə dövlət tərəfindən irəli sürülməli, sonra millət içində adət olmalıdır.

Azərbaycanı kiçildib Quzey-Güneyə bölmək, mən Bakılıyam, mən Marağalıyam, mən Nəxcivanlıyam kimi ifadələr yerli bazlıqla üst-üstə düşür. Bu baxışı irəli sürənlər, özləri bilmədən əsir yaşamalarına imkan yaraldırlar."

Elçibəy siyasəti milli ideolojik təmələ dayanırdı. Bəyə görə, siyasət yalnız o zaman siyasət kimi düşünülür ki, ortada etnik problemlər kimi təyin edici sorunlar olmasın. Necə ola bilər ki, insan torpağının və millətinin düşmən əlində olmasını görsün və yalnız quru siyasətlə uğraşsın? Bəy belə hesab edir ki, Azərbaycanda səadət açarı bütövlük ideyasındadır. Ona görə başqa millətlərdən fərqili olaraq ölkəmizin demokratikləşməsi, çağdaşlığa qovuşmasının yolunu bütövlükdə görürdü. O, Azərbaycandan danışanda öncə milli dayaqları, sonra isə siyasi şərtləri önə çəkirdi. Bu üzdən Bəyə görə, Azərbaycanın dövlət siyasəti milli-siyasi mahiyyət daşımalı və bu qonuda israrlı olmalıdır.

Əbülfəz Elçibəy dərin milli –siyasi xadim kimi, həm də böyük idolog və sosioloq idi. 1975-ci ildə Komonist Partiyası məhkəməsində dediyi söz bir ideolog-sosioloq insanın ifadəsi deyilmi ?

"Başqa xalqların payasına söykənən imperiyalar dağılar.... Bu quruluş dağılacaq!" Milli düşmənin üzünə baxa-baxa onu kiçiltmək ona vurulan ən böyük ruh darbasıdır. Düşməni ruhdan salmaq metoduna dayanan milli liderlər xiyal pərvər sanılsalar da, əslində heç də belə deyil. Bəy millətinin var potansiyalını bütün boyutları ilə tanıyır, ölçüləyirdi. O millətin böyüklüyündən doğan məğlubiyyəti doğal sanır, birgün bu böyüklüyün yenidən qurulacağına da doğal yanaşırdı:

*"Millət, millət olarsa üzərinə əyləşən bütün kədər qubarları silib, günəşin parıldamasını yenə görəçəkdir."* O, milli inamı və iradəni bütün qələbələrin anası hesab edir, inamsız toplumu bədbəxt və külə sanırdı. İdealizmi realizmin beyini adlandırırdı. Bəyin ülkü düşüncəsi məhz millətinə aid deyildi. O, ümum insanları birlikdə və barış içində görmək istəyirdi. Ancaq Bəyə görə, hər millət öncə öz səadət yolunu tapmalı, o yola çatmaq üçün sobjələrini gücləndirməlidir.

“Bir şer var. İstəyirəm ki, o, bizdə el şerinə çevrilsin”:

Orda bir yol var uzaqda;
O yol bizim yolumuzdur!
Dönməsək də, varmasaq da,
O yol bizim yolumuzdur!

Özünü aydın sanıb, millətini bəyənməyən bəzi xəstə soydaşların çamuru hep millətçi kəsiminə atılarkən, Bəy də paysız qalmayırdı. Bəyin açıq sözlü olması, hamıdan artıq Komonist partiqratları, rüşvətçi broqratları, rus- Fars vurğunlarını və Azərbaycanı içdən bölmək istəyənləri rahatsız idirdi. Bəy, bu kəsimə heç zaman üzü gülər olmadı. O, belə düşünürləri cəmiyyətdən təcrid olunmuş əxlaq yoxsunları adlandırırdı. Bu millətin onlardan hər an zərər görəcəyini dilə gətirirdi:

*“Millətinə yalan danışanlar, ən başda millətin inkişaf və demokratiya yolunu kəsirlər. Onlar əslində öz balalarına da rəhm etmirlər!”*

Bəy millətimizi çox dərindən tanıyırdı. İnsanların haqqında az danış sa da onların siyası durumunu, nə yerdə olduğunu, kəsim bağlılığını gözəl bilirdi. Bəzən kimsələrin haqqında Bəyə uzun-uzun şikayətlər gəlirdi. Bəy bu gileyləri çox hövsələylə qulaq asır, şikayətin müsbət-mənfi yollarını bir-birindən ayırır, barış yollarını axtarırdı. Həmin şikayətlərin biri mənim üçün çox maraqlı idi. Tanış olduğum bir şaki qardaşın cavabında, Bəy belə söylədi:

“Sizcə, mən ətrafımda keçənləri bilmirəm mi? Onlar gecə-gündüz işləyir təşkilat yaradırlar, siz isə gün ortaya dək yatır, axşamlar isə çayxanada onların dalında danışırsınız.Yaxşı olar ki, əsil günahı özünüzdə axtarasınız.”

Bəy çox səmimi və düzgün qazi idi. Belə hallar BAB-da, AXC-də də çoxlu baş verirdi. Özəlliklə BAB-da olduğuma görə bu kimi hallarla hər gün üzləşirdim.

Əbülfəz Elçibəyin ən önəmli özəlliklərindən biri də tarixə baxışı idi. Baxmayaraq ki, Bəy hər Azərbaycanlı kimi tarixi sovet dövlətçiliyi etgisi altında öyrənmişdir. Amma gördüyüm klasik tarixçilərin təzi ilə Bəyin baxış açısı tam ayrıydı. O, tarixi nağıl kimi dəyil, torpaq ürəyində gizlədilən həqiqətlər kimi axtarırdı. BAB-ın dəyirmi masalarında(konfrans) tarixçilərlə baş-başa qoyan Bəy, tarixin ozmanlar görməyən üzünü onlara göstərirdi. Bəy tarixçi ozmanlar qarşısında yeni-yeni sorular qoyur, onları daha dərin bilgilənməyə sövq edirdi. Bəyə görə, milləti küləlikdən qurtarmaq üçün yöntəmli tarix bilgisi gərəkir. Toplumun uluslaşması metodik bilgiləndirmə istərsə, onun təməlində tarix bilgisi yatmaqdadır. Tarix düşüncəsindən yoxsun bir toplum, öz milli psikolojisini, etno-coğrafi varlığını, sosial kimliyini, ülkü düşüncəsini, ulusal əxlaqçılığını, dil fəlsəfəsini də yiyələnə bilməz. Bu üzdən, ən kiçik gərçəkliyini görməkdən belə aciz qalar. İçdən asimilə olmağa başlayan bu toplumun ən kəsərli anti-asimilə vaksəni isə tarix bilgisidir. Tarix bilgisi bir toplumun ulusa dönməsi üçün ön şərtdir. Əsir toplumlarda isə bu şərti yaxalamaq özü ən böyük milli dava sayılmaqdadır. Normal olaraq bu sürəc səssiz olsa da, gələcək səsli hərəkatın anası və təməli sayılmalıdır. Elçibəyçi tarix baxışı məhz belə düşüncənin tərəfindədir. Tarix mifçilik demək deyil, tarix yaradan bir millətin mif yaratmağa gərəyi yoxdur.Türk tarixinin bütün gərçək qaramanları, başqa millətlərin yaratdığı miflərdən qat-qat çox və uludur. Təki onları öncə millətimizə və sonra dünyaya tanıtmaq gərəkir. Çünki, dünya bu dərəcə qəhrəmanlıq mərkəzi olan millətə maraqlanar. Onunla yaxından tanış olmağa çalışar. Elə bu özü də, tarixsəl təbliğat özlüyündə bir milli çabadır. Yazıqlar olsun ki, Türk milləti bütünlükdə bu çabanın nə dərəcə önəmi olduğunu hələ başa düşmək istəmir.

Bəyi millət içində nüfzdan salmağa çalışan bəziləri daha da mızı və iki başlı siyasət yürüdürdülər. Bu iki üzlü və təpə gözlü cənablar, Əbülfəz bəyin çox yaxşı insan, bilgin alim olduğunu diyərək, onun siyasətçi olmadığını və ya siyasətdə çıxarsız olduğunu tez-tez deməklə, əslində bəyin simasını ləkələməyə çalışırdılar. Bəy, belə zəhərli propakandaların

qarşısında heç zaman enerji qoymurdu. Bəyə görə, demokratiya yolunda güc tətbiq emək, yalnız millət yolunda olmalıdır.

“Biz acı çəkə-çəkə demokratiyaya yol tapmalıyıq. Zamanımızı özümüzdən deyil, millətimizin azadlığı və demokratikləşməsi yolunda xərcləməliyik.” Diyən bəy, necə özünü savuna bilsin ki! Bəy klasik siyasətçilər kimi, siyasətə gəlmədi. O, millətinin gününə yana-yana milli-azadlıq savaşına qoşuldu. Millətini azad etmək, onun milli kimliyini hüquqlaşdırmaq, Bütövləşmə, Millətləşmə, Dövlətləşmə devizini beynində yerləşdirmək üçün var-yoxunu ortaya qoydu. AXC-eylə Quzeyi bağımsıslığa qovuşdurdu, BAB-ilə isə Güneyin və bütöv yurdunun qurtuluş meydanına ayaq qoydu. Bəy siyasətdən tarix elminə deyil, tarix bilgisindən, dil və el sevgisindən siyasətə gəldi. Bu üzdən millətini sevə-sevə, millətinə yana-yana şam olub əridi. Onun siyasətə çəkilməsi, siyasətə deyil, millətinə olan sevginin göstərgəsi idi. Millətini qara gündən aydınlığa, köləlikdən ucalığa daşımaq əzmində olan yolbayımızın yolu uzaq keçmişimiz, bugünümüz və yarınımızdır. Bütöv, laik, çağdaş Azərbaycanımızın ölməz yolbayının düşüncəsi əbədi yaşayacaq!

Lakin bunlara rəğmən Bəyin iki böyük yalnışının ulusumuzun üzərində dərin olumsuz etgi buraxmasını da qulaqardı edə bilmərik. Ölməz Elçibəy, bütün geniş düşüncəsi və detallar üzərində etdigi diqqətinə rəğmən iki böyük stratejik xətaya yol verdi. Bu iki xəta aşağıdakılardır:

1- 1991-ci ildən Azərbaycanda yaranan siyasal boşluğu milli altirnativ olaraq Azərbaycan Xalq Cəbhəsi doldurdu. Xalq Cəbhəsinin içində çeşidli düşüncələr olsa da, Ə. Elçibəyin çevrəsi birinci söz sahibi idi. 1992-ci ildə Bəy, millət tərəfindən altirnativsiz Milli Lider və yeni yaranmış Cümhur başqanı seçildi. Azərbaycan Palementi ilk oturumunda Azərbaycan Respoblikanın rəsmiyyətini dünyaya elan etdi. Birinci böyük və stratejik xəta üz vermişdir. Bəyin milli düşüncəsinə, Türkçülük ruhuna, bütövçü məfkürəsilə tanış olan milyonlar soydaşımızın kəsin arzusu Quzey Azərbaycan Türk cümhuriyyəti adının doğulması idi. Bəyin karizmatik və sevilən şəxsiyyəti bu ilham verici adın ortaya gəlməsi üçün çox uyğun idi. Bəlkə beş-on KQB-ci, İran dövləti boşuna bağırıb-

çığırardılar. Ancaq olunan iş olmuşdur. Azərbaycan azad Quzey və əsir Güney statusu qazanmışdır artiq. Çox hayıf oldu. Böyük bir fürsət əldən qaçdı. Azərbaycan Türklüyünün düşmənləri bu qəflətə görə sevindilər. Millət və dövlətimizin uluslararası bölünmüş bir ulus və vətən statusu qazanması imkanı öz əlimizlə yandı. Dünyanın gözü qarşısında 1813 və 1828-ci gərçəkləri sərgiləmək imkanımız var idi. Şübhəsiz, bu taslağın Cəbhəçi məclisdə yüksək oyla keçməsi mümkün idi. Bu taslaq anayasada qeyd olunan zaman Azərbaycanda ulusal bayram olacaq idi. Çünki, vurğulandığı kimi milyonlar Azərbaycan Türkünün gün diləyini olaşdırmaqda idi.

2- İkinci böyük yalnışlıq isə, sadə bir basqı nəticəsində hakimiyyəti buraxıb Bakıdan getmək idi. Bəy, dövləti qorumaq üçün bayraq andı içmiş, son gücünədək bu dövlətin qorunmasına söz vermişdir. Bəyin Kələkiyə getdiyi gün Güneydəki milli fəallar üçün bir xəyalqırıqlığı anıydı. Y`əni dövləti öz əlimizlə təslim etdik. H. Əliyevdə bu millətin övladi idi. Bunda söz yoxdur. Amma, millətin seçdiyi cümhurbaşqanı deyildir. Hələ, bir milli ideyal insan heç deyildir. Bəyin hakimiyyəti buraxmasıyla ən çox sevinən dövlətlər kimlər oldu !? İran adlanan Farsçı dövlət, ürəyimizin başında çıxan xərçəng tümürü , erməni və tarixini Türk düşmənliyi üzərində qurmuş rus dövləti!

Bütün illərini bu qasib düşmənlərə qarşı qoyan Ə.Elçibəyin bu iki xətasının olumsuz etgisi çox dərindir. Nə yazıq ki, bu xətaların cübranı üçün artıq ümid yoxdur. Ümidini kəsmək istəmiyənlərin isə qarşısında yarı ciddi, yarı şaka bu cəvablar ola bilər: Əgər, İ. Əliyev birdən dönüb millətçi prezident olarsa! Əgər, Azərbaycan mafiyasının ilişgiləri Tehranla qoparsa! Əgər, Türkiyədə bir Türk iqtidarı işbaşına gələrsə və Azərbaycan hakimiyyətini bu işə sövq edərsə! Əgər, Putindən yaşıl çiraq göstərilərsə! Və başqa əgər şakalar ortaya gələrsə!!!

**Türk gəncliyinə müraciət**

“Gənc Türk! Böyük gələcək sənindir! Sən özün buna zamanın hökmü ilə hazırlaşırsan. Bu hazırlıq təbiidir! Bunu yerinə yetirmək üçün

milyonlarla Türk gənci bu hədəfə yürüyəcək. Bu hədəfə çatmaq üçün iradəli çalışacaqsan, dünya elmini ələ alıb, böyük mədəniyyət yaradıb istəyinə çatacaqsan. Bütün böyük hərəkatlar, yürüşlər hədəfə çatmaq üçün bir sevda olacaqdır. Sonucu isə böyük mədəniyyət yaratmaq olacaqdır. Bütün bəşəriyyət tarix boyu yürümüş, son nəticə isə mədəniyyət yaratmaq olmuşdur. Türk dünyaya yeni bir mədəniyyət gətirəcəkdir. O mədəniyyətə mən indidən Xoş gəldin deyirəm! Sənə uğurlar olsun, ulu Türk!"

*Ə. Elçibəy*

*Ankara Dövlət xəstəxanası*

*19.07.2000, saat 3.00*

**Azərbaycan gəncliyinə müraciət**

Azərbaycan gənci! Sən bil ki, Türk gəncliyindən ayrı dəyirsən. Qarşında böyük hədəflər, ağır vəzifələr dayanır. Çiyinlərində ağır bir yük, dev yükü var. Ancaq sən onu daşımağa qadirsən. Sənin elə gücün var ki, devlərin daşımiyacaq yükü sən daşıya biləcəksən. Sənin damarlarındakı qan elə qüdrətli bir qandır kı, hər bir çətinliyin öhdəsindən asanlıqla gələ bilərsən! Sadəcə buna sənin istəyin lazımdır. Qarabağı sən azad edəcəksən! Azərbaycanı sən birləşdirəcəksən! Mən buna əminəm və çox inanıram! Azərbaycanda elə bir gənc tapmaq olmaz ki, Qarabağın azadlığını, Azərbaycanın bütövlüyünü istəməsin. Millətin bu arzusunu yerinə yetirəcəksiniz. Sizə uğurlar! Tanri yardımçınız olsun!

*Ə. Elçibəy*

*Ankara Dövlət xəstəxanası*

*19.07.2000, saat 3.30*

# 8. BÖLÜM

## Rus Dövlətçiliyinin Dirçəlişi, Türk Dövlətlərinin Çöküşü!

### ilişgilər, bağlantılar, erməni faktoru və sonuc:

### 1768-1829 illər arası, Rus dövlətçiliyinin ayaqlanması

Tarixsəl bir köç yolu olan Önasiya və Qafqazlar zəngin doğasıyla[260] zaman sürəcində kəsintisiz stratejik boğaz olmuşdur. Bu üzdən, o bölgələri bilmədən son 200 illik rus-Türk ilişgilərini araşdırmaq və anlatmaq mümkün olası deyildir.

10- minlər illik yaşam gələnəyi ilə saya gəlməz kültürlərin yaranmasına analıq edən bu geniş bölgənin önəmi heç zaman azalmamış və dəyərini itirməmişdir.

Rusların 15-ci əsirdən yavaş-yavaş dirçəlişı və 18-ci yüzillərdən başlayaraq imperatorluq gücünə yiyələnməsi, həm də Türk varlığının böyük təhlükəyə girməsi ilə eyniləşmişdir. 19-cu yüzilliyin başlanmasıyla

[260] təbiətilə

bu təhlükə yalnız Ortasiya deyil, bütün Avrasiyanı öz hədəfinə almışdır. Ruslar böyük amacları uğruna Azərbaycanı və sonra Türkiyəni öz kontroluna keçirməyi istəyirdi. Bu üzdən bəzən dostluq, bəzən isə, ən ağır hərbi və basqı siyasətilə irəli gəlməkdeydi. İki Türk Qacar və Osmanlı dövlətlərinin anlamsız qarşı durmaları isə, rusların xeyrinə edilən ən inanılmaz xidmət idi. San Peterzburg liderlərinə görə, rusların batı və güney yolunu kəsən bu iqtidarlı Türk dövlətləri aradan getməli və ya elə halə gəlməli idi ki, rus imperatorluğunun dünya dövləti olmaq yolunda əngəl olmasınlar.

18-ci yüzilliyin ilk yarısında qafqazlarda üçlü güc tətbiqini görmək olur. Bəzi xanlıqlar *"Köprülülü Abdullah Paşa*" qoşunu himayəsində, bir neçəsi Qacar idarə sistemi altında və qalanı isə, ya bağımsız və ya rus birlikləri qorumasındaydılar. 1768-1774-ci illərdə, Osmanlı-rus savaşının sonunda „Krım xanlığının" osmanlıdan qoparaq rusların əlinə geçməsi ilə durum Türklərin ziddinə çevrildi. Ruslar bu savaşdan sonra həm psikolojik və həm də stratejik cəbhədə Osmanlı dövlətinə üstünlük qazandılar. Krım qalasını ələ geçirən ruslar, Önasiyanın bütün çevrəsini də ələ keçirib, güney qafqazın divarlarına dayandı. Soyuq və buzlaq yerlərdən toplanan rus ordusunun Xəzər boyu isti və ılıq havada yerləşməsi ilə, geniş ailə köçləri də başlamış və bu üzdən bölgə sadəcə stratejik deyil demografik düzeyi də ruslaşmağa başlamışdır. Bu siyasət rusların millətləşmə yolunda ən önəmli fəsillərindən birisidir.

1801-ci ildən etibarən rusların Qafqaz yürüşü başladı. Öncə, Abxaziya və sonra Gürcüstan basqılandı. Qacar hakimiyyətindən qopan və rus qoşunlarının tabeçiliyinə keçən Qarabağ, Şəki və Şirvan xanlıqları rusların Azərbaycana girmək yolunu açdılar. Rusların irəliləməsi ilə canlarını təhlükədə görən ayrı-ayrı önəmli xanlıqlarda bağlanma danışıqlarına çəkildilər. Bu ara, rus general Tsisyanofun bölgədə atçaptırması və birər-birər xanlıqları təslimə çəkməsinə rəğmən, Gəncə xanı Cavad Xan, rus imperatorluğunu rəsmi tanımıyacağına və rus ordusuna keçid vermiyəcəyini basa-basa vurğulayırdı. O, deyirdi: " Ruslar mənim xalqıma və torpağıma hakim olmaq üçün öncə mənim qanımın üstündən keçməlidirlər!" Rus qoşunu Cavad Xanın dirənişini sındırmaq

üçün 3 aylıq gərgin[261] savaşa girmək zorunda qaldı. Ruslar, ağır itgi verəndən sonra, 1804-ci il yanvar ayında Gəncəni alaraq Cavad Xanı, Oğlunu və bütün yaxınlarını qəddarcasına öldürdülər. Cavad Xan, ölmədən öncə Azərbaycan xanlıqlarını birləşdirmək üçün ən candan çalışan bir Azərbaycan sərkərdəsi idi. Elə buna görə də, rusların həm ən nifrət edtikləri və həm də, ən qorxduqları Azərbaycan Xanıydı. Cavad xanın ölməsilə, Qacar qoşunu rusları geri qaytarmaq üçün daha da tədirgin durumda girişimə girdi. 1805-ci ildə Fətəli Şah Qacar, rus Tsisyanov və Qarabağ xanı, İbrahim Xəlil Cəvanşirin dirənişini sındıraraq Şuşanı quşatıma aldı. Tsisyanofdan yardım istəyən İbrahim Xəlil aralarında anlaşma imzalandı. Bu anlaşmaya iki əsas daxil olundu.

1- İbrahim Xəlil rus İmperatoluğunu rəsmi tanıyacaq.
2- Rusların qoruması altında olan ermənilər Qarabağa yerləşəcək.

Bu illərdə ruslarla çiyin-çiyinə savaşan erməni silahlıları Qacar qoşunları qarşısında rusların ön səngəri sayılırdı. Onlar, Osmanlıların dalı çəkilməsindən və rusların bölgədə kölgə salmasından ruhlanaraq Azərbaycanlılara qarşı cinayət işlərinə başlamışdırlar. Ermənilərin dinsəl millətə çevrilməsi, elə bu zamanlardan xızlanmışdır. Ermənilərin vahid mərkəzə dayanması və ulus-din ideyallaşmasında ən böyük rolu Qudsal Erməni Eçmiyazin Kilisası oynamaqda idi. Bu kilisa, Türklərə qarşı erməni nifrətini ayıdır, ruslarla birlikdə örgütlənmə işi aparır, erməniləri dərs və ticarət adına Rusiya və başqa ölkələrə göndərir və ən başda erməni diasporasını qurmağa çalışırdı. Elə məhz həmin mərkəzdən Daşnak və Asala kimi örgütlərin anti Türk ideolojisi formalaşırdı. M. S. Ordubadı-nın Qanlı Sənələr kitabı, bu kilisanın yüz il sonraki, Azərbaycan qətl-amlara başçılıq etdiyini təsvirə çəkmişdir.

Türkiyənin Krım savaşında məğlub olması, başqa yandan isə Osmanlı imperatorluğu torpaqlarının doğu və batısında çox ağır basqıların oluşması, onların Qafqazlarda olan gücünü olduqca azaltmışdır. Qacar ordusunun isə, uzun zaman Araz və Muğan çevrələrində yaylaq-qışlaq etməsi əskərlərin ayaqdan düşməsinə nədən olmuşdur. Rusların güneyə

[261] ağır, şiddətli

doğru irəliləməsindən daha iztirab çəkən başqa imperatorluq İngiltərə idi. İngiltərə, bölgəni hələlik də olsa, əldən vermək istəmirdi. Buna görə, Qacarların yardımına qalxaraq ən bilgin fiqorlarından olan „Sir John Malcolm,la“ sayılı hərbi təlimçilərini silah-sorsatla birlikdə o cümlədən ən azı 30 top atan aparatı Araz yaxasında yerləşdirmişdir. Bölgə olduqca gərgin durumdaydı. 1806-da Osmanlı imperotorluğu Rusiyaya qarşı savaşa girdi. 1807-də Napolyon Rusiyaya yürümək ərəfəsindeykən, ruslarla barış anlaşması yapdı. Bu anlaşma barişdan çox İngiltərəyə qarşın Rus-Fransa birliyini yaratdı. Həmin il, rus qoşunları Azərbaycan işini bitirmək yolunda Bakını Xəzər tərəfindən sökməyə başladı. Bu quşatmada Tsisyanovun ölümü bölgəni lap qarışdırdı. Bakı çöküşü 1807-ci illədək uzandı. 1808-də Abbas Mirza Nəxcivanı geçərək Marşal Qodoviç liderliyində olan ruslara çoxdan gözlənilən böyük darbanı yendirdi. Lakin, rusların əks ataqlarına[262] uğrayan qorxmaz Abbas Mirza Araza geri çəkilmək gərəyində qaldı. 1809-da Güneylə Quzey bitişiyində olan Lənkran xanlığı da, rusların tabeliyinə geçdi. Osmanlı-Rus cəbhəsində durum rusların xeyrinə dönüşməkdeysə, Misir və Balkanlarda anti Osmanlı hərəkat İngiltərə və Fransanın imperiyalisti güdümlərinə təkan verdi.

Bu iki sümürgəçi imperatorluğun Osmanlı təsərrüfatı alanında yerləşmə çabaları bir an dayanmadan davam edirdi. Onlar Qacar, Osmanlı, rus savaşlarından yararlanaraq neçə standardlı siyasət yürüdürdülər. Bir gün Qacar, bir gün rus, başqa gün isə Osmanlının arxasını saxlayırdılar. Bu siyasət əslində yalnız Qacarla Osmanlı dövlətlərinin sürəcli olaraq ayaqdan düşməsinə nədən olurdu. İki Türk dövləti hər gün gücdən düşür, sürəcli Fransa və İngiltərənin əlində oyuncaq durumuna düşürdülər. Sözsüz ki, bu gedişat, Türk ulusunun bir başa imhasilə bağlı bir çaba idi. Və ən sonunda, Qafqazların bütünlüyünün rus etgisi altına keçməsindən sonra, **iki Türk dövləti – Osmanli və Qacar- ortada olan 300-illik anlamsiz düşmənçiliyə son qoyma düşüncəsinə vardilar!!!** Bu olay 1810-cu ildə Türk Qacar dövlətinin bütün Azərbaycan başçısı və sülalə dövlətinin ikinci (Vəli-əhd) şəxsityyəti tərəfindən önə çıxdı. Osmanlı

---

[262] həmləsinə

dövlətin bu önəriyə[263] verdiyi önəm, öncə dostluq körpülərinin yaranması sevincini yaratsa da, Araz buyunca iki qoşunun birləşməsini sağlaya bilmədi. Etnik və soykök bilincinin yoxsunluğunda boğulan hər iki Türk hakimlərinin böyük qəbahəti və irticaçı zehniyyəti nədənilə Abbas Mirzanın bu gərəkən çabası da yerdə qaldı. Hətta sonralar bəlli olacağı kimi, bu iki düşmən qardaşın ortaq düşmən tərəfindən duzağa düşərək yənidən bir-birinə qarşı savaşa girməsini və qalan son güclərini də, birlikdə tükətdiklərini görəcəyik. Çağdaş və bilimsəl yaşam sistemindən uzaq qalan hər iki Türk hakimiyyətinin bir-birinə qarşı özgə davranışları millətimizin və torpaqlarımızın sümürgə siyasətinə uğramasında ən böyük rolu olmuşdur desək yanılmamışıq. 1812-də rusların üstünlüyünü möhkəmləndirən Büxarest anlaşması imzalandı. Bu anlaşmayla 6-il sürən Rus-Osmanlı savaşı sona ərdi. Müqaviləyə görə, Osmanlı dövləti rus dövlətinin Qafqazda əldə etdiyi hegemonluğunu rəsmi tanıyır, Bölgədə olan bütün iddialarından vaz keçir və savaşdan geri çəkilir. Beləliklə, rusların irəliləməkdə olan geopolotik stratejisiləri böyük bir çaları başından aşırır.

Aslanduz[264] Savaşı və Gülüstan Anlaşması! Ruslarla 1807-də dostluq anlaşmasına qol atan Fransa, 1812-də Peterzburqa[265] sarı yürüşə başladı. Tarixsəl savaşlarda öz yerini alan olay bütün şiddətlə davam edirdi. Bu arada Qacar qoşunları ruslar əlində olan Türk torpaqlarını qurtarmaq üçün Abbas Mirza başçılığı altında geniş hərəkətə girdi. Öncə, rus ordusunu geri oturdan Türk Qacar ordusu zaman keçdikcə rusların güclü ordusu qarşısında dayanamadı və çoxlu Azərbaycan və başqa Türkləri itirərək Arazın aşağısına çəkildi. Ruslar Arazdan keçərək qarşılarında olan bütün şəhərləri işğal altına aldılar. 1810-cu ildə rəsmiyyət alan savaş 1813-də Qacar Türk dövlətinin təslim olması ilə başa çatdı. Ruslar Napoleon,la daha böyük savaşda uğraşdıqlarına[266] görə, Qacar dövlətinin önərisini qəbul etdi. 1813-10-12 günü Gülüstan kəndində (Qarabağda yerləşir) Qacarla rus yetgililəri arasında imzalanan anlaşmaya

[263] təklifi
[264] Əslanduz
[265] San Peterzburq: Rus imperatoru Pieterin zamanında tikilmişdir. Rus tezarlarının başkəndi olmuşdur. Rusiyanın ən önəmli limanı və moskvadan sonra ən böyük şəhəridir.
[266] məşğul olduqlarına

görə, Qafqazın güneyində yerləşən bütün quzey bölgələri, Dərbənd, Gəncə, Qarabağ, Bakı, Talış, Şirvan, Quba, Şəki xanlıqları ruslara verilir. Yalnız İrəvan və Nəxcivan xanlıqlarının ortaq nəzarətdə qalması nəzərə alınır. Başqa yandan isə, rus tacirləri öz ölkələri kimi, Qacar sınırları içində sərbət ticarətlə məşğul olacaqlar. Xəzər dənizi bütünlüklə rusların hakimiyyətində olacaq. Qacar hakimiyyəti savaş ödəməsi verəcək v.b.

Sözsüz ki, bu savaşın başlanmasında din cəhaləti təsirsiz olmamışdır. Qacar və rus ordularının, habelə dövlət tabanının eşit olmadığı bir yerdə, rusların bütün alanlarda Qacarlara qarşı böyük üstünlüyünü düşünməyən din rəhbərləri millət içində etgi buraxaraq onları kafirlərə (ruslara) qarşı cahada çağırdılar. Və milləti pis günə qoydular! Gülüstan faciəsindən sonra, bu milli utanca boyun əyən Qacar Türkləri belə, rəzalətin dərinliyini qəbul edə bilmirdi. Qacarlar bir daha Azərbaycanı rusların əlindən qurtaracaqlarına ümidlə baxırdılar. Bu üzdən rus qoşunuyla bir daha savaşma havasını bütün Qacar sırnırlarında yaşadır, Məmalike Məhrusə vətəndaşlarını hazır olmağa çağırırdı. Başqa yandan isə, İngiltərə imperatorluğu da, rusların əli-qolu sallaq ingilis sümürgələrinə yaxınlaşmasını heç xoşlamayırdı. İngiltərə dövləti, rusların stratejik planında Hindstan sularının olmasını bilirdi. Bu üzdən 1814-də Türk Qacar dövlətilə İngiltərə dövləti arasında çox alanlı ittifaq anlaşması imzalandı. Türk Qacar ordusunun bütün eyitim və quruluş sistemi dəyişdi. Təbriz bu yeni sistemin uyğulama mərkəzi seçildi. Rusların Qafqazlarda zorakılığı və xalqlara qarşı ağır alçadıcı siyasəti, çeşidli xalqlar tərəfindən əks qarşı durmalara və dirənişlərə nədən olurdu. Taza yuxudan ayılanlar kimi Bakı xanlığı başda olmaqla Azərbaycanın ayrı-ayrı xanlıqları qacarlarla gizli görüşlər aparır və Türk dövlətilə yeni ilqarlar bağlanırdı. Məmləkəte Məhruseye Azərbaycanda (Güney Az.) və başqa Qacar məmləkətlərində insanların yeni savaş havasına girməsi, Məscidlərdə kafirlərə qarşı cahad səsləri, dövləti olacaq savaşa sövq edirdi. Bu arada Şah Fətəlinin bir daha Osmanlı dövlətinə əməkdaşlıq və ittifaq önərgəsi iki dövlət arasında yeni ilişgilərin yaranmasına ümidvarlıq yaratdı. Nə yazıq ki, bu kəz də Osmanlı dövləti qacarlar tərəfindən uzanan dostluq əlini geri çevirdi.

Bu hərəkət Qacarla Osmanlı dövlətlərinin ilişgisini yenə gərginləşdirdi. İki Türk dövlətinin su və hava kimi qarşılıqlı əməkdaşlığa hətta birləşməyə ehtiyacları olan zaman, yenə rus siyasəti ara bulandırdı. Ruslar bu bulanıqdan yararlanaraq Qacar qoşununun üzünü Qafqaz və Azərbaycana deyil, Osmanlı cəbhəsinə çevirməyi bacardı. Qacar qoşunu yola düşərək Bəğdada, Ərzruma, Bayəzidə, Bitlisə sarı irəlilədi. İstanbulda durumu ağır görən Sultan Mahmut atəşkəs önərdi. Qacarla Osmanlı dövlətləri arasında silsiləvi utanc verici barış anlaşması 1823-də Ərzrumda bağlandı. Doğrudan da bu sətirləri yazarkən ataların vərindən utanmamaq mümkün olmayır. Bu necə məntiq və necə insanlıqdır? Ortaq düşmən, Türklüyü yer üzündən silmək istəyir. Türk torpaqlarını Türklərdən boşaldaraq onun yerinə böyük amaclı kristiyan tuxumu əkmək istəyir. İstər Anadoluda, İstər Azərbaycanın Güneyində və Quzeyində yüz minlər insanımızın qızıl qanının axmasına dair rəhbərlik etmək istəyir. Və bizim atalarımız bu düşməni görməməzlikdən gələrək bir-birinin ürəyini dəlirlər. Adam, ulusumuzun başına gələn bu bəlaları görüncə qalır ki, öz atalarının idrakına lənət yağdırsın, yoxsa, düşmənin zəkasına səcdə etsin!

Osmanlı qoşunu, Qacar savaşından qurtararaq Yunan cəbhəsinə uzandı. Qacar qoşunu isə Təbrizə dönərək yenidən toparlanmağa başladı. 1825-də Rus imperotoru Aleksanderin ölməsi və Qafqazlarda, Dağıstanda habelə Rusiyanın başkəndi Sanpeterzburqda çarlığa qarşı qalxışların görünməsi Qacar dövlətini hərəkətə saldı. Fətəli Şahın əmrilə Qacar qoşunu Arazı keçərək bütün sınır boyu geniş hücüma başladı. Axısqa, Bakı, Gəncə, Lənkəran, Şamaxı, Şirvan, Qarabağ, Şəki, Nəxcivan Türkləri bütün gücüylə Qacar qoşununun yanında dayandılar. Ancaq silahlı ermənilər Qarabağın Qacar əlinə keçməsini əngəlləməyə çalışdılar. Rus-Erməni birlikləri yeni rus qoşunlarının gəlməsinədək böyük dirənişmeylə Qarabağın azad olması qarşısını aldılar. 1826-ci ilin başlanğıcında böyük qələbələrlə başlayan ikinci Rus- Azərbaycan(Qacar) savaşları ağır yeniş-yoxuşlarla davam edirdi. Hər iki tərəf çoxlu itgi verirdi. Savaşın ən ağır yeri Qarabağ və Şuşa çevrəsi idi. Azərbaycan qoşunlarının güclü rus qoşunları qarşısında dayanacağı gündən-günə azalırdı. Rus qoşunu, irəliləyək Arazın başa-başını Qacar qoşunlarından boşaldıb, Güneyə axındı. Ruslar Nəxcivanı alandan sonra Xoy istiqamətində irəliyib, 15

oktobr 1827 günü Təbrizi aldılar. İki yöndə yürüyən rus qoşunu Urmu və Ərdəbili alandan sonra Tehrana sarı yola duşdu. Qacar hakimiyyəti mütləq çöküşün[267] qarşısını almaq üçün ruslara təslim olmaq şərtini qəbul etdi. İkinci böyük faciə Azərbaycan Türk Millətini çökdürdü. 10 fevral 1828 Türkmənçay anlaşması dağılmış bir milləti tikə-parçalara böldü. Türkmənçay müqaviləsi əslində təkcə torpaq və millət deyil, Qacarları da içdən parçaladı. Gülüstan anlaşmasında olanların hamısı öz qüvvəsini saxlarkən, Qacar dövlətinin illik büdcəsinin qat-qat artı, savaş ödəməsi üçün nəzərə alındı. O zamanın Rus rublu hesablaması ilə 30 milyon təzminat Qacarlara görə, ödənilə bilməz bir para sayılırdı. Ruslar, bu para qarşılığında Azərbaycanın Güneyini təzminat kimi qullanmaq hüququna malik olmuşdur. Bu, özlüyündə bir işğal sayılırdı. Həmin illərdə Qaradag mahalının, Təbriz dərəsinin, Muğan və Savalan hənədvərinin yeraltı qaynaqları rus şirkətləri vasitəsilə sökülür və rusiyaya daşınırdı. Başqa yandan isə, anlaşmada ermənilərin Qacar Məmalike Mehrusəsindən Qarabağa könüllü və ya basqıyla köçürülməsi yazılmışdır. Ruslar, Qarabağın etnoqrafik durumunun bütünlüklə erməniləşdirməsi üçün imperatorluq nəzdində böyük bir quruluş yaradaraq ən anti Türk və anti islam məmurlarını görəvləndirmişdir.

Ruslar, amaclarına yaxınlaşmaq yolunda bir daha silaha əl vurdular. Türkmənçay anlaşmasından dərhal sonra, böyük bir orduyla 1828-04-28 doğu Avrupa tərəfindən Osmanlı imperatorluğunun torpaqlarını almağa başladı, Ruslar çox çabukluqla Moldovanı alaraq, Qaradənizə əl tapdılar. Rus qoşunu ikinci istiqamətdə Qafqazlardan keçərək Anadoluya girdi. Qars ermənilər əlilə işğal olundu. Eçmiyazin[268] Papalığının tapşırığına görə, Qars əldən buraxılmamalıdır. Bu şəhər qurulacaq erməni dövlətində böyük rol oynayacaqdır. Elə bu üzdən rus ordusu bu şəhərin alınmasını ermənilərə tapşırmışdı. Ruslar az bir vaxtda Doğu Anadolu və bütün Qaradəniz yaxalarını öz əlinə geçirmişdir. Trabzon az qala ruslar əlilə alınarkən, üç cəbhədən sıxışdırılmış Osmanlı dövləti Edirnə qaplarında savaşı dayandırdı. Təklənmiş Osmanlı

---

[267] şikəstin

[268] İrəvan yaxınlığında yerləşən ən qutsal erməni kilisəsidir. Ermənilərin Azərbayca və Türkiyədən torpaq qoparma və türklərə qarşı milli nifrət yaratma siyasətinin mərkəzi idi.

dövlətinin ödəniş faturası çox böyük idi. Yunan, Balkanların böyük bölümü, Serbistan, Moldavi, Bulğaristan, Danub çayı, Ərəb Əmirlikləri, Quzey Qafqazda və Dağıstanda olan dinsəl etgi alanları v.b. rusların əlinə keçdi. 1829-09-14 günündə Osmanlı dövlətinin ən acı anlaşmalarından birisi olan Edirnə Anlaşması imzalandı. Edirnə Anlaşmasıla, Türkmənçay anlaşması arasında ekiz maddələrin qoyulması çox ilginc və düşündürücüdür. Burada yalnız, ermənilərlə bağlı bir ekizliyə işarə olunur.

**Türkmənçay Anlaşmasında erməni faktı (1828):**
**15-ci maddəyə görə, istənilən erməninin Qacar Məmalike Məhrusəsindən Qarabağa köçürülməsi sərbəst olaraq rus təşkilatları tərəfindən yerinə yetiriləcəkdir.**

**Edine anlaşması erməni faktı (1829):**
**13-cü maddəyə görə, istənilən erməninin Osmanlı imperatorluğundan Qarabağa köçürülməsi sərbəst olaraq rus təşkilatları tərəfindən yerinə yetiriləcəkdir.**

Bu maddələrə dayanaraq, ruslar tez bir zamanda işə başladılar. Azərbaycanın quzeyində olan xanlıq sistemini modernləşdirmə sürəcinə uğrataraq ləğv etdi. Azərbaycanın idarə sistemini ümum Rusiya sisteminə bağladı. Y`eni sistemə görə, əyalət formaları ortaya gəldi. Həmin sistemə görə, Qarabağ xanlığı və İrəvan xanlığı da ləğv olundu. Bu xanlıqların yerinə əyalət sistemi quruldu. İrəvan Əyaləti, Eçmiyadzin şəhərində yerləşən, ermənilərcə Qudsal İçmiyadzin kilisəsinin papalığı altında quruldu. Qarabağa yeni erməni ailələri köçürüldü. Edirnə və Türkmənçay anlaşmalarına dayanaraq, ilk sürəcdə Anadoludan 84,600, Güneydən isə, 40,000 erməni ailəsi Qarabağda, Nəxcivanda və İrəvanda yerləşdi. Bunların yerləşməsilə yerli Türk ailələri evlərindən qovuldu. Sözsüz ki, bu ilk köçlə başlayan zaman-zaman yeni erməni axınları davam etmişdir. Ruslar bu işlərilə Ortadoğu və Avrasiyada olan Türk bitişikliyinin qaldırmasını hədəfə almışdır. “Rusların doğru tərcihinə görə, Türk ulusunun bugünkü yuxusundan yararlanmaq gərəkir. Yarın nə olacağı bəlli

olmaz. Bugünki, kimi bir-birinin başını yiyən Türk hakimiyyətləri yerinə arxa-arxaya duran Türk dövlətləri də ola bilər. Biz, olduqca belə bir ideyalın qarşısını almağa çalışmalıyıq. Yoxsa diri, iri, kəndibəslək,[269] birləşik Türk varlığının oluşumuyla bizə meydan daralar".

## 1918 –ci il Osmanlı dövlətinin çöküşü, Türkiyənin işğalı

1920-ci ilin girişilə Türkiyə hər tərəfdən quşadılmışdır. Fransa, İngiltərə, Yunanistan, Ermənistan, İtaliya və içəridə olan erməni və bəzi Çərkəz etnik qruplar Marmara, Ejə, Anadolu, Ağdəniz və Qaradəniz bölgələrini ələ keçirmişdirlər. 1918-ci ildən etibarən İngiltərənin işğalına uğramış İstanbul hakimiyyətinin iradəsi ingilislərin əlinə keçir. İstanbulun Batı dövlətlər əlilə işğal olmasından dərhal sonra Osmanlı dövlətinin son təslimnaməyə imza atması gərçəkləşir.Osmanlı dövləti ingilislər tərəfindən düzənlənmiş Serv Anlaşmasını qəbul edir. Bu olay 1920-05-10 tarixində üz verir. Serv anlaşmasına görə, Osmanlı dövlətin ömrü başa çatır. 600 yüz illik böyük bir Türk İmperatorluğu darma-dağın olur. Avrupa və Asiyanın, bəlkə də dünyanın ən son imperator dövləti aradan gedir.

## Serv Anlaşmasından sonra

Birinci Dünya savaşından sonra bütünlüklə yenilgiyə uğrayan Osmanlı dövlətinin gələcək durumu ilə bağlı Parisin yaxınlığında yerləşən Serves (Serv) qəsəbəsində İngiltərə, Fransa, Yunanistan və İtaliyanın ortaqlığında toplantı yapıldı. Bu toplantıda Osmanlı hakimiyyətinin gələcəyi və imperatorluğun ləğvi söz qonusu oldu. 12 təməl bölümü oluşduran bu barış anlaşmasına görə, Osmanlı ərazisi və Türkiyə bütünlüklə siyasi, etnik, ordu,mali, gömrük, ekonomi, sınır hegemonluğunu itirirdi. Əslində Serv anlaşması 1915-ci ildə rus, İngiltərə və Fransa dövlətlərinin silsiləvi görüşlərinin iradəsini ortaya qoyurdu. Ancaq Rus dövlətinin öncə Almaniya ilə ittifağa girməsi, 1917-ci ildə isə

---

[269] özünə dayalı

V.İ.Lenin başçılığında kommünist dövlət olması üzündən Serv konfransına çağırılmamışdır. Bu anlaşmaya görə, Osmanlı dövləti bütün Afriqa və Avrupada olan imperatorluq torpaq və hakimiyyətini əldən verir. Sınırları içində olan bir çox bölgəni də yunanlara və ermənilərə vermək zorunda qalır. İstanbul mərkəzliyindəki Osmanlı sarayı isə, fiqor bir simvola çevrilir. Bölgənin idarəçiliyi İngilis valisinə verilir. İstanbul öncə bu anlaşmanın imzalanmasından vaz geçsə də, yenidən Yunanistanın və ittifaq ordusunun savaşa girməsini görüncə təslim olur. Ancaq AtaTürk Ankaradan bu anlaşmanın qəbul edilməzliyini vurğularkən, Osmanlı dövlətinin də qanunsuz olduğunu elan edir. Bu olaydan sonra Türkiyənin gözü ***Quvaye Milli***[270]-yə və *AtaTürkə* çevrilir.

Türkiyə az qalsın bütünlüklə işğalçı qüvvələr əlinə keçirdi. Ankaranı özünə mərkəz seçən M. Kamal Paşanın dövləti bu rəzaləti imzalayan Osmanlı hakimlərini millət yolundan caymış xayinlər adlandırırdı. Bu İstanbul-Ankara arasında olan ən ağır çəkişmə idi. Bu əsnada yunanlar İzmirdən geçərək Ankaraya tərəf hücüma başlamışdırlar. Başqa yandan isə, təpədən-dırnağa İngiltərə, Fransa və öncədən Çar Rusiya tərəfindən silah-sursat anbarı olan Daşnaksiyon Ermənistan dövləti, yerli ermənilərlə birlikdə Doğu Anadolunu ələ keçirmişdir. Erməni daşnaklar İngiltərənin vəidlərinə uyaraq aldığı yerlərin əhalisini ən şiddətli tutumla məhv edirdi. Bunlara baxmayaraq, Ermənistan tərəfindən açılan savaş, başqa cəbhələrə görə, Türkiyə üçün daha rahat cəbhə sayılırdı. Buna görə ki, rusların y`eni Bolşevik hakimiyyəti İngiltərənin daha da artıq Qafqazlara yaxınlaşmasını özünə qarşı bir təhdid eyləmi görürdü. Sözsüz ki, ruslar bu durumda Türkiyənin qurtuluşçu qüvvələrini keçici də olsa belə, dəstəkləməli idi. Əslində bölgədə, ruslarla Türklərin iş birliyi gün gərəyincə bir siyasət idi. Birinci dünya savaşında Bolşeviklərin Almanla ittifaqdan geri çəkilməsilə bölgə durumunu kontrolunda saxlamağa çalışırdı. Ancaq, batının ruslardan çəkinməsi də səbəbsiz deyildir. Onlar, yalnız ideyada deyil, gərçək bir komonist rejimi batılı ölkələr üçün xoşa gəlməz hesablayırdılar. Başqa yandan isə, bolşeviklərin Anadolu savaşından sonra bir işbirlikçi Ankarayla boşluqlarını dolduracaq

---

[270] Avrupa ittifaqının Türkiyəni işğal etdiyində Müstəfa Kamal Atatürkün öndərliyində yaranan qurtuluş ordusu.

ümidləri də AtaTürk öndərliyində olan qurtuluş savaşının işinə gəlirdi. Ancaq ortada bir uzun sürəkli gərgin ilişgi hər iki ölkənin hafizəsindən silinməmişdir.

Bolşevizm, imperialist ordusunun Türkiyəyə kəsin qələbəsini istəməsə də, savaşdan çıxmış ayaqdan düşən bir Türkiyənin varlığını istəyirdi. Onların tərcihinə görə, savaşın nəticəsi nə olursa-olsun, İngiltərə və Fransanın silsiləvi qələbələrilə Bolşevizmin başı lazim olmayan macəralara çəkilə bilər. Bu isə yeni komonist rejimə görə, fürsətsiz bir yaxalama hükmu ola bilər. Çünkü, ruslar hələ də, birinci dünya savaşı və 1917-ci oktobr devriminin sorunlarını bütünlüklə aşamamışdırlar. Müsavatçı Azərbaycan, Daşnakçı Ermənistan və milli dirənişçi Gürcüstan Rusiyadan bağımsızlıq elan edərək, özgür cümhuriyytlərə çevrilmişdirlər. Bunlara baxmayaraq, rusların Qaradəniz və İç Anadolu röyaları öz canlılığını saxlamaqdaydı. Ancaq, bölgənin gərginliyi və hadisələrin daha geniş miqyasa girməsi yeni siyasi taktiklərin də ortaya gəlməsini istəyirdi. Yuxarıda da deyildiyi kimi, bolşeviklərin ən böyük ümidləri komonizmin Türklər əlilə genişlənməsi idi. Onlar, amaclarının yayılması üçün ən önəmi dış ölkə kimi Türkiyə üzərində özəl bir hesab açmışdırlar. "Yuxarida göstərilən tədbirlərin alınması, qənaətimizcə itilaf planlarına zamanında endirilmiş bir darba olacaq və əməkçi xalqın Avrupalıların boyunduruğundan qurtarılması üçün doğuda devrim atəşini alovlandırma mücadiləsini paylaşan iki qızıl ordunun birləşməsinə imkan verəcəkdir.*"*[271]

Bunlarla yanaşı bir çox nədənlərə görə, yeni sovet hakimləri – rus tərzinə heç də uyğun görünməyən, Türklərlə, üzdə dosluq siyasəti irəli sürməyə başlamışdır. Taktikdə başqalardan fərqili görünmək, strateji güdümündə başqalardan daha qapsamlı Türk və Türkiyəni bütünlüklə öz ideolojik dayrəsində məhsur etmək, sovet dövlətinin başlıca siyasəti idi. "... Məncə Türklərin irəliləməsi bizim ləhimizədir.*"*[272]

---

[271] *(Bolşevizmin iç bəlgələri./ TGAOR SSSR. SSCB Oktobr Devrimi Mərkəz Devlət Arxivi. Fon 495, liste 181, dosiyə 13, yarpaq 48./Alınma qaynağı/ "Tarihten Güncelliğe Ermeni Sorunu. İstanbul. 2001.s39")*

[272] *."( Stalin. SSCB Oktobr Devrimi Mərkəz Devlət Arxivi. Fond 2, listə 1, dosiyə 24461, yarpaq 1./ Alınma qaynağı/ "Tarihten Güncelliğe Ermeni Sorunu. İstanbul. 2001.s36")*

Ancaq, ruslar üçün ingilis və fransların bölgəyə gəlməsi də, xoşa gəlməz bir olay idi. ruslar, kapital imperyalist adlandırdığı rəqib ölkələri bölgədə istemirdi. M. Kamal Paşa, bolşeviklərin ideolojik və stratejik baxımdan İngiltərə və batı ölkələrlə ziddiyətdə olduğunu və Qurtuluş Savaşında ruslardan ittifaqçılara qarşı yararlanacaqlarını dəyərləndirirdi. Paşa, bütün güncəl gərçəkləri göz önünə alaraq, ortaya qonan pürüzlərə rəğmən, Moskva-Ankara dostluğunun gərəkli olmasını ireli sürürdü. Bu siyasət Ankaranın silah-sursatlanması üçün çox önəmli sayılırdı. Həmin siyasətin nəticəsində Qaradəniz üzərindən rus silah-sursatları AtaTürk əmrilə yaranmış "Qüvaye Milli Təşkilatına" göndərilirdi. M. Kamal Paşa, anadoluda yunanlar və başqa batı ölkələrin qarşısında savaşda olarkən, Kazım Bəkir Paşa isə, Doğu Anadoluda erməni ordusunun qarşısını olmaq zorumluğunu yaşayırdı. Daşnaqçı erməni qoşunu ittifaqçıların və Amerikanın geniş yardımına arxalanaraq, öz doğal çəkisini unutmuş halda, çox yalnış hesablamayla Doğu Anadolunun tam göbəyinədək irəliləmiş, yalnız, bu dəfə rusların arxadan onlara yardımçı ola bilməyəcəklərini, tərsinə Daşnaklardan qurtulacaq arzularını hesab etməmişdirlər. Türkiyə ordusu yalnız 6 əskər itirməklə Ermənistan ordusunu darma-dağın edib, İrəvanadək irəlilədi.

Ruslar çox tələskənliklə Türkiyənin Ermənistanı bütün zəbt etməsinin qarşısını almaq üçün araya girdi. AtaTürk ruslarla dostluğa ziyan dəyməsin diyə, habelə Yunan cəbhəsinin qoşuna möhtac olduğuna görə, qoşunu Ermənistandan geri çəkib, Yunanistan cəbhəsinə uzatdı. Ankarayla İrəvan arasında imzalanan 1920-12-02 tarixli Gümrü (Aleksandrapol) anlaşmasına görə, Ermənistan 1877-ci il İrəvan xanlığı coğrafisinə sıxışmalı oldu. Nəxcivan keçici olsa da, ermənilərin hədəsindən uzaqlaşdı. Lakin, Qafqaz özgürlüyünün bolşevizmin qan dənizində boğulmasından dərhal sonra, Moskvayla Ankara arasında bağlanan 1921-ci il mart ayında anlaşmaya görə, Türk-Erməni müqaviləsi öz etgisini itirmiş oldu. Beləliklə böyük Ermənistan iddiası tip dəyişiminə girərək, Sovet Sosializm Ermənistan Cümhuriyyəti adı altında yenidən bölgənin kabusuna çevriləcək siqnalları verməyə başladı. Bolşevik rus hakimiyyəti Çar Rusiyadan daha da sürətli bir pozosiyonda Türk

düşmənliyinin erməni qiyafətindəki Böyük Hayistanın iddiasının gərçəkləşməsi iradəsini öz qarantısı altına alaraq hər turlu rus dostluğunun ayı dostluğu olduğunu qanıtlamış oldu. Sonralar, AtaTürk bu dostluğu belə anlamla açıqlamışdı: "Bu gün sovyetler Birliği dostumuzdur. Bu dostluğa ehtiyacımız vardır. Fakat yarın ne olacağını kimse bu günden kestiremez....Dünya yeni bir dengeye uluşabilir. İşte o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim bu dostluğun idaresinde dili bir, inancı bir, özü bir kardaşlarımız vardır. Onlara sahib çıkmağa hazir olmalıyız. Hazır olmak yalnız o günü susup beklemek değildir. Hazırlanmak lazımdır. Milletler buna nasıl hazırlanır? Manevi köprülerini sağlam atarak. Dil bir köprüdür. İnanc bir köprüdür. Tarih bir köprüdür. Köklerimize enmeli ve olayların böldüğü tarihimizin içinde bütünleşmeliyiz... *"*[273]

## 1920-ci il, Azərbaycan Demokratik dövlətinin çöküşü və ölkənin işğalı

27 aprel 1920-də Azərbaycan, bir daha rus ordusuyla işqal oldu. Avrupa tərəfindən sıxışdırılmış Türkiyənin də, tutumu acıverici və gözlənilməz olmuşdur. Ruslar, Türkiyənin durumunu gözə alaraq Qafqazları ələ keçirmək, Türkiyənin sınırlarına dayanmağı gündəminə gətirmişdir. Buna baxmayaraq, Türkiyyənin də ayaqda qalması, Rusiya dövləti üçün çox önəmli sayılmaqdaydı. Bolşeviklər özlərinin antikapitalist siyasətinin görüntüsü kimi xalqlardan müdafiə siyasətini Türklərin direniş meydanında göstərməyə çalışırdı. Bölgənin tablosu olduqca ilginc idi. əməkçi, işçi və xalqlar umudu iddiasında olan bolşevizm, Bir tərəfdən Azərbaycanın, Gürcüstanın milli dövlətlərini və Ermənistanı öz qızıl ordusu ilə işğal etmişdir. Ancaq, burada rus balşoviklər üçün çeşidli standardların hakim olmasına deyinmədən geçmək olmaz. Onların gürçülərə, Türklərə və ermənilərə olan baxışı bütünlüklə fərqli idi. Özəlliklə ruslar üçün erməni varlığı daha da öz anlamı daşıyırdı. Çünki, Ermənistanın Daşnakçı hakimiyyətinin əsas

---

[273] *(30 Ekim 1933/ 10-ci il Cümhuriyyət törəni, Ziraat Bankası salonudaki balodaki soruya yanıtlardan bölmələr./ bu önəmi deyimın bütünlüyünü Ülkü bölməsində oxuya biləsiniz/)*

qurucusu ruslar özləri olmuşdur. Yalnız, erməni kültürünü oluşduran tabeçilik, küləlik və özülsüzlük nəticəsində İngiltərə, Yunanistan və Fransanın istəklərinə də boyun əyən ermənilər, Transqafqaz Federasiyonundan [274] sonra gürcülərdən və Azərbaycanlılardan model götürərək Rusiyadan özgürlük elan etmişdir. Bu rusların gözündə böyük ihanət və boy göstərmək kimi görünürdü. Elə buna görə də, Bolşeviklərin qəzəbinə uğrayan daşnakların cəzalanması və yaxşı erməni olması bolşeviklərin göndəmində idi. Ruslara görə, istər sol, istər sağ, istərsə də, Bolşevik və ya Daşnaq olmasından asılı olmayaraq erməni insanı onlara tabe olmalıdır. Çünki, hər ermənin yaşam buyunca ruslara borclu olması unudulmamalıdır. Sonralar bəlli olduğu kimi, Ermənistan özgür dövlətinin ləğvindən sonra, daşnaklar yalnız əşkiya və yağı kimi cəzalanıb töbə edəndən sonra, Sovet Ermənistan hakimiyyətini Bolşevik dövlətindən təslim aldılar.

Türkiyə durumuna gəlincə, rusların amacı ortaqsız olaraq Türkiyəni yiyələnmək idi. Buna görə, ruslar bir tərəfdən, Türkiyədən ittifaqçılar qarşısında müdafiə etməkdə idi. Bu isə, sonralarda bəlli olduğu kimi keçəri bir savaş taktikidi. Belə bir toblo içində, Türkiyə üçün dirənişdən və canla- başla özverilikdən başqa yol qalmamışdır. Elə buna görə, ruslara dostuq əli uzaldan AtaTürk, Türk dövlətçiliyini qurtarmaq uğrunda rusların ehtiraslarını gözdən qacırmayırdı. Bölgə bütünlüklə can bazarına çevrilmişdir. Ya, qalıb yaşamaq yenidən qurulmaq, ya isə, bir dəfəlik sağ, sol imperiyalistlərin arasında bölünüb tab`eçilik qəbul etmək söz qonusu idi. Ruslar, iki stratejini birləşdirərək Ankaranı öz siyasətinin ardına çəkməyi planlaşdırırdı. Moskvaya görə, Ankaraya yardım əli daha da yaxından olmalıdır. Bu üzdən zamanı əldən verməmək üçün tezliklə Anadolu qapılarına dayanmaq gərəkir. Ancaq burada, ən böyük mane Azərbaycanda hakimiyyət quran *Müsavat Partiyasıdır*. Rusiyanın geniş propakantasına görə, güya bu partiya ingilislərin əmri və yardımı ilə yaranıbdır. Həmin propakantiyə görə, ingiltərənin niyyəti Türkiyəni Rus ordusunun yardımından uzaq tutmaqdır. Çünki, arada Azərbaycan var və

[274] 1917-ci ildə Azərbaycan, Gürcüstan, Ermənistan dövlətləri arasında üçlük federasiyon quruldu. Bu üçlük birləşmənin ruslardan özgür olması ön şərt hesab olunurdu. Federasiyonun adı Transqafqaz Federasiyonu adlandı. Neçə aydan çox ömür sürəməyən bu ittifaq 1918-ci ildə dağıldı.

Müsavat hakimiyyəti rusların Bakıdan keçib Türkiyəyə yardım etməyin qarşısını kəsibdir. Bir an, bu qasib və anqlosakson rejimin aradan qaldırılması və Azərbaycanın hələlik rus ordusu tərəfindən idarə olunması gərəkir. Yoxsa, bütün ittifaq qüvvələri qarşısında dirənməkdə olan Ankaraya yardım göndərmək mümkünsüz olacaqdır. Bolşeviklər tərəfindən irəli sürən bu aydın və açıq şantaj politikası, hər şeydən öncə, Ankaraya yönəlik bir basqı olqulanmasıydı. 1918-ci il AtaTürkün yaxın silahdaşları yardımıyla erməni daşnakları əlindən qurtarılan və Azərbaycan Demokratik Cümhuriyyətinin başkəndi olan Bakı, AtaTürkün gözü önündə Bolşeviklər əlinə keçiriləcək Türkçülük və yeni Turançılıq məktəbini quran M. Ə. Rəsulzadə kimi millətinə bağlı liderlər isə, ingilisçi amillər adlanacaqdır.

Rusların, Türklərə verdiyi acılar sürməkdə idi. Ankara, istər qəbul etsin, istər etməsin, Rus ordusu bir daha Qafqazın bütünlüyünü ələ geçirmək və azad insanları bəndə çəkmək astanasında idi. Azərbaycanda Müsavat dövləti, ölmək var, dönmək yox! Sloqanlarla rusların oltimatomuna yanıt verməklə millətin ruhiyyə-əhvalını yüksək tutmağa çalışsa da, bütün alanlarda yalqız olduğunu doymaqdaydı. Azərbaycan dövləti rusların duzağını[275] yaxşıca başa düşürdu. Hakimiyyət rusların Türkiyəyə yardım bahanasını, Moskvanın işğalçı siyasətinin ön pərdəsi kimi, dünyaya car çəkirdi. M.Ə.Rəsulzadə, ruslara inanmağın nə dərəcə fəlakətli olacağına deyinərək demişdir: *"Əfəndilər, mötəcazir bir ultimatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət əfəndilər, təslim nə demək? Kimə tərki mövqe edirik? Bizə deyirlər ki, hüdudunuzu keçən ordunun başında Nicati adında bir Türk komandanı durmuşdur. Rusiyadan gələn bu basqıçı ordu təhmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyənin xilası üçün gedir.* ***Yalandir****! Gələn ordu rus ordusudur. Fərzən komandanı bir Türk olsa da, yenə rusdur. İstila ordusudur. Onun istədiyi 1914-cü il hüduduna qayıtmaqdır. Anadolu imdadına gedəcək bahənəsiylə yurdumuza girən bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir."*[276]

---

[275] tələsini,pusqusunu

[276] *(Dr. Nəsiman Yəqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, Gənclik, 1991, s.306.)*

Turançı Nuri Paşanın yorğun və silahsız qoşunu rusların 11-ci ordusu qarşısında dayanamadıqdan sonra Bakı düşmən quşatmasına[277] düşdü. Nuri Paşa qalan hissələri ilə birlikdə sıxılarkən Azərbaycanın Güneyinə geçdı. Bakı boşiviklərin əlinə düşdü. 1920-08-01 günü rus ordusuyla, Ankara ordusu Naxcivanda birləşərək dostluq əli sıxdılar. AtaTürkün də yoğun istəyi əsasında, Nəxcivan və Qarabağ muxtar cümhrurilər olaraq Azərbaycan torpaqları istatusunda qaldılar. M. Ə. Rəsulzadəyə öncə edam cəzası kəsildı, sonra isə Stalinin əmrilə ölümdən qurtarıldı, az sonra isə, Türkiyəyə qaçırıldı.

[277] mühasirəsinə

# 9. BÖLÜM

## İran Mərkəzli Farsçı Düşüncə Sisteminin Dirçəlməsində Gülüstan Və Türkməncay Anlaşmalarının Rolu

Fars-Rus birləşməsi ulu bir milləti yoxa çıxarmaq üçün hər hansı insan dışı eyləmə əl vurmaqdan çəkinməyir. Öncə torpağın ürəyindən çıxan tarixsəl əmanətləri aradan qaldırmaqla vəhşi amaclarına meydan açmağa çalışır. Tarixi abidələri yoxa çıxarmaqla mədəniyyətin ilk ocağını yandıran bir əski milləti dibindən danmağa başlayır. Bunun adını isə iki millətin könüllü qovuşması kimi göstərir. Hal buki dünyanın heç bir yerində belə birləşmək gönüllü ittifaq kimi dəyərləndirilmir.

Azərbaycan 1813-1828.ci illərdə "Gülüstan və Türkmənçay" anlaşmalarının sonucunda biri bütünlüklə biganə, başqası isə, evinin içinədək biganələr əlilə idarə olunan özgələşmiş dövlətin arasında bölünmüş duruma düşmüşdür. Bir millət bütün maddı-mənəvi varlığı ilə iki özgə mədəniyyətin (Fars -rus), milli-siyasi hegemonluğuna uğramışdır.

Azərbaycan xalq şairi "Bəxtiyar Vahabzadə"demişkən:

*Ağalar bilmədi birdir bu torpaq,*

*Təbriz də, Bakı da Azərbaycandır.*

*Bir elin ruhunu, dilini ancaq,*

*Kağızlar üstündə bölmək asandır.*

Bir çox təkyonlu yazarların anlayışına görə, Rus İmperatorluğunun qalibiyyəti və (İran) Türk Qacar şahlığının yenilməsi ilə sonuclanmış savaşlar İran-Rusya savaşları olmuşdur. Hal buki bu acı nəticələnən savaş bütün objektiv və sobjektiv nədənlərə görə rusların Türklərə qarşı sürdürdüyü silsiləvi savaşlarının doğal ardı, rus -Türk savaşı olmuşdur. Əslində tarixin heç anında Fars -rus savaşı üz verməmışdir. Başqa sözlə desək tarix boyu rus -Türk savaşları forma baxımından dəyişsə də mahiyyət və içənək baxımından heç də dəyişməmişdir. Bu savaşlar istər Səfəvi, Avşar, Qacar, istər Səttarxan, ikinci dünya savaşında, Orta Asiyada, Qafqazlarda, Anadoluda, istərsə də Azərbaycanın qarış-qarış torpaqlarında yalnız rus-Türk savaşları olmuşdur. Bu savaşlarda rusların ən yaxın fədayısı ermənilər olsa da, ən gizli əməkdaşları Farslar olmuşdur. Bütün rus -Türk savaşları kimi rus-Qacar (Azərbaycan) savaşları da mehz ruslar tərəfindən irəli sürülmüşdür. Necəki, rusların yürüşü ilə başlanmış bütün bu savaşlar Türk torpaqlarında dəvam etmişdir. Elə bu üzdən 18-ci yüzilliyin başlanması ilə birbaşa dəvam edən rus yürüşü, təkcə Azərbaycan Türklüyünə deyil, bütün Türk dünyasını sarsıtmaq amacı daşımışdır. 19-cü yüzilliyin başlanqıcı ilə rusların kəsintisiz anti-Türk siyasəti birbaşa Azərbaycanın basqıya çəkilməsini hədəfə alaraq milli torpaqlarımızı işğal etməklə sürmüşdür. Modern Rusiyanın atası Pieterin teorisinin otobanı sayılan Azərbaycan bütünlükdə rus dövlətinə tab`e olmalı və açıq sular teorusu gərçəklik qazanmalıdır. Bu üzdən savaş stratejisi həyata keçirilməlidir.

1810-ci ildən başlamış 1828-ci ilə dək çəkılmış rus-Azərbaycan(Türk) savaşları ancaq Azərbaycan torpaqlarında olmuşdur. Bu savaşlarda torpaqlarımıza sürəkli yuruş gətirən düşmən ordusunun

qarşısında yalnız və yalnız Türk Azərbaycanlı əsgər və sivil dayanmış, şəhid olmuşdur.

100,000-lərcə canını yurd yolunda qoyan Türk insanının tökülən qanlarını necə başqa millətin dövlətçiliyinə bağlamaq olar!?

1828-ci ilin yenilgəsi ilə basqıya çəkilən və param-parça olan torpaqlar yalnız Azərbaycan torpaqları olmuşdur. Bütün canını verənlər Türklər olmuşdur. Çünki, bu savaşlar Azərbaycan-Rusyıa savaşı olmuşdur. Bu üzdən savaşın baş qamandanı "Abbas mirza"dan tutmuş sadə çavuşuna dək Türk olmuşdur. Unutmamaq ki, bu durumdan ən qazanan tərəf isə panFarsizm olmuşdur. Qacarların çöküşü, Farslar üçün sistem yaratma fürsəti olmuşdur. Rusların Qacarlara ətraflı etginligi ilə Farsların da saraydakı mövqiyi möhkəmlənmişdir. Qacar dövlətinin Məmaliki Məhrusə və bölgədə olan güçünün bitməsilə altinativ Farsçı siyasət də meydan oxumağa başlamışdır. Belə ki, Rus və İngiltərə dövlətlərinə söykənən Farsçı güclərin biran qacarları çökütmə siyasəti daha aydıncasına özünü göstərirdi. Min illərcə dövlətçilik düzeyindən uzaq düşən Farslar üçün ən əlverişli fürsət yaranmışdır. Oysa, Farsçı siyasətçilərin dövlətçilik iradəsini itirməkdə olan Türk Qacar dövlət sisteminin içinə sızması[278] xız qazanmaqdaydı. Farsçı düşünürlər üçün bu fürsət qaçırılmaz idi. Bu istəyin rus və ingilis siyasətilə də üst-üstə düşməsi işi daha rahat etmişdir. Farsçı siyasətin Türk sülalə dövlətlərinə qarşı apardığı gizli təxribat 1500-lərdən başlasa da 1880-lərdən obyektiv xarakter daşımağa başlamışdır. Çünki, həmin illərdə Osmanlı dövlətinin də ruslar qarşısında ardı-ardına məğlubiyyəti ermənilər kimi Farsları da ürəkləndirmişdir. Özəlliklə Məşrütə hərəkatı və ardıca Qacar Türk dövlətilə Azərbaycan arasındaki qarşı durmanın sonucunda Farsçı siyasət daha mərkəzləşmişdir. Bu siyasətin aparıcıları istər Fars, Türk, yabancı ünsürlər, istərsə də başqa etniklər olsun, aydıncasına kimlik boşluğuna uğramış yorğun Türk Qacar hakimiyyətini devirməyə[279] çalışırdı. Sözsüz ki, heç zaman kəndini tanıqlama bilgi və bilincinə yiyələnə bilməyən Qacarlar özlərinin çöküşü üçün gərəkən şərayit yaratmışdırlar.

[278] nüfüz etməsi, gizlicə girməsi
[279] aradan qaldırmağa, çevirməyə

Səfəvilərdən Qacarlara uzanan 400-illik kimlik itirmə sürəcinin nəticə etibari ilə Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sisteminin bir dövlət sistemi kimi ortaya gələ bilməməsinin də ən özül və təməl nədəni elə bu kimlik itirmə sürəcidir.

Yuxarıda da sadalanmış kimi, 400-illik üç Türk silsiləvi hakimiyyətlərin Türklük kimliyi bəzən millətaltı, tayfaçılıq, elatlıq, bölgəçilik v.b., qalib zamanlar isə millətüstü – ümmətçilik, məzhəbçilik, məmalikçilik və imperatorçuluq kimi anti milli amillərin altında inləyərək[280] unudulmuşdur. Məhz bu üzdən nəyinki, Azərbaycan Türkçü düşüncə ulus-dövlət sistemi yaranmamış, bəlkə bu gedişin sonunda klonial İran[281] Farsçı dövlət sistemi yaranmış və hakim olduğu gündən dövlət adına ən görünməz cinayətləri məğlub toplumlar haqqında irəli sürmüşdür. Unutmamaq gərəkir ki, bu sistemin yaranmasında ən böyük rolu yenə Türklər oynamışdır. Bir yandan dövlət adı altında cahilcəsinə Fars düşüncəli anti-Türk siyasətin gündəmə gəlməsinə ikman yaradan Qacar şahlığı, başqa yandan isə "Ziddi istibdad" adı altında Qacar şahlığına qarşı meydan oxuyan Azərbaycan məşrutəçiləri əslində Türk hakimiyyətinə son qoymaq istəyən panFarsizmin və onun dışarı ərbablarının oyununa gəlmişdirlər. Fars-rus birləşməsi ipin ucunu əldə saxlamaqla son nəticəni Türk-Türkə qarşı durmasında bulmuşdur. Niyə ki, belə olan halda, Türk gücü içdən tükənəcək, Türk hakimiyyəti aradan qalxacaq, Türk dövlətçiliyi uzun zaman itecək, Türk insanı isə, əsarət çəmbərinə düşəcəkdir. Olayların necə səslənməsindən asılı olmayaraq sonucda yıxılan "Azərbaycan Türk Milləti" olmuş, gülən tərəf isə, Türk düşməni panFarsizm olmuşdur.

Elə də oldu, Azərbaycan mərkəzliyindən uzaq düşən Türk siyasətçilərin dünya görüşləri, Tehran və Fars yönlü siyasətlərin partizanına çevrildi. Azərbaycan Türklüyünün İran Farslığına təslim edilməsində 19-cu əsrin sonunda, 20-ci əsrin ilk çağlarında ilham qaynağını Fars demokratlardan və rus sosiyal-demokratlardan olan soydaşlarımızın az rolu olmamışdır. Millətimizin milli kimlik bilincinə ən

[280] sızlayaraq, nalə edərək
[281] Farsistan

ağır zərbələr endirən bu yanaşımın təkcə bizim millət və torpağımızı deyil, bütün bölgəni etnik və siyasi bulanıma sürükləmişdir.

Məşrutə (1905-1907) çöküşünün ardından Azərbaycan ayaqlanması (1907-1909) sonucunda hər iki Türk tərəfin tam ayaqdan düşməsinə nədən oldu. Tehrana qəhrəmanca girən Azərbaycan mücahidlərin ölüsü belə tapılmadı. Tebriz, rus toplarıyla yerlə bir oldu. Qacar hakimiyyəti bütünlüklə Farsların etginliyinə təslim oldu. Fars dəsisəsi nəticəsində milli Sərdar və milli Salar öz ana torpaqlarından uzaqlarda şəhid oldular. Türk savaşı sürərkən 1920-ci ildə Qacar adı altında dirçəlmiş Fars şovinizmi növbəti olaraq Xiyabanı qalxışını aradan qaldırdı. Xiyabanının aradan qalxması ilə Azərbaycan - Qacar ilişkiləri də bütünlükdə qırılmış duruma düşdü. Qacar Türk dövləti Azərbaycanı əldən verməklə ana dayağını uduzdu. Türklük saportundan uzaq düşən Qacar dövlətçiligi "İran mərkəzli Farsçı düşüncə sistemi"nə təslim olaraq hakimiyyəti də uduzmaq yoluna düşdü. Bu durumdan yararlanan Fars şovinistləri xızla Fars dövlətçiliyini əldə edmək üçün ayaqlandı. Rza Mirpənc[282],1923.ci ildə ilk Qacar ordu başçısı, sonra səltənət vəkalətini, 1925-ci ildə isə Məmalike Məhrüseye Qacar hakimiyyətinin yerinə şah oldu. Rza Mirpəncin şah olması ilə 500 ildən öncə mərkəziyyətindən uzaq düşmüş Türk hakimiyyətlərinin hegemonluğu sona çatır."Iran Mərkəzli Fars Düşüncə Sistemi" tam diktatorcasına aydın-aşkar Farsçılıq, irançılıq, şahçılıq siyasətini bütün yaşam alanlarında sərgiləydi. Fars dövlətinin siyasəti yalnız milli əsaslar üzərində qurulmağa başladı. Fars olğusundan başqa bütün çeşidli milli dəyərlər yox olma təhlükəsi ilə üz-üzə qaldı.

Və sonuc olaraq bütün gərçəklər göz qabağındadır. İki dost olabiləcək ayrı-ayrı yaşam sistemləri, iç-içə düşməncəsinə bir-birini dəf etməkdə dəvam edirlər. Biri məğlub, biri qalib. Görəsən nə zaman belə vəhşi qonşuluğa son qoyulacaqdır!?

[282] sonralar Rza Şah Pəhləvi

# 10. BÖLÜM

## Güney Azərbaycanda Dövlətçilik Mücadiləsi Və Azərbaycan Demokrat Firqəsi

### Azərbaycan Demokrat Firqəsinin(ADF) sarsılmasında

### Milli ideyal boşluğunun rolu

Ola bilsin ki, döyüşkən və igit ata-analar haqda duyğusal davranmamaq bəziləri tərəfindən bəyənilməsin. Ancaq, gərçəklər acı da olsa soylənməlidir. Bəlkə tarix boyu Türk qəhramanlığına bənzər ikinci bir millət tapılmasın. Ancaq bu tarixin göstərdiyi qəhramanlıqlarda da gözə gələn örnək nöqtə bulanıq üsul idarə sistemidir. Fatih babalarımızın bütün qələbələrinin təməlində nə yatmışdır sorğusuna doğru cavab tapmaq üçün elbətdə ki sarsılmaz iradə və özveri[283] lazimdir. Yalnız yaxın və orta tariximizi araşdırmaqla deyil, bizim payımıza düşən bütün tariximizi, sobyektiv enerjilərimizi, arxada qalan acılı-dadlı hafizəmizi

[283] fədakarlıq

ələşdirməliyik. Yalnız acılarımızdan, dadlarımızdan ortaya çıxan sentez sonucuyla gündəmimizdə dayanan sorğulara çağdaş, bilimsəl cavab tapa biləçəyik. Yaxın və çağdaş tariximizin girişimi olaraq Zeyneb Paşadan başlamış Səttarxan, Rəsulzadə, Xiyabani, Kazım xan, Pişəvəri, 29 bəhmən, Xalq Müsəlman hərəkatı və Milli-azadliq (Elçibey) adları ilə tariximizi bəzəyən bu hərəkatların ardıcıllığı, bütövlüyü və düşüncə gəlişməsi etibari ilə əldə etmiş yenilgisi və qazancı, çəkinmədən ortaya qoyulmalıdır. Örnək olaraq 20-ci əsrin başlanğıcında böyük AtaTürkün öndərliyi ilə Türkiyə davasının təməlində dayanmış bənzər "Türkiyə mərkəzli Türkçü düşüncə sistemi"nin bütün boyutları öyrənilməli, Güney Azərbaycan Milli Hərəkatının özəllikləri ilə ölçülməli, bənzərləri güclənməli, milli savaşın beyin gücünə enerji qazandırmalıdır.

Azərbaycan milli hərəkatının qarşısında dayanan çox önəmli bir neçə təməl sorğuya cəvab vermədən yeniləşmək çabasında olan çağdaş milli dirçəlişimizin öncəkilərdən təməl dayaqda üstün olmasına kəsin baxmaq olmayacaqdır. Örnəyim sorğunun birinciləri belədir ki:

a. Son 100 ilin içində Azərbaycanın apardığı azadlıq savaşların təməlində hansı düşüncə sistemi dayanmışdır?

b. Dövlətçiliyimizin Güney formulu olan 1945-46-cı ildə milli hakimiyyətin ideolojik sistemi nə idi?

c. Tariximizi özəlləşdirən dövlətçilik ilkələrində nə kimi dayaq sistemi oluşmuşdur?

d. Azərbaycan Demokrat Firqəsi - nin bütün enerjisi, kəmiyyəti və keyfiyyəti irəli sürdüyü iddialar ətrafında toparlana bilmişdir mi?

e. Azərbaycan azadlığı uğurunda ortaya qoyulmuş dava metodlarının millətimizin gələnəkləri ilə uyması yolunda uyqulama sistemi yarana bilmişdir mi?

f. İran və Azərbaycan arasında olan milli gərginliyin fəlsəfi özülülünün nə olduğu bəlli olmuşdumu?

g. Olmuşdursa, nə kimi ideolojik və milli-siyasi ayrıntılar ortaya qoyulmuşdur?

h. Tehran şovinist hakimlərinin sistemləşmiş "İran Mərkəzli Farsçı düşüncə"-si qarşısında "Azərbaycan Demokrat Firqəsi"nin öz dünya görüşü olmuşdurmu?

I. Olmuşdursa milli iradənin teorik və bilinc kimliyinin izləri hansı ideolojik təmələ dayanaraq sosial-siyasal şuarlar irəli sürmüşdür?

J. Və son olaraq belə bir varsayım[284] sorğu ortaya qona bilər ki, İran adlanan dövlətin Azərbaycana olan bütün baxışları varsayılabilər "İran mərkəzli Farsçı düşüncə sistemi" kimi mütləqçiliyə dayanan bir ideolojik səfərbərliyi içində ikən, Azərbaycan Türk millətinin eyni varsayılabilər "Azərbaycan mərkəzli Türkçü düşüncə sistemi"nə söykənərək düşmən qarşısında dayana bilmişdir?

1. ADF-nin dünya görüşü və siyasi iradəsi bu sorğulara belə açıqlıq gətirir: Azərbaycan milli hakimiyyəti bəzən İran sistemli dövlət üsul idarəsinə bağlı bir yerli və muxtar hakimiyyət, bəzən tam müstəqil olan Azərbaycan Milli Demokratik Cümhuriyyəti[285], bəzən isə, əyalət-vəlayət əncüməninin siyası nümayəndəsi kimi siyasi alanda özünü göstərir.

2. Firqənin milli-siyasi yöntəmi sovet sistemindən alınmış Azərbaycançılıq modelidir.

Sovetizmin təməl düşüncəsinə görə, "Türk" həm anlam və həm metodik baxımdan sağdır. Bu üzdən Türkiyə və Türkçülük bir antisovet sobjet və objektdir. Bu əslində rus metodlu anti Türkçülügün yeniləşmış

---

[284] olabiləsi/ehtimal

[285](KGB arxivlərində məhbus qalan 12 maddəlik“Xalqa Müraciət„ ünvanlı bildiriş.)

varyantıdır.  Elə bu üzdən Firqənin dünya görüşündə yer tutan sovetçilik şərtlərinə görə  Türkçülük yer tuta bilmirdi.

3. Sol ittifağına ümid bağlayan ADF liderligi, bilər-bilməz Moskova kommunizminin antiTürk siyasətinin gizli əməkdaşına çevrilmişdir. ADF liderligi istər-istəməz belə bir yöndə addımlarkən, yalnış dünya görüşü və söykəniş yönünə qatlanırdı.

4. ADF-nin qıssa sürən etgin ömründə, Türk kimliyinin yeri olmadı. Firqə üzərində olan ideolojik ağırlıqdan dolayı özünü öz kimliyindən uzaq tutmağa çalışdı. Bu üzdən bütün təməl şüarlarında "Türk" sözü yerinə "ana" sözü işlənilir. Sözsüz ki, sadə görünən bu dərin fərqliliyin altında vurğulandığı kimi böyük dünya gürüşü açılımı dayanmaqdadır.

5. Stalin və bolşovizm düşməni kimi alqılanan Türk idrak sisteminə qarşı aparılan ideolojik və assimilə siyasəti sürəcində Moskva tabeiyyətinə uğrayan Türklərə qarşı, milli kimlik bilinci yasağı qoyuldu. 30-ci və 40-ci illər arasında Cavidlər, Müşfiqlər kimi sayagəlməz Türkçü dava adamı rus sistemi tərəfindən öldürüldü. Türk sözünə və anlamına divan tutuldu.  Sovetçi düşüncə sisteminə görə, sosialist insanın soykökə, milli kimliyə, milli torpağa, milli dilə ehtiyacı yoxdur. Onun ehtiyacı olan şey yalnız "xalqlar dostluğu"dur. Rusların bu şüarı altında geniş bir milli əritmə siyasəti yatmışdır. Moskva bu siyasətilə bir tərəfdən məğlub xalqların milli kimliklərini aradan qaldırmağa, başqa yandan isə boşalmış kültürlərin yerinə dil başda rus kimliyini yerləşdirmək siyasəti yürüdürdü.

Sovet Sosialist Dövlətinin Azərbaycan insanını y`eni, modern Sovet Azərbaycanlı adlandırmağa başlarkən, Türklərin öz milli kimliklərindən uzaqlaşmasını ən üst düzeydə planlaşdırdı. İkinci dünya savaşı, rusların rəhbərliyi altında Sovet insanı olmaq zorunluğunda qalan Quzeyli soydaşların işqal olmuş Güneyə gəlməsilə, İran Tudə partisinin Azərbaycanda yuva qurması, ADF-nin ulusal gücə və rus himayəsinə dayanaraq qurulması v.b. ilişgilər yoluyla sovetçilik ideolojisi Azərbaycan Türkünün milli kimlik özətinə qarşı böyük rol oynamağa başladı.

Baxmayaraq ki, bu oyun daha öncələr həm 1907- ci və həm 1920-ci illərdə də öz anti milli izlərini buraxmışdır. Ancaq ADF dövranında sol ideologiyasının hakim biçimində etgisi daha da dərin rol oynadı. Bu dərin etgi nəticəsində ADF siyasi çalarların ideolojik yarışmasının əvəzsiz qurbanına çevrilərək, heç zaman kütlədən qazanmış mandatından yararlana bilmədi. ADF bir çox ana təməllərdən uzaq düşürək milli istəklərini gün siyasəti ilə fərqləndirdi. Milli-siyasi alana ayaq qoyan ADF, öncə avtonomi hököməti axtarışında oldu, onu əldə edəndən sonra özünü arxalı görərək tam istiqlal axtarışında bulundu, çox geçmədən arxasını boş görüncə əyaləti əncümənlərə razı oldu, o da olmayınca milləti Fars quduzlarına tapışıraraq ideolojik qurbangaha sığındı. ADF modern tipli firqə olmaq arzusunda olmuş olsaydi da, modernizmi əldə edə bilmədi. ADF-nin gözü önündə AtaTürkçü tipli milli qurtuluşçu Türk savaşı metodu durarkən, onu görmək cəsarətini əldə edə bilmədi, necə ki, Xiyabanı da onu qazanamadı. "Fəlsəfədə təslim olan ideolojidə, ideolojidə təslim olan isə, siyasətdə də təslim olar" dərdinə düşən ADF, ardı-ardından siyasi oyunların uduzan terefi oldu. Firqə öz qisa ömründə doğma ittifağa girə bilmədi, girə bilməzdi də! Sona qədər öz dost-düşmənini tanımaqda zorluq çəkərək öz doğma arxalarını itirmiş duruma düşdü. Bu dost-düşmən seçimi Firqənin son hakimlik aylarında özünü doğruda bilsə də, artıq iş işdən keçmişdir.

2-ci dünya savaşı zamanında Sovet Sosialist rejiminin Orta Doğu ve Avrasiya siyasətində İran ve Türkiyə böyük önəm daşıyırdı. Stalin İranda əldən vermiş stratejik və sövqulceyşi mövqeyini Türkiyədə axtarırdı. SSR bir tərəfdən içdən anti Türk olmağına görə, başqa yandan isə Doğu Avropaya açıq qapı olan Bosfor və Dardanel su keçit boğazlarına ehtiyac duyduğu üçün, Ankaranı hədələməkdən bir an çəkinmirdi. Ankaranın 2-ci dünya savaşında tərəfsiz qalmasıda rusların xoşuna gəlmirdi. Bu üzdən 1925 - ci ildə Rusya - Türkiyə arasında bağlanmış qarşılıqlı sayqı ve dostluq müqaviləsi bir yönlü olaraq ruslar tərəfindən əsərsiz elan olunca, Moskvadan yeni basqı anlaşması ortaya atıldı. Bu anlaşma 1925 - ci il anlaşmanın yerinə imzalanmalı idi. Bu anlaşma rus ordusuna İstanbula girib, Bosfor və Dardanel boğazlarından Almanlara qarşı yararlanma izinini tanıyırdı. İsmət İnönü tərəfindən dərhal rəd olunan

bu zorakılıqdan sonra ruslar iki iddianı irəli sürməyə başladılar. Qərbdə "Edirnə"ni də içinə alan böyük bölgə Bulğaristana, Şərqdə isə Qars, İğdır, Ərzrumu içərən Doğu Anadolu rus (Sovet Sociyalist) hakimliyinə verilməlidir. Ruslar bu hədələrə objektiv güc olaraq Ankara və İstanbulda kommunist göstərilərini yüklədi. Bu ağır basqıya cavab olaraq Ankara sürətlə Amerikaya yaxınlaşmaq siyasətini irəli sürdü. Amerika sayağı ekonomik reform, siyasi liberallaşma, Amerika sistemli ordu qurmaq və milli təhlükəsizlik alanı yaratmaq Amerika və Türkiyə arasında imzalanan anlaşmanın ən önəmli bəndlərini oluşdurdu. Bu anlaşma sonucunda Moskvanın hədələri boşa çıxdı. Bunlara baxmayaraq rusların antiTürk və antiTürkiyyə çabaları öz şıddətini artırdı. Sovet Kommunist Partisi bütün pioner, komsomol və böyüklər eğitim – yönətim mərkəzlərində Türkçülük düşüncəsini bir antisosialist və antisovetizm teori olaraq qafalarda yerləşdirirdi. Türk kəliməsi Türklərin düşüncəsindən uzaqlaşıkən biganəlik və kimlik böhranı Türk insanını dərin bulanıma soxurdu. 1937-ci ildən daha da kəskinləşən antiTürk siyasətinin bu illərdəki objektiv toblosu yalnız içəridə deyil, dış Türklərini də öz hədəfinə almışdır. Quşqusuz, 1945-46 ADF dastanı da bu çərçüvədə araşdırılmalıdır. 1946-ci ilin ikinci yarısında ADF bu siyasəti bütün acısıyla təcrübə etdi. ADF, kommunistlərin dəyişməz antiTürk, antiAzərbaycan niyyətlərini başa düşərək Ankaraya üz tutdu. Amma artıq çox gec olmuşdu. Azərbaycan Milli Hərəkatının parlament heyetinin Ankara,ya yola düşməsi və İ.İnönüdən imdad istəməsi də qalaq-qalaq dərdlərə çara olmadı. [286]

Heyət 3 aylıq yalvarışdan sonra bir kərə olsun belə, İ.İnönünün qəbuluna düşə bilmədi. Təbrizdən qardaş qapısına asılan Tehranın hava alanında düşmən ayağına düşdü. Sevinən tərəf Fars sistemi olsa da, aci tal`einə oxşayıb-yanan Türk olmuşdur. Beləliklə Türkün içdən sarsılması ilə bir daha Farslıq qələbə çalmışdır.

[286] *(Bax "İran Türkleri Hürriyet Hareketleri" kitabına.Mehmet Metin Ören)*

## ADF-də düşüncə qarmaşalığının nədənləri *(Qıssa baxış)*

Kəsinliklə "Azərbaycan Demokrat Firqəsi" (ADF) bütün doğru və yalnışları ilə birlikdə, Güney Azərbaycan milli hərəkatının danılmaz parçasıdır. ADF, istər aparıcılığı ilə, istər birləşdirici gücü ilə, istərsə də siyası taktikləri ilə bugünkü Güney Azərbaycan Milli Hərəkatı üçün bənzərsiz təcrübə qaynağıdır. Bu quruluş öz genişligi, kütləviligi, strategisi və milli iradəsi ilə olduqca, 1910-cu ildə Seyyid Həsən Təqizadə və 1920-ci ildə Şeyx Məhəmməd Xiyabanı tərəfindən yaranan "Azərbaycan Demokrat Firqə"lərindən fərqli idi. 60-il keçməsinə baxmayaraq ADF-nin üzərində açılan hesablar hələ də dartışılmaqdadır. Bu quruluş öz zamanına görə təkcə Azərbaycanda yox, həm də İran adlanan dövlət ərazisində ən geniş və kütləvi quruluş mücadiləsi olmuşdur. Danılmaz faktlara görə, Sovet Sosialist Kommunist Partısının ideoloji dairəsində yer alan ADF, Moskvanın siyasətləri üzərində himayə olunurdu. Ancaq bu, o demək dəyil ki, Güney Azərbaycanda milli iradə bütünlüklə Moskvanın etgisi altındaydı. ADF öz hesablarında uluslararası üz vermiş imkanlardan yararlanmağı düşünürdü. Firqənin rəhbərligində yer alan bir çox milli insanın amacı bu fürsətdən yararlanaraq Azərbaycanın dalı qalmışlığına çarə yolu tapmaq idi. Bu da özlügündə milli çaba və şərəfli axtarış deməkdir. Ancaq bu hesablamanın qarşı tərəfi olduqca ADF başçılarından güclü, dinamik, imperiyaçı və aparıçı idi. Bu gərçəgi Firqə rəhbəri S. C. Pişəvəri hamidan yaxşı bilirdi. O bilirdi ki, Moskva ADF-dən öz siyasətləri ilə bağlı sui-istifadə etmə çabasında idi. SSR Kommunist Partısı ADF-in bir Türk partisi olmasını bilir və onun liderliyində olan aparıcıların ruhiyyəsində get-gedə milliləşmənin dərinligini duyurdu. Bu üzdən, ADF-i kontrol altına almaq üçün çeşidli önləmlərin alınmasını bütün quruluşlarına tapışırırdı. Örnək olaraq:

a) ADF-in gördüyü ən kiçik işləri hər gün Sovet Azərbaycan Kommunist Partisinə (SAKP) rapor olunmalı idi. Bu raporlar SAKP-də yuxarı görəvlərdə yerləşən rus kökənli anti-Türk kommunistlər tərəfindən ətraflı incələnir və rəsmi sənədlər kimi Moskvaya göndərilirdi. Elə ki, bu

səndlərin bir çoxu sansoradan keçəndən sonra Azərbaycan qəzetlərində basılmaq haqqı qazanırdı.

b) ADF və SAKP arasında olan milli ilişgiləri etgisiz etmək üçün rusların tam kontrolunda olan İran Tudə Partisi öz fəalliyyətinin gündəlik roporunu birbaşa və ya rus diplomatları vasitəsilə Moskvaya çatdırmalı idi. Rusların əmri ilə ADF və SAKP içində yerləşən tudəçi casuslar, istər gündəlik raporları, istərsə də yerli təxribatları ilə öz xidmətlərini yerinə yetirirdilər.

c) Rusiyanın Tehrandakı böyük elçiligi və Təbrizdəki konsulluğunun ən önəmli işlərindən biri ADF-nin işlərinə nəzarət etmək və hər gün birbaşa Moskvaya rapor vermək idi. Üzdə diplomatlar görünən konsul casusların hər gün ADF toplantılarına qatılmaları onların casusluq görəvi ilə bağlı idi.

d) Ruslar Tudə və Firqə dışında, kürdlər içində də quruluşlar yaratmaq üçün gərəkən budcələr ayırmışdır. Bu silahlı qrupların ən böyük görəvi isə ADF və Kürdüstan Demokrat Hizbinin arasında yerləşib casusluq və terror etməkdən ibarət idi. Bu çətələr hər iki, ADF və KDH sıralarına girib oradakı bütün hərəkətləri Təbriz və Urmiyyədə olan rabitlərinə çatdırırdılar.

e) İstər Tudə Partisində, istər dışarıda olan Daşnaq ermənilərin ADF-də olan fəaliyyətləri birbaşa rusların istəyi idi. Ermənilər öz geniş təcrübə və iş qabiliyyətləri ilə ADF rəhbərliginin gözünə girməli, Firqənin ən gizli işlərini Moskvaya rapor etmeliydilər. Ermənilərin, məşrutə hərəkatında, Azərbaycanın güneyində və quzeyində, və Türkiyədə əldə etdikləri cinayətkar təcrübələri həm də külliyyətdə rusların xeyrinə idi. Ermənilər AAzərbaycan Türklərini milli kimliklərindən və öz doğma müttəfiqi Türkiyədən uzaq saxlamağı çox yaxşı bacarırdılar. Bu üzdən ermənilər yalnız praktikdə degil, həm də ideoloji alanlarda böyük işlər bacarırdılar.

Sözsüz ki, rus dövləti ADF-in üzərində uzun və`dəli strateji qurmamışdır. Çünkü, ruslar Qafqazda yaranacaq ikinci Ukraynanın yuxusundan belə diksinirdilər. Onlar hər hansı siyasi ideoloji çərçivədə olursa-olsun "Birləşik Azərbaycan"ın gercəkləşməsindən qorxurdular. Ruslar Azərbaycanın bölünmə səbəbkarları olaraq bu millətin bir əlverişli imkanda yenidən bütövləşmə iradəsini hər şeydən öncə bilirdilər. Başqa yandan, SSR KP-sində çox önəmli yerlərə sahib olan gürcü və erməni nasional kommünistlərinin(!?) də Azərbaycanın birləşməsindən rahatsız olmaları hər gün politbüroda dartışılırdı. Elə buna görə, ruslar bu işin tez bitməsini nəinki ziyanlı, hətta çox da xeyrli görürdülər. Moskva, ADF ilə bağlı öz bölgə və dünya siyasətində ən azından aşağıdakı önəmli taktikləri izləyirdi:

1.1. ADF yolu ilə Azərbaycanda kommunist ideolojisini beyinlərdə yerləşdirsin.

1.2. Azərbaycan Türklügünü Türkçülük təməllərindən uzaqlaşdırsın.

1.3. Milli təmələ söykənməyən Azərbaycançılıq ideolojisini Azərbaycan Türkçülügü ideyasının yerinə yerləşdirsin.

Beləliklə ən azından Azərbaycanın güneyini Türkiyədən uzaq saxlamaqla bacardıqca Sovet Azərbaycanı -Türkiyə arasında olan mənfi ilişgiləri Güneydə də sərgiləsin;

2. ADF-dən bir siyası fiqur kimi Amerika, İngiltərə və Tehran qarşısında yararlansın; zamanı gəlincə Güney məsələsini müzakirə abjektinə çevirsin və rəqiblərdən qoparacaq hər hansı puan qarşısında kiçik bir manevrlə Güney macərasına son qoysun.

Güclü tərəfin iradəsi ilə irəliləyən siyasətin nəticəsi isə, ADF tablosunda belə görünürdü:

**1. Təməli solçuluqda dayanan milli düşüncənin sosializm bloku tərəfindən təcrübə meydanına buraxılmasında ADF formulu.**

**2. İradəsiz olaraq ikinci dünya savaşından qalib çıxan müttəfiqlərin tərəfinə çevrilmək; qalib dövlətlərin arasında başlayan soyuq savaşın ilk analiz motivi olmaq.**

Bu gedişin çərçivəsində Azərbaycan Türklüyünün nə qədər aparıcı rolda olması ap-aydın sıfıra bərabər idi. Amerika, İngiltərə və Rusiya arasında yaranan güc yarışında doğal olaraq Azərbaycan iradəsinin rolu yox idi. Azərbaycan bu davanın tam mərkəzində dayansa da, yalnız onun gücsüz və hər hansı siyasi külək qarşısında əsəcək tərəfi idi. Ruslar öz siyasətləri ilə Azərbaycanı bütünlüklə təcrid durumuna soxmuşdular. Bu çıxılmazlıqdan qurtarmaq üçün, Azərbaycan sorununun uluslararası olması ən gərəkən işlərdən birisi idi. Ruslar Pişəvərinin qarşısında yalnız bir gediş yolu və bir qayıdış yolu qoymuşdurlar. Belə ki, gediş yolu Moskvaya, qayıdış yolu isə Tehrana olmalı idi. Hər iki yolun açarı isə Stalinin əlindəydi. Stalin ap-aydın bu mesajı Pişəvəriyə göndərirdi :"Səni gətirən, sənə get deyir!". Lakin ortada bir üçüncü yol daha var idi. O yola hazır olanlar çox idilər. Onlara görə ADF ruslardan qırılmalı, tutumlarını dərinləşdirməli və tam istiqlaliyyət yolunda səfərbər olmalı idi. Belə olan halda ən azından ADF gələcək nəsil üçün qurtuluş stratejisini düşüncəsini qoymuş olacaq idi. Pişəvəri belə bir günə hazır olsaydı da, onun beyin və ideolojik bağlılığı milli duyğusuna qalib gəldi. O, rusların Tehranla anlaşmasını görə-görə yenə də ruslara ümidlə baxır, Moskva-Tehran qırılma nöqtəsini axtarırdı. Halbu ki, Moskva çoxdan Fiqəyə qarşı tavırını ortaya qoymuş və Pişəvərini artıq istəmədiyini bəyan etmişdir. Moskvanın bir başa əmrilə hətta əski və işə gəlməz silahların Güneydən çıxarılmasıyla, Azərbaycan Milli Hakimiyyətinin*"öz göbəyi, öz qayçısı„*[287]məntiqi ortadaydı. Lakin, inanc və ideolojik bağlılıqdan dolayı Moskva yönü, başqa alternativlərin axtarışına yol vermirdi. Bu haqda ən son milli dirəniş tablosuna baxalım:

---

[287] El sözüdür. Artıq kimsəyə inam yox, yalnız özün varsan. /kəndi bəslək olmaq/!

“5 dekabr 1946-cı ildə Təbrizdəki sovet vitse-konsulunun M.C.Bağırova yolladığı məlumatda göstərilir ki,

*«Bu gün radio ilə Pişəvəri xalqa müraciət edib, onları Tehran irticasına qarşı mübarizəyə çağırdı. Sabah Azərbaycan Əyalət Əncüməni yaranmış şəraiti müzakirə edib, əməli tədbirlər haqda qərar qəbul edəcək... Qərara alınıb ki, Pişəvəri sədr olmaqla Şəbüstəri, Qazı Məhəmməd, Qulamyəhya, Pənahian və Padiqandan ibarət Müdafiə Komitəsinin təsdiqini Əncüməndən keçirsinlər. Təbrizdə hərbi vəziyyət elan edilib. Azərbaycanın hər guşəsindən kəndlilər ADP-sına müraciət edirlər ki, onlara silah verib cəbhəyə göndərsinlər. Bu gün Təbrizdə Azərbaycan qəhrəmanı Babəkin adını daşıyan könüllü dəstəyə yazılış başlanıb»*

(22. s.518-519).

Yuxarıdakı məlumatı M.C.Bağırov alan kimi, o, Güney Azərbaycanda silah sarıdan xalqın çətin vəziyyətdə qaldığını və onlara imkan daxilində az miqdarda olsa da silah və hərbi sürsat göndərilməsini Stalindən xahiş etmişdi. Bağırov teleqramına Moskvanın cavabı almadığı üçün xahişini yenidən təkrar etsə də Moskvanın cavabı müsbət olmamışdı (25. s.189). Güney Azərbaycandakı hərəkat üçün çox ağır olan bu günlərdə S.C.Pişəvərinin öz silahdaşları ilə birlikdə sovet rəhbərliyinə az miqdar silah istəmək haqda son xahişinin cavabsız qalmasını həyəcansız oxumaq mümkün deyil. Məktubda deyilir: «…Əgər biz təslim olsaq, tarix bizi həmişə lənətləyəcək. Dünyada heç bir xalq öz qüdrətini öz əli ilə məhv etməz. Bütün xalq bizə müraciət edib öz azadlığını qorumaq üçün cəbhəyə getməyə icazə verməyimizi tələb edir». „[288]

Pişəvəri, böyük insan, qorxmaz siyasətçi və aydın düşünür, yazar və jurnalist idi. Seçim ərəfəsində Təbrizə gələrkən o, bu böyük xislətlərinə daha bir milli inamı da yükləmişdir. O, öz xatirələrində Azərbaycana gəlməsi ilə milliləşməsinə dair aydıncasına işarə edir. Ancaq

[288] GÜNEY AZƏRBAYCAN: TARİXİ, SİYASİ VƏ KULTUROLOJİ MÜSTƏVİDƏ (Məqalələr toplusu)
Hazırlayan Prof.dr. Vaqif Sultanlı, Bakı-Azərnəşr-2010.s44,45

milliləşməsinin təməl kökünü ya tapa bilmir, ya da tapmaq istəmirdi. Pişəvəri, bütün ömrü boyu düşüncə çəlişgisi içindəydi. O, solçuluqla millətçiliyin vəhdətini və sintezini axtarırdı. Lakin bu axtarışın ən böyük qurbanlığı isə bütün varlığı ilə sevdigi öz kimligi, öz mənliyi, öz milləti və özü oldu. Yə`ni, Türklügü! Və bu axtarış bu gün də davam etməkdədir. Əli Misyolarla başlayan, Xiyabanilərlə davam edən, Pişəvərilərlə zirvədə yerləşən bu məğlub axtarışın davamı indi də çeşidli adlar altında ap-aydın görünməkdədir. Bəlli ki, bu utopiya sintezin gərçəklənməsinə ümidli olan sol milliçilərin də ən böyük alerjisi Türk və Türkiyə sözcükləridir. Bu fakt, Əli Misyolarda, Xiyabanilərdə və Pişəvərilərdə olduğu kimi, bu günkü sol milliçilərdə də qalmaqdadır. Atalar demişkən “axtaran tapar”. Ancaq atalar heç zaman deməmişlər ki, “Tərsə axtaran düz tapar!”.

Moskva lazimı qədər ADF-dən yararlanmağa davam etdi. Oyun bitəndən sonra, sadə bir mesajla öz niyyətini ortaya qoydu.

Stalin Firqənin ən parlaq lideri olan S. C. Pişəvəriyə yazdığı hökümnamədə bir millətin alın yazısını belə bəlirlədi:

“... İranda dərin inqilabi böhran yoxdur... Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o indi özünü müdafiə mənafeyini və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur... Bizim sizə bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir...Siz demirsiz ki, biz əvəlcə sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və sizi rüsvay etmişik...Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz.... Əksinə, əgər siz özünüzü ağıllı aparsanız və bizim mənəvi köməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız, o vaxt sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi Azərbaycanlılar da, İran da xeyir-dua verər.”

*Stalin 8may 1946-ci il.*

1944,1945,1946-ci illərin xızlı gəlişmələri, ADF-nin hazırsız yaxalanmasına nədən olmuşdu. ADF-in doğuşu ilə hakimiyyətə gəlişi hardasa 100 gün içində gərçəkləşmişdi. Sözsüz ki, belə az bir zaman

içində bir siyasi qurum hətta özünün ən ilkin təməl işlərini də yerinə yetirə bilməz idi. ADF də bu qaydanın içində idi. ADF yola düşmədən öncə üzərində dayanmış ideoloji və strateji görüşlərini düzənə salmalı idi. Bütün firqə sənədləri bu haqda ADF-in hazırsız olmasını təsdiqləməkdədir. ADF olağan üstü istək qarşısında dayanmışdır. Firqənin sürətlə yaranması və ondan daha sürətli olaraq milli hakimiyyət yaratması, bəlirsiz stratejilərin ortaya gəlməsinə nədən olmuşdur. ADF iki yol ayrımında qalmışdır. Ya düşüncə bağlılıqdan sirilib təmamilə millətçi (Türkçü) quruluş olmalı va ya solçuluq düşüncəsi çərçivəsində bir milli(!) Firqə olacaq idi. ADF-in yaranması, kadırları və zaman özəllikləri, firqənin birinci şərt içində olmasını hardasa mahal əmr kimi göstərirdi. Bəlli və çox sadə faktlara görə ADF, ikinci yerdə dayanırdı. S .C . Pişəvəri iki yolu birləşdirmək istəyənlərin başını çəkirdi. Bu axtarışa görə S .C . Pişəvəri dəfələrlə kommunistlər tərəfindən ələşdirillir, ən ağır ideoloji və taktiksəl basqılara məruz qalırdı. Hətta demək olar ki, Firqə həmin təzyiqlər sonunda aydıncasına nə edəcəyini itirmişdir. Bütün ətrafını düşmən sarmış Firqə, son anlarda Türkiyəyə baş vursada, Ankaradan da əliboş qayıtmışdır. Çünkü ADF-in düşüncə və strateji yönü Moskva ilə başlamış və onunlada bitməyə məhküm olmuşdur. Hər nəysə bəlirsizlik içində qalan Firqə başçılarının zaman-zaman ikiyə bölünməsi də problemin daha da ağır olmasına yol açmışdır. Şəbüstəri və Cavid kimilərin Tehrana söykənməsilə Pişəvəri və M.Biriya kimi sadiq və millətsevər başçılarda da dirəniş və iradə sarsıntısı üz vermiyə bilməz idi. ADF-in qıssa zaman içində çeşidli və bir-birindən tam dəyişik stratejilərin ortaya qoymasında iç xayinlərin də böyük rolu olmuşdur.

ADF, 1945 sentyabr 03 (1324 şəhrivər12) tarixdə yaydığı 12 maddəlik bildirişindən 13 iyun 1946-ci ildəki Təbriz təslim naməsinə dək, zamandan asılı olaraq tam biri-birindən fərqli stratejilər ortaya qoymuşdur. Bu qıssa yazı çalışır ki, ADF-nin çeşidli zamanlarda ortaya qoyduğu milli-siyasi iradəsini qarşılaşdırmaqla, bu tipli milli davranışların Güney Azərbaycan milli hərəkatına olacaq etgisini aydınlaşdırıb, qarşıdan gələn milli tariximizdəki kor nöqtələrin aydınlaşmasına yardım etsin. Bütün acısı və dadlısıyla bu tarix bizim tarixdir. Millətinə , torpağına, qurtuluşuna könül vermiş hər vicdanlı aydın soydaşın görəvi varlığının

bütününü sevmək və mənimsəməkdir. Yalnız millətin qəhrəmanlarından danışmaq və mifçilik yaratmaqla bu sorun çözülməz! Bir məğlub milləti səfərbər etmək üçün, onu öz keçmişilə tanış etmək ən gərəkli işlərdən birisidir. Hər halda ADF Azərbaycanın vaz keçirilməz varlıqlarından birisidir. Bir millət öz varlığını mənimsəmək üçün, onun çevrəsində yaranan olayları özü araşdırmalı və gərəkir sə özünü tənqid etməlidir. Kəsinliklə keçmiş, gələcəyin çırağıdır. Bu çırağı düşmən əlinə verməmək üçün, onu bütün vəsayitini öz əlimizdə saxlamalıyıq. ADF bütün yeniş-yoxuşlarıyla GAMH - un yol çırağıdır. ADF-nin təcrübələrini araşdırmaqla Güney Azərbaycan milli hərəkatının irəliyə baxışı olduqça işıqlı və hamar ola bilər. Əks halda hər hansı bilimdən yoxsun kor təəssübə çulqalanarsaq bundan sonra da 21 azərlərin iki başlı yaşanacağına tanıq olacayıq. Tanrı bu milləti, sonsuz sonuclar batağından qorusun.

Dedik ki, ADF bilər- bilməz, Moskovanın bölgə siyasətində böyük rol sahibi olmuşdur. Bu rolun çox çəkmədən bitməsi üzərə, yalnız ADF deyil, Sevet Sosialist kommünist partiyasını ad böhrana soxmuşdur. Belə ki, İran adlanan dövlətin başbaxanı Əhməd Qəvamın Moskvadan dönməsindən sonra Sovet Azərbaycan Kommünist Partiyasının (SAKP) da bir çox başçısı Kremlinin gözündən düşməyə başlamışdır. Artıq M. C. Bağrovun üzərində qoyulmuş sorumluluq sona çatmaqda idi. Olayların irəliləməsilə M. C. Bağırovun Moskvanın növbəti qurbanlığı olması da aydınlaşırdı. Onun Güneyə aid olan önəriləri aydıncasına Kremlin tərəfindən rədd olunurdu. Hətta ondan istənilirdi ki, tezliklə Güneydə olan bütün vəsaiti Quzeyə daşıtdırsın. M. C. Bağırovun SAKP içində olan güçü, Moskva tərəfindən kəsərsizlənməyə sürüklənirdi. Moskvanın bir çox hökmünün Bakı tərəfindən gündəmə gəlməsi Təbrizin Bakıdan inciməsinə nədən olurdu. Hal bu ki, Bakı təpədən-dırnağa qədər rus Hegemonluğunun altındaydı. Moskva yuxarılarda öz işini görməkdə ikən, aşağa başda iki mir Cəfərlərin arası olduqca açılmağa başlamışdır.

Bütün bu fəlakətli ilişgilərə iki ağır yükün də yüklənməsi ADF-in alın yazısını bəlirləmişdir :

*ADF, Moskvanın zorakılığı və istəkləri əsasında onun müxalif cəbhəsində yerləşən Türkiyədən ara açmalı, ən doğma dünyasından aralanmalı idi.*

*Dünyanın ən nəhəng iki dövləti, Amerika və İngiltərənin qara listəsində yerləşərək, ümidini yalnız Moskvalnın qalib gəlməsinə bağlayacaq idi.*

*Amerikanın Tehrandaki səfiri, Amerikanın Firqə ilə baglı siyasətini belə ortaya qoyur:*

*"Hər qiymətə başa gəlirsə, gəlsin, Azərbaycan məsələsi həll edilməlidir. Silah gücü ilə də olsa, Azərbaycan hərəkatı aradan qaldırılmalıdır. Bu barədə İran dövlətinə nə kömək lazim gələrsə, Amerika hökuməti heç nəyi əsirgəməyəcəkdir...*[289]

**ADF-nin qıssa ömründə dəyişik stratejilərin meydana gəlməsi**

**a) 1945-09-03(1324-06-12)-də ADF-nin quruluş qurultayında verilən Muxtariyyət bildirişi. /12 Şəhrivər Bildirişi/**

**b) 1946-01-16(1324-10-25)də, ADF-nin hakimiyyəti əldə etməsindən az zaman sonra müxtariyyətdən, istiqlaliyyətə keçməsinə dair 50 il KQB arxivlərində saxlanılan bildirişi. /Azərbaycan Xalqının Tələbləri/**

**c) 1946-06-13(1325-02-02)-də ADF-nin rus ordusunun Güneydən çəkilməsi və Stalinin Pişəvərini hədələməsindən sonraki durumda muxtariyyətdən, əyalət əncümənlərinə razı olmasına dair təslimnaməsi.**

---

[289]*Güney Azərbaycan (kitabı). Ş. Tağizadə, Ə.Rəhimli, S.Bayramzadə.Bakı-2000. S.227)"*

a) **<u>12 Şəhrivər Bildirişi</u>:**

1 - İranin müstəqqiliyi və ərazi bütövlüyünün qorunması ilə yanaşı, Azərbaycan xalıqına daxili azadlıq və mədəni müxtariyət verilməlidir ki, edə bilsin özünün mədəniyyəti və Azərbaycanın abadlaşması və inkişafi üçün ümumi məmləkətin adilanə qanunlarını qorumaqla yanaşı, öz müqəddəratını təyin etsin.

2 - Bu məqsədi həyata keçirmək üçün tezliklə əyalət və vilayət əncümənləri seçilib, işə başlanmalıdır. Bu əncümənlər mədəni, iqtisadi və səhiyyə sahəsində fəaliyyət göstərməklə yanaşı, ana yasa çərçivəsində bütün dövlət işçilərinin əməllərini yoxlayıb, onların dəyişilmələrində qərər qəbul edəcəklər.

3 - Azərbaycanın ibtidai məktəblərində dərslər üçüncü sinifə qədər yalnız Azərbaycan dilində aparılmalıdır. Üçüncü sinifdən sonra Fars dili dövlət dili olaraq, Azərbaycan dili ilə yanaşı tədris edilməli dir. Azərbaycanda milli universitetin təsisi, Demokrat Firqəsinin əsas məqsədlərindən biri dir.

4 - Azərbaycan Demokrat Firqəsi sənaye və fabrikaların genişlənməsinə ciddiyyətlə çalışacaq və sə`y edəcək ki, mövcud fabrikaları təkmil etməklə yanaşı işsizliyi aradan qaldırmaq üçün əl və maşin sənay`isin genişləndirmək üçün alətlər yaradıb, yeni fabrikalar təsis etsin.

5 - Ticarətin genişlənməsini Azərbaycan Demokrat Firqəsi çox ciddi və gərəkli məsələlərdən biri hesab edir. Bu günə qədər ticari yolların bağlı qalması, çoxlu kəndlilərin xüsusi ilə bağdarların və xırda mülkdarların sərvətlərinin əllərindən çıxmasına və onların pis vəziyyətə düşməsinə səbəb olmuşdur. Bunun qabağını almaq məqsədi ilə Demokrat Firqəsı yeni bazar tapmaq və Azərbaycan əmtəə və məhsüllarını xaricə çıxarılması üçün tiranzit yolların çəkilməsinə ciddi iqdam etməyi və bununla da ümumi sərvətin aradan getməsinin qabağın almasını nəzərdə tutmuşdur.

6 - Demokrat Firqəsinin əsas məqsədlərindən biri də Azərbaycan şəhərlərinin abadlaşmasıdır. Bu məqsədə əl çatmaq üçün Firqə çalışacaq çox tezliklə şəhər əncümənlərinin qanunu dəyişilşin və şəhər əhalısına müstəqil bir şəkildə şəhərin abadlığına çalışıb, onu müasir və abad olmaqa imkan verilsin. Xüsusilədə  Təbriz şəhərinin su təchizati ilə təmin edilməsi, Azərbaycan Demokrat Firqəsinin gündəlik məsələlərındəndir.

7 - Azərbaycan Demokrat Firqəsini quranlar yaxşı bilirlər ki, məmləkətin sərvəti və iqtisadi qüvvəsi və gücü, kəndlilərin qüvvətli qoludur. Buna görə Firqə edəbilməz ki, kəndlilər arasında yaranan hərəkatı nəzərə almasın. Firqə çalışacaq ki, kəndlilərin istəyi və ehtiyaclarını təmin etmək üçün əsaslı addımlar götürülsün. Xüsusi ilə kəndlilərlə ərbablar arasında olan əlaqələri müəyənləşdirməsi və bə`zı ərbablar tərəfindən yaradılan və qanuna uyğun olmayan vergilərin qabağın almaq, Demokrat Firqəsının tezliklə həll edilməsi nəzərdə tutulan işlərdəndir. Firqə çalışacaq bu məsələ elə həll edilsin ki, həm kəndlilər razı qalsınlar həm də maliklər öz gələcəklərindən arxayın olub, rəğbət ilə öz kəndlərinin və  məmləkətinin abadlığına çalışsınlar. Xalısə torpaqları (dövlət torpaqları), eləcədə Azərbaycanı tərk edib qaçan, Azərbaycan xalqının iş və zəhmətinin məhsulunu Tehranda və sayir şəhərlərdə xərc edən ərbabların torpaqları, əgər tezliklə Azərbaycana dönməsələr, Demokrat Firqəsinin əsasnaməsinə müvafiq olaraq zəbt və kəndlilərin ixtiyarina verilməlidir. Biz özlərinin əyləncə və xoş olmaqları üçün Azərbaycanın sərvətini xaricə aparanları Azərbaycanlı saymırıq. Əgər onlar Azərbaycana geri dönməkdən imtina etsələr, onlar üçün Azərbaycanda hansısa bir haqq nəzərdə tutmuruq. Bundan əlavə Firqə çalışacaq ki, çox asan və sadə bir yolla Azərbaycan kəndlilərini əksər hissəsi torpaq və əkin alətləri ilə təmin etsin.

8 - Demokrat Firqəsinin önəmli işlərından biri də, işsizlikə mübarizədən ibarətdir. İndidən bu məsələ çox ciddi bir şəkildə özünü göstərməkdədir. Gələcəkdə bu axın (işsizlik) gündən-günə artacaqdir. Mərkəzi dövlət və məhəlli məmürlar tərəfindən bu sahadə heç bir iş görülməmışdir.

Əgər iş belə davam edərsə, Azərbaycan xalqının əksəriyyəti yoxsulıuq vəziyyətinə düşməyə məhkumdur. Firqə çalışır bu təhlükənin aradan qaldırması üçün ciddi tədbirlər görülürsün. Hələlik fabrikalarin təsisi, ticarətin genişlənməsi, əkinçı təşkilatların təsis edilməsi, dəmir və şüssə yolların çəkilməsi kimi tədbirlər, olabilsin müəyyən qədər faydalı olsun.

9 - Seçkilər qanununda Azərbaycanın haqqında böyük zülm edilmişdir. Dəqiq informasiyaya görə bu ölkədə dört milyondan artıq Azərbaycanlı yaşamaqdadir. Bu ədalətsiz qanuna görə Azərbaycana məclis şurayi millidə (milli məclisdə), 20 millət vəkili yeri ayrılmışdır. Bu qətiyyən düzgün və mütənasib bir bölgü deyildir. Azərbaycan Demokrat Firqəsi çalışacaq Azərbaycanın əhali sayına uyğun millət vəkili seçmə haqqı olsun. Buda təxminən ümumi millət vəkillərinın üçdə bir hissəsini təşkil edəbilər.

Azərbaycan Demokrat Firqəsi məclis seçkilərinin tam azad şəkildə keçırilməsinin tərəfdarıdır. O, dövlət işçilərinin daxili, xarici həm də pulluların qorxutmaq və aldatmaq yolu ilə seçkilər işinə qarışmalarına ciddi müxalifət edəcəkdir. Seçkilər gərək bütün İranda bir zamanda başlayıb və tez bir zamanda qurtarsın.

10 - Azərbaycan Demokrat Firqəsi fırıldaq və rüşvət alan şəxslərlə ki, dövlət idarələrində yerləşiblər ciddi mübarizə aparacaq və dövlət məmurları arasında düzgün işləyən şəxsləri mükafatlandıracaq. Xüsusi ilə Firqə çalışacaq onların maaşları və yaşayış şəraitləri də düzəlsin ki, onlar üçün oğurluq və xəyanət etməyə bəhanə qalmasın. Onlar eləyə bilsinlər ki, özləri üçün düzgün və şərəfli həyat şəraiti yaradsınlar.

11 - Demokrat Firqəsi çalışacaq Azərbaycanda alınan vergilərin yarısından çoxu Azərbaycanın öz ehtiyaclarına xərc edilsin və geri müstaqim (bir başa olmayan) vergilər azalsın.

12 - Azərbaycan Demokrat Firqəsi bütün dövlətlər, xüsusi ilə müttəfiqlərlə dostluq saxlamaq tərəfdarıdır və bu dostluğu davam etdirmək

üçün çalışacaq mərkəzdə və şəhərlərdə, İran ilə müttəfiq demokratik dövlətlər arasında ki dostluğu pozmaq istəyən xainlərin əllərini ictimai, siyasi və dövlət işlərindən kənar etsin.

Budur Demokrat Firqəsini yaradanların əsas məqsədləri.

Biz ümid edirik ki, hər bir vətənsevən Azərbaycanlı, istər Azərbaycanın daxilində və ya Azərbaycandan kənarda, bu müqəddəs məqsədə çatmaq üçün bizimlə səsbir və əlbir olacaqdır. Təbii dir ki insan əvvəl əgər öz evini islah etməsə məhəllə, şəhər və ya məmləkət üçün işləyə bilməz. Biz əvvəl öz evimiz olan Azərbaycandan başlayarıq və inanırıq ki, Azərbaycanın islah və inkişafi, İranın inkişafına səbəb olacaqdir və vətənimiz bu yol ilə quldurların və mürtəcelərin əlindən nicat tapacaqdir.

Yaşasın demokrat Azərbaycan!
Yaşasın müstəqil və azad İran!

Yaşasın İran Azərbaycan azadlığın həqiqi bayraqdarı olan Azərbaycan Demokrat Firqəsi.
3 Sentyabr 1945[290]

ADF-nin rəsmi orqanı Azərbaycan qazeti.
.........

### b) Azərbaycan xalqının tələbləri:

Xalqın qanuni tələblərinə cavab verməyən mərkəzi hökümət əsası olmayan “Azərbaycan İranın ayrılmaz hissəsidir” fikrini təkrarlamaqdadır. Bununla Tehran höküməti bir daha təsdiq edir ki, onlar Azərbaycan xalqının çox əsrlik tarixi ilə milli mövcudluğunu inkar edir. Terror, yalan və böhtan vasitəsi ilə onu milli zülm altında saxlamağa, böyük milli

[290] *(ADF-sinin Güney Azərbaycan otonomisilə bağlı 12 maddəlik bəyaniyyəsi/ “On İki Şəhrivər Kitabı„)*

demokratik hərakatını qaralamağa çalışır. Ona görə də biz milli azadlığımızı Tehran mürtəcelərindən qurtarmaq işində yalnız öz gücümüzə arxalana bilərik.

Buna yalnız bütün xalqımızın birləşməsi, dünyanın demokratik xalqlarının yardımı ilə nail ola bilərik.

Azərbaycan xalqı Tehranın heç bir iştirakı olmadan öz milli hökümətini yaratmaq məcburiyyətindədir. İndi artıq bizim milli müstəqilliyimiz və milli hökümətimiz şübhəsiz ki, mövcud olan fakta çevrilmişdir. İndi biz Azərbaycanın hər guşəsində böyük varlığın və köklü dəyişikliklərin şahidi oluruq. Köhnə, çürümüş dövlət aparatı dağılır. Öz yerini ölkənin yeni cavan qüvvələrinə verir. Şübhəsiz ki, belə vəziyyət davam edərsə ilk əlverişli imkan düşən kimi Tehran bizim milli müstəqilliyimizi qan dənizində boğmağa çalışacaq. Azərbaycanda demokratik hərəkatı ləğv etmek üçün heç bir cinayətdən çəkinməyəcək. Ona görə də biz ədalət və insaniyyətin təntənəsi naminə beş milyonluq xalqın azadlığı və müstəqilliyi, onun gələcək mövcudluğu və inkişafı naminə Azərbaycan milli muxtariyyətindən onun tam və əsl müstəqilliyinin əldə edilməsinə keçməliyik.

Bu o deməkdir ki, biz İrandan tamamilə ayrılıb demokratik əsasda öz müstəqil dövlətimizi Azərbaycan Milli Demokratik Respublikasını yaratmalıyıq.

Müstəqil Azərbaycan Milli Demokratik Respublikasının təməl prinsipləri!

1. Bizim ölkəmiz Azərbaycan Milli Demokratik Respublika adlandırılmalıdır.

2. Bu Cümhuriyyət sözün tam mənasında demokratik əsaslarda qurulmalıdır. Onun dövlət orqanları bir başa bərabər, gizli səs vermə ilə seçilməlidir.

3. Respublikanin əsas qanununu işləyib tamamlamaq, ölkənin taleyini müəyyənləşdirmək məqsədi ilə yaxın gələcəkdə tam demokratik əsasda Müəssislər Məclisi çağrılmalıdır.

4. Azərbaycanın Milli Demokratik Respublikası bütün vətəndaşları söz, mətbuat, vicdan və dini etiqat azadlığı ilə təmin etməli. Bütün bunları öz anayasasında əks etməlidir.

5. Dövlət orqanlarını geniş xalq kütlələrinə yaxınlaşdırmaq eyni zamanda əsl milli hakimiyyət yaratmaq məqsədi ilə bölüklərdən, mahallardan tutmuş, vilayətlərə qədər bütün Azərbaycan üzrə əncümənlər yaradılmalı və bu yolla yerlərdə bütün dövlət məmurlarının fəaliyyəti üzərində xalqın nəzarəti təmin olunmalıdır.

6. Azərbaycan Milli Demokratik Respublikasi ölkənin həyatının bütün sahələrində xüsüsi mülkiyyət hüququnu tanımaqla iqtisadiyyatın inkişafina və xalqın rifahına yönələn bütün təşəbbüslərə qayği ilə yanaşmalıdır.

7. Kəndlilərin həyat şəraitini yaxşılaşdırmaq, əkinçiliyi müasir texniki əsaslar üzərində keçirmək məqsədi ilə bütün dövlət torpaqları (xalisə) və Azərbaycandan qaçmış mülkədarlarin torpaqları kəndlilərə verilməlidir.

8. Ölkədə geniş xarakter almış işsizliyi ləğv etmək və fəhlə sinifinin vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə mövcud sənaye müəssisələrinin işi canlandırılmalı, yeni fabriklər, zavodlar tikilməlidir.

9. Azərbaycan Milli Demokratik Respublikasi yaxın gələcəkdə ölkənin yeraltı sərvətlərindən istifadə etmək üçün tədbirlər görməlidir. Hansi ki, Tehranın heç nəyə qadir olmaması ucbatından indiyə qədər istifadə olunmamış qalıb. Bizim xalq bu məsələyə böyük əhəmiyyət verərək ümid edir ki, bu

problemin həlli ölkənin iqtisadi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır.

10. Uzun əsrlər boyu azğın diktatorların hökmranlığı ölkəni dünya sivilizasiyasından uzaq saldığını nəzərə alaraq Azərbaycan Milli Demokratik Respublikası ölkədə elmin, texnikanın, mədəniyyətin inkişafını özünün birinci vəzifəsi hesab edir.

11. Biz tarixi, coğrafi, etnoqrafik məlumatları əsas götürərək yaratdığımız Azərbaycan Milli Demokratik Respublikasının tərkibinə aşağıdakı əsas şəhərləri daxil edirik. Təbriz, Ərdəbil, Urmiya, Miyandoab (Qoşaçay), Marağa, Salmas, Xoy, Mərənd, Miyana, Ənzəli, Makı, Əhər, Hero abad, Zəncan, Qəzvin, Həmədan. Biz respublikamızın sərhədlərini bu sənədə əlavə edilən xəritə əsasında müəyyənləşdiririk. Belə ki, xəritədə göstərilən şəhər və kəndlilərin əhalisinin 95%-dən çoxunu hazırki vaxtda Azərbaycanlılar təşkil edir.

12. Təqdim edilən xəritəyə Şimali Kürdüstan əraziləri də daxil edilmişdir. Bu ərazidə sərhədlər Şimali Kürdüstanın dövlət qurluşu ilə bağlı məsələ həll edildikdən sonra müəyyənləşdiriləcəkdir.

İmzalar:

ADF sədri, S.C.Pişəvəri,

ADF sədr muavini, Sadiq Padiqan

ADF MK üzvü, M.Biriya

ADF Mk üzvü, S.Cavid

ADF MK üzvü, Ə.Şəbüstəri.[291] ...

---

[291] *Azərbaycan Cümhuriyyəti, Siyasi Partiyalar, İctimai Hərəkatlar Mərkəzi, Dövlət Arxivi, Fond 1, Siyahı 89. İş 113. Vərəq 45-54, 56-58. Bu sənədlərin mətni, olduğu kimi*

### c) **<u>İran dövlətilə Azərbaycan Milli Hakimiyyətinin sazişi</u>:**

Dövlət və Azərbaycan nümayəndələri arasında olan müzakirələrin nəticəsində və dövlətin 22 Aprel 1946 - ci il tarixli 7 maddədən ibarət olan və həmin nümayəndələr tərəfindən qəbul edilmiş iblağiyəni (bəyanatı) nəzərə almaqla, fikir mübadiləsı nəticəsində razılıq əldə edildi ki, aşağıdakı madələr izahlı və mükəmməlləşmələrlə tərtib olunb, icra edilsin:

Maddə 1 - Dövlət iblağiyəsinin birinci maddəsi barədə razılıq əldə edildi ki, bu cümlə ona artırılsın: Maliyə rəisi (naziri) də əyaləti əncümənin təklifi və dövlətin təsdiqi ilə təyin olacaqdır.

Maddə 2 - Ona görə ki, dövlət iblağiyəsinin ikinci maddəsində qərara alınmışdir ustandar (vali), əyaləti əncümənin razılıqı olmaq şərti ilə, dövlət tərəfindən tə`in olacaqdır. Bunun icrası üçün razılıq əldə edildi ki, daxili işlər nazirliyi ustandarı, əyalət əncümənin təklif etdiyi neçə nəfərin arasından seçib, təsdiq üçün dövlətə təqdim etsin.

Maddə 3 - Azərbaycanda olan son hadisələri nəzərə alaraq, dövlət indiki milli məclisi (Azərbaycanın milli məclisi), əyaləti əncümən yerinə tanıyacaqdır. 15- ci məclis (Tehran məclisi) təşkil olub, dövlət tərəfindən təklif olunan yeni əyaləti və vilayəti əncümən qanunu təsdiq edildikdən sonra, Azərbaycan əyaləti əncüməninin seçkisi, qəbul olunmuş qanun üzrə tezliklə başlanacaqdır.

Maddə 4 - Azərbaycanda hərəkatın nəticəsində, həqiqi ordu xidmətindən təşkil tapan qoşun, bu müqavilənin imzalanması ilə İran qoşununun tərkib hissəsı olur və bu qoşun və onun ofiser və başçılarının vəziyyət və gələcəyini müəyyənləşdirmək üçün razılıq əldə edildi ki, Qəvam səltənə dövləti ilə Azərbaycan əyaləti əncümənin nümayəndələrindən ibarət bir komision təşkil edilsin və komisiyon bu məsələnin həlli yolunu tezliklə təsdiq üçün təklif etsin.

---

*Fro.Dr Cəmil Həsənlinin yazdığı "Soyuq Müharibənin başlandığı yer – Güney Azərbaycan" kitabından alınmışdır.*

Maddə 5 - Razılıq əldə edildi ki, Azərbaycanın gəlirindən yüzdə 75 faizi yerli xərclər üçün nəzərdə tutulsun və yüzdə 25 faizi də İran məmləkətinin ümumi xərcləri üçün mərkəzə göndərilsin.

Əlavə 1 – Poçt/post/ və telegraf, gömrük, dəmir yolu və Urmiyə gölündə gəmiçilik xərcləri və gəlirləri bütüvlüklə dövlət öhdəsinə və dövlətə xas olacaqdır. Qeyd edək ki, əyalət və vilayət əncümənlər və dövləti idarələrin telegrafı pulsuz olacaqdır.

Əlavə 2- Maqıstral şüssə yollarının tikintisi və təmiri dövlətin, yerli və kiçik yolların tikintisi və təmiri isə əyaləti əncümənin öhdəsində olur.

Əlavə 3 - Azərbaycan əhalisinin, İran məşrutiyətinə etdiyi böyük xidmətləri və Azərbaycan igid xalqının azadlıq və demokratiya qurmaq yolunda göstərdiyi canfəşanlıqından təşəkür və qədrdanlıq etmək üçün dövlət qəbul edir ki, Azərbaycanın gömrüklərindən gələn gəlirdən yüzdə 25 faizi Azəbaycan Milli Universitetinin təsis edilməsi üçün ixtisas verilsin.

Maddə 6 - Dövlət qəbul edir ki, Miyana və Təbriz arasında ki dəmir yolunun çəkilməsi tezliklə başlayıb və sona çatdırılsın. Şübhəsiz ki, bu işdə birinci növbədə Azərbaycanlı fəhlə və mütəxəssislərindən istifadə olacaqdır.

Maddə 7 - Fədai adı ilə təşkil tapan künüllü qoşunlar jandarmeriyə qoşulurlar və bu intizami qüvvələrin vəziyyətini tə`in etmək və onun ofiser və başçılarının t`əyini üçün razılıq əldə edildi ki, Qəvam səltənə dövləti və Azərbaycan əyaləti əncümən nümayəndələrindən ibarət bir komision təşkil olunsun və tezliklə bu məssələnin həlli yolunu təsdiq üçün təklif etsin.

Əlavə - Ona görə ki, son illərdə bəzi xoşagəlməz işlər nəticəsində jandarmeri adı İranın ümumi xalq düşüncəsində xüsusi ilə Azərbaycanda, mənfi hissiyat yaradıbdır və ona görə ki son zamanlar dövlət başçısı bu təşkilatın rəhbərliyini öz öhdəsinə götürüb və bu idarədə islahat və düzgün

olmayan şəxslərin kənarlaşdırılması gözlənilir, razılıq əldə edildi ki, bu məsələ dövlət başçısının nəzərinə yetirilsin ki bu təşkilatın adını dəyişmək və onun yerinə münasib bir ad seçilməsi üçün lazimi qərarlar alınsın.

Maddə 8 - Azərbaycan demokratik hərəkati nəticəsində kəndlilər arasında bölünən torpaqların haqqında, orada ki dövlət torpaqlarına aid olur, dövlət bütün məmləkətdə olan dövlət torpaqlarını kəndlilər arasında bölünməsi ilə razı olduğu üçün bu işin icrasını maneəsiz bilir və bu məsələyə aid olan layhəni birinci fürsətdə qəbul olunmaq üçün milli məclisə təqdim edəcəkdir. Başqa torpaqlar haqqında razılıq əldə edildi ki, mülkdarların ziyanını ödəmək və ya onların mülklərinin dəyişilməsi üçün, Qəvam səltənə dövləti və Azərbaycan əyalət əncümən nümayəndələrindən ibarət komision təşkil tapıb və bu komision məsələnin həlli yolunu təsdiq üçün təklif etsin.

Maddə 9 - Dövlət qəbul edir ki, 15- ci milli məclis təşkil olunan kimi azad və demokratik üsulu üzrə, yəni ümumi, gizli, birbaşa, mütənasib, bərabər və qadınlarda daxil olmaq şərti ilə tənzim olunan seçki qanun layihəsini məclisə təqdim edib və onun tə`cili qəbul edilməsini istəsin. Həmçinin dövlət qəbul edir ki, Azərbaycan və ölkənin başqa yerlərinin nümayəndə sayını, əhalisinin nisbəti ilə artırmaq üçün, 15- ci məclis təşkil olunan günü qanun layihəsini təklif edib, ikinci oxunuşda onun qəbulunu istəsin. Qəbul dan sonra seçki yolu ilə həmən yerlərin nümayəndə azlığını təyin və məclisə göndərsinlər.

Maddə 10 - Azərbaycan əyaləti 3 və 4 - cu ustanlardan ibarət dir.

Maddə 11 - Dövlət qəbul edir ki, Azərbaycanda işlərin yaxşı qabağa getməsi üçün ustandarlıq idarə rəisləri və əyaləti əncümənin rəislər heyətindən ibarət bir şürası təşkil edilsin və bu şüra əyaləti əncüməninin nəzarəti altında öz işini yerinə yetirsin.

Maddə 12 - 22 Aprel 1946 - ci il tarixli dövlət iblağiyəsinin üçüncü maddəsi (orta və ali məktəblərin işi və vəziyyətinin təyin etmək haqda) aydın olmadığı üçün bu cümlə əlavə edilir: Orta və ali məktəblərdə

Azərbaycan və Fars dillərində tədris, mədəniyyət nazirliyi tərəfindən edilən düzəliş, zaman və şərait və demokratik üsullarla uyğun şəkildə tərtib olunan program üzrə əməl olacaqdır.

Maddə 13 - Dövlət qəbul edir ki, Azərbaycanda olan kürdlər bu müqavilə dən bəhrələnsinlar və dövlət iblağiyəsinin üçüncü maddəsi üzrə, 5- ci ibtidai məktəblərə qədər öz dillərində tədris etsinlər.

Əlavə - Azərbaycanda olan Asorılar və Ermənilər kimi azlıqlarda haqları olacaqdır ki, 5- ci sinifə qədər öz ana dillərində tədris etsinlər.

Maddə 14 - Dövlət nəzərdə tutubdur ki, bütün İran üçün demokratik üsulu üzrə, yəni ümumi, gizli, birbaşa və bərabər səslə tərtib olunan şəhər əncümənləri seçki qanununu qəbul olunmaq üçün 15- ci məclisə təklif etsin. Bu qanun qəbul olunandan dərhal sonra, Azərbaycan və bütün İranda şəhər əncümənlərinin seçkisinə başlanacaqdır. Bu qanun qəbul edilənə qədər və yeni seçkilər keçirilənə qədər, Azərbaycanda olan indiki şəhər əncümənləri öz işlərini davam edəcəklər.

Maddə 15 - Bu müqavilə iki nüsxədə tərtib və mübadilə olunub, dövlət hey`əti və Azərbaycan əyaləti əncüməninin qəbulundan sonra icrayə qoyulur.

Təbriz şəhəri 13 İyun 1946

Pişəvəri

Müzəffər Firuz.[292]

---

[292] *Qaynaq: ADF-nin rəsmi orqanı Azərbaycan qazeti*

# 11. BÖLÜM

# Əxlaq və hüquq baxımdan Azərbaycan

## Azərbaycan, Əxlaq anlayışında

Böyük çoxunluğunu Türk milləti oluşduran, onunla yanaşı çeşidli xalqların da vahid vətəni olan Azərbaycanda, ən əski zamanlardan bu günədək özümlü əxlaq ölçüsü içində uyumlu yaşam biçimi yaranmışdır. Vətənimiz, nəyinki gəlişmiş gələnək və insancıl duyğular məkanı olmuşdur. Həm də, öz olumlu əxlaq ölçülərilə bölgədə də ən üstün toplum əxlaq örnəyi olmuşdur. Tarixin verdiyi örnəklərə görə, Azərbaycan torpaqlarında yaşayan insan toplusunun kişisəl əxlaq yükü ağırlıq basaraq qeri əxlaq sayılan davranışların kütlə içində yeri olmamışdır. Elə bu üzdən də, birəysəl iradələrin birləşməsindən toplumçu idraka varmış ilk toplumlardan olmuşdur. Bilindiyinə görə, insan topluluqlarının ilkin yüksəliş dalğalarında, inanc və tapınaqlar [293] böyük rol oynamışdır. Aydındır ki, inanc və tapınaqlar bütün kültürlərin içində böyük yer almış, kütlələrin yaşamında söz sahibi olmuşdur. Heç şübhəsiz, ilkəl insan toplumların formalaşmasında və əxlaq qurallarının harmonileşməsində inanc və tapınaqların önəmli rolu olmuşdur. İnancın mifolojidə olan rolunu da kiçik sanmaq olmaz. Hətta demək olar ki, inanc yaranmadan öncə mifolojik oluşumun var olması belə, inanılmazdır.

Hər əski və köklü toplumun mifolojik özəlliyi olduğu kimi, Azərbaycan Türk toplumunun da ən ilkin çağlara dayanan öz toplumsal

---

[293] məbədlər.

mifolojisi olmuşdur. Azərbaycan Türklüyü uzun zaman rus-Fars və başqa qonşu xalqların aydın asimila siyasətinə tuş gəlsə belə, bilər-bilməz, həmin əski inanclarının da gücü sayəsində öz toplum əxlağını itirməmişdir.

Yazılı faktlara görə, Türk mifolojisi ilə qopulmaz ilişgisi olan Azərbaycan Türk Milletinin qopuq zamanlarda *Totemçilik, Şamançılıq, Odçuluq*[294]kimi inanclarla geçici ilişgisi olsa da, *Tanrıçılıq* inancı bu ulus içində daha geniş yayılmışdır. Elə məhz bu açıdan dünya görüşü və əxlaq tərzini qazanaraq sosial qanunlar yazmış, böyüklərə dayanmış, uşaqlara iltifat bəsləmiş, tanrıya, verdiyi yaşamdan dolayı şükürlər etmiş, torpağa, ışığa, günəşə, suya, oda və yelə törətdikləri yaşam gərəkləri üçün minnətdar olmuş, qaranlığa, cəhalətə, soyuğa, əyriliyə, oğruluğa, xəyanətə isə, gətirdikləri savaş və fəlakətdən nifrət etmişdir. İslamın ortaya çıxmasıyla Türk əxlaqçılığı qarşılıqlı olaraq islamla alış-verişdə olsa da, öz əski tərzində köklü dəyişik etmə gərəyində qalmamışdır. Çünkü, islamdan min illər qabaq Türk yaşam fəlsəfəsində Təktanrıçılıq inancı öz möhkəm yerini almaqla, Türk milli əxlağın formalaşmasında böyük rol oynamışdır. Belə ki, islamın gətirdiyi dünya görüşü çox öncədən Türklərin yaşamına girmiş, qarşılıqlı etginlik yaratmışdır. Bu üzdən Türk milləti çox da qan tökülmədən, könül birliyi içində islam dinini mənimsəmiş, onun genişlənməsində öz milli mənfəətlərindən belə keçmişdir. Dedik ki, Türk əxlaqçılığında Təktanrıçılıq inancı böyük yer almışdır. Hatta M.Ö. 2- ci və 1- ci yüzilliklərdən ortaya çıxan Zərtüşt qalxışı da Tanrıçılıq inancı üzərinə böyük etgi buraxa bilməmiş və Zərtüştün öz doğma torpağından köçməsi və Fars bölgələrində pöhrənməsi də bu üzdən olmuşdur. Sonralar Fars kökənli Sasanlıların Zərtüşt moğlarından yararlanması, Türk kökənli Arşakları gücdən salması da, Farsların Zərtüştizmə (Odçuluq) daha da meylili olmasının bir başqa səbəbi olmuşdur.

Azərbaycan, zaman boyu Türk əxlağı, gələnəkləri, ruhu içində olduğu üçün, islamdan sonrakı çağlarda da öz əski dəblərini saxlaya bilmiş, yaşam fəlsəfəsini öz milli əxlağı üzərində sürdürmüşdür. Toy-duyun, yas, törən, böyüklərə sayğı, yoxsullara yardım, qonşulara yaxşılıq, toplum xeyrinə iradəli paylaşım, ailə təməli, qonaq sevərlik, toplumu

---

[294] Adı çəkilən qonular haqda bilgi almaq üçün internetdə olduqca bilgi qaynaqları vardır.

qorumaq, torpağa bağlılıq, doğaya sevgi v.b. kimi yaşam alanlarıyla özdəşən Azərbaycan Türklüyünün dəyişməz özəlliyi olaraq tarixin ən dərin qatlarından gələn bir varlıq olaraq özünü qorumaqdadır. Sözsüz ki, keçmişdən gələn milli əxlağın bugünümüzdə olduğu kimi özgür gələcəyimizin qurulmasında da böyük təsiri olacaqdır. Bir millətin bütün varlığı kimi, milli əxlağının da sağlam, güclü, iradəli və bilimsəl tutulması gərəkir. Təbi ki. milli dövlət olmadan, asimila darbəsi altında inləyən bir millətin milli əxlağı da əzilir.

Güneydə qurtuluş savaşı, Quzeydə demokratikləşmə və milli barış sorunu, Qarabaqda erməni faşizminin at çapdırması, Azərbaycanda Türk əxlağının qarşısında böyük sorğu işarəti qoymaqdadır. İnsanlığın bütöv ölkəsinin yenidən qurulması, düşmənlər əlində olan bütün olanaqları geri qayıtması və özgürlük şərəfinin Türk insanına qayıtması Azərbaycanda sarsılmaz ulusal əxlaq fəlsəfəsinin anlamıdır. Milli şairimiz Səhənd demişkən:

*“Bu torpaqda, bu diyarda,*

*Əsirlərdən, əsirlərə,*

*Əlsizləri talamayan,*

*Tupurduyun yalamayan,*

*Dillərinə yalan gəlməz,*

*Haq yolundan üz çevirməz,*

*Zülmkara boyun əyməz,*

*Dalısını düşmən görməz,*

*Dişi aslan,*

*Qoç igitlər,*

*Qaflan kimi,*

*Bu dağların yaylaqların,*

*Ceyran qaçar ovlaqların,*

*Torpaqları qarışıqdır,*

*Babaların torpağılan…”*[295]

*El-oba sözündə, vətən sözündə,*

*Yəqin bir ülviyyət, bir həqiqət var,*

*Boş beyin adamlar dəyilmiş şəksiz,*

*Bu yolda baş verib, canın qoyanlar.*

*Vətəndir həyatın, ömrün hamısı,*

*Vətənsiz insanın günü hədərdir,*

*Vətəndir igidin irzi-namusu,*

*Vətənə yan baxan bir dərbədərdir…*[296]

Səhəndin də dediyindən belə çıxır ki, vətənsiz yaşamaq mümkün olası iş deyildir. Amma baxaq görək vətənli yaşamaq nə demək olur! Bugünün kürəsəlləşmiş dünyasında, insanların qaynayıb, qarışması, yavaş-yavaş adət halına gəlməkdədir. Bölgələr birləşir, azad insanın dövlət kimliyi daha da geniş anlamda ifadə olunur. Artıq kimsənin özünü dünyadan gizli saxlamaq şansı qalmamışdır. Qalmamışdır desək, mütləq görünsə də, yaxın zamanda kəsin olacağına inanmalıyıq. Belə olan halda, vətənli yaşamaq da olduqca bəsit və olağan bir nəsnələ çevrilir. Y`əni, insanlıq hökmünə görə, hər insan öz birəy düşüncəsinə söykənərək

---

[295] *(Səhənd Qaraçorlu, Dədəmin Kitabı, 2001 Stockholm. S12, 13)*

[296] *((Səhənd Qaraçorlu, Dədəmin Kitabı, 2001 Stockholm. s202,203)*

postmodern dünyaya ayaq basır. Çünki, postmodern dünyanın sınırı yoxdur. Onun tərifləri klasik normalarla uyum sağlamır. Postmodernnizm əxlaq ötəsində bir əxlaq tərzi olur. Kimiləri onun anlamını əxlaqsızlıq, kimiləri isə əxlağın tam özü və özülü hesab edir.

Bizim düşüdüyümüz milli əxlaqla postmodernizmin ilişgisi olarmı? Təbi ki, postmodern insanın öz dövlətilə sınırsız, özgür və bağımsız ilişgisi vardır. Ortada güç mərkəzi yoxdur. Üzdə, dünya insanı olmağın önü açıqdır. Dünya sınırları mikro elektronlarla bəlli olur. Daha artıq, "Nədən yalnız dövlət olmalı?„ sorğusu ortadan qalxır. Təbi ki, bu gözəl sözlərin bizim bölgəmizə aid olmadığını acı çəkə-çəkə nsanlarımız duymaqdadır. Postmodernitə modernizmi aşan bir yaşam biçimidir. Biz isə, onun uzaqdan seyriçisiyik. Dövlətsiz toplumların evrənsəlləşməsi üçün qurtuluş savaşı qaçırılmazdır. Çünki, postmodernitə ən başlıca amacı dünya hakimiyyətidir. Sözün qıssası, dünyada əsir bir toplum varsa, postmodernizm də sorğu altına çəkilir. Bu gərçəyə görə, əsir və geri qalmış ölkələrin yalnız birəylərinin postmodern dünyada olma şansı olur. O da, hansısa bir başqa kimlik çatısı altında və sadəcə postmodernitənin nə olduğunu başa düşmədən! Göründüyü kimi, cəhalət çəmbərində inləyən, modernitəni təcrübə etməyən hər hansı kütlənin evrənsəl insan olması imkansızdır. Burdadır ki, insan əxlağının tanımlaması yeni forma alır. Yeni milli əxlaq tanımında, Mənim Dilim, Mənim Elim, Mənim Torpağım kimi somut boyudlar, həm də duyduğumuz və gördüyümüz bir soyut dünyanın – İnsanlıq və yaşam dünyasının- istəklərini qarşımıza qoyur.

Dünyanız, hər anında gözlənilmədən dəyişir. Bu dəyişimlə birlikdə əxlaq xarekteri də dayanmadan sınır ötəsinin etgisi altına düşür. *Bəs sınır içində nələr dəyişmir?* Artıq sınır içi adlı bir etginliyi geçmişlər kimi anlatmaq mümkün deyildir. Etgilənmək və etgiləndirmək dünyanın vaz keçirilməzi olmuşdur. Hər hansı dövlətin ilətişim alanı böyükdürsə, dünyaya ağalığı da böyük olur. Ancaq, bu, o demək deyil ki, insanlar içində inteqrasiya bir anlamlı olaraq Batı Dalğasıdır. Doğrudur ki, batı bu yöndə ağılıq basır. Heç şübhəsiz ki, batının ən batısının çinləşmiş kültürünün gündən günə mafiyalaşmasını görmədən keçmək olmaz! Kiminə görə, bunun adı demokrasi, kiminə görə isə, qarşılıqlı qaynaşıb

qovuşmaqdır! Kimsələrin deyimlərə görə, Amerika Çin Maosunu "KokaKola"sıyla öldürdü. Kimisələrin də deyimilə, Çin Kuklaları Amerika "Wall street"ini çökütdü. Bəlkə, axı bunların bizim bəhsimizlə nə dəxli var diyənlər də ola bilər. Məncə bugünün dünyasının ən başat siyası əxlağının qarşılıqlı etgisinin köklərini buradan axtarmaq gərəkir. Sözsüz ki, kukla olayı bir kültür və toplumsal əxlaq örnəyidir. Necə ki, Koka (Coca) olayı da, Amerika tipli bir evrənsəl kültür olmuşdur. Burada sınır yoxdur artıq. Dünyanın ən geri qalmış və ucqar bölgələrində əkmək olmasa belə Cin kuklası və Amerika kolasını görməmək mümkün deyildir. Dünyanın bir çox yerliləri Amerika kolasını və Çin kuklasını onların özlərindən daha gözəl törədir və hətta başqa toplumlara satır və qazanırlar. Ancaq nə olursa olsun Çin və Amerika əl-ələ verərək dünyanın toplum əxlağının kuklalaşmasını və kolalaşmasını sağlayırlar. Japoniya, "Sony"sıyla bir sosial ekonimik əxlağın törədicisidir. Alman, Fransa, Kurə habelə. Deməк ki, bir toplumun ulusal əxlağının dəyişməməsi söz qonusu belə ola bilməz! Əxlaqlar dəyişir, cünkü gündəlik adətlər internet araçılığı ilə alt-üst olunur. Bəs dəyişən toplum əxlağı nə olur? sorğudan doğan daha bir sorğu hər şeyi aydınladır. Öncə de görək sən hansı dövlətin vətəndaşısan? Və, mən sorunun yanıtını alıram. Öz-özümə ağıl verirəm: Boş ver kuklanı, kolanı, "sony"ni. Boş ver ucqarlıqda özünü laçın tanrısı sanan kimsəni. Sən hara belə əxlaq olaylardan danışmaq hara? Nəyin var ki, Əxlağın olsun!? Demək normal dünyayla Anormal Mənim aramda inanılmaz uçurum var imiş və mən bunu heç başa düşməmişəm. Demək dünya bir Vətən olmaq diləyini yaşarkən, mən vətən torpağı olmaq üçün bir böyügümə, bir sahibimə belə əl tapacaq gücüm yoxdur. Demək mənim əxlağım yoxa çıxmış böyügümün və sahibimin vicdanına sığmış və onunla gizləmişdir. Və son: əxlaq vicdanımı diritmək üçün, sahibimi yoxlar dünyasında geri qaytarmağım və varlar dünyasına çatdırmağım gərəkir. Budur mənim əxlaq savaşım!

Vətən əxlağına dayanaraq özgür, çağdaş, demokratik, sekolar, bilimsəl və öncül toplum olmaq yolu yalnız, Azərbaycan Türklüyünün təməl ülküsündən keçir. Vətən əxlağı anlayışı nə qədər də dəyişik anlamlarda ortaya çıxarsa belə, bir nöqtədə dəyişməz və donuqdur. Hər hansı açıdan baxarsaq, Vətən əxlağı anlayışının doğrudan-doğruya Ulus-

Dövlət fəlsəfəsinə bağlı olduğu gərəkməkdədir. Bəlkə b`əzilərinə görə, Ulus-Dövlətin fəlsəfi məqamda deyil ideolojik tanıtım dayrəsinə bağlı olduğu düzgün olsun. Məncə, bir millətin qurtuluşunun stratejik amacı olan dövlətçilik büs-bütün bir fəlsəfə alanıdır. Belə ki, istər vətəndaş, istər soydaş olsun, yer üzündə yaşayan hər kəsin düşüncəsindən, yaşam düzeyindən, etnik bağlarından asılı olmayaraq bəlli sınıra bağlı olan dövlətə möhtac olduğunu nə siyasi amaclar və nə də ideolojik yöntəmlər t`ərif edəbilməz! Çünkü, ideolojik və politikal anlamların özü, yalnız dövlət varlığının içində real anlam daşıya bilər. Başqa deyimlə, siyasət və ideolojik alanlarının öz başınalığı mümkün deyildir. Siyasət və ideolojik alanların fəlsəfəyə bağlı olduğu, fəlsəfənin isə, bu alanların ötəsində dayandığı qaçırılmazdır. Bu üzdən, insan və millət anlayışı fəlsəfi qonum olduğu üçün ideolojik və politik dördgenində doğru tanıtım şansı tapabilməz!

Yasal vəya yasaq olmasından asılı olmayaraq hər hansı toplum içində yaşamaqda olan insanların o toplumun özəl qurallarına uyması gərəkir. Başqa anlamda desək, birəy və toplum arasında olan saysız ilgi, öfkə, bağ qonumu vardır. Ancaq bu qonuların arasında ortaq bir bağlantı rolu oynayan ana hököm ortadadır. Quşqusuz, bu ana bağlantı, Vətən əxlağıdır.

Demək, vətən, yalnız bir somut və tək anlamlı termin deyildir. Vətən deyiləndə, həm də, onun üzərində birləşən və bütövləşən birəylərin tarixi, kültürü, əxlaqlaşmış kimliyi duyulur. yalnız, bu pəkişmiş soyutların siyasal, etniksəl və etno-sosiyal sistemləşməsi ilə toplum içində Ulusal Vətən Əxlağı oluşa bilər. Əxlaq ilkələrinə yiyələnməyi bacarmayan toplumun hər əsən küləklə doğma kökündən qopacağının hər an üz verməsi gözlənilər olaydır. Bu durumda bəlli toplumun bir gün batıdan, başqa gün isə, doğudan gələn çəlişgili [297] dalğalarla oynayacağı da şübhəsizdir.

[297] ziddiyətli

**Azərbaycan Türk Əxlağının təməl dayaqları:**

## A) Azərbaycan, hüquq anlayışında

Azərbaycan 1813 və 1828-ci illərdən bəri torpaq bütövlüyünü, toplum birliyini, dil, kültür və milli varlığını basqıçı düşmənlərə qapdırmışdır. Vətən, uzun zaman özünü idarə etmə gücünü itirərək, sosial-siyasal kimliyini də uluslararası ilgilərdə əldən vermişdir. Yalnız, 1990-ci ildən bəri, qəsb olunmuş torpaqlarının və əsarətə düşmüş millətinin % 20-sinin özgür olmasıyla yenidən yasallığına və hüquqluğa qovuşmuş və yenidən Millət statisi qazanmışdır.

1813-cü ilədək Azərbaycanın torpaq ərazisi hardasa 400,000 Kvkm idi. Bu ərazi tək başına Avrupanın bir neçə ölkəsinə bədəldir. Tarixin göstərdiginə görə, bu torpaqlar ən eski çağlardan Azərbaycan Türklərinin yaşayış yeri olmuşdur. Gülüstan anlaşmasıyla bağımsızlığını itirən Azərbaycan, 1828-ci ildə Türkmənçay anlaşmasıyla tam bölünmə yoluna sürüklənmiş, 1925 -ci ildən isə Farsçılığa boyun əymiş Qacar Türk dövlətindən sonra iki yabancı Rusiya və İran (Fars) dövlətlərinin müstəmləkəsinə çevrilmişdir. Göründüyü kimi, Azərbaycanın bölünməsi 19-cu yüzilliyin ilk illərindən başlarkən, 20-ci yüzilliyin ilk yarısında tam olaraq sonunu bulmuşdur. 20-ci yüzilliyin sonlarına yaxınlaşdıqca basqı illəri boyu çeşidli dirənişlər və ayaqlanmalar nəticə verməyə başlarkən, ulusumuzun milli iradəsi sür`ətlə yüksəliş yoluna ayaq basmışdır.

1991-ci il sovet dövlətçiliyinin çöküşü ilə, Azərbaycanın quzeyi özgürlüyünə qovuşmuşdur. Quzeyin hüquq istatist qazanmasıyla Güneydə də, milli dirçəliş və özünü dərketmə prossesi güclənməyə başlamış və gündən-günə milli-siyasi dirçəlişə dəvam etməkdədir.

Azərbaycan Türklüyünün yasal haqlarının yenidən qurulmasıyla təkcə bir milli ideyal deyil, həm də bölgənin böyük bülümünü bürüyən anti hüquq ilişgilərə son qoyulacaqdır.

Bugün, var olan Azərbaycan Dövlətçiliyi bir uzun qurtuluş savaşının ilk aşamasıdır. Azərbaycanda dövlətçilik yolunda savaş, tam

olaraq o zaman başa çatacaq ki, torpaqlarımızın %100-ü azad olub, ulus-dövlət sistemi yaransın. Bu üzdən var olan Azərbaycan dövləti, kəsinliklə böyüməli, sınırları doğal coğrafisinə çəkilməli, vətəndaşlıq anlayışı bütün milləti ihatə etməli, millət və xalq dövləti olan ulus-dövlət istatusu qazanmalıdır.

Təxminlərə dayanaraq, Bütöv Azərbacan torpaqlarının bu andaki metre qarası, toplum sayı və etno-siyasi durumu aşağıdakı kimidir:

1. Azərbaycan dövləti idarəçiliyində olan – Azərbaycan Respoblikası, 8,900,000 toplumu ilə 65,000 km²

2. 1992-93 illərdə Ermənistan və Rus ordusunun işğalına uğramış Ön Qarabağ və Dağlıq Qarabağ, (1,100,000 toplumu, Azərbaycanın başqa yerlərində qaçqın statusundadırlar.) 22,000 km².

3. Ruslar əlilə Gürcüstan dövlətinə verilən Qarayazı, Borçalı və həndəvər mahalların bütün şəhər və kəndlərilə birlikdə, 700,000 toplumu ilə 10,000 km².

4. 1918-ci ildə, yaranmaqda olan Ermənistan dövlətinə verilən İrəvan əyaləti 300,000 toplumu, 9000 km².

5. Ruslar əlilə Ermənistana verilən Göycə (böyük alanı), Zəngilan, Zəngəzor mahalları 500,000 toplumu ilə[298] 10,000 km².

6. Rusiya imperiyası əlilə Azərbaycandan qoparılan Dərbənd əyaləti 500,000 toplumuyla 10,000 km².

7. Ruslar və ingilislərin yardımıyla İran-Fars hegemonluğu altına düşən Azərbaycanın Güneyi [299] 25,000,000 toplumu, 280, 000 km².

8. İran adlanan yerdə və Farsistan ərazisində yaşayan (diaspor) Azərbaycanlılar 12,000,000 toplum.[300]

---

[298] sonralar bu torpaqlarda yaşayan Azərbaycanlılar deportasiya olunur.

[299] Güney Azərbaycan Arazdan Əraka, Süngürə, Zaqrosa dək.

9. Rusiya və Ukrayın və Ortaasiya ölkələri dışında, dünyanın başqa-başqa yerlərində yaşamaqda olan (diaspor) Azərbaycanlılar 3,000,000 toplum.

10. Rusiya, Ukrayın və Ortaasiya ölkələrində yaşayan (diaspor) Azərbaycanlılar 2,000,000 toplum.

Qeyd: Yuxarıda da bəlli olduğu kimi, Azərbaycan adlı hüquqsal varlığın yalnız %20 torpağı və toplumu öz azad və qanuni dövləti hakimiyyəti altındadır.

## B) Azərbaycan Davasında Əxlaqsal və Hüquqsal dirənişin irəli sürdüyü özgür inanc!

*"İnsanın qurtuluşu, çevrəsini tutan mütləqlərdən, bilinməz güclərdən və hər şeyi birgələşdirən güclərdən azad olmasına bağlıdır. Yoxsa belə olmazsa, onların üstün hökümlərindən və tanrılığından can qaçırmaq mümkün olmaz. Oysa insan özgürlük uğrunda bütün quralları darma-dağın etməli, var olan hər şeyə saygılı olmamalı, özgəliyə, mütləqliyə verilən hər şeyini geri almalı və onu ən yaxın özlüyünə, özündən olana qaytarmalıdır."*[301]

Siyasi düzənək və rejimdən asılı olmayaraq, hər toplum istər-istəməz çeşidli fərdlərdən oluşan hüquq birləşməsi sayılır. Ancaq, adına baxmayaraq bu hüquq birləşməsinin hər zaman özünü idarə etməsi də söz qonusu ola bilmir. Bir çox hüquq birləşmələrin içində birəy ortaqların ən ilkər belə, haqqı yoxdur. Bu birəylər nəyinki, toplum yasalarından yararlanmır, həmin yasalar aracılığıyla ən ağır aşağılamalara uyğrayırlar. Bu toplumlarda kütlənin siyasal əritməsi o dərəcə dərinləşir ki, başına

---

[300] daha geniş bilgi üçün baş vurun:
www.sozumuz.blogspot.com/ Mehran Baharlı,
İran coğrafyasında Türkler/ Ali Kafkazyalı.

[301] *(Fredriş Niçe, Gücün iradəsi ( farsca), 1.ci cilid, Tehran 1999, Nil yayını, s267)*

gələnləri normal və ilahi təqdir kimi alqılamağa başlayır. Bu üzdən, belənçi hüquq və hakimiyyət əxlağına baş əymək və ya susqun qalmağın özü də əxlaqsızlıqdır.

İnsan haqlarının pozulması ilə sosial hüquqların da pozulması kəsinləşir. Bu sürəcin az bir zamanda toplumun gənəl təməllərinə yayılması ilə insanlar içində əxlaq sarsıntısı da qaçırılmaz olur. Bu gedişin dəvam etməsilə toplum içində əxlaqsal dəngə pozulur. İnsanlığın ən təməl ilkəsi olan ulusal ruhçuluğun yerini ulusüstü anti ulus nəsnəllər almağa başlayır. Toplum təməlini əxlaq dayaqları üzərində saxlayan Ulusal Ruh etgisiz olunr. Toplumdaki insani qurallar payız yarpağı tək ələnir. Fərdi əxlağın pozulmasıyla toplumda olan dəyərlərin də, yerini bazar ehtirasları alır. İnsanlıq bütünlüklə öz dayaqlarını əldən verir. Toplum içində müsavat və paylaşım adlı nə bir nəsnəl və nə də öznəlin yaşamq imkanı olmur. Belə xəstələnmiş toplumda milyonlar kütlə, az saylı bir hakim dayrənin qanunlarına tabe olaraq sürünür. Belə toplumda, tavansız omuzlar, tavanlıların tanrılığı yolunun qul olurlar. Bu aşamada, yalnız dövlət deyil, məğlub insanlar öz-özlərini imha etməyə çalışırlar. Bazar yaşamı toplumun ilk və son sözü olur. İnsanların başına nə gəlirsə gəlsin, seçginlərin nəsnəl görüntüsü, var-sərvəti və ad-sanına toxunulmasın yetər! Bu mənzərə kəsinliklə bir insanlıq faciəsidir. *Niçə* demişkən,

*“Bu kötülük mütləqiyyətinin üzərinə cumub onu aradan qaldırmaq, insanlığın ən əxlaqsal gərəkidir. Bu insanlıq icabıdır. Acımasızlığı öz qualları içində gömmək gərəkdir!„*

Birləşmiş Millətlər Təşkilatının insan və millət haqlarıyla bağlı verdiyi aydın mesajları, nəyinki bütün üzv dövlətlərini riayətə çağırmış, eyni zamanda bu kimi ilkin haqların qorunmasını bir bəşər görəvi kimi vurğulamışdır. Öncə 1776-cı ildə Amerika İstiqlaliyyət bildirişində, yer alan tipik anlayışlara görə:

a) İnsanlar azad və özəl doğulur. Hər hansı nəsnəl və sosial anlaşma səbəbdən ləğv olunamaz!

b) Yaşam, azadlıq və malikiyyət haqqı, insanların ana haqqıdır. Bu haqlar toxunulmazdır.

c) Dövlətlərin varlığı millətə aiddir. Dövlətin bütün ixtiyarları millətin əlində olmalı və dövlət millətin xeyri və məsləhəti doğruntusunda olmalıdır. İnsanın ulusal və birey haqları, inanc və əxalq azadlığı pozulmamalıdır. V.b.

Sonralar isə, 1789-da Fransa devrimindən doğan bənzər genişləmələr öz əksini aşağıdakı sıralamada sərgilədir:

a) Bütün insanlar azad doğulur. Bu üzdən azad və eşid yaşamaq haqları vardır.

b) İnsan haqları hər bir siyasi və sosial örgüdlərin ötəsində durur. Bütün orqanik çabalar insanların azadlığı üçündür.

c) Hər hansı dövlətin yasal oluşu millətin iradəsinə bağlıdır. Millətsiz heç bir dövlət qurulamaz. Bu üzdən dövlət yalnız ulus dövləti olmalıdır.

d) Dövlətin qanunları millətin iradəsinin gözgüsü olmalıdır.

e) Bütün insanların ulusal, inanc, vicdan, fəlsəfi, siyasi düşüncəsi özgür və bağımsızdır. Bu haqlar dövlət tərəfindən ləğv olunamaz!

f) Dövlət öz vətəndaşına azad yaşam haqqı qazandırmadan çəkinərsə, millətin qarşısında sorğulanmalı və idarə sistemindən uzaqlaşdırmalıdır. V.b.

BMT- isə, öz quruluş fəlsəfəsini bu özüllərə bağlayaraq ilk bildirişini və anayasasının özülünü insan haqlarına ixtisas vermiş və bu söyləmlərlə dünyaya səslənmişdir:

“İnsan hüquqlarının müdafiəsi bütövlükdə beynəlxalq cəmiyyət, o cümlədən beynəlxalq təşkilatlar qarşısında duran vəzifələrdən biridir. Belə ki, BMT nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində BMT-nin əsas məqsədlərindən biri kimi iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və soyuna, cinsinə, dili və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq göstərilir. Bunlar BMT nizamnaməsinin 55-ci maddəsi ilə təsdiqlənir. Orada göstərilir ki, BMT soyuna, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verir. İnsan hüquqları sahəsində çoxlu sayda beynəlxalq sazişlərdə iştirak edən dövlətlər “Əhdə vəfa“ /Pacta sund servanda/[302] prinsipinə uyğun olaraq onları vicdanla yerinə yetirməli və bu məqsədlə də beynəlxalq öhdəliklərin realizəsi üçün dövlətdaxili tədbirlər həyata keçirməlidirlər. İnsan hüquqları üzrə ATƏT- in *(Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı,*[303] 1991-ci il Moskva toplantısında iştirakçı-dövlətlər bəyan etmişlər ki, insan hüquqları bütün dövlətlərin bilavasitə və qanuni qayğısıdır və maraqlı dövlətin daxili səlahiyyətinə müstəsna olaraq aid deyildir. Bundan başqa, müasir beynəlxalq hüququn inkişafı həmin normaların dövlətdaxili münasibətlər sırasında təsbit edilməsi ilə xarakterizə olunur ki, bu da beynəlxalq hüquq normalarına hörmət prinsipi əsasında həyata keçirilməlidir. Yuxarıda göstərilənlərlə tam razılaşaraq belə qənaətə gəlmək olar ki, dövlətlər qarşısında duran əsas və birinci dərəcəli vəzifələrdən biri insan hüquq və azadlıqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üçün zəruri şəraitin yaradılmasıdır. Hal-hazırda bu Azərbaycan Respublikası qarşısında da əsas vəzifə kimi dayanır.”[304]

İran İslam Cümhurisinin anayasasında da, belə bəndlərin islamiləşdirməsi gəlməkdədir. Bu da, onu göstərir ki, dünyanın ən çirkin qanunlarında belə, insan haqlarıyla bağlı çox olumlu və gözəl sözlər

[302] (Daha çox bilgi üçün http://tr.wikipedia.org/wiki/Ahde_vefa sitəsinə giriniz.)
[303] */Organization for Security and Co-operation in Europe, OSCE/* artıq bilgi üçün: *http://az.wikipedia.org/wiki/AT%C6%8FT)*
[304] *(Qaynaq. www.azerblaq.az/huquqisenedlertoplusu/).*

yazılmaqdadır. Bunlarla belə, hər millət, öz yaşam sisteminin özümlüyünü öz ulusal kimliyi üzərində qura bilməsə, dünyanın ən çağdaş, demokratik və laik dövlətləri altında da, əriməyə və kültürəl qırım olmağa məhkumdur. Çünkü, heç yabancı millətin dövləti başqa kültürlərin canlanmasını, qorunmasını, böyüməsini, ulusallaşmasını və evrənsələşməsini öz doğması kimi görüb üstələnməz. Bu, o deməkdir ki, hər millət öz toxunulmazlığını, toplum əxlağını, yaşam fəlsəfəsini yalnız öz dövlət və hüquq əsasları üzərində mühafizə edə bilər.

Azərbaycan bir Türk və müsəlman toplumu olaraq min illərdən bəri özümlü yaşam tipilə idarə olunmuşdur. İstər insanların biyərsəl, istər toplumun kütləsəl yaşam tərzi, bir sentez şəkilində formalaşmış, özlüyünü bir sistem olaraq ortaya qoymyşdur. Bu sistemin təməlində duran Türklük və islamın gələnəklərindən ortaya gələn özəllik, Azərbaycan Türk İnsanına olduqca fərqili özəlliklər vermişdir. Lakin, bəlli nədənlərə görə, olaylar qarşısında bu hüquqsəl varlıq öz gücünü itirərək bu günkü duruma düşmüşdür. Ancaq son 20 ilin içində dünyayla yanaşı Güneydə və Quzeydə üz verən milli ayaqlanma, insanımızın yenidən dərk gücünü inanılmaz çəkidə yüksəltmişdir.

## Azərbaycan Türklüyündə canlı əxlaq qaynaqları.

Azərbaycan Davası özlüyündə bir əxlaq və hüquq davasıdır. Əxlaq bir toplumun yaşam tərzinin ruhudur. Azərbaycan Türklüyü yaşamın hər alanında özül əxlaq qaynaqlarıyla təndaşdır. Düşmən qarşısında son damla qanınadək dirənərək, ulusuna örnək olmuş Baybak, bir ulusal əxlaq simgəsidir. Dədə Qorqud oğuz ruhunu sonsuzlaşdıran bir ışıq sıçrayışı və yaşam yolbayıdır. Düşüncə və insan idrakını evrənlə birləşdirən Fəzlullah Nə`imi və İmadəddin Nəsimi, bu ulusun sınırsız idrak dünyasının örnəkləridir. Məhəmməd Füzuli, insan ruhunun tanrı boyutlarına qədər uzanan bir doğal rəmzdir. Səttarxan öz millətinin qorxmazlığının və sadəliginin bir görüntüsüdür. Zərdüşt, Tümris, Məzdək, Cavanşir, Ş. Sohrevərdi, Ş. Moləvi, Cavad xan, İbn Sina, Farabi, M. F. Axondov, Ü. Hacibəyli, S.Ə. Şirvani, Z. Şirvani, Ş. Ə. Möcüz, Ə. Sabir, C.

Məmmədqulizadə, Şəms Təbrizi, Səfiəddin Urməvi, M. P. Vaqif, Raci, Xan Çobani Nebati, C. Qaryağdıoğlu, Bağçaban, Ruşdiyyə, Tərbiyət, Koroğlu, Qaçaq Nəbi, Nəxcivanlı Hinduşah, Məhsəti Gəncəvi, Nizami, H. Bağvan, Bağırxan, Kazımxan Quşçulu, Əmir Ərşəd, Natəvan Banu, M.H. Şəhriyar, M. Müşviq, H. Cavid, Xaqanı, Qovsi, Ohədi, Xiyabanı, Rəsulzadə, Pişəvəri, Biriya, F.İbrahimi, Xəlil inqilab, Azadvətən, H. Sahir, Səhənd, Əssar Təbrizli, S.Behrəngi, Rəşiddətdin Təbrizi, Zehtabi, Elçibəy və saya gəlməz minlərcə əxlaq simgələri bu ulu millətin içindən çıxmış, millət üçün yaşamış və Azərbaycan Türklüyünün əxlaq və ərdəminin biçimlənməsində böyük rol sahibi olmuşdurlar. Yazıqlar olsun ki, hazırda bu dərin əxlaq irsi gərəkən səviyyədə ulusumuzun gündəmində deyildir. Çünkü, bu mənəvi qaynaq da öz ulusu kimi əsarət dövranını yaşamaqdadır. Bu üzdəndir ki, Azərbaycanın milli-azadlıq hərəkatı bir başa insanlıq səciyəsinin də qurtuluşu sayılır. Bugün, Füzulilərin, Farabilərin, İbn Sinaların, Axudofların əsarəti insanlıq əsarətidir. Insanlıq əsarəti isə əxlaqsızlığın hakimliyidir. Ona görə, bu ulu varlığın özgəlik çəmbərindən qurtarılması somut bir axlaq qurtuluşudur. 1979-da, faşist fondamentalçılar iş başına gələr-gəlməz Təbrizin göbəyində yerləşən dünyaca unlu bir millət kültür evini dinamitlərlə patlatdılar. Ardı kəsilməyən bu cinayətlər, yalnız bir millətə deyil, bəşəriyyətə qarşı savaşdır. Bəşəri səciyyələrə qarşı bu dəhşətli terrora son vermək yalnız Azərbaycan Türk millətinin yox, həmdə, bəşəriyyət uğruna çabalayan bütün demokratik orqanların görəvidir. Azərbaycan Türklüyü, tarixdən gəlmiş bir tükənməz əxlaq kültürünün anlamı və bütün obyektiv dəyərlərilə bir dünya malıdır. Şəms Təbrizi və ya Nəimi, Zərdüşt və ya Marağalı Qovsi yalnız bircə ulus malı deyildir, onların ortaya qoyduğu məntiq Ərəstular, Əflatunlar irsi kimi ümum bəşəri xarakter daşıyır. Lakin, onların milləti və toplumu əsir duruma düşüncə özləri də əsarətə uğrayır və dünyadan təcrid olunurlar. Yaşamaq mücadiləsi o böyük ruhların da payına düşür. Onlar, millətimizin ruhudur və Azərbaycan davasında ən ön səngərdədirlər. Füzuli aşağıdakı misraları söylərkən:

*"…Padişahi mülk dinar-o-derem rüşvət verib,*

*fəthi keşvər qılmağa eylər mühəyya ləşgəri.*

*Yüz fəsad-o-fitnə təhrikilə bir keşvər alır,*

*ol dahi asari əmn-o-istiqamətdən bəri.*

*Göstərən saətdə dövrani fələk bir inqilab,*

*həm özü fani olur, həm ləşgəri. Həm keşvəri…"*[305]

Kim iddia edər ki, şair bu günkü davanın tam ortasında deyildir? Göründüyü kimi, o da, qəddar düşmənlə qurtuluşa qədər savaşacağını, bu yolda millətini yalqız buraxmayacağını təsdiqləyir. Əxlağı əxlaqsızlığ bataqlığından qurtarmaq, hüquq istatusu ilə bağlıdır. Bu üzdən, bir millətin əxlaq ilkələri ilə hüquq özgürlüyü yan-yana gəlir. Əxlaq, bir toplumun ulusal kimlik bilincinin gözə çapmaz ruhudur. Bu ulusal ruh olmayınca, kültür, törə, toplum içində inam və vicdanlarda ortaq inanc yaranamaz. Bu amillər isə, öz düzənində doğru və gündəm gəlişmələri özündə toparlamasa, dünyaya çıxış qapıları bir ulusun üzərinə qapanar.

Azərbaycanın qazana biləcəyi əxlaq və hüquq savaşı içində iç-içə girmiş daha böyük qazanca – Özgür İnanca- da tanıq olacayıq. Y`əni, Azərbaycan Türkünün tapdalanmış iradəsi əxlaqla birlikdə yüksələrək geniş Özgür İnanc (azad iradə) alanının pöhrənişinə nədən olacaqdır. Özgür inanc, yalnız doğma çevrənin bağımsız və ahəngdar axarından doğular. Bu üzdən, özgür inancın toplumların formalaşmasında olan rolunun önəminin dərinliyi ölçülməzdir, sonsuzdur. Yalnız, özgür və inancıl insan, qazandıqlarını bir əxlaq tabanı olaraq yaşam xəzinəsinə artıra bilər və toparladığı mənəvi özəllikləri öz toplumuna təslim edər. İnsan, kəndi özlüyündə azad iradə duyunca, onu bütün insanlarla paylaşmaq istər, insanlara sınırsız sevgi bəslər. Tam tərsinə olaraq, azad iradəsi olmayan insan, yoxsulluq, cəhalət içində qalar, insan sevgisindən qaçar, çevrəsinə qarşı özgələşər, vicdan özgürlüyünə qovuşa bilməz, yaradıçılıq gücünü itirər və özünü sürəkli olaraq məhküm sanar. Qıssası, iradəsi azad olmayan hər hansı insan toplusu silsiləvi çöküşlərlə yanaşı əxlaq boşluğuna da tuşlanar.

---

[305] *(Füzulinin Divanı, əski ilifbada, Fəxrazər Nəşriyyati, Təbriz,1992.s194)*

## Azərbaycanda əxlaq təməllərini etgiliyən üç aydınlıq hərəkatı

1828-ci ildən sonra Azərbaycanın bölünməsilə millətimiz, çox dərin əxlaq və toplum düzənsizliyinə uğradı. Ölkənin ikiyə bölünməsilə Quzeydə özülü ruslaşmış bəlli bir batıçılıq yeli əsməyə başladı. Klisanın etgisindən azad olan rus ədəbiyyatı və tipik əxlaq kültürü Qafqazlarda fərqli atmosfer yaratmağa başladı. Rus ədəbiyatının batıdan aldığı aydınlıq dalğaları istər-istəməz sümürülən toplumlar içinə də girmişdir. Ən başda, dinin əmir deyil, əxlaq və kültür olanaqları kimi, insanların birəy və toplumların ruhsal və ilahilik kimliyi ilə bağlı olduğu irəliyə sürününcə, müsəlman topluluqların içində yeni bir həyəcannın canlanmasına nədən olmuşdur. Sözsüz ki, bu gediş bir o qədər də, rahat və ılıq qarşılanmayırdı. Çünkü, rus imperatorluğun məğlub olmuş Türk-islam mədəniyyətinə qarşı ortaya qoyduğu acımasız tavırının qarşılıqlığıda az deyildir. Türk-islam aydınlarına görə, rusların çalışması, bütünlüklə islamın aradan qaldırması və Türklərin rus ortodoksuna təslim olması ilə bağlıdır. Bu aydınların düşüncəsinə görə, rus tarixində, düşmən xarakteri almış Türk-islam toplumun içdən boşalmalı, dirəniş çəkisinin sıfırlanması və tabe vətəndaş ölçüsünə düşməsi gərəkməkdədir.

Azərbaycanda rus dil və ədəbiyyatının geniş yayılmasının kütlə içində daha soyut qarşılanmasına qarşın, aydınlar içində bəlli və somut bir ulusal bilincin boyatmasına yol açmışdır. Elə bu çağdan başlayaraq ruslaşmış batıçılıq düşüncəsindən yararlanaraq ana düşüncənin bətninə yaxınlaşmağın səbəbinə, yeni düşüncə nəsilinin tanığı olur Azərbaycan.

Məhz həmin düşüncə nəslinin aracılığıyla Quzeydə, yeni sosial və siyasal düşüncələr ortaya gəldi. Kiçik quruplar şəkilində formalaşsa da, Türk kimliyinə dayanaraq batıya yol tapmaq, ulus içində fikir aydınlığı yaratmaq, dünyayla ayaqlaşmaq kimi aydınlaşma hərəkətləri yola düşdü. Bu düşüncə axımı, 19-cu yüzilin ikinci yarısından güclənərək aydın düşünürlərin bir araya gəlməsini sağladı. Bu düşüncə axını Azərbaycanın quzeyində başlasa da, öz uzantısını ədəbiyyat, incəsənət, teatr kimi alanlarda Güneyə (Türk Qacar Məmalikinə) və Osmanlı sınırlar içinə də

elətə bildi. Quzeydən əsən toplumsal vä siyasal külələrin Güneydə və Türkiyədəki milli topluluqlarda həyəcan doğursa da, istər Qacar, istərsə də Osmanlı hakim dayrələrində nəyinki, olumlu qarşılanmamışdır, bəlkə, onların tədirgin olmasına belə yol açmışdır. Gəlin, bu üç düşüncə axınıyla biraz tanış olaq:

**A. Başını Mirzə Fətəli Axundov (1812-1878) kimi böyük düşünür çəkən bu düşüncə axını Azərbaycanın aydınlıq hərəkatında bir başlanğıc olmuşdur.** Ardı-ardına, Xurşid xanim Natəvan, Cəfər Cabarlı, Üzeyir Hacıbəyov, Cəlil Məmmədqulizadə, Əbdülrəhim Həqverdiyev, M.S. Ordubadi, M.Ə. Sabir, M.Ə. Möcüz, H. Zərdabi, Təbrizli Talibov kimilərin tərəfindən davam etdirildi. Bu düşüncə axınına görə, batıçılıq meyliləri nəyinki millətimizi əsil kimliyindən uzaq saxlamaz, bəlkə əsil özgürlüyün nə olduğunu öyrədərkən, islamdan doğan küləliyə, əzginliyə[306] son verər. Bu düşüncəyə görə, xorafat və cadu-cəmbəl içində boğulan ümməti islamıyəni dərin cəhalət quyusundan dartıb çıxarmaq və onun həbisdə qalmış ərdəmini azad etmək gərəkir. Bu fikir axımına görə, islam dövlət dayrəsinə girməməli, bir qudsal ilişgi olaraq insanla tanrı arasında qalmalıdır. Bu düşünürlərə görə, insanların zatında olan azad ruhun ölümylə, insan özü də olur, onun zahiri görüntüsünü insanlıqdan saymaq olmaz. Çünkü, düşünməyən, nə yapdığın bilməyən, müqəllidləşmiş və manqordlaşmış insanla qoyun arasında heç fərq yoxdur. Əsil əxlaqsallıq buradan başlayır. Kəndini bilməyən necə əxlaq və hüquq biləcək ki!? Axudov düşüncəsinə görə, islamın zatında insana hörmət və sayğı adında bir mütiv yoxdur. İslam, dinlərin ən doqmatizmi olaraq insana, millətə, dünyəvi yaşama deyil, yalnız cənnət və`dələri üzərində köklənmişdir. Bu üzdən müsəlman dünyasının özündən qopub silkənməsi, əslində insan əxlaqının azad edilməsidir. Bu radikal axının düşüncəsində həm də, ərəbçilikdən qaçış fəlsəfəsi dayanmaqdadır. Türk insanı islamı qəbul etdikdən sonra, öz əxlaq və səciyəsindən də, uzaqlaşmışdır. O, öz milli kimliyini unudaraq Ərəb-İslam yaşam sistemi çəmbərinə sürüklənmişdir. Bu düşüncə axınına görə, millətimizi ərəb əlifbasından uzaqlaşdırmaq aydınlaşma çağının ən ilkin aşamasıdır. Millətə yeni və çağdaş əlifba gərəkir. Ərəb əlifbasıla millətin dünyaya çıxış yolu

---

[306] fişara

əngəllənir. Çünkü millət bu geriçi əlifbada qaldıqca Batının gəlişməsilə biganə qalacaqdır. Bu üzdən, zaman-zaman hətta Türk kimliyi belə, Türk insanının hafizəsindən silinərək yalnız ərəbləşmiş bir dil və kültür tipi ortada qalmış olacaqdır. Bu düşünürlər belə hesab edirdilər ki, Türk Dünyası bu çarpıntının nəticəsində, öz özgür inamını (azad iradəsini) əldən vermiş, torpaqları parçalanmış, irəliləyiş alanı böyük ölçüdə daralmışdır. Türk dünyası hazirki durumda, israrla Doğu diyə-diyə Batının güdümçüsü olmuşdur. M. F. Axudov bu fəlakətdən qurtuluşun ən vacib yolunun latin əlifbasında görərək, həyatının ən gərgin fəaliyyətini latin əlifbasının Türk-müsəlman dövlətlərində qəbul etdirməsilə geçirmişdir. O, ömrünü millətinin aydınlıq yolunda həzinə etsə də, fondamentalizm islamçılar tərəfindən kafir adlanaraq, millətlə olan ilişgisi kontrol altına alınmışdır. Onun verdiyi ulusal qayğılar, Molla Nəsrəddin və Əkinçi kimi qabaqcıl jurnallarda davam edərək, ilk kəz 1918-ci ildə öz meyvəsini verdi. Azərbaycan Demokratik Cümhuriyyəti məhz, onun arzu etdiyi latin əlifbasıyla quruldu.

**B. Bu dönəmin bir başqa fikir axını, Batı-Doğu sentezçiliyidir. Bu fikrin baş memarlarından olan Əhməd Bəy Ağaoğlu (1869-1939)-dur.** Əhməd Ağaoğlu öz düşüncəsində islamın vaz keçirilməzliyini ortaya qoyur. Ancaq, islamın insanla olan ilşgisini ruhsal görməklə, insanın maddı dəyərlərinin daha önəmli olduğunu vurğulur. İnsan təkcə ruhla yaşamır. Onun (insanın) yeməyə, içməyə, maddı yaşama, adam kimi sayılmağa ehtiyaci vardır. Bunları islam ona verəməz, vermək istərsə belə, onu doğru sistemə yerləşdirəməz. Çünkü, başqa dinlər kimi, islamın da, bütün əmrləri ruhanidir. Əxlaq və duyğu üzərində qurulmuşdur. Halbuki, toplumun maddı paylaşımı gənəl olaraq bir əxlaqsal və duyğusal ilişgidən deyil, dövlət sisteminə bağlı somut və bilimsəl məntiqdən asılıdır. O, dini, insanların ruhsal istəklərinin inanc qaynağı saydığında, ulusal adət və dəbi də (milliyyətçilik) danılmaz sayır. Ancaq, ulusal kültürün yenik duruma duşməsini, fondamentalist islam dininin tə`siri altında qalmasıyla Avrupanın canlı mədəniyyətinin kölgəsində qalmasını da vurğularkən deyir:

*"Dini zehniyyət və anlayışa görə, biz hələ ortaçağ dövrünü keçməmişik. Biz dini bir vicdan əmri və yaradanla qul arasındakı mənəvi bağı nizamlayan bir amildən ziyadə, həyatımızın maddi və mənəvi qisminin hamısına hakim bir prinsiplər bütünü olaraq qəbul edirik."*[307]

Yazar, millətin geri qalmasının təməlindəki milli eyitimin olmamasını və Türk kütləsinin hətta öz dilində yazıb-oxumamasını axtarır. Əxlaq və hüquq amillərinə gəlincə, Ağaoğlu yenə savadsılığı və cəhaləti ön götürərək, millətin əxlaq və hüquq gəlişməsini düşüncə və bilimlə bağlayır. O da, Axundov kimi, dinlə dövlətin arasında ara olmasını özgür inac və insan irəliləyişinin ən təməl özəlliği sayaraq sekolarizmin /laikliyin/ qapılarını göstərməyə çalışır. Ancaq, orta bir yolu seçərək millətin alışdığı və qutsal sandığı din amilini biçib-atmaq istəmir. Ağaoğluya görə, hər millətin əxlaq və hüquq anlayışı, həmən millətin ən dərin qatlardan gələn ulusal kimlik və ən geç dəyişən bir milli varlığıdır. Bundan ötrü, ulusal əxlaq və hüquq, nəyinki din içində yerləşmir, bəlkə din simgələrini öz içinə qəbul edərək toplumsal bir sistem ortaya qoyur. Bir çox batı eyitimi almış klasiklər kimi, Ağaoğlu da dinlərin toplumlara aid olduğunu düşünür və bir çox varlıq kimi onun da dəyişkən olmasını vurğulur. Tarix boyu bir millətin sadəcə bir dinlə idarə olması örnəyi görünməmişdir. Türklər, ərəblər, yunanlar dünyanın ən əski mədəniyyətini quran millətlərdir. Onlar, tarix boyu öz bir millət anlayışını ortaya qoymuşdurlar. Lakin bu anlayış içində vahid və dəyişməz bir din axımı olmamışdır. Özəlliklə islamdan öncəki Türk toplumlarının din və inanclarının incələnməsində vahid bir inanc sisteminə rastlaşmaq mümkün deyildir. Necə ki, hələ də, haqlı olaraq araşdırıcılar arasında əski ata-babalarımızın mifolojik, din və inancları qonusunda mübahisəli hallar sürməkdədir.

Türk toplumlarının Sumerlərdən üzü bəri Atəşçilik, Şamançılıq, Totemçilik, Təktanrıçılıq, Kristiyanlıq, Yəhudiyyət, İslamiyyət kimi inanclara bağlı olduğu hələ də dartışılır. Əslində bu da çox normaldı çünkü, birinci olaraq, Türk mifolojisi və kütlə inancı haqda sistemli və bütöv bir araşdırma yapılmamışdır. Buna görə, "İnanc yoxsa tanrı kimliyi,

---

[307] *(Əhməd Ağaoğlu, Üç Mədəniyyət, Bakı,Mütərcim,2006, s 37)*

təktanrıçılıq yoxsa, çox tanrılıq?" kimi sorulara net bir yanıt yoxdur. İkincisi isə, bugünün özündə belə, adları sadalanmış din və ya inanc tiplərinin izləri insanlarımız içində diri-diri yaşamaqdadır. Örnək olaraq, od, su, torpaq, ana, qurd, ölməz ruh kimi anlamların Türklər içində əzizlənməsinə toxunmaq olar. Bu sevilmiş anlamların islamdan çox öncəyə dayanması, qədim Türk toplumlarında çeşidli din və inancların olduğunu və islamın gəlişiylə inanc və əxlaq qalıntılarının günümüzədək çəkilməsini görməkdəyik. Bu izlərə dayanaraq, tarix boyu Azərbaycan Türkləri arasında çeşidli dinlərin olması aydıncasına görünməkdədir. Bu da o deməkdir ki, zaman-zaman toplumlar içində dinlərin dəyişməsi olumlu sayılır. Ancaq, dinlərin dəyişməsilə, onun izləri ulus arasında çox uzun zaman bir əxlaq və ərdəm formasında öz həyatını sürdürür və toplum içində böyük izlər qoyur. Su və qurd örnəklərinin Türklər arasındaki yeri bəllidir. Bu iki totem haqqında Dədə Qorqudda deyilir: (Türkməncə mətnidən alınmışdır.)

*"Qazanıñ, öñüne bir suw qeldi.*

*Qazan: Suw Tañrı yüzüni qörendir.*

*Men bu suw bile habarlaşayın—diydi."*

*..."Bu qezek qurda duwş qeldi. "*[308]

Ağaoğlu, eytimini Fransada alarkən batı dünyasının irəliləyiş yollarını da çox titizliklə öyrənirdi. Ömrünün yalnız bir neçə ilini ana vətəndə -- Şuşada və Bakıda- keçirə bilən düşüncə adamı, həmin illərdə də ermənilərin vətənə qıymasına göz yuma bilmiyərək silaha sarılır. Milləti təcavuza qarşı ayağa qaldırır. Rusların ağır basqısına uğrarkən, yaxınları sarından Türkiyəyə qaçırılır. Türkiyədə geniş milliyyətçi axınına qatılan Ağaoğlu, AtaTürkün də, sevgisini qazanır. O, ömrünün son anlarınadək millətinə görə yazır. Batıla doğu arasındaki din görüşünün fərqili olduğunu, doğunun toplum hüquqlarının geri düşməsinin baş nədəni sayaraq Türklərin dinə baxışını ortaçağ zehniyyəti adlandırır. O, vaxtıyla,

---

[308] *(Dədə Qorqud,/Qaraçuq Çobanın dastanı/ türkməncə, Çapa tayyarlan: Akmırat Qürqenli,2005)*

xristian dininə də, belə baxışın hakim olduğunu, ancaq ən azından dörd yüz il bundan öncə Avrupanın bu sorunu yenməsini deyərək, Türk toplumlara da, o yolu göstərir. Belə orta baxışlı (siyasət anlamında mühafizəkar tutum) düşüncə tərzi yalnız Ağaoğluda deyil, eyn zamanda Əlibəy Hüseynzadə, Yusif Vəzir Zəminçəmənli, Məhəmməd Hadi, İsmayil Qaspıralı, Ziya Gökalp, Yusuf Ağçüra, M.Ə.Rəsulzadələr sarında da, irəli sürülərkən Türk-islam dünyasında ilk cümhuriyyətin dövlət ideolojisini sərgidi.

**C. Azərbaycandan qalxmış daha bir aydınlıq hərəkatı bu dəfə Güneydən başlayır.** Ancaq, bu fikir axımı ümməti islam hədəfi daşıyınca Azərbaycanda deyil genəl olaraq islam düynasında siyasal hədəfə çevrilir.

1890-cı il Tənbəki Hərəkatıyla Şiə məzhəbli islam ümmətçiliyi ideolojik yöntəmli örgüdlənmə cəsarəti tapır. Avrupanın tütün örünlərinə əl qoymağa etirazçı olan Qacarlara müxalif siyasətçilər, ruhanilərə söykənərək onlardan şərii boykot tələb edirlər. Ayəttüllahlar sarından fitva gəlincə, millətin vahid bir ideolojik çətiri altında birləşməsi gərçəkləşir. Tütün Hərəkatını bəlkə də Qacarlara qarşı olan ən sərt Şiə-Fars birləşməsi hesab etmək doğru olar. Bu doğuş, Məşrutə Hərəkatında da şiə-Farsçı etirazları formasında özünü göstərir. Tütün Hərəkatının aparıcı mücdehidinin Mizə Həsən Şirazi olmasına baxmayaraq, beyin və düşüncə rəhbəri Seyd Cəmaləddin Əsədabadi idi.

Seyid Cəmaləddin Əsədabadi (1836-1897) islam dünyasının gündən-günə insan və toplum tələbləri qarşısında aciz qaldığını görüncə, çıxış yolu axtarmağa başladı. O, müsəlman ölkələri qarış-qarış gəzərək müsəlman dövlət və toplumlarını islam qardaşlığına çağırır. Onun, batı dünyasını öyrənmək həvəsi, böyük alanda batı fəlsəfələrini bilməsinə və böyük Avrupa bilginlərilə tanışmasına nədən oldu. O, ümmət-e islamın hərəkətsizliyini islamın bətnində deyil, layiqsiz hakimlərdə axtarmağa çalışırdı. Cəmaləddinə görə, islam ümmətinin birləşməsi, yalnız müsəlman dövlətlərinin öz milli kimliklərinə, dövlət və vətən varlıqlarına dayanmaqla olasıdır. Yoxsa, əsir millət və dövlətdən heç bir hərəkət

ummaq olmaz. Seyidə görə, islamın batı qarşısında ayaqda durmasının yolu yalnız islam müarifçiliyidir. Lakin bu dayanışmağı fanatizm yoluyla deyil, aydınlıqda çalışmaqla və xurafatdan uzaqlaşmaqla eşləşdirmək olar. Əsədabadiyə görə, insan öz kültürü və diliylə yaşayır. Bunlar toxunulmazdır. Cinsiyə[309] və lisan[310] hər insanın vaz keçirilməz kimliyidir. Hər toplumun öncə öz içində aydınlanması gərəkir. Qaranlıq dünyanın insanı, yalnız bir quldur. Qullar azad düşünçənin nə olduğunu belə, başa düşməzlər. İnsanlıq bir hüquq qavramı və əxlaq sorumudur. Bugün Batıyla Doğunun ilşgisi çox acınacaqlıdır. Batı haqsız olaraq Doğunu bilimə qarşı olaraq suçlayır və bunun hirsini islamdan çıxarmaq istəyir. Batılılar islamın yalnız bir üzünü, ərəbçiliyini görmək istəyirlər. Halbuki, islamın dünyaya verdigi böyük şəxsiyyətləri vardır. Bizim üzərimizə düşən, islamın doğru üzünü göstərməkdir. Buna isə, könüllü birlik gərəkir. Avrupa bilimi birləşən durumda, nədən islam elmi birləşməsin?

S.C. Əsədabadı öz düşündüyü çarə yolunu  Vəhdət-i Cinsiyə Fəlsəfəsi və İttihad-i Lisanın Mahiyəti Həqiqiyəsi adlı yazısında, müsəlmanların birləşmə təməlini dindən daha çox ulusal kimliklərin siyasi birləşməsində axtarır. Onun, Vəhdət-i Cinsiyəni, millətlər birliyi və ittihad-i Lisanı, dillər ittifağı xarekterini eynilə özündə daşıyır. O, Osmanlı dövlətinin sonlarına doğru gedən illərdəki üstən yaranan reform xarekterli 2-ci məşrutənin Türkiyəyə bir yarar gətirməyəcəyini vurğulayır. O, belə düşünür ki, mövcüd şərtlər içində məşrutənin olması doğru deyildir. Niyə ki, İkinci Əbdülhəmidin Türk dilinin zəyif düşməsi çağda məşrutə olayına girməsi Türkiyə üçün çox olumsuz halar yaradacaqdır. Onun sultana verdiyi önəri bundan ibarət idi ki, məşrutədən öncə imperatorluq çəmbərində əzilməkdə olan Türk dilini başqa dillərin təsirindən qurtarmaq gərəkir. Çünkü, Türk dili Osmanlı imperatorluğunun dirəgi və omurqasıdır. Şeyx Cəmaləddinlə, Ə. Ağaoğlunun Parisdə görüşləri də. Ağaoğlu tərəfindən böyük bir olay sayılır. Şeyxin devrimçi ruhu, bütün islam dünyasında müsəlmanlar birliklərinin yaranmasına səbəb olur.

[309] milliyyət
[310] dil

O, İstanbula gələndən sonra daha yolçuluğa meyl göstərmir. Osmanlı sultanının ona bağışladığı evdə çox saylı fanatiklərini qəbul edir. Onlara örgüdlənmə və ümmətçilik önəriləri irəli sürür. Qacar Məmaliki Məhrüsəsində yaranan İslami ittifaq onun təlimatları altında genişlənir. Terroru dirənişin vaz keçirilməzi hesab edən Şeyxin fanatikləri də, bu yolu seçir və örgüdlənmələrini bu formada irəli sürürlər. Şeyxçilər, 1896-cı ildə Rza Kirmani adlı birisi əlilə Nasirəddin Şah Qacarı terror edirlər. Terrorçu tutulandan sonra Seyidlə İstanbulda görüşünü və ondan əmir aldığını deyir. Şeyxin imicinə ağır zərbə olan bu etiraf, Sultanla onun arasında olan sıcağlığı soyudur. Şeyx bu olaydan 1-il sora ağır xəstəlik üzündən ölür və İstanbulun Maçka qəbistanlığında gömülür.

Gənəlliklə, 19-cü yüzillik, bir mə`nalı olaraq rus imperatorluğunun Türk dövlət və toplumlarına qələbə çağıdır. Etiraf etməliyik ki, bu qələbənin millətimizin kölə düşməsində, Türk Əxlağının sıxıntıya girməsində böyük rolu olmuşdur. Bu illərdə toplum içində yaranmış ağır boşluqların yerini özgə girişimlərlə yanaşı həm də, Səfəvilərdən üzü bəri genişlənmiş ”Şiə Mərsiyəçiligi” və ondan törənən çeşidli kültürəl, politik, ekonomik, sosial və əxlaqsal xorafatçılıqlar almışdır. Dünya dord nala irəli çaparkən, Azərbaycan Türklüyünün daralmış dünyası yalnız kontrol olmuş rusçuluqda və geniş tabanlı şiələşmiş ərəbçilik və Farsçılıqda sıxılıb qalmışdır. Azərbaycanın geniş ərazisi şiə imam oxullarının (mədrəsə) çəmbərində olmuşdur. Sözsüz ki, bu oxullara yaxınlaşmaq da hər ailənin işi deyildir. Yalnız yüzdəsi çox az olan uşaqların bu məktəblərə getmək imkanı olurdu. Bu da, o deməkdir ki, modern dövlətin olmaması üzündən yiyəsiz qalan kütlənin şiə xurafatına təslim olması təkcə seçənək idi. Elə, məhz bu çağlarda Türk tarixinin ən dərin çalarları üzə çıxmış, istər Azərbaycan, istər Türkiyə. istərsə Ortasiyadaki dağınıq Türk toplumları savadsızlıq cizgisi altına düşmüşlər. Buna baxmayaraq, toplum içindən çıxan aydınlıq hərəkatı da, bütün olumsuzluqlarla yanaşı varlıq göstərirdi. Azərbaycanın bölünmə fəlakəti, toplumun acınacaqlı yaşamı, Qacarların danılmaz bacarıqsızlığı, aydınlıq hərəkatı qarşısında böyük əngəllərin yaranmasına nədən olsa da, aydınlıq savaşçılarını sarsıda bilməmişdir. Həmin aydınlardan biri olan Şəbüstərli M.Ə. Mö`cuz , Güneyin toplumsal əxalağı qarşısında olan sorunları belə təsvir edir:

*"Millətin dərdi cəhl-ü-qəflətdir*

*Çarəsi elm ilə sənətdir*

*Xalqımız mərd-i bakəyasətdir (layiqli kişi)*

*Gələr axər zəbanə, inşallah! (dil)*

*Oxudar nocavan insanı (yeniyetmə)*

*Alim eylər qızı və oğlanı*

*Olar həmrəh zəman-i tulani (birlikdə-uzun zəman)*

*Ömrü həm şadiyanə, inşallah! (sevincək)*

…

*Yeri maşin ilə sökər zare' (əkinçi)*

*Xərməni elmilə döyər zare'*

*Qazanar xeyli sim-u-zər zare'*

*İşləməz müftə xanə, inşallah!*

…

*Fəhlə-və- rəncbər gedər dərsə*

*Ruznamə alıb çoban gəlsə (qəzetə)*

*Olar həm Kərbəlayı Töhfənisə*

*Aşina hər zəbanə, inşallah!*

*O zaman xalq şadıman olacaq*

*Ki vətən "madəri zəban" olacaq (anadilli)*

*Onda "Tehranlı" nagəran olacaq (tədirgin)*

*Əhl-i Azərbaycanə, inşallah!..."*

20-ci yüzilliyin başlanğıcıyla Güney aydınlarıyla Türk Qacar hakimiyyətinin arası daha da açılmağa başlamışdır. Pusuda[311] güdən Fars siyasətçiləri, M. Ə. Qacarın bacarıqsız iqtidarı, millətin acınacaqlı durumu və Qacarlardan ümidsizliyi, əsrin əvvəllərində Azərbaycanın bölünməsi, Qacar Türk dövlətinin gündən-günə Farslaşması, Azərbaycanla dövlət arasındakı dərin qarşı durmanın təməl nədənləri olsa da, Rusiya və İngiltərə dövlətlərinin Türk dövlətlərini bölgədən silmə siyasəti də, ayrıca səbəb idi. Sözsüz ki, bu arada, millətin bütün yaşam və ərdəmi zədələnmiş, dövlətlə millət arasında olan-qalan əxlaqsal bağlar da bütünlüklə qopmuşdur. Millətin dərd və sıxıntılarını dilə gətirən M.Ə. Mö`cuz, bu düşmənçiliyi və Qacarların tutumunu belə dilə gətirir:

*[´´...Dilim Türki, sözüm sadə, özüm səhbayə dildadə,*

*Mənimtək şairin əlbət, olar kasad bazari.*

*Dünən şe`r ilə bir namə apardım şahi-İranə,*

*Dedi: "Torki ne midanəm, məra to bəçce pəndari?"(Türkcə bilmirəm məni uşaq sandınmı?)*

*Özü Türk oğlu Türk, əmma deyir Türki cəhalətdir,*

*Xudaya, müzməhil qil təxtidən bu ali-Qacari!*

*Ümidin kəsmə, Mö`cuz, yaz anan təlim edən dildə!*

*Gəzər bir ərməğantək dəftərin bil Çinü Tatari.*[312]

1905-ci ildən başlayan Məşrutə Hərəkatıyla, gərgin olan millətlə dövlət arası, dərin qarşı durmağa çevrildi. Azərbaycan və Qacar hakimiyyəti imperiyaçı Rusiya, İngiltərə siyasətlərinin duzağında çabalarkən, Farslar bütün güc orqanlarını ələ keçirməklə uğraşırdı. Artıq

---

[311] duzaqda

[312] *(Mirzə Əli Mö`cuz. Şeirləri, Bakı,Oskar nəşriyyatı-2007.s67)*

millətin nə olacağı kimsənin umrunda deyildi. Bir-birinin canına düşən Türklər, pərdə arxsında olan düşmən oyunlarını görmədən yalnız kəndi quyularını qazmaq yolunda canla-başla çalışırdılar. Azərbaycan Məşrutəçiləri və məşrutə düşməni sayılan Qacar hakimiyyəti ayaqdan düşərkən, pusuda güdən Farslar, yumuşaqcasına Tehrana və rus ordusu isə, göylü-yerli bombalarla Təbrizə girdilər. Məşrutə qəhrəmanları zorla Tehran qətlgahına itələndilər. Rus işğalçıları Azərbaycan Türklərini daha da aşağılamaq üçün, Şiələrin ən kədərli günü sayılan Aşurada, millətin dini müctəhidi və ağsaqqalı, Siqqət-ül-islamı və məşrutə mücahidlərini dardan asdı. Azərbaycan bir daha rus düşmənliyini gücdən düşmuş canı və ruhuyla duydu. Məşrutə nəticə etibarilə, faşist Fars rejiminin iş başına gəlməsini, bütün alanlarda Farsların qulluğunda olan Türk hakimiyyətlərinin sona ərməsini, Azərbaycan Türklüyünün milli kimlik biçimi və ulusal əxlağının pozulmasını, millətin isə daha da zəlil günə düşməsini sağladı.

Məğlub məşrutə ilə, millətimizin baxış açısı da, böyük alanda dəyişdi. Kişisəl maddı mənfəətlərin toplum çıxarlarına üstün kəsilməsi ön plana çıxdı. Ulus əxlağımız dərin böhrana sürüklədi. Azərbaycandan Tehrana və Farsistana sarı böyük köçlər başladı. Kütlə öz qara taleini yaşarkən, aydın kəsimdə də, İrançılıq meyli genişləndi. Türklərin zəyifləməsilə, milli alçatmalar xız qazandı. Türklərin tarixi, dili, kültürü, ulusal kimliyi sürətlə saxtalaşdırmağa uğradı. Fars hiləkarları dilindən, ulus bağlarından uzaqlaşmış Türk kökənli aydınların öz ulusuna və milli varlığına qarşı durdurmasını bacardı. Bilgi və siyasət sahəsində Farslardan qat-qat üstün olan Farslaşmış Türklərin Azərbaycanın məhvinə hədəflənmiş çabaları Farslar tərəfindən maliləşirdi. Farsların əlində olan təbliğat və mətbuatın böyük çoxunluğu bu yazarlara verilmişdir. Manqortlaşmış və öz soykökünə qarşı irəliyən bu aydınların popular olmasıyla, Türk düşüncə alanı böyük ölçüdə daralmış və Azərbaycan Türkçülüyündən qaçış sürəci yarışa çevrilmişdir. Toplum içində vətən anlayışının dəyişməsilə, əxlaq kimliyi də dəyişməyə uğramışdır. Tayfa, din və Fars zehniyyətilə hakimlik edən Qacar Türkləri, əllərinə balta alaraq özlərinin və Türk millətinin kimlik kökünü qazmaqdaydı. böyük Mö`cuzun Qacar şahına bir dildaş ərköyünlüyü ilə diləkcə götürməsinin

tablosu olan aşağıdakı sözlərə düşünərkən nədən belə duruma düşdüyümüz ap-aydın görünür.

*[ Dedi: ”Torki ne midanəm, məra to bəççe pəndari?”*

*Özü Türk oğlu Türk, əmma deyir Türki cəhalətdir,*

*Xudaya, müzməhil qil təxtidən bu ali-Qacari!*

*Ümidin kəsmə, Mö`cuz, yaz anan tə`lim edən dildə!]*

**Boyunduruq altında əzilən ulusal əxlağın qurtuluş yolu:**

**Devrim və Evrim!**

Bu yolun ortası yox!
Ya:
Kölə qalıb, qul təkin sürünmək!
Vəya:
Köləliyi öldürüb ulu yaşamaq!

Kölə qalıb, qul təkin sürünmək! Bu anlamı daşıyır ki, Səfəvilərdə təməli atılmış, Qacarların sonuna doğru bir dövlət sisteminə çevrilmiş siyasal şiəçi-Farsçı düşüncəyə təslim qalmaq! Bu, ap-açıq qulluq fəlsəfəsidir. Bu qulluq fəlsəfəsi, öz iç cəhlindən doğmuş millətaltı və millətüstü qaranlıq mütləğidir. Vətənsizlik anlamının gərçək üzüdür. Günümüz etibarilə, beş yüzillik bir zaman içində vatənimiz haradır və onun tarixsəl kimliyi nədir sorusu qarşısında bir daha susqun qalıb, öz adını dilə gətirməkdən çəkinmək deməkdir. İstər gərçəkçi olub var olan kölə durumunu qəbul etməli, istər yox, mən böyükəm soloğanı atmaqla eyvay-haray salalım! Nə olursa-olsun, var olan durum göz qabağındadır. Nə olursa-olsun, bu duruma razılıq vermək ap-açıq bir köləlik psikolojisidir. Bir başqa anlamla, Güneylə (Azərbaycan), İran ilişgiləri məğlubla qalib ilişgisidir. Bilə-bilə bu ilişginin sürməsinə yardımçı olan

hər hansı Azərbaycan Türkü, kim olmasından asılı olmayaraq bir əxlaqsızlıq simgəsidir.

Bu köləlik simvolları nədir?

**A)** Çox para qazanmaq üçün əsir vətənini deyil, irançılıq eşqilə dövlət büdcəsinə yardımçı olmaq amacıyla saysız-hesabsız vergi ödəmək, özünü dövlət yanında yaxşı vətəndaş göstərmək.

**B)** Azərbaycan Türk öyrətməninin öz ana torpağında kəndi milli kimliyinə qarşı xayincə dirəniş göstərməsi, düşməndən daha düşməncəsinə Farsçılığı Türk balasının qafasına yerləşdirmək.

**C)** Məscidlərdə, orqanlarda və dövlət mərkəzlərində Azərbaycanın qurtuluşu yolunda fəaliyyət göstərənlərin ziddinə plan tökmək. Onlara qarşı, Tehran irqçı rejiminin yerli qullarıyla əməkdaşlıq etmək. Başqa deyimdə, öz millətinə və torpağına qarşı milli düşmənə casusluq etmək.

**D)** Azərbaycanlı iş adamlarına Tehranda vəya hər hansı Farsistan yerlərində sərmaya qoyuluşuna qarşı böyük poenlər verilir. Farsçı dövlət bu ekonomik siyasətilə Azərbaycanın bütün alanlarda yoxsun qalmasına yol açır. Rejimin bu siyasətinə təslim olaraq yoxsul millətindən qazanan var-karını Farsistanın abadlaşmasına yatıran şəxs ulusal kimliyini düşünməyən bir kölədir. O, öz məzlum millətindən qopararaq Fars millətinə bir xidmətkarlıq nümünəsi sərgilir. Onun vətənsizlik parametri olduqca dərindir. Hətta, əyər bu yatırımın gizli niyyəti Azərbaycan qurtuluşunun amacı uğrunda olsa belə, onun əxlaq dayaqları üzərində arxayın olmaq olduqca sorğu işarəti altındadır!

**E)** Bir Azərbaycanlı Türk idmançı, sənətçi, siyasətçi, bilim və beyin adamı habelə bunlara bənzər yaşam alanını etgiləndirən hər hansı soydaş, öz millətinin ağır durumuna etinasızlıq edərək bütün professionel imkanlarını şovinist düşmənin qulluğuna sunarsa, əxlaqsız vətəndaş sayılır. Lakin, bu xidmətlər qarşısında vətəninə, millətinə dolayı yollarla

yardımçı olarsa var olan duruma görə, borcunun birazı da olsun bel ödənmiş olur.

**F)** Örnəyin, Mərəndin tam göbəyində yaşarkən öz balasıyla Farsca danışmaq Türk millətinə, Azərbaycanın taleyinə edilən ən cahil xəyanətdir. Ancaq, bir çox hallarda xayınlıq yapan soydaş necə yazıq olmasını belə bilməyir. Bu bir cəhalət örnəyidir. Belə vətəndaş kim olursa olsun, savadlısı xayin cahildir. Savadsızı isə yalnız, cahildir!

**G)** Öz kişisəl çıxarı üçün soydaşları içində uyuşdurucu maddə yaymaq vəya namus dəllallığı yapmaq ulusal əxlağa qarşı başqa çirkinlik nümünəsidir. Bu insan dışı davranışın yalnızca öz ulusuna deyil, bütün bəşəriyyətə qarşı olan cinayətdir. Yazıqlar olsun ki, adını ilahiyata bağlayan Farsçı rejim, öz qara ömrünü sürdürmək yolunda ölkənin böyük gənc kəsimini uyuşdurucu duzağına salmaq üçün əlindən gələni əsirgəməyir.

**H)** Kimsəyə gizli deyildir ki, Güneyli yazarlarımızın hamısı yalnız Farsca eyitim almışdırlar. Bu yazarların bir kəsimi yazıçılığa başlarkən Farscanın etgisindən qurtarmağı, öz anadilində yazmağı hədəf götürmüşdür. Bu yazar və düşünür kəsimin Farsca yazıları olsa belə, üstünlüyü doğma Türkcə oluşdurmaqdadır. Ancaq, başqa bir kəsim də var ki, bütün ulus və vətən gərəyinə qarşı e`tinasızlıq edərək Farsçılıqdan vaz keçmək istəməyirlər. Yazar, bir toplumun güzgüsüdür.

Bu qonuya dəyişik açıdan baxalım:

Dünyada geniş çaplı mərkəz kitabxanalar vardır. Bu kitabxanalarda hər dil bir millətin sosial-kültürəl varlığının təməl izi olaraq özəl bölməyə malikdir. Azərbaycan da, bir Türk varlığı olaraq bu bölmələrdə pay sahibidir. Zaman-zaman gərəkən hallarda bu kitabxanalara baş vurur, istədiyim kitabları borc alaram. Tarix haqqında bir neçə kitaba ehtiyacım var ikən, Dr.Zehtabının tarix kitabını Azərbaycan bölməsindən aldım. Ancaq, Dr. Rəisnianın kitabını İran bölməsindən almaq zorunda qaldım. Çünkü, Zehtabinin yazdığı kitabın dili Türkcə olduğu üçün Azərbaycan bölməsində, Rəisnianın isə kitabının Farsca yazıldığına görə İran

bölümündə yerləşməsi gərəkirdi. Demək, Zehtabi adı Azərbaycanı təmsil edərkən, Rəisnianın adı İranı nümayəndəlik edir. V.b.

Yuxarıda sadalanmış örnəklərin yaşamasına boyun əymək, ”Əh, mənə nə!” kimi ifadələrin altında yatmağın anlamı, yalnız qulluğa hə deməkdir. Sözsüz ki, belə bir toplumun yox olması qaçırılmazdır. Özlüyündən biganə, özlüyünə biganə, özgəliyə səcdəli, çingənə bir toplumun sonu yalnız qulluqçuluqdur.

## Bu bölümlə bağlı ardı bir neçə söz:

Keçmiş qaranlıqlara ışıq saçmaq kimi, bir də, gələcəyi axtarmaq əxlaqçılığı vardır. Bu ikisinin yan-yana durmasıyla millətimizin qurtuluş üfüqləri görünəcəkdir. Əlbətdə ki, keçmişin kəmikləri(sümükləri) üzərində gələcək qurulmaz! Keçmiş, bir millətin tarix anlayışını biçimləndirmək üçün gərəkir. Tarixə duyarlılıq, bir haqqa sahibçilik deməkdir. Ulusun özgüvəninə yiyələnməsinin sadəcə mənəvi yönü tarixlə ilgilidir. Bir kəmiyi[313], məzardan alaraq bu mənim tariximdir deməsi, çox gülünc ola bilər. O kəmik, bir insan varlığının qalıntısıdır. Ancaq, o kəmiyin harada, necə, nə adla, hansı kimliklə yaşaması tarixdir. Başqa anlamla desək, günümüzə yamsıyan varsa tarixdir. Yox sa, tarix deyildir, yalnız keçmişdir, ölü keçmiş! Tarix, kimsələrin könül istəyilə bəlli olunmur. Onu bəlli edən tarix bilimi, bulandıransa tarix bilim adamlarıdır. Lakin onu atmaq vəya unutqanlığa çəkmək nə böyük əxlaqsızlıqdır. Tarix bütün ağ-qarasıyla bəşəriyyətin əlilə yaranmış bəşəri irsiyədir. Yaranmış bu tarixin çeşidləri də sayagəlməz qədər çoxdur. İnsanoğlu Amerikada oturub Japoniyanın tarixini bilmək üçün milyardlar para xərc edir. Bir kəmiyin torpaq ürəyindən alınması üçün bütün insan bilimini səfərbər edir. Bir yenilik əldə edilincə böyük qutlamalar verilir. Əldə edilən yenilik insanların düşüncəsində və baxış açılarında böyük dəyişiklik yaradır. Hələ o əldə edilən yenilik sahibi olan ölkəyə daha böyük qivanc qazandırır.

[313] sümüyü

Təb`i ki, bunları hamı bilir. Yalnız zehin hazırlığı olsun diyə bir daha xatırlatmaq istədim. Bu başlanqıcdan amac nədir? cəvabına geçəlim.

Həqiqətə gəlincə Səfəvilərin iş başına gəlməsilə, Azərbaycan tarixinin yöntəmi ağır çəkişmələrə tüş gəlmişdir. Anadoludan sorunlu ayrılan Səfəvilərlə Osmanlı hakimlərin suyu heç zaman bir arxa axmamışdır. Bu iki Türk kökənli dövlətin arasında sürəkli yarışma hirsi hər iki dövlət vətəndaşları üçün fəlakət yağdırmışdır. Osmanlı ordusunun sürəkli Azərbaycana girməsilə bu dominant mərkəz önəmini itirməyə başlamış, hakimiyyət saraylığından düşmüşdür. İş burada bitməmiş, hərbi bölgə kimi dayanmadan savaş meydanına çevrilmişdir. Bu üzdən gün bə gün tabdan düşmüş, liderlik kapasitəsinə yeridolmaz zərbələr dəymişdir. Bunun tarix yansıtması bundan da bətər olaraq Fars (İran) və Türk(Türkiyə) yazarlarını da bir–birinə qarşı sərt çıxışlara sövq etmişdir. Fars yazarların bu qonu üzərində tam planlı hərəkət etməklərinə qarşı Türk yazarları onların duzağına düşərək Türk kökənli Səfəviləri, Əfşarları /nisbətən/ və Qacarları qondarma İran kökənli və Fars hakimiyyəti kimi göstərmişdirlər. Çox üzgünlüklə, bu baxışın Türkçü yazarlarına da hakim olmasını görürük. Gökalp, Atsız, Ağaoğlu, Qaspralı, Əminzadə, Özdək və bir çox Türkloqların tarix anlayışında azacıq Əfşar Türkləri termini görünsə də, Səfəvi, Qacar Türkləri kimi terminlərə vəya Türk dövlətlərinin adına rasgəlmək mümkün olmayır. Vəya ən azından mən görməmişəm diyə bilərəm. Nədən belədir sorğusuna gəlincə, olayların başlığını Səfəvilərin təsəvvuf təriqətinin Anadoluda şiddət uyqulamaqla yayğınlaşdırmaq çabasında axtarmaq olar. Əslində bu olayların başlaması zəmanında İsmail Səfəvi adında bir uşaq anadan olmamışdır. Ancaq, dərin məzhəb kininin uzantısı gənc Şah İsmailə çəkilirkən iki Türk hakiminin cəhaləti alovlandı. Elə alov ki, Azərbaycanın bugün də canını yaxmaqdadır. Y`əni 1514-cü il Çaldıran meydan savaşıyla başlayan 1823-cü il iki ordunun ayaqdan düşməsilə sona ərdi. 309-il sürən bu bitməz nifrət illərində 14-böyük savaş üz verdi. Soydaş soydaşa qıymadı. Hər iki tərəfdən milyonlarca Türk insanı həlak oldu. İki Türk dövləti dabandan düşərək Rus İmperatorluğu bölgənin mütləq ağası oldu. Son Qacar-Osmanlı savaşı 1825-ci ildə hər iki dövlətin ayaqdan düşməsilə sona çatır. Həmin ilin sonlarında Rus-Qacar və bir neçə ay sonra Rus-Osmanlı

savaşları başlayır. Ruslar güneydən Təbrizə, güney batıdan isə, Anadoluya girirlər. Təbrizdən Tehrana, Anadoludan isə İstanbula doğru yaxınlaşarkən hər iki Türk dövləti Türk düşməni imperatoluğu qarşısında təslim olurlar. 1828-ci ildə ruslar Türkmənçay, 1829-cu il isə, Edirnə anlaşmalarını iki Türk dövlətinə imzaladırlar. İki Türk dövləti Türk millətinə qarşı mümkün olan ən cinayətçi davranış sərgilədilər. Budur köləlikdən doğan bir ulusal çöküş görüntü![314]

Daha üzücü bir hal da, bu 300-illik utanc verici illərdə olan Türkiyənin tarix və siyasal ədəbiyyatının baxışıdır. Bu ədəbiyyatın qalib yöntəmi azdırıcı və gərçəkliyi örtük altında gizləməkdir. Türkiy tarix alanında bu savaşlar İran-Osmanlı savaşları adıyla netləşir. İranlılar düşmənlərdir. Türklər (Osmanlılar) düşmənləri ağır çökətmələrə uğratırlar. Osmançılıqdan qaynaqlanan bu tarixsəl yöntəmin sonunda İran tərəfinin Farslara bağlanması, İran yəni Fars zehniyyətinin aşınması ortaya qoyulur. Bu tarixi örənək yeniyetmə Türkün qafasında İranda Farslar yaşar düşüncə təməli atılmağa başlayır. Bu düşüncənin quşaq-quşaq?(nəsil nəsil) dolaşmasının nəticəsində ən alçaq tarixsəl əxlaqsızlıq üz verir. Belə ki, bir millət varkən yox sayılır. Kiçik bir milli varlıqsa, öz cəhalətimiz üzündən qalib və dominat çoxunluq kimi göstərilir. Bu haqda Nahal Adsızın Güney Azərbaycan haqqında bir deyiminə toxunuram. O deyir "… Komşumuz İranda yaşıyan Türkleri az tanıyoruz. Az tanıdığımız birşey değil, yalnış tanıyoruz. Bu yalnış düşünceleri silmek için bu kitap gibi birçok kitaplara daha ihtiyaç vardır.[315]

Evrimsəllik (təkamülləşmək) və Devrimsəllik (mütləq çevirmək) ikiliyi teorisi, insan və toplum əxlağını yüksəklərə qaldıracaq iki qanadlı quş misalıdır. Nə mutlu ki, Güney Azərbaycan Milli Hərəkatının çağdaş durumu bu iki qanadın üzərində yerləşərək irançılıq və ərəbçilik küləliyinə son vermək yolunda irəliləməkdədir.

---

[314] *(Bu savaşlar haqda artıq bilgi almaq üçün müraciət edin 1. Atsız, Makaleler-1-,baysan, İstanbul. 1992.s81.85./ 2.http://tr.wikipedia.org/wiki/Osmanl-İran_Savaşları)*

[315] *( Adsız, Makaleler,Baysan, istanbul1992, s53,54)*

*Köləliyi öldürüb ulu yaşamaq! Bu anlamı daşıyır:*

İnsanımızı küləlləndirən birincilərə qarşı devrimçi olmaq gərəkir. Y`əni, ortaçağ əsaslarına qarşı çox gecişmiş bir insanlıq, özgürlük və Türkçülük savaşına girmək lazimdir. Gəncliyimizin son illərdə ortaya qoyduğu özgür və azad iradənin təməlində qulçuluğa qarşı açıq savaş eyləmi dayanmaqdadır. Ulusumnzun gənc kəsiminin irəli sürdüyü devrimsəl və evrimsəl savaşın amacında yalnız irançılıq deyil, həm də, ərəbçilik anlayışına son qoymaq vardır. Bu yolun ən baş şərti, çağla irəliləmək və əski zehniyyətlərə qarşı bilimsəl devrim yapmaqdır. Devrimçilik millətimizin intibah yolunun qorucusudur, kəsərli savunma silahıdır. Çünkü, özəl xislətinə, dünya görüşünə və dinsəl yapısına görə, Fars rejimi hər etiraz səsini allaha, dinə, dini orqana, din hakimiyyətinə bağlayaraq insanların azad düşüncəsinə, insan kimi davranışlarına heç cürə imkan verməyir. Bu etiraz aksiyaları siyasal, sinifsəl və ulusal ayrıntılıq daşımadan, İran Islam Anayasasına görə, Allahla savaş eyləmi kimi nitələnməkdədir. Y`əni insan mütləq müqəllid və cahil olmalı, mütləq cəhl hakimiyyətinin qulluğunu qəbul etməlidir. Din və irq ideolojisinə bağlı olan Farsçı hakimiyyətin insanlıqla ilişgisinin mahiyyətinə görə, vətəndaşlıq haqqı, din haqqıdır. Bu haqqın isə bir etnolojik kimliyi vardırsa , Farsçılıqdır! Vətəndaş sayılan kimsə, ya bunu beləki var qəbul etməli vəya yaşam haqqını itirməlidir. Təpədən-dırnağa silaha sarılmış din rejiminin anlayışına görə, əslində heç zaman vətəndaş, yurddaş, soydaş kimi qavramlara yol verilməməlidir. Çünkü, siyasal İslam, özəllilklə şiiə məzhəbli islam, yaranışından bəri ümmətçilik qavramlı ideolojik olaraq formalaşmış və bu yolda dindaşlıq adına Ərəbistan sınırlarından uzaqlarda milyonlar insanın acımadan ölümünə yol açmışdır. Təb`i ki, hər ideolojik məktəbində olduğu kimi ümmətçilik qavramında da bir mərkəzləşmiş hakimiyyət sisteminin olması gərəkməkdədir. Keçmişdən bu idelojik məktəbə eşlik edən ərəbçilik etnosistemi olmuşsa da, bu gün İran adı altında hegomon olan həman dinsəl dövlətin təndaşı olaraq  Farsçı etnosistemin də ortaqlığını yaşamaqdayıq. Göründüyü kimi, ümmətçilik ideolojisinin tək başına dövlətçilik sisteminə yüksəlişi mümkün deyildir. Başqa sözlə etniksəl

şovinist olmadan ümmətçilik tək başına siyasal hegomonluq əldə edə bilməz. Tarixdə, bir döminant millətin üstünlüyünə söykənmədən ümmətçi dövlətin yaranması görünməmişdir. Çünki, ümmətçilik, sınır bilməyən, soykökə dayanmayan evrən ilahiyyatı kimi tanımlanır. Elə buna görə də, bir ilahi dayanışma olaraq bütün insanları özünün hədəf kütləsi hesab edir. Buna görə də, Siyasal İslamın mərkəzləşməsilə klasik ümmətçilik arasında çəlişgili durumun yaranmaması imkansı olur. Bu haqda, İran İslam Farsçı rejimi bir örnək olaraq qarşımızdadır. Bu rejimin Fars düşüncəli bir rejim olduğu gizli deyil. Rejim üçün, siyasal islamla ümmətçilik arasında böyük fırq vardır. Rejimin özünə özəl olaraq din görüşü vardır. Onun tağında isə, ümmət-e-vahidə deyil, Farslaşmış İran-e-vahidə vardır. Həmin əsas üzündəndir ki, Azərbaycan milliyətçilərinin İran dövlətçiliyinə verdikləri tanıtım termin “FONDAMENTALİST FARSÇI ŞOVİNİST”-dir.

Dindaşlıq vəya ümətçilik siyasal islamın ortaya qoyduğu ”İslam Dünyası Birliyi” siyasi- mədəni ideolojidir. Bu danılmaz bir faktdır ki, islamın 1400- ildən bəri bir çoxlu toplumda olumlu və olumsuz etgisi olmuş və geniş alanlı evrənsəl əxlaq özülü ortaya qoymuşdur. Ancaq bu oluşumların zaman sürəcində çağdaşlaşmağa ehtiyacı olan durumda, fondamental mühafizəkarlığa uğrarkən geniş çapda susqunluq yaşamışdır. Elə, bu dayanışmalara görə də, islamın təfəkkür alanı dar qapsamda qalaraq bütün incələmələrə olumsuzcasına yanaşmışdır. Buna görə də, gənəl olaraq müsəlman kütləsi də, düşüncən geri qalaraq şiddətə yönəlik sinir, intiqam və duyğu küpü olmuşdur.

Azərbaycan, batıyla doğu arasında körpü hükmü daşıyan bir stratejik durumlu ölkədir. Bu ölkənin intiqrasiya və kültür paylaşma güçünün yüksək olmasına baxmayaraq başının üzərində dolaşan qara bulutların etgisindən özgür olamamışdır. Məlum fırtınalar bağlamında Azərbaycan, nəyinki islamın olumsuz etgisini olumlu halə gətirə bilməmişdir, hətta, özü də, sürəkli olaraq uyumsuz əngəllərə qarşı uğraşmaq zorunda qalmışdır. Belə durumda, Azərbaycan özünün gərçək gücünü ortaya qoyamamış, dərin potensialını[316] qulanmaqda zorlanmış və

[316] çıxarlarını

geniş kütlə dağılmasına uğramışdır[317]. Sözsüz ki, hər millətin dağılmasına nədən olan ən başlıça səbəblərdən biri də köçdür. Köç axımına uğramış bir ulusun milli əxlağının dərin çöküntüləri, iki-üç qoşaqdan[318] sonra tam bir ulusal yoxsunluğa yol açan amilə çevrilə bilər. Azərbaycan bu ulusal faciəni bütün boyutları ilə yaşamış və yaşamaqda olan ölkədir. 1990-ci ildən sonra Quzeyimizin bu faciənin bir addımlığından dönməsi ilə, Güneyimizin də duruma baxış açısı böyük ölçüdə dəyişmişdir.

Güneydə basqı altında sıxılan potensialın azad olmasında və aydıncasına güc dalğasına cevrilməsində evrimsəl və devrimsəl ikiliyin harmonikliyi təməl rol oynamaqdadır. Yalnız bu nöqtəyə varinca, toplum içindəki sosial-siyasal psikoloji dəyişər və düşüncənın buzları əriyər. Dinamikləşmə gücünə yiyələnməyi bacaran toplumun sür`ətlə gəncləşməsi, yeni ufuqların açılışına, evrənsəl alanda siyasal genişliyə çatar. Əldə olunan psikolojik qalxınma dinamizmi, istər-istəməz ulusun devrimçi ruha yiyələnməsinə təkan verir. İnsan özünü yüksək sandıqca, ulusal kimliyi də onunla birlikdə böyüməyə başlayır. Artıq, bu aşamadakı düşüncə meydanı öncələrdən fərqili olaraq fərd və quruplar halından çıxaraq geniş toplum anlamı almış olur. Peki, bu durumda nə etmək gərəkir? Burdadır ki, evrimdən doğan milli ideologiya, devrimdən doğan kütləsəl örgüdlənmənin beyni olaraq onunla qopulmaz bağlantı yaradır. Öz təməli üzərində ayaqlanan hərəkatın ilk məhsulu yuxarılarda da deyildiyi kimi Özgür İnam və Ulusal Əxlaq yüksəlişini gündəmə gətirir.

Sözsüz ki, Ulusal Əxlağın əxlaqsızlıq çəmbərindən qurtuluşunun təməlində yerləşmiş Özgür İnamın topluma mal edilməsi böyük həzinələr və özverilər istəyir. Sürəkli doğma və ulusal bilimsəlləşmə və bilgiləşdirmə bu ağır yolun dönməzliyini qarantılayır. Təbliğatın ulusal düşüncə bölümünün güncəlləşməsi, kütlənin milli-siyası güçünün atması deməkdir.

---

[317] xalqın dağılmasına tuşgəlmişdir
[318] nəsildən

## Milli-siyasi hərəkatda əxlaq

Milli siyasi hərəkat, öz-özlüyündə əxlaq və hüquq davasıdır. Bu davanı siyasi oyunlara fəda etmək, onun bütün milli və əxlaq təməllərini bir yana ataraq dünya, bölgə, yerli siyasətlərə çevirmək, hər hansı həqiqi və yaxud hüquqi şəxslər tərəfindən olursa olsun, özlüyündə bir anti-əxlaq təzahürdür. "Bir yanda mən, qalan tərəfdə isə hamı" kimi davranış da, bir anti-əxlaq təzahür sayılmaqdadır. Söz, davranış, iradə, inam, mənlik, hökm, həvəs, istək, dilək və bu kimi əxlaqsal dəyərləri başqaların hesabına mənimsəmək, əxlaqsızlığın bir başqa görüntüsüdür.

Əxlaq hər bir toplumun tarixsəl xarekterinin özəlləşmiş məhsuludur. O üzdən bir toplumun əxlaq dışı təsəvür edilməsi imkansızdır. Əxlaqla toplum arasında olan ayrılmazlıq örnəyi insanda olan ruhla can kimidir. Məğlub toplumların əxlağına qarşı olan bir milli basqı eyləmi olduğuna görə, şovinizm yer üzünün ən nifrətli və çirkin siyasi eyləmidir. Şovinizmə uğramış toplumlarda, yerli və ulusal əxlağın get-gedə düşmən basqısı altına düşməsinin və iradəsizliyə sürüklənərkən çöküşə itələnməkdən qaçışı yoxdur. Qalib dövlətin ideolojik və psikolojik yöntəminə baş əyərkən yenilgəyə uğramış toplumun özgür inamının sınmasıyla asimilasiya siyasətinin də, eyləm taktikası qələbə aşamasına ayaq qoyar. Özgür inamın yenilgəyə uğramasıyla milli əxlağın təməli olan toplum dili ən vəhşi basqılara uğrarkən öz toparlayıcı gücünü itirir. Milli Dil yasağı vəya aşağılanması düşmənin hədəfinə çevrilir. Sonra tarix saxtakarlığı önə gəlir. Toplumun dili və hafizəsi darbə altına alınınca, insanlarda elinasion[319] sürəci baş verir. Bu sürəcin ən başlıca sonucu toplum əxlağının dağılmasıdır. Bu aşamadan sonra, düşmən artıq öz istihalə projəsini yürütməkdə zorluq çəkməyəcəkdir. Çünkü, alçatma sürecində insanlar içində dialoq və kordinasiya eyləmi kəsilir, vətəndaşlıq duyğuları son plana yerləşir. Vətəndaşlıq və soydaşlıq duyğularının yoxsunlaşması ilə yanaşı şəxsi ehtiraslar böyüməyə başlayır. Vətənçilik və millətçilik kimi qavramların yerini köyçülük, şəhərçilik, tayfaçılıq, sinifçilik və təriqətçilik kimi təməlsiz görüşlər alır. Sonuc, toplum üçün bir qorxunc olaraq nitələnir. Belə ki, min illərcə bəlli bir toplumun varlığının,

[319] içdən boşatma/ cinləşdirmə

diriliginin və bütünlügünün təməli olan bir çox nəsnəl və öznəl izlərin silinməsi və sürtülməsi bir hükm kimi önə çıxmağa başlayır. Orta da qalan isə, qalırğı olmayan bilincaltı[320] oluşumdur. Sözsüz ki, bilincaltı oluşum isə, məhz bilicnaltı qaldığına görə, gündəlik gəlişmədən, çalxışmadan və verimlilikdən uzaq olan bir kor hədəf kimi düşüncə alanına yaxınlaşa bilməyir. Bu qoşullarda toplumun düşüncə alanı öz ulusal doğasından azdırılaraq qalib dövlətin Millətüstü, az bir ölçüdə isə həmən dövlətin vərində sərgilənmiş olan Millətaltı siyasəti altına sürüklənir.

Ancaq, bu o demək deyil ki, həmin toplumda yaşam iradəsi tamamilə ölmüş duruma düşər. Yaşam həvəsi cəmiyyətin aydın kəsimində zaman-zaman dirçəlməyə başlarkən, çeşidli bucaqlardan özünü göstərməyə başlar. Öncə dağınıq quruplar, yavaş-yavaş isə böyük topluluqlar halında dirçələn milli dirənişin izləri geniş kütləni içinə alar. Milli İradənin yüksəliş izlərinin yenidən duyulmasıyla onun bilimsəl tezlərinin də aydınlar sarından ortaya qoyulması, toplum içində yavaş-yavaş yer açmağa başlayar. Təbi` ki, bu dirçəliş izlərinin yayılmasıyla təkcə milli alanda deyil, bütün yaşam haqlarının iaadə olunması toplumun vaz keçirilməz gündəm şüarına çevrilib toplumda devrimçi hərəkata yürümə sıgnalları verilməyə başlar. Milli Devrim sürəcində çeşidli verilərin ortaya gəlməsilə ortaq dirəniş düşüncəsi ümummilli fəlsəfənin doğulmasına və yeni keyfiyyətlərin meydana çıxmasına şərayit yaradar. Bu sürəcdə yaranan ümummilli fəlsəfənin doğasına görə, topluma dayanan qurtuluş sistemi yaranar. Bu sistemin ruhunda Millətin Özgür İnamı oluşurkən bir ruh, bir millət, bir torpaq, bir amac, bir simgə və bir yolbay gərəkliyi də öz həllini tapar.

[320] şüuraltı

# 12. BÖLÜM

## Azərbaycan Milli Hərəkatı qarşısında millətüstü və millətaltı əngəllər.

### Millətüstü və Millətaltı anlamları nə deməkdir?

Vaxtilə Ziya Gökalp demişdir:

"*Vətən nə Türkiyədir Türklərə nə Türküstan,*
*Vətən, böyük və müəbbəd bir ülkədir: Turan!*"

Gökalp bu şe`rini diyərkən vətən və millət qavramlarını birləşdirən bir anlayışın geniş boyutlarını ortaya qoymuşdur. Millət qavramının tək kə`ıbəli olmasının gərəkliyini irəli sürən Gökalpa görə, millətin dili, dini, kültürü, tarixi və bir də ideyal bir vətən birliyi olmalıdır. Vətəni vətən yapan millətdir. Milləti isə dövlət sahibi edən bu ikisinin birləşməsidir. Millət və öz deyimlə ulus, özül köklər üzərində qurulan tarixsəl bir varlıqdır. Bu varlığın bütün ayaqları özümlü bir insan toplusundan alınmış, başqa millətlərdən fərqli görüntü və qurumsallıq sərgilərkən bəşəriyyətin çeşidli varlıqlarından daha bir başqasını yaratmışdır. Dil bu fərqliyin ən təməl dirəyi olaraq eyni zamanda yaşam biçiminin və düşüncə təzahirlərinin də anasıdır.

1-ci Çarlz,in [321] İnqilabçı Parlament məhkəməsində millətə və dövlətə xəyanət adıyla öldürülməsinin ardından dünyada ilk kəz olaraq kapitalist sistemin yaranması gərçəkləşdi. Bu sistemin quruluşunun ən başda gələn yeniliyi insanın yer və əkin əsarətindən azad olması idi. İnsanın beyin gəlişməsinin qarşısını alan köyçülük və rəiyyətçiliyin aradan getməsilə yeni bir çağ başlamışdır. Bu başlanğıcın ən böyük qalibi yeni İngiltərə Borjova dövləti olmuşdur. Feodalların borjvalar qarşısında diz çokməsinin ilk sonucu yerliçiliyin sonu oldu. İngiltərə dövləti ölkənin başa-başından seçilən qeyri feodalların iradəsilə idarə olunmağa başladı. Parlamentin əsas partilərindən birisi kimi *Levellers Party*[322]geniş kütlənin siyasi partisinə çevrildi. Bu parti İngiltərənin Millət-Dövlət sisteminə girməsində böyük rol oynadı. 15-ci əsrin klisə və feodal hegomonluğu altında inləyən yoxsul və kiçik ingilis, lordlar dövləti ilə 17 və 18-ci yüzillərdə dünyanın taysız ağası olaraq 100-dən artıq ölkəni sömürgə etmişdir. Ancaq bu sömürgəçilik siyasəti Osmanlı İmperaturluğuna bənzəmirdi. İngiltərə rəhbərliyinin dövlətə baxışının yeni tipli olmasının keçmişlərdən fərqli görünməsi feodal sistemləri boyunduruğunda əzilən başqa ölkələrin də gəncləri içində həyəcanlara nədən olmuşdur. Bu üzdən bir çox yerlərdə, İngiltərənin qalib siyasətinin yeniliyi bir çox yerli sümürülmüş insanları da dirənişdən uzaqlaşdırmışdır.

İngiltərədən sonra Fransa və Rusiya, biraz sonra isə Pros-Avstriya borjva dövlətlərinin yaranmasıyla liberalizmin insanlar arasında yer almasıyla dünya çapında azad insan və azad dövlət fəlsəfəsinin ilkin etablarını yayımlamışdır. 18-19-cu yüzillərdə nəsnəl imperatorluq dövranının sona varmasıyla ortaya çıxan yüzdən artıq yeni vəya yenidən bağımsızlığını əldə etmiş ulus-dövlətlər olmuşdur. Bu dövlətlərin məhz ulus-dövlət sistemli olmasının təməl amilləri skolar, liberal, mərkəzçi vəya federalçı, millətçi oluşumları olmuşdur. Sözsüz ki, bu böyük qalxışmanın sonuca varmasında saysız ziyalıların rolunu görmədən geçmək olmaz. Monteskiyo[323],Volter[324], Jan Jak Rosso[325] kimi saysız düşünürlərin beyin

---

[321] (Charles I, İngiltərənin diktator və feodal şahi 1625-1649)
[322] müsavatçı parti
[323] Şarl Lui Monteskiyo /*Charles-Louis Montesquieu. doğum1689- ölüm1755/* fransız yazar, filosof, siyasətçi, sosilog,“Qanunların Huhu Üzərinə„adlım kitabın yazarıdır.

fırtınaları yalnız  Avrupanı deyil, bütün dünyanı öz düşüncələrilə etgi altına almışdır. Lakin, Ortadoğuda və yaşadığımız böyük bölgədə bu etgi uzun zaman islam dininin yaratdığı zehinsəl duyğunluğu aşa bilməmişdir. Ona görə də, 200-il bundan öncə Avrupa insanının bir çox sosial sorunlara tapdığı yanıtlar, hələ də bizim içimizdə daşlaşmış sorunlar olaraq qalmaqdadır.

Azərbaycan Türklərinin düşüncə açısının daşlaşmasına nədən olan amillərə yuxarı sətirlərdə işarə olunsa da, onların qıssaca açıqlaması məqsədə uyğundur. Azərbaycan Türklərinin millətləşmə sürəcinin nədən uzaması və bu uzanmaya səbəb olan amillərin etgisinin nə zaman bitəcəyinə cavab tapılarsa Güneyin milli-qurtuluş savaşının sürəcində millətləşməyimizin də bu əngəllərdən qurtuluşu mümkün olacaqdır. Bu əngəllərin ən önəmlilərinin sırası aşağıdakılardır:

**Millətüstü Əngəllər:**

- Ümmətçilik
- İrançılıq
- İmperatorçuluq

**Millətaltı Əngəllər**

- Xanlıq
- Təriqətçilik

---

Dövlət sistemlərinin üç təməlini oluşduran /İcra, Qanun, Məhkəmə/orqanların qarşılıqlı bağımsızlığını ortaya qoyan bilgindir.

[324] Volter / *François-Marie Arouet*/doğum1694-  ölüm1778. şair, publisist, tarixçi, insan haqlarını savunan, siyasət bilgini və klisənin dövlətdən uzaq tutulması uğrunda çalışan intibahçı.

[325]Jan Jak Russo /fr. *Jean-Jacques Rousseau/* doğum 1712- ölüm 1778, Fransalı filosof, yazıçı, siyasətçi, musiqi teorisiyəni, sosioloq. 1789-1794 illərində Fransa Burjua inqilabında Yakobinçilərin düşüncə lideri olmuşdur. *Toplum anlaşmaları, Elm və Mədəniyyət haqqında mühakimələr, İnsanlar Arasında olan bərabərsizliyin təməlləri.*

- Yerliçilik
- Sinifçilik

Bəzi sol düşüncəli yazarlarımızın baxışına görə, Azərbaycanda milli məsələ höviyyət böhranı yox, siyasi yarışlardan törənmiş sosial-siyasal problemdir. Bu iddiaya görə "TÜRK- FARS BİRLƏŞMƏSİ" bir bütöv olaraq millət halına gəlmiş tarixsəl bir varlıqdır. Bu varlıq, 1000-illərlə bir yerdə yaşamış, siyasət qurmuş, ortaq düşmənlər qarşısında vahid ölkəni qorumuşdur. Habelə ortaq tarix, mədəniyyət, ədəbiyyat, ərdəm və milli şəxsiyyət yaratmış və yaratmaqdadır. Şübhəsiz, İran mərkəzli Fars düşüncəsindən yola çıxan Türk solunun bütün düşüncə qaynaqları panFarsistlər sarından postalanmış qondarma və tapışırılmış adreslərdəndir.

80-illik RUS- FARS -Ərməni birləşməsinin Türkə qarşı yağdırdığı yalan və iftira dolusu qondarma tarixin reklam kompaniyası dayanmadan aydınlarımızı hədəfə almışdır. Bu üzdən tarix, siyasət, dil və milli-kültürəl alanlarda yazmağa çalışan sol düşüncəli aydınlarımız yeni heç bir bilgi ortaya qoyamadan, düşmən qaynaqlarından zəhərlənmiş təkrar iddiaları irəli sürməyə davam etmiş ve etməkdədir. Bu saçılmış zəhərlərin bir kəsimi bilimsəl və marksist teorilərini qorumaqdan yana olsa da, (M.T.Əranilər kimi), böyük kəsimində isə bilmədən və yalnız milli savadsızlıqdan törənən nədənlərdən asılıdır. Nə olursa-olsun Azərbaycanlı solun böyük kəsiminin Farsçılıqdan almış olduğu azqın fikrinə görə: "Güya ki, AZƏRBAYCAN, 7000-İLLİK AYDIN TÜRK MƏDƏNİYYƏTİ KİMLİYİNDƏN YOX, 2500-İLLİK FARSLIĞIN BULANIQ (Bax! Fars yazari "nasir pir puranın kitablarina) KİMLİYİNDƏN OLUŞMUŞ BİR QOPUQ PARÇADIR!"

**Bu düşmən tablosunda Türk insani gəlmə, Fars insani isə, yerli göstərilir. Azərbaycan Türk millətinin dili eybəcərcəsinə Fars dilinin itmiş ağizlarindan olan azəri-Fars i ağizi göstərilir. Azərbaycanin milli torpaqlari sixişdirilib 2-3 ustanda xülasə olunur. Azərbaycanin adam sayi 5-6 milyon göstərilir. Bir sözlə tarixsəl**

**qocaman bir millət, azliq olan Fars kimliyinin itmiş kiçik qovmu kimi göstərilir.**

"İran mərkəzli Farsçı düşüncə sistemi" bütün tanınmış və tanınmamış incəlikləri̇lə birlikdə "Azərbaycan mərkəzli Türkçü düşüncə sistemi" qarşısında dayanan ən bariz və gözəgələn düşmən faktoru olaraq ortadadır. Bu olanaq, yalnız iki millətin deyil, həm də, bölgənin barış olanaqlarını ciddi formada sarsıtmaqdadır. Kimsəyə sir deyildir ki, irançılıqla Farsçılıq əsasları eyni beyin alanından yaranır. Elə ki, bu ikisini bir-birindən ayırmaq suyun kimyəvi madələri olan oksigenlə hidrogeni bir-birindən ayırmaq kimidir. Bu ikisi, ya birlikdə vardır və ya birlikdə yoxdur. Bu üzdən, bu iki ruh və gövdəni bir arada görmək, bir arada tanımlamaq gərəkir. İrançılıq Farsçılıq ideolojisinin qızıl açarıdır. Bu açar olmadan, millətlərin yönünü kəndi dayağından çıxarıb irançılıq yoluna sürükləndirmək olmaz. Sadə örnəklə, bir ərəbin nəsnəl olmadan Farsa çevrilməsi mümkün deyildir. Öncə ərəbi İran adına əhvazlılığınıdan aralanması gərəkir. Bu iş olunca onun Farslaşma meyli maneəsiz olacaqdır. Çünkü, əhvazlı özünün əhvazlığını deyil, iranlığını ön görəcəkdir. İranın isə, simgələrinin bütünlüklə Fars olduğuna görə, əhvazlının qarşısında başqa yol seçənəyi qalmayacaqdır. Başqa anlamla desək, kiçik incəlikləri nəzərə almadan Azərbaycan Türkü, ərəb, bəluç, Türkmən, kürd, lor, gilək, mazən v.b. öncə iranlılıq sevgisində olmaqla, öz milli kimlik bilincindən boşalmalı, sonunda isə, kölgədə qalmış milli kimliyindən daşınaraq millətüstü "İrançılıq" ideolojisini mənimsəməlidir. Elə məhz bu əritmə siyasətinə uğramış millətlərin milli yaddaşlari pozulma və unudulma təhlükəsilə üz-üzə qalmışdır. Bu milli-kültürəl əritmə siyasəti sürəcində məğlub millətlərin milli polotikləri, milli ekonomiləri, milli ekolojiləri, milli dilləri, milli inanc-əxlaq-ənənələri ilə birgə tarix hafizələri də sarsılır. Bu sarsıntıdan meydana gələn sonuc isə qalib millətin üstünlüyünə və ağalığına nədən olur.

PanFarsizmin siyasi iradəsi olan paniranismin rejim biçimində ortaya çıxması isə, Fars dövlətçiliyini, iran dövlətçiliyi adıla çeşidli toplumlara aşırma hədəfidir. Türk dövlətçiliyinə son qoymaq üçün Rusya, İnqiltərə, Almaniya əl birliyilə Rza Şahın ortaya çıxması yalnız Türklərə

deyil, həndəvərdə yaşayan bütün toplumlara fəlakət yağmuru oldu. Bu fəlakətin nəzaman sona çatacağı, necə sona çatacağı bugünün ən səsli sorğusuna çevrilməsə də, kəsinliklə yaxın gələcəkdə ən atəşin fikir və güc münaqişəsinə çeviriləcəkdir. Kəsin görüntülərə görə bu fikir və düşüncə duruşmasi mərkəzində İstiqlaliyyət-özgürlük vəya Federativ bəhsləri yer alacaqdır.

Yaxın zamanlara aid olan təcrübərərə dayanaraq, etnos sistemi üzərində qurulmuş federativ dövlətlərin içində illər boyu ört-basdır olan milli iradələr fürsət olduqca üzə şıxaraq kolonı dövlətlər yerinə ulus-dövlət formolları irəli sürür və dəyişməz alternativə dönərək sosial patlaqlara çevrilmişdir. 90-ci illərədək dünyanın iki süpergücündən biri olan Sovet Sosialist dövləti ən üstün konfederal[326]formada idarə olunurdu. Hərgün başı kəlan təbliğat imkanlarıyla dünyanın ən üstün demokratik ölkə olduğunun soluğanlarıyla yanaşı 10-lar milyon azadlıq diləyində olan insan toplumların imhasına çalışırdı. Ancaq məhz əsir millətlərin payası üzərində qurulmuş bu dırnaq arası „Bəşəri" sistemin nə dərəcə təməlsiz olduğu isbat oldu. Yoquslaviyanın federal dövlətçiliyi də, bu örnəyin bir başqa isbatıdır.Göründüyü kimi həmin koloni sistemin dağılmasında 100,000-lərlə insan həlak oldu. Milyondan artıq insan Avrupanın çeşidli bölgələrinə qaçmaq zorunda qaldı.

Bəzi siyasətçilər, İranın dağılmasını Yuquslaviyaya bənzədərək Azərbaycan Türk Millətini ruhdan salmağa, ürəklərdə qorxu yaratmağa çalışırlar. Bu fikirləri ortaya atanların ən cəsarətliləri elə həman federalçılardır. Halbuki, əldə olunan bəlgələrə görə, qalib-məğlub ilişgilərin gedişatı dərinə vardıqca barışmaz qarşıtların[327]meydana gəlməsi də çoxalır, daha şiddətli toplum patlamasına nədən olur.

İstər xoşumuza gəlsin, istərsə gəlməsin, ancaq bu antinomilər öz həllini tapmalıdır. Farslarla Türklər qıssa bir sürəc olsa belə, bir-birindən ara açmalı, müstəqil şərtlər üzərində yenidən bir-birinə yaxınlaşmalıdırlar. Hərgah içdən sarsılmaqda olan fondamental şovinist İran mərkəzli Farsçı

---

[326] birləşik federallar
[327] Xəsmlərin

İslam cümhuriyyət zəmanında bu mili problem sona vararsa, bir neçə ehtimal üzündən insan qanı az tökülə bilər. Hərgah bu dövranı qənimət sanıb Azərbaycan problemləri kölgədə qalmadan, coxda qolay və əlverişli sayılmayan bu milli-qurtuluş sürəci uğurla başa çatsa dünyada örnəyi görünməyən bir öncüllük sərgilənə bilər. Belə olan halda iç-içə girmiş etniksəl düşmənlik yerini bölgəsəllik dostluq və qonşuluq ilşgiləri ala bilər. Tərs halda İran diyə ölkənin ortaçağ bataqlığındaki tərzi daha da dərinə gedəcək, bölgənin gələcəyi daha dərin etnik partlamalara tanıq olacaqdır.

Olası bir növbəti dırnaqarası (mərkəzçi – federalçı) şovinist Farsçı İran dövlətində, yenə də Farsçılıq düşüncəsi köklənəcəkdir. Yenə də, başda Türklər olmaqla, etnik toplumların təməlinin sarsıntısı dəvam edəcəkdir. Ölkənin bir ortaq dilə ehtiyacı vardır kimi bahanalarla Fars dili yenə də millətlərarası rəsmi dil olaraq netləşəçəkdir. Fars ədəbiyyatı 90-illik sərilmiş gövdəsilə [328] yenə də etniksəl pöhrəniş üzərinə kölgə salacaqdır. Və min-bir bəlli nədənlərə görə, alt yapısını Farslıq-iranlılıq tezləri oluşduran daha gizli və mızı bir Farsçı düşüncəli mərkəzçi rejimini hegomonluğu sağlanacaqdır. Varsayılan bu gedişatın Güneydəki ulusal enerjiyə vurduğu darbanın ardından solçu kəsimə olan duyarlılıq daha da artmağa başlayacaq. Bu gedişatın özəl missionerləri haqda Güneyədəki qarşılıqlığı belə bir tablo üzərində proqnozlaşdırmaq olar:

Azərbaycan Türk gəncliginin öz solçu aydınları vərindən aldadılması üzə çıxacaqdır.

Bu aldanışın içində olan Tehran şovinistlərinin missionerləri toplumda düşmənlə işbirlikçi olaraq tanıtılacağı kəsinləşəcək.

Millət içində qurtuluş düşüncəsinin Türk milliyətçiləri gücü ilə liderliyi isbatlaşacaq.

[328] yayğınlaşmış fəzasıyla

Bütün ağır həzinələrə rəğmən, əldən verilmiş fürsətlər yenidən doğacaq və "Azərbaycan Milli Hərəkatı" artıq "Azərbaycan Milli Özgürlük Hərəkatı" olaraq kəsinləşəcək.

Azərbaycan milli özgürlük hərəkatının sahib olduğu Türkçü düşüncə sisteminin dönməz halə gəlməsilə Azərbaycan Türk Cümhuriyyətinin qurulmasının üfuqləri də aydıncasına görünəcəkdir. Azərbaycan bu aşamaya gəlincə bütövləşmə və ulus dövlətləşmə sürəcini gündəmə gətirəcəkdir.

## Federalçı sistem və qaçırılmaz ulusal savaş.

Öz içində cəhalətlə yoğranmış Farsçı-şiiəçi düşüncə sisteminin radikalçılığını yumuşadan heç bir reform yolu yoxdur. Farsçı rejimin iş başına gəlməsindən bu yana ən kiçik milli reform verisi [329] belə görünməmişdir. İstər komprador Pəhləvi, istərsə onun fondamentalçı xələfi zamanındaki yazılan İran anayasalarında Fars kimliyindən başqa heç bir milli kimliklər haqda söz getməyir. Bu tipli radikal irqçı rejimlərdən reform gözləmək, Güney Afriqa Aparteid Rejimindən [330] antiaparteid olmaq istəyinə bənzər! Fars şovinizminin gömürməsi hər etnikdən daha artıq Fars etniki gün üzü görəcəkdir. Bu haqda başqa bölümlərdə bir çox nədənlərə işarə olduğuna görə, bir daha geriyə qayıtmaq istəməzdim. Ancaq, varsayım[331] federal sistemində bizi nələr gözləyir sorğusuna belə yanıt vermək olar:

- Farsistanla Azərbaycan ilişgilərinin aldadıcı planları yarım açıq KİV, Tele kanal və informasiya mərkəzləri tərəfindən aşkarlanacaq. Bu aşkarlığın ilk gözləntisi dialoq və söyləmdir. Fars kültüründə söyləmin olmaması üzündə bütün ortada olan sorunlar cəvabsız qalacaqdır. Bu duyarsızlığın sonucunda ört-basdır olmuş ulusal sorunlar daha da radikalcasına sərgilənəcək. Bu davranışın nəticəsində ılımlı heç bir şey

---

[329] amarı, istatisi
[330] Bu irqçı rejim 1990-cı ildə geniş üsyanlar sonucunda ləğv edildi.
[331] ehtimal

ortada qalmayacaqdır. Türk və Fars varlıqları biri-birinə qarşı sərtləşməyə çəkiləcək. Yarım avtonomidən əldə edilmiş imkanlar nəticəsində Azərbaycan gəncliyi torpaq uğrunda özgürlük dirənişə hazır olacaqdır. Bu Tehran rejimi üçün bir kaosa çevrilə bilər.

- Hər iki tərəfin daha da artıq qan verməsinə, milli iradələrin daha da gərgin bazarlığına nədən olacaqdır. Təbii ki bu uzun-uzatı qarşı durma səbəbinə milli inkişaf hər iki tərəfdə dayanacaq. Sosial, siyasal, ekonomi və bütün yaşam alanı milli gərginlik içində öz axarından düşəcək.

- Sarsıntı bölgəyə və bölgə insanlarına yenidən hakim olacaq. Bölgənin gərgin durumda qalmasıyla Amerika, Rusiya və Avrupa sömürgəçiləri öz durumlarının təsbiti üçün yarışa girəcəklər.

- Fars millətinin itirdigi boyudların böyüklüyü bəlkə də ərəb istilası qarşısında itirdiklərdən daha da böyük olacaqdır.

- Bu durumda, olasılı Azərbaycan Türk Dövlətinin şovinist olma sıqnalları verilməyə başlayacaqdır. Belə böyümə ehtimalı Azərbaycanın çağdaşlığına, demokratikliyinə böyük darbə endirəcəkdir.

Federalizmin dayaq təməllərinin gərəkcəsi demokratik rejimdir. Federal dövlətin yaranması üçün sürəcli çağdaşlıq və skolar gəlişmə gərəkir. Bu dənəyimdə[332]geçəməyən bir mütləqçi sistemin içində federalçı uyumsallığa yer yoxdur. Bugün, federal tezlərinin ortaya qoyduğu bahanaların başında irançılıq düşüncəsini savunma amacı durmaqdadır. Şübhəsiz ki, bu tezləri nümayəndəlik edənlər içində çox vətənsevər Azərbaycanlılar da vardır. Ancaq kimilərin ürək yanğısıyla, kimiləri isə düşmən sifarişilə bu qonuya yaxlaşmasına baxmayaraq nəticə bölgə üçün fəlakətlidir. Bu sistemin örtüyü altında tarixsəl gərçəklər gizlənib, etnik kütlələr yenidən mərkəzçi düşüncə sisteminə sürüklənəcəkdir. Hakimiyyəti əlində saxlamaqda olan Farsçı rejim yavaş-yavaş İran birliyi və vəhdəti adına geçmişdəki əritmə politikasına başlayaraq başqa etniklərin yenidən təslim halına gəlməsinə imkan yaradacaqdır. Farsçı

[332] imtəhandan, sınavdan

federal rejimin yeni politikası, dünya icmasının diqqətini azdırmağa, formada yeniləşmiş İran həqiqətlərindən yayındırmağa yoğunlaşacaqdır. İran mərkəzli panFarsçı sistemli Teharan hakimiyyəti siyasi bankrotdan xəlas olmaq üçün ekonomi və ticarət bazarlarını genişləndirməyə çalışıb ticari rüşvət (özəlliklə petrol) vasitələrilə iri dövlətləri özünə yandaş etmeye çalışacaqdır. Demokratiya adına bölgə siyasətini, Türkiyyə və Azərbaycan başda olmaqla siyasi, ekonomi, təhlükəsizlik sahələrində qurmağa başlayacaqdır. Bu iki Türk ölkə ilə təhlükəsizlik ilişgilərini gündəlik halə gətirməklə, onların milli qayğılarını kölgədə buraxmağa çalışacaqdır. Və ...

Göründüyü kimi yeniləşmış, metodikləşmiş İran mərkəzli Farsçı federal formullu hər hansı dövlət sistemi ağıla gələn ən aldadıcı və yeri gələrsə ən popular antiAzərbaycan dövlətçilik metodu olacaqdır. Aydındır ki, varolası hər tipli İran adlı federal sistemində Azərbaycan və başqa sömürülən etnik tərkiblərin hakimlik payları bugünkü durumdan daha cox olacaqdır. Amma bu Farslıq sisteminin dəyişib başqa sistem olması anlamına gəlməməlidir. Niyəki, bu növ reformların mahiyyəti milli-siyasi bataqlığa sürüklənmiş panFarsist rejimini yavaş-yavaş böhrandan qurtarmaq və onu yenidən hakim etməkdir. Həm də, doğal olaraq bu qondarma reform örtüyü altında Fars olmayan millətlərin ətəşini söndürmək siyasəti yatmaqdadır. Onsuz da, rejimin gizli orqanlarında bu gedişin sonucları çox tədirginliklə müzakirə olunur. Farsçı rejimin yəqininə görə, bütün tədbirlərin əks halı çıxmazdan-çıxmaza girməkdir. Rejim, bu yalan oyunların uzun sürə dəvamlı olabilməyəcəyini belə, hər kəsdən yaxşı başa düşür. İrqçı rejim bilir ki, hər hansı aldadıcı siyasətin dəvam edebiləcəyi mümkün deyildir. Şovinizm, artıq başa düşübdür ki, əsir millətlərin xızlı kütlə ayaqlanmasının qarşısında yaranan əngəllər darma-dağın olub aradan gedəcəkdir. Bu üzdən hakim sistem, qarşısında olan milli qalxışları çəlişgili böhranlara sürükləmək çabalarına yeni boyudlar əkləyəcək, milli hərəkətləri içdən parçalamaq yolunda sınır ixtilaflarına, xalq savaşlarına, ekonomik girizlərə, sosial əngəllərə[333],inanc və dinsəl ayrımçılıqlara meydan açacaqdır. PanFarsizmin istər hakimiyyət qolu, istərsə hakimliyyət altirnativlərinin milli hərəkətlərə qarşı bir mənalı

[333] işsizlik, uydurucu, fəhşa, qaçaq v.b.

Farsçı baxışları vardır. PanFarsizmə görə, iş-işdən keçmədən milli məsələni millətlərin öz içində psikolojik çıxmaz antinomi[334] çəlişgilər içinə sürümək gərəkir. Belə ki, topu millətlər arasına yuvarlatmaqla ən azından ortalığı həll olmaz sorğularla bulandırmaq lazımdır. Farsçı rejim, 30-illik təcrübəsilə millətlər sorunun ərəb saçına çevirməyə çalışır. Bu yolda yalnızca duyarlılıq gərəkir. Millətlərin qurtuluşçu orqanlarının qarşılıqlı duyarlılığı, içdən dialoğu bu rejim qarşısında ən önəmli və həyatı iqdamdır. Yalnız sürəkli kordinasiyon və birgə yürümə imkanlarının yaranmasıyla ortaq hədəfə varmaq olar. Rejimə millətlər arasında nifaq salma imkanı verməmək gərəkir. Rejimin basdığı ən həssas nöqtələrdən biri iki millət arasında olan torpaq sınırı və millət gərnəşməsidir. Rejimin bu haqdaki siyasəti çox gizli və mızıdır. Belə ki, bəlli bölgələrdə iç-içə girmiş etniksəl və sınırsal sorunların körüklənməsi üçün özünə bağlı olan casus amillərdən olduqca yararlanır. İki millət, qardaş kimi iç-içə yaşarkən bir-birinə qarşı qoyur. Rejim, bu siyasətilə öncə iki müttəviq olmaq gərəyindən olan iki millətin birliyini dağıdır. Ikincisi isə, özünü qurtuluş qarşıtlı hədəfdən qaçındırır. Örnəyin rejimin barmağıla qarışdırılan Azərbaycan-Kürdüstan ilşgiləridir. Kürdlərin aydın gələcəyini qaranlıq edəcək dərəcə önəmli olan torpaq tamahlarıdır. Kürdlərin Azərbaycandan yer qoparma kimi qışqırtılarının arxasında kəsinliklə Tehran rejimi dayanmaqdadır. Kürdlər bu yolda İran rejimin oyununa gəlməməlidirlər. Rejimin bu hiləçi politikasının amacı Türk-kürd arasında etnik problemi yaratmaqdır. Bu gərginliyin ocağına odun qoyan  Farsçı rejimin yalnız öz bəqası üçün çalışmasını görmək gərəkir. Belə olan halda, kürdlərin üzərinə böyük görəv düşməkdədir. Nə yazıq ki, rejimin əlilə ortaya atılan bu

---

[334] Antinomi Yunancadan alınmış iki sözün birləşməsidir. Zidd və Qanun vəya Qarşıyasa. Bu hər məntiğin qarşısında həmən bir məntiğin qarşılığıdır. Daha çox Alman Filisof Kant,ın dünya üzərində verdiyi 4 fərziyənin teorik adıdır. Kanta görə, dünyanın varlıq fəlsəfəsi 4 matimatiksəl və fiziksəl antinomilər üzərində fırlanmaqdadır. Dünya varkən bu dörd Qarşıyasa bir-birini mütləqlikdən salacaqdır. Sadə olaraq Kantın Antinomiləri bunlardır. 1) Dünyanın/kayinat/ sınırı var. Dünyanın sınırı yoxdur. 2) Bütün, sosuzadək bölünmüş atomlardan oluşmuşdur. Bütün, bölünməz atomlardan oluşmuşdur. 3) Hər şeyin gərəkən bağlantılığı vardır. Heç bir şeyin gərəkən bağlantılığı yoxdur. 4) Dünya varlığı gərəkən bir varlığa bağlıdır. Dünya varlığı gərəkən bir varlığa bağlı deyil. Bu dörd Antinomi çəlişginin təməl açılışı yuxarı düzənə görə, Necəlik, Kəsinlik/Netlik/, Bağlantılıq və Varlılıq dürdlügüdür. Bu qonularda dərin bilgilər üçün internet ilətişimilə Wikipedia, Antinomi, Kant açarlarını axtarın.

vaxtsız bölücü siyasət, kürdlərin bəzi eqoist[335]liderləri tərəfindən gündəmə gəlir.

Rejim, öz stratejik doğruntusunda milli hərəkətlər içində olan yumuşaq şəxsləri də gözdən qaçırmayır. Farsçı rejim, bu yolda çeşidli yöntəmlər dənəyir, milli fəallar üzərində çeşidli yöntəmlər işə salır. Popular adları diqqətlə izləyir.

PanFarsist dayrəsi bu siyasətləri ilə həm də, təklənmiş etnikinə müttəfiq axtarır. Rejim, öz gələcəyinin necəligini hamıdan yaxşı bilir. Bu üzdən, var olan sistemin qorunması üçün, ölkə içi bütün etniksəl, siyasal, sosial, hüquqsal, dinsəl təhdidlərin işlənilməsi rejimə görə tanrı əmri kimi ortaya qoyulur!

---

335 məncil

# 13. BÖLÜM

## Azərbaycan Milli Dövlətçiliyi qarşısında

### İran Federal Dövlətçiliyi

(Taktikalar, pozisiyonlar!)

Sözsüz ki, milliyyətindən asılı olmayaraq bütün irançı səltənətçilər, irançı solçular, irançı liberallar, paniranist qiyafətinə girmiş panFarsistlər, irançı mücahidlər, irançı ümmətçilər hamısı bir yerdə "İran mərkəzli Fars düşüncə sistemi" içində yer alırlar. Elə buna görə də çarəsizlikdən zavallığa doğru sürünməkdə olan İran dövlətçiliyini ən kötü durumda "İran federal dövlətçiliyi" formasında görmək istəyində olacaqlarında heç şübhə qalmır. Tebii ki, belə durumun yaranması tam normal gəlişmə kimi qarşılanmalı və araşdırılmalıdır. Bu düşmən cəbhəsinin oluşması, ilk etablarda bəzi iç təzadlar üzündən əngəllənsə də, qaçırılmazdır. Azərbaycam Milli Hərəkatı (AMH) nə qədər tez bu gərçəyi qəbul edərsə o qədər aydın və cəsarətli addım atmağa başlayacaqdır. Azərbaycan Milli Hərəkatı (AMH) öncə öz içində olan milli ideyasızlığı aradan qaldırmalı, özünü milli hərəkatın ruhuna bağlamalıdır. AMH, başı üstündə günəş kimi işıq saçan milli olğu və ülkü varkən başqa dənəmələri öz beyinindən söküb atması gərəkir. Kəsinliklə AMH-in milli-siyasal çalarlardan uğurlu qurtuluşunun şahaçarı Azerbaycan Türkçülük fəlsəfəsidir. Hər hansı bahana üzündən AMH sürüklənərkən maraqlı güclərin siyasal duzağı

altına keçərsə, uğurları da bir o qədər duruqlamaya uğratılacaqdır. Buda o deməkdir ki, güclənməkdə olan milli hərəkatın ideolojik yöntəmi dayandırılacaq və onun yerini siyasallıq alcaqdır. Baxmayaraq ki, Azərbaycam Milli Hərəkatı bir qurum, partı, örgüt[336] olaraq tərif olası deyildır. Ancaq bunu da unutmaq olmaz ki, hər hansı milli-qurtuluş hərəkatı kəsinləklə birgə milli ideyaldan qaynaqlanmalı və ideyanın içində birləşməlidir. Örnək olaraq Azərbaycam Milli Hərəkatına öndərlik iddiasında olan hər hansı qurum vəya şəxs qeydsiz-şərtsiz "Güney Azərbaycan Dövlətçiliyi" düşüncəsini ana təməl düşüncə kimi mənimsəməli[337] və onu yalnız tam bağımsız və özgür formasında tərifə etməlidir.

"Mən qurtuluşçuyam",

"Mən istiqlalçıyam",

"Mən güneyin bağımsızlığını hər gecə yuxuda görürəm"

kimi ifadələrin əks sədası da eyn olmalıdır. Bu şüarları verən hər hansı qurum vəya şəxs istər-istəməz "Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sistemi" içində yerləşir. Ancaq həmin şüarları siyası koridorlarda çeynə-tüpür edənlərin harada yerləşməsi də böyük sorum daşıyır. Sadalanmış örnəkləri biraz açaq!

"Mən qutuluşçuyam" amma filankəslər və maraqlı güclər bunu qebul etmirlər, nə yapalım!?

"Mən istiqlalçıyam" amma Avrupa və Amerika hələlik İranın dağılmasını arzu etmirlər. Nə yapalım!?

"Onlar hələlik bizim qurtuluş və istiqlal şüarlarımızı öz imperya maraqlarına uyğun görmurlər." Yaxşı olar ki, onların istəyi reformlarla razılaşaq. Hələlik ən dahiyanə istəyimiz "Federalizm" ola bilər.

---

[336] təşkilat
[337] özününki bilməli

Bu kimi ikili standardlı oyunçuların yeri haradır? Dedik ki, milliyyətindən, yaşadığı yerdən, soyundan, dinindən asılı olmayaraq "İran Mərkəzliyində" milli azadlıq axtarışında olan hər hansı qurum vəya şəxs istər-istəməz "İran Mərkəzli Farsçı Düşüncə Sistemi" çəmbərində yerləşir. Bu bir normal yerləşimdir. Hər hansı "Öncə İran, onun içində Azərbaycan" iddiasında olanın yeri bəllidirsə, Azərbaycanın bağımsızlığını yuxusunda görən, amma gündəmə "Federal" soluqanları daşıyanların yeri hardadır!? Belə ikili standardlı davranışların da yerləri bəllidir. Bəs onların Azərbaycam Milli Hərəkatı (AMH) içindəki maraqlarını neçə görmək olar?

Birinci qurumun durumu normal sayılarsa belə ikincilərin durumunu da normal saymaq mümkün olar mi? Sözsüz ki, ikili standardlı qurum və şəxslərin ortaya qoyduqları davranışlar, hər hansı həqiqi Azərbaycan Türk millətçisini düşündürən öznəl və nəsnəl sorundu. Sözsüz ki, hər hansı Azərbaycanlı fəalın və ya qurumun panFarsizm düşüncə dördgenində[338] olması arzu edilməz və acı olaydır. Başqa sözlə, düşünür insanımızın nəsnəl və öznəl uyumsuzluğu, Azərbaycan Milli Hərəkatı üçün balta hökmü oynanır. "İran mərkəzli Farsçı düşüncə" Azərbaycan Türk Millətinə görə, bir düşmən tezidir. Onun sıralarında yerləşən isə, Türk olmasından asılı olmayaraq öz millətinin düşməni və ən azından cahili sayılır.

Güneyin milli azadlıq hərəkatının dərinləşməsilə yeni liderlər doğacaqdır. Doğulan liderlər diqqət mərkəzində olaraq dost-düşmənin hesablarına daxil olacaq. Düşmən və Maraqlı güclər, ortaya çıxacaq hər yeni liderin yaşamını və çıxarlarını bütün incəlikləriə gözdən keçirəcəkdir. Hər ölkə və güc mərkəzinin yeni liderdən və ya liderlikdən özünə aid gözləntiləri ortaya çıxacaqdır. Bu günkü evrənsəl dünyada bu davranışlar çox normaldır. Ancaq, bir milli lider vəya liderlik üçün öz millətinin gələcəyindən başqa ikinci maraq dayrəsi gözlənilməzdir. Dedik ki, milli hərəkat bütöv olmadığına görə, onu izləyən özlərlə, özgələr arasında bir o qədər də məsafə yoxdur. Məsafənin bəlli ülçüyə gəlməsi

[338] çərçüvəsində

savaş meydanının genişlənməsilə ilgilidir. Bir yandan Tehran panFars rejiminin basqıları, başqa yandan isə, sadalanmış bəlli nədənlərdən dolayı, Azərbaycan Milli Hərəkatı hələlik fikir təmizliyi aşaması içindədir. Bu üzdən, ona yanaşım tərzi olduqca incə və həssas olmalıdır.

## Federal şüari verənlər

Kəsin olmayan faktlara görə, Güneyin gələcəyi ilə bağlı Federalizm formolunu düşünənlər də az deyildir. Durumun olumlu yönünə baxarsaq, artıq avtonomi[339] kimi formolların zamanının bitməsi aydınca görünür. Elə ki, hətta 1945-46 ci ilin milli hakimiyyətini örnək alanlar belə, artıq İranda avtonomi sistemin olacağının bitməsini deyirlər.

Bu üzdən Azərbaycanın gələcəyi üçün ən azından və ən dayaz proqnos baxımından bir federal sistemin odaqları gürünəbilər. Sözsüz ki, federal şüarı verənlərin geniş kəsiminin zaman-zaman mövqe dəyişməsi və dərinliyə sarı irəliləməsi gündən-günə xızlanmaqdadır. Bu versiyaları gözə alaraq gündəmə Federal damğası vuranların vəya yaxın gələcəkdə belə hökmə qatlanmaq zorunda qalanların sırasını aşağıdakı tiplərə görə bölmək olar:

İran Mərkəzli Farsçı oluşum.
İran Mərkəzli Azərbaycanlı qrup.

**A. İran Mərkəzli Farsçı oluşumun alt yapıtları:**

**A.1: Ümmətçi kəsim "İran İslam Cümhuryyəti, Siyasal Şiiəçi quruplar, Yaşıl Hərəkat adıyla önə çıxan geniş alanlı antı hakimiyyət qurumlar/ M.H.Musəvi, M.Kərrubi/ ..."**

**A.2: Səltənətçi kəsim "panFarsist opozisiyon, Paniranist partiya, Kavian qurupu,..."**

---

[339] muxtariyyət

**A.3: Klasik İran tipli liberal kəsim "İran Milli Cəbhəsi, Azadlıq Nehzəti, Millət partisi, İran partisi,..."**

**A.4: Oportonis solçu kəsim "Tudə partiyası, Fədayi Əksəriyyət qurupu, Rahe Kargər (İşçi yolu)..."**

**A.5: İran tipli Sosial-demokrat meylili kəsim "Xalqın Mücahidləri, Respoblikaçılar,..."**

**A.6: Rakidal solçu kəsim "Fədayi Əqəliyyət qurupu, Kommünistlər,..."**

**B. İran Mərkəzli Azərbaycanlı qrupun alt yapıtları**

**B.1: Klasik (İrançı) Türk milliyyətçi kəsim " Varlıq Dərgisi,..."**

**B.2: Federalçı Sol kəsim " Firqəçilər, Az Sosialistləri, Azkomçular..."**

**B.3: İkili Standardlı Az.milli kəsim " Şəms Təbriz qurupu,..."**

**B.4: Milli Müarifçi Türkçü kəsim "Dilmanc dərgisi,..."**

**A.1: Ümmətçi kəsim "İran İslam Cümhuryyəti, Siyasal Şiiəçi quruplar,..."**

Adından da bəlli olduğu kimi İran İslam Cümhuriyyəti kəskin bir ümmətçi rejimin örnəğidir. Bu rejimin özlügündə ümmətçilik tezistləri durduğu üçün şiddətlə ərəbçidir. Kökü ərəb tarixindən gəldiyi üçün onun etgisindən uzaqlaşma kimi bir şansı yoxdur. Bu rejimin hər hansı politika qavramlarından asılı olmayaraq canmayasının ərəbçilik olmasından şübhə edilməməlidir. Niyəki, islam fəlsəfəsinin bütün xarekter örnəklərinin ərəblərdən alınması, yaşanan hikayələrin yerinin isə ərəbistan olmasının təməlində yalnız ərəbçilik fəlsəfəsi yata bilər. Demək ki, kökü ərəb

kültürü, ifadəsi ərəb dili, hikayəsi ərəb tarixi və eyləmsəlligi ərəb kimliyi ilə yoğrulmuş bir ideolojik biçimin siyasi anlamına yalnız öz baxış açısından baxmaq doğru ola bilər.

Fars və Türk kültürlərinə dərindən kölgə salan din amilinin islamiyyətdən asılı olduğuna görə, bu iki millətin yaxınlıq izlərini yalnız şiiə ümmətçilik birliyi çərçivəsində araşdırmaqla bilimsəl ip ucuna çatmaq mümkündür. Miladı 7-ci yüzillikdən üzü bəri bu iki ayrı millətin iç-içə girmə olayında ortaq ərəbləşmənin etgisini görməmək olmaz! Elə, məhz bu üzdən illər boyu iki kültürün bir arada tutulması mümkün olmuşdur. Təməl kimliklərində bütünlüklə başqa-başqa uluslar olan Türk və Fars varlıqlarının qalib-məğlublar kimi bir yerdə yaşamasını bir sentez kimi sağlaya bilmişdir. Sözsüz ki, hər hansı ümmətçi federal şüarı isə, yalnız ümmətçilik panizminin çərçivəsində düşünülməli və sonuca varılmalıdır. Ümmətçi şüarı altında yerləşmə hüququnun yalnız müsəlman ümmətə aid olduğu üçün kök və sınır bağlılığı olan ulusçuluqla ümmətçilik arasında doğal birləşim nöqtəsı yoxdur. Bir çox Türk aydınlarının ortaq barış nöqtəsi axtarışlarına böüük sayğınlıq göstərməklə yanaşı, etiraf etməliyik ki, İran rejimi biçimində sistemləşmiş fondamentalist-şovinist islamın Türklüyə yanaşım düşüncəsinin olumlu yöntəmi yoxdur. Zaman-zaman olmasının siqnalları da yalnız aldadıçı və qondarmadır. Örnək olaraq Türk-İslam dünyasına qarşı Ortadoks-Protestant-Qriqori(Grigory)-Şiiə (Rusiya-Yunanistan-Ərmənistan-İran) birliyinin nə dərinlikdə anti Türk bir çəmbər olduşdurmasını göstərmək olar. Son illərdə, Tehran hakimiyyətinin ikiyə bölünməsilə yanaşı bəzi stratejik araşdırma mərkəzləri tərəfindən sınav olaraq ortaya atılan ümmətçi federal söyləminin özül amaclarına baxarsaq qonuma[340] daha aydınlıq gətirmiş olacayıq:

- Milli-etnik qurumları içdən dağıtmaq və ən azından onları iran-islam çəmbərində kontrol etmək.
- İran-islam sentezinin millətlər arasında yerləşməsilə gərçək milli kimlik bilincini yox etmək.

[340] mövzüyə

- İran içində var olan milli hərəkətlərinin düşüncə ölçüsünü federal soluğanları altında dondurmaq.
- Rejimin üzərinə qonan milli üsyanları liberalizə etməklə, ipucunu əldə saxlamaq.
- Siyasi şiiə ümmətçiliyin mərkəzi sayılan İranın dağılma sürəcini əngəlləmək.
- Bütöv Azərbaycan düşüncəsinin tədirginliyi bütün şovinist dayrələrdə olduğu kimi fondamentalist islam hakimiyyətini də dərindən fikrə salmaqdadır. Azərbaycan Türkünün federal şüari altında mərkəzçiliyə çəkilməsi və Tehran kontrolunda bütövlük sevdasından uzaqlaşması irqçı Farsçı rejimin ən başda gələn stratejik anlayışıdır. Bu üzdən bu anlayışı uğurla həyata keçirmək üçün Azərbaycanda sürətlə canlanmaqda olan bütövlük ruhunu Güney, Quzey fərqliyinə çəkməyə çalışır.
- Yalnız Azərbaycan deyil, həm də başqa xalqların milli ayaqlanması Tehran hakimlərini dərin qorxu içinə sürükləmişdir. Rejim belə düşünür ki, əgər Azərbaycan Milli Hərəkatını tabdan salarsa, başqa milli hərəkətlərin önlənməsi çox rahat şəkildə mümkün olacaqdır. buna görə, bütün gücüylə Azərbaycan milli hərəkatını dərinlikdən uzaqlaşdırmağa çalışır.
- Tarixsəl Türküstanın yenidən baş qaldırmasının önünü almaq üçün iki dominant şovinist vardır. Rus və Fars işbirliyi bu ikiliyi oluşdurur. Farsçı rejim bu qonuda böyük ortaqdan yəni Rusiyadan geri qalmasın diyə bütün şeytan oyunlarına girməkdən çəkinmir.
- 2010-cu İran cümhurbaşqanlığı seçimindən sonra vəlayət diktatorluğuna qarşı Yaşıl hərəkatı ortaya gəldi. Bu hərəkətin ilk görüntüsü demokratik istəklərin ortaya gəlməsilə yanaşı bu haqlara qarşı dirənən bir müxalifət və hakimiyyət toplusunu ortaya qoydu. Din totalizmindən qurtuluş ümidi yenidən əsir millətlərdə dirildi. Prosesinin başlanması hər kəs tərəfindən ümidvarlıqla izlənirkən, Türklərdə də diqqətlə təqib olundu. Lakin, bu ümidvarlıq başlamadan ümidsizliyə uğradı. Yaşıllar, milli haqlar qonusunda hakim rejimin tutumunu təkrarladı. Azərbaycan Milli Hərəkatının

Yaşıllara qarşı tutumu sərt oldu. Haqlı olaraq AMH-ı rejimin bütün qollarının antiAzərbaycan olduğunu və özgür milli siyasət sürəcəyini göstərdi. Yaşılçı liderlər Azərbaycan Türklərini Tehran siyasətinə bulaşdıramadı. Milli simgə halina gələn Traxtur futbol taxımının yarışına gələn yüz minlərcə Azərbaycan Türkünün yaşıl deyil məhz qırmızı bayraqlarının mesajı bəllidi. Azərbaycan hərəkatının özünə özəl olmasını kimsələr unutmasın! Bu millətin amacı İran cəhənnəmindən qurtarmaqdır. Azərbaycanla birlikdə İran adlanan ölkənin özəl milli bölgələri də rejimin ikinci maskalı liderlərin oyununa gəlmədilər.

- Yaşılların daha açıq və netcə federal təvizləri gözlənilir. Bölgəsəl dəyişimlərə baxaraq İran adlanan dövlətin son baharı yaşanmaqdadır. Yaşılların genişlənməsi və ciddi alternativ kimi ortaya gəlməsinin arxasında Amerika və Avrupa Birliyi (AB) kimi güclərin dayanmasını gözə alarsaq bu qurum tərəfindən federal şüarının tez bir zamanda ortaya qoyulmasına tanıq olacayıq. Çünki, çağdaş, demokratik və sekolar şüarlarına xoşgürülü yanaşan yaşıllar üçün milli dəyərlərin göz ardı edilməsi olumsuzdur. Buna Yaşıl liderlər istəməsə də, dayaqları istəyəcəkdir. Yaşıl liderlər isə, Azərbaycanın olmadığı yerdə uğurdan söz açılmaz məntiqini gözəl bilirlər. Peki, belə olarsa, Azərbaycan Milli Hərəkatını nə kimi tale gözləyir? Bu böyük bir sorundur. Bir tərəfdə İran adlanan ölkədə rejim açılımı, başqa yanda isə, Azərbaycanın milli qurtuluş və istiqlal qonusu ortadadır. Yaşıl Hərəkatının oluşması və genişlənməsi Azərbaycanlıları iki yol ayrıcında qoyabilər. İran islam rejiminin dərhal aradan getməsini bölgədə yaşayan milyonlarca insan toplusu kimi Türklərdə arzu edir. Bu rejim bölgənin, bəlkə də dünyanın ən vəhşı, geriçi və qanmaz dövlət sistemidir. Yaşılçı liderlər isə, bu rejimin ilk quranları və islam şiəçiliyinin məktəbindən çaxan siyasilərdir. Ancaq, həmin siyasi şiəçilik tərbiyəsi almış bu liderlər növbəti olaraq aldadıcı sloğanlarla istənilən millətlərin özgür hərəkatına kölgə salabilərlər. Azərbaycan Türklərinin bu arada çox önəmli rolları vardır. AMH-ı öz bağımsız və tam müstəqilliyə yönəlik siyasətilə başqa milli hərəkətləri də öz yanında saxlamağı bacarmalıdır. Yəni, iki

cəbhədə mücadilə etmək gərəkir. Vəlayətçilərlə və Yaşıllarla! Amma əslində bu ikisinə də, bu ikisində başqa irançı alternativlərə də, bir gözlə baxmaq gərəkir. İrançı Fars şovinistlər!

**A.2:** Səltənətçi kəsim "panFarsist opozisiyonu, Paniranist partiya, Kavian qurupu,..."

Özlərini İran şahlığının varisi kimi görən Ariyaçı düşüncə sahibidirlər. PanFarsizmin ən güclü düşüncə alanı olan səltənətçilərin ən dəyişməz özəllikləri Türkçülüyə olan dərin kin və nifrətləridir. 1979-cu il İslamçı devrimlə yerdən-yerə sürüklənən hakim Pəhvəvi rejimindən sonra böyük alanda paniranistlərin də parlayan ulduzu sönmüş oldu. Ancaq islam hakimiyyətinin etnik sisyasəti əsasında bəzi paniranistlərə yaratdığı şərait nəticəsində bu antiTürk qurum yenidən cəsarətlənərək islam qılığına girməyi bacaran kəsimilə hakimiyyətin stratejik siyasətinin mərkəzlərinə soxulmağı bacardı. Bu qurum istər ölkə içində, istərsə də dışarıda böyük mali qaynaqlara yiyələndi. Statuslara görə, Amerikanın finans mərkəzlərində Yəhudi, Ərməni və Yunanlı labiləri ilə sıx əməkdaşlıqdadır. Elə məhz həmin mali mərkəzlər vasitəsilə bu ölkənin siyasi dayrələrində söz sahibi olmuşdur. Bu qurumun siyasi manovralarına baxmayaraq hər hansı milli hərəkətlə qatı düşməndır. Bunların iddiasına görə, İran adlanan yer ən qədim zamanlardan təmiz qanlı – Ari irqı- və qutsal Fars millətinin məkanı olmuşdur. Bu məkan sonradan gələn axınlar vasitəsi ilə kirlənmişdir. Bu üzdən bu kirli axınların təmizlənməsi gərəkdir. Bu işin təkcə bir yolu vardır, Onları öz çirkablarından qoparmaq, "Ari" mədəniyyətinə, dilinə, yaşam tərzinə alışdirmaq, təmiz və qutsal "Ari" sifətinə yaraşdırmaq. Bu qurumun içində yer alan "Paniranist Partısı" və özlərini "Zərtüştiztlər" adlandıranlar dəstələr, qurumun ən geriçi, ifratçı panFarsistlər olaraq tanınmaqdadırlar. Bu qrupların sözlərinin əvvəli və sonu yalnız Türk düşmənliyi ilə əlamətdardır. Bu qurumun siyasi iradəsi isə, İran dövlətçiliyini yenidən monarxiya[341] sisteminə qaytarmaqdır. Onun hazırkı siyasal simvolu Pəhləvi adlanan keçmiş Şahın oğlu "Rza Pəhləvi"dir. Son zamanlar geçmiş Şahın xanımı Fərəh və oğlu Ə.R.

[341] krallıq

Pəhləvinin Azərbaycana sevgi göstərmələri, İslam rejimindən sonra "Demokratik-Parlamentalist Monarxiya İran Dövlət sisteminin federal formada olması mesajının ortaya atılması cox ilgincdir. "Təki Azərbaycan bizimlə olsun yetər" kimi ifadələrin qrup yönəticiləri tərəfindən səslənilməsi, İranda olan etniksəl siyasətin kəsinliklə dəyişməsinin izləri kimi dəyərlənə bilər. Bu qrupun zehniyyətinə görə, Azərbaycanın hakim rejimə qarşı milli dirənişinin kontrola alınmasının böyük görəvi onların üzərinə düşməkdədir. Çünkü, Koruşun[342] gərçək evladları kimi bu dövlətin bəqası üçün andlıdırlar. Şahçı opozisiyonun bir tərəfdən də, Azərbaycan Milli Hərəkatından rejimə qarşı su-istifadə etmə otopiyasını da unutmamaq gərəkir. Bu kəsimə görə, Azərbaycan davasının boyutlarının milli məsələ olduğuna görə, klasik Fars milliyətçiliyi də yenidən öz təkəri üzərinə qayıda bilər. Və bu da onlar üçün bir fürsət meydanı ola bilər. Bu üzdən bu günkü durumda "Azərbaycan Milli Hərəkatı"na biganə qalmamaq və onun potensiallarından kontrollu olaraq hakimiyyətə qarşı yararlanmaq gərəkməkdədir.

Son illərdə federativ şüarlarıyla imic[343] qazanmağa çalışan bu qurum, Azərbaycan milli hərəkatına yaxınlaşmaq, onu bir yandan yolundan sapdırmaq,[344] diyər yandan isə anti rejimçilikdə öz yanında yerləşdirməyə çalışacaqdır. Səltənətçilər bu iki strateji doğrultusunda istər vasitəsiz, istər vasitəli yollarla AMH-ın içində olan çatışmamazlıqları öyrənib həmin zəyif yerlərdən hərəkətin içinə sızmağa çalışacaqdır.

Azərbaycan Milli Hərəkatına qarşın, Şahçı qurumla islam hakimiyyəti arasında coxlu ortaq nöqtələr olsa da aşağıda sıralamaya görə, bəzi ayrıntıları diqqət mərkəzindən qaçırmamaq gərəkir:

Bu qurum şiddətlə ümmətçiliyə qarşıdır. Ümmətçiliyə qarşı olduğunun kökü isə antiərəb olduğundan qaynaqlanır. İrançılıq-Farsçılığı

---

[342] 2.Kir
[343] etibar, imtiyaz
[344] caydırmaq, yuldan eləmək

təbliğ edən bu qurumun antiTürk-antiAzərbaycan olmasının əsas səbəbi isə, bu iki millətin arasında olan tarixsəl sürtüşmələrdir.[345]

İran adlanan yerdə yaşayan bütün qeyri Fars millət və xalqların Farslıq içində əritilməsi bu qurumun dəyişməz diləyidir. Hal buki, islam rejiminin əsas amacı etnik əritmə siyasətindən daha çox İran mərkəzli ümmətçi sistemin gərçəklənməsidir. Təbii ki, belə ideyanın yaranması yolunda Farsçılıqla qeri Farslar arasında ağır çatışmalar qaçınılmazdır.

Pəhləvi çağında, paniranist qurumların bütün hədəflərinin arxasında ərəbçilikdən qaçış stratejisi dayanmışdır. Bu qurumun gənəl olaraq siyasi hədəfində islamin ərəbçilikdən uzaqlaşdırılması var idi. Onlar, bir çox hallarda liberallaşma hədəflərini Farslaşdırmayla yanaşı sürür, onun adını isə yeniləşmə qoyurdular. Ancaq, bu çaba bir neçə kərə sınansa da uğursuz qaldı.

**A.3:** Klasik İran tipli liberal kəsim "İran Milli Cəbhəsi, Azadlıq Nehzəti, Millət partısı, İran partısı,**...**"

Məşrütə hərəkatı ilə yanaşı yavaş-yavaş Avrupa sisteminə tanış olan gənc müarifçilər çox keçmədən İrançı liberal kəsimini qurmuşdular. Zaman sürəcində klasikləşmiş bu kəsim hər alanda çeşitli Avrupa formasını önərlərkən yaşadığı yaşam adət-ənənələrdən üzülüb bir çox məqamda himayəsində olan yabancı ölkələrin yerli amillərinə çevrilirdilər. Şəhərçilik ideolojisi kimi bəlirlənən liberalizm, İran durumundan asılı olaraq uzun zaman feodalizmin kölgəsində vəya ortaqlığında qalsa da, həmin dövrdən etibarən canlanmağa, bazar münasibətləri ilə yanaşı siyasət alanında da uğurlar qazanmağa başlamışdır. Elə bu üzdən hakimiyyət dayrələrinə yaxınlaşmağı, həmin kəsimin açar fiqoruna çevrilməyi bacarmışdir.

Azərbaycanda da həmin məşrütə zamanından başlayaraq liberalizim canlanmışdır. Azərbaycan liberalları Tehran liberalizmilə iş

[345] çatışmalardır

birliyi edərək Səttarxan, Bağırxanın və yüzlərcə millət fədayısının Tehrana sürgün göndərilməsində böyük rol oynamışdır. Bu yeni idealojiyə bağlı olan çevrə sonralar Xiyabanı və Pişəvəri hərəkatının yenilməsində siyasi meydanı ələ almış, Azərbaycana olmazın darbalar endirmişdir. Azərbaycan Türkünün xatirəsindən qolay-qolay silinməyən "Əhməd Qəvam" bu kəsimin bir örnək siyasətçisi kimi göstərilə bilər. "İran Milli Cəbhəsi, Azadlıq Nehzeti, Millət partisi, İran partisi kimi adlar altında fəaliyyət göstərən bu antiTürk-antiAzərbaycan kəsim, siyasi ideolojidə həmişə səltənətçilərin xadimi olmuşdur. İran liberalizmi öz dirçəlişindən bəri, heç zaman müstəqil siyasi iradə sürdürə bilməmişdir. İran liberalizminin ən zirvə zamani şübhəsiz "M. Müsəddiq"lə bağlıdır. Liberalizmin ən milli və həqiqətən millət sevər lideri "M. Müsəddiq"in qıssa başbaxanlıq dövrünü müstəsna edərsək İran liberalizmi ömrü boyu siyasi alanın birinciliyində dayana bilməmişdir. Bu qurum istər Şahlıq- istərsə İslam Cümhurisi zamanında İran rejimlərinin tam güvənini qazana bilməmişdir. Ən son bir liberal (özlərini "milli-məzhəbi" səsləndirirlər.) Xumeyninin əlilə başbaxan qoyulmuş, elə həmin adamın elilə də vurulmuş Təbriz doğumlu M. Bazergan olmuşdur. Mehdi Bazergan Təbrizdə "Bağşümal" adlı fotbol meydanında 50-min vətəndaşının qarşısında Türkcə qonuşmaqdan aciz qalınca  Farsca belə söyləmişdir: "EY MİLLƏTE BOZORGE MƏN! MƏRA BEBƏXŞİD KE, BE ZƏBANE MADƏRİYƏM NEMİTƏVANƏM HƏRF BEZƏNƏM. MƏN FƏRZƏNDE NAXƏLƏFE İN MELLƏT HƏSTƏM!" "(Ey mənim böyük millətim məni bağışlaki, öz ana dilimdə danışa bilmirəm. Mən bu millətin naxələf oğluyam!). Dünya liberalizminə xas olduğu kimi sözü bəzək-düzək edib millətə yedizdirmək, elə İran liberalizminə aid olan özəllikdir. Bu qurumun Azərbaycana baxışını aşağıdaki kimi sıralamaq olar:

Azərbaycan İranın qopulmaz gəlir qaynağıdır. İstər bazar ekonomisi, istərsə kənd təsərrüfatı açısından, Azərbaycanın özəl yeri vardır. Azərbaycan Türklük hayat fəlsəfəsi çətiri altından qurtarmalı, Fars tərbiyəsi olmalıdır ki, iran bütöv qala bilsin. Bu sahədə dövlət stratejik çabaya girməlidir.

Azərbaycanın asimilasiya edilmə yolu ancaq liberalizimdir. Yumuşaq siyasətlərlə Azərbaycanın birər-birər evlərinə girmək və həmin yolla uşaqları  Farslaşdırmaq gərəkir. Aşırı və zorakılıq yoluyla Türklərlə bacarmaq olmaz. Onların zorakılığa qarşı üsyanları yaxıcı və yıxıcı olar.

Anti Azərbaycan-anti Türk ortaqları olan aşırı ”Paniranist”lərin radikal siyasətlərinə qızaraq. onların Türklərə qarşı asimilasiya siyasətlərini qınayıb, onları liberal davranışa çağırırlar.

İran adlanan dövlət sistemi içində bulunmaqda olan soldan-sağa çəkilmiş bütün antiAzərbaycan-antiTürk kəsimin tam ortasında dayanan bu qurum hər hansı birləşdirici güc olmağa hazırdır.

Liberalizim, ən siyasətli ən tədbirli və ən dayanacaqlı antiAzərbaycan-antiTürk qurum olduğu üçün cox gizli və qorxulu düşmən sayılmalı və ona qarşı cox ciddi tədbirlər qılınmalıdır.

G.Azərbaycanda keçililən dövlət seçgilərinə çox titizliklə yanaşmaq gərəkir. İstər İran gənəlində, istərsə yerli seçgi də önə çıxan şəxslərin üzərində geniş araşdırma aparılmalı AMH tərəfindən rəsmi olaraq himayə olunması bəlli olmalıdır. Güney, zaman boyu iranlılıq adına seçdiyi liberallardan ağır xəyanətlər görmüşdür. İrandaki liberalizimin Azərbaycana vurduğu darbənin ölçüsü yoxdur. İran irticasının “Truva Ati” olmuş İran liberalizminin ən bariz örnəyi Ə. Qəvam,dır. İran liberalizmini səltənətçilərdən və təməlçi islamçılardan ayıran ideolojik baxış deyil, yalnız dünya komprator liberalizminə bağlı olduqlarıdır. Özəlliklə milli ideolojik baxış açıları olağanüstü antiTürk və antiAzərbaycançıdır.

**A.4:** Oportonis solçu kəsim “Tudə partiyası, Fədayi Əksəriyyət qurupu, Rahe Kargər **(İşçi yolu)...”**

1944-cü ilin mart ayında İngiltərənin Təbrizdəki başqonsulusu Tehranda yerləşən İngiltərə baş elçisinə göndərdiyi “F 0371/ 891.00” saylı sənədli raporda belə yazır: “...Təbriz seçgilərində Azərbaycanın iki böyük rol oynayan şəxsiyyəti yəni Pişəvəri və Biriya səs qazanıblar. Onlar

Azərbaycanın 22-illik Şahlıq basqısına son qoyacaqlarına söz verirlər. Ancaq Pişəvərini məclisə yol vermədilər!". Bu raporda Azərbaycan vəkillərinin nədən Farsçı şah məclisinə (İran Milli Məclisinə) yol verilməməsinin səbəbi deyilməsə də, az sonra Tudə Partisinin bu işdə birbaşa rol oynadığı üzə çıxır. Belə ki, sonralar özlərini qınayan bəzi sol yazarlar qələmi ilə yazılmış cox sənədli "Geçmiş gələcəyin çırağıdır" Farsca kitabda bu düşmənçilik sənədlər əsasında belənci ortaya qoyuldu: "...Həmin seçgilərdə Pişəvəri böyük səsbirliyi ilə 14-cü məclisin üzvü seçildi. Ancaq Tehranda milli məclis onun (Pişəvərinin) və Hacı Rəhim Xoyunun (Təbrizin başqa seçilmiş millət vəkili) səlahiyyətini təkcə 1 səs çox ilə rəd etdi. Tudə Partisindən olan millət vəkili "İrəc İskəndəri" və "Rəhmanqulu Xələtbəri" onlara səs vermədilər..."[346]

Çox ilgincdir ki, Pişəvəriyə qarşı olanların başını Paniranist anqlosaksonlar (Seid Zia və yandaşları) çəksə də, Təbrizdən onun adaylığını onaylayan Tudə partisinin ən başda gələn adları Paniranistlərə qoşularaq Azərbaycandan birinci səsi qazanan Pişəvərinin qarşısında durdular. Vaxtı ilə Tudə Partisinin başçılarından olan "Nurəddin Kianuri" Azərbaycan milli hakimiyyətinin muxtariyyət bəyaniyyəsini eşidincə çilədən çıxaraq belə söyləmişdir: "Onlar (Firqəçilər) xayincəsinə Tudə Partisinə qarşın kodetaya (çevrişə) əl vurublar!!"

Və rusların son əsgərləri Təbrizdən çıxmaq ərəfəsində 1946-ci ilin may ayının 8-də J. Stalin Pişəvərinin ünvanına yazdığ hədə və təhdid məktubunda belə ifadə işlədir: "Mənə elə gəlir ki, siz həm İran daxilində, həm də beynəlxalq nöqteyi nəzərindən yaranmış vəziyyəti düzgün dəyərləndirmirsiniz! ... Bizə məlum olduğuna görə siz demisiniz ki, biz öncə sizi göyə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və sizi rüsvay etmişik."[347]

---

[346] *Gozəşte Çerağe Rahe Ayənde Əst./"Geçmiş gələcəyin çırağıdır"/yazarla qrupu, Nilufər yayını, Tehran,s192.*

[347] *Güney Azərbaycan (kitabı)prof.dr.Şövkət Təqiova və...Bakı /s233-235.*

Stalinə bu qonunu kimlər aydınlaşdırmışdır? Burda da Tudə partisinin rolu bəlli olur. Vaxtıyla Rusiya dövlətinin yüksək rütbəli diplomatı yazır:..

Tudə partiyasının Fiqəyə vurduğu arxadan xəncərlər saymaqla başa gələməz! Bu haqda kitabın ADF-ə aid olan bölümündə geniş bilgilərin olduğuna görə qonuyu qıssaldaraq "İran Xalqının Fədayi Təşkilatına„ aid olan bir faktla bu bölümü yekünləşdiririk. 2006-cı may olaylarına toxunan Fədayi örgütü (Əksəriyyət) Farsca olan bildirişdə yazır:

*"**Özgürlük Sevər Azərbaycanlılar!***

*Son günlərdəki (Azərbaycanda) yüksələn çoxsaylı olaylarda iransevər Azərbaycanlıların içində (bir kəsim) azsaylı(lar da) görünürdü. Bunlar anti iran bayraqlar dalğalandırır, ölkəmizin çeşidli bölgələri arasında düşmənçilik salmaq (istəyirdilər.) Onların sırasının bir-birindən uzaqlaşdırılması çox gərəklidir. Sözsüz ki, ulusal, kültürəl istəklərin üzərində inadla durmaq, eyni zamanda demokratıkləşmənin anlamına da gəlməkdədir. Belə bir durumda İran üçün demokrası istəklərilə milli, kültürəl istəklərin bir-birindən uzaqlaşması olası iş deyildir. Bu (iki qonu) hətta qarşılıqlı milli və qovmi vahidlərin vətəndaşlıq haqqı sayılmalıdır. Yalnız, işçilər, əməkçilər, qadınlar, öyrəncilər, öyrətmənlər, aydınlar, düşünürlər, məzhəbsəl azlıqlar və başqa milli birliklərin birgə hərəkatıyla demokrası uğrunda irəliləmə əldə olunar. Azərbaycanlıların, kürdlərin, Türkmənlərin, bəlucların və ərəblərin milli, kültürəl hərəkatının iç-içə girməsi ilə yanaşı, özəlliklə İran üçün demokratik mücadiləyə bağlanması etgili və rol oynayıcı ola bilər.*

*Azərbaycan özgürçüləri!*

*Biz, sizin milli-kültürəl haqlarınızın yanındayıq. Sizin, hansısa şəhər, bilimyurd, İslam Məclisi və hakimiyyət orqanları qarşısında yola saldığınız göstəridən müdafiə edirik. Ancaq, bu yalnız İran millətilə birlikdə hakim fiqhin istibdadına qarşı olmalı və öz sınırını nifaq*

*salanlardan ayrılmalıdır. Bu olaylardan sui istifadə etməyə çalışan hakimlərin və sınırdışı duzaqların ağıllıca kənarından uzaqlaşmaq şərtilə sizi şiddətlə himayə edirik.*

*Yaşasın özgürlük!„*

*İran Xalq Fədai Örgütü- yönətim və siyasi qurum 5-xordad-1385*[348]

Bugün istər Tudə, istər Fədayi və istərsə bunlara bənzər solçu quruluşların Azərbaycana olan baxışları eyni geçmişlər kimi xəyanət üzərində qurulmaqdadır. Tudə tipli solçularaın Azərbaycan Türk millətinə olan baxışlarının hətta klasik səltənətçilərdən belə təhlükəli olduğu görünməkdədir. Şahçıların Türklüyə olan aydın nifrətini oportonist solçular tülkü sayağı ortaya qoyurlar. Bu ikisini qarşılaşdıranda, ikincilərin atalar sözüylə desək pambuqla baş kəsdiklərini görürük. Yuxarıdaki rəsmi bildirişdə Fədayilərin nə boyda mızı davranışları aydınca özünü göstərir. Onların, "Sizin yanınızdayıq, əgər İran demokrasiyası yolunda savaş aparsanız" kimi bənzər sözlərin eynisini ustadları Tudə Partiyasından da bolluca eşidmək olar. Azərbaycanın ulusal ruhuyla bütünlükdə zidd olan üzdə dostluq adına boğçalanmış belə baş aldadıcı bildirişlərin artıq zamanı bitmişdir. Bu quruplarıın özlərinə olan inamsızlığı diqqətə alarsaq, görərik ki, özlərindən asılı olmayaraq olayların ardıca düşür və keçmişdə olduğu kimi islam rejimi qarşısında quyruq bulamağa qalxışırlar. Onlar üçün hər fürsətdən yararlanaraq, bir addım belə olsun hakim fəqihlərə yaxınlaşmaq artıq bir stratrjik plan olmuşdur. Bu quruplara görə, İran adlanan ölkədə milli məsələ bir fürsət olaraq qullanılır. Baxmayaraq ki, bu qurupların içində bulunan bir çox Azərbaycan Türkü də vardır. Ancaq solçu dünya görüşündə milli sorunun alt qatlarda yerləşdiyinə görə, bu soydaşlarımızın da qafa düzənində ulusal kimlik bilincinin alt qatlarına rastlamaq mümkünsüz görünür. Örnəyim Əlireza Nabdeldir. O, Şah rejiminə qarşı silaha sarıldı. Şovenist rejimə qarşı qanının son damlasına qədər döyüşdü. Çirik olduğuyla yanaşı bir milli insan kimi də tanınırdı. Bu haqda İranda

---

[348] Bu qurumun mərkəzi orqanı"KAR„/İŞ/nəşriyəsinin 25 may 2006 sayından alınmış və farscadan çevrilmişdir.

Milli Məsələ adlı bir kiçik kitabca da yazdı. Bəlkə də Səməd Behrəngi və Beruz Dehqani kimi vətən sevər səngərdaşlarıyla yaxın olduğuna görə, ortaya qoyduğu yazıda Azərbaycan sorununu teorizə etməyə çalışarkən yalnız ADF-nin çərçivəsində qaldı. Sözsüz ki, Nabdel (Oxtay) kimi dəliqanlı və qorxmaz birisinin dünya görüş çatışmamazlığı olmasaydı, İran adı altında verdiyi canını öz ana vətəni uğrunda sevə-sevə verərdi. Oxtayların vətən üçün sorun daşıyacağı yerinə böyük yotopiya peşində can verməklərinin ən təməl kökü düşündüyü ideolojidən idi.

**A.5:** Özlərini İran-İslam tipli Sosial-demokrat kəsim kimi sunmağa çalışan "Xalq Mücahidləri, Respoblikaçılar,..."

Bu qurupun ən tanınmış örgütü "İran Xalq Mücahidləri Təşkilatı"dır. Siddətlə santralçılığa meylili olan bu qurumun liderliğinə görə, Azərbaycan məsələsi etnik sorunundan daha çox siyasi sorundur. Mücahidlərə görə, mərkəzi hakimiyyətlə Azərbaycanın arasındaki qarşılıqlı inamsızlığa son qoyularsa bu sorun həll olar. Ancaq Molla Rejimi belə elmə və demokratizmə sahib olmadığına görə, bu problemin həlli yalnız Mücahid dövləti əlilə çözülə bilər! Bu qurumun yaranmasında ulusal kimlikcə Azərbaycan Türkləri olan Məhəmməd Hənifnəjad, Musa Xiyabani, Mehdi Əbrişəmçi kimi soydaşımızın baş rolu olmuşdur. Buna baxmayaraq, mücahidlərin ilk başdan marksist və islam ideolojisi etgisində qalmasıyla yanaşı şiddətlə irançı örgüd olmaları özünü göstərdi. Bu qurumun 40-illik bəlgələrində bəlkə ən az rast gələn qonu milli məsələdir. Başqa anlamla desək, bu qurumun demokrasiyanın ən ilkin şərti sayılan insanların ana dilinə baxışı eyni hakim şovenist rejim kimidir. Son illərdə bu qurumun gövdəsindən qopan bir çox Azərbaycan Türkünün ən başda gələn etirazlarından birinin onların ana dilinə olan sayğısızlıq olmuşdur. Örnək olaraq, İraqda yerləşən Əşrəf şəhərciyində toplu olan yerlərdə rəsmi dil(örgüdün yasal dili) Farscadır. Bu, o deməkdir ki, beşi Türk olan altı kişilik bir toplamda Türkcə danışmaq yasaqdır. Ancaq, Fars dilli olmayan yerdə Türklərin Türkcə danışmasına yasaqlıq yoxdur! Bu yazılmamış yasadır. Qurumdan ayrılandan sonra, uzun zaman gözə görünməyən bir şərəfli vətəndaşımızdan bu haqda sordum: "Mən Almaniyada fürsət bulub, Sazemandan uzaqlaşma qərarı aldım.

Xəstəliyimi bahana edərək sorumlu şəxsə xəbər verdim. Bir neçə həftədən sonra, mənim istəyimin olumsuz olduğunu eşitdim. Irağın Əşrəf şəhərində sakin olduğuma görə, özbaşına davrana bilmərəm sözünü aldım. Bu haqda kimsəyə zərər vermiyəcəyimə əmin etməyə çalışsam da sonuc alamadım. Əşrəfdə, milli haqlarımın nədən tanınmadığına etirazlarım olmuşdur. Bu haqda bir neçə dəfə cəzalansam da, bu haqlı istəklərimin bir gün mənə qarşı suç sayılacağını heç düşünməmişdim. Sazemana görə, mənim ayrılmaq istəyimin başlıca nədəni kor irqçılığa tutulduğum və PanTürkist olduğum idi. Sizi inandırıram, ilk kəz panTürkist sözünü özü də Türk olan rabitimdən öyrəndim. Mənim kimilər bu qurum içində çoxdurlar. Onların qurum içində yavaş-yavaş əriməlerini özləri belə bilməyirlər. Qurumum içində kürdlərə olan ilgi daha dəyişikdir. Kürdlərin hər baxımdan başqa millətlərə (Farslardan sonra) üstün olmaları göz qamaşdırıcıdır. Sanki, onların indidən federal yaşamaqlarını M. Rəcəvi qəbul etmişdir."

M.Hənifnəjadın,M.xiyabanının və bir çoxlarının silahlı toqquşmalarda ölməsilə liderlikdə oturan M. Rəcəvi,1360-cı günəş ilində Mücahidlərin liderliyində olan "Ulusal Dayanışma Şurası"nı yaradır. Bu şuranın etniklərə baxışı yalnız bir maddədə əks edilir. Bu madəyə görə, Kürdüstanın verdigi mücahidətlərə qarşın, şura dövlətində İran içində olan otonomi idarəçiliyi vəd edilir.[349]

Sözsüz ki, bu qurumun da hakim islamçı rejim kimi İran adlanan dövlətçilik sistemində yaşayan millətlərə olan ortaçağ baxışının təməlində qatı islamçı dünya görüşü yatmaqdadır. Son zamanlarda Avrupa və Amerikanın gözünə girmək yolunda bir gecədə belə, stratejik dəyişimə girməyə hazır olan bu qurumda yeni şüarlara rast gəlmək olur. Örnəyim laik və skolar sözləridir. Rejimi məzhəbcil faşist adlandıran və Mücahid dövlətində millətin skolar yaşamına söz verən M. Rcəvinin bütün çıxışlarının önü və sonu Qur`an ayələrilə başlayır və sonlanır. Bu qurum tərəfindən "İran Cümhurbaşqanı" adlandırılan Məryəm Azanlu (Rəcəvi) Azərbaycanda olan ulusal hərəkətlərə edtigi barmaq sayda işarələrin birində 1387.02.11- inci günəş ilində Təbrizin Səhənd Bilimyurdundaki

---

[349] *İran Xalq Mücahidləri Təşkilatı, sənədlər, Kürdüstan üçün otonomi planı.*

geniş etirazlara qarşın öz himayəsini bildirərək etirazların milli kimligini dəyişdirməyə çalışır və onu irançı bir hərəkət kimi dəyərləndirir. Qıssası Azərbaycan milli hərəkatı üçün “İran Xalq Mücahidləri Təşkilatı” ən təhlükəli və geniş miqyaslı düşmən görüşlü qurumdur. Ancaq Azərbaycan milli–qurtuluş dirçəlişinin gündən-günə genişlənməsilə bu qurumun içində bulunan bir çox Türk soydaşımızın qurum içində vəya dışında baş qaldırıması da qaçırılmazdır.

**A.6:** Rakidal solçu kəsim “Fədayi Əqəliyyət qurupu, Kommunistlər,**...”**

Bu qurumların fəaliyyət alanı Batı salonlarına və bəzən küçələrinə özəldir. Bu qurumlar içində fadayi (Azınlıq/Əqəlliyyət) ən yumuşaq və ifadə anlamıyla toleranslı, özlərini isə İran Kommunist Partiyası və İran İşçi Kommunist Partiyası adlandıranlar isə, ən radikal quruplardırlar. Bu quruplar içində ifratçı antiTürk baxışı hakimdir. Bunlar Azərbaycan milli hərəkatının hər hansı istəyini panTürk istəyi olaraq nitələndirirlər. Onların içində bulunan Azərbaycanlılar isə bu qurumun dünya görüşü etgisində qalaraq şiddətli milli kimlik yoxsunluğu içindədilər. Belə ki, hər hansı millətçiliyi inandıqları kosmopolitizmin düşməni hesab edərək, sonunadək onunla savaşmağı özlərinin ən üstün borcu sanırlar. Bu qurumların milli məsələyə baxışlarında Təbrizli T. Əranının böyük rol sahibi olduğu bəllidir. Bunlara baxmayaraq, bu qurumların nə millət və nə aydın elit içində yerləri yoxdur. Və yalnız öz xulyalarında yaşam sürürlər.

## İran Mərkəzli Azərbaycanlı qrupun alt yapıtları

### B.1: Klasik (İrançı) Türk milliyyətçi kəsim “ Varlıq Dərgisi,...”

İranlıyam, iranlıyıq, iranlı olaraq qalacayıq dediklərilə yanaşı son 30-ildə Türklüyün dirçəlməsi uğrunda ən öznəl etginliyə sahib qurup olmuşdur. İstər müarif, istər yaşam, kültür, ekonimik, politik v.b. alanlarında öz toleranslı sürəcilə tanınan bu ulusal sürəcin ən aparıcı

kimliyini Varlıq Dərgisində bulmaq olar. Tanınmış cərrah, aparıcı el ağsaqqalı Prof. C.Heyət cənablarının başçılığıyla 30-illik fəsilnamə kimi yayılan Varlığın ulusumuzun boşluq dövrundən[350] sonrakı intibahında dərin izlər buraxmışdır. 1979 devrimindən sonra Bakıdan Tehrana köçmuş olan Prof. Bəydili, Məhəmmədzadə kimi alimlərlə, birlikdə Türkiyənin Türkçülük məktəbindən etgilənmiş Dr. Nitqi kimi bilgin kəsim və Dr.M.Fərzanə kimi intibahçı araşdırıçılar və şairlərlə birlikdə zəngin ulusal varlığı ortaya qoydular. Yaş, sosial yerləşim, Azərbaycan dışında yaşam, siyasi inamsızlıq və çeşidli düşüncə alanı bu qurumun İranlılıq üzərində dayanmasında etgili olmuşdur. Nə yazıq ki, bu etgi zaman-zaman hər hansı nədən üzündən milli-siyasi boyud alaraq Varlıq dərgisinin səhifələrini milli dirçəlişimizin əleyhdarına çevirmişdir. Örnək olaraq sadəcə bir qonuya işıqlıq gətirirəm. Dr. C. Heyət, “Soxəne Ruz/ Günün Sözü/” adlı yazısında deyir: “Bizim atalarımız iranın istiqlalı üçün özünü özgə sanmadan Osmanlı Türk hakimiyyətilə, Üzbək Türkləri, Monqullar və habelə ruslarla savaşarkən yüz minlərəcə şəhid veriblər. Biz, iranı özlərininki bilən, onun uğrunda Azərbaycan, Xurasan, Xozistan bilmədən sınırlarından müdafiə edən, basqıçı düşmənlər qarşısında savaşaraq iranın istiqlalını öz qanları ilə netləşdirən və əbədiləşdirənlərik. Biz özümüzü o insanların varisi bilir, iranı özümüsünki, özümüzü isə irandan bilirik.”[351] Həmin yazar baçqa bir yerdə yenə yazır: “İranı sadəcə Fars dillilərinki sanan aşırı millətçilər üçün ayrımçılıq və Türk dilli Azərbaycanın irandan ayrılması bir o qədər də, dərdli saylmaya bilər. Ancaq, bu bizim üçün bütün dərdlərin ötəsində olan ən böyük faciədir və onun can yandırın dərdini duymaq belə mümkün deyildir. Bizə görə, onu xəyal etmək belə xəyanətdir. Belənci şum və bədbəxt düşünən xayınlərinin bizim aramızda yerləri yoxdur. Biz, beləliklə bütün vətəndaşlara deyirik ki, heç bir zaman, Azərbaycanın İrandan ayrılmasını istəməmişik, istəmirik və istəməyəcəyik. Çünki, birincisi, özümüzü İranlı və irandan sanırıq. İranın bir parçasını deyil, bütününü özümüzünkü bilirik. İkincisi, ayrılaraq Arazın o tayındaki 6-milyon Azəri ilə birləşmə ehtirası yaranarsa, bu işin sonucunda İranda yaşayan 17-milyonluq Azərinin və iranlı Türk

[350] (1946-cı ildən 1979-cu ilədək bir bölüm ədəbiyyat və müarif alanlı çabalar dışında Güney Azərbaycanın milli kimlik dirçəlişi üçün susğunluq və boşluq dövranı olmuşdur)
[351] Varlıq dərgisi, 14.cü il, sayı 86-3, ili 1371 günəş ili, s4.(farsca yazı).

dillilərinin ayrılmasına nədən olacaqdır. Belə olan durumda, Biz, bütünü Tehranda yaşayan Varlıq dərgisinin yazarları olaraq hər iki Azərbaycandan ayrılacayıq.„[352] Sözsüz ki, Varlıq dərgisinin vaxtaşırı bu turlu milli-siyasi açıqlamalarının arxasında İran islam şovinizminin basqısını unutmamaqla yanaşı, bu dərgidə hakim olan mühafizəkar iraniliyi də gözdən qaçırılmamalıyıq. Varlıq dərgisinin ilk illərdəki sürdüyü siyasətdə islam rejiminə inanmaq, onun mərhəmətlərinə ümidvar olmaq aşıb-daşırdı. Bu isə, istər-istəməz o zamanlarda basğıçı rejimin bütün vəhşiliyinə qarşı dirənən millətçi gənclərdə böyük xəyal qırıqlığı yaradır və qurtuluşçu gəncliklə iranlıyam diyən Varlıqçılar arasında uçurum yaradırdı. Lakin zaman irəlilədikcə, Varlıq dərgisinin davranışları da dəyişərək özgürləşir və gənclər sarından mənimsənirdi. Təbi ki, bunun ən açıq nədəni isə, Azərbaycanda gedən milli savaş olmuşdur. Varlıq kəsiminin iranlılıq və iran mərkəzlilik meylinin Türk düşüncəli olması da işin ən ilginc tərəfidir. Bu qurumu başqa federalçılardan ayıran kimlik məhz bu qurumda olan Türklüyə üstün inamdır. Sadəcə bu inamın siyasi yöntəminin iranlılıq təməlində dayanması üzündəndir ki, Varlığın milli durağının harda olmasını soru altına salır. Bu üzdən, milli ideyasının bütün olumluluğuna baxmayaraq Varlıq dərgisini İran Mərkəzli cərgənin içində yerləşdirir. Varlıqdan ortaya qoyulan İran Türklüyü tablusunda ən son Qacar Türk dövlət formolu qaçırılmaz görünür!

**B.2:** Milli Müarifçi Türkçü kəsim “Dilmanc dərgisi,...”

Dilmanc dərgisi və buna bənzər qurupların Varlıqla olan fərqi çox azdır. Bu iki millətçi kəsimi bir-birindən ayıran nöqtə ikincisinin milli-siyasi kəsinliyidir. Varlığın 30-illik sürəcindən ən az yer verən siyasal yöntəminin tam tərsinə olaraq Dilmanc bu qonuda fəal olmasıdır. Dilmancın net bir şəkildə etniksəl federalizmin qaçırılmaz olduğunu önə çəkməsinin ən böyük nədəni çağdaş Azərbaycan ulusal hərəkatıyla yaşdaş olması və bu hərəkatın gündəmi içində bulunmasıdır. Başqa anlamda desək, Dilmanc Varlığın siyasiləşmiş dəvamçısıdır. Dilmancın milli-siyası tanıtımının özülündə soldan və sağdan bütünlüklə arınmış olan

[352] Varlıq dərgisi, 14.cü il, sayı 86-3, ili 1371 günəş ili, s6.(farsca yazı).

Azərbaycan Türklüyü dayanmaqdadır. Bu önəmli kəsimin düşüncə alanı böyük üstünlüklə Türklük fəlsəfəsinə dayanır. Ancaq, tam anlamıyla yön bəlirləməsi aydın deyildir. İranlıyam, iranlıyıq, iranlı olaraq qalacağıq sözünü Varlıq kimi net dilə gətirməsə də, Azərbaycan Mərkəzli Türkçü düşüncə çətirindən aralı olduğu bəllidir. Sözsüz ki, çalışma alanının işğal olunmuş G.Azərbaycanda olmasının bu kəsim üzərində böyük etgisi vardır. Sürəcin dərinləşməsilə bu kəsimə yaxın düşüncə axarlarının da, dərin millətçi forma alması və bu ilşgidə milli-siyasi yöntəm dəyişmələri qaçırılmazdır.

**B.3:** İki Standardlı Az.milli kəsim " Şəms Təbriz qurupu, Günəş Partiyası**...**"

Bu qurupun milli-siyasi duruşunu dışarıdaki solçu quruplardan fərqləndirən əsas nədən plüralizm və içəridə olduqlarıdır. Ulusumuzun ulusal alanını ilgiləndirən bütün olaylarda yaxından ortaq olan bu kəsim, vaxt aşırı olaylara ağırlıq qoymaqla yanaşı, ən ağır həzinələr verməyidə özə almışdır. Əslində, bu qurumun Azərbaycan Milli Hərəkatında rol sahibi olmasını kimsə dana bilməz. Ancaq, bu rolun böyük alanda olumlu olmasıyla yanaşı olumsuz yönlərini də dartışmaq çox önəmlidir. Sözsüz ki, Şəms Təbriz qəzetəsinin Azərbaycanın yeniçag savadlaşmasında unudulmaz rolu vardır. Ümidi Zəncan, Nəvid Azərbaycan və Şəms Təbriz kimi güneyin gündəminə yamsıyan yayınların təkcə güneydə deyil, Farsistan və dışarıda yerləşən güney diasporuna verdigi bilgilər, güney yöntəmləri və ulusal dəyərlər yayımı heç maddı ölçüylə qiyaslana bilməz. Bu xidmətlərin araşdırılması, söz qonusu olmadığına görə, yalnız dərin bir sağolsunlarla sözümüzü dəvam edirik.

Bu kəsim nədən iki standartlıdır? Sözsüz ki, hər hansı milli-siyasi araşdırmadan öncə, bu kəsimin Güneydə və İran adlanan dövlət sisteminin basqılı durumda olmasını gözə almaq gərəkir. Ola bilsin ki, həmin mülahizələrə dayanaraq bu kəsimin İran Mərkəzli Sistem içində yerləşdirilməsi doğru görünməsin. Hətta, bə`zilərinə görə, bu kəsimin Azərbaycan Mərkəzli düşüncənin tam da göbəyində olması onaylanmalıdır. Təbii ki, bu görüşləri də göz ardı etmək düzgün deyildir.

Ən azı buna görə ki, bu kəsimin dərin millətçi ideolojiyə sahib olmadığına baxmayaraq Güneyin milli müarifçiliyindəki yüksəlişdə verdigi çaba böyük olmuş və milliyətçi kəsimin yaranmasında rol oynamışdır. Təbriz qəzetinin faşizm hücümüna uğramasıyla, hızla başlayan internet sitəsindəki radikalizmin get-gedə yavaşlamasının özülü kəsimin müarifçilikdən daha çox İran gündəliyinə yer verməsi də tə`sirsiz olmamışdır. Bu kəsimin qəzetəçiliyilə netçiliyini tutuşdurarkən öncəkidəki ulus havasının sonraki da İrançılıq içindəki siyasallığını aydınca görmək olar. Sözsüz ki, bu dəyişim bir gün vəya bir gecə işi deyildir. Günəş Partiyasının sayın qurucusu, tanınmış dəyərli insanımız, ustad M. Əzizinin üzün zamanlı milli mücadiləsi və daşıdığı sol yönlü düşüncəsi, sayın H. Ərk kimi qələm sahibləri və Ə. Hamid kimi milli xadim və düşünürlərin bilincaltı düşüncə axarının özülündəki gərəksiz bir İranlılıq sevgisi yerləşməkdədir. Bu qonularda olan çoxlu örnəklərə dayanmaq olsa da, Ə. Hamid İman imzasilə olan yazıya bir işarətlə bölümə son verirəm. Lütfən bu yazıda gələn ikili standartlığa diqqət edin. Böyük alfabetlə yazılan sətirlərin yazılma gərəgi nədir? Mən Hamid bəyin qorxaq olduğuna inanmıram. O, öz qorxmazlığını bütün milli-siyasi davranışlarında qanıtlamış adamdır. Məncə, belə ikili davranışın altyapısında iranlılıqla Azərbaycanlılıq bəlirsizligi yatmaqdadır. Sayın Hamid İman yazır: “Biz köksüz millət deyilik. Bizim kökümüz bu rahatlıqda aradan qaldırılmaz. Bir millət vəya qovm bir gecədə, bir nəsildə, hətta neçə nəsildə yaranmaz, kimlik qazanamaz. Millət nəsillərin ardıcıllığından yaranan və bitişik tarixin toplamıdır. Bizi keçmişdən ayıran və keçmişlərlə bizim aramızda dərin dərələr açan zamandır. Bizim millətimiz bu dərənin doldurması yolunda irəliləyir. Millət, öz kimliyinə qayıltmaq istəyir. Millətimizə vurulan hərhansı xəncər yarası belə, bu inam körpüsünün qarşısını almağa qadir deyil. Bizim millətimiz bu qorxunc dərəni aşaraq öz keçmişilə tanış olmaq istəyir. Artıq, hər hansı xəncərin bu ilşgi ipini qırmağa gücü yetməz! Xəncərləri gizləyin! CÜNKİ, BUGÜN YARA VURMAQ DEYİL, YARA SARMAQ GÜNÜDÜR. BİZ HAMIMIZ BİR MİLLƏTİK. BİR ÖLKƏDƏYİK. BİZİM DƏRDİMİZ SİZİNKİ, SİZİN DƏRDİNİZ İSƏ BİZİMKİDİR. BÜTÜM İRAN MİLLƏTİNİN DƏRDİDİR. GƏLİN BU DƏRDİ SARAQ.”[353]

[353]*(Xəncərləri Gizləyin/ farsca məqalə/.Hamid İman, Şəms Təbriz qəzeti, say 95, il 2000*

**B.4:** Federalçı Sol kəsim " ADF-çilər, Azərbaycan Federal Demokrat Hərəkatı, Federal İran Konqresi, Azərbaycan Sosialist və Kommunistləri,**...**"

Güneyin milli-qurtuluş sürəcində öz damğası və imzasıyla etginlik daşıyan Varlıq və  Dilmanc kimi Türk ulusçu kəsimlər ilə ölkə dışında "federalçı sol kəsim" olan soydaşlarımızı bir sıra altında yerləşdirmək, bu kəsimlərin eyni qurupda olması anlamına gəlməz. 1979 devrimindən sonraki basqı illərində ən ağır duruma düşən aydınlar arasında klasik solçu quruplara bağlı olan bir çoxlu vətəndaşlarımızda olmuşdurlar. Başda Tudə partiyasının əsas başını çəkənlər olmaqla bir çox solçu liderlər islamçı rejimin tuzağına düşərek islamçı televizionda özlərinin və bağlı olduğu örgütlərin siyasal kariyerinə son vermişdirlər. N.Kianuri, E.Təbəri, F.Negehdar kimilərin Xomeyni liderliyinə tutulmaqlarıyla inandıqları Marksism ideolojisini dərin kimlik böhranına itələmişdirlər. Bu olaylar sürəcində, ideolojik və siyasal böhrana uğramış bir çox siyasi mühacirin Avrupa və Amerika yaşamı başlarkən yoluxlanmış ideolojik böhran daha da yeni boyudlar almışdır. Bu soydaşlarımızdan bir çoxu uzun zaman olumsuz etginlik içində qalaraq iki standartlı kimlik daşıyıcısı olmuşdurlar. Bu solçu kəsimin həmin ikili standartlı olması milli baxışlarına da sıçrarkən dünya görüşlərini ikiyə bölmüşdür. Bir yandan vətənin, millətin, milli irsiyənin və vətəndən uzaqlıq dərdi gündən-günə onların da üzərinə ağırlıq etmiş, başqa yandan isə, inanc və qudsal sandıqları keçmişdən qopamadıqları üçün iki yol ayrıcında qalmışdırlar. (Sözsüz ki, sol milliçilərin hər halları özəl haqq sayılaraq basqıdan uzaq qalmalıdır. Ancaq, Azərbaycan Milli Hərəkatının durumu söz qonusu olunca, bu qurumun iki standartlı davranışları göz ardı edilməzdir!) Təbii ki, AMH-nin son zəmanlardaki dirçəlişi və kəsin bir liderlik qapsamına girməsinin də, bu kəsim üzərində böyük təsiri olmuşdur. Bu çox sevindirici haldır. Milli hərəkat millətin bütün evladlarına aidir. Milli səfərbərlik olmadan milli sonuca varmaq olmaz. Bu danılmaz gərçəkdir. Başqa gərçəklik isə ulusal yönün düşüncəsəl və politik anlayışını doğru həyata keçirməkdir. Sol düşüncənin ulusal kimlik məsələyə baxışındakı çalarların təməlində kəsinliklə ideolojik qarmaqarışıqlığı dayanıbdır. Bəzilərinin iddiasına baxmayaraq,

---

*/Günəş ili 1379, 17-isfənd/)*

bu qonuyla bağlı hər hansı siyasi strateji vəya taktikadan söz gedə bilməz. Sorun biçim çeşidliyi deyil, biçimə baxış bulanıqlığındadır. Bu bulanıqlıq istər Məşrutə illərində Heydərxan Əmoğlu, Talibov Təbrizli, H. Təqizadələr əlilə özülü atılmış və M.Ə. Rəsulzadə kimi adlımlar tərəfindən dəstəklənmiş İran Demokrat Partiyasında, *"Cənubi Azərbaycanın şəhər və kəndlərini gəzir, öz doğma xalqının acınacaqlı vəziyyətini yaxından müşahidə edir. Bu müşahidələr sonralar M.Ə.Rəsulzadənin ədəbi yaradıcılığında təsirsiz qalmır. Məmməd Əmin Rəsulzadə Avropa təhsili görmüş bir qrup İran ziyalısı (Seyid Həsən Tağızadə, Hüseynqulu xan Nəvvab, Süləyman Mirzə, Seyid Məhəmməd Rza v.b.) ilə birlikdə 1910-cu ilin sentyabr ayında İran demokrat partiyasının əsasını qoyur. O, bu partiyanın əsas orqanı olan "İrane Nou" və "İrane Azad" qəzetlərinin baş redaktoru olur."*[354] istər Təbriz Gizli Mərkəzində (Merkəze Qeybi) vəya M. Xiyabanı və C. Pişəvərinin başçılığındaki Demokrat Firqələrində olsa belə, bir siyasi böhranından daha çox ideolojik bulanıqlıqdır. Bir-birinin ardıca gələn və öz yenilgisilə ulusumuzun yüksək düşüncə alanını daraldan bu son yönlü axınların hardasa bütün ilkin təsiratı sosialist tezistlərilə ölçülmüş və dəvamlı olaraq ölçülməkdədir.

Atalar demişkən "Görünən kəndə, nə bələdçi!". 1993-cü il Təbrizdə, Azərbaycan Fədayı Təşkilatı"nın liderlərindən olan Ərdəbilli dostum Qulam,la[355]bir solçu örgütlənmə haqqında danışırdıq. Bu solçu quruluşun amacı gizli olaraq istiqlal, amma hələlik federal İran içində özgür Azərbaycan idi. Hələ də, həmin düşüncənin daşıyıcısı olaraq tanınmış bir ortaq dostumuzun bu siyasət üzərində dayanması, Qulamla mənim aramda olan söz qonusu idi. Həmin görüşdə, özüdə solçu olan Qulamın çox anlamlı bir sözünü sizinlə paylaşmaq istərdim. O şəhid dostumuz deyirdi: *"İstər pişik kimi, öz peysərimizi tumarlayıb, mışıl-mışıl uyalım, istər papağımızı qarşıya qoyub dərin-dərin düşünəlim. Hər iki durumda, zaman ildırım kimi şaxıb yaxacaq bizi! Uyarsaq, harda yaxıldığımızı bilmədən yaxılacayıq. Ayıq olarsaq, ən azından başımıza gələnləri bilərək yaxılacayıq!"*.

---

[354] *(www-Resulzade.org/heyat.html)*

[355] (1996-ci ildə, şovinist düşmənin amilləri əlilə Ərdəbildə ailəsilə birlikdə bələdiyənin buldozeri altında qalaraq şəhid oldu.)

Dedik ki, sorun siyasi baxış yox, bəlkə ideoloji və dünya gürüşüdür. Solçu arxadaşların dünya gürüşündə olan kosmo politizim sevgisinin aşırı sıcaqlığını göz ardı etmək olmaz. Sadə bir anlamla desək, bu soydaşlarda olan demokrat Fars qardaşlığı şamla kəpənək hikayəsi kimi əbədi sevdaya dönüşmüşdür! Ya, bu aşırı dünya sevgisini buraxıb bütün enerjilə Millətdə, Vətəndə həll olmaq gərəkir və ya "bu duvar mənim, o duvar sənin!" hikayəsilə orta duvar arzusunda baş ediləcəkdir. Örnəyim, Güneydə baş verən ulusal dirçəlişin yanı-sıra bu arxadaşlarında ulusçudan daha aşırı Türkçü olmaqları, mərkəz hakimiyyətə qarşı olan qalxışlar zamanı isə ən xoşgörülü anlamla desək İran Xalqılarını!? Rejimə qarşı birləşməyə dəvət edirlər. Bu arxadaşlar, Azərbaycanın düşməninin siyasal düşmən deyil, ulusal düşmən olduğunu qəbul etmək istəmirlər. Elə məhz bu üzdəndir ki, sol düşüncənin axarı istər-istəməz iranlılıq yönü tutur. Var olan faktlara dayanaraq, bu qurumların bugünkü düşüncə axımının yönü bir mənalı olaraq İranlılıq kimliyi üzərində dayanmaqdadır. Yarın nə olacağına kəsin gözlə baxılamaz diyə düşünürəm!

## Etnik Federalizm və İranlılıq

"Öncə hakimiyyət dəyişməli, Federal İran qurulmalı, sonrasına baxalım!" Bu düşüncə, ap-aydın təqlidçilikdir. Ancaq, bu kəz mərc`ə insan deyil, batı demokratiyasıdır. Qulağa xoş gələn bu tezin faiil dünyasına baxaraq onu öz bölgəmizlə tutuşduralım. Öncə arzu olunan Amerika, Almaniya, Kanada, Avestria, Belçika v.b. federal ölkələrini İran adlanan ölkənin dövlət və toplum durumuyla tuşlandıraq. Adı çəkilən ölkələrin federativ sistemləri gənəl federal sistemidir. Bu sistemə görə, mərkəz dövlətdən özgür bölgə dövlətləri öz yaşadığı yerlərin yerli hakimiyyəti sayılır. Dış və gənəl politik, para, ordu v.b. dışında otonomi hakimiyyətlər demokratik formda federal dövləti idarə edir. Bu federal sistemlərdə Etnik sorun yoxdur. Çünkü, kəsin çoxunluğu oluşdıran dövlət idarəçiliyi vardır. Olsa da, çözülməz görünməyir. Kanadada fransız dilli Kebeklərin talei refrandomlara buraxılıbdır. Bu isə, həmin çərçivədə öz həllini tapacaqdır. Başqa ölkələrin də durumu az-çox eynidir. Amma arzu olunmayan federal

sistemləri də vardır. Rusia federal dövləti, Çin xalq cümhurisi, dağılmış Yoguslaviya federalizmi, Hindustan federal dövləti də federal dövlətləridir. Komünizm sistemi ilə idarə olunan federativ dövlətlərin kötü bir federal sistemi olmasını federalçılardan kimsə anımsamaq istəmir. Federal örnəyini İran, İraq, Əfğanistan kimi sosial problemli ölkələ üçün Batı tipli deyil Doğu tipli olması gərəkir. Belə ki, bir aparıcı etnikin etginliyində qalan federal paylaşımın altında başqa etniklər səssizcəsinə darma-dağın olacaqlar. Çin,də federal Sincan dövlətinin altında inləməkdə olan 30-milyondan artıq olan yerli Uyğur Türkləri və Çin şovenizminin soyqırım siyasətindən canlarını götürüb 10-milyonlarca Türk soydaşlarımızın dünyanın hər yerinə səpələnməsi federal örnəyi deyilmi? Vəya, Rusiya federal dövlətində az qala yox olmaqda olan Qıpcaq, Tatar, Uyğur, Qazan, Maxaçqala, Axısqa v.b. Türklrin, İnqoş, Çiçen, Dağlı v.b. xalqları etnikcə əriməsi federal sistemində olan sürəc deyilmi? Keçmiş federal Yoguslaviya haqqında nə deyir federalçı soydaşlar? Son illərədək dünyanın 90% insanlarının bilgilərində həkk olunan bir Yoguslaviya ölkəsi və onun etnosistik durumu kimi tanınan yalnız Serb milləti var idi. Əgər serblərin federal işğalı 100-il də sürseydi, kim bilirki, bu millətlərin sonu nə ola bilərdi! Çox ehtimal ki, Bosnaklar, Makedonlar, Albanlar, Qaradağlılar, Kravatlar, Slovanlar adlı etniklərdən iz-toz qalmazdır. Tutalım bölgənin və dünyanın ən özəl demokrasiyası olan Hindustan federal dövlətini! Camu və Keşmirdə federal dövlətin hərbi gücü altında zorla Hindləşmə asimilasiyasına məruz qalan dünyanın ikinci müsəlman cəmaəti və etnikcə hindu olmayan Keşmir və Camu toplusunun inləməsi qulaqları incitməyirmi? Nədən federal sistemini İran xalqlarına(!?) ərməğan etməyə çalışanlar bu sonucları görmək istəməyirlər. Yoxsa ortada bir möcüzə var biz a`milər bilmirik!

İran adlanan dövlətçilik sisteminin başlıca problemi tək etnikçilikdir. Qacar sülalə dövlətinin çöküşündən günümüzədək çeşidli formlarda aydınlıq hərəkatında gündəmə gəlməsinə əngəl olan Fars aydınlarının antıTürk niyyətləri zaman-zaman üzünü göstərmişdir. Fars aydını Türk düşünürünün tam tərsi olaraq etnik eşidliyində ikinci dərəcəyə düşməsini düşünür. Fars düşünürü əlinə keçirdiyi hakimiyyətin bir daha buraxmayacağını düşünürkən etnik sorununun gündəmə gəlməsinə əngəl

olmaqdan başqa yol bulamayır. Bu davranış sistemi 100-ilə yaxındır dəvam edir. Bundan sonra da sürəcəkdir. Çünkü, Fars aydını dərin antidemokratlıq çağındadır. O, özünü bölgənin lideri sanır. Ona görə, Fars geni (Aria geni?) taysız və arıdır. Bu Fars aydınının çoxunluğunu bürüyən bəladır. Bə`zi Fars aydın kəsim bunu açıqcasına deməyə cəsarət tapır, bəziləri isə, bu gizli xəstəliyi sinif, din, liberal, demokrat örtükləri altında sümürməyə çalışırlar. Son zamanlarda yuxarıda adı sadalanmış sol qoruplarından tütmüş sağ səltənətçilərədək millətlərin ulusal haqlarından danışmağa başlamışdırlar. Çox qəribədir ki, millətlərin canını Farsçılıq zindanında əsarətə tutan dünənki  Farsçı faşistlər bir gecənin içində millətlərin özgürlük qəyyiminə çevrilmişdirlər. Onlar, Azərbaycan Türklərini qan içən islam rejiminə qarşı savaş meydanına çağırır və qələbədən sonra ona federal dövlət bağışlayacaqlarına söz verirlər. "Öncə hakimiyyət dəyişməli, federal İran qurulmalı, sonrasına baxalım!" sözünə inanan özümüzdən olanlarsa "ölüm olsun mollalara" diyərək dünki qatil düşmənlərlə bir sırada yerləşirlər. Heç demokratiya yaşamamış bir ölkə üçün siyasal demokratiyanın ən üstün formasını tezist olaraq ortaya qoymağın anlamı böyük daş deyilmi? İran adlı böyük sorunun çozümünü onu yaşatmaqda axtaranların dərdi nə ulursa-ulsun iranlılıq dərdidir. Bu formulun ortaya qonulması yalnız İran adlanan coğrafiyanın ömrünü uzatmaq deməkdir.

Sözsüz ki, federalizmin bir siyasal taktika olmasını savunanlarda az deyillər. Bu soydaşlarımızın düşüncəsinə görə, belə taktiklə həm millətimizin qorxusunu alacayıq, həm başqa millətlərin birgə savaşına zəmin yaradacayıq və həm də ən azından  Farsçı paniranistlərin saparatçı şüarlarını etgisiz edəcəyik.  Belə siyasal düşüncənin altyapısında milli ideyadan, ulusal ruhçuluqdan söz gedə bilməz. Bu, tipik bir materializmdir. Materializm, dinsəllik qədər ulusal düşünceylə biganədir. İkili siyasətləri aydin, şəffaf milli siyasi qurtuluş savaşına üstün tutmaq Azərbaycanın güneyində ideyalcasina formalaşan "Güney Azərbaycan dövlətçilik" düşüncəsinə qarşı daban-dabana tərsdir. Bu tərslik istər  Farsçı vəya Fars aydınları sarından, istər sə, Türk aydınları sarından olsun, sonuc Azərbaycan üçün acı gətiricidir. Ancaq, ÖZ zərbənin acısı daha da dərindir. Kəsrəvilərdən, Əranilərdən, Əfşarlardan, Bayatlardan gələn

darbanın hələ də vətən küksündəki yara bitmək bilməyir. Bu yara nə zamanadək sürəcək?

Milli dövlət[356] sisteminin siyasal forması cümhuriyyətçilikdir. Ulus-dövlət cümhur sistemini oluşduran özül isə, tək ulus dövlətçilik oluşudur. Bu dövlətçilik forması demokratik sistem olma yolunda mütləq xalqçı və laik olmalıdır. Başda aparıcı etnik, hakim olduğu dövlət sisteminin bütün orqanlarını xalqlar paylaşımı durumuna gətirməlidir. Ölkənin çeşidli bölgələrini özək idarəçiliyə daşımalıdır. Mərkəzçi dövlət sistemindən bölgəsəl sistemə girmək üçün sürəcli çalışmalara meyl göstərməlidir.

Burada bir sorgu meydana gəlməkdədir. İran federalizmi içində oluşan Azərbaycan Türk dövlətçiliyi və onun hakimiyyət forması nə kimi yer alacaqdır? Görüntü çox aydındır. İran federal dövlətçiliyi və Azərbaycan milli dövlətçiliyi hər geçdikdə, iki barışmaz rəqib kimi qarşı güç göstərisi yapacaqlar. Ortada olan zorakı quruluş gündən-günə gövdə gücünü əldən verəcəkdir. İki aparıcı (Türk- Fars ) və daha böyüklük stratejisi güdən bir savaşcıl etnik (kürd) və neçə bölgəsəl güc olmaq niyyətində olan etniklər (ərəb, Türkmən, bəluç) öz varlıqları uğrunda daha da sərt ulusçu yolu tutmaq zorunda qalacaqlar. Çünkü, iki aparıcı və çoxluğa malik olan etnik savaşında ən ağır ziyan çəkən kiçik etniklər olacaqdır. İki aparıcı etnik savaşının qalibi kim olursa-olsun möhtəməl olaraq dördlü yol ayrıcı görünəcəkdir:

a) İran adlı coğrafiya bütünlüklə dağılacaq və onun yerinə tanınmış etniklər adına özgür dövlətlər yaranacaq.

b) yenidən şovinist Farsçı dövləti canlanacaq və ulusal etnik güc solacaq, c) Farsçı İran dövlətçiliyi içində yalnız bir otonomi Kürdüstan Əyaləti qurulacaq.

d) İran adlanan bölgədə iki mehvərli İran mərkəzli Farsçı-kürdçü (başqa etnikləri içində boğacaqdır) və Azərbaycan mərkəzli Türkçü dövləti qurulma uğrunda uzun sürəli savaş gedəcəkdir.

Bu dörd varsayım yə`ni, illəri boş xulyalarla yandırmaq və yenidən geriyə dönüşdür. Burada yalnız ehtimal və varsayımlara geçəri toxunduq.

---

[356] ulus dövlət

Hədəf bu qonunun üzərində şişirilmiş dəyər verməк deyildir. Güneydə gedən ulusal sürəc hər gün geçdikcə öz aydın mesajını ortaya qoymaqdadır. Azərbaycan Milli Hərəkatı bütün taktiklərini “Azərbaycan Mərkəzli Türkçü hərəkət üzərində düzənləməkdədir. “Dildə, Fikirdə, İşdə birlik” ritmilə yola çıxan Milli Hərəkatın yoldan sapması və federalçılıq çəmbəri altında iranlılıq duzağına düşməsi artıq mümkünsüzdür.

# 14. BÖLÜM

## Sonuc

### Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sisteminin baxış açısı,

### öznəl və nəsnəl faktlar

**1. Azərbaycan milliyətçiliyinin ruhu Türkçülükdür.**

Çünkü, 50 milyonluq Azərbaycan xalqının mütləq çoxunluğu Türk ulusudur. Türk dili, Türk gələnəyi, Türk tarixi, Türk qiyafəti, Türk torpağı, Türk dini, Türk yenilgisi[357], Türk idmanı, Türk davranışı və Türk dövlətçiliyi Türk əxlağını özətləyən[358] Azərbaycan Türkünün gözgüsüdür. Bu izlər tarix olayları sonucunda ağır zərbələr görsə də, heç zaman tükənərək aradan getməmişdir.

---

[357] uduzması,məğlubiyyəti

**2. Azərbaycanın qorunub-saxlanılmasında Türk fərdiligi böyük rol sahibi olmuşdur.**

Bu millətin tarixi çoxlu qəhrəmanlarla doludur. Bu qəhrəmanların yetişməsində birəy ərdəmin dartışılmaz önəmi olmuşdur. Topluma bağlılıq, yoxsulları yaşatmaq, sivil toplum qaralları üzərində dayanmaq, el ağsaqqalına hörmət bəsləmək, kişi-qadın bilmədən toplumda ən üstün yeri almaq v.b. kimi özəlliklər Türklərin fərdliyə olan üstün baxışlarını ortaya qoyur. Bu üzdən birəysəlliyin bütün Türklərdə olduğu kimi Azərbaycan Türklərində də sosial-siyasal yeri vardır.

**3. 35-milyonluq Güney dövlətinin olmamasının ən dərin çaları ülkü yoxsulluğudur.**

Sözsüz ki, dövlətsiz bir toplumun ulusal yasamına qarşılıq verən ən dərin güc ulusal ülküdür. Azərbaycan Türkünün laik ülküsü düşmən dövlətin din və soy hiləsinə qarşın ən kəsərli silahdır. Millətçi gəncimizin bu yolda verdiyi mücadilə bütün ümmətçi, Farsçı və ərəbçi ideolojiləri param-parça etmək gücünə sahibdir. Təki, Türkün laik ülküsünə dayanmaq bu çətini aradan qaldırılar.

4. **Ulusal İnancın qurtuluş sürəcindəki önəmi söz ardı edilməzdir.**

Bizi, özümüzə bağlayan, iradəmizi poladlaşdıran, gündəm oyunlara qarşı ayıq-sayıq edən, gündəmin yaradıcısını yapan öznəl, yalnız və yalnız ulusal inamdır. Bu inam yaşayırkən Türkə zaval yoxdur.

5. **Bir gərçəyi unutmamalıyıq ki, dövlətsiz toplum düzənsiz və sistemsiz olur.**

Demək dövlətimiz yoxdursa, sistemimiz də olmamalıdır? Amma biz varıq, varıqsa dövlətimizin də olması kəsindir. Dövlətçilik ideasını daşıyan bizlərin ən gərəkli görəvlərindən biri də insanlarımızın düzənə düşməsində etgili olmağımızdır. Bu düzənin başlanğıcı özümüzdən

olmalıdır. Düşüncədə bütövləşmə, ulusallığın ən ilkin özülüdür. Düşüncədə bütövləşmə, millətdə bütövləşmə sürəcini ərməğan gətirəcəkdir. Yalnız belə olan zəmandır ki, Güney Dövlətçilik ruhu bütün yaşamımızı öz fəlsəfəsi çətiri altına ala biləcəkdir. Bu üzdən gənc, öncül və ulusçu Azərbaycan Türkünə ağır yük düşməkdədir.

**6. Yalnız çağdaşlaşmış, millətləşmiş və maarifləşmiş toplumlarda beyin fırtınasına meydan açılar.**

Bu demokratikləşmənin başlanğıcıdır. Farsçı rejimlər hardasa 90-ildir Azərbaycan Türklüyünü beyin fırtanasından üzaqda tütmağa çalısır. Maarifləşmə, bizi üstümizə düşən görəvə çatdırmaq üçün su və hava kimi gərəklidir. Bəlli bir kitabı birlikdə oxumaq, onun üzərində konfrans vermək, bilgilərimizi utanmadan paylaşmaq, ingiliscəni proffesiyonal səviyədə öyrənmək gəncliyimiz üçün vaz keçirilməzdir.

**7. Kütlənin qurtuluşçu-evrimçi əxlağının birlikdə irəliləməsinin qarşısı alınmazdır.**

Milli maarifçilik fəlsəfəsi ilə irəliyə itələnmək, milli üstünlüyə yiyələnmək deməkdir. Yalnız, belə duruma çatınca, içdən özgürləşmə sürəci baş verər. Və yaşamda özgürlük mütləqliyinə inam yaranar. Demək inam mütləqləşərsə, inama qarşı olan dümən də mütləqləşər və özgürlük bunun dışında anlam daşımaz! Burda yenə “Ya kölə qal, olmuş kimi yaşa vəya köləliyə qarşın kəsin düşmən ol, istəyin kimi yaşa! gərçəyi göz qabağında dayanır.

**8. Hər hansı duyğusallıq üzündən tarixi, kültürü, kimliyi arı göstərmək gərçəkdən qaçmaqdır!**

Bizim buna ehtiyacımız yoxdur. Doğrunu doğru, əyrini əyri göstərməklə milli hərəkatımıza düzgün istiqamət verə bilərik. Tərsini yaparaq, milli hərəkatı maarifçilik dışında tutarsaq öz əlimizlə avantürçuluğa yol açmış olacayıq. Milli davranış alanında avantürizmin ən

ufaq belə yeri olmamalıdır. Avantürizmin milli hərəkatımıza vurduğu darba Fars şovinizminin düşmənliyindən daha bətərdir.

### 9. Milli hərəkatın öz simgəsi və özəlliği vardır.

AMH-nın bütün simgə və özəl simvolları birbaşa öz içindən çıxır. Bu üzdən, dığol və taysızdır. Solçular, sağçılar, dinçilər bu simgələri etgisiz etmək yolunda yeri gəlsə belə əlbir olmaqdan çəkinməyəcəklər. Hərəkatın içindən çıxan simgələr dinçi, solçu və sağçı kəsim tərəfindən şiddətlə hədələnməyə uğrayacaqdır. Azərbaycan milli hərəkatının əldə etdiyi simgələrin qorunması böyük bir bacarıdır. Bunu bacarma, irəliləmənin ən böyük qarantısıdır. Örnəyin Bozqurd işarətidir. Solçu kəsimin bu işarəti görəcək gözü yoxdur. Sağçı və dinçilərin də habelə! Bu Azərbaycan Milli Hərəkatının doğru yolda olduğunu göstərir. Yəni, ilk və son kəz olaraq Azərbaycanın milli-qurtuluş yöntəminin Türkçülük üzərində olması eynilə özünü göstərir. Qutlu olsun! Və lakin diqqətli olmaq gərəkir. Çünkü, "Kütlə harda mən də orda" sloğanıyla yola çıxan sollar üçün ulusal hərəkat bir arac olaraq qullanıma gələsi meydandır. Bu kəsim lazim gələrsə bir anda ulusçudan belə bətər, ulusçu ola bilər. Bu üzdən inanılmaz yahatmacıdır bu kəsim! Son illərdə bu olay geniş olaraq Azərbaycan Milli Hərəkatı içində görünməkdədir. Sözsüz ki, bunu bir düşmən olğusu olaraq alqılandırmaq düzgün deyildir. Ancaq milli hərəkatın duru və axar qalması yolunda duyarlı olmaq gərəkir.

Milli hərəkatda hər hansı ideolojik yasağının qoyulması doğru deyildir. Hər hansı ideoloji sahibləri bu ulusal savaşa könül açıqlığıyla qatıla bilərlər. Kimsənin dünya görüşünə görə, hərəkatda olub-olmamasına hüküm vermək olmaz. Bir ulusçu üçün anavətən nədirsə, bir ideoloji yiyəsi üçün də həmandır. Lakin, söz qonusu öndərlikdirsə, bu öndərliyi güclə ortaya qoymaq gərəkir. Demokratik, çağdaş, laik və evrimsəl[359] düşüncə yarağıyla ilə yola çıxan ulusçu Azərbaycan Türkü, öz qurtuluşçu və devrimsəl [360] özəlligilə də Azərbaycan milli hərəkatına yiğə [361]

---

[359] intibahi, təkamüli
[360] inqilabi
[361] yiyə/sahib

çıxmalıdır. Bu hərəkatın dışında olan ideolojik çabaların etgisiz halə gəlməsinin görəvi kəsinliklə ulusçu gəncliyin üzərinə düşməkdədir. Nə yazıq ki, Azərbaycan Milli Hərəkatının qarşısını kəsən təkcə faşist Farsçı rejim yox, həm də qara talelərini ideolojik əsarətilə ikiyə qatlayan soydaşlar da vardır.

### 10. İran adlanan 85-illik dövlət sisteminin altyapısı Farsçı-sağçı olmuşdur.

Bu sürəc içində Azərbaycan Türklüyünə vurulan darbanın sınırı bəlli deyildir. Deməк, İrançı-Farsçı-ümmətçi (şi`əçi siyasal islam) terminlərinin çeşidli anlamlarına baxmayaraq Türk millətinə qarşı qoyulan tavır eyndir. Türklərin İran, Fars və islam yolunda verdikləri 1500-illik özverinin qarşılığı aydın düşmənliklə verilməkdədir. Bu yolda Türklərə düşmənlik etməklə Fars milləti də ağ günə çıxmamışdır. Çünkü, Türk milləti kimi böyük topluma düşməncə yanaşmağın bədəli çox ağırdır. Hələ Farslar kimi kiçik bir millət içindən qalxmış Farsçı pan sistemi üçün yıxıcı da ola bilər. Bu üzdən, İran adlanan qondarma dövlət sisteminin yıxılmasıyla, Fars millətinin də gələcəyi sorğu işarəti altına düşəcəkdir. Ancaq, Türklərdə bir söz vardır "Göydə Allah, yerdə sən (Türk)!" fəlsəfəsilə, yenə də, Farsların dağılmasına, başqa millətlər içində əriməsinə izin veriməyəcəkdir əslinə inanmaqdadıq. Göründüyü kimi, ölkənin bir gün olsun belə hüzuru yoxdur. Ölkə bütün alanlarda sallanır. Ölkənin yiyəsi yoxdur. Hamı bir-birilə yabancı, hamı bir-birinə ya ağadır ya quldur. Bu gərçəyin 70-milyonluq İran vətndaşlığında aydınca görmək olar. Bu düşməncə ortama son vermək üçün, əsir millətlərin gücünə dayalı ulusalçı altırnativlərin birgə hərəkətini sağlamaq gərəkir. Ulusalçı qatılımın öndərliyində olan ulusal cəbhənin geniş alanlı olması düzgün gəlişərsə Farsçı rejimin ömrü bir o qədər azalar. Bu arada, dilçi, federalçı, ulusçu kəsimlərin iş birligi də çox önəmlidir. Bu işbirligi kəsinliklə dərin ulusallaşma yolunda olumlu iz buraxacaqdır. Sözsüz ki, ölkə çapında hər hansı millətlər gücünün birləşməsi Azərbaycandan keçər. Çünkü Azərbaycan, İran adlanan yerdə axacaq özgürlük qanının şahdamarıdır.

## 11. Türkə qarşı üçlü dalğa unudulmamalıdır.

Tarix boyu Türklərə kötü davranışda olan üç millətçilik dalğasını unutmamalıyıq. Rus,  Fars, Ərəb milliyətçi üçlüyü zaman axarında Türk ulusu üçün qara dalğalar olmuşdur. Ərəb düşmənçiliyini bugün fondamentalçı islamda və şi`ə-Farsçı qılıfda bütün acısıyla qarşımızdadır. Rus şovenizminin son illərdəki Qızıl imperatorluq çöküşündən sonraki tavırı böyük alanda deyişmişdir. Ruslar, Türk millətini kölə saxlamaq üçün, özgür Türk dövlətlərinin başçılarını hər dəyərdə olsa belə almaq və öz əlində saxlamaq çabasındadır. Rusiyada kommünizmin çöküşünə baxmayaraq, üzdə demokrat və sağ rus öndərləri Türk cümhurluqlarda keçmiş kommünistlərin qalması üçün dəridən-qabıqdan çıxmaqdadır. Çünkü, Pionerlik, Komsomollıq, Kommünislik və KGB məktəblərində ruslaşmış kölənin sonadək kölə qalması kəsindir. Rus və Fars casusluq şəbəkələrinin Bakı və İrəvanda birləşməsinin hədəfi isə bu yöndədir. Hər hansı Türk dirçəlişini nütfədə boğmaq, Azərbaycanın bilim, eyitim mərkəzlərinə ortaqlıq etmək, hər alanı kontrolda saxlamaq deməkdir. Bugün, Bakının ən qabaqcıl, bilimli, çəkili və düzənli uşaq eyitim mərkəzlərinin Farslara və ruslara aid olması da keçmişdən qalan və zorla yaşatılan köləlik fəlsəfəsinin sürəcidir. Güney Azərbaycan Milli Hərəkatının ən önəmli yaşam və savaş fəlsəfəsi bu üçgendən aralı almasıdır.

## 12. Doğu Türküstanı işğalında tutan Çin 4.cü dalğa ola bilərmi?

Uyğur Türklərinin yaşadığı Sincan Bölgəsi və BatıTürküstan əzəli Türk torpağıdır. 1940-ci ildə, ikinci dünya savaşında ortaya gələn qalma-qaldan yararlanan Çin dövləti Doğu Türkistana basqı etdi. O çağdan başlayaraq Batı Türküstan Çinin işqalındadır. Kaşğarlı Mahmududun doğum yeri olan Kaşğar və Urumçu, Uyğur Türklərinin yaşadığı ən böyük şəhrlərdir. Çin hakimlərinin doğum yasaq əmrinə baxmayaraq Uyğurların yaşam savaşı onların gündən-günə nifus artımıyla bağlı olduğu üçün toplum artışı dayanmadan sürməkdədir. Çin dövləti Uyğurustanı işqal

etməsilə yetinməyir, uyğurların bütünlüklə assimilə edilməsinə çalışır. Bu uzdən son illərdə bölgənin etnik tərkibini çiniləşdirməyə çalışır. Bir çox Türk, gizli və yasa dışı doğulduğuna görə, savadsız qalır. Uyğur dərnəklərinin son verilərinə görə, hər üç uyğurdan biri savadsız vəya qədim islam üsuluyla eyitim görürlər. Bu yolda Çin şovenizmi rus və Fars antiTürklərinin də dəstəyini öz yanında duymaqdadır.

### 13. "Zeynəb Paşa başçılığında Təbriz hərəkatı" Türk qadınının dirənişçi ruhunun örnəyidir.

Azərbaycan qadınının mərkəzə bağlı olan ərbablara, xanlara və təmbəkiyə qarşı üsyanıdır. Milli yönü yoxdur. O, hərəkatın İran Tənbəki Hərəkatıyla bağlı olması da söz qonusu olduğu üçün ulusal dəyəri yalnız Təbrizdən qalxmasıyla ilişgin ola bilər. Baxmayaraq ki, Tənbəki [362] hərəkatının bir də başqa göstərisi var idi. Farsçı aydınların şi`əçiliyə bürünərək laik tipli olan Türk Qacar hakimiyyətinə qarşı hərəkətə keçməsilə yanaşı hızlı bir şəkildə Farsçı-şi`əçi ideolojisinin formalaşması da bir ulusal fakt kimi dəyərləndirilməlidir. Sözsüz ki, Zeynəbpaşa Hərəkatı son təsbitlər içində yerləşə bilməz.

### 14. "Səttarxan-Bağırxan Hərəkatı"ilə Məşrutə Hərəkatı eynidirmi, yoxsa başqa hərəkatlarmı?

1907-1909-cu illər arası Təbriz mərkəzli Azərbaycan hərəkatı, xalqının məşruəçilərə[363] və eyn zamanda Farsçı amillərin əlində oyuncağa çevrilən istibdadçı Məmməd Əli Şaha qarşı dirəniş idi. Tehranda rus toplarıyla yıxılan Məşrutə devriminin həmən sonrasından başlayan Təbriz və Azərbaycan üsyanı az bir zamanda Qacar Məmalike Məhrusəsində yerləşən başqa bölgələri də ayağa qaldırdı. Təbriz hərəkatı ümum Azərbaycan mesajları verəmədiyinə görə, Azərbaycanı ikiyə parçaladı, Qaradağ, Ərdəbil, Mərənd v.b. xanları Şahlıq tərəfində olunca Bir neçə xanlıq da Səttarxan tərəfini saxladılar. Məkəze Qeybi bir çox zaman Tehran demokratlarıyla uğraşmağa üstünlük verirdi. Durum yalnız

[362] tütün
[363] şəriətçilərə

kütlənin öz verisilə baş etmə gücünü saxlaya bilirdi. İşin sonu isə, qəhrəmanlıq hərəkatı kimi netləşdi. Səttarxan inandığı düşmən əlilə inamından vuruldu. Bağırxanın başı kürdlər əlilə kəsildi. Siqqətüislam, Əli Misyo oğülları və saysız qəhrəmanlar Fars hegomonluğu yolunda canlarından oldular. Təbriz rus toplarına tuş gəlincə, Tehranda Farsçı rejimin iş başına gəlmək siqnalları səslənməyə başladı. Yaz keçmədən bu günkü anlamla desək ilkin bir Türk federal sistemi aradan qalxıb, yerini təpədən –dırnağa panfaşist Fars mərkəzli rejim aldı.

**15. Xiyabani başçılığında Azadistan hakimiyyəti, yenilikçi hərəkatıdır.**

Xiyabanı məşrutə hərəkatının ən gənc liderlərindən bir idi. Bu üzdən içində bayındırdığı intiqam duyğusu millətinə olan sevgisini daha da üsyan qatına yüksətmişdir. Xiyaninin inanılmaz nitq gücü, dərin demokratiya bilgisi, bölgədən olan fiziksəl tanışıqlığı və düşməndən olan təcrübəsi onun üçün böyük avantaj sağlamışdır. Xiyabani zamanında artıq Qacar hakimiyyəti yox idi. Yalnız Qacar adlı bir uşaq şah var idi. Ölkənin idarəsi Rus Qəzzaqları ilində idi. Rza Palani adlı bir Qəzzaq mirpənci[364] rusların və ingilislərin himayəsində gündən-günə böyüyürdu. Xiyabani Tehrandaki demokrat dostlarının bu Mirpənclə birləşmələrini görə-görə yenə də onların dostluğuna inanırdı. O, bu boş inanca görə, Azərbaycanın quzeyində olan Müsavatçıları[365] və Türkiyədə olan Gənc Türkləri və İttihad-Tərəqqini kimi qardaşları görmək istəməyirdi belə. Sonuc nə oldu? İnandığı Fars demokrat dostları əlilə güllələndi. Vətən sevgisilə, ulus eşqilə yoğrulmuş cansız bədəni Təbriz kütləsinin göz yaşları qarşısında düşmənin güc göstəgəsi oldu.

**16. “Jandarmlar üsyanı” Təbriz və Təbrizin 50 kilometirliğində yerləşən Şərabxana kəndində üz veren İran dövlətinə qarşı solçu üsyanıdır.**

---

[364] Qacar türk ordusunun orta dərəcəsi dir.

[365] Əminzadə, Topçubaşı, Xoylu v.b.

Bu üsyanın Azərbaycan və Azərbaycan Türkülə yaxından-uzaqdan ilşgisi yoxdur. Hərəkət yalnız Təbrizdən başladı. İnqilablar məkanı olan Təbriz bu dəfə Kirmanşahlı Əbülqasim Lahrudinin başçılığıyla olan üsyanın tanığı oldu. Baxmayaraq ki, bu hərbçi qurupun bir də “Xiyabani qisası” şüarı var idi. Buna baxmayaraq yorğun millətimiz bu şüarin ardına çəkilmədi. Hərəkət öncə Təbrizin bütün idarələrini ələ keçirməyi bacardı. Başqa bölgələrdən üzərlərinə gəlincə sınırı keçərək Arazın o tayına və ordan Russiyaya yerləşdilər. Lahuti ömrünü Moskvada başa verdi.

**17. “Kazımxan Quşçu Dirənişi” – Ənzəl, Urmu, Xoy, Salmas, Quşçu çevrəsində Cilovluq, Erməni, Şəkkak kürd birlikləri ilə yanaşı Farsçı Rza Mirpəncə qarşı ulusal dirənişdir.**

1918-ci il may istiqlaliyyətilə geçəri olsa də, Quzeyin rus-erməni işğalından azad olunması Arazdan yuxarı bölgələrimizə dinclik sağlayır. Erməni dəstələrinin Türk İttihad-Tərəqi və Azərbaycan ordusu əlilə darma-dağın olması, onların güneyə sarı axınmasına səbəb oldu. Erməni silahlılarının başçısı Andranik öncə güneydə yerləşən dindaşları Ciloların silahlanmasını ruslardan və ingilislərdən istədi. Ermənilərin bu istəyi qəbul olundu. Fransa isə, para və başqa maddı-siyası yardımıyla Ciloları dəstəklədi. Rus-erməni dəstələrilə güclənən Cilolar tarixdə görünməyən soyqırım yola saldılar. Harda Türk gördülər öldürdülər. Məscidə sığınan əli yalın yerli Türklərə belə qıymadılar. Millət sadəcə öz içindən çıxan bir qəhrəman evladına sığındı. Kazımxan Quşçu (1867-1923) başına topladığı candan keçən neçə yüz gənclə savaşa girdi. Səttarxanlı Təbriz, rus bombalarıyla nəfəsdən düşərkən Kazımxanlı Urmu vətən işğalçılarına qarşı birinci yürüşə başladı. Neçə milliyyətli 20-min basqıçı düşmən qarşısında neçə yüz nəfərli Kazımxan fədailəri nə yapa bilərdi ki? Oyləsə Türk ordusu öz soydaşlarını yalnız buraxmadı. Öncə silah-sursat və sonra Anadoludan gələn qoşun Böyük Ermənistan xulyasını sahiblərinə qarşı cəhənnəmə çevirdi. Kazımxan səsi bütün Batı Azərbaycanı bürüdü. 120-mindən artıq soydaşımız tarixsəl Türk düşmənləri əlilə həlak oldu. Kazımxanın umduğu yer öz yöntəmində oldu. Təbrizin bütün hərəkətlərinin tərsinə Kazımxan Farslara inanmadı. Erməni-Ciloluq olaylarından başı uca çıxan el qəhrəmanı, çox keçmədən kürd bəlasını

təcrübə etdi. İsmail Simitqo ev sahibinə qarşı üsyana qalxdı. Tavandan düşmüş millət bir daha basqıya uğradı. Osmanlı torpaqlarının Avrupanın və Rusiyanın hər tərəfli qoşatmasına uğramaq nədənilə, Türk paşaları Urmudan geri çəkilmə zorunda qaldılar. Simitqo bu boşluqlardan suistifadə edərək bölgəni ələ keçirməyə qalxdı. Qacar hakimiyyətini ələ almaq niyyətində olan Rza Mirpəncin stratejik hədəflərindən biri olan Urmu həndəvəri onu da bölgəyə çəkdi. Bu yolda ona qarşı duran Simitqoyla savaşa girdi. Kazımxan Quşçuyla, Mirpənc Qoşunlarını birləşdirən talein ömrü çox sürmədi. Simitqo yenilgəsilə Quşçu Qalası və Batı Azərbaycan böyük təhlükəni başından aşırdı. Ancaq, Rza xan, Kazımxanın mərkəzə tab`e olmasını və onun səltənətə gəlməsinin rəsmiyyətə tanımasını istədi. Kazımxan Türk Qacar dövlətinə bağlı olduğunu və ondan vaz keçmədiyini dilə gətirdi. Rza xan, böyük qoşunla Kazımxan ordusuna yürüş etdi. Ancaq, Urmunu ala bilmədi. Quşçu qalası Milli direniş simgəsinə dönüşdü. Kazımxan milli düşmənlər qarşısında dayanma gücünü artırsın diyə, əl bombaları düzətməyə çalışdı. Elə bu yolda da ilk qurbanlıq oldu. Kazımxanın ölümündən sonra Qalanın dayanışı sındı. Rza xan Mirpənc İran ordusunun başçısı kimi Urmuya ayaq qoydu. Kazımxan Quşçu hərəkatının başı bəlalı Urmuda üzverməsinin təkcə nədəni bir millətin ölüm qarşısında olan dirənişi idi.

Kazımxan ən birinci yardımı Təbrizdən gözlədi. Bu üzdən düşmən atəşi altında olan Urmu gölünün yolunu açıq saxlamağa çalışdı. Təbrizin rus işğalında olmasıyla bu gözlənti alınmadı. Çünki, ortada olan təkcə əmin adam Təbrizin keçmiş əmniyyət qüvvələrinin başqanı Əmir İntizam idi. Onun isə, darma-dağın olmuş silahlı qruplarında bir o qədər güc qalmamışdır. Bu üzdən, Kazımxan Quşçünün qarşısında iki yol qalmışdır, Ya Tehrana təslim olacaq və ya Osmanlı dövlətdən yardım istəyəcək idi. Kazımxan Tehrana deyil, Anadoluya inandı. Hər nə olsa da, ortada soydaşlıq ilişgisi vardır diyə Osmanlı ordusunu imdada çağırdı. Qardaş ordu isə, qardaşını yalnız buraxmadı. Kazımxan Quşçu davası Təbriz davaları kimi geniş olmasa da, bu davalardan daha çox milli dava kimliyinə malik idi. Elə məhz buna görə də, həm öz milləti içində və həm də, Farsçı mediya və yazarlarının xatirəsində gizli qaldı.

**18. Məhəmməd Tağı Püsyan[366] qalxışı Azərbaycan Türkünün devrimçi və demokratikləşməyə meylinin sınırsızlığının göstərgəsidir.**

Məşhəd mərkəzli böyük Xorasana göndərilən gənc kolonel ora çatar-çatmaz Türk düşməni Ə. Qəvamın bütün kənd, mal, dövlətinə əl qoyur. Onu Xorasan valiligindən uzaqlaşdırır. Öncə tutuqlayır, sonra isə Tehrana aldanaraq o Türk düşmənini əlindən qaçırır. Kolonel öz çevrəsində olan Türk ordu ozmanları və yerli Xorasan Türklərilə birlikdə Dəmir Dəstə qüvvələri yaradır. Gənc general az bir zamanda Xorasanın bütün idarə sistemini düzənləyir. Xorasan əhalisi onu bir qəhrəman kimi sevməyə başlayır. Xorasan valılıyinə seçilən Püsyana qarşı, Qacar şahlığına etinasız yanaşan, qoşun başçısı,Türk düşməni - Rza xanla ona sığınan Qəvam birliyi quruldu. Bu hərbi-siyasi birlik Xorasan hakimiyyətinə qarşı səfərbər olarkən, kolonel Məhəmməd Tağı xan Püsyan inandığı Leninə və Bakıya üz çevirdi. Bakı komissarı, başçısı Türk canisi – erməni kökənli rus zabiti, S. M. Kirov Fars Pəhləvilərin iş başına gəlməyi üçün Kolonelin yardım istəyini rəd edir. Bakını işğal altına alan Bolşeviklərın aydınca Rza Pəhləvidən yana olmaqları bir rəsmi bildiri ilə əyan olar. O bildiridə, bolşevizmin İran iç işlərinə qatılmayacağı və o ölkədə olacaq dəyişikləri rəsmi tanıyacağı qeyd olunurdu. Tehranın qoşunlarının Xorasana girməsi ilə Kolonelin qorxusuna tab`e olmuş xanlar dəstəsi Tehran qoşununa qoşulurlar.

Türk Dəmir Dəstələri son damla qanınadək dirənir. Kolonel M.T. Püsyanın kəsilmiş başı qələbə ödülü olaraq Türk düşmənləri Rza xana və Qəvama göndərilir. Sözsüz ki, Xorasan hərəkatıyla Azərbaycan hərəkətləri arasında mənəvi bağdan başqa heç bir şey ortada yoxdur. Ancaq, Azərbaycan Türklərinin bütün hallarda böyük igidliyi unutmamalıdır. Xorasan da bağımsız hərəkatına öndərlik edən Məhəmməd Tağıxan Püsyanla birlikdə bir çox Türk qəhrəmanlarının adını sıralamaq olar. Bu da, o deməkdir ki, Xorasan bağımsızlığının ən başda gedən milli kimliyi Türklük olmuşdır. Kolonel M.T. Püsyanla çiyin-çiyinə döyüşən və onunla birlikdə canından keçən bəzi adları sıralamaqla bu iddanın boş olmamasını vurğulamaq istəyirəm: ***Mayor İsmayil xan Bahadır, mayor Əli Riza xan***

[366] 1891-1921, Təbriz doğumlu

***Şamşir, sultan (kapitan) Seyid Möhsün xan Kazimi, Sultan Əliəsgər xan Rifət, Sultan Qulam Hüseyn xan Saqfi, Sultan Əliəsgər xan Qacar, sultan Hüseyn xan Dövlətşahi, Sultan Mirzə Əli xan İzədi, Nayib (leytenant) Ağa xan Xoşgin, Nayib Haci xan Təfrişi, Nayib Məhəmməd xan, Nayib Cəlal xan Zəmani, Sultan Nur Əlinəğixan Həkimi, Nayib Əlisəfərxan Musar, Nayib Davudxan Sinaqi, Nayib Tağı xan Tavus, Sultan Qulam Hüseyn xan Pedər, Sultan Ehsanulla xan Azərəxş.***[367]

**19. Gilan Cümhuriyyəti və ya Cəngəl Hərakatının biz Azərbaycanlılar üçün də, özəlliyi vardır.**

Nədən? Çünki, Seyid Cəfər Pişəvəri və Heydərxan Əmioğlu[368] kimi bir çox Azərbaycan Türkünün "Cəngəl Hərəkatında,, aparıçı rolları olmuşdur. Azərbaycan, Gilan, Xorasan ayaqlanmasının hardasa qalxışları və yenişləri eyn zamanda və eyn tal`edə olmuşdur. Hər üçünün də, demək olar ki, hədəf kütləsi və stratejik nöqtəsi bir yöntəm daşıyırdı. Hər üçü də, ön planda SSSR-i tərəfindən dəstəklənərkən, həmin kommünistlər tərəfindən Qacar hakimiyyətini devirməkdə olan Farsçı faşistlərə yeni dövlət ərməğanı kimi sunulmuşdur. Ancaq, ölənlər ölmüşdürsə, qalanlar yenə bu düşməni təcrübə edə bilməmişdir. Sözsüz ki, belə sata-satlar dünənlərdə olub-bitən olmamışdır. Heydərxan Əmoğlu bolşevik rusların planı üzündən Mirza Kiçik xanla arası pozularaq deyilənlərə görə, onun əlilə öldürülmüşdür. S.C.Pişəvəri isə, mə`rəkədən can qurtararaq gəldiyi Bakıya dönmüşdür. Bugün hər Azərbaycan Türkü üçün belə bir sorğu yarana bilər ki, Azərbaycanda daha həssas, stratejik yüklü və milli boyudlu bir hərəkat olduğunda, hansı düşüncə səbəbindən Heydərxan Əmioğlu və M.C.Pişəvəri Gilanda ölməyi vətəndə ölməyə üstünlük vermişdirlər. Bu iki adlım Azərbaycan Türkünün Xiyabani öndərliyində olan Azərbaycanda olmamasının böyük səbəbi varidi. Boşeviklərə görə, Gilanda kommünist yayılmasına daha əlverişli imkan varidi. Bu üzdən mərkəz qərargahı Bakıda yerləşən "İran Ədalət Partısı"[369] özünün birnci İran şöbəsini „Rəşt"şəhərində açmalı idi. Bəlkə, Heydərxan Əmoğlu

[367] Bu qonuda artıq bilgi əldə etmək üçün www.az.wikipedia.org/ Məhəmmədtağı xan Püsyan internet adresinə giriniz.
[368] 1880-1921- doğum Urmu.
[369] sonralar İran Kommünist Partısı

Cəngəldə ideoloji qurbanı olmasaydı. Sonralar Azərbaycan hərəkatında böyük rol oynamış olacaq idi. Bəlkə də, olmayacaq idi. Söz qonusu */nə və necə?/* olacağından geçmir.Söz, indiki solçu soydaşların ilginc iddialarından gedir. Onlar, öz əli boşluqlarını geçmiş solçularla döldurmaq istəyirlər. Bir Azərbaycan Türk millətçi üçün milli əxlağın ötəsində öznəllik yoxdur. Ya ulusunu sevgi kimi qutsal sevməlisən və ya ən azından onun sevgisindən siyasal macəra yaratmamalısan. Gilan hərəkatı bu baxımdan bizim üçün yenidən öyrənilməlidir. Yoxsa, yeni duzaqların qarşısı alınmaz ola bilər!

**20. "29 Bəhmən üsyanı" Pəhləvi şovinizmini diz çökdürən, o antiTürk rejimə ölümcül darba endirən bir günlük Təbriz qalxışmasıdır.**

1978-ci il fevral ayının 18-də[370] ayətüllah şəriətmədarinin Qum şəhərində həlak olanların 40-cı günü ilə ilgili yas bildirisi yayınlanmışdır. Çoxu Türk olan Qum ölənlərinin Azərbaycanda təbkisi[371] çox böyük olmuşdur. O zaman Qumda din tələbəsi olan bir dostumun iddiası çox ilginc olmuşdur. Bu iddia sonralar bir neçə nəfərində təsdiqini alandan sonra gizli bir ssenariyanın olmasında məni də qan`e etdi. Bu üzdən ilk dəfə olaraq bu tanıq dostun adını vermədən gördüklərini eynilə oxucumla paylaşıram. O deyirdi: "Bir həftə Qum qiyamından oncə Ayətullahın fiqh dərsindən sonra qiyam gününün hazırlıqlarını keçirmək üçün bir dostun otağında toplaşdıq. Bizim içimizdə Xumeyninin də adamları var idi. Onların çoxu  Fars olduqlarına görə, biz də Farsca danışmaq zorunda qalırdıq. Biz belə düşünürdük ki, rejimi mitinq günü şaş-baş edəcəyik. Ancaq, biz yalnış idik. Miting günü hardasa saat 11-də geniş tələbə kütləsi sıralarında şəhərin mərkəzinə sarı yola düşdük. Biz nə qədir ki, səssiz hərəkət edirdik Xumeyni tərəfdarları sərt şüarlar verirdilər. Mitinqdə bəlli şüar verilmirdi. Hər qurup öz düşüncəsinə görə sloğan atırdı. Şəriətmədarinin tapşırığına görə, aramızda sərt davrananları sıradan çıxarmaq lazim idi. Ancaq, bizlər bunlarla bacara bilmirdik. Onların qarşısı alınmaz olmuşdur. Doğrudur ki, bir başa Şaha sloğan yoxidi, ancaq

[370] günəş ili 1356-11-29
[371] reaksiyası

bizi nigəran edici sözlər ortaya gəlirdi. Hardasa iki saat sonra polisin bizə yaxınlaşması göründü. Elə bu andan sonra çoxu xumeyniçilər olan radikalların birdən aramızdan çəkilməsini duydum. Ancaq, biz qəfil olmuşduq. Meydanda qalan biz Türkləridik. Polis hər tərəfimizi sarmışdı. Üzərimizə atəş yağırdı. Yanımda hər kəsi qurşun yemiş və yerə düşmüş görürdüm. Hara baxırdım öz Türk dostlarımı görürdüm.Bilmirdik hara qaçaq. Bizim düşündüyümüz bu deyildir. Biz, yalnız islama, mərc`ələrə qarşı olan hörmətsizliyə etiraza qalxmışdıq. Bilmirdim qışqıram, ağlayam, öləm yoxsa qalam. Mənim üçün, ən heyrət edici məqam yerə düşənlərin içində bir nəfər belə Fars tələbəsinin olmaması idi. Bilmirəm, bəlkə var idi, mən görmürdüm. Allah o günü bir daha göstərməsin. Doğrüdan da biz Türklər bir daha aldandıq. Bilmirəm mənim nə günahım variydi ki, allah məni saxladı. Özü də Qum olaylarının içində olan bir dostun qıssa həkayəsini birlikdə oxuyandan sonra Təbrizin bir günlük üsyanının nədəninin kökünü örgənmiş olduq. Sözsüz ki, Qum şəhidlərinə Türkün ana ocağı yiyə durmalıdır.

Təbriz, 29-Bəhmən günündə qaynağa gəlmış daş qazan idi. Hələ saat 8-dən kiçik-böyük, kişi-arvad Təbrizin Bazar ağızında bəlirsiz bir olayın yolunu gözləyirdi. Saat 9-da hardasa Bazar ağızı dolmuşdur. Hər kəs kiçik quruplar üzərində comalaşmış və gözləməkdeydi. Bir qurup Bazarla Tərbiyət xiyavanları arasında Farsca şüar verirdilər. Ancaq, kimsənin ilgisini çəkməyirdilər. O zaman Azərbaycan Demokrat Cəvanları adına kiçik bir dağçı qurupumuzla birgə, biz də millətin içindəydik. Cəmiyyətin çoxalmasıyla sayı çox da olmayan polis qorxudan bir yerdə toplanmaya başlayırdı. Polisin daha çox durduğu yer Səfi bazarının girişi idi. Bu anda qarşımızda olan Fars dəstənin səsi ucalmağa başlamışdır. Polislər hər hansı reaksiya göstərə bilməyirdi. Mən arxadaşlarımın birilə qarşı tərəfə yaxınlaşdım. Onların kim olduğu və nə şüar verdikləri bizim üçün maraqlı idi. Onlara yaxınlaşarkən, geyinişindən bəlli olan bir kəndlidən nə şüar verdiklərini sordum. O kəndli vətəndaşın eynilən verdiyi cəvabı burada gətirirəm: “Vallah özgə dildə danışırlar. Amma tez-tez Homeyra-Humeyra deyirlər!” Bu vətəndaşımızın Xumeyni sözünü Humeyra ilə dəyişik anlaması olduqca doğal idi. Çünkü, onun mərcədən və ağadan anladığı yalnız Şəriətmədari və bəlkə də Aşıqdan başqa musiği

tanışı Türk kökənli Fars müğənnisi xanım Humeyra olmuşdur. Saat 10 radələrində artıq qazan qaynamağa hazırkən Bazarın içindən tək bir qurşun səsi gəldi. Təbrizin ən cəllad savak məmurlarından biri olan kələntəri 6-nın rəyisi Həqşünas öz tapancasıyla döşünü açıb vur diyən öyrənci Məhəmməd Təcəllanın ürəyini parçaladı. Millət Bazara sarı qoşmağa başladı. Millətin sel kimi hərəkətə gəlməsilə polislərdə bazara sarı qaçmağa başladılar. Bu həngamədə, duz Bazar Ağızında park etmiş Doğu Azərbaycan Polis başqanının son model Mesedes Benz avtomobili iki ədəd molotov bombasıyla patladı. Bazar içindən Allah Akbər səsləri eşidilirdi. Millət nə edəcəyini, nə diyəcəyini, necə davranışını bilmirdi. Bu bütünlüklə millətin bilincaltı üsyanının coşmasından qaynayan lidersiz bir üsyan idi. Doğrudan da bə`zi kiçik qurupları çıxarsaq millətin yalnız yas törəninə gəlməsi gərçəgə daha yaxındır. Millətin Şəriyyətmədari sevgisi sözsüz idi. Ancaq, Şəriətmədarının şahla yaxın olduğunu kimsə də dana bilməz idi. Doğrudur ki, son illərdə şahın Türk mərc`əindən bəlli ara açması və özünü daha arxayın görməsi də bir fakt olaraq yaşamaqdaydı. Ancaq, bu hər iki tərəfin qarşı tərəfi nəfy etmək anlamına gəlməz idi. 29-Bəhmən qatılımcısı kimi o unudulmaz günlə bağlı geniş yazmağı gələcəyə buraxır, qonumuzu anıta çevirməkdən qaçınıram.

İgirmi doqquz Bəhmən üsyanını Qum qiyamıyla fərqləndirən ən böyük amil Təbrizin bu alanda danılmaz gələnəksəl devrimçı olmasıyla bağlı idi. Üsyan, ən ilk anından etibarən polisin birliyinin dağıtmasını amaclamışdır. Belə ki, yürüş üçün üç dəyişik yönü seçən üsyançılarla birlikdə polis də bölünməyə məcbur oldu. Bu taktiklə düşmən qüvvələri çaş-baş qaldı. Çoxsaylı yürüşçü quruplar qarşısında parçalanmış duruma düşən polisin işi poliş mərkəzlərinə sığınmaq olmuşdu. Sözsüz ki, bir neçə dəqiqənin içində belə taktikin formalaşması gələnəksəl divrimsəlliklə olasıydı. Azərbaycanın ölməz oğlu tarixçı yazar rəhmətli Səməd Sərdariniya demişkən Təbriz Birincilər Şəhəridir. 29 bəhmən üsyanı öz oğlunun təsbitlərinə bir başqa örnəkdir. Şah, özünü fıron sanarkən, ilk dəfə olaraq Türkcə*"Ölüm olsun Şaha"* bağıtısı Təbrizdən eşitdi. Belə ki, millət həmin sloğanı bağıra-bağıra dövlətə bağlı olan bütün şəbəkələri darma-dağın etdi. Polis yalnız canının qorxusundan atəş açırdı. Çünkü, durmaq yox idi. Harda kələntəri yerləşirdi millətin yönü ora yoğunlaşırdı. Bütün

üsyanlardan fərqlı olaraq bariqad quranlar millət deyil, polis idi. Təbriz üsyanı saat 16-da ordunun bir başa dəxalətilə son buldu. Ancaq hədəfin də buldu. Şahın beli sındı. Təbriz bir daha ən inanılmaz anlarda birləşər, təkyumruq olar, yıxar və yaxar gücünü göstərdi. 29-Bəhmənlə bağlı bir neçə gərcək:

- Təbrizin dinc yas törəninin üsyana çevrilməsində millətin rejimə qarşı olan nifrət ölçüsünün sınırsızlığı böyük rol oynadı.

- Bu üsyanda birəylərin anında təkyumruq olması və böyük bir örgüd[372] kimi eyləmə girməsi göstərildi.

- Soldan tutmuş bütün dinsəl quruplar bu qalxışın gərçəkləşməsində ən ufaq belə rolları olmadı. Hətta belə hərəkətlərdə özünü ev sahibi göstəməyə çalışan Tudə Partiyası şaşaraq Şahla səsbir olub, bu üsyanı Ma-o-istlərə[373] bağlamağa çalışırdı. "Tudə Partiyasının yanlıları əlilə gizlicə İran içində basılan Nəvid nəşriyyəsi öz məqaləsində 29-bəhməni anarşist və maoistlərin millətə zərbəsi və təxribati kimi adlandırdı. Amma 8-il sonra 1365-ci ilin yayında Tudə Partiyasının Azərbaycan əyaləti təşkilatı olan "Azərbaycan Demokrat Firqəsi„-nin orqanı "Azərbaycan qəzeti„-nin iddiasına görə, bu üsyanın aparıcısı Firqəçılır/Tudəçilər/ olmuşdur!!![374]

- 29-Bəhmən üsyanı daha çox Şəriətmədari adıyla hallansa da, heç Şəriətmədari tipli dirəniş modeli deyildir. Doğrudur ki, Ayətullahın milləti Qumda ölənlərin yasına çağırması çox etgili olmuşdur. Ancaq, bu üsyan geniş düşüncə kəsiminin birlikdə ortaya qoyduğu iradənin məhsulu idi. Kəsinliklə, orta kəsimi oluşduran aydın və öyrənci güçü olmasaydı, Təbriz üsyanı da Qum üsyanı kimi qanda basdırılardı. Öyrənci və aydın düşünürlərin

---

[372] qurum, təşkilat, şəbəkə

[373] çinçi kommünistlər

[374] *(Şəriətmədariçilərin dirçəlişi və Azərbaycan/ farsca. Azerbaycan və conbeşe tərəfdarane Şəriyətmədari/. Maşallah Rəzmi, 1.ci basın, Tribun Nəşri, Stockholm,2000.s30.)*

29.bəhməndəki rolunu üsyandan sonraki Təbriz ayaqlanmalarında da eynilə görmək mümkün idi. Halbu ki, Türklərin mərc`ə məqamı olan Ayətullah Şəriyətmədarının belə dərin və radikal üsyanları liderlik edəcək ölçüsü yox idi. Əslində də Şahla onun arasında olan açılım bir o qədər de dərin deyildir. 29-Bəhmən Rejim məmurlarının Türk millətindən olan yalnış düşüncəsini ortaya qoymaqla yanaşı başda Ayətullah Xumeyni olmaqla Farsçı mollaları da ayıtdı. Belə ki, bu üsyanda qan verən Azərbaycan Türk Millətinin öz doğması olan Şəriətmədaridən səs çıxmayınca Xumeyni Nəcəfdən Təbrizə səsləndi. Şəriətmədari Təbriz üsyanını özündən uzaqlaşdırmağa çalışırkən Xumeyni həmin bildirişdə "Yaşasın qorxmaz Təbriz" "Siz, Şaha ölüm istəməklə onun ağızına möhkəm bir yumuruq endirdiniz!" v.b. sözlərlə özünə böyük yer aça bildi. Halbu ki, Azərbaycan Türk millətinin istəyi bu sözlərin öz din öndərinin ağızından eşitməsi idi.

- 29-Bəhmən üsyanının əks sədası Avrupa və Amerikada da çox güclü oldu. Rejim öncə xəbər baykotu uyğuladı. Ancaq, bu kəsərli olmadı. Xəbərin Vaşinqton Post və Nioyork Taymz[375] kimi adlım və çox tirajlı qəzetələrdə yayılmasıyla Təbrizin adı bir daha özgürlük mərkəzi olaraq dillərə düşdü. Rejimin Təbrizin olaylarını kiçik göstərmə çabaları etgisiz qaldı. İran xəbər agentiliyinin yalnız 6-nəfər təxribatçı ölüb xeberi, Nioyork Taymz agentiliyi tərəfindən yalanlanaraq bu üsyanın rejim içində böyük çat yaratdığını və ən son bilgilərə görə azından 70-üsyançının gömürməsinin [376] bəlli olduğunu yayımladı. Batı Almaniyanın mərkəzi olan Dresden`də çoxu Türk öyrənci, İran adlanan dövlətin elçiliyini basaraq dünyanın bu haqda səssiz qalmasını qınadılar. Avrupanın ən e`tibarlı qəzetələrindən Londonda yayılan Qardiyan[377] bu qonuda Təbrizə özəl bir tim göndərərək bir başa bu üsyanı araşdırmışdır. Avrupanın bir çox mərkəz şəhərlərində məhz

[375] Washington Post, New York Times
[376] torpağa verilməsinin, quylanmasının
[377] The Guardian

bu üsyanla bağlı göstərilər, konfranslar baş tutmuş, Təbriz İranda olacaq inqilabın beşiği adlandırılmışdır.

- Təbrizdə verilən sloğanlar demək olar ki bütünü Türkcə idi. Əslində ortada öncədən bəlli olmuş bir şüar yox idi. Bu üzdən millətin bağrından qopan harayın ana dilində olması daha məntiqə uyğundur. Şüarların gedərək böyüməsinin nədənlərindən biri də, millətin gözü önündə şəhid düşən balaları idi. Ortaq olduğum bir olayı örnək gətirirəm. Dəvəçi[378] məhəlləsinin kələntərisinə sarı yürüyərkən sıranın önündə mənimlə çiyin-çiyinə bir 16-17 yaşında yeni-yetmə başından güllələndi. Onun ardından bir neçə nəfər də yerə düşdü. Yanımdakı gənc anında şəhid oldu. Ona yaxın olduğuma görə, dağılmış qafası üzümə sıcradı.[379] Ətrafımızda yerə düşən şəhid və yaralılar hamını çıldırmışdı. Dəvəçi kələntərisi,[380] Təbrizin ən önəmli silah-sursat mərkəzlərindən biridi. Elə ona görə də, oranı əl geçirmək istəyirdik. Bu üzdən ən ağır direniş dəvəçidə olmuşdur. Biz geri çəkildik. Bu andan sonra “Ölüm Olsun Şaha„ şüarı dillərdən düşmədi. Şəhidləri və yaralıları çiyinlərində gəzdirən üsyançı millət qarşısına gələn dövlət orqanlarını oda çəkdi. Dəvəçilə Münəccim xiyavanlarının kəsməsində yerləşən Şahın Rəstaxiz partiyası mərkəzi bütünlüklə yandırıldı. 1979-ci Bəhmən inqilabının təməl sloğanı Təbrizdən atılmağa başladı.

- 29-Bəhmən üsyanının başlanqıc nöqtəsi “Bazar Ağızı„[381] olsa da üç yönü seçmiş oldu. Bizim qurup, şəhərin yoxsul bölgələrini, bir qurup güneyə sarı Xiyavan, Nobar, Üniversitet və ən önəmlisi Radio-Tv mərkəzini amaclarkən üçüncü qurup isə, şəhərin mərkəzini seçərək polisin orada qapanmasını sağladı. Bəlkə burda belə sorğu ortaya gəlsin ki, bu düzənin arxasında kimlər varidi? Net yanıt bu ki, ortada olan yalnız əliyalın millətidi. Bəlli olan üç hədəf üçlü qurupların qafasında yer almaqda idi.

---

[378] Təbrizin ən böyük bölgələrindəndir.
[379] səpildi
[380] polis mərkəzi
[381] Təbriz Bazarının girişi

Dəvəçi silahxanası, TV mərkəzi, Təbriz Ordugahı, başda gələn hədəfi oluşdururdu. Məncə əgər bu üç mərkəz üsyançıların əlinə geçsəydi. Üsyan bir gün deyil, böyük boyudlara yol açacaq və bugün başqa bir Azərbaycanda yaşayacaqdıq.

## 21. "Xalq Müsəlman Hərəkatının başlanması və sonu çağdaş milli hərəkatımızın ilkin nəbzi olmuşdur.

1979-cu il islam devriminin həmən ardından Xumeyni rejiminin mütləqiyyətinə və Fars mehvərli duruşuna qarşın Azərbaycanda və Türklərin yaşadığı bir çox yerdə böyük dirəniş gözə çarpmaqda idi. Böyük müctehid Ayətullah Şəriətmədarinin xeyr-doasıyla yola çıxan "Xalq Müsəlman Partiyası" bu etirazçı dirənişin örgüdlənmə mərkəzini oluşdururdu. Biraz geriyə dönüb inqlab günlərini xatırlatmaq istərdim. Çox yaxşı xatırlıram ki, Tehranda 22-Bəhmən devrimi bitmişdir. Bütün dövlət orqanları təslim olmuş və yeni rejimin əlinə keçmişdir. Ancaq, Təbriz şəhərində hələ döyüş gedirdi. Şəhnaz, Əhrab, Xəyyam, Çərəndab, Gəziran[382]v.b. kimi böyük məhəllələr köhnə rejimin ən son ümidgahı kimi dirənişmədeydi. Ancaq Tehrandan iki gün sonra Təbriz də şahçıların əlindən çıxdı. Sözsüz ki, bu izah rejimin Təbrizdə kütlə sevgisinə malik olduğu anlamına gəlməməkdədir. Tərsinə bu rejimin Təbrizdəki böyük Savak[383] və gizli polis şəbəkələrinin olduğunu göstərir. Təbrizin 20-Bəhməndən 24-u gecəsinədək durumu yalnız silahlı savaş izah oluna bilər. Bir tərəfdə millətin içindən qalxmış silahlı timlər, başqa yanda isə silah məkanlarına sığınan Savak və rejimin gizli məmurları idi. Burda da Təbrizlə Tehran arasında olan fərqlik gözə çarpırdı. İnqilabdan sonra bu çarpıcı çeşidlilik İslami Cümhuri Pariyası və Müsəlman Xalq Cümhuri Partiyası formalarında daha da özünü göstərməyə başladı. Əsas hədəf kütləsini Azərbaycanda, Tehranda və Qumda axtaran Xalq Müsəlma Partiyası çox geçmədən Azərbaycanın ən təyin edici gücünə çevrildi. Kəsinliklə tanınmış liderlərinin də istəyi olmadan bu partiya gün getdikcə dərin tələblərin mərkəzinə çevrilirdi. Azərbaycan hardasa iç savaşa

[382] Qazıran
[383] Şah rejiminin ittilaat və əmniyyət mərkəzi

cəkilmək ərəfəsində yaşayan bir bölgəyə çevrilmişdir. Şəriətmədarçılıqla Xumeyniçilik qarşı-qarşıya durmaqdaydi. Məhərrəm axşamlarındaki Şaxsey-Vaxsey dəstələri ap-açıq ikiyə bölünmüş Hüseynçilər, Həsənçilər[384] ünvanıyla tanınırdılar. Təbrizin bazarında yola düşən əza dəstələri də ikiyə bölünmüşdür. Təbrizin inqilab komitələrinin demək olar 4-5 dən sonra qalanı bütünlüklə Xalq Müsəlman əlilə idarə olunurdu. Ordunun durumu da beleydi. Bu üzdən Xəlq Müsəlman Partiyasının güc göstərisi demək olarki silahlı qüvvələri də arxasında görürdü. Elə bu səbəbdən Hizbullahçılar bu etiraz mitinglərinə qarşı etgili ola bilməyirdilər.

Azərbaycan, İslam Cümhurisinin yeni anayasanın yazılmasıyla yanaşı əyalət-vəlayət sisteminin də rəsmiləşməsini istəyirdi. İnqilabın sabahısından qan seli yola salan Xalxali kimi şər insanların mühakiməsini, hətta ölümünü islam rejiminin ayaqda qalması üçün vacib sanırdı. Tək Partiyalığı diktatorluğun ilk adlımı sanaraq çox patiyalı ölkənin olmasını istəyirdi. Şəriətmədariyə gör, Qurucular Məclisinin millət tərəfindən seçilməsi gərəkirdi. Bu orqanın yerinə Rəhbər tərəfindən atılan kəslərin iştirakilə Keşikçilər Şurası yarandı. Bu əməl isə, millətin devriminə qarşı eks hərəkət sayılırdı. A. Şəriətmədariyə görə, millətin dışında olan siyasi davranışlara son vermək gərəkir. Habelə "İslamda Vilayəte Fəqih adında bir qanun yoxdur və ola da bilməz", sözü A. Şəriətmədarının ağızından əksik olmayırdı. Millət tərəfindən böyük dəstək alan bu cəsarətli davranışın ən tədirgin və sinirli qarşısı Xumeyni özü idi. Gün bə gün daha da böyüməkdə olan iki liderin qarşıdurması sürəci Türk-Fars ayrıntılığına da yol açırdı. Hər gün dərinləşməkdə olan bu etnik qarşı durmanın bir olumsuz tərəfi də var idi. Belə ki, Xalq Müsəlman və ayətullah Şəriətmədarının Xumeynizmə qarşı çağdaş və demokratik tutumu – Əşrəf Deqani dışında, bütün solçu və mücahidlər tərəfindən imperializm duzağı adlandırılırdı. Tudə, Fədai və Mücahid örgüdlərinin başçılarının Xalq Müsəlman qarşısında geriçi, siyasal əxlaq dışı və tam irticaçı tutumlarının ən böyük uduzanı Azərbaycan Türk milləti olsa da, ən rəzil və quyruq

[384] şiələrin birinci imamı Əlinin oğulları, ikinci və üçüncü imamlar /Həsən və Hüseyn/. Təbrizdə kütlə içində, Şəriətmədarçılara Həsənçi /barışçıl/ və Xumeyniçilərə Hüseynçi/dirənişçi/adı vermişdirlar.

bulayıçı yeniləni də bu quruplar oldu. Xalq Müsəlman Partiyasının qorxduğunu çox keçmədən bu quruluşlar bütün var-yoxlarıyla yaşadılar. Xumeyni rejiminin tək-təkini yaxaladığı bu quruluşlar ardı-ardına darma-dağın edildilər. Sorğu burasındadır ki, Şəriətmədarının Vilayəte Fəqih olmasın, Əyalət-Vilayət sistemi olsun, Tək partilik olmasın, Poluralizm olsun, Dinsəl dövlət olmasın, Dünyəvi və hüquq dövləti olsun, Mərkəziyyətçi deyil yerəl sistem olsun v.b. istəklərinin nəyi geriçi və imperializim qurğusu ola bilərdi!? Çox açıq söyləmək olar ki, bu qurumların doğuş yeri Təbriz olduğu kimi ölüm yeri də Təbriz oldu. Nədən? Çünkü, Bu qurumlar üçün bəhmən devrimindən sonraki ən son birləşmə imkanı Təbriz idi. Onların özgür və içdən gələn inancları olsaydı, Xalq Müsəlman istəklərinə dəsdək olaraq devrimin insiyativini ələ alacaq, başqa millətlərin də aparıcı lider quruluşlarını bu dirənişə çəkməklə rejim qarşısında böyük cəbhə açacaq ıdılar. Amma nə yazıq ki, bu işi görmək yerinə Xumeyni dispotizmini kütlədən üstün tutaraq bu günkü fəlakətlərin oluşmasında bir başa rol sahibi oldular. Bu qurupların Azərbaycan ulusal kimlik davasında da böyük xəyanətləri oldu. Xumeyni özgəliyinə qarşı millətin birgə olması gərəkən yerdə, bu qurumlara inanan aydın düşüncəli Azərbaycan Türk gəncləri öz millətindən qoparıldı. Aktivligilə tanınan bir çox gənc Türk, bu qurupların zəhərlənməsinə tüş gəldilər. Onlar, çaş-baş qalaraq böyük ölçüdə öz bacı-qardaşlarının demokratiya və özgürlük savaşına əngəl oldular. Unudulması mümkün olmayan Təbrizin xiyavan qalma-qallarıdır.

Şəriətmədarçı-Xumeyniçi dəstələrinin sərt qarşı durmasında bu qurumların xumeyniçilər yanında yer alması çox utanc verici idi. Xalq Müsəlman Pariyasının hər gəlişməkdə olan kütləsəl özəlliyi böyük göstərilərlə özünü göstərirdi. Bu göstərilər bir tərəfdən partiyanın gövdəsində olan bilincaltı gizli milli duyğuları ayıdır, başqa tərəfdən isə bu quruluşun içində bulunan fürsətçi, al-verçi və məqama görə Xümeynidən küsgün düşmüş liderliyi dərindən düşündürürdü. Belə ki, parti liderliyi, millətin haqlı istəklərinin üzərində qurulmuş bildirişlərin yumuşaq yazılmasını gözə alsa da, kütlə küçəyə axınca daha dərin və radikal istəklər ortaya qoyurdu. Təbrizin Namaz Meydanı mitingi bu sınırın aşmasının ən bariz örnəyi oldu. Bir milyon üzərində qatılımçının

ortaqlığında qətnamə oxunurkən nə Allah əkbər və nə də Farsca səhih əst təsiq forması işlənilmədi. Millət hər təsdiq etmə aşamasında düzdü-düzdü bağırandan sonra əl çalır və qətnaməni onaylırdı. Bu mitingin ortaya gətirdigi psikolojik yüksəlişin sonucu yetişməmiş davranış tiplərin ortaya çıxmasına nədən oldu. Daha dərin ulusalçı hərəkat yerini aydın qarşı durmalar aldı. Millətin Təbrizdə və Qumda radio-televizyon, inqilab komitələri, idarələri və bir çox dövlət dayrələrini ələ keçirməklə iç savaş siqnalları verildi. Təpədən-dırnağa silaha sarılan Farsçı rejimlə, Azərbaycan xalqı qarşı-qarşıya dayanmışdır.

Kitabın son düzəni üzərində işlərkən şair, yazar sayın qardaşım M. Ərğəvanın bu qonudaki xatirə yazıları əlimə çatdı. Yazının doğal və orjinal olmasıyla yanaşı sürəcin bir başa iştirakçısı kimi yazılması çox dərin bilgiləri ortaya qoyur. Umaram sayın Ərğəvan bəy bu haqdakı bütün bilgilərini millətimizlə paylaşsın. Yazının bir bölümündə oxuruq:

"O zaman İran adlanan ölkənin güc orqanları sayılan ordu, hüquqçular və təhlükəsizlik kadrıları da üç yerə bölünmüş idi . Birinci bölüm Xumeyniçilər, ikinci bölüm Şəriətmədarçılar və üçüncü bölümü isə Pəhləviçilər idi. Qıssa sürəc sonucunda Pəhləvi yandşları ilə Xumeyniçilər birləşdilər. Bu güc orqanların əməkdaşları durumun gedişinə baxıb , davranırdılar . Ancaq bir çox Ordu əfsərləri və generaları sivil geyimdə Şəriətmədarinin buyuruğunu gözləyirdilər. Bu sürəc boyu yuxarıda dediyim kimi Ağa Xamneyi və Ağa Rəfsəncani A. Şəriətmədarinin qapısından heç uzaqlaşmırdılar. Onların amacı bu idi ki, Şəriətmədaridən yazılı dokument alsınlar ki, İran ordusunun Güney Azərbaycandaki yerli əskərləri yaraqlarını yerə qoysunlar. Ayətullah Şəriyyətmədari öncə bu qonu ilə barışmayır və qaranti istəyir. Durum gərginləşir deyə Xumeyni işə qatılır. O, deyir ki, Şəriətmədarçılar yarağı yerə qoymazsalar, rus ordusu Azərbaycanı bombardman edəcək. Bu hədələr sonucunda Şəriətmədari buyuruq (fitva) verir yaraqlar yerə qoyulsun! Bundan sonra Cündullah, Hizbullah, Xalq mücahidləri və kommünistlər eyni səngərdə birləşib Güney Azərbaycan ulusunu nişan tuturlar .

Qanlı günlər yaxınlaşır. Mən və bir neçə Təbriz gəncləri Qum şəhərinin 16-metir məhələsində XMP(xalq muselman partiyası) yandaşları ilə birgə çalışırdıq. Bir çox Qaşqay Türkləri də bizimlə gecə gündüzlərini keçirirdilər. Bir gün eşidik ki, Hərəmdə Azərbaycanlı ruhanilər üsyan qaldırıb. Telefunlar işə düşü. Biz, Hərəmə çatdıqda üsyan genişlənib kücələrdə vuruşma gedirdi. XMP-çılər gücü ələ almışlar. Qum şəhərinin dövlət dayaqları qaçmışdılar. İlk öncə zindanın qapısı açıldı və şəhər polisi geri oturdu. Güney azərbacanlılar büs-bütün şəhəri ələ keçirib idarə etdilər. Üç gün şəhəri qoruduq. Maraqlı burası idi ki, bir cinayət baş vermədi. İnsanların üzü gülürdü. Dördüncü gün Ağa "İranı" telefun açıb dedi. Mücahidin-e xəlq, kommünistlər, Cündullah və Hizbullah yürüşə hazırlaşırlar, geri dünün.

Təbrizdə üsyan baş qaldırdı, yaxın və uzaq kəndlərdən belini, qazmasını götürən üsyana qatılmış idi. Biz, öndə gedərək daş mağazalardan nümayişçiləri bilimyurduna sarı yönətdik. Bilimyurd öyrəncilərindən bizə qatıldılar və öyrəncilərin verdiyi önəri ilə radio binasını çəmbərə aldıq.

Radio işçiləri dirənış göstərmədən qırağa çəkdilər. RADİO ƏLİMİZDƏDİ, ANCAQ VERİLİŞ APARAN YOXDUR. İLK ÖNCƏ VERİLİŞİN BAŞLANQICINDA BURA GÜNEY AZƏRBAYCAN! DANIŞIR TƏBRİZ SƏSİ ölkəmizə yayıldı. Radio verilişlərini apara bilməyirdik. Bir neçə gün o çığırdı, bu bağırdı. Bir gecə saat 11idi, uca səsli bir partlayış eşitdik. Radionun teknik otağında çalışan bir Tudəçi radio cahazlarını partladır və qaçır . Biraz keçdikdən sonra, Sepah, Cündullah, Hizbullah, Mücahidin xalq çirikləri və kommünistlər radionu ələ keçirmək üçün yürüşə keçirlər. Biz radio binasını tərk edik. Bu olaylarda xalq hərəkatına qatılan yalnız, Fədayi Çiriklərinin Əşrəf Dehqani bölümü oldu. Ertəsi gün kommünistlər, Mücahidin Xəlq və bir çox başqa qurumların üyələri XMP yandaşlarına qarşı Şəban bimox[385]kimi basqı yapırdılar . Onların yardımı ilə Sepah XMP binalarını oda çəkdi və bir çox soydaşımız yaralandı, tutulub Sepah komitəsinə aparıldı. Həmin

385 (Şəban Bimox /Beyinsiz Şəban/ Vaxtıyla Müssədiğə qarşı çevrişçi obaşbaşı olmuş və sonralar rəsmi olaraq Şahçı qolçomaqlarının çətəbaşı ünvanını almış fars birisi idi. E.Q)

tutulmuşlardan 11 XMP-ci qurşuna düzüldü. Onların sırasında çox tanınmış Ağa İranı və Məcid Güzəyər də var idi. XMP-ı hərəkatına düşməncəsinə yanaşanlar isə, panFarsizm köləsi siyasi hərəkatları XMP yazğısına düçar olub, qılıncdan keçirildilər.*”*[386]

Sözsüz ki, Təbriz radio və televizionundan 3gün boyunca,“Danışır Azad Təbriz Radiosu, Burası azad Azərbaycan səsidir.” kimi mesajlar, çoxda uzaq olmayan Azərbaycan Milli Hakimiyyətini yaşamışi insanların xatirəsini dirildirdi. Təbriz və bütünlüklə Azərbaycanın güneyi bir daha özgürlük və bağımsızlıq ümidilə ayağa qalxmışdır. Ancaq, örgütlə, kütlə arasında olan kütləsəl-ulusal anlaşılmazlıq bir daha millətimizin xəyalının qırılmasına nədən oldu. Xalq Müsəlman Partiyası və cənab Şəriətmədarı qorxaqlığı qorxmaz və duyğusal millətimizin ulusal göz yaşlarını dərin ulusal kimlik bilincinə dönüşdürə bilmədi. Xalq Müsəlman Partiyasının mərkəz qərargahı Hizbullah əlilə dağıldığı günün gecəsi Tehran mediyası düşmənin bir dəsisəsi daha darma-dağın oldu xəbərini yaydı. Bu olayın sabahısı, başda “İrani” olmaqla 11-nəfərin qurşuna düzülmüş cansız bədəni qazetələrin baş səhifəsini bəzədi. Allah və İslam düşməni kimi adlanan Xəlq Müsəlman Partiyası ləğv olundu. Heç zəman sayı bəlli olmayan suçsuz Türk gənci Xumeyni rejiminin cəlladları əlilə edam edildi. Partiyanın əsas başçıları ortadan yox olub, biraz sonra səsləri Amerika və Avrupadan gəldi. Ayətullah Şəriətmədarı bütün olumlu yöntəmlərinə rəğmən öz milləti üçün Xumeyni ola bilmədi. O məzlum Türkü, düşmənin televeziyonunda axıtdığı göz yaşları və dilədiyi bağış səslərilə nümayiş etdirdilər. Vaxtıyla Xumeyniyə Ayətullah üzma ünvanı verməklə Şahın ona qarşı edam istəyini etgisiz edən Ayətullah Şəriətmədarının ünvanı Xumeyni tərəfindən alındı. Fars şovinizmi Səttarxanlarla, Bağırxanlarla, Xiyabanilərlə, İbrahimilərlə, Azadvətənlərlə etdiyini Ayətullah Şəriətmədarilə də etdi. Onun ölüm xəbərinin qıssa başlığı qəzetələrin çox kiçik bölümündə belə yer aldı. “Seyid Kazim Şəriətmədari ürək dayanması nədənilə öldü!”

---

[386] *(ŞƏRİYYƏTMƏDARİ KİM İDİ ??? (1) - M. Ərğəvan, http://azr.baybak.com/il_2009_say_5250.azr)*

**22. Azərbaycan Türk millətinin Farsçı rejimə qarşı ən uğurlu göstəri taktikalarından biri illik Baybək Qurultaylarıdır.**

Çeşidli qaynaqlarda dəyişik adlarla səsləndirilən simvol qalamız – Baybək qalasının dünyanın ən möhtəşəm qala olması iddiasında deyilik. Çox uca və əl tapmaz qalalar da vardır. Onların da, hər birisinin öz tarixi və hikayəsi vardır. Amma, bir millətin özgür dayanışma simgəsi olan yerlər onlar üçün qutsaldır. Babək qalası Azərbaycan Türk Milləti üçün həmin qutsallığı daşıyır. Bu qala, 22-il boyunca 20-kəz zamanının ən böyük sarayı qarşısında dim-dik dayandı. Dünyanın ən böyük ordusuna keçid izni vermədi. Yalnız bir kərə yenildi. Bu qalanın qapıları yalnız bir kərə düşmən üzünə açıldı. O da, Fars xiyanətinə, iki üzlüyünə, qulluqçuluğuna qarşı qəfillikdən ortaya gəldi. Demək yaşının 1000-il olmasına baxmayaraq bu arxadan xənçər yeməyimiz sürməkdədir. İnan və xəyanətə uğra! sanki, bu bizim üçün bir gələnək olmuşdur!

Sözsüz ki, vaxtıyla dünyanın ən aparıcı və böyük imperatorluğu qarşısında 22-illik dirim-ölüm savaşı aparmağın özü də böyük millət və dövlət tələb edər. Afriqa, Asiya, Avrupanın geniş bölgələrini öz kölgəsi altında inlətən bu Ərəb İmperatorluğunun qarşısında sarsılmadan boy göstərmək, araşdırılması gərəkən dərin sirlərin özündə gizləməkdədir. Bu sirlərin düşmənlər qarşısında böyük gücə çevrilməsi dün olduğu kimi bugün də öz kəsərliyini saxlamışdır. Baybək, yalnız bir sərkərdə olmamışdır. O, Azərbaycanın başa-başında bənzər qalalar saldırmış, bu qalalarda savaş, əkin, damdarlıq, bilim obyektlərini bir yerdə yaşatmışdır. Cəlal Bərgşad "Babək„ adlı tarixsəl romanında çeşidli şəhərlərin Babək ordusu və millət üçün fərqli teknikalara təchiz olmasını yazır. O, Təbrizi, ordu üçün silah qayırma yer olduğunu vurğulur. Bu qonuda gizli mərkəzlərin məhz silahla uğraşması Azərbaycan ordusunun kifayət qədər təchiz olmasını göstərməkdədir. Qədim ipək yolunun Azərbaycandan geçməsi də, ölkə üçün maddı-mənəvi dəyərlər qazandırırdı. Amma bunların hamısının üstünə Azərbaycanda hakim olan yaşam formasının islamdan fərqlənməsi idi. İslamçı yazar və düşünürlərin Baybəki zəndiq vəya kafir sanmaqları da bu açıdandır. Baybak və Xürrəmilərə görə, tanrı

bütün insanları birgə yaradıbdır. Cinsiyyətin insan haqqı üzərində heç etgisi olmamalıdır. Bütün sosial-siyasal sorunların kökü burdadır. Ona görə, ərkəklərə aid olan bütün haqların dişilərə də eyniliyi gərəkdir. Hərgah bir kişi neçə qadınla cinsəl ilişgi qurarsa, qadın da o haqqa malikdir. Buradan başlayaraq toplumda bütün ölçülərin eşidliği[387] sağlana bilər. Bu üzdən Azərbaycan xürrəmilərindəki yaşam fəlsəfəsinin cövhəri vücudu islam eyitimlərilə tam tərsinə düşür. İsalam xəlafəti Azərbaycanda cinsi ayrıntılığın olmamasını islama qarşı üsyan hesab edir. Onun başçılarını, kütləsini kafir e`lan edir. Türk insanının qanını həlal hesab edir. Hər Türkü öldürən adamın yeri cənnətdir deyir. Başqa yandan isə, Baybəkin Kafir olmasının ərəb hakimlərinə və onların dövlət ideolojisi olan islama bey`ət etməməsi idi. Sözsüz ki, Baybəkin qarşısında iki yol ayrıcı var idi. Ya bey`ət edib, Farslar kimi ərəblərin qulluğuna düşəcək, Türk dilini, kültürünü, varlığını ərəbləşdirəcək vəya öznəl-nəsnəl özgürlük uğrunda qanının sonunadək dirənəcəkdir. Baybək, bizim var qalmağımız üçün ikinci yolu seçdi. O, Azərbaycan Türk millətinin özgür, layik, cümhuriyyətçi olduğunu 22-illik savaş və yaşam alanında qanıtladı. Savaşda dünya nəhəngini beyin-məntiq, özveri və ulus gücüylə enərkən, iç yaşamda milləti üçün şəhər kültürü sərməkdə oldu. Şəhərlər saldırdı, o şəhərlərin dayanışması üçün qalalar diktirdi. İnsan eşidligini sözdə deyil eyləmdə yaşatdı. Dövlət quruluşu oluşdurdu. Özgürlük, çağdaşlıq anlamında hakimiyyət simgəsinin rəngini qırmızı seçdi. Azərbaycan sınır boyu qırmızı boyaya bəzəndi. “Ərəb coğrafişünası “Abu Dülef,, yazır: "Bəzz qalası Babək Xürrəminin əsas sığınacağıdır. Qalada qırmızı geyimli adamlar dolaşır və qalaya qırmızı bayraqlar sancılıb".[388]

Baybəkin başladığı ulus qurultayı ərəb və Fars irqçıları sarından yarıda qaldı. Onun istəyi millətinin özgürlüyü və kimlikli yaşaması idi. Onun insanlığa sayğı, insanlığa tapınaq, insanlığa inam fəlsəfəsini insanlıq düşmənləri söndürsələrdə qalanın ürəklərdə yanar ocağını yıxa bilmədilər.

---

[387] bərabərliyi, eyniyyəti

[388]Ebu Dülef اَبُ ضُلَف مِسَر ِبن مُهَلهِل; *Abu Dulaf Misar ibn Muhalhil*, /H. 300 - 331, M. 914 – 944/. Daha bilgi üçün:
http://tr.wikipedia.org/w/index.php?title=Ebu_D%C3%BClef&oldid=8028111
*az.wikipedia.org/wiki/Bəzz_qalas,Vikipediya,açıq ensiklopediya*

Zaman dəyişibdir. Buna kimsənin sözü yoxdur. Ancaq, eyniliklər hələ də olduğu kimi yaşamaqdadır. Xəlafət hakimlikdə, Azərbaycan isə əsarətdədir. Deməк, zülmün kökü bitməyincə Baybək savaşı da bitməyəcəkdir. Çünkü, ulus dəyişməyibdir. Xürrəmilərin inamlarına görə, ulu ruhlar candan cana daşınar. Elə bu üzdəndir ki, 1200-il geçməsinə baxmayaraq babanın ulu ruhu milyonlar evladını bir can-bir bədən edir. Bu evladlar, hələ də and içində atası Baybəkin ruhuna və amacına and içir. Onun, son şamından milyonlar şam yandırır. Çünkü, Baybəkin yandırdığı insanlıq ocağı sönərsə insanlıq sonər. Baybəkin evladları belə düşünürlər, və öz düşüncələrinin sapmaması üçün ulu Baybəkin ruhuna and içirlər. Demək, 1200 il öncəki kimi bügün də bu ulusunu ulu öndəri Babəkdir! Hər il yay çağında bütün əngəlləri aşaraq ulu öndərin ruhu qarşısında qurultay geçirmə əzmində olan milyonlar Güneyli Türkün amacı da bu öndərliyin heç bitməyəcəyinin göstərgəsidir. Ayrıca, bu qurultayın keçirilməsi nə qədər düşmən tərəfindən əngəllənərsə həmən qədər millətimizin qələbəsi sayılmaqdadır.

Bəzilərinin düşüncəsinə görə, “artıq Baybək yuruşu və qurultayı öz sonucuna varmış və bitmişdir. Artıq şəhərlərə yenmək gərəkir!” Məncə, bu baxış doğru deyildir. Azərbaycan Milli Hərəkatı onsuz da şəhərdədir. Babək Qurultayının ulusal simvol olması unudulmamalıdır. Bu qurultay şəhərləri birləşdirən, insanlarımızın sosial-siyasal, inancsal, əxlaqsal çeşidlərini etgisiz edən ulusal gələnəkdir. Bu qurultayın min illərcə sürməsi gərəkir. Belə gələnəklər bütün millətlər içində normal sayılan halda bizim içimiz də nədən diri qalmamalıdır. Azərbaycanın bu ulusal gələnəyini bütün varlığımızla qorumaq gərəkir. Bu gün qurtuluş əzmgahı olan Babək Qurultayı AzadAzərbaycanda 10 milyonların seyrangahı və ulusal görüş yeri olacaqdır. Təki, bu inamda olalım, gələcək dünyanın ən turistik məkanını irqçı rejimin viran edici bəlasından qoruyalım!

**23. Xordad 1385 (May 2006) Ayaqlanması, bir böyük ulusun ulusal kimlik bilincinin evrənsəl harayıdır.**

Bu ayaqlanmanın ruhunda yalnız anti rejimlik deyil, həm də, Türklük anlamına çeşidli yollarla zərbə vuran atalarımıza qarşı hayqırtıdır.

“Ey Adımı, kimliyimi dilinə gətirməkdən çəkinən Atam!” “Harah-haray mən Türkəm”! Bu bir öznəl və zehinsəl iddia deyil. Bəlkə bugün çəkdiyimiz bütün milli zülümlərin kökündür. “Haray-haray mən Türkəm” bir zehniyyət deyildir, dünyaya bir fəlsəfi baxışın açılışıdır. Bu eyniliyi Güneydə yaşamaz olan Türk ulusu, Quzey də 19.cu intibah əsrində təlfiq formada Mirza Fətəli Axundov başçılığında yaşasa da, elə onun Farsçılığın irəliləməsinə də qeyrət göstərməsilə özül təməlində sarsıntı yaratdı. Ancaq millətimizin milli şü`uruna ölümcül darba 1937-ci ildə Rusiya Kommunist Partiya və Stalindən gəldi. Azərbaycanın ruhu olan Türk anlayışı bütün yaşam boyudları və öznəl-nəsnəl varlığıyla sovitizm sallaqxanasına tapşırıldı. Sovetizm ana ideoloji oldu. Orta asiyadan Türk sözcüyü yerini Qazaq, Özbək, Qırqız, Türkmən, Tatar, Qıpçaq v.b. Azərbaycanda isə Azərbaycan termini içində məhbus oldu. Sovetizm vəya Sovetçilik oldu Azərbaycançılıq, Qazaqçılıq, Özbəkçilik v.b. Bir ulusun özül kimligi yaşadığı çeşidli torpaqların adı içində gizləndi. Türkçülük Türkləri birləşdirən bir güc mahiyyəti olaraq aradan qaldırıldı. Rusiya rahatladı. Artıq ortada vahid bir etnos kimliyi yoxdur. Deməк, yalnız sovetçilik vardır. 37-ci il bu ideoloji qarşısında duran hər kəs aradan götürüldü.

Qalanlar tabeçiliyi qəbul edib, böyüdülər. Sözlərinin ilki və sonu Sovetizm və Kommünizm oldu. 1970-dən Türk sözü yavaş-yavaş quruplar içində boy atmağa başlasa da, Elçibəyin ilk fərmanlarından birisinin Türk dilinin dövlət dili olması oldu. Nə yazıq ki, Elçibəydən sonra kommünizm və sovetizmin küləklərinin yenidən əsməsilə yenə də ulusal kimliyimizin anası – Türk – bu kəz sovetizmin Azərbaycan formuna qurban getdi. Azərbaycanın anayasasından bütün Türk sözlərilə yanaşı Türk dili də silindi. Sözsüz ki, Güney bütün öz sorunlarına rəğmən bütöv millətimizə ziyan verəcək xətalara da özgə yanaşa bilməzdir. Çünkü, Türklüyün irançı /liberal,demokrat,siyasi islam və kommunist/ fırtınalarına mə`ruz qaldığı bir zamanda, Güneydə bu fırtınalara sinəgərən bir ulu Türkçülük yaşamaqdadır. Bu üzdən, 1385 Xurdad[389] ayaqlanması sadəcə panfaşist Fars ırqçılarının buraxdığı bir karikatora qarşı normal bir göstəri deyildir. Xurdad qalxınması bir başlanqıcdır. Düşmənə gözdağı olsa da, özümüzdən

[389] 2006 May

olan halən Kəsrəvilərə, Əranilərə, Quzey sovetzədələrinə də ağır bir xəbərdarlıqdır. Çünkü, bu milləti ucuz xərcləmək üçün ən sadə yol onun milli kimliyini əlindən almaqla mümkündür. Türkçülük bir özüllükdür. Bir millətin köküylə bağlı olması üçün bir tanıtımı olmalıdır. Azərbaycançılıq adında etnolojik qavramı olmayan bir teminin özüllüyü olamaz və yoxdur. Azərbaycan bizim sevgili vətənimizdir. Onun üçün canımızı versək belə azdır. Çünkü vətənimiz bir Türk vətənidir. Bütün var-yoxuyla Türkə bağlı bir vətən anlayışıdır. Onun *(çisi)* də, kimliyi də, sonu da, varlığıda ən başından Türklüyü olmuş və belə də olacaqdır. Güneyin 10-larca şəhər və kəndində səslənilən "Haray-Haray Mən Türkəm" kimlik göstərisi çox keçmədən Bakıda da səslənməyə başladı. Niyə ki, Bakının da bu kimlik bilincinə ehtiyacı vardır. Görəsən, Azərbaycan kimi öz milli kimliyinə qarşı bu qədər oynağan olan ikinci ölkə də varmı! Xurdad ayaqlanması aydınlaşmış Azərbaycanda da bundan sonra belə soysuzluğa yol verilməyəcək inamını ortaya qoydu. Azərbaycançılıq deyil, Türklük qapsamı altında özül kimliyə yiyələnmiş olan Azərbaycan Türklüyüdür. Xurdad ayaqlanmasının bütün görünən verilərinin kökündə yalnız bu yatmaqdadır.

**24. Kərkükə görə nəcə yazacağımı bilmirəm. Yalnız bunu bilirəm ki, bu Türk diyarından söz açanda, mənim də gözümün göyünü qara bulutlar bürür!**

Gözümü açar-açmaz, özümü Qarağaclı[390] buldum. Yavaş-yavaş küçə tablolarını oxumağa başlarkən bütün divarlarda Xiyabane Naderi (Naderi küçəsi) adını görürdüm. Amma bu sözü kimsənin ağızından bir kərə olsun belə eşidmədim. Şahçı özgəliklə, İslamçı özgəlik yerlərini dəyişər-dəyişməz məhəlimizin də adı yenidən dəyişdi. Bu kəz tablolar Quds (Qudus)adına çevrildi. Yenə kimsənin ağızından Quds sözü eşidilmədi. İndi gedib orada yaşayanlardan sorsanız ki, yaşadığınız məhəllin adı nədir. %95-i Qarağac diyəcək! Bu örnək, iki gərçəyi bir arada göstərir. Birisi, millətin dərin keçmişinə dayanması və onu bir varlıq kimi

---

[390] [390]* Təbrizin ən qədim məhəllərinidən biridir. Azərbaycanda bu ad çoxdur. Örnəyin Güneydə Marağa yaxınlığındaki Qarağac, Quzeydə isə, Qubadlının Qarağacından ad aparmaq olar.(Qara Ağac)

mənimsəmə çabası, ikincisi isə, millətin və torpağın özgələr əlində əsir düşməsi. Kərkük bütün ülviyyətilə bu acını yaşayan bir vətəndir. Hər hakimiyyət öz meylilə bu vətənin adını, kimliyini və sosial düzənini dəyişməyə qalxdı. Ancaq əzəli Türk kərkük, özünü qorumağı bacardı. Bütün təcavuzlara qarşı anlı açıq yaşadı, yaşatdı, Türk olduğunu dünya üzrə sərdi. Ərəb irqçıları Kərkük haqda əllərindən gələn kötülüyü yapdılar. Adını dəyişdilər, hər beş – on ildən soyqırım yola saldılar, dilini yasaq etdilər, böyük sürgünlər yola saldılar. Aydınlarını yox etdilər. Türkmən Elini ərəbləşdirmək yolunda Səddamın özəl büdcəsini xərc etdilər. Qara Qızılını sataraq sahibini yoxsun buraxdılar. Kərkükü Türkdən boşaltmaq üçün ərəbləşdirməyə çalışdırar. Yetməyincə dağdan-bağdan, təpədən-dərədən nəki kürd var idi Kərkükə, Ərbilə, Mosula, Məndəliyə v.b. Türk bölgələrinə yerləşdirdilər. O da, çatmaz olunca Türklərin öz evlərini başlarına uçurtdular. Etdilər və edirlər. Ancaq, Kərkükün dər-divarından "Mən Kərkükəm, mən aslanlar diyarıyam. Türkəm, Türk qalacağam" sözü, nəyinki azalmayır, hər şəhidin qanı torpağını suvarirkən daha da yüksəlir. Bu Kərkük nədir ki?! Nədən xoryatlarıyla coçuqlarının ilk nəfəsi eyniləşir? Bu diyarın bu boyda düşmənlər qarşısında ayaqda qalmasının simgəsi, güçü və sirri nədədir?

Tarix bilimi, uzun zaman Yunanın[391] dünyanın ilk mədəniiyət mərkəzi və Şəhər dövləti olmasını kəsin bilim bəlgəsi kimi sərgimişdir. Ye`ni qazıntılar və tanıqlar əldə olununca Fir`on Misirinin Yunandan daha qədim olduğu isbat olundu. Bilim bir yerdə dayana bilmədiyinə görə, yenə irəliləməyə və yeni isbatlara imza atıldı. İlk öncə Mişiqan, sonra Avrupanın adlım və e`tibarlı bilim mərkəzlərinin nəzəriyyələri dəyişməyə başladı. Belə ki, Yunan deyil, Misir də deyil, dünyanın ilk mədəniyyətinin beşiyinin Orta asiya, Urmu, Ur, Uruq bölgələri olması kəsin bəlgələrə dayanaraq isbat olmuşdur. Və dünyanın ilk uyğarlıq (Şəhər dövlət) bölgəsini oluşduran qövm isə, Sumerlilər olmuşdurlar. Çox gümanki Sumerlərin Mezapotamiyada[392] qurduqları ilkin uyğarlığın (mədəniyyət) ana təcrübəsi indiki Türkmənistanın başkəndi Aşkabadın yaxınlığında

---

[391] Rumun
[392] Yunanca iki çay arası deməkdir, Sadəcəsi İkiçayarası/Dəclə-Firat/.

formalaşan Ano vəya Anoa [393] uyğarlığı [394] olmuşdur. Sumerlilərin Miladdan öncə 6-5-ci minilliklərdən başlayaraq Ortasiyadan Önasiya, Qafqazlar, Güney qafqaz, Urmu gölü, daha batı və güney batıya doğru dağılmaqlarıyla Mezapotamiya adı tarixə düşmüşdür. Ur, Uruk, İrak və Sumer qonusunu ələ alanlara görə, Sumerlər özlərini kəngərlilər adlandımışdırlar. Bəlli olan bu ki, Sümerlərin Dəclə-Fəratın bitişməsində yaşadıqları və oradan bugünkü Bəsrə Körfəzinə çıxışları olmuşdur. Onlar geniş suların bütün çevrəsinə Kanqar, Kan-akar və sonralar Kəngər demiş, özlərini isə bu yerlərin yiyəsi sayaraq Kəngərli adlandırmışlar. Bu adın keçmişdən indiyənədək geniş El, Yer, Qoşaq formaları alması və yaşaması görünən gərçək tarixin canlı tanığıdır.

Tarixsəl faktlara dayanaraq Sami ellərinin dəyişik quşaqlarının Sumerlərdən ən azı 1000-il sonra oluşması görünməkdədir. Samilərin (Akkadların) Sumerlərdən sonra Elamilər və Kutti-Lullubilərlə yaxın bir zamanda toplum kimi formalaşması faktına dayanaraq diyə bilərik ki, Sumerlər və ya Kəngərlilər İraq ölkəsini quran ilk soybirləşməsi olmuşdur. Uruk Kəngərlilərin ilk sivilizasiyon mərkəzi olmuşdur. Bu adla (Uruk, İrik, Urik) bugünkü „İrak, İraq“ adlarının bənzərliyini diqqətə alarsaq çox güman ki, İrağın bir ərəb sözü deyil, Uruğun dəyişmiş forması olduğu ortaya çıxacaqdır. Yenə də, qaynaqlara dayanaraq, M.Ö.3000-li illərdə Urmu gölü çevrəsində Arratta uyğarlığına (şəhər dövlət) raslaşırıq. Arrattanın əsil hakimləri kuttilər və Lullibilər olsa da bunlara bağlı olan kiçik qövmlərdə olmuşdur. Elə bu üzdən, bu uyğarlığın Urmu Gölü yaxasından gərnəşərək doğudan Ərdəbilə, batıdan Kərkük və Mosula habelə Süleymaniyə ucalıqlarına, quzeydən Xəzər çevrəsinə, qüneydən isə Zaqros həndəvərinə uzanması tarixə düşmüşdür. Yalnız belə böyük dövlət olmaq şərtilə Sumerlərə qalib gəlmək və 100- ildən çox bir zaman içində bu böyük uyğarlığa hakim olmaq mümkün idi. Çox ehtimal ki, həmin illər içində Kərkük, Mosul və Ərbil kimi şəhər qalaları formalaşmış, Türk kökənli Sumerlər, Kuttilər əlilə idarə olmuş, böyümüş və bölgənin ilk abadanlıqlarına çevrilmişdir. Sadə bir matmatiksəl məntiğiylə bu fərzi

---

[393] Bu qonuda artıq bəlgələrə əl tapmaq üçün Begmirad Gerev,in dəyərli əsəri “Türkmenler – Sümerliler, Türmenistan - Mezopotamya”adlı kitabının oxunması rica olunur.)

[394] sivilizasiyonu, mədəniyyəti

biraz araşdıraq: “Demək olar ki, 12 və 13-cü yüzilliklərədək rastladığımız bütün ərəb tarix qaynaqlarında Kərkik, Kərkük adıyla yanaşı Kərxini adı da çəkilir. Bir çox hallarda Kərkük, Kərkik deyil, yalnız Kərxini adı tarix kitablarına düşür. Çox maraqlıdır ki, yerli ərəblər “Kərxini” adını təkrar-təkrar işlədərkən, Avrupa səyyarları və ərəb olmayan Kərkükda olan tacir və gəziçilər bu şəhərin adını orada yaşayan yerlilərin dililə Kərkük, Kərkik adlandırırlar. Bu sadə örnək göstərir ki, yerli əhali öz yaşadığı yerin adını ərəblərin qoyduğu addan daha əskilərə dayanaraq mənimsəmiş və bütün basqılara rəğmən onu qoruyub saxlamışdırlar.” İraq Səlcuqlarının çox önəm verdiyi Mosul, Ərbil və Kərkük bölgələrinin durumu 11-12-ci əsrlərdə çox parlaq olmuşdur. Səcuqluların düşüsüylə isə, Mosul böyük Atabəylik dövləti olaraq mərkəzi İraq Səlcuqlularla birlikdə ərəb adalarına qədər çəkilən böyük həndəvərin hakim dövləti olmuşdur. Ərbil bütün həndəvərilə birlikdə Ərbil Xanlığı (Kiçik atabəylik) sistemində özgür dövlət qurmuş, Kərkük isə özəl xanlıq olaraq idarəsini ələ almışdır. Monqulların bölgəni tutduqlarından sonra da, bölgə öz önəmliliyini əldən verməmişdir.

Kərkük mərkəzli Türkmən eli, istər Ərkən Ortaçağ,[395] istər sə, Ortaçağ [396] illəri arasındaki bütün tarixilə Azərbaycanla iç-içə girmişdir. Yalnız Son Ortaçağ [397] başlanmasıyla Sultan Səlim və Şah İsmail cəhalətindən doğan mərkəz çöküşündən[398] sonra Türkmən elinin taleyi Azərbaycandan qoparaq Osmanlı imperatorluğuna bağlanır. Burada, söz qonusu Türkmən elinin nədən Azərbaycandan qopup da, Osmanlıya bağlanması deyildir. Bu üzdən bu qonuya girmək istəmirəm. Amma bu əldən-ələ keçmələrin sonucunda Türkmən elinin və Azərbaycan

---

[395] M.S. 3-10 yüzilliklər – qulçuluqdan feodalçılığa keçid illəri
[396] 11-15- ci əsrlər – klasik feodalçılıq dövrü
[397] 15-18, -feodalçılığın sonu
[398] Çaldıran yenilgisilə Azərbaycanın siyasal mərkəzlikdən düşməsi olayı başlayır. İslam-ərəb basqısının bitimilə Azərbaycan – Özəl olaraq Təbriz, bölgənin siyasal mərkəzi olmuşdur. Təbrizin mərkəzi Azərbaycanda yerləşir. Bu səbəbdən, bütün bölgələrə ən yaxın ilətişim güc mərkəzi sayılır. Bu və bir çox nədənlər üzündən Təbriz mərkəzli Azərbaycanın siyasal və ulusal mövqeyi bölgənin bütün qalması üçün ən gərəkən şərt sayılırdı. Ancaq, çaldırandan sonra hər şey əldən getdi. Nəyinki Təbriz, həm də Azərbaycan öz üyksək yerini itirdi. Azərbaycanın mərkəzlikdən düşməsilə Türk dili, kültürü və varlığı da böyük anlamda dəyərini itirməyə başladı. Bu üzdən də Azərbaycanla İraq Türklərinin ilşgisinə son verildi.

Türklüyünün belə acınacaqlı duruma düşməsinin üzərindən də qolay-qolay vaz keçilməz.

18-ci yüzilliyin sonlarından başlayaraq, Avrupa güclərinin gözü Mosul, Ərbil və Kərkük bölgələrindən əskik olmadı. İngiltərə və Almanı dərindən maraqlandıran bölgənin petrol və stratejik durumu Osmanlı dövlətinin tavansızlaşmasıyla böyüməyə başlamışdır. 19-ci əsrin sonlarına doğru gizli maraqların aydına çıxmasıyla Osmanlı dövlətinin sıxışdırılması gündəlik xarakter daşımaqdaydı. Birinci dünya savaşı bahanasıyla başda İngiltərə olmaqla Birləşik [399] ölkələr Osmanlı imperatorluğuna qarşı savaşa girdilər. İngiltərənin bəri başdan amacının Kərkük olduğu bütün davranışlarından bəlli idi. Savaşın ikinci ilində Kərkük üzərində böyük direniş üz verincə İngiltərə güclərinin bölgəyə girməsi mümkün olmadı. Ancaq, 1918-ci ilin may ayında Bağdadın ardından Kərkükdə ingilislərin əlinə keçdi. Artıq Kərkük və Türkmən eli üçün yolda olan bir sonun başlanğıcı idi. Türkmən eli Türk əlindən çıxmışdır. 1918-10-30 tarixində adlım Mondros anlaşması Osmanlı imperatorluğunun məğlubiyyətini təsdiqlədi. Türekmən eli bütünlüklə İngiltərənin idarəsi altına verildi. Bu anlaşmaya görə, birləşik qüvvələr istədiyi zaman Osmanlı torpaqlarına əngəlsiz girmə iznınə yiyələndilər. Həmin anlaşma əsasından 1918-11-03 -də ingilislər sakin və yumuşaq formada Mosulu işğal etdilər. İngiltərənin Kürdlərə qarşı göstərdiyi dostluq və dövlət vədi qarşısında Kərkük, Ərbil və Mosulda etiraz aksiyaları başladı. Bu aksiyalarda çoxlu Türkman soydaşımız həlak olundu. Etirazlara qarşı İngiltərə və birləşik qüvvələrin sərt davranışı Türkiyəni də ayağa qaldırdı. Osmanlı hakimiyyətindən ümidi üzülən sivil toplumlar ingilislərin kürdlərə verdiyi vəidi də etgisiz halə gətir bildilər. 1922-ci iyun ayında M.K.AtaTürkün başçılığındaki Türkiyə Böyük Millət Məclisi [400] Türkmən elinin işğal altındaki torpaqlarının qurtuluşu üçün yüksək komitə yaratdı. Ancaq, Anadoluda, Egedə, Ağdənizdə sürən Qurtuluş Savaşları Qüvaye Millinin İrağa irəliləməsinə imkan vermirdi. İraqda isə, ittifaq qüvvələri qarşısında əli yalın Türklərin savaşı yalnız direniş xarekteri daşımaqda idi. Osmanlı dövlətinin sona ərməsilə TBMM

[399] müttəfiq
[400] TBMM

rəsmi olaraq Türkiyənin yeni dövlətçilik forması kimi dünya tərəfindən qəbul olundu. 8-ölkənin Türkiyə üzərində yırtıcılıq arzuları AtaTürkün öndərliyində olan Qurtuluş Savaşları qarşısında xəyal qırıqlığına uğramışdır. Milyonlar qan bahası olan TBMM-i Türk ulusunun ayaqda qalmasını sağlamışdır. İngiltərənin ağır həzinələrlə Türkiyədən məğlub ayrılması qoca tilkilər üçün ağır gəlirdi. Bu üzdən ən azından quzey İrağın, özəlliklə Mosulun, əldən verilməməsi arzu olunurdu. 1922-ci ilin noyabr ayında İsvecrənin Lozan şəhərində barış anlaşması konfransı işə başladı.

TBMM-i tərəfindən Dışişlər bakanı İsmət Paşa nümayəndəlik edirdi. 8-ay sürən bu uzun maraton dartışmalardan sonra Mosul qonusu sonucsuz ortada qaldı. İngiltərə yenə tilkilik edərək Mosul sorununun çözüməsini öz etgisi altında olan Millətlər Birliyi Təşkilatına buraxdı. 1924-cü ildə BMT-nin səs çoxunluğuyla Mosul, Kərkük, Ərbil İngilis himayəsində olan İraq dövlətinə verildi. Türkiyənin dirənişi bir sonuca varmadı. Səddamın Həsən.əl.Bəkrdən sonra B`əs Hizbinin başçısı seçilməsi və İraq diktakoru olmasıyla Türkmən elinin daha da qara günləri başladı. Kərkük, Ərbil, Mosul, Tüzxumatı, Tələfər, Altınköprü ardı-ardına soyqırıma uğradı. Türkmənlər öz ev-obalarından sürgün salındılar. Yerləri boşalan Türklər yerinə sistemli olaraq ərəblər, deymi olaraq isə kürdlər yerləşdi. Bu diktator zəmanında əsil Türk trajedisi yaşandı. Türklər min illərcə yaşadığı torpaqlardan deportasiya olundular. Səddamın ölümündən sonra bu görəv kürdlərə verildi. Hər gün Türkmən evlərinin partlamasıyla yeni can bahası verilməkdədir. Öz ana torpaqlarında azınlığa düşən Türkmən eli yaşam mücadiləsi verməkdədir. Sanki bu taleyin uzun quyruğu sonsuzluğa uğramışdır. Lakin, birlik olarsa diriliyə nə var ki! Düşmən umud qırmaqla uğraşırsa ulu ulusumuz da hər gün umud verimliliyini dahada kəsgin göstərməkdədir. Əgər, aydın Türklər öz aydınlıq görəvlərini düzgün başa düşsələr. Əgər, Türk aydınları öz bünyəsini özgəlikdən, küləlikdən qurtara bilsələr! Əgər Türk yazarı, tarixçisi dostluq duzağından nicat taparsa...!!!

**Bu qonunun ardından bir neçə söz.**

Azadlıq, özgürlük və ulusal inancın sərgiləndiyi yerdə təslimçilik olmaz! *"Qoy mənim yazımdan ərəb, rus, Fars qardaşların acığı tutmasın! Elə yazım ki, nə şiş yansın, nə Kəbab! Mən bir alim olaraq elmə qarşı gələ bilmərəm!"* Bu əhvalat, bəzi yazar soydaşların acı gərçəyidir.

Türk Yazarının üzərinə qara buludlar gəzdirən aşağılıq kompleksin aradan qalxmasının Türk ulusuna bir qurtuluş qədər önəmli olduğunu hər kəs vurğulur. Ancaq, bu necə ola bilər sorusuna yanıt verən cəsurlarımızin sayı hələ azdır. Bir Azərbaycanlı yazarın qələminin Fars olmasıyla bir Türkmən yazarının qələminin ərəb olması eyni köləliyin anlamıdır. Bu qələm nə qədər də kəsgin, ulusçu və vətənçi olsa belə, öz ana dilini əzib başqa dildə yazılması, kəsinliklə köləlik izidir. Sözsüz ki, burada bir yazarın başqa dildə yazmasından söz getməyir. Bəlkə yazarın özdilini bilməməsindən, onu öyrənməyə qeyrət göstərməməsindən, hayat fəsəfəsini, düşüncə alanını düşmən dildə axtarmasından söz gedir.

Dünya bizim millətin dərdinin dərin boyudlarını anlamaq üçün dil kontaktına möhtacdır. Onu öncə biz verməliyik, sonra maraqlanan bizimlə ilgilənəcəkdir. Belə olan halda əlbətdə ki, dünya dilində yazmaya, köçürməyə böyük dəyər verməyimiz gərəkir. Ancaq, bu öz ana dilini unudub yabancı dildə, özəlliklə ərəb, Fars və rus dilində yazma anlamına gəlməməlidir. Çoxlu duyğusal və ürək yaxıcı söhbətlərlə tanış oluruq. İstər Azərbaycanlı, istər Türkmən alimi özgə dilin basqısı altında boya-başa çatdığını, bu acı taleyin gətirdiyi təhqirdən necə qurtulacağını dilə gətirir. O, hətta artıq ayıldığını, bundan sonra hər hansı aşağılayıcı amillərlə savaşacağını və`d edir. Lakin, bunlar hamısı sözdə qalır. Çünkü, əski alışqanlıqdan qurtula bilməyən düşünürümüzün özgür devrimə ehtiyacı vardır. O, başdan-dibə dəyişməli, öznəl və nəsnəl olaraq özgür düşünməyə yiyələnməlidir. Onun beyin axışı, dünya görüşü, yaşam bağlantısı dəyişməlidir. Həmədanlılar demişkən: "həm xudanı, həm xurmanı" istəmək olmaz! "Bir tərəfdən öz ulusumu sevecəyəm, başqa yandan isə, ulusumu qara günə oturdan düşmən zehniyyətilə yaşam sürəcəyəm!" kimi qorxunc davranışlarla ulusa hizmət deyil, xiyanət yolu daha da geniş acı

verəcəkdir. Qırıcı düşmən qarşısında qırıcı olmaq gərəkir. Bu, həm Təbrizin, həm isə Kərkükün böyük istəyidir.

## 25. Türk Səlcuqlu İmperatorluğunun[401] doğal uzantısı olan Mosul[402] və Azərbaycan[403]Atabəyliləri Dövlətlərindən öyrənəcək çox şeylər var.

Adını Oğuz Türkü Səlcuq bəydən almış Səlcuqlu Xanlığının adı-sanı bütün tarix kitablarına düşmüşdür. Güc alanına girməsilə bütün Asiya, Afriqa və Avrupanın siyasal-sosial durumunu dəyişdirən bu Türk elinin gücünün sirri nədeydi? Səlcuqlu varlığı bir tərəfdən ordu və savaş gücü, başqa yandan isə, insanlığa və insanlara doğru ortaya qoyduğu yeni baxış açısıyla ortaya çıxmışdır. Uzun zaman ərəb sayağı əşirətçilik və quldarlıq sistemi altında inləyən insan toplumları səlcuqluların ərəblərdən daha dəyişik olduqlarını görüncə onlara sarı çəkilirdilər. Səlcuq bəyin ilk addımlarından ortaya qoyduğu dəyişik davranış tipi bölgə xanları üzərində çox olumlu sonuc vermişdir. O, aldığı hər bölgənin idarəsini haman bölgənin ən nüfuzlu xanına tapşırmışdır.

Örnəyin Mosulun bütünlükdə xanlığının bir şahzadə əlində olmasına baxmayaraq, Kərkük, Süleymaniyə, Ərbil kimi önəmli Türk torpaqları yerli Türk xanlarına verilmiş, onların Mosula tabeçilikləri vergi və qoşun hissələrinin mərkəzə göndərməsilə tə`min olurdu. Bu yeni tip idarəçilik həm də, qarşılıqlı qoruma sistemi olaraq netləşirdi. Qonşu xanların iç hakimligi başqası vərində basqıya uğrarkən imperatorluq sistemi onu savunma gərəyində qalırdı. Bu siyasət bir yandan Səlcuqlu dövlətin qarşısında böyüməkdə olan yerli xanların təhlükəsini artırsada, əvəzində hər hansı tab`e xalqın özünə dayalı yaşamasına imkan verirdi. Və bölgələrdə olan yetənəklərin pöhrənməsinə nədən olur, imperatorluq üyələrin öz kültüründə, dilində, kimliyində yaşamasına olumlu şərtlər yaradırdı. Gələnəksəl olaraq Türk Elatlıq sisteminə bağlı olan Səlcuqlu dövlətin Səlcuq Bəydən sonrakı durumu da çox dəyişmədən öz yoluna

---

[401] (1038-1157)
[402] (1127-1233)
[403] (1136-1225)

davam edir. Səlcuq Bəydən sonra böyük xan olan nəvəsi Toğrul Bəy də, öz atasının gedişatını sürdürməyə başlarkən daha da böyük dövlət olma yolunda irəliləyir. Hər xan gəlincə bu imperatorluğun alanı böyüyürdü. Ərazinin böyüməsilə imperatorluğun da ömrü azalmağa başlayırdı. Bu gedişlə, 13.cü yüzilliyin başlanqıcıyla böyük xanlıq öz içində başqaldırmalara tanıq olur. Afriqadan, bugünkü Avrasiyanı, Hindistanı, Əfğanistanı, böyük Xorasanı, bütün İraqı[404]bir yerdə tutaraq idarə etmə sistemi sözsüz ki sonsuza qədər sürəməz idi. Təb`i ki, bu böyüklükdə imperatorluğun yaranmasının başlıca səbəbi savaş və torpaq basqısı olmalıydı. Savaş meydanında ya yenilib yox olmalı, ya yenib yiyələnməlisən. Səlcuqlar bu yolda bütün yenib yiyələndilər. Ancaq, bu savaşların üçü imperatorluq yolunu Səlcuqlulara açan açar olmuşdur. Səlcuqlu ordusu ilk öncə rəqibi olan soydaş sülaləni – Qəznəvi ordusunu yenərək bölgənin ağası olmaq üçün irəliləməyə başlamışdır. Bu olay, 1040-ci ilin yayında, Orta asiyanın gözdəsi İpək yolu keçidi Mərv şəhrinin yaxınlığında gərçəklənir. Bu yenmənin sonucunda Mərv şəhəri Səlçuqların başkəndi olur. Elat sistemində durmaq yoxdur görüşündən yola çıxan yeni güc irəliyə doğru davam edir. Bir çox ölkələr alınandan sonra, çağın ən böyük dövləti sayılan Ərəb-İslam imperatorluğu vardır. 1055-ci il, bəşəriyyəti islam adıyla ərəb irqçılığına tutan ərəblərin sırasıydı. Toğrul Bəy, İraqa yola düşmədən öncə Bəni Abbasilərin tab`e olmalarını istəyir. Baybəkin şokundan hələ də çıxa bilməyən ərəb abbasilərin təslim olmayacaqları, tərsinə Toğrulun başına talib olduqları öyrənilir. Çox az bir zamanda Bəğdad bütün ululuğuyla təslim olur. Səlcuqlar, Türk anlamının insanlıq anlamıyla yanaşı olmasını islam xəlifəsinə göstərir. Toğrul Bəy, təslim olmuş xəlifənin bütün sarayını, xəlifəliyini özünə bağışlayır. Bu tarixdən sonra, İslam-Ərəb İmperatorluğu Böyük Sultan Toğrul Səlcuqlunun vassalığına[405] çevrilir.

Ərəblər, Türklər adına sikkə vurmaq zorunda qalırlar. İslam və ərəb xəzanədarlığı Türk xanlığının gözü altına keçir. İki böyük qələbədən sonra, bir üçüncü Türklük əngəli də qarşını kəsmişdir. Türk kökənli

[404] İraqi əcəm və İraqi ərəb
[405] Bağlı dövlət, İmperator dövlətə vergi verən yerən dövlət.

Urarto [406] və Hititlərdən [407] sonra Anadolu min il boyunca Doğu Rumların[408] işğalındaydı. Anadolunun artıq əzəli Türk torpağı olduğu unudulmuşdur. [409] Üçüncü imperator Alpaslan başçılığında, Türk ordusuyla bizans ordusu arasında o günədək Türklərin ən önəmli və gərəkli savaşı üz verdi.1071.08.26 -da Türkiyənin Muş əyalətinə bağlı Malazgird kəndində, bölgənin bütün taleyini dəyişən Türk qələbəsi baş tutdu. Bu zəfərdən sonra Səlcuqların sınırı sınırsız boyut almağa başladı. Anadolu 1000-ildən sonra yenə Türkləşdi. Orartto və Hititlərin törələri Aşurlara və Bizanslara uduzduqları anatorpaqları bir daha Türk qurşağına qovuşdurmağı bacarmışdır. Artıq, bu torpaqları idarə edəcək mərkəzçi bir dövlətin oluşunun çətinləşməsi yoldaymış kimi görünürdu. Başqa yandan isə, daha qalib gələcək bir hədəf ortada olmayınca, imperatorluğun gücdən düşmə zamanı da çatmağa başlamışdır. Bir çox tarixsəl dəyişiklərin yaradanı olmuş bu böyük yürk xanlığı 1225-də imperatorluq sistemində sona ərmiş olur. Ancaq, millətlərin içində ərəb imperatorluğu, Sasanilər imperatorluğu kimi mənfur olmadıqlarına görə, hakimiyyətdən sonrakı dövlətlərdə də sayğın və sözü keçər olaraq qalır, yaşayır və nəsil olaraq bu gün də yaşamaqdadırlar. Bu necə oldu?

Səlcuqilərin geniş torpaqlara bir turlu güc və siyasət aracıyla hükum sürməsi gündən-günə parçalanmalara da yol verirdi. Böyük sultanların ölümüylə bu istəklər dahada genişlənirdi. Sultan Məhəmməd Təpərin Azərbaycan, Cəzirə və Diyarbəkirə başçı olmasıyla, qardaşı Səncər də Xorasana hakim oldu. Bu iki qardaşın arasında olan böyük sultanlıq yarışması, Təpər diriykən gizli qalsa da, onun ölməsindən sonra 14-yaşlı oğlu Məhmudun atasının yerinə oturmasıyla aydınca düşmənliyə

---

[406] Orrarto
[407] Hitlərdən
[408] Bizansın
[409] Bugün də, bəziləri tərəfindən danılırı. Güya Anadolunun Bizansdan öncə Türk torpağı olmasıyla bağlı əldə bəlgə yoxdur!!! Kimi davranan Türk bilginlərinin qarşısında belə bir soru olinca ona səssiz qalmaları da çox ilgincdir. Bu soru belədir: Bizans doğuşundan öncə Anadoluda kimlər yaşamışdırlar? Urartolar və Hitlərin kök soyu nə olmuşdur? Türk dilindən başqa hansı yapışımlı dilin bölgədə olmasının bəlgəsi vardır mı? Anadolunun yeni tarixçiliyi bunun axtarışında gözqabardıçı tanıqların yer köksündın çıxmasını hər gün Tel kanallarında dünyaya göstərirlər. Bunlara rəğmən Anadolunun 11-ci yüzillikdən türkləşmə əfsanəsi hələ də Türkiyənin qalib düşüncəsidir. Utanc verici deyil mi?.

çevrilmişdir. Səlcuqlular içində İqta torpaqlar (hakimlik payı) sayılan çeşidli sınırların bağımsız hərəkətləri artıq durmaz olmuşdur. Səlcuqlular içində hakimiyyət savaşı, qardaşı-qardaşa, əmini qardaşoğluna qarşı qoymuşdur. Bu zaman Bağdadda cümə xütbəsinin Azərbaycanda sultanlıq sürən Məhmudun adına oxunması, sikkənin onun adına vurulması, vergilərin onun adına yığılması sürürdü. Xorasanda olan sultan Səncər isə, özünü haqlı sanaraq bu haqsızlığın durdurulması uğrunda çalışırdı. Elə buna görə, əmilə qardaşoğlu arası olduqca açılmışdır. 1119-08-11 günündə Azərbaycanın Savə şəhərində iki sultan arasında ağır savaş üz verdi. Səncərin qələbəsilə sultan Mahmud ondan asılı duruma düşdü. Əmi öz qardaşoğlunu Vəliəhd elan etdi. Əlində olanlardan daha çox iqta torpaqlara yiyləndirdi. Bağdadın cümə xütbələrində öz adıyla birlikdə Mahmudun da adını səsləndirdirdi. Sikkələr hər ikisinin adına vuruldu. Beləliklə yeniyetmə qardaşoğlunu öz kontrolunda tutaraq, başqa kiçik yaşlı Səlcuqlu bəylərə də iqta payı artırmağa başladı. Sultan Səncər beləliklə Böyük Sultan oldu. Durum Azərbaycanda, Qafqazlarda, Anadoluda biraz durulsa da geniş imperatorluq ölkələrində gündən-günə dərinləşirdi. Sultanın ailə içindən sürəkli qurxusu var idi. Bu qorxu onu mərkəzdən uzaqlaşdırma cəsarətindən salmışdır. Bu üzdın günü-gündən imperatorluq qopurdu.

Bir tərəfdən bölgələrdə olan vassallıq hakimliyin güc mərkəzinə dönüşməsi, başqa yandan isə bu güclərin böyük sultandan asılı olması başlı-başına bir sentezin doğuşuna yol açırdı. Səlcuqlu başçılarının yerli hakimliklə içində get-gedə güc itirmələri də bu nədənlə baş verirdi. Yerli hakim Səlcuqlular isə, belə hallarda özlərinin durumunu qorumaq üçün güc paylaşımına boyun əyir, yerli etniklərə qarşı xoşgörüylə yanaşırdılar. Belə vəziyyətdə, işdən asılı olaraq yerli əmirlər daha çox iqtidar əldə edir, xırda feodalları özünə sarı çəkməyi bacarırdılar. Bu gedişatın nəticəsi isə, adda tab`e, eyləmdə sərbəst xanların böyüməsi idi. Tarixin də göstərməsinə görə, Səlcuqluların yerli hakimlikdən düşməsində böyük qan axıtması olmamışdır.

## Sultan Məsud zamanında parlayan Azərbaycan və Mosul Atabəylikləri

Sultan Səncərin və bütün Səlcuqlu Xanlığının Vəliəhdi, Sultan Məhmudun hökmu ilə Azərbaycan və Mosul bitişik torpaqlar, İqta payı olaraq kiçik şahzadə Məsuda verilir. Məsud, Azərbaycan və Mosul feodal və xanlarını özünə sarı çəkəndən sonra güclənməyə başlayır. Daha çox keçmədən böyük qardaşı sultan Mahmudun qarşısını kəsir. Az yaşlı və təcrübəsiz olan Məsud qardaşının dəlil-nəsihətinə baxmayaraq Mahmud üzərinə qoşun yürüdür. Akbatanın Əsədabad bölgəsində iki qardaş savaşa girir. Məsud savaşı uduzarkən qardaşına sığınır.[410]

Qardaşı onu bağışlayır. Olduğu hər nəyin daha çoxunu ona verir. Ancaq onu üsyana qaldıran bütün vəzirlərini edam edir. Bundan sonra Azərbaycan, Mosul və Cəzirədə cümə xütbələrində Məsudun adı çəkildi. Azərbaycan-Mosul taleyi daha da iç-içə girir. Bölgənin iki böyük xanlığı hər qonuda birgə idarə sisteminə bağlanır. Təbrizdə gedən əmir Kərkükdə də eynilə eşidilir. Ortada olan iqta sınırlığı ortadan qaldırılır. 1127-ci ildə Mosul Atabəyliyi vassal hakimlik olaraq qurulur. Bu yaranan ilk Atabəylik dövlətdir. İmadəddin Zəngi ilk yerli Türk Atabəyi olaraq Səlcuqlu sultanından asılı olaraq məmluk və feodal dövlət yaradır. 1132-ci ildə Mosul şahının istəyilə İmadəddin Zəngi bağdada qoşun yeridir. Şah Məsud sultanlıq uğrunda sərkeş xəlifənin aradan qalxmasını hədəf göstəyir. O üzdən Azərbaycanla Mosul ordusunu birləşdirərək Bağdadı qoşatmaya alır. Bağdad qapılarında Məsudun qardaşı Səlcuq Zəngini geri oturdur. Bağdad xəlifəlikdə qaldı. Ancaq iki qardaş anlaşmasıyla Azərbaycan şahı Məsud Böyük Xan adlanır. Səlcuq öz mövqeyini gücləndirərək qardaşının vəliəhdi məqamına yüksəlir. 1135-ci ilin april ayının 24-də Sultan Məsudla ərəblər arasında Bisitun yamaclarında savaş üz verir. Çox keçmədən xəlifə əl-müstərşid əsir alınır. O günədək öz hiləçi siyasətilə qardaş Səlcuqlu sultanları biri-birinə salmış ərəb xəlifəsi artıq Türk sultanı əlində əsir olmuşdur. Xəlifə Marağadaykən İsmaililərin əlilə

[410] pənah aparır.

öldürülür. O zaman İsmaililər Abbası xəlafətinin ən qorxulu düşməni sayılırdılar.[411]

Bu arada Azərbaycanda Şahzadələri tərbiyə edən atabəy Qara Sunqur da gündən-günə güc qazanırdı. Qara Sunqurun şahzadələr Səlcuq və Davud üzərində atalıq söz sahibliyi var idi. Səlcuq və Davud kimi iki şahzadənin atabəyliyini etmək Qara Sunqur üçün çox böyük avantaj sayılırdı. Həmidə, Azərbaycan Atabəyinin ordusu təkbaşına bölgənin ən böyük qoşunu sayılırdı. Belə ki, Qara Sunqurun istəmədiyi kimsənin gücdə qalması mümkünsüz idi. Onun Azərbaycanda oturub Həmədanda sultanlıq təxtində oturan sultan Məsuda meydan oxuması da, gücünün çoxluğundan asılı idi. Bu haqda böyük alim Ziya Bünyadov yazır: "Doğrudan da, böyük ordusu olan atabəy Qara Sunqur sultan üçün təhlükə törədirdi. Atabəy Qara Sunqur öz müstəğil mövqeyindən istifadə edərək, 20 minlik qoşununun başında Həmədana doğru hərəkət etdi. Hicri 533-cü ilin əvvəlində (iyun 1139-cu il) Qara Sunqur Həmədana yaxınlaşdı və sultana vəziri əl-Həzizi edam etdirmək üçün belə bir qəti tələbnamə göndərdi: "Ya vəzirin başını bizə göndər, ya da biz başqa sultana xidmət edəcəyik". Bu tələbnamənin mətni dövlətin bütün görkəmli əmirlərinə göndərildi. Heç bir vaxt belə bir əks-hücuma məruz qalmayan sultan Məsud özünü itirdi və Qara Sunqurla mübarizə aparmaq üçün kifayət dərəcədə hərbi qüvvəsi olmadığından, bu qəti tələbi qəbul etməyə məcbur oldu. Vəzir edam edildi, onun başı Qara Sunqura göndərildi."[412]

Qara Sunqurun gücünün get-gedə artmasının sonucunda Azərbaycan Sultan Məsuda qarşı olanların mərkəzinə çevrildi. Qara Sunqur savaş yolunda olarkən Gəncədə ağır deprəm üz verir. Qaranın bütün ailəsi 10 minlərcə Gəncəlilə birlikdə ölürlər. Qara Gəncəyə dönərkən yerlə bir olmuş bir xarabalıq görür. Çox keçmədən bu vəya başqa səbəbdən dolayı vərəm xəstəliyilə dünyasını dəyişir (1141). Qara Sunqurun bütün ailəsinin deprəmdə həlak olduğundan yerini tutacaq kimsə

[411] Sonralar Sultan Məsud əlindən diyar-diyara ayaq döymuş yeni xəlifə ər-Rəşid də isfəhana gedərkən həmin firqənin əlilə ölür.

[412] *Bünyadov Z.M. Azərbaycan Atabəyləri Dövləti /1136-1225-ci illər.s 34 və 35/ Bakı, Pedaqogika, 2004.*

qalmamışdır. Bu üzdən Qara Sunqurun ölümündən sonra sultan Məsudla yanaşı Sunqurun kölgəsində qalan atabəy Şəmsəddin Eldəğiz[413] də bərə çıxmağa başladı. Ş. Eldənizin Azərbaycandaki geniş gücü az bir vaxta parlamağa başladı. Bölgənin və dərbarın ən nüfüzlü şəxsi olan Eldəniz, imperatorluq sınırlarında da təsbit olundu. Beləliklə, Mosul Atabəyləri Dövlətindən sonra Eldəniz başçılığında Azərbaycan Atabəyləri Dövlətidə qurulur (1136).

1152-də Sultan Məsud ölür. İmperatorluqda bir çox boşluq yaranır. Sultanı əvəz edənlər içində hakimiyyət davası bir daha qızışır. O günədək, Səlcuqlu xanlığının sevgisi və sayğısını qazanmış olan əski qul Şəmsəddin Eldənizin birləşdirici gücü imperatorluğun koməyinə gəlir. Vaxtıyla, Qara Sunqurun güc dayrəsinə yaxın düşmək istəməyən, mərkəzin işlərindən qıraq gəzərək özünün Quzeydəki məmlukunun güclənməsinə üstünlük verən, çevrəsini genişləndirməyi hədəfinə alan Ş. Eldənizin meydana gəlmə zamanı çatmışdır. Sultanlara deyil, imperatorluğun bəqasına, Türk (Türkmən) dövlətinin əbədi yaşamasına yönəlik tutumuyla Eldənizin durumu gündən-günə parlamaqdaydı. Sultan Məsud dirikən, 1135-ci ildə sultan 2-ci Toğrulun ölümündən sonra əmisinin dul qadınıyla Eldənizi evləndirir. Yuxarıda da sadalanmış kimi, bilgin və tədbirli Möminə Xatunun uzaqgörənliyi ilə Eldəniz qüdrət davasından uzaq tutulur. Və yalnız Möminə və 2-ci Toğruldan olan şahzadələri özəlliklə Qızıl Arslanın atabəyliyi və geniş Azərbaycanın Quzey işləriylə uğraşırdı. 1160-ci il, Eldəniz üçün böyük başlanqıc ili olur. O, bütün Səlcuqlu əmirlərin istəyilə 20 minlik qoşunla Həmədana girir və öz oğulluğu Qızıl Arslanı sultan elan edir.

Qızıl Arslanın sultan olmasıyla özü də bütün dövlət orqanları tərəfindən Böyük Atabəy adı qazanır. Sultanla adı yanaşı çəkilir. Səlcuqlu jmperatorluğunun içində sürməkdə olan qalma-qallara son qoyur. Yenidən imperatorluq və millət içində dinc yaşam sürülür. Ancaq bu kəz keçmişlərdən daha dəyişik sistem ortaya qoyulmuşdur. Bu dövlət sistemi Atabəyin və vəzirlərinin düşündüyü və yavaş-yavaş imperatorluq yerini alan Atabəylik Dövlət Sistemi idi. Atabəy Eldənizin ən böyük işi sultanın

---

[413] Eldəniz

geniş gücünü bölmək olmuşdu. Sultanlığın yaşaması üçün, sultanın kiçilməsi gərəkir! Fəlsəfəsini irəli sürən Atabəy düşünürdü ki, Sultan sultanlıqda qalsın, dövlətin işlərini vəzifəli şəxslər irəli sürsün. Sultan imperatorluğun ürəyidir. Vəzifəli dövlət adamları isə, onun təkmilləşdirici orqanlarıdır. Hər kəs öz yerində ağırdır. Başqasının yerini yiyələnmək istəyənin yeri cəhənnəmdir. Eldəniz belə iqtidarla hamının gözdəsi olmağı bacardı. 1167-ci ildə Eldənizdən Mosula bir məktub göndərildi. Şəmsəddin Eldənizin məktubuna Mosul Atabəyi, Qütbəddin Mədud Zəngi, yüksək dəyər verdi. İki Atabəyləri dövləti bundan sonra daha da sıx olaraq çiyin-çiyinə bölgənin idarəsinə qeyrət göstərillər. Eldənizin yaşamının Möminə xatının ölümündən sonra yalnız bir ay sürməsi bəlirlənir. O, 1175-11-16 günündə yaşamını itirir. Eldənizdən sonra onun oğlu və torunları 6-atabəylik dövrunu yaşada bildilər. Azərbaycan Atabəyləri Dövləti aşağıdaki kimi sıralanır: 1. Şəmsəddin Eldəniz, 2. Cahan Pəhləvan, 3. Qızıl Arslan Osman. 4. Nüsrəddin Əbu Bəkr. 5. Müzəffərəddin Özbək. 6. Qızıl Arslan Xamuş. 7. Nüsrəddin Əbu Bəkr.[414]

1136-cu ildə Gəncədə təməli atılan, 1225-ci ildə isə, Təbrizdə ömrünü sona verən Azərbaycan Atabəyləri Dövlətinin sürəsi 90-il oldu. Bu 90-illik atabəylik hakimiyyətinin Azərbaycan mərkəzli sistem quruluşunun öyrənilməsi olduqca önəmlidir. Çünkü, zaman-zaman Gəncəni, Nəxcivanı və Təbrizi öz dövlətinin mərkəzi seçən Azərbaycan Atabəylərinin tam bir Azərbaycan Mərkəzli Türk dövlət olması aydıncası görünməkdədir. Bir çox Azərbaycan qaynaqlarında Şah İsmaildən ilk kəz Bütöv Azərbaycan dövlətinin yaradıcısı kimi örnək verilir. Halbuki, Şah İsmailin Osmanlı Sultan Səlimlə olumsuz və böyük anlamda, Şiəçilik üsyanı da adlana bilər, məzhəb savaşına girməsinin sonucu nəyinki bütövlük yaratmadı, həm də Azərbaycanla Türkiyə arasında 250-illik savaş ortamına yol açdı.[415]

---

[414] ola bilsin ki, bu ikinci Əbubəkrdir. Bu haqda kəsin görüş yoxdur. Bu və geniş alanda daha çox bilgi almaq üçün "Azərbaycan Atabəyliləri Dövləti" kitabının 207-ci səhifəsinə baş vura bilərsiniz

[415] Bu dəhşət illəri Osmanlı-İran savaşları adlandırılsa da, Rus-İran savaşları qədər saçma, saxta və yalandır. Tarix boyu heç zaman Rus-İran və Osmanlı-İran dövlətləri arasında savaş üz verməmişdir. Çünkü, 1925-ci ilədək İran adlı bir dövlət yox idi. Bu dövlətin var

Şah İsmailin Şi`ə fanatikləri əlində oyuncağa dönməsi ilə başlayan cəhalət illərində, Təbriz və başqa Türk şəhərləri 20-kəzdən çox Osmanlı qoşunları tərəfindən fəth(!!!)olundu. Bu fəthlərin nəticəsində Azərbaycan öz mərkəzliyini itirdi. Başını Təbrizdən götürüb Farsistana qaçan Səfəvi şahları Azərbaycanın dəyərdən düşməsinə nədən oldular. Təbrizin bir nümrəli şəhər olması məzhəb cəhaləti üzündən tarixə gümüldü.

Sözsüz ki, Azərbaycanın bugünkü duruma düşməsində Osmanlı dövlətinin də Səfəvilər qədər suçu olmuşdur. Bu qonuda söyləmi sonraya buraxıb, yalnız cahil babalıqların bir ulus üzərindəki oynadıqları qara qumara işarə etmək istərdim. Bu qara qumarın yalnız bir uduzan tərəfi olmuşdur. Türkiyə və Azərbaycan Türkləri[416] olmuşdur. Ancaq, sadəcə bu məğlubiyyət deyil, həm də ortada iki dövlət yenilgisi də üzvermişdir. Bu savaşdan sonra hər iki dövlətin güçü azalmağa başlarkən, siyasi iradə baxımdan da geriləmə başvermişdir. Belə ki, Səfəvilərdə Farslaşma, Osmanlılarda isə batılaşma və ərəbiləşmə virusu hər iki Türk sarayını burumuşdur. Həmin sürəcin sonucu isə, iki özgələşmiş və düşmənləşmiş Osmanlı-islami/sünni/ və Səfəvi-islami/şiiə/ ideolojinin yaranmasına səbəb olmuşdur. Qıssası, iki Türk dövlətin içinə sızan qeri Türk siyasətçilərin fitnəsinə uyan Türk sultanlarının qarşı durması nəticəsində Türk ulusu indi də çəkdiyini çəkir. Bu üzdən, bugünkü nəsil üçün şah İsmail daha bir liderlik örnəyi sayıla bilmir. Məncə, Səfəvi dövlətinin qışqırdıcı siyasətindən törənən Osmanlı-Səfəvi savaşlarının Azərbaycana vurduğu ölümcül zərbələrin təməl başlıqlarını belə sıralamaq olar:

1. Azərbaycan mərkəzli Türk Səfəvi dövləti, Farsistan mərkəzli şiiə-Səfəvi dövlətinə çevrildi.

---

oluşu Pəhləvi Panfaşistlərin iş başına gələməsilə gərçəklik qazandı. Bu üzdən, bölgədə üz vermiş bütün savaşların iç tərəfi Türk Azərbaycan sülalə dövlətləri olmuş və bundan da başqa deyildir. Çox yazıqlar olsun ki, hələ bugün də Türkiyənin ən millətçi kəsimi belə, Osmanlı-İran savaşlarından söz açanda böyük zəfərlərdən yad edir. Və bu zəfərləri türklər üçün İran qarşıdlı ulusal fəth elan edirlər. Halbuki, Osmanlı ordusunun qarşı tərəfi hep Azərbaycan türkləri olmuşdur.

[416] Oğuz türkləridə deyilə bilər.

2. Azərbaycan mərkəzli Türk Səfəvi dövlətinin Türk dili Farsistan mərkəzli Fars dilinə döndü.

3. Şah İsmailin şi`əçilik tutumu, başqa yandan isə, sultan Səlimin sünniçilik tutumu əl-ələ verərək milyonlar Türkün Anadoluda və Azərbaycanda qanının tökülməsinə yol açdı. Bu cinayət burda sınırlanmamış Türkiyə-Azərbaycan arasında olan uzun zaman qopuqluğun nədəni oldu.

4. Bu məzhəb nifağından ən çox istifadəni, PanFarsizm əldə etdi. Onlar şi`əçiliyi siyasal qullanış aracına çevirərək, Azərbaycan Türklüyünün ulusal kimlik biçimini içdən sarsıtmağa başladılar. Onlar, hakim Türklüyü sarsıtmaq üçün millətüstü şi`əçilik-irançılıq paneli açdılar. Farslarin bu işdən iki güdümləri varidi. İlk öncə Azərbaycanı Türkiyyədən ayırmaq sonda isə, Səfəvi sarayını Farslaşdırmaq! Farslar hər ikisini bacardılar. Türklər isə, ehtiraslarının əsiri oldular.

5. Şah İsmail Çaldıran yenilgisindən sonra çox yaşayamadı. Ondan sonra, bütöv Azərbaycan dövləti bir yana qalsın, Güneyin də, quzeyində taleyi xırda-xırda xanların əlinə verildi.

6. Çaldıranla başlamış Azərbaycandan Farsistana köç məsələsi, Azərbaycanlı Türkün gələnəyinə çevrilərək bugün də dəvamlı olaraq görünməkdədir. Bu gələnək üzündən asimilasion və elinasion sürəci ulusumuzun başından əksik olmayır.

7. Çaldırandan başlayaraq Osmanlı-Səfəvi, Osmanlı-Əfşar, Osmanlı- Qacar (Əslində Türkiyə-Azərbaycan) savaşları durmaq bilmədi. Rusların da bu gərginliyə atəş qoymasıyla iki yorğun Türk dövlətin ayaqdan düşməsi xızlandı. Rus bu ayaqdan düşmənin ən sevinən tərəfi oldu.

8. Azərbaycanın başına gələn Gülüstan və Türkmançay faciəsinin başlıca nədəni Çaldıran savaşı olmuşdu.

Göründüyü kimi, keçmişin törəddigi bütün acılar bugün də yaşamaqdadır. İstər xoşumuza gəlsin, İstərsə gəlməsin! Gərçəkçi olaraq gələcək üçün düzgün örnəklər axtarışında olmalıyıq. Bugünümüz də dünənimiz kimi axır gedir. Tariximizin bütün yeniş-yoxuşları bizimdir. Duyğu hesabına tariximizə yanaşarsaq yalnız və yalnız körüklənmiş[417] qəhrəmanlarla baş-başa qalacayıq. Belə baxış bizi xəyal dünyasına götürəcəkdir. Xəyalçı zehniyyətlə dünyamızın gərçək durumunu öyrənməkdən aciz qalacayıq. Zehnimiz manqortlaşaraq aydınlıq sürəci yaşaya bilməyəcəyik. Özgür olmaq üçün, öncə düşüncənin xəyal dünyasından azad olunması gərəkir. Bu üzdən gərçəkçi olma gərəyimiz qaçınılmazdır.

Son illərdə Mafia qurbanı olan Azərbaycanın böyük tarixçı bilgini Akademik Z. Bünyadovun Azərbaycan Atabəyləri Dövləti əsəri Azərbaycan Türklüyü üzərində yeni tarix baxış açısı ortaya qoymuşdur. Bu əsərin ən böyük verisi[418] 11 və 12-ci yüzilliklərdə oluşan Azərbaycan Mərkəzli Türk dövlət sistemilə yanı-sıra bölgədəki dəngə[419] stratejisidir. Eyni halda bu kitab həm də Azərbaycanla, İraq Türklərinin ilişgisinə aydınlıq gətirməkdədir. Amma nədənsə Anadolu Səlcuqluları haqqında geniş bilgi verilməməkdədir. İnanıram ki, bu bölümün daha çox araşdırılmasıyla Azərbaycan Milli Hərəkatı qarşısında yeni üfüqlərin açılmasına tanıq olacayıq. Yetər ki, tariximizin bütün boyudlarını mənimsəyək. Tariximizdən qazanacaq çoxlu örnəklər vardır.

**26. Sonucun üzərində dayanarkən bir daha (21 Azər) dərsləri gözümün önünü kəsir.**

"Güney Azərbaycan Milli Hakimiyyəti"nin (1945-46) yeniş-yoxuşları biran olsun belə bizi özündən ayırmayır. Bu üzdən bir daha Firqəyə dönməyi və bununla da sonuca varmağı məqsədə uyğun buldum. Kitabın böyük bir bölümündə Firqənin tarixi üzərində incəmələr aparılmışdır. Bu bölümdə bir çox düşüncə əsaslarına dayanaraq Firqənin

---

[417] şişitmiş
[418] statisi,
[419] təraz

uzantı sürəcini öyrənməyə çalışacayıq. Açıq, qorxmaz, düzgün gələcək qurmaq üçün, eyni şəkidə də açıq, qorxmaz, düzgün olmaq gərəkir. Yalnız, belə olan durumda ulusumuzun yatmış bilincaltı mənliyi dərin yuxudan ayıla bilər. Çağdaş tarıxiımizin bənzər olaylarında ən acı çəkən millətimiz olmuşdur. Olayların bitim getirdiyində, yerdə qalan dərin matəm, usanmaq, utanmaq olubdur. 21-azər, bu öznəlliyk və nəsnəlligin ən açıq örnəyidir. Sözsüz ki, bu hərəkata fanatikcə baxanlarla gərçəkliyi paylaşmaq çox çətindir. Lakin, bir milləti qoyub da, beş-on fanatla uğraşmaq bizim işimiz deyildir. Azərbaycan Milli Hakimiyyət 6-ay oldu.[420] İkinci altı ayı daha çox Tehranın muxtar dövləti kimi əlindən gələni əsir gəmədi. Bu 6-ayda Fars rejiminin 20-illik görmədiyi işləri icra edə bildi. Firqənin bu altı ayda verdiyi xidməti azdan-çoxdan ilgilənənlər bilirlər. Belə görünür ki, Farsçı rejim 20 il buyunca yalnız Azərbaycanı viran qoymuşdur. Yə`ni, Rza şahın Türk Qacar hakimiyyətinə qarşı nifrətinin təcəlli edici yeri Azərbaycan olmuşdur. B`əzi kövrək soydaşlarımıza görə, Rza şahın bu düşmənçiliyi anlamsız idi. Bu söydaşlarımıza demək gərəkir ki, Rza şah döğru yol seçmişdir. O, bizim ata-babalarımızın necə öz millətini buraxıb başqa millətin xidmətçisi olduğunu görür və əgər iş başına gələrsə necə millətini sevə bilər yollarını öyrənirdi. Rza şah Firdosunun zehniyyətinin eyniyyətidi. Əgər biz bunu görmək istəmiriksə, öz işimizdir. Bütün millətlərin qalxışı belədir. Bu haqda, bütün tarixi tanıq tutur və bizim kimiləri faşist dərəcəsilə damğalayanlara da demək istəyirəm ki, bizim də fatih atalarımız daxil bütün dünya fatihləri də façist olmuşdurlar. Bir çox bəlgələrə görə 30-min, bəzilərinə görə daha çox soydaşımız, Azərbaycan Milli Hakimiyyətinin yenilməsilə ölmüş, 100-minlərcə Rusiyanın Sibirlərindən tutmuş İran adlanan coğrafiyanın Bəndər Əbbasınadək sürgün düşmüşdur. Minlərcə

[420] Rus ordusunun Güneydən çəkilməsilə Tehranın Təbrizə olan hərbi-siyasi basqısı artmağa başladı. Qəvamın Stalindən aldığı arxayınlığı və ortada olan anlaşmanın ardından Firqə çarəsiz qalaraq başnazirlik hakimiyyət sistemini buraxıb, Valilik tabeçiliyini qəbul etdi. Beləliklə Pişəvərinin başbaxanlıqdan uzaqlaşması ilə Qəvamın duzağına duşmuş Dr. Cavid Tehran tərəfindən Təbrizə vali olaraq göndərildi. Hərgah, Pişəvəri tərəfindən Tehrana göndərilən Şəbüstəri və Cavid Təbrizə dönərkən xəyanət suçuyla məhkəməyə verilseydi. AMH-in gərçək ömrünü 1-illik hesab etmək mümkün idi. Ancaq, bu hadisə yerinə, Cavidin düşmən tərəfində Azərbaycana vali seçılməsini Pişəvəri başda olmaqla Firqə rəbərliyi qəbul etdi. Bu isə, Azərbaycanın Milli Hakimiyyətinin 6-aylıq ömrünün sonu demək idi.

qadın, qız Fars quldurlarının cinsəl təcavuzuna uğramışdır v.b. Demək, Azərbaycanda bir milli hərəkət daha yenilmişdir. Bir daha, milyonlar insan yas və matəm köynəyi girmişdir. Milyonlar insan bir daha qorxunc alçadıcılıq kompleksinə tuşlanmışdır. Və biz, illərdir bu yenilgənin suçunu düşmənlər üzərinə itələməyə çalışırıq. “yox biz düzüdük, düşmən əyri çıxdı. Biz haqırdıq, düşmən haqsız idi. Cəllad düşmən bizim haqlı səsimizi boğdu. Biz ki İrandan ayrılmaq istəmədik, biz yalnız öz dilimizi(ana dilimizi!!) istədik. Yox, Amerika Rusiyanı atom bombasıyla hədələdi. Milli hakimiyyət Azərbaycanın azadlıq boyutunu İranın başqa yerlərinə də daşımaq istədi. Ruslar son anda İranı tərk etməyə məcbur qaldılar. Qəvam Stalini aldatdı. Şəhidlərin qanı yerdə qalmayacaq. Təcziyə sözləri indi olduğu kimi o zamanda düşmən sözüdür. və və və...

21 azər, bizim tariximizdir. Biz tariximizə fanatikcə yanaşmaqla gələcəyi yalnız kor edə bilərik. İllərdir bu t`əziyələrlə aydınlıq çevrəmizi daraltmağa çalışırlar. İllərdir millətimizi Yezidlər qarşısında Hüseynlərşdirməyə çalışırlar. İllərdir Fiqəni içdən yıpradan Türkçülüyə əngəl olan nədənlərdən milləti xəbərsiz saxlamağa çalışırlar. Firqənin bütün bəlgələrində nədən bir Türk sözü yoxdur! Firqənin sınır dışı ilişgilərində nədən Rusiya və Azərbaycan Kommünist partilərindən başqa heç bir faktor ortada yoxdur? vardırsa da mütləq Moskvanın bilgiləridir. Ruslar çəkiləndən sonra nədən Milli Ordu bir gecədə bitmiş duruma düşdü? Bu kimi minlər nədənin ort-basdır etməsində heyranların böyük rolu vardır. Bu sətirləri oxuyan heyranların gözündə yazarın xayin və ya cahil olması qçırılmadır! Bu soruların yanıtı bugün Güneyin küçələrində millətimizin ağızından çıxan “Haray, haray mən Türkəm! Təbriz-Bakı-Ankara, Türk hara, Farslar hara!” ulusal yönlü fəlsəfə ilə bəlli olur. Əlbətdə ki, 21-azər fanatlarının bu şüarlardan xoşları gəlməyə bilər. Ancaq, anında-sonunda bu selin qarşısında duracaq halları qalmayacaqdır. Azərbaycan Milli Hərəkatının özülünü oluşduran ən kəsgin döyüş fəlsəfəsi Türkçülükdür. Hər kəs bunu qəbul etmək zorundadır. Azərbaycanın çağdaşlığı kimi, demokratikləşməsi də bu yoldan gedir. Azərbaycan Türkçülük davası yolunda mücadiləçi ünvanı daşıyan hər qurum-quruluş öncə bu millətin ulusal dəyərlərini heçə sayan yolsuzluqlara son verməlidir. Bu Türkçülük əxlağının vaz keçirilməz şərtidir. Keçmiş

metodlarla həmişə yenilgi içində inləmiş olan bir ulusun son dirçəliş şansını əlindən almaq və ya onu ölü metodlara qurban vermə çabası cinayətdir. Heç düşündükmi nədən Azərbaycan Milli Hərəkatı 8-ci yüzilliyin Baybak-nı simvolik lider kimi qəbul etmiş, amma yaxın 50-ilin Pişəvərisini bütün sevimli simasilə qəbul etməkdə zorluq çəkir? Və ya, xiyabanını və Səttarxanı? Çünkü, bu sevimli atalarımızın heç biri dərinlərdə hərəkət edən ulusçu-qurtuluşçu çağdaş Azərbaycan Türkçü qalxışına aydın mesajlar buraxa bilməmişlər! Fanatik solçu 21- azərçilərin bu haqda da yanaşmaları yalnışdır. Onlara görə, düşmən hərəkatımızı baykot etmişdir. Ona bütün alanlarına ambarqu [421] qoymuşdur! Bir tərəfdən düşmən deyilir, başqa yandan isə, düşməndən imdad istənilir! Y`əni, düşmənin təyinlik dərəcəsi bizimlə deyil, düşmən insiativinə bağlıdır! Məsələn əgər Şah dövləti ana dilimizin azadlığını təsdiq etseydi, artıq bizimlə dost olacaq idi!!! Sözsüz ki, belə məntiqlə yola çıxmaq da olar. Ancaq bu ulusal yöntəm deyildir. Ulusal yöntəmin amacında birəydən tutmuş bütün haqların eşidliyi dayanır. Bunun isə adı ÖZGÜRLÜKDÜR, BAĞIMSIZLIQDIR. Yalnız bu iki təməl ilkənin altında BARIŞ yaşanar! Nə yazıq ki, kosmopolçuluq baxışıyla ulusallığa baxan zaman bu üfüqü görmək mümkün deyildir. Firqənin milli soruna solçu düşüncə açısından yanaşmanın da öznəlində belə bir xəta yatmaqda idi. Və bu qədər böyük dəyişikliklərə baxmayaraq bugün də Firqənin bu baxış açısı öz yolunu sürməkdədir. Azərbaycan qəzetəsinin yaxın illərdəki tarix baxışına göz atalım. Qəzetədəki "Azərbaycan Demokrat Firqəsinin Hezbe Tudeye İranla birləşməsi və faaliyyəti" adlı yazıda belə gəlir: " İranın Şahlıq rejimi bütün ölkənin istiqlalı, orada yaşayan xalqların mənafeini və inqilabi mübarizənin güclənməsi əleyhinə daxildə irticaçı qüvvələri birləşdirmklə xariçi imperialistlərlə sazişə girirdi. Dünyanın inqilabi təcrübəsi göstərmişdir ki, hər bir ölkənin inqilabi qüvvələri irtica birliyinə qarşı birləşməlidir..." "Buna görə də irticanın zəhmətkeşlərə qarşı həyata keçirdiyi istismarı, zülm və qarətləri aradan qaldırmaq məqsədilə ölkənin inqilabi qüvvələrinin birliyi zərürəti meydana gəlmişdir. Həmin zərürət nəticəsində Azərbaycan Demokrat Firqəsilə Hezb Tüde İranın

[421] önkəsmə, təhrim

birləşməsi və vahid cəbhədən Şahlıq rejiminə qarşı mübarizə aparılması qarşıya qoyuldu.[422]

Fiqənin Pişəvəri şəhadətindən sonraki iç savaşlarının əsas başlığı Marksist vəya Ulusall olması idi. Pişəvərinin ən böyük diləyi bir daha Təbrizə dönüb əldə etdiyi millət təcrübələrinə dayanaraq istiqlal savaşı yola salması idi. Əlbətdə ki, bu yolda Bakıda olan fikirdaşları da var idi. Mir Qasım Çeşmazər onlardan birisiydi. Pişəvəridən sonra Firqənin başçısı seçilən Mir Qasım rəhmətlik Pişəvərinin yolunu dəvam vermək istəyirdi. Ancaq Sovet-İran dostluğu buna izin verməyirdi. Sovetə görə, Azərbaycan dosiyası artıq qapanmışdır və Firqənin də keçmiş tezistlər üzərində çalışma meydanına ehtiyac qalmamışdır. Bu üzdən bu firqənin İran Tudə Partiyası içində sürtülüb əriməsi gərəkirdi. Çeşmazər KQB və ilgili orqanların bu istəklərinə qarşı idi. 1954-cü ildə KQB-nin istəyi üzərində Tudə partısı tərəfindən Firqəyə birləşmək önərisi gəldi. Əslində bu birləşmə metodu deyildi, birləşdirmə əmri idi. Bu haqda müzakirələrin gedişi haqda Çeşmazərə imza atma basqısı yapıldı. O, bu imzanı atarkən basqıya uğradığına qarşı çıxdı. Tudə və KQB tərəfindən daha bir uyğun kişinin bu işi davam edəcəyi önə çıxınca Çeşmazərin yerinə Qulam Yəhya Daneşiyan atıldı. 1960-ci ildə Moskvada toplanan Vəhdət Konfransında Azərbaycan Demokrat Firqəsi Marksist-Leninist dünya görüşünü qəbul edərək rəsmi "Hizbe Tudeye İranın Azərbaycan Əyalət Şöbəsi-Azərbaycan Demokrat Firqəsi" adı altında faaliyyət göstərdi. Yalnız Sovetin dağılmasıyla və Hizbin Sovetin marağı dayrəsindən azad olmasıyla Firqə yeni platform qəbul etməyə cəsarətləndi. Bu bəlli bir tarix bəlgəsidir. Bunuələşdirmək niyyətində də deyiləm. Yalnız maraqlı olan budur ki, Firqəni ömürlük öz adına bağlayan cənab Lahruti timi, bu əxlaqsal çöküşü, 45-ildən sonra Güney Azərbaycan adına böyük bir qələbə kimi dəyərləndirir. Əgər Tudə Partısına üyə olmaq böyük fəxr və qivanc sayılırdı nədən Pişəvəri çox böyük qururla bu partiyaya üyə olmadığını və Firqənində bu partilə ilişgisi olmadığını uca səslə deyirdi. Demək, bu təcrübənidə heç zaman f`elə gəlməyən təcrübələrimizə artırmalıyıq. Sözsüz ki, ikinci dünya savaşı çağında ADF-nin liderliyi ilə yaranmış milli

---

[422] *("Azərbaycan", Azərbaycan Demokrat Firqəsinin rəsmi orqanı,beşinci dövr, N.22, 1385-12-01(2006). Bakı.)*

hökümətimizin ideolojik dayağı yalnız Azərbaycançılıq təməlində idi. 1940-ci ildən daha da aydıncasına ortada görunən Milli-azadlıq hərəkatı, istər Azərbaycan Cəmiyyəti adı altında, istər Müstəqil Azərbaycan fəhlə hərəkatı ilə, istərsə də ADF simasında, özundən öncəki hərəkatlardan fərqli olaraq daha aydın və daha milli mahiyyəti olan hədəf güdümlü sosial-siyasal sürəc idi. Bir illik Azərbaycan milli hərəkatı – altı aylıq iradəli və irəliləyici, altı aylıq iradəsiz və geriləyici – Güney Azərbaycan dövlətçiliyi yolunda atılan ən ciddi və danılmaz addim idi. Özəlliklə 1-ci altı ayı, millətimiz üçün çağdaşlıq və öncüllük gətirən aylar sayıla bilər. Nə yazıq ki, bu hərəkatın ortaya qoyduğu Azərbaycançılıq ideolojisi yetərsiz yöntəmilə nəyinki kütlənin öznəl ulusal kimlik biçimini əks etdirməkdə başarısız oldu, həm də millətimizin var oluşunda böyük çaş-başlıq və inanılmaz anlaşılmazlıqlara yol açdı. Beləki, millət özünü Türk bildiyi halda Firqənin təlimlərində bir kələmə belə Türk sözünə rast gələ bilməyirdi. Liderlik, onun kimliyini Azərbaycanlı, toplumu isə, Azərbaycan Xalqı adlandırırdı. M.C. Pişəvərinin anti Müsavatçı və antiTürkçülük zehniyyətilə yanaşı Stalinizmin də şiddətli antiTürk ideolojik tutumu əl-ələ verərək firqənin dünya görüşündə dərin milli ideya boşluğu yaratmışdır. Bu üzdən ADF öz Azərbaycançılıq davasında Azərbaycan kimliyini təsdiqləndirən Türklük əsalətindən uzaq qalaraq öz əxlaqsal dayağını itirmiş idi. Sözsüz ki, Azərbaycan davası mahiyyətcə Türklük davasıdır. Və Azərbaycançılıq davranışı da bir Türk davranışı olaraq özünü göstərməlidir. Bu və bu kimi nədənlərə görə, hərgah Azərbaycan davası öz kökünə - Türklüyünə - bağlanmasa milli şuurdan silkənib, yalnız bir siyasal dava olaraq netləşəcəkdir. Elə buna görə də, əxlaqsal fəlsəfəsini itirmiş olacaqdır. Belə olan durumda Azərbaycan davası ilk başdan milli mahiyyətcə yetərsiz, kəsərsiz və "eyvay neyləyim" başarısızlığı ilə qarşı-qarşıya qalacaqdır. ADF bir illik hakimiyyətində bu ssenariyonu an-ba-an yaşadı və Azərbaycan Türk millətinə yaşatdı.

Milləti, yalnız Azərbaycanlı və Azərbaycanı İranın bir parçası kimi tanımlamaq son 100-ildəki Güney hərəkətlərinin ortaq nöqtəsi olmuşdur. Bu, ayaqlanmalar, bilər-bilməz Azərbaycan davasını özümlülükdən salmış, düşüncə yöntəmini özlüyündən uzaqlaşdırmışdır. Ən kötüsü isə,

düşmənin  Farsçı ulusal kimliyi qarşısında Türk millətinin etnik silahını əlidən almışdır.

Artıq, AtaTürkün "Millət dil, kültür və ideal birligi ilə bir-birinə bağlı vətəndaşların oluşturduğu siyasi və ictimai hey`ətdir" anlamıyla "NƏ MUTLU TÜRKƏM DİYƏNƏ" ideyası Güneyın milli qurtuluş ruhuna ölümsüzlük[423] güçü verməkdədir. Demək, çağdaş Azərbaycan davasında öz keçmişindən alacaq dərsini almışdır. İndi, Azərbaycan milli qurtuluş hərəkatı nə obyektiv və nə subyektiv baxımdan kimsələrə bağlı deyildir. Bu üzdən çağdaş Azərbaycan hərəkatının İran yönlü vəli nemətlərdən gələn məktublardan qorxusu yoxdur. Çünkü, yalnız öz ruhuna, gələcəyini quracaq gücünə Türk kimliyinə, özgür ideyalına –Türk ülkülərinə – bağlıdır.

Sayca 50- milyon üzərində olan Azərbaycan Türklüyünün gənc öndərliyi illər öncə AtaTürkün "Nə mutlu Türküm diyene" ışığını "Haray haray, mən Türkəm" bağırtısıyla yanıtlayır. Təbrizin, Urmunun, Ərdəbilin, Qoşaçayın, Sulduzun və milyonlarca Güneyli Türkün bağrından qopan bu qurtuluş harayının əks-sədası Bakıda, Stanbulda, Ankarada, İzmirdə, Otavada, Vanqoverdə, Berlində, Köldə, uzaq Avustrilyada, Vaşingtonda, Stokholmda və 100-lərcə yerlədən gəlir. Boyləsə, bu millət öz yolunu bulmuşdur. Ortaya bir ulus əxlağı çıxmışdır. Çəntəsində mincə illər uyğarlığı bəsləyən, bəşəriyyətin ən ilkin beşiyi olan, dünyanın ilk sivilizatoru bir ulus ortaya çıxmışdır. Bundan gözəl nə ola bilər ki!? Nədən bəzi soydaşlarımız keçmişin qulçuluğundan əl üzməyi, "ulusum özümləşdı, mən də bağımsızlaşım, ideolojik qulluqdan sərbəst olum, dəyişim!" əxlağına yiyələnməyi düşünə bilmirlər. Olmaya hələ də, "cahil işçi, işçi qatına[424] bağlı deyil!" düşüncə bulanığından qurtula bilməyirlər. Belə olarsa, yuxarıdaki, baxış açısıyla Türk gəncliyinin Güney ayaqlanması da belə tərif olunmalıdır: "Türkəm diyən millət, aydın xalq deyildir. Çünkü, nə Marks, nə Lenin, nə Mao bunu söyləməmişlər"!!! Güneyin Türkçülük Hərəkatının dəyişməz bir əxlaq fəlsəfəsi də Bütövçülükdür. Azərbaycanın yenidən bir bütöv olması dartışılmaz gərçəkdir. Bugün ideyadırsa, yarın bir dövlət varlığıdır. Bütövlüksüz

[423] əbədi, cavidan, sarsılmaz
[424] təbəqə

Türkçülük, Türkçülüksüz də Bütövlük olmaz. Öncə Azərbaycan Bütövlüyü, sonra Türk Bütövlüyü! Bugün buna ağız əyənlər olacaqdır. Otopia [425] sayanlar olacaqdır. Sağ zehniyyətidir diyənlər olacaqdır. PanTürkizm və bozqurdlardılar diyənlər olacaqdır. Yabancılara bağlı casuslar makası vuranlar olacaqdır. Ancaq bir Türkçü bunlara dəyər vermədən qutsal yolunu sürdürməli, amacına doğru irəliləməlidir. Amac Güney Dövlətçiliyidir. Nə az, nə çox!

**Son**

[425] xəyal, xulya

# YAZIN VƏ İLGİLİ QAYNAQLAR


1. 12- əsr sükut, N.Purpirar. Türkçəyə tərcümə Güntay Cavanşir

2. 12- Şəhrivər Kitabı (ADF-sinin Güney Azərbaycan otonomisilə bağlı 12 maddəlik bəyaniyyəsi/

3. 12 yüzil səssizlik,1-ci kitab,Farsca /12 qarn sukut/,N.Purpirar/Naser Pourpirar.

4. 21-azər" Nitqlər və Məqalələr. ADF. Nəşriyyatı.

5. 500-illik Sumer-Türkmən bağları, Türkce, Bəymurad Gerev/Begmırat Gerey/.

6. ADF-nin qalxış və çöküşünə baxış/Morouri bər zuhur va sukute Ferqe Demokrate Azerbaijan /Farsca, Əkrəm Rəhimli.

7. AtaTürk'ün söylev ve demeçleri, Türkce,Nimet Unan, Türk inkılap tarihi enstitüsü yayınları,

8. Azərbaycan Atabəyləri Dövləti, Türkcə,Akademik Ziya Bünyadov.

9. Azərbaycan Dilinin Ortoqrafiyası, Türkcə, Azərbaycan Milli Elmlər Akademiyası

10. Azərbaycan Ədəbiyyatı tarixi. Türkcə, Əlyar Səfərli-Xəlil Yüsufl.

11. Azərbaycan ən əski çağlardan bu günə,( Farsca), Dr.İnayətüllah za.

12. Azərbaycan qazeti, Türkcə,ADF-nin rəsmi orqanı.

13. Azərbaycan Qəzeti, Türkcə. 2.ci sayı.

14. Azərbaycan Qiamı və Səttarxan,/Qiam-e Azerbaijan va Sattarkhan/Farsca, İsmayil Əmirxizi.

15. Azərbaycan Qurtuluş Təşkilatı. Türkcü, Məramnamə, Təbriz, 1992

16. Azərbaycan tarixi, Azərbaycan Milli Elmlər Akademiyası ,tarix bölməsi

17. Azərbaycan tarixi, Azərbaycan Milli Elmlər Akademiyası, Tarix inistitotu, 1-ci cild,

18. Azərbaycan, Azərbaycan. Türkcə,S.Vurğun,

19. Azərbaycanın 18-illik tarixi,Farsca/Tarikh-e 18 sale-e İran/ Əhməd Kəsrəvi.

20. Bütöv Azərbaycan Birliyinin Məramnaməsi,Türkcə, BAB

21. Bütöv Azərbaycan Yolunda,Türkcə, Ə.Elçibəy.

22. Çağdaş Azərbaycan dərgisi,Türkcə.

23. Çağdaş İranda “Azərbaycan”, /Azerbaycan Dər İrane Muaser/ Farsca, Turəc Ətabəki/Turaj Atabaki/.

24. Dədə Qorqod Dəstanları, Türkcə, Rəsul İsmayilzade Duzal.

25. Dədə Qorqod kitabı, /Kitabi Dədə Qorqod,Türkcə.

26. Dədə Qorqod kitabı, /Kitabi Dədə Qorqod,Türkmence

27. Dədəmin Kitabı, Türkcə, B. Səhənd. Red...Prof. M. Ə. Fərzanə.

28. Dəvam edir 37, Türkcə, Xəlil Rza UluTürk

29. Deyirdimki bu quruluş dağılacaq, Türkcə, Əbülfəz Elçibəy.

30. Dil və Ədəbiyat, Türkcə, Əli Təbrizli.

31. Dünyanın Tacı Türklər. Türkcə, Aydın Mədətoglu.

32. Elçibəy 70, Türkcə.Mir Cəlal Yusifli.

33. Elçibəyin Bütöv Azərbaycan Düşüncələri. Türkcə .Ədalət Tahirzadə

34. Əsrimizin Səyavuşu,Türkcə, M.Ə. Rəsulzadə.

35. Ettelaate siyasi-iqtisadi, il 1996, Devid Epter,Aydınlıq ənənəsi,

36. Füzulinin Divanı, əski ilifbada, Fəxrazər Nəşriyyati, Təbriz,1992

37. Gücün İradəsi,/İrade-e qodret/Farsca, Fredriş Niçe/Fredrich Niche/

38. Güney Azərbaycan (kitabı). Ş. Tağizadə, Ə.Rəhimli, S.Bayramzadə.

39. Güney Azərbaycanda Milli-demokratik Hərəkat. Ə. Rəhimli.

40. Güney Azərbaycan : Tarixi, Siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu), Türkcə,Hazırlayan Prof. Vaqif Sultanlı.

41. Heydər Əliyev və Azərbaycan Məfkurəsi, Türkçə.Prof. Səlahəddin Xəlilov.

42. Hüquqi senedler toplusu,Türkce, internet qaynaqları: www.azerblaq.az/

43. İran Coğrafyasında Türkler. Dr.Ali Kafkasyalı

44. İran mətbuatı və jurnalistikasının tarixi/Tarikhe matbuaat va majallate İran/Farsca, Məhəmməd Sədr Haşimi,/Mohammad Sadr-e Hashemi/.

45. İran Türkleri Hürriyet Hareketleri, Türkce, Mehmet Metin Ören

46. İran Türklərinin Əski tarixi, Türkcə, Prof. M.T.Zehtabi

47. İran Xalq Mücahidləri Təşkilatı, sənədlər, Kürdüstan üçün otonomi planı.farca.

48. İskəndərmanə.Türkcə. Gəncəvi Nizami

49. İslama qədər İran Türklərinin dili və ədəbiyyatı, Türkcə, Prof. M.T. Zehtabi

50. Kar dərgisi/İŞ/nəşriyəsinin 25 may 2006,Farsca, İran Fədayi Təşkilatı

51. Kızılelma, Türkce, Hüseyn Nahal Atsız,

52. Makaleler-1- Türkce, Hüseyn Nahal Atsız.

53. Məmməd Əmin Rəsulzadə,Türkcə, Dr. Nəsiman Yəqublu.

54. Mən ilə mən arasında" Türkcə, Dr. H.Süleymanoğlu.

55. Mən Qurtuluşçuyam,Türkcə, Əbülfəz Elçibəy.

56. Milli Dövlətçilik Məfkurəsi və Layiqlik,Türkcə, Aydın Abbasov

57. Mirzə Əli Mö`cuz. Şeirləri,Türkcə, Bakı,Oskar

58. Mustafa Kemal AtaTürk: Ataturke-ait-soz-soyleyi,Türkce, internet qaynaqları: www.1915turk.net

59. Müsəlman Türk dünyasi ədəbi örnəkləri. H.Şərqi/SoyTürk/

60. Müxtəsər Azərbaycan Tarixi, Türkcə, Arazoğlu,

61. Num Kitabı"ndan, Türkcə, Dr. H.Süleymanoğlu.

62. Organization for Security and Co-operation in Europe, OSCE/ http://az.wikipedia.org/wiki/AT%C6%8FT

63. Osmanlı İmperatorluğu və Yeni Türkiyə Tarixi.(Farsca tərcümə)// Stanford C. Şav/Stanford J. Shaw/

64. PanTürkizm, Cakup. M. Landau, /Jacop. M. Landau /Farsca.

65. PanTürkizm, Cakup. M. Landau, /Jacop. M. Landau/Türkce.

66. Qanunların Ruhu Üzərinə, Şarl Lui Monteskiyo /Charles-Louis Montesquieu

67. Qədim Şərq Ədəbiyyatı tarixi.Türkcə, Prof. Cəlil Nağiyev.

68. Qədim Şərq Tarixi.Türkcə,Yusif yusifov

69. Qozəşte çerağe rahe ayənde ast./"Geçmiş gələcəyin çırağıdır"/yazarla qrupu.

70. Qurtuluş və Bütövlük yolu, /Elçibəylə 6 söhbət/ Türkcə,Ədalət Tahirzadə,

71. Sazımın sözü. Türkcə, Bulud Qaracorlu Səhənd

72. Şəhriyar,/De prince/Farsca tərcümə, Nikolo Makiyavelli,/ Niccolò Machiavelli /

73. Şəms Təbriz qəzeti,Türkcə,Farsca, Təbriz, baş yazar : Hamid İman.

74. Şəriətmədari kimdir.Türkcəməqalə - Məmməd Ərğəvan.

75. Şəriətmədariçilərin dirçəlişi və Azərbaycan/ Farsca. Azerbaycan və conbeşe tərəfdarane Şəriyətmədari/. Maşallah Rəzmi.

76. Səttarxan. Farsca, Pənahi Maküyi

77. Siyasal düşüncə tarixi, Farsca tərcümə,/Tarikh-e agayede siyasi/. Son Erik Lidman.

78. Siyasal qapsamlar/Fərhəng-e Siyasi/,Farca. Qulamreza Əlibabayi/Qolamreza Alibabaii/.

79. Siyasal Sistemler, Türkce. Yaşar Gürbüz.

~~80.~~ Siyasi fəlsəfə,/Fəlsəfe-e siyasi/Farsca.Antoni Kuinton/Anthony Quinton/.

81. Soyuq Müharibənin başlandığı yer – Güney Azərbaycan.Türkce, Fro.Dr Cəmil Həsənli.

82. Soyuq savaş və İran,/Jange Sard va İran/Farsca, Lois Favset.

83. Tanıtım qəzeti, Türkce,Bakı,1998

84. Tarihten Güncelliğe Ermeni Sorunu, Belgeler, kararlar. Türkce, Arsalan kılıc… İstanbul.

85. Tarix sürəcində ”Araz”,Farsca /Aras dər gozargah-e tarikh/ Mohəmməd Hafezzade.

86. Təbriz birincilər şəhəri,/Təbriz şəhre əvvəlinha/Farsca, Dr. S. sərdariniya.

87. Təməddün Tarixi,(Məntiq çağının başlanğıcı, Napelion çağı)/Tarikh-e təməddon/ Farsca tərcümə, Vil Dorant, Ariel Dorant ,/Will Dorant,Ariel dorant/.

88. Tənbəkı ayaqlanmasında,Təbriz,/Təbriz dər Nehzəte tanbaku/Farsca. Dr. S. Sərdariniya.

89. Toplum anlaşmaları, Jan Jak Russo / Jean-Jacques Rousseau

90. tr.wikipedia.org/wiki/Osmanlı-İran_Savaşları.(internet qaynaqları)Türkce.

91. Türk kimliği, Kültür Tarihinin kaynakları, Türkce, Bozkurt Güvenç,

92. Türkçülüyün əsasları, Türkcə. Ziya Gökalp

93. Türklərin tarix və fərhənginə bir baxış, Türkcə, Frop. Cavad. Heyət

94. Türkün Qızıl Kitabı. Rafik Özdek

95. Türkü divanı külliyyatı, M.H.Şəhriyar,

96. Uluyurdun aqibəti, bütöv Azərbaycan, Türkcə, Asif Ata.

97. Varlıq dərgisi,Türkcə-Farsca. Qurucu prof. C.Heyət.

98. Wikipediya-Açıq Ensiklopediya, İnternet tarix kadeqorisi)/internet qaynaqları/

99. www.az.wikipedia.org/ \\internet qaynaqları,

www.sozumuz.blogspot.com/ Mehran Baharlının çalışmasıyla, /internet qaynaqları/.

100.Üç Mədəniyyət,Türkcə.Əhməd Ağaoğlu.Red.: Prif. Vaqif Sultanli.

101.Üç Tarz-i Siyaset, Türkce, Yusuf Akçura

102.Yeni Türkiyə və Osmanli İmperatorluğunun Tarixi.Stanford.J.Şav, Farscaya təcümə.

103.Ömür Kitabı, Türkcə, Sabir Rüstəmxanlı.